**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# QƏRBİ AZƏRBAYCAN FOLKLORU

## VII CİLD

**BAKI – 2026**

AMEA Folklor İnstitutu Elmi Şurasının 16 mart 2026-cı il tarixli qərarı ilə (protokol № 5) nəşr olunur.

**LAYİHƏ RƏHBƏRİ:** **Hikmət QULİYEV**
**filologiya elmləri doktoru**

**TOPLAYIB TƏRTİB EDƏN,**
**ÖN SÖZÜN MÜƏLLİFİ:** **İlkin RÜSTƏMZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru**

**ELMİ REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**
**filologiya üzrə fəlsəfə doktoru**

**Qərbi Azərbaycan folkloru, VII cild.** Bakı: "Turan Advertising" MMC, 2026, 432 s.

ISBN 978-9952-601-18-3

Kitabda Şəmkir və Ağstafa rayonlarında məskunlaşımış Qərbi Azərbaycan sakinlərindən toplanmış folklor örnəkləri verilmişdir. Regionun etnik-mədəni həyatının aydın mənzərəsini yaradan həmin örnəklər 2025-2026-cı illərdə bölgəyə təşkil olunmuş folklor ezamiyyələri zamanı toplanmışdır.

© Folklor İnstitutu, 2026
© İlkin Rüstəmzadə, 2026

# ÖN SÖZ

Qərbi Azərbaycan folkloru seriyasından hazırlanan bu kitaba Şəmkir və Ağstafa rayonlarında məskunlaşmış Qərbi azərbaycanlılardan toplanmış folklor örnəkləri daxil edilmişdir. Qərbi azərbaycanlıların bölgədə məskunlaşması keçən əsrin əvvəllərindən başlayır. Sahədən əldə etdiyimiz məlumata görə, bölgəyə ilk köçlər 1918-ci ilə təsadüf edir. Əliyaqublu kənd sakini Nəcəf Nağıyevin atasıgil 1918-ci il qırğınları zamanı Şəmkirə pənah gətiriblər. Nəcəf kişinin atası Amasiya rayonunun Güllücə kəndindən idi. İlk dəfə 1905-ci il hadisələri zamanı Güllücə sakinləri ilə birlikdə bölgəni tərk etmək məcburiyyətində qalmış və Türkiyə ərazisinə keçmişdir. 1918-1919-cu illərdə bölgəni tərk edəndə isə ermənilərin əlinə keçməməsi üçün barxanalarını, taxıllarını quyulara töküb, mal-qaranı götürüb oradan çıxmışdır. Amma yolda ermənilər onların qarşısını kəsmiş, mal-qaranı, patavanın içində gizlətdikləri pulları əllərindən alıb, özlərini də döyüb yola salmışlar. Şəmkir rayonu Əliyaqublu kəndində onlara yer verilmiş, ərazini kol-koslardan təmizləyib orada məskunlaşmışlar.

Bölgəyə növbəti köç 1948-ci il deportasiyasına təsadüf edir. Həmin dövrdə bölgəyə pənah gətirənlərin böyük əksəriyyəti Vedi mahalının sakinləri idi. Şəmkirin Çinarlı qəsəbəsində məskunlaşmış Vəli Vəliyevin ailəsi də onlardan biridir. Vəli Vəliyevin dediyinə görə, həmin dövrdə ana tərəfi Salyan rayonuna deportasiya olunmuşlar, amma oranın isti iqliminə uyğunlaşa bilmədikləri üçün əvvəlcə Göyçaya, ordan da yaxın qohumlarının köməyi ilə Gəncənin Bağmanlar qəsəbəsinə köçmüşlər. Ata tərəfi isə həmin deportasiya

zamanı vaqonlarla Şəmkir rayon stansiyasına gətirilmiş, Çinarlı qəsəbəsində alman məhlələrində yerləşdirilmişlər.

Bölgəyə növbəti köçlərdən biri də 1965-ci ilə təsadüf edir. Mətbuatda bu dövrdə yaşanan hadisələr haqqında çox az məlumat verilir, ona görə bölgədən köçlərdən bəhs edərkən bu dövrün adı hallandırılmır. Amma söyləyici xatirələrindən məlum olur ki, ermənilər həmin dövrdə təkrar bir də baş qaldırmışlar. Yengicə kənd sakini Bilal Abbasovun dediyinə görə, həmin dövrdə ermənilər "azad İrəvan" süarı ilə paytaxtda mitinqlər təşkil edirdilər. İrəvanda, Vedi rayon mərkəzində başlayan bu mitinqlər tədricən kəndlərə yayılır. Kənardan gələn ermənilər kənd sakinlərini döyür, təhqir edir, onları kənddən çıxmağa məcbur edirdilər. Söyləyici belə nağıl edir: "Onda bizim kənddə qaçaqaç düşdü. Bizim camaat Naxçıvana getdi. Onda Xalisa, Şiddi kəndlərinə çox əzab verdilər. Nə ki varidatları vardı o kəndlərin, soydular. Bizim qapıbir erməni qonşumuz deyirdi, sən yaxşı qonşusan, vaxdında çıx getginən, burda pis şeylər olacax. Bax, belə-belə eşitdirirdilər. Qadınların paltarına söz atırdılar, savxozda işləyən azərbaycanlıların çoxunu birqadirlikdən, aqranomluqdan, lap xırda vəzifələrdən uzaqlaşdırırdılar. İrəvanda, Vedidə mitinqlər olurdu". Həmin dövrdə ermənilərin baş qaldırması çox qısa sürür, Moskvanın da işə qarışması ilə ara sakitləsir. Amma Bilal Abbasovun dediyinə görə, həmin hadisələrdən sonra 13 ailə Yengicəni tərk edərək Göygölə, Göyçaya, İsmayıllıya köçür.

Bölgəyə Qərbi azərbaycanlıların ən böyük köçü isə 1989-ci il deportasiyası zamanı yaşanır. O vaxtı Qərbi Azərbaycandan gələn əhali Şəmkirin vaxtilə ermənilər yaşayan kəndlərində yerləşdirilir, bir hissəsi isə yerli sakinlərin

yaşadığı kəndlərin ərazisində torpaq sahəsi ayrılaraq məskunlaşdırılır. Köç zamanı onlar öz kəndlərinin adını da gətirmiş, Şəmkir rayonundakı Yeni Göyçə, Nərimanlı belə kəndlərdəndir, Ələsgərli kəndi isə Aşıq Ələsgərin şərəfinə adlandırılmışdır.

Ağstafa rayonunda məskunlaşan Qərbi azərbaycanlılar isə yerli sakinlərin yaşadığı kəndlərdə yerləşdirilmişlər. Böyük Kəsik kəndində məskunlaşmış Yadigar Cıdırov ora gəlmələrini belə nağıl edir: "O zaman Ağstafa yox idi, Qazax rayonu var idi. Eyyubov Bəkir var idi. Qazaxda neçə kənd var, hamısının adını verdi ki, hansına isdiyirsiniz gəlin, yerrəşdirəcəm. Camaatın çoxu Bakıya, Şəkiyə getdi, biz hardasa 90 öy qalmışdıx. Dedilər, gedək gəzək. Mən, Ramizin atası, bir də Mürşüdov Məsim kənddəri gəzə-gəzə gəldik. Şıxlıda susamışdıx. Ramizin atası Koroğlu gördü ki, bir arvad eşşəyin belində su aparır. Dedi, get gör o bulax hardadı. – Bizim veranxananın hər yeri bulağ idi. – Gedək oturax, çörəyimiz var, çörək də olsa yeyək. Yüyürdüm getdim, demirəm cavan idim, 50-55 yaşında bir arvad idi. Dedim, ay xala, bu bulax hardadı? Dedi, bulax nədi? Dedim, bə bu apardığın nədi? Dedi, su. – Hardan aparırsan? Dedi, Kürdən. Aparıf daşa tökürük, daşdan süzülür, ondan sonra içirik. Dedik, Kür suyunu işməkdən qırılarıx biz burda. Obşim, o kəndləri gəzdik, heç hansında su tapmadıx. İndi gəlib Böyük Kəsiyə çıxmışıx. Buranın adını da veriblər ki, Gürcüstana yaxındı, dəmiryolunun yanıdı. Nəysə, gəldik burya. Baxdım, bizim Ləlvar dağı görünür, dəmiryolu da var, Tiflisə burdan hər gün elektriçka gedir, həm də çamaatın ləhcəsi bizim ləhcəmizə uyğundu. Sən demə, bura da Boşçala sayılırmış. Koroğlu dedi, öz dağımız görünür, həm də burdan kəsə getsək, kən-

dimizə bir saatlıx yoldu. Bəri düşəndə gördük durbadan su fışqırır. Ə, bu nə sudu? Dedilər, içməli sudu. Bu suyu bəyəndik, artezian suyu idi, 400 metrədən çıxır. Bu suya, dəmiryoluna görə bura düşdük".

Söyləyici xatirələrindən məlum olur ki, Qərbi azərbaycanlıların bölgədən deportasiyası 1948-1952, 1988-1991-ci illərlə məhdudlaşmır. Bu proses ermənilərin Qafqaza köçü ilə paralel başlamış və 150 ildən artıq davam etmiş, sonuncu azərbaycanlıların bölgədən çıxarılması ilə də proses tamamlanmışdır.

Folklor hər hansı bir toplumun kollektiv yaddaşını və dünyagörüşünü özündə yaşadan canlı sistemdir. Bu sistemin formalaşması və inkişafı bilavasitə regional mühitlə bağlıdır. Folklor nümunələri yalnız mətn səviyyəsində mövcud olmur; onlar müxtəlif icra ortamlarında, mərasimlərdə, gündəlik həyat və sosial münasibətlər prosesində funksionallıq qazanır. Məhz bu səbəbdən folklorun yaşaması üçün onu yaradan və yaşadan mühitin qorunması vacibdir. Folklorun öz təbii mühitindən ayrılması onun funksional mexanizmlərinin zəifləməsinə, zaman keçdikcə isə sıradan çıxmasına gətirib çıxarır. Bu baxımdan Qərbi Azərbaycan folklorunu kökündən çıxarılmış ağaca bənzətmək olar, çünki folklor öz təbii sosial-mədəni mühitindən uzaq düşdükdə yaşam imkanlarını tədricən itirir. Bu gün Qərbi azərbaycanlılar arasında müşahidə olunan bir çox adət-ənənələrin unudulması, bayram ənənələrinin sıradan çıxması məhz bölgədəki folklor mühitlərinin dağılmasının acı nəticəsidir.

Qərbi Azərbaycan həm də qızılbaş inancının yayıldığı bölgələrdən biridir, ona görə sahədə olduğumuz zaman bu inancın daşıyıcılarını tapmağa, onun haqqında ətraflı məlumat almağa çalışmışıq. Qızılbaş inancının əsas atributlarından biri də bişmə qurbandır. İndiyə qədər onun Milli dərəsində məskunlaşan kəndlər üçün xarakterik olduğunu bilirdik, amma son toplamalar göstərdi ki, Göyçə mahalının Göysu kəndində də həmin inanc mövcud olub. Burada da qurban haxlarda (ona "üy" də deyirlər) ayrılaraq kəsilib, iri qazanlarda bişirilib, sümükləri isə bir torbaya yığılaraq təmiz bir yerdə basdırılıb. Göysu kəndi əslində yığma kənddir, Qızılvəng, Çamırlı, Mollalı, Qəfərli kəndlərinin sakinləri 1918-ci ildə ermənilər həmin kəndlərdə yerləşdikdən sonra bu kəndə pənah gətirmişlər. Bu zonadakı seyidlərlə Milli dərəsindəki seyidlərin həm də qohumluq bağı olub. Vedi mahalının Körpükənd kəndindən olan Vəli Vəliyevin dediyinə görə, onun ulu babası qızılvəngli Hacı Nağının qızı Nərgiz xanımla evlənmişdir. Bu kimi faktlar bizə qızılbaş inancının yayıldığı coğrafiyanı müəyyən etmək üçün ətraflı ipucları verir. Bu insanlar öz inancları haqqında danışmaqda həvəsli deyillər, bu haqda danışmağı günah hesab edirlər. Seyid Nəcəfdən inancları haqqında danışmaq istəməməsinin səbəbini soruşduqda verdiyi cavab "çünki insanlar buna inanmırlar" əslində hər şeyi anladır. İnancın əsas daşıyıcıları olan seyidlər bizə yalnız üzdə olanları, başqa sözlə, deyilməsinə icazə verilənləri deyir, amma inancın mahiyyətinə gəldikdə bir kəlmə belə danışmaq istəmirlər. İnancın mahiyyəti haqqında topladığımız məlumatların böyük əksəriyyəti bişmə qurban məclislərini görmüş sıravi insanlardan toplanılıb, inancın əsas daşıyı-

cıları olan seyidlər isə bir kəlmə belə danışmamışlar. Hətta qurban kəsərkən oxunan duaları, verilən təkbirləri belə bizə çatdırmaqdan çəkinmişlər. Bunun da səbəbi anlaşılandır. Qızılbaşların bir çox inancları islam dininə uyğun gəlmir (Allahın Əlidə təcəllası, "Əliyə Allah demək olmaz, Allahdan alçaq da demək olmaz" ifadəsi əslində həmin inancın məsələləşmiş şəklidir, ruhun təkrar dünyaya gəlməsi və s.). Ona görə ətraf kəndlərin sakinləri onları əlallahılıqda, Əlini allahlaşdırmaqda günahlandırmış, onları müşrik adlandırmışlar. Bu gün onların öz inancları haqqında danışmaq istəməməsi də məhz bundan qaynaqlanır.

Bölgədən toplanmış maraqlı mətnlərdən biri də Həzrət Əlinin tilsim davasından bəhs edən nağıldır. Doğrudur, həmin mətn kitab mənşəlidir. Nağılı söyləyən Əsgər Rəfiyevin dediyinə görə, həmin nağılı qardaşı Babacanlı Molla Əhmədin kitabından köçürüb. 96 vərəq həcmində üç dəftərlik hekayə olduğunu qeyd edir. Burada Həzrət Əlinin Xavərzəminə yürüşündən, yerin altında divlərlə döyüşündən, Salsal pəhləvanla, Cəmşid şahla davasından, Kufu-Burur qalasına yürüşündən söhbət açılır. Üzü köçürülən hissələr nəzm şəklindədir, amma Əsgər Rəfiyev onları bizə nağıl şəklində danışmışdır. Bütün hadisələri xatırlamadığı üçün onu qırıq-qırıq, müəyən parçalar halında danışmışdır. Nağılda Sədd Vaqqas, Malik Əjdər, Babayi-Əmir, Əbili-Mərcan kimi Həzrət Əlinin silahdaşlarının adı çəkilir. Verilən məlumatlardan aydın olur ki, Həzrət Əlinin cənglərindən bəhs edən nəzm şəklində bir dastan olub, Əsgər Rəfiyevin məzmununu çatdırdığı həmin parçalar da o kitabdan gəlir. Mətn kitab mənşəli olsa da, şifahi ənənənin

formalaşmasına təsir edən qaynaqları öyrənmək baxımından maraq kəsb edir.

Bu dəfəki toplamalar zamanı qan davaları ilə bağlı materialların qeydə alınmasına da xüsusi diqqət yetirilmişdir. Qan davaları yalnız keçmiş cəmiyyətin həyat tərzini, insanların önəm verdiyi dəyərləri və milli mentalitetdən irəli gələn davranış normalarını anlamağa imkan vermir, eyni zamanda tayfa və nəsillərin yerdəyişmələrinin, köçlərinin əsas səbəblərindən biri kimi çıxış edir. Toplama zamanı nəsillərin və tayfaların mənşəyi haqqında məlumat soruşarkən məlum olmuşdur ki, onların bir qismi məhz qan davaları ucbatından doğma yurdlarını tərk etmiş, yeni məskən axtarmağa məcbur omuşlar. Toplunun əvvəlki cildlərində də bu mövzu ilə bağlı mətnlərə rast gəlinir, amma həmin məlumatlar məqsədli şəkildə toplanmamış, tayfaların mənşəyi və bölgədə məskunlaşma tarixi xəbər aldıqda söylənilmişdir. Bu dəfə isə söyləyicilərə qan davaları ilə bağlı xüsusi suallar ünvanlanmış, vaxtilə baş vermiş hadisələr yazıya alınmışdır. Doğrudur, hər söyləyici bu mövzuda danışmaqda həvəsli deyil, qaysaq bağlamış həmin yaranı yenidən qanatmaq istəmirlər. Məsələn, Kor Tanrıverdi (Şişqaya) və Qəmlo haqqında da qan davaları olduğu deyilsə də, söyləyicilər həmin hadisələr haqqında ətraflı məlumat verməkdən çəkinmişlər. Buna baxmayaraq, şifahi ənənədən bəzi nümunələr qeydə alınmışdır ki, həmin mətnlər dövrün sosial münasibətlərini, ailə və nəsil münasibətlərini, eləcə də insanların dünyagörüşünü öyrənmək baxımından böyük əhəmiyyət daşıyır.

Kitabdakı mətnlər söyləyicilərin şifahi nitq xüsusiyyətləri saxlanılmaqla onların dilindən təqdim edilmişdir,

yalnız “Yaylaq həyatı” sahədən toplanmış məlumatlar əsasında bizim tərəfimizdən təsvir edilmişdir. Qərbi Azərbaycan ərazisində vahid dialekt mövcud deyil; müxtəlif bölgələrin ləhcə xüsusiyyətləri bir-birindən fərqləndiyi üçün bu xüsusiyyət mətnlərin dilində də öz əksini tapmışdır. Məsələn, Dağ Boşçala sakinlərinin danışığında indiki zaman *-er* və *-or* şəkilçiləri ilə, Göyçə mahalında gələcək zaman *-ajaq, -əjək*, Vedibasar bölgəsində isə *-acaq, -əcək* şəkilçiləri ilə ifadə olunur. Buna görə də oxucuların təqdim olunan bu kitabda müxtəlif ləhcə xüsusiyyətləri ilə qarşılaşılması təbiidir. Digər tərəfdən, bu insanların uzun müddət doğma yurdlarından ayrı düşərək müxtəlif bölgələrdə məskunlaşması onların dilinə də təsir göstərmişdir. Məskunlaşdıqları ərazilərin dil və ləhcə xüsusiyyətləri müəyyən dərəcədə onların nitqinə daxil olmuş, bu da folklor mətnlərinin dilində özünü büruzə verir.

Kitabın sonunda söyləyicilər haqqında ümumi məlumat verilib. Pasportlaşdırma zamanı söyləyicinin təvəllüdü, təhsili, peşəsi, deportasiya olunduğu bölgə, mətnin qeydə alındığı məkan haqqında məlumatları qeydə almağa səy göstərmişik. Bundan əlavə, hər mətnin sonunda mötərizə içərisində həmin mətnin söyləyicisi də qeyd olunmuşdur. Məsələn, mətnin sonunda mötərizə içərisində (S. 12) yazılıbsa, bu, həmin mətnin söyləyici sırasındakı 12-ci söyləyicidən toplandığı anlamına gəlir.

Yekunda məlumatların toplanmasında və Qərbi Azərbaycan sakinləri ilə görüşlərin təşkilində bizə göstərdikləri dəstəyə görə Şəmkir və Ağstafa rayon İcra hakimiyyətlərinə minnətdarlığımızı bildiririk. Xüsusən də, Şəmkir Rayon İcra Hakimiyyəti Aparatının Ərazi idarəetmə və

yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rasim Mustafayevə və həmin şöbənin böyük məsləhətçisi Mehrab Məmmədova, həmçinin Ağstafa Rayon İcra Hakimiyyəti başçısının müavini, Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri Lalə Eyyubovaya, həmin şöbənin böyük məsləhətçisi Elvin Pirquliyevə dərin minnətdarlığımızı bildiririk.

*İlkin Rüstəmzadə*
*filologiya üzrə fəlsəfə doktoru*

# I. ETNOQRAFİK MƏTNLƏR

## 1. YAYLAQ HƏYATI[1]

Söyləyicilərin dediyinə görə, fərdiyyəçilik dövründə hər kəs mal-qara saxladığı üçün hamı bir nəfər kimi dağa köç edirdi, kənddə ancaq yaşlılar, qocalar, onlara qulluq edən şəxslər qalırdı. Onlar da əkin-biçinə, kənd camaatının ağırlıqlarına göz-qulaq olurdu. Dağa köç edənlər öz ağırlıqlarını onların yanına qoyur, əvəzində dağdan gələndə onlar üçün yaylaq nemətlərindən pay gətirirdilər.

Dağda havalar iyun ayında istiləşir, heyvan üçün əlverişli olurdu, vaxtından tez dağa köçmək heyvanlar üçün təhlükəli idi. Söyləyici xatirələrindən məlum olur ki, bəziləri tələsib may ayında dağa köç edib, həmin vaxt dağa qar yağıb, heyvanları çovğuna verib tələf edib. Bununla bağlı Polad Ayrımı[2] bölgəsindən olan Məhəmməd Xanəliyev belə bir xatirəsini danışır: "Dədəm yaylağa gedəndə görür ki, gözəl gül-çiçək. Gəldi dedi ki, dağda bilirsən nə ot var? Heyvanı eləcə burax binənin ortasına, ot burdandı. Mayın 18-i günü – mən səkgizdə oxuyurdum, – köşdük dağa. Dədəm bajımı apardı, bir də məndən balaca qardaşımı apardı. Heyvanı dağa qoydux, mən məktəbə gedirdim, sabahı dala qayıtdım. Üç-dörd gün keçdi bir qar yağdı, çovğun oldu. Bizim yaylağın içinnən bir çay gəlirdi, bir çay da Palçıxlı tərəfdən gəlirdi, Mürteyil kəndinin yanında birrəşirdi, çay

[1] Yaylaq həyatının təsviri söyləyicilərin verdiyi məlumatlar əsasında bizim tərəfimizdən verilib.

[2] Polad, Ağkilsə, Mürteyil və Alaçıqqaya kəndlərinin yerləşdiyi bölgəyə deyilir.

daşanda ordan keşmək mümkün döyüldü. Dedilər, Dünyamalı heyvanı qırdı. Rəhmətdik anam bir az çaydan-çörəkdən qoydu. Dedi, get, gör, nağarır dədən. Mürteyil kəndinə çatanda mən fənd tərpəndim. Atın da dalında bir daylax var. Öz canımdan çox daylağı isdiyirəm ki, onu sel aparar. Mən aşağıdan getmədim, yuxarıdan Palçıxlı çayınnan keçib getdim. Getdim gördüm dədəm heyvannarı dolduruf dama. Baxdım gördüm beş-altı dənə çəpişimizi soyux öldürüf. Ondan sonra kənddə uşaxların ağzına düşmüşdü ki, mayın 18-də dədənin borcu var".

Xalisa kəndində köç aprel ayında, Karvansara rayonunun Polad Ayrımı bölgəsində mayın axırlarında başlayırdı, iyunun 10-15 arası artıq hamı dağda olurdu. Yengicə kəndində taxıl təzə sünbül çıxardanda (mayın 5-15 arası), Yuxarı Körpülü kəndində isə mayın 25-də – məktəblər bağlandıqdan sonra dağa köç başlanırdı. Köçdən əvvəl hazırlıq görülürdü. Yaylağa aparılacaq yorğan-döşək, paltarlar barxanalara yığılır, qab-qacaq götürülür, yol üçün yemək bişirilirdi. Yol üçün, əsasən, daşına bilən və insanı tox tutan ərzaqlar – nəzik, qatlama, əyirdək, fəsəli bişirilib, quymaq çalınıb. Nəzik şirin çörək növüdür, onun xəmiri süd, şəkər tozu və qaymaqla yoğrulur, fırında bişirilirdi. Zağalı kəndində yol azuqəsi üçün bürüncəkli kətə bişirilib. Şəkər tozu ilə un yağda qovrulub bürüncək hazırlanırdı. Xamır südlə yoğrulur, arasına həmin bürüncək əlavə edilib bişirilirdi. Yol üçün xamralı, fətir götürülürdü. Xamralı qalın olur, fətir isə oxlovla yayılır və nazik olurdu. Hər ikisi sacda bişirilib, xamralı, əsasən, qışda, fətir isə yayda bişirilib.

Dağa aparılacaq yorğan-döşək barxanalarda, ərzaq məhsulları isə xurcunlarda daşınırdı. Köçə çıxmazdan əvvəl

hər kəs ölülərini ziyarət edir, onların qəbirlərinin üstünü təmizləyirdi, səhər dan yeri ağaranda artıq köç başlayırdı. Çobanlar daha tez, bəzən bir gün qabaqcadan yola düşürdü, onların arxasınca da külfət yola çıxırdı. Yaylaqlara kəl arabalarında, at üstündə köç edilib, son zamanlar isə maşınla köç edilirdi. Leyli bulağa, Əyricə yaylağına maşın yolu olduğu üçün həmin yaylaqlara maşınla köç edilib. Barxanalar, xurcunlar atlara, eşşəklərə yüklənir, qadınlar, uşaqlar isə kəl arabasında yol gedirdilər.

Gölkəndin yaylaq yerləri Sarıbulaq, İvraham yaylağı, Yağlıdərə, Başyurd, Əppəhli olub. Kolxozun heyvanları Sarıbulaq yaylağına köçürdü, kənd camaatı isə İvraham yaylağı, Əppəhli, Yağlıdərə, Darın dərəsinə, Başyurda düşürdü. Maralca, Palçıxlı, Eviyarılan, Yargəzəyi, Carçılı, Qarabulud, Alvız, Murğuz dağı Polad Ayrımı bölgəsində yerləşən kəndlərin yaylaq yeri olub. Maralca ən böyük yaylaq idi, Ağkilsə kəndinin bir hissəsi Maralca yaylağına, bir hissəsi də Alvız, Yağlıdərəyə düşürdü. Yengicə kəndi isə Kamo-Bəyazid tərəfə köçürdü, əsas yaylaq yerləri Sultan bəyin yurdu, Əyricə, Ləzgiqırılan[3], Cullunun dərəsi idi. Ləmbəlinin yaylaxları Çubuxlu, Salax kəndinin yaylaxları isə Dərətəpə, Cantəpə idi. Sarıbulaq, Maralca, Çubuxlu yaylaqlarının ərazisi böyük idi, kolxozun sürüsü həmin yaylaqlara düşürdü, digər yaylaqların ərazisi kiçik olduğu üçün ora, əsasən, fərdi təsərrüfatı olan şəxslər düşürdü. Ən yüksəkdəki yaylaqlar Başyurd, Başyaylaq deyə adlandırılıb. Söyləyicilərin dediyinə görə, ancaq azərbaycanlılar

[3] Qab-qazan qalaylamaq üçün dağa gələn ləzgi qalayçılar çovğuna düşürlər və donub ölüblər. Ləzgiqırılan öz adını buradan almışdır.

dağa köç edirdilər, ertmənilər dağa köç etməyə meyil etməyiblər. Hətta bununla bağlı maraqlı bir xatirə danışırlar. Yengicə kənd sakini Bilal Abbasovun dediyinə görə, kənddə Kaspar adlı erməni anbardar var idi. Bir ili o da həvəslənib dağa köç edir. Yengicənin köçü təzəcə Baxçacığa düşmüşdü, camaat yenicə dincini alırdı ki, görürlər bir maşın Kasparın köçünü gətirir. Onda Bilal kişinin qohumlarından biri zarafata salıb demişdi ki, Kaspar da bu dağa gələcəksə, onda mən bu dağa gəlməyəcəm.

Dağlara birbaşa köç edilmirdi, yolda müəyyən məntəqələrdə düşərgə salır, heyvanları bir müddət orada otardıqdan sonra yenidən yola davam edirdilər. Düşərgə üçün bulaq başı, suya çıxışı olan yerlər seçilirdi. Məsələn, Gölkəndin düşərgə yerləri Armutdux, Qamışdıx, Cantəpə idi. Sadaladığım bu yerlərin hamısında bulaq var idi və köç də həmin bulağın üstünə düşürdü. Göyərçin Alıyevanın dediyinə görə, köç zamanı çobanlar xeyli qabaqda gedirdi, cavan çobanlardan birini arxaya yollayıb xəbər göndərirdilər ki, Armutduğun düzündə düşərgə salacağıq, hamı ora yığılsın. Düşərgə yerlərində süfrə açıb yemək yeyir, dinclərini alırdılar. Növbəti yol ehtiyatı da həmin düşərgədə bişirilib hazırlanırdı. Göyərçin Alıyeva özlərinin yaylağa köçünü belə təsvir edir. “Ailə hamısı yaylağa gedirdi. Dörd ocağa bir qoca kişi və qarı qalırdı onlara göz-qulağ olmağa. Barxananı, yorğan-döşəyini onun öyünə aparıb tökürdün. Biz ona ağırrıx deyirdik. Ora yığırdılar, ona da pul-para, heyvan verirdilər ki, onlara göz olsun. Armutdux düzü deyirdilər, düşərgəmiz ora idi. Yola hazırrığ görürdük. Deyirdilər, bax, bunu yiyin, Armutduğa çatanda orda düşərgə düşüb iki gün qalajeyih. İki gün orda qalerdıx, iki

gündən sonra təzdən bir də yüklənerdik. Öküz haravaları yüklənerdi, uşaxlar oynaşa-oynaşa qabaxdan, öküz də daldan köçü gətirer".

Aranla dağ arasında yazlıq yerləri olub. Yazlıq yeri olan kəndlər daha ekəndən köç edirdi. Məsələn, Əmirxeyir kəndi aprel ayında Vəli Otçalana köçür, bir müddət heyvanı orada otardıqdan sonra Kalafalığa qalxır, mayın axırında isə Leylibulağa köçürdülər. Xalisa kəndinin yazlıq yeri Kolanı, Yengicə kəndinin yazlıq yerləri isə Qarabağlar, Kotuz, Baxçacıx idi, heyvanları orada otardıqdan sonra Əyricə yaylağına qalxırdılar. Həmin ərazilər əslində vaxtilə kənd ərazisi olub, 1948-1953-ci illər deportasiyası zamanı azərbaycanlılar oradan köçürüldüyü üçün kəndlər boşalmış, onların ərazisindən yazlıq yer kimi istifadə olunmuşdur.

Yaylaqlarda hər kəsin öz yeri var idi, ona yurd və ya oba deyirdilər. Obalar bir-birinə yaxın düşür və adətən həmin yer orada yurd salmış şəxsin adı ilə adlanırdı. Məsələn, Sarıbulaqda Hacı Tağının yurdu, Mülkülünün yurdu, Köçəsgərin yurdu orada köç salmış şəxsin və ya kəndi adı ilə tanınmışdır. Maralca yaylağında Alıoğlu uçan, Nədir bəyin yurdu, Ojax yeri kimi yurd yerləri var idi. Həmin ərazilər təkcə Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların deyil, eyni zamanda Qazax, Ağstafa, Tovuz bölgəsinin yaylaq yeri olmuşdur. Məhəmməd Xanəliyevin dediyinə görə, dağın bu üzünə onlar düşürdüsə, o biri üzünə Qazax rayonunun köçü düşürdü. Sarıbulaqdakı Mülkülü yurdu Tovuzun Mülkülü kəndinin, Köçəsgərin düzü Qazağın Köçəsgər kəndinin yurd yeri idi. Alıoğlu uçan Qazağın, Çaxmaxlı Poylunun, Nədir bəyin yurdu isə Kəsəmənlinin yurd yeri olub. Ümumiyyətlə, bölgədəki bir çox kəndlərin əsası

yaylaqlara köç etmiş tayfalar tərəfindən qoyulub. Hər dəfə bu qədər yolu köç etməkdənsə, bir qədər aşağılarda məskunlaşmış, yayda isə mal-qaranı həmin yaylaqlara aparmışlar. Ona görə orada yaşayan tayfalar ləhcə, adət-ənənə baxımından Qazax-Tovuz bölgəsinə yaxınlığı ilə seçilir, kökünü axtardıqda həmin nəsillərin bir qolunun da bu bölgədə yaşağıdı məlum olur.

Yaylaqlarda qalmaq üçün dəyə, çadır, daxma, olacax (putka) kimi tikililərdən istifadə olunub. Dəyə vələs, fıstıq və ya palıd ağacının budaqlarından kəsilmiş çubuqlardan qurulurdu. Hələ kənddə ikən dəyə üçün çubuq ehtiyatı görülürdü, kişilər meşələrdən 3-4 metr uzunluqda dəyə çubuqları kəsib hazırlayırdılar. Yaylağa yola düşəndə həmin dəyə çubuqlarını da ata, eşşəyə yükləyib dağa aparırdılar. Göyərçin Alıyevanın dediyinə görə, kişilər qabaqcadan yaylağa gedər, dəyələri qurub hazırlayar, onlar hazır dəyəyə köçərdilər. Dəyənin sahəsi, adətən, beşin altıya olurdu. Dəyə çubuqlarının ucu yonulub dəyə qurulacaq yerin kənarlarına paralel şəkildə sancılırdı, sonra oların başları əyilib ucları bir-birinə bağlanırdı. Bir dəyənin hazırlanması üçün 50-60 arası çubuq tələb olunurdu. Dəyənin yanları qamışdan toxunmuş çətənlə örtülürdü. Gölkənddə ərazisindəki göllərin kənarında bitən qamışları qışda qırıb, üstünün qabığını təmizləyib çətən toxuyurdular. Çətən toxumaq üçün cəhrədə əyrilmiş yun iplərdən istifadə olunurdu. Çətən elə toxunurdu ki, iplə onun üzərinə naxış salınırdı. Bundan əlavə, bəzi kəndlər qışlaq kimi Ceyran-çöldən istifadə edirdilər, heyvanları qışlağa gətirdikdə burada bitən qamışları qırıb ondan çətən toxuyurdular. Dəyənin dörd bir tərəfi həmən çətənlə örtülürdü. Dəyənin

üstü isə əvvəllər qalın keçə ilə, sonralar isə çadırla örtülüb. Çadır yüngül olduğu üçün daşınması həm rahat idi, həm də ucuz başa gəlirdi. Məhəmməd Xanəliyevin dediyinə görə, onların binələri çayın kənarında idi. İlk günlər çayın səsindən yatmaq olmurdu, amma sonra adam alışır, çayın səsi insana laylay kimi gəlirdi. Yağış yağanda keçənin üstünə düşən damlaların tapıltısı sanki laylay çalır, adam yuxudan ayılmaq istəmirdi.

Dəyənin yanında ərzaq saxlamaq üçün "nəmi" adlanan kiçik bir yer düzəldilirdi. Nəmi də eynilə dəyə kimi qurulur, sadəcə dəyədən daha kiçik olurdu. Həm də nəmini daha möhkəm qururdular ki, içərisinə it-pişik girməsin. Nəminin özünün ayrıca girişi olurdu, əlavə olaraq dəyənin içindən də ona giriş qoyulurdu. Nəminin döşəməsi daşla döşənir, qatıq, pendir, yağ kimi ərzaq məhsulları orada saxlanırdı. Nəmi bütün bölgə üçün xarakterik deyil, ancaq Gölkənd sakinlərindən bu barədə məlumat qeydə almışıq. Digər bölgələrdə isə dəyənin bir küncü pərdə ilə kəsilib ərzaq saxlamaq üçün istifadə olunub.

Dəyənin içərisində taxt qurulurdu. Bəzi ailələr taxt qurmaq üçün lazım olan taxtaları dağa köçərkən özləri ilə aparır, bəziləri isə mövcud imkanlardan istifadə edərək taxt düzəldirdilər. Məhəmməd Xanəliyevin dediyinə görə, taxt qurmaq üçün dağa ayrıca ləvazimat aparmırdılar. Taxt qurulacaq yerə ucu haça olan altı ədəd mıxça – doqqaz basdırır, ağacları həmin doqqazların üzərinə düzür, onların üstü isə yarpaqla örtürdülər. Bir gün gözləyirdilər, yarpaqlar quruduqdan sonra üzərinə kilim salırdılar. Axşam yatarkən yorğan-döşək açılır, səhər yuxudan qalxdıqda isə yığılaraq taxtın bir küncünə qoyulurdu. Taxtdan həm yataq,

həm də yemək stolu kimi istifadə edilirdi. Dəyənin içərisi çıraqla işıqlandırılır, qızdırılması üçün isə odun peçindən istifadə olunurdu.

Dəyədən əlavə qoyunun, sağmal heyvanların qalması üçün yataq yerləri – arxac, xalxal, buzoylux və s. düzəldilib. Arxac qoyun, mal yatan yerə deyilib, ətrafı açıq olub. Qoyun yatan yerə qoyun arxacı, iribuynuzlu heyvan yatan yerə isə mal arxacı deyilib. Quzu sürüdən ayrı otarılıb, sürüyə qarışmaması üçün qoyun arxacının yanında quzular üçün ayrıca yer düzəldilib, ətrafı çəpərlə bağlandığı üçün ona çəpərə deyilib. Çəpər çəkmək üçün payalardan istifadə olunub. Payaları aralarında müəyyən məsafə saxlamaqla yerə basdırıb çubuqla arasını hörürdülər. Son zamanlar isə sal taxtalardan istifadə olunub. Çəpərə düzəltmək üçün bəzən yaylaqlara material aparmaq mümkün olmurdu, onda qoyun arxacından xeyli aralıda quzular üçün ətrafı açıq yataq yeri düzəldilib, ona da quzu arxacı deyilib. Arxacın kənarında çoban üçün koma düzəldilirdi, çoban yemək-içməyini orada yeyir, orada gecələyirdi. İtlər isə arxacın kənarına canavarın hücum edə biləcəyi istiqamətlərə bağlanırdı. Gecə itlər hürəndə çobanlar çölə çıxıb qışqırar, fit çalıb canavarları arxacdan uzaqlaşdırardı. Söyləyicilərin dediyinə görə, son zamanlar arxacların da ətrafı taxta və ya setka ilə çəpərlənmişdir. Sağmal mal saxlanan arxacın kənarında isə buzovlar üçün daşdan və ağacdan yer – xalxal düzəldilib. Buzovu olanlar dəyənin yanında onun üçün dam düzəldib. Torpağı yarım metr qazıb, dörd küncünə dirək basdırıb dirəklərin üstündən ağac atardılar, kənarlarını da ağacla bağlayardılar. Ağacların üstündən tol atıb torpaq tökərdilər. Həmin yerə dam

və ya buzoylux deyilib. Buzovları soyuqdan qorumaq üçün orada saxlayardılar.

İnsanlar qış üçün ehtiyat azuqə yığmağa artıq yaylaqlardan başlayırdı. Qışda tükədəcəkləri pendir, yağ, şorkərə, qurud kimi bir çox ərzaqların ehtiyatını dağda ikən tuturdular. Köçəri həyat insanları praktik olmağa məcbur etmiş, ərzaqları saxlamaq üçün qoyun qarnından, erkək dərisindən, heyvan gönündən istifadə etmişlər. Məsələn, qatığı erkək dərisindən hazırlanmış tulumlarda, yağı qarında, pendiri isə dəridə saxlayırdılar. Tulum qoyun dərisindən hazırlanırdı. Qoyunu kəsdikdə onun dərisini heyvan damından asırdılar, isti yerdə qaldıqda dəri tükünü buraxırdı. Ondan sonra onun yununu təmizləyir, bıçaqla dərinin üzünü qaşıyıb qalan tükləri də alırdılar. Dərinin arxasını və ayaqlarını bağlayıb boğaz hissəsinə isə gərməşov çubuğundan çəmbər tikirdilər. Daha sonra onu palıd və ya çöüz (ceviz) qabığında qırmızı rəng alana qədər qaynadırdılar. Qatığı, qaymağı onun içində saxlayırdılar. Dağarcıq da eyni qaydada hazırlanıb, sadəcə olaraq, onun boğaz hissəsi iri olurdu. Dağarcığın ağzına ip tikir, ərzağı onun içinə yığdıqdan sonra iplə ağzını bağlayırdılar. Tulumda qaymaq, qatıq, dağarcıqda isə əriştə, un saxlanılırdı.

Qatığı suyunu süzməsi üçün tuluma tökürdülər. Dərinin üzəri ağ qaysaq bağladıqda suyu buraxması üçün bıçaqla onu qaşıyıb dərinin gözlərini açırdırlar. Nəmi qatıq tulumları ilə dolandan sonra ondan nehrə çalxayırdılar. Yaylaqlarda asma nehrələrdən istifadə olunub. Nehrə cökə ağacından dairəvi şəkildə hazırlanır, baş və ayaq tərəfi bağlanır, üst tərəfdən isə gözü olurdu. Sacayaq şəklində çatma düzəldib nehrəni oradan asırdılar. Nehrəni elə çalxamaq

lazım idi ki, qatıq sərt şəkildə nehrənin divarına çırpılsın, onda yağ hasil olurdu. Yağın tez əmələ gəlməsi üçün bəzən nehrəyə soyuq su və ya qar əlavə olunurdu. Qarı yaylaqlarda dağın uca zirvələrindən yığırdılar. Söyləyicilərin dediyinə görə, elə olurdu orada qar ərimirdi, keçən ildən qalan qarın üstünə bu ilin qarı yağırdı. Nehrəyə qarın əlavə edilməsi yağ kütlələrinin bir araya yığılmasını təmin edirdi. Qadınlar yağı əllə bir araya yığıb bərkiməsi üçün soyuq su ilə doldurulmuş vedrəyə atırdılar. Bölgədə nehrə yağına mənsil deyilib, onu qarının içində saxlayırdılar. Yağı qarına yığmamışdan əvvəl yumuşalması üçün qarını isti suya qoyur və ya onun içinə ayran tökürdülər. Sonra onu təmiz yaxalayır, içini duzlayıb yağı onun içinə təpirdilər. Söyləyicilərin dediyinə görə mənsil yağı dən-dən olur və sarı rəngə çalır, gözəl də qoxusu gəlir. Nehrə əvəzinə mal gönündən də istifadə etmişlər, qatığı gönün içinə yığıb əllə fırlamaqla yağ hasil etmişlər. Sonralar xüsusi nehrələr çıxmış, onu da əl ilə fırlamaqla yağ istehsal etmişlər. Yaylaqdan qayıdanda qış üçün tutulan ərzaqlar ata, qatıra yüklənib kəndə gətirilirdi, ehtiyac olan qədəri saxlanılır, artığı isə bazara çıxarılıb satılırdı.

Nehrəni çalxaladıqdan sonra onun yağını götürür, yerdə qalan ayranından şor və ya qurut hazırlayırdılar. Şor hazırlamaq üçün ayranı qaynatdıqdan sonra həmin çürmüyü torbaya töküb suyunu süzürdülər, yerdə qalan çürmük şor kimi istifadə olunurdu. Qurudu isə ayranı eləcə torbaya töküb yastı daşın üstünə qoyurdular, suyunu süzməsi üçün üstünə də ağır daş qoyurdular. Ayranın suyu süzüldükdən sonra yerdə qalan bərk maddəni təhnədə yoğurub balaca kündələr halına salırdılar, günəşin altında

çatladığı üçün onu kölgə yerdə qurudurdular. Qurut həm qatıqdan, həm də ayrandan hazırlanıb. Söyləyicilərin dediyinə görə, ayrandan hazırlanan qurut daha yaxşı olurdu. Qurutdan yarpaq xəngəlində, ərişdə istisində, umacda istifadə olunurdu, qatıq olmadıqda onu suda həll edib ayran əvəzinə içirdilər. Qurud həm də şəfalı idi, suda həll olunmuş qurud qarın ağrısını kəsirdi.

Tulum südəmər çəpişin qarnından hazırlanır, təmiz olduğundan ondan qoxu gəlmirdi. Qarın təmiz yuyulur, quruduqdan sonra onu yağlı suya salırdılar, bir müddət suda qalıb açılırdı. Ondan sonra qamışla üfürüb içini hava ilə doldururdular. Bir müddət qalıb quruduqdan sonra yağ saxlamaq üçün ondan istifadə edirdilər. Qarına yığılmış yağ orada dəyir və dən-dən olurdu. Motal dərisi isə erkək heyvan dərisindən hazırlanır. Motal üçün istifadə olunacaq dəri əvvəlcə qayçıyla nizam şəkildə qırxılır, sabunlu suyla yuyulub dərinin üzərində qalan tüklər təmizlənir. Dəri möhkəm duzlanıb qurudulur, iki-üç gün pendir suyunun içində qalıb tamam açılırdı. İç üzü çöldə, tüklü üzü isə içəridə qalırdı. Nəcəf Nəcəfovun dediyinə görə, pendiri dəri üzünə yığdıqda dərinin dadı-tamı pendirə keçirdi, amma tüklü üzünə yığdıqda həm tam gəlmirdi, həm də dərinin üzərindəki tüklər nov rolu oynayır, pendirin acı suyunu çəkib çıxarırdı.

Söyləyicilərin dediyinə görə, bölgədə iki cür motal tutulurdu: şor motalı və pendir motalı. Şor motalı yarı şor və yarı pendirdən hazırlanırdı. Pendiri əzib şorla qarışdırıb motala doldururdular, içində hava qalmaması üçün möhkəm təpirdilər. Hava qaldıqda motalda göyərmə baş verirdi. Pendir motalı isə yarı üzlü, yarı üzsüz pendirdən

hazırlanıb, çünki yalnız üzlü pendirdən olduqda həm xamırlayır, həm də acı dadırdı. Deyilənə görə, quzu mələyəndə motalın dadı qaçır. Ona görə quzu mələyənə qədər (mart ayı) motalı tükədib qurtarırdılar. Motalın şor və qaymaqdan tutulan bir növü də vardır. Rafiq Kazımovun dediyinə gör, onu hər adam hazırlamır, imkanlı ailələr tuturdu. Onun dadı o biri motallardan seçilir və daha şirin olurdu. Belə bir ifadə işlədilir ki, motalın pendiri gərək özünü yetirə. Pendir özünü tutmamış onu motala basmırdılar. Tahirə Əliyevanın dediyinə görə, pendiri öncə 40 litrlik bitonların içinə yığırdılar, pendir orada özünü tutur, rəngi tündləşir, sonra onu suyunu süzməsi üçün aşsüzənin üstünə tökürdülər. Daha sonra onu ovxalayıb, duzlayıb motalın içinə təpirdilər. Bəzi bölgələrdə motala ətotu, kəkotu, çölsoğanı da əlavə edirdilər ki, bu da ona xüsusi dad verirdi.

Motalın bir növü də vardır ki, ona axtarma motal deyilib. Söyləyicilərin dediyinə görə, üzü payıza dönəndə yaylaqda otun dəyən vaxtı olurdu, onda qoyunların südü sovrulur, tək-tük qoyunda süd olurdu. Çobanlar həmin qoyunları yüzlərlə qoyunun arasından axtarıb tapır və onun südünü sağırdılar. Həmin südü mayalayıb pendir hazırlayırdılar. Həmin qoyunların südü yağlı olduğundan ondan hazırlanan pendir də sapsarı yağ kimi olurdu. Həmin südü mayaladıqdan sonra cılğının[4] içinə yığır, orada dəydikdən sonra onu motalın içinə təpirdilər. Göysu sakini Nəcəf Nəcəfov isə axtarma motalı başqa cür izah etdi.

[4] Cılğı mal dərisində hazırlanmış kisəyə deyilir, ondan qatıq süzmək, nehrə çalxamaq üçün istifadə olunub.

Onun dediyinə görə, axtarma motal üçün istifadə olunan pendirin tərkibində mütləq qoyun südü olmalı idi. Belə ki, inək südünün içinə qoyun südü əlavə edib maylandırırdılar. Pendir özünü tutandan sonra onun suyunu süzürdülər, tam acı suyu süzüləndən sonra pendirin üzünə qaymaq yaxıb motala təpirdilər. Oktyabrın axırı, noyabrın əvvəlinə qədər motalın içində qalıb özünü tam tuturdu. Nəcəf Nəcəfovun dediyinə görə, axtarma motal həm dadına görə o biri motallardan seçilib, həm də daha bahalı olub.

Pendirin bir növü də vardır ki, ona oğursax pendiri deyilib. Oğursax balası ölən qoyunlara verilən addır, onların südündən hazırlanan pendir isə oğursax pendiri kimi tanınıb. Südü yağlı olduğu üçün oğursax qoyunun pendiri adla tanınıb.

Pendir mayası quzu qursağından hazırlanıb. Ölən quzuların qursağı qurudulduqdan sonra 6-7-sini bir küpəyə atıb üstünə yumurta, buğda, duz və su əlavə edirdilər. Bir müddət orada qıcqırdıqdan sonra ondan pendir mayası kimi istifadə olunurdu.

Bir qarın 15-20 kiloqram yağ tutur, bir motal isə 25-30 kiloqram gəlirdi. Yaylağın ot örtüyü o qədər zəngin idi ki, bu otlaqda qidalanan heyvanların həm süd məhsuldarlığı yüksək olur, həm də südün tərkibi daha zəngin olurdu. Ləmbəli kənd sakini Sayad Məmmədovun dediyinə görə, iki inəkdən tutulan yağ və motala bütöv bir qış üçün kifayət edirdi. Dağa gedə bilməyən ailələr heyvanlarını qonşuları və ya tanıdıqları şəxslərin vasitəsilə dağa göndərir, bunun müqabilində zəhmət haqqı olaraq hər heyvana görə müəyyən miqdarda yağ verirdilər. May-iyun ayları dağda gül-çiçəyin açdığı dövr olduğundan həmin vaxt sağılmış

heyvanların südü daha zəngin olurdu. Buna görə də heyvanları dağa aparan ailələr ilk nehrənin yağını özlərinə götürür, sonrakı nehrənin yağını isə heyvan sahiblərinə verirdilər.

Rafiq Kazımovun dediyinə görə, Gölkənd kolxozunun iki sağmal inək naxırı var idi, onların südü kəndə daşınmır, elə dağdaca – Sarıbulaq yaylağında emal olunurdu. Südü saxlamaq üçün üstü şiferlə örtülmüş anbar düzəldilirdi. Sağınçılar gündə iki dəfə – səhər və axşam inəkləri sağır, onların südünü bitonlara töküb həmin anbara təhvil verirdilər. Həmin süddən də pendir, qaymaq düzəldilir, daha sonra onlar maşına yüklənib kəndə – kolxozun anbarlarına göndərilirdi. Eləcə də yaylaqlarda kolxozun arı təsərrüfatı var idi, onların da balı toplanıb kolxozun anbarına göndərilirdi. Həmin məhsullar ilin sonunda əməkhaqqı olaraq kolxozçular arasında bölünürdü.

Yaylaqların bitki örtüyü zəngin və rəngarəng idi. Burada əvəlik, ələyəz, çaşır, yolotu, baldırğan, kəkotu, yarpız və digər bitkilər bitirdi. Bu bitkilərdən həm qida əlavəsi kimi yeməklərdə istifadə edilir, həm də müxtəlif xörəklər hazırlanırdı. Eyni zamanda, bitkilər qurudularaq qış üçün tədarük edilirdi. Əvəlik saç kimi hörülərək qurudulur, qurd düşməməsi üçün otun arasında saxlanılırdı. Ondan həm əvəlikli qovurma hazırlanır və sarımsaqlı qatıqla yeyilir, həm də əvəlikli isti bişirilirdi. Su kənarında bitən qıjı isə pendirlə birlikdə lavaş arasında dürmək edilərək yeyilirdi. Dağda bitən cır armud və almadan bəhməz hazırlanırdı. Çubuxlu yaylağı yabanı çiyələmlə (çiyələk) zəngin idi. Qadınlar həmin çiyələmləri toplayaraq ondan mürəbbə bişirirdilər.

Yaylaqda səhər öynəsində süd məhsullarına üstünlük veriblər. Səhər yeməyində süfrədə nehrə yağı, qaymaq, şor, pendir olurdu. Südaşı bişirib, üzərinə ərinmiş yağ töküb yeyiblər. Gölkənddə səhər öynəsində yemək üçün kartofu süddə bişirib xaşıla bənzər yemək hazırlayıblar. Həmçinin yoğun bağırsağın uclarına düyün atıb bişirərdilər, soyuduqda onun içindəki yağ donurdu. Onu bıçaqla doğrayıb səhər öynəsində çörəklə yeyirdilər. Günorta öynəsində isə xəmir körəklərinə üstünlük veriblər. Sayad Məmmədovun dediyinə görə, həftənin ən azı üç günü xaşıl bişirərdilər, üstünə də yağ, bəhməz əlavə edib yeyərdilər. Qurutlu yarpaq xəngəli bişirib, üstünə də qovurma ət və ya cücə əlavə edib yeyiblər. Yaylağın ən tez hazırlanan yeməyi isə axsağulağı idi. Qatığı ocağın üstündə bulayıb içinə döyülmüş sarımsaq əlavə edir, yağı da əridib onun üstünə tökürdülər. İçinə çörək doğrayıb günorta və ya axşam öynəsində tükədirdilər. Yemək bişirməyə vaxt olmadıqda tezbazar başa gəldiyi üçün axsağulağı ilə həmin öynə yola verilib.

Yaylaqda ən çox istifadə olunan xəmir körəklərindən biri də xingəl (xəngəl) idi. Xingəl bişirilən gün hətta çobanları da xəbəradar edirdilər ki, sürünü uzağa aparmasınlar, günorta xingəl bişiriləcək. Nəcəf Nəcəfovun dediyinə görə, Göyçə xingəlini fərqləndirən nə onun buğdası, nə də yağıdır, onun boşqabda deyil, sinidə verilməsidir. Bütün evlərdə uşaqlar üçün kiçik, böyüklər üçün iri sinilər olurdu, xingəl həmin sinilərə çəkilib süfrəyə verilirdi. Boşqabda verilən xingəl bir-birinə yapışdığı halda, sinidə çəkilən xingəl yarpaq-yarpaq qalırdı. Nəcəf Nəcəfovun dediyinə görə, Göyçədə iki cür xingəl bişirilib: qurutlu xingəl və sarımsaq-qatıqlı xingəl. Qurutlu xingəl çəkilmiş ətlə süfrəyə verilib,

sarımsaq-qatıqlı xingəl isə çolpayla bişirilib, ona həm də beçəli xingəl deyilib. Hər iki xingəl siniyə kartofla birlikdə çəkilib. Beçəli xingəldə çolpanı qaynadanda qartofu da dilimləyib onun suyunda qayandırlar. Sonra çolpanın əti sudan çıxarılıb xırda-xırda doğranır, ədviyyat vurulub qızardılır. Xingəli siniyə çəkdikdə üstündən qartofu, onun üstündən də çolpanı qoyurdular.

Yaylaqda ən çox yeyilən yeməklərdən biri də cılfır idi. Nəcəf Nəcəfovun dediyinə görə, onun nənəsi cılfırı fərqli bitkilərlə – bir dəfə gicitkanla, bir dəfə quşəppəyi ilə, bir dəfə də cincilimlə bişirərdi.

Yaylaqlarda ətsiz də keçinmək mümkün deyildi, 10-15 gündən bir heyvan kəsilirdi. Ətin bir hissəsi həmin vaxt istifadə olunur, qalan hissəsi isə qovrularaq qazanlara yığılıb saxlanırdı. Qovurma üsulu heyvan ətini uzun müddət saxlamağa imkan verirdi. Əti 3-5 gün saxlamaq lazım gəldikdə isə onu qovurmağa ehtiyac olmur, quyu qazılaraq həmin quyuda saxlanılırdı. Belə quyulara "soyux-lux" deyilirdi. Quyuda saxlanılan ət gicitkən, çölkişnişi və kəkotuna bükülür, salafana sarınaraq quyuya qoyulur, üzərinə isə şıppır bitkisi döşənirdi. Quyunun ağzı taxta ilə örtülür, üstü torpaqla doldurulurdu. Bu üsulla saxlanılan ət xarab olmadan 3-5 gün qalırdı. Nəcəf Nəcəfovun dediyinə görə, bir dəfə Bakıya bir dananın cəmdəyini də bu üsulla göndərmişdi. Əti gicitkənə, kişnişə və kəkotuna bükmüş, üzərinə isə pıtırğan yarpaqları qoymuşdu. Həmin bitkilər ətə xüsusi dad vermiş, əti qəbul edən şəxs ona zəng edərək minnətdarlığını bildirmişdi.

Yaylaqda çörək kimi ən çox yuxadan istifadə olunub. Bir dəfəyə bir ayın yuxa ehtiyatı bişirildiyi üçün təkbaşına

onun öhdəsindən gəlmək mümkün deyildir, qarşılıqlı yardımlaşaraq bu iş görülüb. İki-üç qonşu növbəli şəkildə hər gün birinin binəsində toplaşaraq ona kömək edirdi. Yuxa sacda bişirilib, qurudularaq saxlanılıb, süfrəyə veriləndikdə isə yumşalması üçün öncədən isladılırdı. Yuxa bişirilib qutardıqdan sonra şirin çörəklər – kömbə, qatlama, fəsəli bişirilirdi. Kömbə həm sacda bişirilib, həm də külə basdırılıb. Kömbənin unu süd və yumurta ilə yoğrulur, kündəsi bərk olurdu. Onu duağın üstünə qoyub sininin içi boyda yayır, nehrə yağı ilə üstünü yağlayıb qaşığın və ya çəngəlin arxası ilə üstünə naxış salırdılar. Sininin içini yağlayıb kömbəni qoyurdular. Ocağın üstündə bişirdikdə sininin üstü sacla örtülür, ocağın közündən də sacın üstünə qoyurdular. Ocağın közü həm altdan, həm də üstdən onun bişirirdi. Külə basdırdıqda isə öncə ocaq qalanır, köz düşəndən sonra onun közü bir qırağa yığılır, altı süpürülüb təmizlənir, kömbə ora qoyulub üstü də küllə örtülürdü. Kömbənin üstünə qaşıqla naxış salırdılar, üstü qıpqırmızı olanda artıq bişmiş olurdu. Kömbə soyuduqdan sonra dörd yerə bölür, nazik dilimlər halında doğranıb süfrəyə qoyulurdu. Nehrə yağını və ya qaymağı kömbənin üzərinə yaxıb səhər öynəsində şirin çayla yeyiblər. Fəsəli də sacın üstündə bişirilib, üzərinə şəkər tozu səpilərək süfrəyə verilib. Axşam öynəsində isə körəməz (kərəməz) yeyilib. Qatıqla südü qarışdırıb içərisinə xamralı doğranaraq yeyilib.

Çobanlar daim sürünün yanında olurdular. Onlar sürünü nəzarətsiz qoymurdular, ona görə qoyun arxaclarının yanında onlar üçün olacax düzəldilirdi. Olacağın içi buxarı ilə qızdırılar, çobanlar burada gecələyərdilər. Çobanlar əyinlərinə ağ parçadan və ya bezdən tikilmiş alt paltarı,

onun üstündən də qalın parçadan tikilmiş qış köynəyi geyinərdilər. Havalar soyuq olanda köynəyin üstündən yundan toxunmuş jilet, onun üstündən də pambıxlı geyinərdilər. Başlarına isə quzu dərisində tikilmiş şiş papaq qoyardılar. Papaq onlar üçün həm də yastıq rolu oynayır, gecələr yatanda yastıq əvəzinə başlarının altına qoyardılar. Ayaqlarına isə inək və ya öküz gönündən hazırlanmış çarıq geyinərdilər. Çarığın keçi və ya qara qoyunun yunundan hazırlanmış uzun ipləri olurdu, onu da çorabın üstündən dolayardılar. Çarığın öz çətinlikləri var idi; hava yağış olanda islanır, quraq havada isə altı sürüşkən olurdu. Ona görə də çobanlar əllərində ağac hərrənirdilər. Sonralar rezin qaloşdan və tumac çəkmələrdən istifadə etməyə başlamışlar. Çobanlar çarığı yun corabla geyinərdilər. Keçədən hazırlanan yapıncı isə (ona qartı da deyilir) onların ən sevimli geyimi idi; həm onları soyuqdan qoruyur, həm də yatanda yorğan əvəzinə üstlərinə salırdılar.

Çobanlar sürünü otarmağa apardıqda özləri ilə ya hazır yemək götürür, ya da əllərinin altında olan vasitələrdən istifadə edirdilər. Çöldə olduqları zaman qoyun, xüsusən də qara qoyunun südünü sağıb yavanlıq kimi yeyirdilər. Gölkənd sakini Rafiq Kazımovun dediyinə görə, qara qoyunun dərisi Günəş şüalarını daha çox udduğu üçün onun həm əti dadlı, həm də südü keyfiyyətli olurdu. Buna görə də çobanlar daha çox qara qoyunun südünə üstünlük verirdilər. Qoyunun südünü bir qaba sağıb bulağın gözünə qoyur, soyuduqdan sonra içinə çörək doğrayıb yeyirdilər. Bəzən isə südlə qatığı qarışdıraraq köräməz hazırlayır, onun içinə çörək doğrayıb yeyirdilər. Söyləyicilərin dediyinə görə, Allah həmin torpaqlara elə bərəkət

vermişdi ki, dağlarda müxtəlif növ bitkilər bitirdi. Çobanlar çay əvəzinə qaymaq çiçəyi, kəkotu, itburnu, qoyungözü və qantəpər dəmləyib içirdilər. Çöllərdə yabanı halda çölkişnişi, çöl soğanı və acıtərə bitirdi. Çobanlar həmin göyərtiləri toplayıb pendirlə lavaş arasına bükərək yeyirdilər.

Fərdi təsərrüfatı olanlar avqustun axırı məktəblər açılmamış kəndə qayıdırdılar, amma kolxozun sürüsünü otaran çobanlar sentyabrın axırına qədər yaylaqlarda qalırdı. Ümumiyyətlə, quyruqdoğdu deyilən tarixdən sonra dağda havalar soyuyurdu. Bölgədə həm quyruxdoğdu, həm də quyruxdondu variantları işlənir. Quyruxdoğdu göydə quyruqlu ulduzun doğuluşuna görə adlandırılıb, arxasında quyruğa oxşar ağ şüası olduğu üçün ona quyruqlu ulduz deyilib. Həmin ulduz doğandan sonra artıq havalar üzü soyumağa doğru gedirdi. Yeni kəsilmiş heyvanın quyruğunu açıq havada saxladıqda səhər onun üzəri qaysaq bağladığı üçün quyruxdondu adı oradan yaranmışdı. Bəzi bölgələrdə quyruxdoğdu avqustun 5-i, bəzi bölgələrdə isə 15-20-si arasına düşür. Məhəmməd Xanəliyevin dediyinə görə, avqustun 5-dən sonra onları çayda çimməyə qoymurdular ki, artıq quyruq doğub, havalar soyuyub. Həmin tarixdən etibarən ağacların yarpağında qızarma gedirdi. Bilal Abbasovun dediyinə görə, payız lobyası da həmin tarixdən sonra əkilirdi. Tez əkdikdə isti onu yandırırdı, amma quyrux doğandan sonra əkdikdə yaxşı inkişaf edirdi. Həmin tarixdən sora yaylaqda olanlar hazırlığını görər, avqustun axırı isə kəndə qayıdardılar.

Bölgədə qoyunlar iki dəfə qırxılıb. Birinci qırxım may ayında aparılırdı, heyvanları qırxıb ondan sonra yaylağa qaldırırdılar. İkinci qırxım isə yaylaqda olurdu. Avqustun

5-nə qədər heyvanları qırxırdılar ki, soyuqlar düşənə qədər tük özünü tuta bilsin. Göyçə mahalında kolxozun sürüləri yaylağa qalxmamışdan əvvəl qırxıma girirdi, qırxımdan sonra heyvanları tərkibinə heksaxloran və kreolin qatılmış dərmanlı suya salırdılar. Dərmanlı su onların bədənindəki biti, yaranı tökür, həm də dərmanın iyi bir ay onların üstündən getmirdi, ona görə yaylağa gedəndə heyvana gənə düşmürdü. Qoyunları dərmanlı suya saldıqdan sonra quzu anasının iysini itirdiyi üçün ona yaxın gəlmirdi. Heyvanlar qırxıma qədər ana-bala yaşayırdı, yaylağa qalxmamışdan əvvəl zəif, çəlimsiz quzuları seçib sürüdən ayırır, onlar aranda qalır, yaylağa sağlam quzuları aparırdılar. Zəif, çəlimsiz quzuları kəndin ərazisində örüş yerlərində otarır, bir az özlərini tutandan sonra onları əməkgünü olaraq kolxozçulara paylayırdılar. Payız yaylaqdan qayıtdıqdan sonra quzular seçilir, dişisi damazlığa, erkəkləri isə kökəltməyə gedirdi.

Çobanlar sürünü birbaşa kəndə gətirmirdi, bir müddət heyvanları payızlıq yerlərdə, kəndin kənarındakı sahələrdə otarırdılar. Bu müddətdə kənddə əkin-biçin işləri yekunlaşır, məhsul yığılır, heyvanları otarmaq üçün örüş sahləri yaranır, ondan sonra heyvanı kəndə gətirirdilər. Yaylaqdan gələnlər dağa gedə bilməyənlərə yaylaq nemətlərindən pay verirdi. Xalisa kənd sakini Gülnaz Vəliyevanın dediyinə görə, dağdan gələnlər şorkərə düzəldirdi. Şorla yağı qarışdırıb hərəyə bir qab ondan, yanında da bir fətir qonşulara paylayırdılar. Ona görə uşaqlar onların yolunu həsrətlə gözləyirdi. Yaylağa gedəndə olduğu kimi yaylaqdan gələndən sonra da qəbiristanlığa baş çəkir, ölüləri ziyarət edirdilər.

Yaylaq həyatının Qərbi azərbaycanlıların həyatında xüsusi yeri var idi, bunu yaylaqdan danışarkən yaşlı insanların gözünün dolmasından, necə həsrətlə həmin günləri xatırlamasından da sezmək mümkün idi. Yaylaq onlar üçün o qədər əziz idi ki, yaylaqda doğulan uşaqlara Yaylaq adı veməklə həmin tarixi ölümsüzləşdirmişlər. Uşaqların inkişafında, ətə-cana gəlməsində yaylağın böyük rolu vardı. Söyləyicilərin dediyinə görə, yaylaqdan qayıdan uşaqların yanağı alma kimi qıpqırmızı olurdu. Ona görə dağa gedə bilməyən ailələr öz uşaqlarını simsar, yaxın adamlara qoşub yaylağa göndərirdi. Köçəri həyat əslində bir zərurətdən doğmuşdur. Mal-qaranı saxlamaq üçün yeni otlaq sahələrinə, yeni örüşlərə ehtiyac duyulmuşdur ki, bu ehtiyac da onları köçəri həyata sürükləmişdir. Sonralar bu bir həyat tərzinə çevrilmiş və özü ilə bərabər böyük bir yaylaq mədəniyyəti formalaşdırmışdır.

## 2-8. XIDIR NƏBİ

Fevral ayının 12-13-14-ü Xıdır Nəbini keçirdirdik. Göyçədə sünnilər də var idi, bir həftə onlarnan bizim aramızda fərq var idi. – Bala Qaraqoyunnular sünni idi. Onlar 1932-ci ilə qədər bizim kəndnən bir kalxoz olublar, sonra gedib Böyük Qaraqoyunnuya birləşiblər. Qəvirsənniyimiz bir idi. Bizim qəvirsannığımızda bir qoç şəkli var idi, daşdan düzəlmişdi, elə bil canlı qoç idi, onun üstünə yazılan yazıyı hər molla oxuya bilmirdi. – Xıdır Nəbidə qovud eliyirdilər, dərmanda üyüdürdülər. O vaxt çətənəni kartof ləkinin arasına səpirdilər, quruyandan sonra meşoya doldurub çırpırdılar, and olsun Allaha, bazarda da satır-

dılar e. Biz onu qovuda qatıb yeyirdik. Hamı bir-birinə pay verirdi. Niyyət edib yarma xaşılı bişirirdilər. Yarmanı kir-kirədə çəkirdilər. Onu da gecə saat üşdə qalxıb bişirərdin ki, səhər tezdənnən yeyilsin. Hamı bir-birinə Xıdır Elləz xaşılını hədiyə verirdi, yağlı, qurutdu olurdu. Xıdır Elləz çərşənbələrin başı, yazın gəlişi ilə bağlı bayram idi. Bizə deyirdilər ki, kim bu bayramı keçirirsə, Xızır peyğəmbəri elə bil evinə qonax dəvət eliyir, o ev ruzu-bərəkətli olur.

Bir versiya var ki, Xızır peyğəmbərnən İsgəndər Zülqərneyn dirilik suyu dalınnan gedirlər. İsgəndər qoşun-ləşkərnən gedərmiş. Bir gün yolla gedəndə baxır ki, səhrada bir adam peyda olub. İsgəndər deyir ki, sən kimsən? Deyir, mən dirilik suyunun dalınnan gedirəm. Deyir, elə mən də dirilik suyu dalınnan gedirəm. Xızır peyğəmbər deyir, yaxşı, sən dirilik suyunun dalınnan gedirsən, sən içəcən? Deyir, əlbət. Deyir, bəs qoşun-ləşkərə niyə əziyyət verirsən. Deyir, neynim bə? Deyir ki, mən də dirilik suyunun dalıynan gedirəm, sən də. Qoşun-ləşkərin palatkasını qursun, burda yatsın, ikimiz gedək. Taparıx, taparıx, tapmarıx, geri qayı-darıx. Daa bir belə qoşun-ləşkəri niyə sürüyürsən dalınnan? Təzdənnən qoşunun böyüyünə əmr verir, bunlar hamısı palatkaların qurur, bunlar ikisi gedir.

Bir müddət gedənnən sora baxıblar ki, yaxşı laləzər-lik yerdi, qayanın altından su çıxır, iki bulax var: biri parıl-tılı, biri adicə su axır. İsgəndər tez yüyürür parıltılı sudan içir, Xızır peyğəmbər də o biri sudan içir. Xızır peyğəmbər buna sual verir ki, ay İsgəndər, sən dirilik suyunu içdin, yoxsa mən? Deyir, görmədin, ə, mən içdim. Parıltısına baxmadın?! Deyir, yox, mən içdim. Ona kimi Əzreyil özünü çatdırır. – Əl-ayağıvı yığışdır, səni aparram. Deyir, səni and

verirəm Allaha, qoy qoşun böyüyünə əlim çatsın, vəsiyyətimi eliyim, ondan sonra canımı al. Deməli, ordan gəlillər. Gələndə qoşun böyüyünü çağırır. Deyir ki, qabaxda qırx gözəl qız, əlində qızıl sərnic, içində ləl-cəvahir, zərxaranan üsdü örtülü, onun gerisinnən qırx dənə igid əlində yay-oxu, kamanı, onun gerisinnən qırx dənə igid əlində qılınc-qalxan qoşunun arxasınca gedər. Qoşun böyüyü deyir ki, niyə belə eliyirsən? Deyir, sənin nə işinə qalıb, mənim dediyimi yerinə yetir.

Bu vəsiyyətini eliyir, bunu dəfn-kəfn eliyillər, tabuta qoyullar. Xəbər çıxır ki, İsgəndər gəlir. Anası qulax verir, baxır. Deyir ki, yox, İsgəndəri gətirillər, gəlmir. Elə orda deyir ki, İsgəndər gələndə səsi-küyü ərşdən gəlirdi, amma indi İsgəndəri gətirillər. Çıxdılar küləfirəngə. Baxdı ki, qabaxda qırx gözəl qız, əlində qızıl sərnic, üsdü zərxara örtülü, bu keşdi onun dalınnan 40 igid atlı, onun dalınnan... Anası dedi, ay İsgəndər, öləndə də mana təsəlli verdin getdin. Deyəndə deyillər, bu nə olan şeydi? Deyir, İsgəndər demək isdiyir ki, ay ana, ölüm labüddü. Əgər işdi, qızılnan, pulnan alınası olsa, budu, bax, verib alardım. Əgər qalxannan, oxnan, kamannan lazım olsa, döyüşüb alardım. Deməli, ölüm hamı üçündü. Bu dünyaya gələn bir gün dünyasını dəyişməlidi. Yəni anası deyif ki, gedəndə də mənə səbrli ol demək istəyir.

Nəsir kişi deyirdi, kim ki evində Xıdır Elləzi keçirdirsə, qoorğa qoyurur, qovut hazırrıyır, deməli, Xızır peyğəmbəri evinə dəvət eləmiş olur (S. 5).

**3.**

Xıdır Nəbi keçirdirdik. Niyyət eliyirdik, yarım meşoy buğda xəlbirriyirdik, qoorğa qovururdux çətənəli, dəstərdə

çəkirdik, paylayırdıx. Elə bil onu da niyyətə qoyurdux. Gəlib belə əl basırdılar, onu da hər evə bir qab şirniyyatnan qayırıb paylıyırdıx. Belə götürüblər ki, Novruz bayramını Cənab Əli taxta çıxdığına görə keçirdirlər. Xıdır Əlləz onun dörd böyründən əmələ gələnnərdi. Dumannı, xıdırrı, qojamannı, kərimli, bax, hər tayfa bir həftə, bir həftə hamı öz tayfasın adına qovud-qorğa bişirirdi. Yığılırdı ağsakqallar, gəlinnər, xəlbirriyirdi, qoorğoyu qoorurdular. Hərə dəstər çəkirdi, kim niyyət eliyif bir boşqab qayırırdı, paylıyırdı. Qovudun üsdündə şam yandırmaq varıydı. Rəhmətdik qaynanam deyirdi, gəlib, bax, belə Həzrət Əli əlini basıbmış, beş barmağının izi düşübmüş. Şamı yandıranda pambıxdan qayırırdılar, xalis mənsil yağınnan yandırırdılar, elə-belə şamnan yox. Evdə neçə nəfər varsa, o qədər şam qoyulurdu, hərənin adına bir şam qoyulurdu. Kiminsə şamı yanmıyanda deyirdilər ki, bunun ömrü qısa olajax. Bayramda da elə eliyirdik. Hər adamın adına bir şam düzəldirdik, pambığa doluyurdux, yağa basırdıx, yandırırdıx, setkanın başına qoyurdux. Deyirdik, hələ gör kimin şamı yaxşı yanır (S.10).

**4.**

Xıdır Nəbini biz fevralda keçirirdik onu-iyirmisi arası. Qoorğa qoorurdular. Bizim kənddə on dörd, on beş dənə dəyirman oluf. Bu da onu gösdərir ki, kəntdə məhsuldarrıx çox olub. Səksən səkgizinci ilə qədər dəyirmanın biri işdiyirdi. Bir çayın üsdündə yerləşirdi. Sarıyaqubun içinnən bir dənə çay gəlirdi, çox güjdü çay idi, mənbəyini götürürdü Tərsə dağınnan, gəlirdi Böyük Şorcanın sağ qolunan, Aşağı Şorcanın içinnən addıyırdı, bizim kəndin içinnən

gedirdi Nərimannı, Qayabaşı, Məzrədən geçirdi tökülürdü Göyçəyə. Deməli, o buğdanı üyüdürdülər, sonra çırtdağan çöpünü qoyurdular. Mən indi oxuyuram ki, o çöpün tüs-düsünün də böyük əhəmiyyəti var imiş insana. Onu yalnız yağda, ərinmiş nehrə yağında isdadırdılar, yandırırdılar. O da gecənin bir vaxdına qədər yanırdı. Qocalar deyirdilər ki, əgər qəbaxətiniz varsa, nə Xıdır gələjəh, nə Nəbi gələjəh. Xıdır Nəbi gəldi getdi, qış çıxdı. Mənim nənəm çıtdağan çöpünü yandıranda nəsə bir şeir deyirdi, özü də iki-üç kuplet idi. Deyirdim, bu nədi? Deyirdi, sən bilməzsən, get işinin dalınca. Qohumlarının da adına, hətta uzaxda olanların da adına çöp qoyurdu, qom yığılırdı. Onu hazırrıyırdılar, ucuna pambığı doluyurdular, onu yağda saxlıyırdılar. Maraqlı odur ki, qəriflikdə olanın da adına qoyulurdu. Tamamilə yad adamdı, kəndin o başında oluf, amma qəriflikdədi, onun da adına qoyulurdu. Nənəm deyirdi, a bala, beş əsgərimiz var, bax, bu onların adına, üç nəfər gedif hardasa işdiyir, bu, onnarın adına. Mən maraxlanırdım ki, İsgəndər gedif Qazaxıstanda xam topaxlarda işdiyir, onnan bizim nə əlaqəmiz var? Deyirdi, a bala, kəndçimizdi, qoy sağ-salamat gəlsin. Evdə on nəfər olsun, amma iyirmi-otuz dənə çubuğu qom yığıf yandırırdı (S. 14).

**5.**

Əfsanəyə görə Xızır peyğəmbər o vaxdı dirilik suyu axtarmağa gedir. Dünyanı fəth eliyir. Deyir, görəsən mən əbədi yaşıya bilərəmmi? Deyirlər, hə. Deyir, nətər eliyim? Deyir, bir su var, sən o dirilik suyunu işsən, əbədi yaşıyacaxsan. Bunu Makedoniyalı İsgəndər deyir. Deyir, yaxşı, mən ora nətər gedim? Deyir, ora qarannıx dünyadı. Deyir, yaxşı,

mən ora getdim, nətər qayıdajam, saldat nə yesin orda? Deyir, oranın ən yaxşı qidası qoutdu. Deyir, qout nədi? Deyir, buğdanı qourursunuz, üyüdürsünüz. O xarab olmur, bişirməyə də ehtiyac yoxdu, suynan qat ye. Bunu İsgəndərə məsləhət eliyiflər. İsgəndər deyif, bəs at yolu tanımayacax. Deyir, bütün qoşun maydan at minsin, bir də balalarını qoyun burda. O at ki gedəjəh, qayıdanda o at mütləq yolu tapajax.

İsgəndər qoşunun götürüf yola düşür. Verdikləri istiqamətə gedir. Bulağa çataçatda baxır ki, bir qoşun da o yannan gəlir. İki bulax qaynıyır. Biri parıldıyır şüşə kimi, biri də adi daşın arasınnan. Deyir, bunun biri dirilik suyudu, onu içən əbədi yaşıyajax. Makedoniyalı İsgəndər fikirrəşir ki, yəqin o parıldayan sudu. O gedir o sudan içir, Xızır peyğəmbərin qoşunu adi sudan içir. Sən demə, adi su dirilik suyu imiş. Ondan sonra əbədi yaşamax hüququ verilir Xızır Nəbiyə.

Fevralın onu-on ikisində Xızır Nəbini yad eləmək üçün bizim camaat neynirdi? Qoudu qourурdular, aylə-külfət çox idi axı. Hər evdə ən azı yarım meşox, – xizəyimiz var idi, – xizəyə qoyuf aparırdıx dəyirmana. Taxılı qoud eliyirdik, sonra o qoudu gətirirdik, anamız – Allah ölənnərə rəhmət eləsin, – qoud meşoğun ağzını açırdı, aylədə neçə uşax varsa, onun adına çırtdığan ağacının çöpünü götürürdü. Nə qədər şaxta-yağış olsa, o çökmürdü, görünürdü. Ondan yığırdıx, hər aylə üzvünün adına çöp qırırdı. Başına pambığı doluyurdu, onu batırırdı inək yağına, – mənsil deyirdik ona, – hər adamın adına qoudun üsdünə bir dənə şam qoyurdu. Qoud torbada ikən çöpləri onun içinə sancıb yandırırdı. Orda ən çox icra olunan iş nə idi? Qızdar, oğlannar hərəsi

bir nəlbəkidə qoud qoyurdu, onu aparıb damın üsdə qoyurdu. Gözdüyürdük görək kimin qoudunu qarğa – o vaxdı ac olur axı – götürüf kimin damına gedəjəh. Qarğa götürüf filankəsin damına qonurdu, deməli, bu qız ora ərə gedəjək. Bax, bu dəqiq idi.

Biz də qoudu bir neçə formada yeyirdik. Kimsə şərbətnən qatırdı, kimsə də soğança edirdi, kimsə də inək yağını əridirdi, yağnan qarışdırıb yeyirdi. Mən şərbətnən xoşduyurdum.

Xızır Nəbinin bu ölkədən keçməsini bayram edirlər. Fevralın onu, on ikisində onun qoşunu mütləq gəlir. Onu biz siklon şəklində görürük. Elə bir çalpo gəlir ki, vıyıltıqiyamat, hamı da bilir ki, Xıdır Nəbidə yağacax. Külək, çalpo, qiyamat, üç günnən sora çovğun keşdi, baxırdın ki, gün çıxdı. O gedənnən sonra yazın iysi duyulurdu. Xızır peyğəmbərin qoşunu gəldi keşdi, sabah ki gün çıxır ha, artıx torpağa nəfəs gəlirdi. Yadımdadı ki, fevralın axırına yaxın hamı bu kəntdə torpax belliyirdi. Biz o vaxdı kartofu əkirdik, üsdünə qar yağırdı. Hamı deyirdi soyux alacax, amma yox. Qar əriyən kimi qartof da onnan barabar çıxırdı. Dəmyə olduğuna görə çalışırdıx ki, tez əkək, qartofun çiçək vaxdı yağışa düşsün. Onda qartof yaxşı məhsul verirdi (S. 51).

**6.**

Gedirdik çöldən – uşağ idim onda, – çıtdağan ağaşdarını yığıf gətirirdik. Yeddi dənə dəstəliyif qom bağlıyırdıx. Yeddisinin də başına pambıx doluyurdux. Buğdeyi qovurdux, qovut üyüdürdük. Onu qəşəh yağnan qarışdırıb yeyirdilər, şirəynən də. Qovudu tökürdük bir siniyə, o çıtdağannarı da basırdıx oraya, başına pambıx-yağ eliyif od

verirdik, yanırdı qəşəh. Guya Xıdır Nəbi gələrmiş, o qovutdan yeyərmiş. Bax, ermənilər də ona əl uzatmışlar. Deməli, gecə yatıflar. Həmən Xıdır Ellaz gecəsi erməni qonağ oluf azərbaycannı evində. Baxıf ki, bular çox inamlı iş görüllər, çıtdağanı yandırdılar, qovuda basırdılar. Hamı yatır, ermənіyə də yer salıflar. Gecənin bir vaxdı qalxıf qoudun bir tərəfini pisdiyif, tezdən də çıxıf gedif. Tezdənnən azərbaycannılar qalxıf ki, görək beyjə Xıdır Nəbi gəlif burda qovut qatıbmı. Baxanda görüflər ki, bu ermənіyə Allah nəhlət eləsin, bunu pisdiyif. Ondan sonra ermənіyə həmişə nəhlət oxuyuf camaat.

– *Soruşmamısan Xıdır Elləz kimdi, bu bayramı nə üçün qeyd eliyirlər?*

– Novruzu bilirəm bir yetim sevindiriflər. Xıdır Nəbinin yaxşı bir atı oluf, yel atı. O vaxdı küləkli oluf deynən onu Xıdır Nəbi adlandırıflar ki, Xıdır Nəbi gəldi. Xıdır Nəbinin küləyidi. Xıdır Nəbidə xaşıl çalınırdı. O xaşılı qızdar aparırdı bir ağacın divinə, ya bir damın belinə qoyurdu, qarğa gəlif onu hansı səmtə aparsa, o qız o səmtə ərə gedirdi. Uzağa aparanda bilirdilər uzağa gedəcək.

– *Dediz bir yetim sevindiriblər, o necə olub?*

– Deyir, bir yetim olur, adı Novruzumuş. Onun heç baxıb edəni yox imiş. Həmən gün ona kimsə pay gətirif, yumurta boyuyub gətirif, şirniyat-zad verif. Bax, həmən günnən də Novruz sevindirilən gün Novruz bayramı adlandırılıf (S. 19).

**7.**

Hər il Xıdır Nəbi keçirilir. Fevralın 17, 18, 19-da – üş gün keçirilir. Xıdır, Elyas, Nəbi. Fevralın 17-də Xıdır gəlir.

Torpağa ruxsat verilən gündür. İyirmi ikisində il dönür, amma on yeddisində torpağa ruxsat verilir, torpax oyanır yavaş-yavaş. O mametdə bizim camaatımız gətirərdi sacı, buğdanı tökərdilər içinə, qovurardılar birinci gün, fevralın 17-də. Qovurannan sonra onun içinə fındıxdan, qozdan, kişmişdən, nəyi varsa qatardılar, verərdilər uşaxlara. Hərə bir cib doldurardı, ayna-bayna gedib yeyərdi. İkinci gün həmin qovrulmuş buğdanı kirkirədən keçirirdilər, un kimi olurdu, onu da şərbət qayırırdılar, süd qatırdılar. Üçüncü gün də səməni halvası bişirirdilər. Buğdanı cücərdirdilər, daha yaşıllaşmağa qoymurdular. Onu çıxardırdılar, yuyurdular tərtəmiz, doğruyurdular, qoyurdular qazanda bişirdi. O qədər bişirdi, həlləmə olurdu, xaşıldan bir qədər yumuşaq. Onu yeyirdilər. Kim bacarırdı onu eliyirdi, ondan qonşulara da pay verirdi (S. 47).

**8.**

Oruşduxdan sonra səfər ayında on gün oruş tutular. Dehin[5] orucu var. Məsələn, mən ürəyimdən əməliyyat olunandan sonra yoldaşım bir həftə oruc tutdu. Bu dehin orucudu. Xıdır Əlləz orucu da tutulur, üç gün tutulur. Fevralın ikinci həftəsi tutulur. Ramazan orucu ilə eyni qaydada tutulur. Səhər yeməyin yeyir, axşam da orucun açır. Xızır orucu bir inancdı. Səni bu il qarşıladım, imkan ver, gələn il gənə oruc tutaram və səni qarşılayaram. Bir də dehin orucu var. Qovudun üsdünə əl basanda sevinərdi, onda dehin eliyərdi ki, oruc tutaram. Hər il anam taxılı qovurardı, üyüdərdi, axşam yatanda dörd tərəfində şam

[5] Dehin – deyin, niyyət

yandırardı. Sabah qalxırdıx ki, qovudun üzərində iz var. Elə sevinərdik ki. Həmən il ruzu-bərəkətimiz başdan-ayağa daşardı. Anam deyirdi ki, ay bala, sən bizdən ayrılandan daha Xızır bizə gəlmədi. Ruzu bir adamın ayağında olar. Həmişə bu öydən başqa öyə köçürük ey, anam mənə örgətmişdi ki, ay bala, deyərsən, ay öy yiyəsi, mən gedirəm, gəl biznən gedək. Onu orda əyləmə. Mən Ermənistandan gələndə şələ-şüləmi yığdım. Dedim, ay öy yiyəsi, gəl mənnən gedək, daha mən bu öyə gəlmijəm. Gəldik Bakıya. Hansı öyü dəyişdik, ay öy yiyəsi, gəl biznən gedək. Mənim kərbəlayı dostum var, evə girəndə öy yiyəsinə salam verir.

Ferval ayının 13-də Xızır orucu qutarırdı. Xızırın gəlişi yazın gəlişidi. Yazın gəlişini xəbər verir (S. 44).

## 9-16. AXIR ÇƏRŞƏNBƏ VƏ NOVRUZ ADƏTLƏRİ

O vaxtı arvatdarın hamısı əriştə kəsirdi. Yeddi-səkgiz arvat yığılırdı, bir meşoy unun əriştəsini kəsirdi, qoorordu. Deyirdi, bayrama bişirəcih. Bayramda mütləq əriştə aşı, qaysava olmalıydı. Onu bayrama eliyirdih, çərşəmbə süfrəsinə ərik də qoordular, kimin qoynunnan nə qopur onu eliyirdi. Əmmə yeddi löyün olmalıydı. İlin axır günü balaca uşağın əlinə iki dənə boş quruşqa verirdin, sən də niyyət tuturdun. Deyirdin, get, bunun birini doldur, birini boş gətir. Əyər sən niyət tutduğun quruşka dolu gəldi, niyətin düzəldi, dolu gəlmiyəndə deyirdin ki, niyətim düzəlmir. İlin axır günü obaşdandan at aparırdılar su üsdünə. Həmən gün sabaha yaxın at göösəh vurur. Suyun üsdə durasan baxasan, at göösəsə, elə bil niyətin düzəlirdi. İlin axır günü çaydan yeddi dənə bəzəhli daş götürürdün, hər rəh daş olardı. Onu

gətirif, həmən sudan da götürürdüh, onu şüşüyə tökürdüh, daşı da içinə atırdıx. Daş suyun içindəcə durурdu, bir il saxlıyırdıx. Bir ilin axırında da aparıb həmən çaya tökürdüh. Mənim qaynənəm, Allah rəhmət eləsin, sabah olanda tezdənnən qalxırdı, camaat suyun üstünə çatmamış su götürüf gətirirdi, hər şeyin üstünə çiliyirdi ki, bərəkət gətirir, a bala. Özümüzə çiliyirdi, ağırrığımız-uğurruğumuz qoy köhnə ildə qalsın. Cavan oğlannar çıxırdı suyun başına, sulaşma eliyirdilər, ürəyi istiyən qızdarı suluyurdular.

Qızdar yığılırdı, köhnə öylərdə yıllancığ[6] qururdular. Bir on qız, on iki qız. Öydən aparırdılar, orda sabahacan pişirirdilər, yeerdilər, onnan da qayıdıf çiləşmə başdıyırdı. Düz günortaya kimi çiləşmə olurdu. Təzə gəlinnəri çıxarırdılar suya ki, qoy gəlinnərin çiləsi uğurru olsun. Gəlini qəynənəsi çıxardırdı bulax başına, iki kilo da şaqalad götürürdü, şirinlik paylıyırdı ki, gəlinim suya çıxıb. Yelləncəkdə yellənəndə mahnı oxuyurdular, bayatı çağırırdılar.

Yelləncəhdə yellənən qıçım,
Qab-qaşığı qıran qıçım.
Elçi niyə gəlmədi mana.
……[7]

Yıllancığı bacanın başınnan qururdular, kimin sevgilisi varsa, o qızı çəkirdilər yuxarı, kəndiri buraxanda qız yıxılırdı. Bacanın başına taxta qoyurdular, taxtadan da yelləncih asırdılar. Onun üstünü örtürdülər ki, day heş kim gəlif toxunmasın. Qız minən mament oğlannar gəliv o yelləncyi çəkirdi, yuxarı qalxanda məcburdu, özünü atırdı. Atanda da yıxılırdın.

---

[6] Yıllancığ – yelləncək

[7] Söyləyici şeirin arxasını xatırlaya bilmədi.

Köhnə mis qablar olurdu, ona su qoordular, nişannı qızdarın üzüyünə sap bağlıyırdılar, sallıyırdılar stəkanın içinə. Neçə dəfə kənarına dəysə, o qız o yaşda ərə gedəcəh.

Səmənini bayramnan sora suya axıdırdığ. Deyirdik, niyyət tuturam səmənim axsın, niyyətim düzəlsin. Ya da elə bir yerə atırsan ki, ora mundar olmasın. Əmbə biz səmənini suda axıdırdıx, Sarınər çayı var idi. Bayram qutarannan on gün sora aparıb səmənini axıdırdıx.

Bayrama Həzrət Əli bayramı deyərdih. Canım fidah olsun, deyillər, Cənab Əli həmən günü taxta çıxıf, xəlifə olub. Elə bil inacımız qalıf ki, Cənab Əli taxta çıxan günü biz müsəlmannar bayram eliyir. Mən elə bilirdim, babalarımız elə söylüyüf. Yumurta boyuyurdux, baca-baca gəzirdi uşaxlar. Bax, elə uşağ olurdu o baca-bacada bir ləyən yumurta yığıf gətirirdi. Bir gün yumurta bayramımız olurdu, elə bil ki, bayramnan bir gün qavağ. Hamı yumurta boyuyurdu. İlin axır çərşəmbəsin ki keçirtdih, ona qurşağ deyirik biz. Onnan sora elə adam olurdu yüz yumurta yığırdı, elə adam olurdu əlli yumurta yığırdı. Onu da bütün boyuyurduğ.

Baca-bacıya da beş uşağ, on uşağ bir dəfə əlirdi. Onun gərəh torbasına, papağına yumurta qoyardın. Bayramı Göyçədə biz iyirmi ikisi eliyirdih, burda iyirmi biri eliyirik. İlin axırınnan qabağ uşağın kirvəsi gəlirdi. Biz martın axırına kimi bayramlaşırdıx. Kirvə çərşəmbədən bir gün qabax, çərşəmbə günü gəlirdi, bayramlaşırdı, onnan sora uşax yiyəsi gedirdi kirvənin qapısına. Elə bil uşağın üstünnən çərşəmbə keçməzdi. Mütləq çərşəmbəyə qədər kirvə gəlib görməliydi uşağı. Bizdə inac elə idi, axırıncı çərşəmbə gəlməlidi. Kirvə gələndə ayləsinən gəlirdi, uşağa paltar,

yumurta, un, qənfet gətirirdi. Həmən kirveyi də biz ziyarət eliyirdik. Bax, bu oğlumun kirvəsi oluf, onun da oğlunu bu oğluma tutmuşux. Biz kirvə dəyişmirih, deyillər, düşər-düşməzi olar. Üç uşağ bir kirvənin qucağına qoyulmaz. Üç oğlun var da, kəsilif, gərəh onun arasında bir xoruz kəsə-sən ki, tək olmasın. Uşağ kəsiləndə, uşağın arasında bir dənə də xoruz kəsirih. Həmən xoruzu bişirillər, dəlləh də, kirvə də onun ətindən yeməlidi. Kirvə prastinadı, sabındı, belə şeylər gətirir, uşağın üzünə qırmızı parça tutur. Onnar dəlləyə çatır. Kirvələr əllərini bir-birinin üstündə yuyur, öpüşüllər, kəsilən beçiyi bişirillər, dəlləh, kirvə yiyif gedir.

Uşağın başının altına qaynənəm suyun içində yumurta qoyurdu, bir də qapının ağzına zincir atırdı ki, day nəzər-məzər olmasın. Sünnətdə kəsilən əti alma ağacının budağına keçirirdin, yanına da bir alma qoyurdun, qoyurdun ağacın, evin başına, hündür bir yerə. Quruyannan sora da götürüf atırdın. Onu mənim qaynənəm eliyirdi (S. 43).

## 10.

Samavar götürürdülər, içli kətə bişirirdilər, cavan gəlinnər, qızlar yığılırdılar, samavar da əllərində gedirdilər bulaq başına. Gəlinə ayağaşdı eliyirdilər. Gəlin bulax başına çıxsın ki, ayağaşdı eləsin. Elə gəlinnər var qırx yaşına kimi qaynatasıynan danışmazdı, ağzı yamşaxlı. Sonra kişi deyirdi, sən də mənim bir balamsan, artıq danışa bilərsən.

Bayram süfrəsində yeddi löyün nemət olardı. Ən başda da süddü aş gəlirdi. Səhəri gün də bayramlaşma olurdu. Baca-baca bizdə gedirdi ayın 27-sinə, 28-inə kimi. Gəlinlər çox olanda 27-28-nə kimi baca-bacaya gedirdilər. Baca-baca nə idi? Məsələn, bu yay Zülfəlinin evinə təzə gəlin gəlif. Onun

başına yığılırdılar. Kənddə neçə nəfər var? İyirmi nəfər, otuz nəfər, son vaxtdar pula döndərdilər, qabax xələt alırdılar, parça alırdılar. Üç metr parça alırdılar, dörd metr atlas alırdılar. Həmin hədiyələri də aparırdılar gəlinə. Şaqaladı, parçası, mer-meyvəsi, hər şey yanında aparırdılar gəlinə. Ondan sonra parçeyi ləğv elədilər, pula çevirdilər. Deyirdi, ala bu iyirmi manatı, gəlin özünə nəsə alsın. Kənddə bir dənə gəlin qoymazdılar ki, onun baca-bacası qalsın. Bütün təzə gəlinlərin başına yığılırdılar. Bugün Zülfəli müəllimgildə, sabah bizdə, bürsüyün o birisində. Toyu olan dokkuz nəfər varsa, qohum-qərəbə içində bölürdülər. Deyirdi, filan günü filandı, filan, filan, bayram qutaranda gəlinlərin baca-bacası da qutarırdı.

Axırıncı çərşənbəyə deyirdilər qara çərşənbə, ölülərin bayramıdı. 21, 22, 23-ü bayram keçirirdilər. Çərşənbələrdə od qalıyırdıx. Hər çərşənbə damın üsdündə od qalıyırdıx. Samanı-zadı qurudurdux, qışdan çıxmış samandı, qoyurdux günün qabağına quruyurdu, kənddə çərşənbələrdə bütün evlərdə od yanırdı.

Bayramda gedirdilər şəhərə evdəki hər bir adama balacasından tutmuş böyüyünə kimi hədiyə alırdılar. Başdan-ayağa yenilənirdi. 15-20 kilo şaqalad alırdı, o şaqaladlar qohum-qələbəynən bayamlaşanda paylanırdı. Bir dənə gözəl adətimiz var idi. Uzaqdan qonax gələrdisə kəndimizə, o qonağı hamı evinə qonax edərdi. Hər gün bir adam onu evinə aparardı, hamı onu qonaxlıyıb sonra yola salırdı (S. 17).

**11.**

Ən çox da qızlar gedirdi pus-pusa. Özü də nətər gedirdi. Əksəriyyət oğlan paltarı geyinirdi, başdarına da

kepka qoyurdu oğlannar sulamasın deyə. Bayram günü hamımızın təzə paltarı olmalı idi. Qızlar güllü don tikirdi, güllü çantaları olurdu, oğlanlar da təzə paltarların geyinirdi, kənddə üç yüz evdirsə, üç yüzünü də gəzməli idin. Onda da ən qiymətli hədiyyə yumurta idi.

Qara bayramda hamı yığılırdı qəbirsənniyə. Hamı otururdu, hərənin də əlində torba belə düzülürdü. Ölünün ehsanına bir karopka kanfet alırdım da mən, onu tökürdüm vedrələrə, bir-bir hamının qabağına düzə-düzə gedirdim. Mən qutardım, mənim dalımca sən gəlirdin. Ehsan verənnər helə kanfet, şaqalad, qənd paylıyırdı. Beləcə düzülürdü bütün millət, hamı bir-bir paylıyırdı, torbamıza yığıb gətirirdik. Ondan sonra həmin gün evlərdə mütləq qazan asılmalı idi. Deyirdilər bu evin keçmiş sakinlərinin ruhları gəlir. Orda həmin adamların ruhuna həmsurə oxunurdu. Təzə ölü düşüfsə, qonum-qonşunu da çağırırsan. İli çıxannara bir neçə il qara bayram verirsən. Qonum-qonşunu çağırırsan, orda həmsurə oxunur, ehsan verilir (S. 51).

## 12.

Novruzda tonqal qaleyrığ, üstünnən hopbanerlər, qapı-qapı papağ aterlar. Oğlannar arvad paltarı geyner, qızdar oğlan paltarı geyinif dokqaz-dokqaz gəzerik. İndinin özündə də var. Yel çərşənbəsi, su çərşənbəsi, qara çərşənbə, nə bilim, yaz bayramı, bax, belə çərşənbələr keçirerik. Üçüncü çərşənbəyə qara çərşənbə deyirlər. Hamı qabır üstünə geder, Quran oxudor ölənnərinə, qazan aser, halva çaler. Qəbir üstünə qoyurdux, uşağ doludu balacabalaca, heş qoyollar ki qala. Qəbir üstünə un tökörük, taxıl tökörük quşdar yesin. Səməni qoyoruğ, su tökörük daşın

üstünə. Suyu baş daşının qırağına tökörük, eləsi var aparer üstündə şam yandırer. Deyir ki, yanı adamın var, səni yada saler. Başdaşını daşnan takqılladırlar, burda da varmı bilmerəm, daşnan vurorux ki, gəlmişih. Belə şeylər var, dərdin alem. Suyu tökəndə deyillər pismillah əşədi ənnə la ilahə illallah. Belə bir söz deyir molla, biz də tökörük. Burda bir türk mollası var. Türkiyədən gəlib, qadındı özü də. Onu apareyrıx, gedir orda "Yasin" oxuyur. Onnan sonra ordakıların hamısı bir-bir, bir-bir aparır oxudor. Saat 10-da gederik ta axşamatan. Yanı üş gün vaxdı var, üş gün ərzində ziyarətə gedif gələ bilərsən. İndi gürcüstannılar Novruz bayramında çıxer. Elə insan var ki, ikinci çərşənbədə çıxer, elə insanlar var, axır çərşənbədə çıxer.

Altı ayı tamam olmayana qara bayram düşmür, altı aydan sora düşür. Altı aydan sonra Qara bayram verilməlidi. Altı ayına qədər olan qavır üsdünə getmer ha, onun camaat geder öyünə, şirni aparellər, deyirlər ki, sən də gələn bayramını keçirginən, yasdan çıxginən.

İlaxır çərşənbədə, Novruz bayramında yığılerlər gederlər bulaxdan lal su gətirellər, su gətirən lal geder, lal gəler. Gətirellər, birinci üzüyü suda tıkqılladırlar, üzüysallama deyirlər. Onu Novruz bayramında eliyirlər. Danatma ayrıdı, üzüysallama ayrıdı. Qızın nişan üzüyün ipə bağlerlar, salerlar, neçə dəfə dəyir, deyirlər, hə, sən bu yaşda evlənəssən. Gederlər Kürün qırağınnan axar su gətirellər. Bayramdan sonra kim ister səmənidən halva çaler, kim də istəmer aparer axar suya tullor ki, öyümün, eşiyimin, oğlumun, qızımın, özümün, gəlnimin ağrısı bu suynan getsin. Səmənini saxlerlar, saraler, ondan sonra halva çalerlar.

Onu ən çox türklər[8] eliyir. Biz də türklərdə görmüşük onu. Ramazan bayramında çağırellər də, ora gederik, böyüh bayram keçirellər, toy-düyün çaldırellər olar. Kimin xətrin çox istellər çağırellər, şirnili-mirnili gederik orya.

Danatma gününnən başderlar martın 22-sinə kimi üş gün uşaxlar baja-baja gəzer. Həmin danatma gejəsi uşaxlar gəlin paltarı, qız paltarı geyner, əllərində hasa gederlər qapı pusurlar. Kim pis söz danışdı suyu başına tököllər, daş atellar, elə görmüşəm, ağren alem. Keçən ilə qədər cavannarı başıma yığıf oynamışam, əmə bu il yox.

– *Su üstünə nə vaxt çıxılır?*

– Ayın 17-si keçənnən sora Novruz bayramı gəler, onda gedellər səhər dörtdən sonra suyu gətirellər, öyə qoyollar. Elə bil yerə qoyollar ki, heç kim gəlməsin orya, qapıyı da kitdellər. Yəni üstünə adam getməsin. Yiyib-içənnən sonra qızdar yığıler, o suyu dingildədənin başına qırmızı saleyrıx, daha görmör kimdir. Gözünü bağler ki, kimin üzüyü olduğunu bilməsin. Biri sudan bir əşya çıxardır, deyir, bu kimin baxdıdı? Deyir ki, filankəs 20 yaşında evlənəjək.

– *Kosa bəzəmək olub?*

– Hə, olub, burda vardı, demerəm oğlan paltarı geyerik, kosa qayrerıx. Bir nəfər qabaxda cıdırı çəker, daldan da beş-altısı gəler. Dəstə olur, 8-9 nəfər, iki yerə bölünör. Demerəm keçən ilə qədər mən oynurdum, bu il uşaxlar dedi, dedim yox. Qara zurna çalerdı. 25 manat yığerığ, vererik zurnaçı gəler, dörd saat, üç saat çaler, varer geder. Hər qapıya gederik, hamı pul verer, qara zurnaya oynorlar.

[8] Axısqa türklərini nəzərdə tutur.

Öy yiyəsi çıxer, qapısında beş dəkqə çaldırer, pulunu verer, varer geder. Kosadı, gəlindi, keçəldi, vəssalam. Pay yığan ayrıdı. Gəlinnən kosa qavağa düşör, biz də dalıynan oynuya-oynuya gederik. Öy yiyəsi də çıxer, nəzirini verer.

Mənim bajım oğlu müharibədə xəstələnmişdi. Bajım yeddi il dan atdı. Gejə sabaha qədər hamımız tayfalıxnan otdux orda. Aş, plov, dolma, xurma, mer-meyvə, toyux qızartması, nə bilim, cücə-zad. Yəni sabaxa qədər çağırdığımız adamın ağzı işdəməlidi, sabaxa qədər yeməlidi. Yaşdılar yığışırdı, başı çıxan danışerdi, başı çıxmıyan da eləcə qulağ aserdi.

Novruz bayramında paltar geynerdik. Arvad paltarı, kişi paltarı geynif gəzerdik. Keçən il eləmədilər şəhidə görə. İndi qabaxkı kimi ləzzəti yoxdu bayramın. Bu şəhidlərdən sora eləmirlər. Eliyir ancağ uşağ-muşağ, keçən il qara zurna çalmadılar, iki dənə şəhidimiz varıydı ona görə.

– *Novruza Əli bayramı deyərsiz?*

– Biz onu bilmirik, ölüm. Uşaxları söyündürördük, gəl, ölüm, bu gün bayramdı, sana bayram payı almışığ. Onu elerlər, indi də var o. Hər çərşənbə tonqal qaleyrığ, üsdünnən hoppanırıx, bircə ölü çərşəmbəsində hopbanmırlar. O da nədənsə hopbanılmır, qara bayramdı deyirlər. Bircə ocaq qalaner, hər ölünün adına az da olsa tonqal qalaner ki, geri yanında işıx yandıranın var. Hər kəs öz qapısında qalıyır. Məsələn, bu nənənin adına, bu babanın adına, hər ölün adına. Məsələn, baba ölüf, nənə ölüf, dayı ölüf, ojaxdan gedənlərin adına ojax qalanır. Səmənini cücərdirik; kimi ikisini, kimi birini. Bayramdan sonra onu biz suya tullordux, arxa tullordux. Ancağ türklər pişirirdi, biz yox. Gürcüstanda səmənini bişirib paylerdılar qonşu-

lara, səməni halvası deyirdilər. Biz aparerığ suya tullorux, deyirik ki, ajımız-üjümüz siznən getsin.

Bayramın səhəri qohum-qonşuya gedersən, şirni aparersən, "bayramın mübarək olsun" deyirsən. Gəlin görməyə gedersən, yolda kimi görürsən öpüşürsən, görüşersən, deyirsən "bayramın mübarək olsun". Hə, elə şeylər indi də var.

Oğru nəfəs indi veriləjəh, ayın 17-sinnən[9] uje veriləjəhdi. Yerə nəfəs verilir, uje yerdəkilər üzə çıxajağ. Novruzda yerə nəfəs keçer. Onnan sora qarı nənənin borcu var, apreldən üç gün borc götürör. Kimi deyir 20-sinə düşür, kimi deyir 15-nə düşür. 15-20-si arasında olur. Apreldən borc götürör. Öyün tikilsin, neynirsən borc alıb. Görör hava gözəldi, oylaxları elə gözəl otdor, mahnı kimi sözləri vardı, nənə deyerdi. Onnan sora apreldən üç gün borc aler. Allahdan savax qalxer ki nənə, qar yağıb. Oylaxlar da ajınnan qırıler, ot yoxdu axı. Onnan sora elə gözəl gün çıxer, otdar çıxer. Nənə özün yerə budor ki, otda, oylaxlarım, otda. Oylax yoxdu, nə otdasın?

Tünzalə o gün deyir dan ateyram. Deyirəm, aaz, lal suyu gəterginən. Deyir, o nədi aaz, kimdi gedən, bizdə elə şey yoxdu. Deyirəm, bizdə dan atanda lal suyu gətirer camaat. İlin axır gejəsində olor. Suyu gətirən danışmamalıdı. Qalanını da evə çiliyirlər, uşağlara içizdirerlər, özdəri içer. Günorta dörtdən sonra gederlər bulaxdan gətirerlər, şər qarışana qədər öyə gəlerlər. İynə sallamax gejəsi, ilin axır gejəsi olor. İntaası suyu gətirən danışmer, lal gəlməlidi.

Deyir:

[9] Martın 17-sini nəzərdə tutur.

A lal gəlin, mal gəlin,
Suyu gətir, can gəlin.

Belə bir söz deyirdilər. Dalın bilmerəm, elə yadımda qalan budu. Kimisini də yolda güldüröllər, suyu tökör, bir də geder yazıx (S. 12).

**13.**

Axır çərşənbə ölülərin üsdünə çıxırdılar, ona qara çərşənbə deyirdilər. Onda o qədər çalğı-zad olmurdu. O biriləri təmtəraqlı olurdu. Qəbr üsdünə tezdənnən gedilir. Burda köhnə ölülərə o qədər də gedilmir. Hamı gedirdi, hərə də bir sumka konfet, peçenye alırdı, apardığımız sumkaları qəbirsannıxda qapının ağzına qoyurdux. Yaşlılar palaz sərirdilər, kim nə gətirib hamısın töküb ora qarışdırırdılar. Qəbirsannıxdan çıxanda hərəyə nəlbəki verirdilər ki, ehsandı. Götürən götürürdü, qalan qalırdı kəndin kasıblarına. Muşoğa yığırdılar, o kasıblara verirdilər. Ordan gəlirdilər qara bayram keçirirdilər. Kimin ölüsü var, ili çıxmıyıb, qəbirsannıxdan qayıdırdıx, düşürdük kəndin başınnan dəsdəynən gedirdik başsağlığı verirdik həmin adam. Bir stəkan çay içən də olurdu, içməyən də olurdu. O qapılar qutarandan sonra gəlirdilər evə. Burda əsas ili gözdüyüllər, amma orda deyirdilər ki, qara bayram oldu, ölünün ili çıxdı. Yəni yasdan çıxırsan da, toy eliyə bilərsən.

Bizdə papaqatdı bayramı da olurdu. Biz dağlılar bayramda papaq atardıx. Yerli camaat axır çərşənbədə qəbir üsdünnən gələndən sonra yeməklərini hazırlayırdı, buxça bağlıyırdı. Aldıxlarınnan naskımı[10], dəsmalmı hərəyə bir

[10] Naskı – corab

pay yığırdılar, qohumların evinə gedirdilər. Ancaq biz dağlılar onu bayramda eliyirdi. Qulaq falına çıxma axır çərşənbədə olur. Allah ölənnərinizə rəhmət eləsin, mənim rəhmətdik mamam bir az ağrıyırdı. Gedir qonşunun qapısına qulağ asmağa. Deyir, gördüm qonşunun qızı şirinçay qarışdırır. Elə takkıldadır, takkıldadır. Axırda qayıtdı ki, heç bu çay şirin olmadı. Sora gəldi, heç bir il keçmədi rəhmətə getdi. Onnan yadımdadı ki, dedi yaxşı şey döyül. Nərminə adında bir qız var idi, o məni götürürdü, bacabacaya gedirdik. Mən oğlan paltarı geyinmirdim, o geyinirdi. O qabağa dururdu, o atırdı.

Su falı, üzük falı hamısı bayramda olur. Su qoyullar, üzük də nişan üzüyü olmalı idi. Hansısa nişannı qızın üzüyün götürürdük, sapa salırdıx, belə tuturdux. Bir az qalırdı, o yellənirdi. Gedir gəlir, gedir gəlir. Neçə dəfə dınqıldıyırdısa, guya qız o yaşda nişannanacax. O da düz çıxırdı. Yerlilər bayramlaşmaya axır çərşənbədə gedir, amma biz bayram günü. Mamamın sağılığında ən birinci nənəmi gedib ziyarət eliyirdi, qayınanasını. Parçalar olurdu, platnoy deyirdilər, həmişə də onnan alırdı. Sonra gedirdi atası, anasıgilə, boyük qardaşı arvadı, böyük bacısıgilə gedirdi, hamısına da pay aparırdı, onlar da bizə gəlirdilər. Buxça bağlıyırdılar. Buxçada bayramda nə olur onnan olurdu. O vaxdı o qədər də şirin çörəklər bişirilmirdi. Maqazinən qoz, fındıq, kanfet, hamı da üstünə nəsə qoyurdu, parça, yaylıx alırdı.

Axır çərşənbədə deyirdilər mütləq aş olmalıdı. Düyü aşı olurdu, içinə də ərištə qatırdılar. Plov olur, içinə kişmiş əvəzinə, maş əvəzinə ərištə qatırlar. Onun ayrı dadı olur. Qarası ayrıca hazırlanır. Qarası ət olur, ərik, şabalıd, alça, xurma qatırlar (S. 48).

## 14.

Aprelin 21-dən 23-nə kimi qarının günləridi, ondan sonra comuş qırılan gəlir, o da üç gün çəkir. Amma ən pisi qarının günləridi, onda hava da özünü göstərirdi; yağış yağırdı, hava soyuyurdu. Aprelin 21-də mart çıxır, onda qarı sevinir. Deyir ki, mart çıxdı, dərt çıxdı, otda, oğlağım, otda. Mart da apreldən üçcə gün borc alır. Deyir, üşcə gün mana borc ver, bu qarının imanını belə-belə eliyim. Boran eliyir, qarının çəpişdərin qırır. Qarı baxır ki, nə oğlax qalıf, nə bir şey. Onda deyir, dilim qurusun, otda götüm, otda. Qarının borcu çıxırdı, ondan sonra üç gün də comuş qırılan gəlirdi.

Bizdə gejə eşiyə yemək qoyurlarmış, yumutta bəziyib qoyurlarmış ki, Həzrət Əli gəlib keçəcəhdi. Hətta buna bir rəvayət də söylüyürlər. Molla kişi İsmeyilin babası olufdu, Sarı ilə bu tay[11] imiş. Bunların cavannığında olufdu, olardı on üç, on dörd yaşları. Nəysə, acıllar. Sarı deyir ki, a Molla, cijim[12] ora yumutta qoyuf, qout qoyuf, gedif onu götürək yeyək. Nolajaxdı. Molla Sarıya deyif. Mən elə eliyəjəm ki, cijin elə biləjəh Xıdır Əlləz gəlif keçifdi. Gedif yeməli şeyləri götürüflər, Molla kişi at poxu tapıf gətirif. Gətirif qoudun böyrünə qoyuf, suynan torpağı yumuşaldıb barmağınnan at nalı kimi yerə iz salıf. Sabah qoja qarı gəlif: Boy, atına da qurban olum, özünə də. Atın poxun götürüf belə öpür. Aradan bir ay keçir, bu arvad Sarıyı döyəsi olur. Bunu cəzalandıranda Sarı qayıdır ki, elə Molla yaxşı eliyif atın poxunu sənə öpdürürdü. Ayıbın üsdü açılıf. Xıdır Əlləzdə oluf. Bizdə deyirdilər həmin gün Həzrət Əli gəlif keçəjəh.

---

[11] Tay – həmyaşıd

[12] Ciji – ana

Bunun arvadı mənim anamın qohumudu. Qızlar bunların evinə yığılıb axır çərşənbədə iynə salırlar. Bular məni bəzədilər, mənim də olardı 14-15 yaşım. Arvad paltarı geydirdilər ki, gəl, səni aparax orya. Bura da Sadaxlıdan qonaxlar gəlib. Əynimə don geydirdilər, başıma şal örtdülər. Rəhmətdik İsmeyilə dedim, gör qadına oxşuyurammı? Dedim, qabaxca xalamı çağırın, o tanımasa, – birdən tanıyarlar, yağmalıyarlar məni, – deməli, getmək olar. Bu, obşim, getdi Gülcahanı çağırdı gətdi. Dedi, Qaraçöpdən qohumumuz gəlib, təkdi burda, onu da aparın məclisə. Bu gəldi qucaxladı, öpdü məni. Bu tanımadı. Dedim, bu tanımadısa, daha heç kim tanımaz, getdik. İndi hamısı qucaxlıyır öpür məni, xoş gəlmisən. Tükəzban da bunun balaca bacısıdı. Əlimi buna uzatdım, uzadanda bu ölmüş əlimdəki çapığı gördü. Əlimi da Dərnəgüldə şüşə kəsibdi, o vaxtdan çapıx qalıfdı. Buy, bu filankəsdi deyəndə burda dava düşdü, ətəyimi yığdım qaşdım. Obşim, hay-haray düşüb. Gəlib paltarımı dəyişib abışkadan pusuram. Baxıram bizim qızların heç vecinə deyil, amma bu Sadaxlıdan gələn qonaxlar deyir, qardaşım eşitsə ki, mən onu öpmüşəm, məni boğazdıyajax.

Birində bir öyə girdik, Tahir vardı məndən beş-altı yaş böyük idi. Obşim, getdik, torbayı tulladıx, gejə idi, çəkdik, torbaya bir dənə bütöv təndir çörəyi qoyuflar. Təzə bişmiş çörəkdi, istidi. Dedik, yeyək da, isdi çörəkdi. 12, 13 yaşımız olardı, çörəyi dişdiyəndə gördük, boy, içi bütöv duz. İçini duznan dolduruflar. Eləmi? Hə. İndi yalamaynan[13] bunların qırışesini qırıf tökürük. On-on beş uşax, hərə bir yalama atanda gör nolur. Yetər xala çıxıb könlümüzü almağ üçün çağırır: Gəlin, gəlin, sizə aş verəcəm.

[13] Yalama – quru torpaq parçası

İlaxır çərşənbədə içmək olmazdı, onda ölüləri yad edirdin. Bayramda içə bilərdin, amma axır çərşənbədə yox. Axır çərşənbədə qəbr üsdünə gedirdilər, axşam da ölüləri yada salırdılar. Surfa açırdıx, molla çağırırdıx, onlara Quran oxudurdux. Qapıpusma, qapıgəzmə axır çərşənbədə olurdu.

Bayramın səhəri qonax gedirdik qohuma, əqrabaya. Çox oturmax yox idi, otururdun, bir istəkan çay içirdin. Qonax gedəndə cibinə konfet qoyurdun, ən çox cöüz-fındıx qoyurdun, gedəndə stolun üsdünə mütləq tullamalı idin. Bir yüz qram da vururdun, bayramın mübarək eliyif gəlirdin. Sən öydə oldun-olmadın ən azı bir həftə stol qurulu olurdu. Neçə dəfə kirvəmgilə getmişəm, stol hazır oluf, arvad-uşax gedifdi qonum-qonşuya, təkcə oturufdu öydə. Məni görən kimi çağırıf ki, ağrın alem, gəl otur. Stol bir həftə qurulu qalırdı. Ordan çıxıb o biri qapıya gedirdik, onlar da bizə gəlirdi. Özü də gejə on ikidən başdıyırdı. Novruz bayramını axşamdan eliyirdik, gejə on ikini gözdüyürdük. On iki olanda tüfənglər atılırdı, getdik oturmağa. Beş dəyqə burda, beş dəyqə orda, elə olurdu gejə saat dördə, beşə kimi gəzirdin (S. 8).

## 15.

Bala çilənin çıxmağına on gün qalanda Xıdır Elləzi keçirtmişik. Deyirdilər bayram gəlsin, yaz gəlməsin. Fevral ayından sonra yer nəfəslənirdi.

– *Çərşənbələrin adları var idi?*

– Hə. Abu-ataş, xaki-bad. Bu dörd çərşənbə nədi? Torpax gəlir, ikinci su gəlir, yoğurullar adam şiklinə salırlar. Sonra oda verillər qurutmur, onnan sonra yel gəlir, yel qurudur. Bax, bu dörd çərşənbə abu-ataş, xaki-bad bunun

hamısını qeyd edirik. Deməli, fevralın 25-26-sına çərşənbənin biri düşür, torpağa düşür, ondan sonra suya düşür, ondan sonra oda düşür, ən axırı yelə düşür. Ermənistanda Novruz bayramını çox təmtəraxlı keçirirdilər. Deməli, böyüklərimiz gedərdi bayram günü hər aylə üzvünə bir hədiyə alardılar. Kənddə ağsakqal vardısa, o kəndin cavanı-qocası hamısı gəlif mənnən bayramlaşırdı. Bizdə bir ədət var idi: baca-baca diyirdik. Baca-baca nədir? Yumurta qırmızı boyanır, isdirsən uşağa gətir yarım kilo qənfet ver, onu almırdı. Elə ki bir yumurta göstərirdin, ə, o yumurtuyu maa ver. Bax, belə ədətlər var idi. Təzə gəlin ocağa gələndə onun başına yığılırdılar bayram günnərində, onu çıxardırdılar, ayağaşdı deyirdilər, bulax başına aparırdılar.

Bizdə çərşənbənin birində ölü bayramı deyirdik. İrax candan, mənim yoldaşım ölüf, ona qara bayram keçirdirdilər. Hamı qəbr üsdünə gedərdi. Deyək, bu kəntdi, hamının ölüsü var, orda kimi qənfet aparırdı, kimi qənd aparırdı, kimi plov bişirif aparırdı. Hərə bir şey, qüvvən nəyə çatır aparırdın. Çərşənbələrin birində ölü təki olur. Hardasa iyirmi kilo, otuz kilo şaqalad alınırdı. İndi təsəvvürümə gəlir ki, o şaqalatda hər kəsin payı var idi. Bayramlaşmaya gedəndə hər qapıya o şaqalatdan pay aparardıx. Bayramlaşırdın, "bayramın mübarək olsun" deyirdin, sən onun şaqalad payını verirdin, o sənə şaqalad verirdi, bayramlaşıb gəlirdin.

Su çərşənbəsi var. Sən təzə evlənmisən, mütləq səni çimizdirməli idilər. Amma burda hərə bir tərəfdən gəlif, deyirəm belə eliyək, deyir yalan şeydi.

Bayram gün sandığın ağzı bağlı qalmazdı, hamısını açıb tökərdilər (S. 3).

## 16.

Bizdə axır çərşənbədə sulaşma günü idi. Yelləncik qururdux. Pul yığırdıx, qapı dinliyirdik. O gecə sabaha kimi sulaşma olurdu. Bizdə kərmə deyirdilər, malın-heyvanın peynini tökürdük, üstündən də saman səpirdik. Onu kəsirdik, biz təndirdə çörəyi onnan bişirirdik, kömür olmuyanda peçdə də onnan istifadə edirdik. Elə olurdu yağış yağırdı, gölməçə əmələ gəlirdi, isdəmədikləri adam olanda sudan götürüf onun üsdünə sıçradırdılar. Özü də bizdə bayramdan bir həftə qabax hamı gedif uşağına təzə paltar alırdı, qəti köhnə paltar geyinilmirdi. Hərə də on beş, on altı kilolux konfet karopkası alırdı. Torba tikirdilər, asırdılar boyunlarına, gedirdilər qapı-qapı pay yığırdılar. Ondan bir gün sonra öpüş-öpüş bayramımız var idi. Hamının qapısına gedirdin öpüşürdün uşaxlı böyüklü, yolda isə bayramınız mübarək olsun deyib öpüşürdük. Belə xırdaca klox bükürdük, içinə kanfetdən, şakalatdan, yumurtadan yığıb aparırdıx ki, bayramlaşmağa gedirik. Hamı civinə kanfet qoyurdu, yolda-izdə uşax görəndə çıxardıf verirdi.

Gecə niyyət tuturdular qızdar, gedirdilər axar sudan götürürdülər. Ancax o suyu götürəndə gərək dala baxmıyasan. Əgər niyyətin qəbul olmasın isdiyirsənsə, dala baxmıyasan. O suyu gətirillər evə, tökküllər kasaya, başdarına çarşaf atıllar, guya o suda nəsə görünür.

Ölü bayramı ilin axır təki idi bizdə. Bizdə ərik ağacları çox idi, on meşox ərik qurudurdux. Onu suya-zada salmırdıx, ağacdan yığıf gətirirdik, hündürdən setkalar qoyurdux, üsdünə ağ kağız salırdıx, onun üsdünə tökürdük. İki günnən sonra onu tərs üzünə çöyürürdük. On meşoğa kimi ərik qurudurdux. Ölü bayramında o əriyi bişirirdik. Axşamdan qaynadırdıx şireynən, dala qoyurdux, sabah da qaynadırdıx,

kampot fason olurdu. Yuxa bişirirdik, qolumuzun üsdünə alırdıx, aparıb ölü bayramında dağıdırdıx. İmam ehsanında da o ərikdən bişirib şərbət kimi paylamışıx (S. 19).

**17.**

Ağsakqallar deyirdi, martda mərək, aprelə yarı gərək. Ot yığırdılar heyvanı qışdan çıxartmaq üçün, mərək də ot yığılan dama deyirdilər. Mərək dolu olmalıdı. Mərək də hündür dam idi, əhatəsi bol idi. Otu yığırdılar o dama, evin üsdünnən tökürdülər içinə. Orda da qış sərt keşdiyinə heç kim eşiyə çıxmırdı. Un idi, dən idi, ət idi, yağ idi – hamısın alırdılar, qışda heç nəyə ehtiyacın olmurdu. Mal içəridə olurdu, mərəhdən otu gətirirdin malı yemliyirdin, südün sağırdın, pendir-qaymağın özün üçün istehsal edirdin. Onda kişilər deyirdi, bir malı saxlamax üçün ton yarım ot lazımdı. Mərəyində ot varsa, malın yaza çıxacax. Yoxsa düşüf qapı-qapı ot dilənəjəhsən.

Qış oktyabrın iyirmisindən başdıyırdı. Malı yaylaxdan gətirirdilər, oktyabrın 15-20-si mal içəridə olurdu. Noyabr, dekabr, yanvar, fevral, mart, aprel – altı ay mal içəridə olurdu. Mayın 1-dən malı-qoyunu yığırdılar, sıraya gedirdin. Mal-qoyun novatına gedirdin. Xüsusi çoban var idi, malın birin on manatdan yığırdı, ilin axırında pulun alırdı. Beş malın var idisə, ilin axırında əlli manat verirdin, sentyabrın axırına kimi otarırdı.

Aprel ayında boran olurdu. Deyirdim, Oruc dayı, bu nəyi boranıdı? Deyirdi, qadan alım, bu bərdələ düşün boranıdı. Bayramdan sonra qırx boran olur.

Şimaldan gələn küləyə Sam yeli deyirdilər. Onun heç nəyə xeyri yoxdu, əkini qurudurdu (S. 17).

## 18-24. TOY ADƏTLƏRİ

Bizim toy üş-dörd gün olub. Bir gün qız toyu, bir gün oğlan toyu olurdu. Bir gün bacılıxda olurdu, şax gətirirdilər. Savağı da oğlan toyu. Bir gün də "Dan sazı" deyirdilər. Toyun səhəri günortaya kimi çalınırdı, onnan sora toy dağılırdı. Onnan sora toyçunun hörmətin elerdilər.

Qızı axşamnan aparırdılar bacılığ evinə. Onlar da qulpunnan nə çıxsa, şaxa görə alırdılar. Şaxı gejə bəziyirdilər, hazır qoyurdular, yeməh-içməh qayırırdılar. Savah oğlan öyü gəlməmişdən, hər evdən, kəntdən bir dənə qız çağırırdılar ki, büyünnəri şax qaldırram, bizə gəlin. Onnan sonra hər evdən bir qız gəlirdi. O vaxtı pul-para yoxuydu, kimi kapron çulku gətirirdi, kimi şal gətirirdi, hərə qulpunnan çıxan bir şey gətirirdi nəmər kimi. Gəlin bacılığ öyündə qalırdı. Yeməh-içməh verilənnən sonra, günorta saat ikidə baxırdın toy çalınır. Deyirdilər, oğlan öyü gəlir qızı aparmağa. Gəlirdi, gəlini şaxlı-zaddı aparırdı qız evinə, qız evində də gəlinin anasıgil nəmər verirdi, şaxı götürürdü. Təzdənnən oğlan öyü, bir az da çalır-çağırır, onnan sora qızı götürürdülər, aparırdılar oğlan evinə.

Onnan sonra bəy gedirdi qardaşdığ öyünə. Orda da genə yeməh-içməh, şax bəzəməh. Gejə lopa bəziyirdilər, şaxı çal-çağırnan gətirirdilər bəy evinə. Onun sabahı da Dan sazı olurdu. Elə bil üş gün, dörd gün bizdə toy çalınırdı. Gətirən aşıx da gətirirdi, qara zurna da gətirirdi. Əmbə bizdə xanəndə yoxuydu, eləcə qara zurnuynan saz idi, aşığ idi.

Bizdə gəlini ləmpə başına dolandırmax olmuyuf. Gəlinin belini qaynı bağlıyırdı, o da nəsə bir şey boyun olurdu. Ya deyirdi bir xaladennik alajam, ya bir üzüh alajam,

ya evinə çatışmıyan bir əşya alajam. Gəlin oğlan öyündə piləkənnən çıxanda şirniyyat tökürdülər. Bir boşqab kanfetzad hazırrıyırdılar. Quran altınnan keçirmək bizdə yoxuydu. Deyirdilər, Quran günahdı, basılmazdı.

Bəyin qardaşdığı varıydı böyründə. Qardaşdıx nəmər verirdi bajılığa. Gəlinin yanında bajılıx olurdu. Gəlini bajılıx təhfil verirdi bəyə. Qardaşdıx nəmər verirdi, gəlini təhfil götürürdü. Şaxı da qız öyünnən oğlan öyünə nəmərini verif götürürdülər. Məsələn, bajılıx öyünnən gələndə anası nəmərini verib şaxı götürürdü. Gəlini aparan vaxtı biri qabağa düşürdü, ya bir atdımı, ya bir maşın, gedək oğlan evindən nəmər alax. Nəmərdən ötəri qızın öz əyakqabısını aparırdılar. Qız oğlan evi aldığı paltarı, əyəkqabını geyinif gedirdi.

Gəlinin üzə çıxması toyun səhəri olur, Dan sazınnan sonra. Gəlin çıxırdı, qaynataya, qaynanaya, ağsakqala, qoomqonşuya, orda oturannara çay qoyurdu, o da qulpunnan çıxanı istəkana nəmər qoyurdu. Gəlin utanırdı götürməyə, deyirdilər, götür, onun hamısını sana qoyuflar. Orda bizdə gərdəh asılırdı, gəlini ordan çıxartmağa nəmər verirdilər. Kimsə gəlini görmək isdiyir, ona baxmağ isdiyir, nəmərini verib gəlini gərdəkdən çıxarırdı. Üzəçıxdıya qız evi döşəməli aş gətirirdi, qatdama gətirirdi, şirniyatı olurdu (S. 35).

**19.**

Allah ölənnərinə rəhmət eləsin, mənim atam niyət eləmişdi. Dedi ki, sana üç gün toy çaldırajam. Sağdış bəyə üzüh alırdı, onnan sonra şax bəziyirdi. Məsələn, heyvan kəsirdi sağdış, şaxı gətməyə gedəndə yemək-içmək yeyib şaxı da götürüb gəlirdilər. Üzüy alerdi, padarka alerdi. Elə indinin özündə də bırda toy gözəl olur. Qardaşdıx surfa

açer, bəy orda oturor, yüz qram içer bəynən, bir qısmat da yeyer, şaxı götürüf gələrlər. Bırdakılar bircə belə şaxdı, bizdə nasılka kimi dörd nəfər götürördü, bir yekə xamır ləyəni şirniyat qayrerdıx. İndiki nədi, dıkkanaca şeydi. Almadan düzöllər, ölüm. Biz, Quran hakkı, nələr alerdığ. İndi demişəm mən Sarıya şax qaldıracam. Ramizə demişəm qayırginan. Deyəjəm, çox yekə qayırmasın, bax, beləcənə şax. Bir nəfər qavaxdan tutsun, bir nəfər də arxadan. Biri əlində çubuğ o tərəfdə, biri əlində çubuğ bu tərəfdə dururdu ki, uşaxlar şaxı yolmasın. İki nəfər də onu götürür, qoruya-qoruya aparerdılar. Ləpəni, kişmişi ipə düzürdük, belə qəşəh dəmirləri varıydı, onlara da alma taxerdığ, daha beş kilo alma yox, beş dənə, altıca dənə alma, bundan artıq yox. O da ürəyin istəyən alma, qırmızı alma. Burdan da beləsinə bütün şaqalad düzürdük rəngbərəng, hərəsinnən bir dənə ipə düzürdük. Hər rəng varıydı. Başına da soyutma çolpa qoyurdux, boynuna da qalustuk kimi lent bağlıyırdıx, ağzına da siqareti qoyurdux. Elə ləzzətdiydi ki, qəşəng olurdu. İndi burda kimdir elə şey eliyən. Onu qardaşdıx hazırrıyırdı. Onun xərcini qardaşdıx çəker, savax da o toy eliyəndə mən çəkerəm. Üzüh alerlar, öydəkilərə paltar alerlar, naski alerlar gətirənə. O da şaxı mana gətirer verer, nəmər aler, əlli manat, otuz manat, qırx manat. Nəmərini aler, şaxı da oynaderlər, aparerlar bəynən gəlinin otağına. Sifdəsini olar yığmalıdı, yeməlidi, sora onu qohum-qonşuya pay verersən, ölüm. Qızına nişan taxersan, oğlan öyü gətirən şirnidən ikisin də olsa gərəh qonşuya verəsən. Orda da elə görmüşük, burda da elədi.

Gəlinin də bacılığı olur, bir şaxı da bacılıx bəziyir. İki dənə şax gəler; birini oğlan öyü bəziyir, birini qız öyü gətirer.

O da ağır nəmər aler. Kimisi samavar aler, kimisi başqa şey aler. Sən də savax ona alersən. Gəlini öz öyünnən, ata yurdunnan gətirellər. Gəlinin belini qardaşı sarıyır. Qardaş bağlıyır, deyir ki, uşağın olsun kalyaska alajam, bir şey boyun olor. Quranın altdan keçirtmək, başında çörək bölmək bizdə yoxdu. Eləcə xeyir-duasın verellər, düyü tököllər ətəyinə, varer geder. Düyünü aparer oğlan öyünə, bərəkət aparer dənə. Şərbət qayrerlar, kanfet qayrerlar, dalınnan aterlar ki, şirinnih olsun. Çaylı kəndi var Daşsalaxlı yolunda, çöldə işderik. Fəhləyik dana, kim çağırer gedif işderik. Bir də gördük, düd-düd maşın getdi gəlin gətirməyə. Dedik ki, geri qayıdanda bunun qavağını kəsəjeyih. Hələ bizim yanımıza çatmamış külək qalxdı, gəlin maşınının qabağındakı gülü düz gətdi bizim surfamızın üstünə tulladı. Təzdənnən əylədilər, öy yiyəsi toy çaldırdı, hamımız qurupbavoy oynadıx. Kişi on manat verdi, təzədən o gülü verdik, getdi.

Gəlin qapıdan girəndə qardaşdıx tüfəng atırdı. Gəlin boşqab sındırerdi, içəri girerdi. İçəri keçer, oturanda qaynata nəmər verer otuzdurur. İster toynan gətir, ister götürüb qaç, gəlin gələndə nəmər ister oturmağa. Xınayaxdı eləməh var, gəlin oynatmağ var, şam yandırerlar, gəlini oynaderlar, belə şeylər var. Bizdə şərbət qayrerlar. Cavan qızdar gəlinin başına yığıler. Həmin şərbətdən bir armudu istəkən hər kəşin qavağına qoyurlar. Məsələn, mən işdim, içinə nəmər qoyeram, sən işdin, içinə nəmər qoyersan. O vaxdı eleydi. Burda indi yoxdu. Bəy öyündə toy gejəsi bunu edirdilər.

Xına onda eləjə gəlinin əlinə qoyulurdu bağlanerdı. Xınanı oğlan öyü hazırlerdi, oğlan öyünnən də qız öyünə gələrdi. Oğlan xınası qız öyündə oynaner, qız xınası da oğlan öyündə oynaner. Qızın anasına oğlanın anası üzüy alerdı,

süd hakkı deyirdilər ona. Onda yengə oynaderdi aneyi, barmağına taxerdi ki, bu da ananın hakkıdı, süd hakkıdı.

Başlığ parası 2000, 3000 verənlər varıydı. Bizim özümüz qardaşıma toy eliyəndə 2000 manat aldı qaynatası. Toydan üş gün, bir həftə qabağ danışerlar, başdıx parasın orya qoyurlar. O da insaflı olsa üstünnən 200, 300 manat verer ki, bu da halalın olsun. Toy danışığına mən 2000 manat vermişəm. Allah hakkı, duza qədər mana aldırdılar. Bir meşuğ un aldım, bircə soğan olmur da. Bajımın oğlu yerlilərdən qız aldı, duza kimi, soğana kimi aldılar. Rəhmətdih Məhəmməd dedi ki, nə ister alın verin. Aldılar verdilər soğana kimi, amma soğan olmor, acılığdı. Bir meşoy un, içinə bir paçka duz, bir paçka spiçka, şirni, meşoyun ağzın bağladıx, duzu da içinə qoydux, qalanını da böyrünə qoydux, danışığa getdih.

Qız evinnən oğurruğ elerdilər. Məsələn, yengəyə altı dənə qaşıx verellər, yanı o yengənin payıdı. Nə bilim, xoruz oğurluyan olor. Bacım oğluna toy eliyəndə Aşa qız evindən bir xoruz oğurladı. Gədeyi (bəyi – tərt.) çağırdı ki, gəl burya. Gedə dedi, oynamıram. Dedi, oyna. Oynatdı. Dedi, nəmərimi ver? O da on manat verdi. Dedi, indi ala xoruzu, apar yeynən.

Üç günnən sora gəlini üzə çıxardırıx. Deyirik, a bala, qalxgınan öyünə, qapına, bajana yiyəlih elə. Bizdə gəlini suya çıxarderdılar, şirni alerdi qaynənə, su gətirməyə gedəndə qavağına kim çıxdı o şirnidən paylıyırdı ki, gəlnimin şirinniyidi, suya çıxartmışam. Sora gəlin özü gederdi su gətirerdi.

– *Axır çərşənbədə olurdu?*

– Yox, havax ki toy elədin, gəlin gətdinmi, bax həmən vaxdı. Üç günnən sora gəlini suya çıxardellər, şirni paylellər (S. 12).

## 20.

Şəxsən məni Qaraqayadan bacılığ öyündən gətirdilər şaxnan. Öydə də bir az oynadırlar, şaxı da götürdük gəldik oğlan evinə. Oğlan evi də bir az cırnadı ki, biz gəlmişik, gəlin yoxdu. Anam dedi, bizim adət belədi, gəlin bajılığ öyündədi. Getdilər bajılığ öyünə, məni ordan gətirdilər. Gəlin axşamdan gedirdi bajılığ öyünə, gejəni orda qalırdı. Oğlan öyü gəldi şaxnan baravar məni ordan gətirdi. Öyü də yurd elədilər[14]. Hinduşka, toyux, balta sapı, yava – hamısın gətirmişdilər.

Şaxdan konfet, meyvə, naskı, atrez, şal – hər şey asırdılar. Bir şaxı dörd kişi zornan götürürdü. Şaxın başına qırmızı şal salırdılar. Mən gələndə mənim başıma ağ fata salmışdılar, amma çox gəlin köçəndə başına qırmızı şal salırdılar. Şaxın başına qırmızı alma, nar taxırdılar, üstündən də qırmızı şal salırdılar. Bajılığ öyündə də qardaşdıx nəmərin verib şaxı götürürdü. Mənim toyumda da bəy verdi, ordan götürdü gətdi öz öylərinə. Öz öylərində də öyə girəndə qabağın qapıda kəsdilər. Dedilər, şaxın nəmərini ver, içəri buraxım. Mənim öz baldızım qapını kəsmişdi. Yaxşı pul aldı, sonra şaxı içəri buraxdı.

Gəlinin beli sarınsın bizdə var idi, amma ləmpə başına dolanmaq yox idi. Gəlinin belini qardaşı sarıyırdı. Gəlinin başı üsdündə çörək bölmək bizdə yoxdu. Amma çörəyi oxalıyıb tökürdülər. Çörəyi oxalıyırdılar, içinə konfet, peçenye tökürdülər, gəlinin başınnan tökürdülər. Gəlin karvanının qabığını kəsirdilər. Stol açılırdı, hərə bir içki qoyurdu. Deyirdi, ya bu şüşənin hamısın içəcəksən, ya da

[14] Yurd eləmək – talamaq

mən dediyim məbləğin hamısın verəcəksən. Bəy də nağarsın, o dediyin verirdi. Məni gətirəndə qabağımızı kəsdilər bizim kəndin oğlanları aşağıda cələdə. Dedi, bəy düşsün güləşəjik, yıxdıx, bax, bir belə pul mana verməlisən. Orda elə canavar kimi oğlannar var idi ki. Mənim yoldaşım pul verdi. Dedi, mən bunlarnan bacarmaram. İçki qoyurdular, kletka şakalad qoyurdular, araq rumkaları qoyurdular. Qanuni kəsirdilər dana.

Bəy özünü qorumasa, bəyi oğurruyurdular. Daldan gəlirdilər bəyin üsdünə un tökürdülər, bəy bütün ağa bulanırdı. O vaxd bəyi una bulamışdılar, qırğın düşdü. Dedilər, özünü qoruyursan qoru, qorumursan adət belədi. Bəyin başını unnuyurdular.

Şaxı qardaşdıx bəziyirdi. Gejə gedirdik şax gətirməyə. Malın peyinini ağaca keçirirdik, onu bir adam tutub irəlidə gedirdi, üç-dörd adam da şax aparırdı, toyçular da çalerdi. Qız öyünnən o şaxı kim əlində tutub gətirirdisə, o naskımı, dəsmalmı – nəmər alırdı. Lopanın başına əlavə ağac vururdux, onun hər tərəfinə alma keçirirdik. Onu tüfəngnən vurub salırdılar, kim almanı vurub salsa, ona nəmər verirdilər. Toydan üş gün sonra qızlar yığılırdı gəlini bulaq üsdünə çıxarırdılar. Onnan sonra gəlinin ayağı açılerdı. Həmən qızlar bulaqdan gəldikdən sonra gəlib otururdu, yeyib içirdilər (S. 36).

## 21.

Qız toyuna arvatdar gəlirdi, oğlan toyuna kişilər. Bir həftə qabax da bütün qohumlar gəlini başının rəfiqələri ilə qonax çağırırdı. Altıncı gün qız öyündə mağar olurdu, bazar günü də oğlan öyündə. Gözdüyürdülər, gecə saat on

ikidə, birdə gəlini çıxardırdılar bircə dəfə oynuyurdu, vəssalam. Başlıq parası oluf. İrəlidən heyvan alırdılar, sonra pul şəklində verilirdi. Mənim vaxtımda heyvan verilirdi, çay, un, şəkər – toy üçün lazım olan hər şey gətirilirdi. Gəlin qapıdan girəndə ayağı altında qurban kəsilirdi. Qız evindən xoruz oğurlanırdı. Bəybaşı aparırdı onu, bəybaşında bişirib yeyirdilər. Bəyin başına yığılannara bəybaşı deyilir. Toydan sonra yığılırlar, həmin xoruzu bişirib yeyirlər.

Bizdə Bilal məllim vardı, mən uşağ idim, Qaçağannan gəlirdik, gəlin gətirirdik. Olardı on yaşım, on bir yaşım. Elmannan mən də getmişdim. Vəligil öy alıf, bax, oralarda idi, gəlinin qabağını kəsdi sadaxlılar. Maşının qabağını kəsdi, güləşmək üçün adam istədi. Bilal düşdü. Bilal onu qaldırdı yerə vurdu, az qaldı dava düşə.

Şax bəzənirdi, bahalı şakalad, ləpələr. Onu bir adam götürə bilmirdi, nasılka kimi dörd nəfər tutuf aparırdı. Kişmişi, ləpələri sapa keçirib şaxa taxırdılar, başına da güzgü keçirirdilər. Mahal gəlin gətirdi, qapıya çatanda, irağ olsun, güzgü şaxın başındaca qırıldı. Durduğu yerdəcə güzgü partdadı. Hamı dedi pis şey olajax, güzgünün qırılması bədbəxtlihdi. Gəlin heç bir il durmadı, boşandı. O da sınaxdı. Deyirdilər gəlin oynasın, bolluğ olsun. Gəlin oynayırdı, onnan da mağar dağılırdı. Şaxı bəylə gəlin özləri dərirdilər. Sabah arvadlar yığılır, həmin ərzaqlar onlara verilirdi. Qurbanı[15] da bişirirdilər sabahkı günü arvadlara yemək verirdilər.

Toydan bir həftə sonra qohum-qərəbə yığılırdı, qatdama bişirilirdi, gəlingördüyə gedilirdi. Gəlingördüyə qatdama aparılırdı, amma toyda halva bişirilirdi. Bir vedrə

[15] Gəlinin ayağı altında kəsilən qoçu nəzərdə tutur.

halva, qalaxnan da fətir bişirilirdi. Toyda gəlin gedəndə bir vedrə halva olurdu, bir də yuxa olurdu, qız öyünnən oğlan öyünə gedirdi. Sabah oğlan evində qurban ətindən yemək bişirilirdi, ora gələnlərə yemək verilirdi, qız evindən gələn halva da orda yeyilirdi. Toy halvasına kişmiş, cöüz də qatılır.

Gəlin sandığı gəlinnən barabar gəlirdi. İçində gəlinin cer-cehizi olurdu. Gəlin gördüyə də qohum-qərəbə pay aparır gederdi (S. 22).

**22.**

Bizim şaxdan burda yoxdu, heç Azərbaycanda da yoxdu. Bizim kəndnən Sadaxlının şaxı bir idi. Fərqi o idi ki, bizim şaxın üstündə əlli kilo olurdu. İki adam onu zornan götürürdü, biri də stol gəzdirirdi yanında. Bir xeyli gedənnən sonra yorulurdular dana. Belini bağlıyırdılar, nasılka kimi düzəldirdilər, elə bağlıyırdılar ki, ağırlıq çiyinə düşürdü. Xeyli gedənnən sonra stolu qoyurdular, o şaxı da onun üsdünə qoyurdular. Üsdü meyvə, bahalı şaqalad, kişmiş, bir də çöüz ləpəsi. Sapa keçirilirdi, o da elə sıx düzülürdü ki, çöüz ləpəsinin arasına kağız da girməzdi. Lap başda da bir dənə qırmızı alma, şax alması deyirdik. Boz Vəli deyirdik, o da əlində beşaçılan şaxın yanında gedirdi. Şaxı gözdüyürdü ki, o almeyi kim qoparsa, onu güllələməli idi. O bəynən gəlinin idi. Bir gün ayrım kəndinnən gəlib bizim qonşu kənddən qız aparıllar. Bu qızın atası, anası bizə qohum idi, biz də ayləvi orda idik. Nəysə, gəlini aparmağa gəldilər, yeyildi içildi, gəlini götdülər, mindilər maşına. Tərpənəndə burdan çığırdılar ki, şax qaldı. Bir dənə də quruzavoy maşın gəlirdi cehizi aparmağa dana. Şax qaldı deyəndə bunlardan biri deyir, allə, yer get şaxı gətir. Bir dənə oğlan

göndərdilər. Yerdən dedik dillənmiyin, qoyun gəlsin. Düşdü gəldi, bu oğlan içəri girib eşiyə çıxdı. – Allə, bu bizimkinnən döyül, buna dörd-beş adam lazımdı. O qədər gülmüşdük ki. Ağılları öz şaxlarına gedib biri əlində oynadır, üstündə iki dənə almadı, üş dənə də kanfet. İndi aparıllar şaxı maşınnan. Deyirlər, bunu bəy kopoğlu heş bir ilə də yeyib qutarammaz.

Gəlin qapıya çatanda tüfənglər atılırdı. Gəlinin başına kanfet, bir də qəpik tökürdülər, uşaxlar dənniyirdi onu. Məsələn, mən sağdişəm, mən şax qaldırıram. Şaxı mən bəziyirəm, toy yiyəsi də gəlif şaxı bizdən aparır. Sabah da mən toy eliyəndə o mənim sağdişim olur, o əvəzini qaytarır. Soldiş o qədər rol oynamır, əsas sağdişdi. Qızın da sağdişi olurdu, bir şaxı da o bəziyirdi. Şaxı gəlin gətirilən günün gejəsi gedib çalğıynan gətirirdilər. Lopaynan, çalğıynan gedirdilər, millətin yarısı da o dəstəynən gəlirdi. Lopanı yavaya taxırdın, onu da elə etibarlı yandırırdın ki, böyürbaşında qız-gəlinin üstünə düşməsin[16]. Şaxı götürən yerinə bir qırmızı onlux salırdı. Qapıbasması yüz manat idi. Yengə qapını basırdı, yüzdüyü verməsən, buraxmırdı. Burda qızın atası ləmpə başına dolandırır, bizdə mən gəlini gətirəndə arvad, ya qadın qohumun biri dolandırırdı. Bizdə qızın ata-anası toyda oynamır. Qızın qohumları oynuyur, amma ata-anası oynamırdı. Onu kənddən çıxardardılar ki, sən qız köçürürsən deyə söyünürsən?

Gəlin gətiririk, mən də otmuşam. Həmzə adından bir kişi var, bu da balaca, arıx bir kişidi. Mənim də olardı otuz

[16] Böyük Kəsikdə lopanı ağaca taxırlar. Başına pambıq dolayırlar, böyründə də ağaclar olur, həmin ağacların ucuna isə ya kartof, ya da alma taxırlar. Onu da tüfənglə vururdular.

bir, otuz iki yaşım. Bu da böyrümdə maşının arxasında oturuf. Maşının qabağını kəsiblər, bir dənə heyvərə oğlandı kotanlı traxtoru əyliyif. Toy yiyəsi Əlidi, İsmeyilgilin qohumu. Bu düşür onnuğu verir, pulu götürmür. Deyir, pul isdəmirəm, güləşməyə adam isdiyərm. Baxıllar ki, bu heyvərə şeydi, indi bəlkə içi boş imiş, amma yekə şeydi. Heş kim cəsarət edib çıxmır dana. Bu Həmzə də Ziyadxannan bir az balaca idi, bozvəlilərdəndi. O mana dedi ki, cavansan dana, düş qabağa. Dedim, cavannıxnan döyül, onun yekəliyinə bax, məni yıxsa, üsdümdə otsa, bəs eliyər. Dedi, yaxşı, mən gedərəm güləşməyə. Dedim, səni qaldırıb arxa tulluyajax. Dedi, bə nağarım, a avara? Sən getmirsən. O məni görüb utandığından traxtora minəjək. Getdi, qolunu çırmadı. Həmin adam buna belə baxdı. – Sən kimsən, a kişi? Dedi, hələ bir bəri gəl. – Ə, ayna get, on manatı götdü, traxtoru sürdü getdi. Güləşəngi[17] var idi.

Gəlin atlandırma çalınırdı. Həzrət dayı onu elə çalırdı ki. Heç ona atlandırma demirdilər, deyirdilər bir "Ağlama, anası" çalginən. Həzrət dayı elə ağır çalırdı, elə vururdu o atlandırmanı, doğrudan, kişi də ağlıyırdı. Zurna o havaynan ağlada bilmirdi, amma o toyu[18] vurmaxnan ağladırdı.

Bizim kəntdə qojalar, yaşlı adamlar üçün məclisin lap başında ayrıca stol qoyulurdu, aşıxlar da pastayannı oların yanında oxuyurdu. O stola içki qoyulmurdu. Qulluxçular ora çatanda xavar göndərirdilər ki, qojaların stoluna çatmışıx. Olara harda yağlı ət var onu qoyurdular, sümüksüz ət qoyurdular, ətin suyunun yağlı yerini qoyurdular. O

[17] Güləşəngi – toy güləşində çalınan havanın adı
[18] Toy – davul

vaxd xeyirdə də, şərdə də yemək tək-tək verilirdi. Dolu ləyən də ortada gəzirdi, kimin qabı boşaldıxca doldururdu. Yaşlılar içki içmirdi.

Üş-dörd gün sonra qızı görməyə gələndə qız evi bir yekə vedrə halva, bir ləyən də qatdama bişirib gətirirdi.

Mayda toy eləmə, orucduxda toy eləmə, onu burda eşitdik. Bizdə mayda da toy eliyirdilər (S. 8).

**23.**

Torpaqbasdının haqqı bir toğlu idi, toğlunu vermədin, dava düşürdü. Gəlin öz kəndimizə gedəndə bir az yüngül olurdu, yemək-içmək verirdin, amma başqa kənddən gələn olanda kəndin başında cavanlar qabağın kəsirdi. Necə indi kəndirnən kəsirlər, o vaxd da kəndirnən kəsirdilər, əgər torpaqbasdı verməyib addasa, dava düşürdü. Bilirdilər ki, torpaqbasdının haqqı bir toğludu. Ta gəlini götürüb o kənddən çıxana qədər kimsə oların qabağın kəsə bilməzdi. Hamısını o cavanlar yola salırdı, amma verməyəndə də güjdü dava düşürdü. Toğlu olmuyanda onun dəyərində pul verirdilər.

Yolda toy güləşi olurdu. Yıxdın, nəmərini alırdın, yıxmadın, nəmər yox idi. Lopanın başına alma taxırdılar. O almıyı tüfəngnən vururdun. Gəlin gətirəndə olurdu. Əmimoğlu məni öyə qonax çağırıb. Sağdiş, mən, dörd-beş nəfər getmişik. Molla mənə sual verdi. Dedi, a bala, sabah gəlin gələjək, gərdəyin dalında şaxlar ikisi də duruf. O şaxı nə deyif dərəjəhsən? Dedim, şaxdı da. Dedi, yox, heylə döyül ey. Sən orda and içməlisən, yoldaşın and içəmlidi. Nə deməlisən? Dedim, nə deməliyəm? Əmimoğlu da molladı, atam yerində adamdı. Dedi, sən deməlisən ki, birinci göydə Allah, yerdə

bu şaxın şöləsi hakkı, mən ömür boyu sənnən xoşbəxt həyat quracam. Pismillahı-rəhmani-rəhim deyif özün şaxdan bir alma çıxardajaxsan. Sonra yoldaşın and içəcək. O da sənin kimi and içəcək ki, mən də ömür boyu sana xəyanatdıx eləmiyəjəm, ömür boyu sana sadiq olajam. Bir alma da o çıxardajax. Sən pismillahı-rəhmani-rəhim deyif almanı verəjəhsən ona, o almasını verəjəh sana. Bir dişdəh sən alajaxsan, bir dişdəh o alajax. Ondan sonra o şaxınızı dərin. Bəylə gəlin həmin axşam şaxı dərirdilər, səhər də onu qohum-qonşuya paylayırdılar (S. 49).

## 24.

Toy günü qadınla kişi evləndi, kişi iki rükət namaz qılmasa, qadının yanına gedə bilməz. Dini inancımıza görə, gələcəkdə onlardan olan övlad etiqaddı, təmiz, halal olsun. Ona görə iki rükət namaz qılıb sonra gəlinlə görüşürdü. Gəlin də namaz qıla bilərdi. Dua eliyir ki, Allahtala, mən sənin şərtinə görə, peyğəmbərimizin yoluna görə evləndim, sən qəbul elə bizi. Mənnən olan, mənnən sonra gələnlərin hamısını mənim yoluma dəvət elə.

Şaxın üstündə şirniyyat, meyvələr, başına da beçə xoruz qoyurdular soyutma eliyib. Elə olurdu şax yanırdı. Şam yandırırdılar, şax yananda bədbəxtçilik olurdu. Şam qoyuflar, şax onda tutuşub yanmışdı. Şax, elə bil, bəzəkli gəlindi, onu iki-üç nəfər güclə götürürdü. Bəylə gəlinin otağına qoyurdular, altında da şam yandırırdılar. Əsas qız evi bəziyirdi şaxı.

Toya üç-dörd gün qalmış qızı öz rəfiqələri qonağ aparardı, bəyi də öz dostları qonax çağırardı. Kənd-kənd düşərdi, hamı ona yaxşı qonaxlıx verərdi. Bəy qonaxlığı deyərdilər,

gəlinin də rəfiqələri ona qonaxlıx verirdi. Toy birinci oğlan qapısında başlayırdı. Qara zurna və dəfnən keçirilərdi toy. Bu qutardı, gedərdilər gəlin qapısına, bir gejə də gəlin qapısında çalınardı. Ondan sonra "Gəlin atdandırma" çalınardı. Gəlinin başına qırmızı kəlağayı atılardı. Qıpqırmızı gəlini bəziyərdilər, mindirərdilər kəl arabasına, lopaynan gəlini gətirərdilər. Lopaya güllə atardılar, kim vura bildi, ona nəmər düşərdi: ya naski, ya dəsmal verərdilər. Lopanın başına alma qoyardılar, o almanı tüfənglə atıb vurardılar. Səhər də çalğıçıları ot tayasının üsdünə qaldırardılar, "Sabah sazı" deyirdilər, çalardılar, onnan da toy qutarardı (S. 44).

## 25-41. YAS VƏ MƏHƏRRƏMLİK ADƏTLƏRİ

Anam öləndə mənim 21 yaşım var idi. Dədəm də yaşdı adam idi, bir az da xəsdə idi. Bizdə belə idi. Kimin bir heyvanı yox idi, savxozdan bir dənə heyvan təşkil eliyirdilər. Yaxud, filankəsdə var, səndə var, heç mal yiyəsinin xəbəri yox idi. Şəxsən bizim inəklər boğaz idi, bajımgildən bir dənə qısır inək aldım, kəsdim. Bizim öz adətimizdən deyim. Ölən günü beş dənə sənin kimi kişi gedirdi odun gətirirdi, tezbazar çadır qurulurdu. Heyvan kəsilirdi, beş kişi onnan məşğuluydu, beş kişi ölüynən məşğuluydu, üçü qəbri qazırdı, biri yuqata çıxarırdı, hazırrıyırdı, vəssəlam. Allah rəhmət eləsin, apardıx basdırdıx, qayıtdıx. Günorta saat 12-də, 1-də otururdular, çayını-çörəyini yeyirdilər, çıxıf gedirdilər. Bizdə də buyün öldü, buyün onu basdırmax yoxuydu, bir gün saxlıyırdılar. Bu imamlardan, peyğəmbərlərdən gəlmiş adətiydi. Bizdə buyün ölən qalırdı savağa. Uzaxda qohum-əqrabası var, ölüsüynən vidalaş-

malı döyülmü? Qoyun, qızı gəlsin, oğlu gəlsin vidalaşsın. Aşağısı 13-14 saat saxlanmalıdı, bəlkə kliniki ölüm keçirif. Bizdə büyün ölən qalırdı sabaha. Sabah da tezdən 2-3 nəfər gedirdi dəfn yerin hazırrıyırdı, yuqata çıxarırdı. Bizdə hətta belə bir şey də oluf. Fatma arvat varıydı, Qazaxda həkim var, onun nənəsi. Arvad öldü, 60-65 yaşı varıydı. Arvadı götürdülər yuata çıxardılar ki, arvadı sabah basdırajeyih. Tabut gəlif böyrünə qoyulanda arvat gözünü açer. Fatma arvat öz halvasınnan da yedi, 90 il də yaşadı.

Biz öləni bir gün saxlıyırdıx. Həmin gün hazırrıx görülürdü, sabahı aparıf dəfn eliyirdik. Bir dənə qısır 100-150 kilolux inəyi kəsirdin, ehsan bişirilirdi. Aş idi, halva idi, ət idi, ehsan olarax bunlar verilir. Ehsan birinci gün də verilir, üçündə, yeddisində də verilməlidi. Bizdə mollalar gəlirdi, təskinnik verirdi. Bizdə üçə, qırxa adam çağırmax yox idi, o adət buralarda var. Molla da bu gün gəlirdi, isdiyirsən bir manat ver, isdiyirsən pul vermə, denən ki, ay molla, oxuduğunu mənim ölümə halal elə. Mənim sənə verməyə pulum yoxdur, bu ehsanı apar uşağın yesin. Bir qab ət, bir qab halva verirdin, o da deyirdi, Allah qəni-qəni rəhmət eləsin, yurtda qalannarı sağ olsun.

Bizdə adna yox idi. Qəbr üsdündə ojax qalamax belə idi. Molla Fərrux dayıdan onu mən örgəndim. Kimin neçə uşağı var, o qədər gedif qəbr üsdündə ocax qalamalıdı. Belə şeylər eşidirdik. Molla Fərrux dedi, onu deyən səhv eliyir. Qurd-quş gəlif qəbri eşməsin deyə onun üsdündə ocax qalıyırlar. O adəti mən İncəli dərəsində gördüm, qəbrin üsdünə qaratikan qoyurlar ki, qurd-quş təzə qəbri eşməsin. Yuat yerində çıra yandırılırdı. Ocax qalamax da odur ki, həmin qəbr yatana qədər, iy-qox ordan çəkilənə qədər vəşi heyvannardan qorumax üçün orda ojax qalanardı.

Ölən günü halva çalınırdı. İki nəfər aşbaz varıydı, biri aş pişirən, biri halva çalan. Bizdə kişilər pişirirdi halvanı. Rəhmətdik Fərhad kişiynən Əsgər kişi halvanı çalırdı, bir də ət bişirirdilər bozartma. Ölən günü bu verilir. Üçü günü aş idi, halava idi, bozartma idi.

– *Cavan adama ehsan düşür?*

– Qırxı çıxan hər kəsə ehsan düşür, qırxı çıxmayana ancax süddü aş idi. Onları da böyühlərin qəbirsannığına basdırıllar, amma onnarın üsdünə dəm-dəsgah düzəltmirdilər. Eləcə taxta qoyurdular, hətta elə olurdu ki, onnara ad yazılmırdı. Qırxı çıxan uşağa ad yazıla bilir, amma çox vaxd o da yazılmırdı. Qara bayramı biz eliyirdih axırıncı çərşənbədə. Axır çərşənbədə torpağa rüsxət verilir, canlı-cansız oyanır. İnsan ruhları da oyanır, gəlir bajadan insanı dinliyir evində, bunun adı anılırmı. Həmin vaxdı gedif qəbirsannığı ziyarət eliyirdik saat 9-dan saat 1-ə qədər. Qəbri ziyarət edəndən sonra ili çıxmayanlara baş çəkmək var idi.

Bizdə ölən günnən srazı dəftər tutulurdu, pul yığılırdı. Bəlkə bunun yoxudu. Dəftər bir dəfə qoyulur, üçündə, yeddisində dəftər qoyulmazdı. Elə olurdu ki, üçündə bişirirsən yüz nəfər üçün nəzərdə tutmusan, amma gələn az olur. Yerdə qalan yeməyi paylıyırdılar. Fətirin arasına ətdən, halvadan qoyuf evlərə göndərirdilər ki, filankəsin qojası var, filankəsin xəsdəsi var. Filnkəsin arvadı burda kömək eliyir, amma əri işdədi, gələ bilmiyif. Ona da ehsannan göndərilirdi.

İmamların ehsanında qətl sınan gün on nəfər kişi yığılırdı, heyvan kəsilirdi. Deyirdilər, məsələn, Məhəmməddə bir dənə dana var, tam təmənnasız. Onda iri mal var, məndə balaca. Mən deyirdim, mən balaca danamı verəcəm, sən

saxla. O inəyini verirdi, mən pesokunu alırdım, sən halvasın çalırdın, bir on kişi yığılırdı, yolun qırağında otururdular, çağırırdılar: “A bala, bəri gəl, gəl, imamların ehsanıdı, şərbət iç”. Şərbəti içirdi, bir dürməh də verib yola salırdılar. Kimi də dədə-babasına ehsan verirdi. Daha çağırmırdı camaatı evinə, bişirib yolayrıcına aparırdı. Deyirdi, babamın, dədəmin ehsanıdı, orda paylıyırdı. Onu da əsas kim üçün eliyirdilər? Uşaxlar üçün. Böyühlər öyə gəlirdi, amma uşaxların ehsanını o cür yola çıxarıb paylıyıdılar ki, uşaxlar da ondan yesin (S. 50).

## 26.

Əvvəllər ölünün üsdündə pul paylıyırmışdar cənazə namazına duranda, həmin pul ev sahibinə çatırdı. Onu mən eşitmişəm, amma görməmişəm. Ölən gün də ehsan verilirdi. Əvvəllər ölü düşən evdə xörək bişməzmiş, qonşular xörək bişirib gətirərmiş. Üçündə, yeddisində ehsan verilərdi.

Bizdə sapma qəbr idi. Qəbr üsdündə üç gün çıra yandırırdılar. Heç vaxt satınalma yağnan halva çalınmır, mənsil yağınnan çalınırdı. Suvey[19] heyvannar dişi, ya erkək, onnar ehsan kəsilirdi. İki mal, iki dana və s. Ehsan verilirdi, pul yığılırdı. Öləndən sonra xətm var idi. Adnalarda molla Quran oxuyurdu, qırxına kimi xətm olunurdu. 52-də heyvan kəsilib plov bişirilir, halva çalınır. 52-ni çox adam vermirdi, olsa da kiçik məclis olub. O vaxdı yuxa yayılırdı, halva yuxanın arasına qoyulurdu. Elə olurdu ki, halvanın yağı yuxanı təmiz isdadırdı. O halva yuxanın arasında məclisə verilirdi, evlərə paylanırdı. Göyrüş ağacınnan ocağı qalıyırdılar, halvanı onun odunda bişirirdilər.

[19] Suvey – subay

Kəntdə məscid vardı, ölünü bir gün orda saxlıyırdılar. Bu gün ölübsə, səhər dəfn olunardı. Bir gündə iki ölü basdırılmaz. Hansı tez ölübsə əvvəl onu basdırır, o birini növbəti gün basdırırdılar. Qırxa da, ilinə də adam dəvət edilirdi. Dəvətnən çağırırdılar, iştirak etməyənlər də gəlirdi. Lap körpə uşaqlara ehsan düşmür, onu sakitcə aparıb basdırırdılar, qohum-qonşu bilirdi. Aparıb babasının, nənəsinin yanında basdırırdılar, taxtadan başdaşı qoyurdular (S. 18).

**27.**

Qırx bizdə belə təmtəraqlı olmazdı. Adnalarda plov bişirirdilər, molla çağırırdın, gəlirdilər. Bizdə taxt vardı, taxdın üsdə bardaş qururdular, üç-dörd molla olurdu. Quranı açırdılar, cüz deyirdilər, biri oxuyurdu, o biri davam eliyirdi. O xətmi oradaca bağışlıyırdılar. Bizdə adnanı belə təmtəraqlı eləməzdilər, üç, yeddi olmazdı, dəfnində ehsan verirdilər, bir də qırxında. Üçü, yeddini aran adamları[20] mod saldı. Ölən günü heyvannar kəsilirdi, ən azı iki inək. Ət verirdilər, bir də mütləq halva verilirdi. Halva da qarın yağından hazırlanırdı, hökumət yağından halva olmazdı. Halvanın da ayrıca usdası var idi, hər adam halva çala bilmirdi. Yuxa yayırdılar, halvanı yuxanın arasına bükürdülər, ona büküm deyirdilər. Yuxaya bükürdülər, halvanın yağı yuxadan eşiyə çıxırdı. İsdiyirsən onu bir il saxla, o halva xarab olan şey döyüldü. Ölünü dəfn edirdilər, camaat gəlirdi ehsanını yeyirdi, çıxıf gedirdi. Bir də qırxı olurdu. İlində də zəhmət çəkənlər, yaxınlar gəlirdilər. Ölünün üçündə onun paltarı yuyulurdu. Bizim kəntdən Tərsa çayı keçirdi, bir də onun qolları var idi. Tərsa çayın kənarında qaynar[21] quru-

[20] Aran dedikdə Qazax-Tovuz bölgəsini nəzərdə tutur.

[21] Qaynar – su qazanı

lurdu Böyük qara qazannarda su qaynadılırdı, ölünün paltarı, yorğanı, döşəyi, içinin yununa kimi orda yuyulurdu. O paltar artıq evə gətirilmirdi. Soyxa deyirdilər bizdə. Biri birinə qarğıyanda deyirdi, soyxaya qalsın. Cır-cındır olanı tulluyurdular, ələ gələni, təzə olanı aylə üzvlərindən kim isdiyir, kimin nəfsi çəkirsə, ona verirdilər, qalanını da kasıba verirdilər. Amma yuyub verirdilər. Yuyurdular, yeddi qat axar suya çəkirdilər, qulfallah oxuyurdular, ondan sonra kasıba verirdilər (S. 21).

**28.**

Ölünün birinci günü mal kəsilirdi, ehsan verilirdi. Yeddisində çıxırdılar körpünün üsdünə, bazar orda idi, Uçaska, Putkavan, Ləmbəli orya gəlirdi, o körpüdən keçib bazara gedirdilər. Körpünün başını kəsirdilər, gələni maşına mindirib gətirirdilər ki, ehsan var. Yolnan keçən uşaq-muşağın hamısını dəvət edirdilər, oturdub yezdirirdilər. Gəlmiyən olanda da maşınnarnan gətirirdilər. Uçaskanın da, Putkavanın da qəbirsannığı bizdə idi, ölüsün bizə gətirirdi.

Ölünü aparıb dəfn eliyirdik, eləsi var işi var, gələ bilmir, elə qəbirsannıxda da əzanı[22] yazdırırdı, yeddisinə gəlirdi. Ehsanı qapı-qapı paylıyırdılar. Nə qalırdısa, onu paylıyırdılar. Deyir, birinin gəlini paylıyıf, qaynatası ölübbüş. O qədər yazıx paylıyıf, otun divində oturuf bir payını özü yiyif. Gejə yuxularında görüllər, bircə otun divindəki ofsanata keçif.

Ehsan üçündə, yeddisində, qırxında, ilində verilib. Əlli iki ət sümükdən aralanan gündü. Qaynatam deyirdi, mütləq o verilməlidi, qalan şey hamısı yalandı. Özü də heyvan kəsilməlidi, onun heç bir tikəsini tullamamalısan.

[22] Əza – yasa yazdırılan pul

Bişmiyən hissələrin də basdırmalısan bir yerə. Yediyin tikələrin sümüyün də bir ağın içinə yığırdılar, yerə basdırırdılar. Heyvanı elə kəsirdilər ki, sümüyü qırılmırdı, üybəüy[23] doğranmalıdı. Mənim rəhmətdik anam öləndə bunun əmisi oğlu üybəüy doğradı, bütün bir yerdə bişdi, yeyildi, sümüyü də ağa büküldü, basdırıldı. İndi ona əməl edən yoxdu, çox adam gedir beş kilo ət alıb gətirir, bişirir.

Heyvanı da molla kəsirdi. Qurban qada qaytaran şeydi. Ləmbəlidə qurban kəsəndə mollaya pul vemirdik, həmişə qurbanın ətindən verirdik. Amma indi pul da istəyir, üstəlik ətdən də götürür. Duzu oysunnadıb heyvana verirlər. Burda duzu oysunnamırlar, amma biz orda oysunnadıb heyvana yaladırdıx. Əsas duzu yalamaxdı. Eləsi var deyir pıçağı oysunnamışam. Ona keçmir axı. Molla olmasa da, ürəyi təmiz adama duzu oysunandırsan, o keçir. Oysunnanmış duzdan yeməkdə istifadə olunurdu. Allah keçənlərə rəhmət eləsin. Atam dedi, bala, cüməni yığışdır. Cümə günü bir samavarı qoyarsan, molla gəlib Quranını oxuyub bir istəkan çayını içib getsin. Burda vərdiş eliyiblər bir cümə bu küçəni çağırer, ikinci cümə o biri məhləni. Son vaxdı axşamlar eliyirlər. Molla gəlir, qohum-əqraba gəlir, bir istəkan çayını içir, Quranını oxuyur, gedir. Yoxsa bütün arvadlar yığıler, bir heyvan kəsilirdi, gətir-götür, bunun nə xeyri? Elə olurdu bir heyvan da görmürdü.

Qabaxlar ölən günü heş nə verilmirdi. Yığılırdı camaat, aparıb basdırır, hərə dağılırdı öyünə. Bir də yeddisində yığılırdı camaat, ət də kəsirdin, hər şey olurdu. Qəbri qazanları üçünə çağırıllar, pul da verillər, ehsannan da

[23] Sümüyün birləşən hissələri

yeyillər. Qəbri qazanları ölən günü də, üçündə, yeddisində, adnasında, qırxında da çağırmalısan. Heyvan da kəsiləndə heyvanın başı-ayağı onlara verilməlidi. İrəlidə pul almırdı, indi pul da verilir.

Atam rəhmətə gedəndə yeddi Quran xətm elətdirmişdim. Birini əmimin arvadı verdi, ikisini Allahyar verdi, qalanın da özüm verdim. Qırxına qədər xətm olunmalı idi. Onu hər adam oxumurdu. Biz Gürcüstana yolladıx, qaynanamın qohumları orda oxutdu, o zaman rusun pulunnan min manat vermişdik. İkisin də qardaşı elədi. Dedi, ikisin də mən pay elədim. İlinə qədər xətm eləyirdi. Eləsi var deyir, məndə hazırı var (oxunmuş Quran – tərt.), lazımdı sənə bağışlayım.

Halva əsas yedisində çalınır, birinci gün bir kilo, iki kilo unun halvası çalınmalıdı, deyir ağzının acılığı getməlidi. Ölü həyətdən çıxmamış çalınırdı. Yeddisində, qırıxında, ilində də çalınırdı (S. 22).

## 29.

Qəbirsannıxdan gəlirdin artıx stol qurulu olurdu, oturub çörəyini yeyirdin, yazı da həmən günü yazılırdı. Əvvəllər üç manat idi, sonra beş manat əza yazılırdı. Üçündə isə əsən[24] verilirdi. Qapı-qapı düşürdülər, qoja-qoltux çağırırdın ki, əsən verilir. Onda yazdırmax yox idi. Əsən ona deyilirdi. Qapı-qapı düşüb camaatı çağırırdın, ən çox qoca-

[24] Yasın birinci günü də yemək verilib, amma söyləyici həmin gün verilən yeməyi ehsan adlandırmır, ancaq üçündə və yeddisində verilən yeməyə ehsan deyir. Çünki yasın birinci günü əza yazılırdı, əza yazılan yemək ofsanatlıqdan çıxır. Amma üçündə, yeddisində dəftər açılmır, təmənnasız, ehsan niyyətinə yemək verilirdi.

lar gəlirdi, otururdular, yeyirdilər. Yaşlıları yığırdılar maşınnan, ehsan yeyilənnən sonra da maşınnan aparıb qapıya düşürdürdülər. Üçündə, yeddisində yazdırmaq yox idi. Əlli ikidə beş-altı adam qonum-qonşudan çağırırdın, molla gəlib oxuyurdu.

Mən toy eliyirəmsə, irax-irax, filankəslərin ili çıxmıyıb, ora molla aparırdım, onun qapısında Yasin oxudurdum, ondan icazə alırdım. Bax, bu var idi. İli çıxmayanlardan icazə alırdın. Özü də gəlib otururdu, toyda iştirak eliyirdi.

Üş gün yuqat yerində şam yandırılır, üş gün də qəbri üstündə. Bizdə ocax qalamaq olmuyub, qəbr üstündə şam yandırılıb. Vedrə tapırdılar, elə düzəldirdilər ki, şam aşıb oranı yandırmasın. Mən şam yandırmadım, lopa qayırdım, nöyüdə qoydum. Bir qırıx vedrə apardım, çünki yel aşırıb eliyə, otduğu yandırardı. Onun da içini daşnan doldururdum ki, yel aşırmasın, lopanı üç gün axşam onun içində yandırdım. Deyirdilər, o şam pis ruhları ordan aralıyır.

Bizdə Molla Məhəmməd vardı, ona Allah rəhmət eləsin. Deyirdi, o iskat[25] qılıllar ey, pul verillər, qızıl saat gətir, qızıl sep gətir. Onu oxuyan molla bəyəm bilir o nədən ötrüdü? Burda kimə iskat düşür? Kimin burda kiloynan qızılı var? Mollaların fırıldağıdı hamısı. Onu kiloynan qızılı olan qıldırır, onun qızılından ona pay gəlir, o payı da götürüf kasıblara verməlidi. Burda molla sənin verdiyini götürüf cibinə qoyur. Ölüyə yeddi Quran xətm etmək var idi, bir xətm 25 manat idi. Molla Məhəmməd oğluna deyirdi, mənə xətm oxutma. Yeddi xətm 150 manat eliyir. O, deyir, varlılardan

[25] İsqat-salah namazını nəzərdə tutur. Ölünün qılmadığı namazı, kəsmədiyi qurbanı, getmədiyi həcci, vermədiyi sədəqəni pul qarşılığında başqasına, adətən, mollalara gördürürdülər.

ötrüdü, ondan pulu ala, kasıba verə. İndi xətmin biri 80, 100 manatdı.

Molla Məhəmməd hər günorta yeməyində əlli qram konyak içərdi. Deyirdim, a Məhəmməd dayı, bə deyirsiniz içmiyin. Deyir, hansı kopoğlu deyir onu? Bu da üzümdən hazırlanıb dana. Sən üzümü helə yeyirsən, mən də belə yeyirəm. Çox içmirdi, əlli qram içirdi. Bir gün Tofiqgilin qapısında toy idi, indi gəlməsin, gəldi düz böyrümdə otdu. Dedim, niyə burda otdun? Dedi, səni pismi gösdərirəm? Dedim, pis gösdərmirsən, biz içəcəyik axı. Dedi, sən ətimi gətizdir bura qoy, dığırranana kimi iç. Sənin nə dəxlin var mənə (S. 8).

**30.**

Molla gətirerik. Mən fikir verirəm molla oxuyur, əl tutan olmur çox vaxt. Orda ağzın nə idi əl tutmuyasan. Gürücüstanın Sadaxlı kəndinnən molla gətirirdik. Molla gəlməmiş o heyvan kəsilməzdi. Molla malı kəsərdi, cavannar da doğruyardı, soyardı, ehsan verilərdi. Molla gəlməmiş o pıçağı götürüb o mala heş kim yaxın düşməzdi. Mollasız iş görmürdük orda. Ehsanı da, qurbanı da molla kəsirdi, bircə toyda istədiyimiz adam kəsirdi. Kənddə iki dənə mollamız var idi, sən deyən elə dərin molla da döyüldü, onları gətirib kəsirdik. Ölümüz öləndə Gürcüstanın Sadaxlı kəndinnən gedib molla gətirirdik ölünü basdırmaq üçün.

Ölən günüsü mal kəsilirdi, ehsan verilirdi. Üçdə bizdə adam olmurdu. Qəbir qazannarı çağırerdıx, onnar yeyirdi, içerdi, onların evinə ət qoyurdux, plov, naskı, dəsmal qoyurdux. Amma yeddisində uje camaat – hamı gəlirdi, pul da yığılıredı. Mal kəsilerdi, ehsan verilerdi. Qırxı da onun

kimi. Ancax üç verilmirdi, üçündə qəbir qazanlar çağrılıb onlara ehsan verilirdi. Adna da verilir. Cümə axşamları istədiyin adamları çağırersan beş-on kişi, arvad, otururlar, molla gətirirsən, Quran oxudursan. Əlli ikidə beş-altı arvad, beş-altı kişi çağırellar, oturullar, çay-çörək yeyib dağılırlar.

Mal bir ölən gün, bir yeddisində, bir də qırxında kəsiler. Ölən gün də bizdə ehsan verilir. Qəbir üsdündə o vaxdı gedib şam yandırırdılar üş gün. Üş gün yuqat yerində lampa yandırılır. 90 yaşında, 100 yaşında qarı ölüb kəndin ayağında ha, radio açmaq məsələsi yox idi. Yeddisinə kimi heç kim radio açmırdı. Yasdan çıxartma var idi. Dost-tanış deyirdi, gedək oturax bir yerdə. Cavannar eliyir onu qırxı çıxandan sonra. Qırx çıxan kimi üzünü qırxırdılar. Ölünü basdırıb gələndən sonra camaat çalaya[26] girirdi, onlara ehsan verilirdi.

Əlli ikisində saat ikidən sonra beş-on arvad gələrdi oturardı, yeyərdi, içərdi. Bir dənə də arvad mollası gətirərdik. Əlli ikiyə adam çağırırdıx. Gücünə baxır, ətin nə qədərdi, ona uyğun adam çağırırdın. Onun üçün ayrıca çala qurulmurdu, elə evdə – bir otaqda keçirilirdi. Yerlilər qırxa adam çağırır, amma biz çağırmerik, isdiyən gələ bilir.

Ölünün lap üç ayı dolsun, əgər qara bayram gəlif çatırsa, həmin ölüyə də qara bayram verilir.

Məhərrəmlikdə imam ehsanı verilirdi, kimsə boyun alıbsa, imam ehsanı verirdi. Məhərrəmlikdə qırx gün toy olmur. Evə qonaq gəlir, arax çıxartmağa da qoymurlar ki, içki olmaz.

[26] Çala – mağar

Biz Ermənistanda qəbri qazanda sapba vururdux, amma burda sapba vurmurlar, şam qazırlar. Qırağın qazer, ortanı şam saxler. Ölünü sağ çiyni üstə qəbrə uzadırlar. Ölü yiyəsi gətirer qəbir qazana on manat verer. Mən o pulu götürmürəm[27], deyirəm, dəftərə yaz. Qəbrin üsdünü betonla döşüyürlər. Qabaxlar taxta döşəyirdilər, üsdünü salafanlayıb sonra torpax tökürdülər. Yeni basdıranda qəbri sulayırlar. Qara bayramda da, qəbri ziyarət edəndə də su aparırlar, qəbrin üsdünə su səpirlər. Başdaşını daşla döyürlər ki, gəlmişik (S. 29).

**31.**

Hüzür düşəndə kənddə üçünə qədər ev yiyəsi heç bir şeyə əl vurmazdı. Hamısını qonşular edirdi. Kimin gücü nəyə çatırdı; biri toyuq kəsirdi, biri plov eliyib aparırdı. Ölü götürən günü də halva bişirdi, doldururlar yuxanın arasına, iri ləyənnərə. Qoldan güjdü iki dənə cavan tabutun qabağınnan gedirdi, yolda kim rasd olurdu ona paylıyırdı, qalanını da dəfnə gedənlərə paylayıb çıxıb gəlirdi. Üçünü, yeddisini, qırxını ölü yiyəsi özü edirdi. Qəbri puluynan qazım belə şey yox idi, eşidən, əli bel tutan gedirdi, elə olurdu heç lapatka çatmırdı. Bu yaxınlara kimi burda da pul söhbəti yox idi, sonradan qəbr qazana pul ortaya çıxdı. Üçündə, yeddisində, qırxında çağrılırdı qəbr qazanlar. Götürülən gün halva paylanırdı, yeməyi qonşular bişirib gətirirdi, qıraxdan gələn qonaxlara həmin yemək verilirdi. Dəfn eliyənnən sonra birinci gün qarannıq düşməmiş gedirdilər üstündə ocax qalıyıb gəlirdilər. Yuqat yerində üç

[27] Məlumatı verən özü qəbr qazan idi.

gün şam yanırdı. Qəbri düz qazırdılar, sapma bizdə olmuyub. Qəbrin üstünə stol ennikdə sal daşdar döşüyürdülər, sonra torpaq tökülürdü.

Gündüz ölübsə, həmin gün dəfn edirdilər, amma axşam ölübsə, saxlıyıb səhər dəfn edirdilər. Gün dönəndən sonra ölü basdırılmazdı.

Arvad qəbrini sinəyə qədər qazırlar, kişi qəbrini göbəyə qədər. İnsan bədəni ilə ölçünü müəyyən edirdilər. Dizə qədər qazırsan, qıraxdan iyirmi santım yer buraxırsan, ortada qırx santım da şamlıq qazırsan. İkinin birə qəbr qazırsan. İndi helə döylü. Altmış santı, səksən santı dərinlikdə qazırlar, şam yeri olmur, qəbrin kənarların hörürlər, üstünə tənək stolbası qoyurlar. 60-cı ilə kimi daş da yox idi, qəbrin üstünə ağac döşüyürdülər. Yağdı, pendirdi, pesoxdu, şəkərdi, termosda çay qəbirsannığa – onlara yemək gedir. Orda dincələndə oturub həmin yeməyi yeyillər. Qəbirsannıxdan qayıdanda onlara bişirilən ehsandan verirlər. Üçündə, yeddisində, qırxında onları çağırırlar. Gəlmiyən qırxına gəlir, qalan əhalini də özümüz çağırırıq. Kənddə qırx-əlli öydü, hamısına bir-bir düşüb deyirik ki, sabah qırxdı, gəlin ehsana. 57-ci ildə nənəm rəhmətə gedəndə büküm halva paylanmışdı fətirin arasında. Dədəm deyirdi, onda belə mod var idi kəndə. Fətir bişirilirdi, halva çalınırdı, bir büküm deyirdilər, hər qapıya paylanırdı (S. 27).

**32.**

Allah rəhmət eləsin babasına (yanındakı adamı nəzərdə tutur – tərt.). Bizdə ədət idi, eşidirdim ki Gürcüstanda ölü düşüf filankəsin qohumudu, hamı getməli idi. Maşına dolordux, o kişi birinci kabinkada oturmalı idi. Getdih,

nolajax, xalx namaza durdu. Bu kişi gələndə bir molla irəli çıxmerdı. Kişi başladı, – irax qulağınnan, – namaz qılmağa, ölü namazı. Sən demə, kişi gözün altınnan baxermiş. Baxer, bir neçəsi geri çəkiler. Namazı qıldı qutardı. Dedi, ay camaat, bilirsiz nə var? Birinci, hər elin bir ədəti var. Getdin gördin bir yerdə qartof bişirillər, kirimişcə otur ye. Bir yerdə xəngəl bişirillər, kirimişcə otur ye. Hər elin bir ədəti var. İkinci, islam dininin də bir ədəti var. Nədi mən belə qılıram, sən belə qılırsan. Mən də Allaha səcdə edirəm, sən də edirsən. Bə niyə geri çəkildiniz? Əlini stola döydü dedi, bir də belə işiniz olsa, siz müsəlman döyülsünüz.

Qəbir üstünə səhər tezdən gedilirdi, 12-yə kimi gedilməli idi. Quran oxudulurdu üsdündə, bayram nemətlərinnən aparılırdı. Qəbirsannığa gedəndə gərək cəmi qəbirsannığa Quran oxudasan, qəbirsannığa dua verəsən. O düzgün döyül ki, sən gedib öz ölünün üsdündə oxudursan. Onda o biri ölünün ruhu inciyir. Ölünə lazımdı evdə oxut, başqa yerdə oxut. Qanfet, ələ keçəndən orda olannara, yazıx-yuzuğa verirdik. Qəbir üsdünə bizimkilər adına günü gederdi. Havağa düşdü düşdü, ölünün adını anırdın, yeməh pişirirdin, bir molla da çağırırdın. Bizdə adət beleydi, ölü öldü, o ojaxda üç gün qazan asılmerdi. Qohum-əqrəbə pişirer gətirer, gələn qonağı yola saler, çıxer geder. Üç günnən sora da deyirdilər ağız ajılığı. Bir az halva düzəlderdilər, qəbir qazanı, mollanı çağırerdılar, Quran oxudurdular, çıxer gederdilər. Adına yoxuydu. Adına günü molla gələrdi, Quran oxuyardı, bir stəkan çay verərdin verərdin, verməzdin deyirdi, Allah ölənlərinə rəhmət, çıxardı gedərdi. İndi bir adna bir ehsan əvəzidi. Təzə çıxdı bı ədət, köhnədən belə şey yoxuydu. Qırx gün qohum-əqrəbə gəlerdi yoxlor-

du, gederdi. Ona yeməh, filan-fəsməkən, elə şey yoxuydu. Üçü, qırxı, ili də verilirdi, vəssallam. Əlli iki də var bizdə. Əlli iki yanı tarixdə belə yazer ki, ət sümühdən aralaner (S. 49).

**33.**

Qara bayram niyə deyillər. Bayrama bir gün, iki gün qalmış camaat gedər ölüsün ziyarət eliyər ki, ruhlara xoş gedər, sonra gələr bayramın eliyər. Bizdə qəbr üsdünə bayramdan qabax cumə axşamı gedilir.

Birinci çiy ehsandı. Onun savabı, fəziləti daha böyükdü. Qapı-qapı düşüb adam başına bir kilo, yarım kilo ət paylıyırdılar, bir büküm də halva. Onun savabı daha çox olurdu. Bişmiş ehsanı paylıyanda hamilə qadınların gözü baxa-baxa qalır, nolar, ondan bizə də göndərələr. Amma çiy ehsanı traktora, arabaya qoyub qapı-qapı paylıyırdılar. Onun savabı bundan çoxdu. Biz indi pul verib ehsan yeyirik. Pul ki var, o ehsan döylü. Ehsan xeyirxahlıq deməkdi. Yas düşəndə birinci, ikinci, üçüncü gün ehsan olmazdı. Yalnız uzaqdan gələnlərə Allah rizası üçün yemək verilirdi. Birinci günü yüngül ehsan verilirdi – pendir, çörək, çay, vəssalam. Ya üçü, və ya yeddisində ehsan olardı. Biz üçünü, yeddisini bərabər eliyirdik, bir də qırxında ehsan verilib. Cuma axşamı deyilən şey əvvəl yox idi. Bakıya gələndən sonra bu dəbə mindi. Əvvəl qonşular gəlirdi bir istəkan çayını içirdi, "Allah rəhmət eləsin" deyib gedirdilər. Amma bizdə indi neynirlər. Ət, konfet, şakalad, şəkərbura. Ümumiyyətnən, Ermənistanda belə şey yox idi. Molla gələrdi adna axşamı, Quran oxuyardı, bir istəkan çay içib gedərdi. Amma indi

gəlir yemək yeməkdən dəyirman xoruzu kimi qıpqırmızıdı, gedəndə də 20-30 manata razı olmur, 50-60 manat istəyir.

Əlli iki ət sümükdən ayrılan gündü. Halva şirinlik əlamətidi. Dədə-babadan toydan sonra qız görməyə gedəndə, qız doğanda, nəvə-nəticə olanda şirinlik rəmzi kimi halva aparardılar. Halva da ölü yerində paylamaq ağız şirinləmək, əzadan çıxmaq deməkdir. Üçündə verirlər, qırxında verirlər.

Ən vacibi cənazə namazıdı. O namaz döyül, ölünün dalınca oxunan dua deməkdi. Bütün namazın duaları oxunur, sübhanəkə oxunur, meyid namazın duası oxunur, salam verirsən sağa, sola. Orda əli bağlı da qılmaq olar, açıq da qılmaq olar. Heç bir məna ifadə etmir. Namazın üç duası orda da var.

Qabaxdan biz lək qururdux. Lək vurursan, ölünü ora qoyursan, üsdünü də torpaxnan doldurursan. Ona lək deyirlər. Amma indi kubiklə hörürlər. Ağdamda altımış santılıq döşək düzəldirlər, başının altına yastıx qoyurlar, döşəyin üsdünə uzadırlar. Mənim bajım iki dəfə hajda olmuşdu. O öləndə haj köynəyinin birini əyninə geydirdim, üstündən də kəfən, birini də yastıq kimi elədim başının altına qoydum. Mənə dedilər, yox. Dedim, mən bilmirəm nağarıram? Öz vəsiyyəti deyildi. Paltarı miras qalmasın deyə elədim. Haja getmiş adamdı, paltarını da geydirdim əyninə.

Yuqat yerində üç gün lampa yandırırlar. Amma indi yuqat yeri evdən kənarda olduğu üçün orda yandıra bilmirlər, amma qapıda axşamlar çırax yandırırlar. Xətm var. O da nətərdi. Var xətm qıraxdan gəlir. Mislaçün, mən dəfn eliyirəmsə, gəlir ki, bunun xətmi var, Molla Alı tərəfindən gəlib. Mən də isxat-salah namazında – indi onu da qılmırıx,

daha yoxdu, – həmən o xətmi ona bağışlayıram. Filankəsin oxuduğu beş xətmi buna bağışlıyıram. Ancaq özün versən xətmi, gənə heş nə lazım döyül. Burda mən də deyirəm, oxuduğum Quran xətminin üçünü bağışlayıram. Quran evdə xətm olunur. Qırxına qədər də xətm eliyə bilirsən. Qabaxca da varındısa, şəhadət verirsən ki, mən oxuduğun xətmləri bağışlayıram filankəsə. Bir ölüyə nə qədər istəsən xətm verə bilərsən, yeddidən çox olmamalıdı. Xətmə qiymət yoxdu (S. 44).

**34.**

Bizdə ölü ölən günü camaat çəkilib gedəndə deyirdilər, dur, bir ölügözü çal, basırılan günün axşamı. Həmən günüsü isdiyir malın olsun, isdiyir olmasın, kalxoz bir dənə mal verirdi təmannasız. Kalxozun bir gözəl xüsusiyyəti vardı, kökəltmələr olurdu, cöngələr olurdu. Deyəh, malın arıxdı, aparıb onu bağlıyırdın, onun yerinə ordan bir kök mal kalxoz verirdi sənə ki, apar kəs, məclisini yola sal. Ehsan ancax yeddidə verilirdi. Birinci gün camaat basırırdı, qayıdıf gəlirdi, həmin gün hallalıx çörəyi verirdilər. Göyçədə belə bir adət vardı, aparıb basırıf qayıdanda deyirdilər heş kim yayınmasın, gəlin bir kısmat o qapıda halallıx çörəyi yeyin, hallalıx verin, çıxın gedin. Üşdə qəbri qazannarı, mürdəşiri, palaz-paltarını təmzidiyənnəri çağırıf onnardan halallıx alırdılar. Böyüh ehsan olurdu yeddidə. Onda bozartma da verilirdi, aşqaralı plov da olurdu. İl söhbəti olanda ilə heyvan bağlıyırdı ölü yiəsi, bəsliyirdi. İldən bir gün qabax qohum-əqraba yığılırdı, yekə bir surfa açılırdı. Kənd neçə evdisə, tutax ki, bizim kənd yetmiş iki eviydi, yetmiş iki yerə pay qoyulurdu. Payın hamısı

çəkilirdi, çiy şəkildə paylanırdı. Orda ilə çağrılma söhbəti yoxuydu. Ölü yiyəsi vardı ki, bir maşın təşkil eliyirdi. Bu məhlədə otuz evdi, otuz pay qoyurdu. O vaxdı salafan yoxuydu, kağız torbalara yığılırdı, üsdünə ad yazılmırdı, çiy şəkildə ev-ev paylıyırdı. Amma burda gəlif gördük ki, ilə adam çağrılır. Orda çağırmax söhbəti yox idi. Rəhmətdik Mirsöyün ağa deyirdi, oğul, toy olsun, yas olsun, getməmişdən qabax ya bazardan ət al gətir, bazarda yoxsa ikicə dənə çolpanı kəsdir, denən bunu bu uşağa bişir. Gələndə üstündən ətin iysi gəlir, o ovsanatdıxdan çıxır. Bu ağanın qoyduğu yol idi. Deyirdi ki, min adam rəhmət oxuyarsa, onun birikisi hasil olar. Ona görə onu ev-ev hamıya paylıyırdılar ki, uşağ olsun, böyük olsun, yeyəndə heç olmasa ev yiyəsi desin, a bala, bu filankəsin ehsanıdı, ona rəhmət oxu. Uzaqdan gələnnər əzanı birinci gün yazdırırdılar. Baxırsan üçündə də yazdırırdılar, amma əksəriyyət yeddidə yazdırırdı. Beş manat, 10 manat, əmi-dayı 20 manat yazdırardı. Adna axşamları oluf. Hər adnada da eyni adamlar gəlmirdi. Məsələn, kənd dörd məhlədən ibarətdi, bir gün bu məhlə gəlirdi, gələndə də heş biri əli boş gəlmirdi. Kim olurdu baxırdın ki, bir kilo kanfet gətirirdi, kim olurdu bir-iki kilo qənd, içində də çay gətirirdi. Kimin nəyə zoru çatırdı əli boş gəlmirdi, amma pul söhbəti yoxdu. Qırxda da çağırmax söhbəti yox idi, qohum-əqraba, dost-tanış gəlirdi. Yeddidə gəlif yazıf hardasa on manat, qırxda da gəlifsə, mütləq orya da aza düşürdü.

Ölən günüsü aparıb başdaşının yanında ocax qalıyırdılar. Ağlaşma yerində hələ ki ölü yuata götürülmüyüb, onda sinəsinə güzgü qoyurdular. Ölünün mirasını da suya çəkirdilər, tərtəmiz rahatdıyırdılar, sora aparırdılar dağa. Tutax ki, dağda baxırdın çobana. – Üsdün-başın nədi? Ala,

bunu, geyin get. Daha demirdilər mirasdı. Ya da kəntdə dilənçiyə-zada verirdilər. Bəzən də eləsi olurdu ki, aparırdı qəbirin əyağ ujunnan qazıf basırırdı. Ziyarətə gedəndə daşnan baş daşını döymək var idi. Bizdə şumal daşdar olurdu. Elə bil ki, onu gedib çayın içinnən tapırdılar, gətirib qoyrdular baş daşının yanına. Ağadan (Mirsöyün ağa – tərt.) soruşurdux, bu nədi? Amma ağa bunnarın hamısına mənfi baxırdı. Deyirdi, orda heç nə yoxdu. Onun ruhu ordan çəkilib gedifdi. Onu takqıldatmaxnan ruh orya gəlmir (S. 34).

**35.**

Məhərrəmlih girməmiş haneyi toxuyuf bitirmədinsə, neçə ki məhərrəmlih çıxmayıb o hananın nə qırağında otmurdular, nə də kəsmirdilər. Səfər ayının çıxmasını da gözdüyürdülər. Əlli gün nə haneyi toxumurdular, nə də kəsmirdilər. Bizdə məhərrəmlih olanda on gün paltar yumurdux, sabun əzmirdih, ağsakqallarımız deyirdi, günahdı, Aşura günü olmaz. Yalnız imamın üçü çıxandan sonra paltarımızı yuyurdux. Qırx gündə qətiyyən arağ işdi nəydi, xeyir iş elədin nəydi? Deyirdih, imamın qırxı çıxmıyıf. Savetin vaxtıydı, ixtiyarımız yoxuydu ki, gedəh Aşura eliyək. Qara damlarda xəlvət eliyirdik. Gecələr olanda camahat mərsiyəyə gedirdi. Nədi-nədi gələr yığar aparallar, gizli keçirilirdi. Qətl sınma bizdə qəvirsənnihdə keçirilirdi. Gecələr də olanda on gün bir qara dama kəndin camaatı yığılırdı, orda mollalar mərsiyə deerdi.

Ələm gəzdirirdilər, kənardan gətirirdilər. Şınıxdan gətirirdilər. Bəşir kişi var idi, Allah rəhmət eləsin, onun ələmi idi. İndi bizim kəntdə – Nərmannardadı o ələm. Kimin evində də Düldülün nalı varıydı, onun qoynuna qoyub

aparırdı. Elə bil o atdanırdı mərsiyə günü, Allah hakkı. Elə bil çəmədanda takkıltı salırdı, onu mərsiyəyə aparırdı.

– *Düldülün nalı ələmin başındakına deyirsiniz?*

– O deer Cənab Əlinin atının nalıdı. Bəşir kişinin ələmi çox sınaxlı ələm idi. Onun duası varıydı, oxuyurdun, nə gizdədifsən, gedif onu tapırdı. Bir gün nəziri atam gizdətdi daşın dalında. And olsun Allaha, ələmi Bəşir kişi tutammırdı. Biz də uşağıydıx. Ələm coşurdu, oana-buana, nəzir hardadı, özünü orya vururdu. Bəşir kişi dedi, ay bala, sən allah, məni day üzdü, çıxart o nəziri. Çıxardıb verənnən sora o dayandı. Elə bil Məhərrəmlih başdıyanda on gün gəzdirirdilər qapı-qapı, kimin nəziri varıydı bağlıyırdı. On günnən sora Qətl harda sınırdı, orya aparırdılar. Hamı gətirif niyyətini eliyif, bağlıyırdı (S. 43).

## 36.

Məhərrəmlik bizdə çox təntənəli keçirdi. Yarpızdıdan biri var idi, bizə sədr gəlmişdi. Mənim atam bir beş nəfər də ağsaxqal getdi dedi, – Şahbaz idi adı, – Şahbaz dayı, sana bir xayiş eliyək. Dedi, deyin. Dedi, bizə bir beş yüz kilo taxıl ver, imam ehsanı verəjeyik. İlkin məllim, inanıdırıram səni, biz də on-on iki yaşında uşaxlarıx. Qırp yığırdıx. O vaxdı taxıla dırmıx çəkirdilər, yavaynan taxıl götürürdülər, yerdə qoymurdular sünbül qala, bir-bir dənniyif o yığının üsdünə qoyurdux. Deyirdi, sizin imanınıza da qurban olum, özünüzə də. Beş yüz kilo taxıl verdi, camaat da bir az pul-para yığdı. Deməli, əlli qazan halva çalırdılar. Yağın sən onda hökmünə bax. Üç kilo yağa yeddi kilo un, altı kilo pesox tökürdün, iki verdə də su, yarım qazan halva olurdu. İndi üç kilo yağa üç kilo un qatırsan, a kişi, inandırıram, bir fərri iş alınmır.

Ələm gəzdirirdilər, Azərbaycannan gətirirdilər ələmi. Mən cannı şaadam. Əmir Əhmədin dərəsi deyirdik, orda bir nəfər ələm gəzdirirdi. Çoban da deyif ki, filan quzuyu ələmə nəzir deyirəm. Gediflər ora, deyiflər sənin sürüdə ələmə nəzir var. Deyif, var, get, tut apar. Bax, onun belə kəməri, ağrın alım, tokqada onun halqası var. Belə geydirillər, ondan sonra duası var onun. O duanı oxuyannan sonra, bax, bax, bu quru ağac quş olurdu, səni çəkə-çəkə düz o nəzirin üsdünə aparırdı. Mən o möcüzü görmüşəm, özüm ölüm. Məhərrəmlikdə bir də baxırdın Göyçayın seyidləri gəlirdi, ələm gəzdirirdilər (S. 3).

**37.**

Ermənilərnən bizim dəyirmanımız bir idi. Mənim atam da dindar idi; baş yarırdı, imam ehsanı verirdi. Evlərdən pul yığırdı, mal alırdı, imam ehsanı verirdi. Atam ələm götürüb, ermənilər də bunu lağa qoyublar. Bir qardaşım da dəyirmanda taxıl üyüdür, atam da deyir, gedim görüm. Əgər vaxdı keçirsə, Allaha and olsun, məhərrəmlik girəndə o saat tapbatap sandığı döyürdü. Atam sandığın ağzını açanda atamın çiyninə sıçrıyırdı. Onun başına yaylıxlar, pullar nəzir bağlıyırdılar. Ermənilər lağ eliyir. Atam deyir, indi siz durun köpək uşağı, harya pul qoymusuz, nə qoymusuz, indi məni yoxluyun. Bizim kənd yuxarıda idi, ortada bir çay var idi. Ələm atamı sirkəliyir. Ermənilərnən bizim arada bir çay axırdı. Olarnan bizim arada oların kilsəsi var idi, başdarın yesin. Hündür qayalığ idi. Atam isdiyir bu yannan getsin, atamı götürür çaya tərəf addıyır, çiynində də ələm. Qəşəh bəziyirlər ələmi, o sandıxdan çıxan beşbarmağı. Qurban olduğumun barmaxlarıdı, Həzrət Əlinin barmaxları idi.

Əlinin bir ziyarətgahı da Saral kəndində idi, Əli daş qılışdıyan. Qurban olduğum atnan gedəndə bir dağa rast gəlir Saral kəndində. Qılıncı qaldırıf vuranda dağ iki aralanır. Hamımız həmişə qurban kəsirdik, ora gedirdik ziyarata. Ələmi də sınaxdan keçirillər. Ələm atamı götürür o dağdan atır. Erməni deyir, ayə, Eldar öldü, Eldar öldü. Yıxıldı, kor idi, görmədi. Atam deyir, kor mən döyüləm, siz korsunuz. Səbr eliyin. Atamı çaydan keçirir, hündür qayadır, o qayadan da keçirir, gedir dəyirmana. Dəyirmanda deyirlər, buna bax, ağacı əllərinə alıf, qırmızı bəziyif düşüflər çölə. Da demirlər bu ələm sınaxlı şeydi. Qardaşımnan anam deyir ki, gəlin bir yapba qoyun. Əgər o gəlif o pulu tapmasa, biz yalanıx. Əgər gerçək olsa, bütün kənd qalxajax üsdüzə. Orda götürür erməninin biri qəpiylər qoyur daşın altına. İnan Allaha, bu həqiqi oluf. Məhərrəmlik olanda atam bizi yığırdı başına, bunu söylüyürdü. Atam gedir, dəyirmana yaxınnaşanda nə bilir hara pul basırıflar, ermənilər görüf deyir, görəm, bular niyə yığılıf. Gənə müharibəmi qalxıf, bizi qırmağamı yığışıflar bu qırılmışdar? Ələm atamı sürüyür, sürüyür. Deyir, ay camaat, hara nə basdırmısız mənə deyin, bu məni haldan saldı, tər məni basdı. Məni ora-bura yıxır, gücüm çatmır. Deyir, bir belə şey səni nətər yıxır? Deyir, siz qırağa çəkilin, siz haram olduğuz üçün bu yaxın getmir sizə. Ondan sora gedir o pulun yanında durur (S. 16).

**38.**

Məhərrəmlik ayında dünyasında xeyir iş görülməzdi. Xeyir iş görən ziyana düşərdi. Bir hadisə oldu. Bizim qonşumuzdu. O toy eləməyə hazırraşırdı Məhərrəmlik ayında,

özü də Sumqayıtda səkgizinci mikrorayonda zanbak[28] işdiyirdi. Bu toy dayandı. Ondan sonra orda slesar işdiyən bir nəfər Avtandil adında bir oğlanın atası dedi, Allaha qurban olum, toy da olar, vay da olar. Hazırrıx görüldü, filan-bəhmən oldu. Sabah yox, biri gün Avtandili gözdüyürdülər, biri gün nədi, sabahı dedilər ki, tok vurub, meyidi gəldi. Onun toyuna hazırrıx vayına qismət oldu. Bax, onun mən özüm cannı şahidiyəm, həmin yas yerində özüm də oldum. Onu da qlarnetnən, ölü havaları var da, onnan aparıb dəfn elədilər.

Ələm coşanda qoyurdular nəməri, ələm gəzdirəni yıxırdı, deyir. Düz gedirdi onun üsdünə. Adınnan deyirdilər ki, filankəs nəmər qoymuşdu daşın üsdünə, ələm getdi düz daşın üsdünə. Kəndimizdə bir nəfər ələmi özündə saxlıyır, o gəzdirirdi.

May ayına boş ay deyirdilər, xeyir iş olmazdı. May ayında toyux da yumurtdamır, cücə çıxartmır. Bir ojaxda cavan rəhmətə gedifdi, o ojaxda bir il xeyir iş olmazdı. Lap toy olası uşağı da olsa, olmazdı. Qızı da olsa, o qapıya elçiliyə gəlməzdilər. Bilərdilər ki, bir il bu aylə yasdadı (S. 15).

## 39.

Uşağı durmayan, gec olan niyyət edirdi, Məhərrəmlikdə uşağa ağ köynək geydirif alnını çərtirdi. Bunu bir dəfə evdə dedim. Gəlin dedi, ay ana, mən heç qoyarammı – qızı var idi bir dənə, – uşağın başını yaralar. Helə şeymi olar. Dedim, a qızım, o adət-ənənədi. Odun peçi var idi, belə qoymuşdux, divanda da oturmuşdular. Sabah qətl sınan günü saat on iki ərəfəsində uşax yıxıldı, başının burası (alnı-

[28] Zanbak – zambank, bank rəhbərinin müavini

nın göstərir – tərt.) dəydi düz qırağına. İndi qan elə gedir, elə gedir. Təntidilər, rəhmətdik Ənvər doxtura apardıx uşağı çatdırdıx. Adam yolladı, aptekdən dərman aldı, gətirdi. Dedi ki, bunu sarıyıram, həkimsiz açmıyın ha, qan aparıf uşağı öldürəcək. Allah haqqı, Bayram[29], onda rayonda polis işçisi oluf böyük oğlum. Maşın var idi, dedi siz o maşınnan gedin, mən də sabah gələcəm, aparıf doxtora açdırax. Doxtorsuz açmıyın. Nəsə, mən də getdim. Gəlinnər ikisi də dedi ki, ay ana, gəlsənə burda açax. Dedim, ay bala, birdən uşağı qan aparar. Atamın goru hakqı, uşağın başını aşdılar, elə bil axşamkı yaradan əsər-əlamət qalmıyıf. Yara ağız-ağıza bitişif. Dedim, a qızım, mən dünən sənə danışdım, sən yaxın qoymadın da, şəkk eylədin. Bu hadisə başaa gəldi. Şəkk etmək olmaz (S. 19).

**40.**

Bizdə Məhərrəmlikdə hər axşam bir evə yığışırdılar, – kəntdə dörd-beş ev var idi, – orda mərsiyə deyilirdi. Kim nəzir desə, o evə yığılannara nəzir paylıyırdılar. Ev başı nəfərə görə on manat, beş manat yığırdılar. Qətl sınan günü iki kəndin ortasından böyük çay gedirdi, o çayın qırağına yığılırdılar, beş-altı mal alıb kəsirdilər, camaata əti paylıyırdılar. Qazanlar qaynıyırdı, kimi şərbət hazırrıyır, kimi halva çalırdı imam ehsanı. Axşama kimi o çayın qırağında millət otururdu. Hər gecə də şər vaxdı on gün o qətillikdə küçələrə düşürdülər, yezidə nəhlət deyə-deyə şahsey döyürdü uşaxlar.

Yezidə bax, yezidə,
Çıxsın iki gözü də.

[29] İcra nümayəndəsi, söyləyici ilə bizi o tanış etmişdi.

Qırılsın oğlan-qızı,
Heç qalmasın özü də.
Yezid minif atına,
Nəhlət onun zatına.

Mənim buramda xal var. O xalı mən didmişdim. O xal gəldi şişdi qulağımın dibinnən bir oldu. Evdə atam-anam dedi ki, a bala, nəzir deynən, bu yaxşı şey döyül. Xala əl atmağ olmazdı. Nəysə, mən gətirdim nəzir dedim, on manat başımın altına – yastığa qoydum. Allaha and olsun, bir kişi var idi, ələm gətirmişdi. Ələmi buraxdı qapıdan, bu gözdərimin şahidiyəm, getdi palazın üsdündə, bax, belə dayandı, qara da ələm idi. Dedi, a qızım, sənin nəzirin var, o nəzirə görə gəlif ki, nəziri götürsün. Getdim gətirdim, verdim. Bax, mən özüm onun cannı şahidiyəm. Ələmi kənardan tanımadığımız adamlar gətirirdi (S. 19).

**41.**

Məhərrəmlikdə kənddə toy olmurdu, arax söhbəti ola bilməzdi. Qəti qadağan idi mağazində Məhərrəmlik günü arax satmax. Ağa bilərdi ki, Nərman arax satıf, onun cındısın göyə götürərdi. İmamların yeddisinə kimi bəzi adamlar vardı sakqal saxlıyırdı. İmamların yeddi günnlük söhbətində adamalar vardı ehsan verirdi, adamlar vardı qırxı günü ehsan veridi. O da mağar qurub ehsan vermək döyüldü. Məsələn, iki qazan halva çalırdı, yetmiş iki dənə də yuxa çəkirdi. Bilirdi ki, bu evdə beş nəfər var, beş xörək qaşığı qoyurdu yuxanın arasına ki, bu beş adamın payıdı. Qoyurdu kağız kloxun içinə, üsdünə də yazırdı Əhmədin, Cəmilin, Əlinin adını. Bu imam ehsanı idi. Qırxında baxırdın ki, arıçılar adama bir istəkan bal verirdi. Evdə beş

nəfərsənsə, beş istəkan bal ehsan verirdi. Mən arzu eliyirdim ki, bu il urzamı bol elə, əmin-amannığ elə, doludan, leysannan kənar elə, arının məhsulu yaxşı olsun, imam ehsanı verəjəm. Onu da hər adam vermirdi. Amma hər cümə axşamı bütün evlərdə imamların adına qazan asılırdı düz qırxına kimi. Qırxı günü camaat yığılırdı qəbirsannığa, bütün qəbir əhlinə dua oxunurdu, orda da müəyyən adamlar evindən qənd aparırdı, kanfet aparırdı. Orda qəbrin üsdünə qoyurdular, ondan sonra çıxıf gəlirdilər. İmamların ruhuna dua oxunurdu, onnan bərabər o kənddə dünyadan gedənnərin hamısına dua oxunurdu. Böyrümüzdə Kəsəmən kəndi var idi, orda Molla Muxdar deyirdilər, məclisi aparan o olurdu. Bir yer təşkil eliyirdilər, Aşura günü neçə kəntdən ora adam gəlirdi. Qəbirsannığın böyründə meydan açırdılar, orda Aşuranı keçirirdilər. Fətir bişirib aparırdılar. Ələmi qırax yerdən gətirirdilər. Zəncir döyməzdilər, ağa[30] deyirdi Allaha ağır gedir[31] (S. 34).

## 42. DANATMA

Danatma niyət eleerik dana. Leyli-qədir gejəsində üç gün oturorsan bu özün üçündü, amma danatmada niyət eleersən ki, ay Allah, mənim bu işim düzəlsin, mən dördüncü çərşənbədə dan atajam. İndi, bax, ayın on yeddisi niyət gejəsi ki var, onda keçirəjəhlər. Yeddi il də mən keçirmişəm, düz yeddi il. Bağışda məni, sən də mənim oğlum, nəvəm olmordu. Bir oğlum var, onun uşağı olmordu. Dedim, oğul-qız

[30] Mir Hüseyn ağanı nəzərdə tutur.

[31] Niyyət eləyib uşaqların başını çərtdirmək – belə bir adətin olub-olmadığını xəbər aldıqda cavabı bu oldu ki, qəti elə şey yox idi.

nə olur-olsun, züryəti olsun, yeddi il dan atajam, özüm də yeddi öyə diləndirəjəm. Elə bil altı ildən sonra oldu. Uşağın qırxı çıxannan sonra yeddi qapıya apardım, yeddi yaşına qədər də dan atdım. 20-25 nəfər çağırerıx, zalda yekə stol düzəlderəm. Axşam saat dokquzdan başderıx, səhər dan ulduzu çıxana kimi. Oturollar, axırıncı yeməyini, çayını içer, varer öyünə geder. Səhərə qədər yatılmer orda. Dan ulduzuna qədər oyax qalellar, bax, ona danatma deerlər. Danatmanın xərcin ev yiyəsi özü çəker. Ora gələn kimisi şirni gətirer, kimisi uşağa paltar gətirer, kimisi pul verir. Belə olur dana. Niyyət eleersən ki, ay Allah, mənim oğlum əsgərlikdən sağ-salamat gəlsin, dan atajam. İndinin özündə də var. Ora yığılannar çay içellər, molla gətirerik demirəmmi, onda da molla gəler, hədisdər danışer, Qurannan, mələhlərdən danışer. O danışdıxca sən maraqlanersan, sual verersən, o da başdeyir danışmağa, bir də baxersan ki, sabah açılıb (S. 12).

## 43-46. BİŞMƏ QURBAN

Mənim qaynım rəhmətə gedəndə Leninkənddə[32], gəldi qaynanama dedi ki, bu kimdi. Dedi, Həcərin yoldaşıdı. Dedi, sən kimlərdənsən? Dedim, tanımazsan. Mən Seyid Nağının nəvəsiyəm. – Ə, – dedi, – Seyid Nağı Milli dərəsinə nöyüt gətirəndə bizdə qalırdı, tanıyannar yığışırdı onun başına. Allahdan, peyğəmbərlərdən söhbət eliyirdi, düz yola qoşurdu, haram tikə yeməyin. İnanmayanda da deyirdi, gəlin təndiri yandırın, düşürəm təndiri keçirdəm. Mındar əti yeməyin. Mən atamnan görmüşəm, bizdə beçə banna-

[32] İndiki Çinarlı kəndi

mıyanda kəsmirdilər, o haramdı, kəsməh olmaz. Toyuğu kəsəndə, beçəni kəsəndə onun xirtdəyinnən başında qalmırsa, o haramdı, tulla getsin. Toyuğun gərəh dilini çıxardasan, balacana xırtdəh başın üsdə qala. Qalmasa, o haramdı. Kəsəndə mən helə kəsirəm. Kəsəndə də deyirəm, "bismillah Allah". Rəhim demək olmaz, rəhim deyirsənsə, gərəh rəhm eliyəsən. Qada qurbanı ayrıdı. Qada qurbanı demisənsə, İsmayıl qurbanınnan qabax onu kəsirsən. Qada qurbanı kəsəndə heyvana duz yaladasan, amma İsmayıl qurbanına duz yalatmağ olmaz. Çünkü İsmayılı qurban kəsəndə duz olmuyufdu. Sən gətirif ona duzu niyə yedirdirsən ki? Amma qada qurbanı duz yaladırsan, su içirdirsən. İsmayıl qurbanında heyvanın bütün əzaları düz olmalıdı.

– *Qurban kəsilən heyvanın qanını neyniyərdiz?*

– Qada qurbanında itə veririh, amma İsmayıl qurbanında bir ağacın, gülün divinə basırırıx. Təmiz yerdə kəsirih. Bax, ora (həyətdəki təmiz yeri göstərir – tərt.) təmizdi, qivləyə çöörürəm, orda kəsirəm. Qanı orda qalır, üsdün də örtürəm. Amma itə vermək olmaz, qada qurbanında vermək olar. Onun da yeddi əzası haramdı. Misalçün, ürəyin sağ qulaxcıxları, döşün altınnan kəsillər, qolun ucunnan kəsillər, sidihliyi – yeddi əzası haramdı. Bax, bunları çıxardırsan. Atam deyirdi, qada qurbanı üç, yeddi, iyirmi bir – tək olmalıdı. İsdiyirsən üç yerə böl, isdiyirsən yeddi yerə böl, isdiyirsən iyirmi bir yerə, amma tərəzi olmaz. İsmayıl qurbanın bir qismin paylıyırsan, kasıblara verirsən, bir qismin də özün yeyirsən. Sümüylərini də basırırlar, amma o birini itə atırdılar.

Qada qurbanı heç, amma İsmayıl qurbanın elə kəs ki, bıçax sümüyü zədələməsin. Hiflərini elə kəsirəm ki, bıçax dəyməsin. Allahtalaya qurban olum, o dirilir da[33].

– Hansı qurbanın sümüyü kəsilməməlidir, bıçaq sümüyə dəyməməlidir?

– İsmayıl qurbanı. Bircə başını kəsirsən, qutardı. Stolun üsdünə qoyuf doğruyammazsan. Kimə paylıyırsan ya bir qol verirsən, ya bir qıça verirsən, belə paylıyırsan. Qəti doğramağ olmaz. *İsmayıla gəldi qurban, bıçax oldu ona fərman. Burda Durağ olax, behişdə çırağ olax, Kərəm Əlinin dəminə hü,* – deyib qurbanı kəsirik, dalınca da deyirəm: *Qurban sahibi, qurbanın başı bulağ olsun, əyağı gur olsun, nəzilsin üzülməsin, daşsın tökülməsin, Kərəm Əlinin dəminə hü*[34]. Bunu İsmayıl qurbanını kəsəndə oxuyurdux. Qada qurbanında duz yalatdırandan sonra ona su da verirsən, istər-istəməz içir də o. Biri gətirir, deyir qurbanım var. Buna təkbir deyirik, beş manat, on manat qoyur duzun üsdünə, bu təkbiri deyirəm, oxuyannan sonra barmağımı belə çəkirəm (əli ilə iki cız çəkir – tərt.), deyirəm, indi bunu apar xörəyizə, xamırıza qatın, bərəkətdir da.

– *Bişmə qurbanı nə vaxt bişirirdiniz?*

– Onu demək olmaz axı, qadan alım.

– *Nəyə görə?*

– Onu heç kim bilməməlidi. Sənin ürəyin şəhadət verməsə, onu sənə demək olmaz. Birini yola gətirirsən, yola gətirməyə bir qurban deyillər, sən dediyin bişmə qurbanı. Onu da əl damında kəsillər, hər şeyini ora töküllər. Ona bıçax vurmazdar, bütöv bişirəllər.

---

[33] Həmin heyvan qiyamət günü dirilib şahidlik edəcəyinə inanılır.

[34] Söyləyicinin dediyinə görə, atası çox dua söyləyərdi, amma onun yadında qalan yalnız budur.

Əli dayımın arvadı Gədəbəydən idi. Dədəmə dedi, a yeznə, bu xanımı yola gətir. Dedi, gərəh bir qurban lazımdı. Təndiri yandırdı. Dedi, əgər sənin ürəyin şəhadət verirsə, sufatını təndirin badına döşə. Qorxma, yandırmaz. Orda qurban deyib, onu yola gətirir[35]. Üzünü belə dirədi, dedi, qorxma. Dedi, amma gördüyünü heş kimə demirsən ha, bu yayılmaz. Orda niyaz bişirillər, sacara bişirillər. İki sacara bir qurbanı əvəz eliyir. Orda paylanılır. Suyunnan yarma bişirəllər. Orda əllərin, üzlərin yuyallarsa da, hamısın aparıb ya gülün dibinə, ya o quyuya tökəllər, basdırallar. Atam deyirdi ki, o vaxtdarı kimin qurbanı varsa, gətirillər o qapıya da (seyid gedən qapıya – tərt.). Gətirəndə biri kəsir qurbanı, quyruğunu aparır qalağa qoyur, gizlədir bu kəsən. Bunu babam bilir. Gələndə deyir ki, kim deyər bu qurbanın nəyi yoxdur? Bu qurbanı kəsən quyruğu aparıb qalağa qoyuf, gedin yoxlayın. Ondan sonra təndiri yandırır, deyir inanmırsız? Ayaxyalın girir təndiri keçirdir.

– *Nəcəf dayı, atanız deyib bu bişmə qurban haradan gəlir, nə üçün sümüklərini qırmadan bişirillər?*

– Onu heş kim bilməməlidi. O nəsil bilir, amma qonşu bilmir. Burda kəsiblər, atam bişirib, amma qonşuya bildirmirlər. İnanmır axı, nətəri inandırsın? Amma qaynı arvadını inandırdı. Əgər inanmax istiyirsənsə, gərəh qurban deyəsən, gələ sənə subut eləyə ki, budu. Ürəyin şəhadət desə, o təndir səni yandıran döylü.

– *Qurban kəsilən heyvan sonradan dirilsin, elə bir inanc varmı?*

[35] Sünnü məzhəbindən olanı öz məzhəblərinə gətirmək üçün bişmə qurban deyərdilər.

– Bəs niyə hamısını quyuya tökküllər, qadan alım? Niyə sümüyü kəsmək olmaz? O dünyada, Allahın işidi, dirilir da. Bəs niyə deyillər sümüyə bıçax vurma? Atam o vaxdı kəsərdi, damda bişirərdi, heş kim görməzdi onu. Bişirərdi, ləyənə qoyardı, onnan sonra hamı gələrdi. Kim o işi bilirsə, deyir ki, bu təndirdə niyaz bişirək. İndi gücü çatmır, sacara bişirillər. İkisi bir qurbanı əvəz eliyir. Sacaranı elə kəsillər ki, dilimliyillər. İyirmi-otuz nəfər yığışıbdı. Qapının dalında da bir adam durur, bilməz içəri bir adam girər, olmaz. Yad adam girməməlidi. Ancax bilən adam gəlir, oturur kirimişcənə. Yarmasınnan yeyir, payını götürüb gedir. Əgər onun uşağı bu işi bilirsə, o paydan ona da verir. Bilmirsə, ona vermir. Mənim bu gəlnimin qohumu bilmir. Özü gəlirdi, amma gəlinnəri yox. Özü kirmişcə oturuf yeyirdi, hara getdi, niyə getdi, bilmirlər. Çünki inam yoxdu. Əgər onu inandırmaq istəyirsənsə, gərək bir qurban deyəsən, onun gözünün qabağında kəsilə, onnan sonra bu inanc yarana. Buna qırxlar məclisi deyillər (S. 32).

**44.**

Qoy mən deyim Qırxlar haqqında bildiklərimi. Mənim nənəmin əmizadaları Seyid Hüseyn baba idi, onlar bilirdi. Deməli, onlar heyvana balta vurmurmuşdar, hamısını haxlardan doğruyurmuşdar ki, o sümüy qırılmamalıdı. Onnan sora o sümüyü basdırırdılar. Onu nətər bişirirdilər? Tökürdülər bir yekə qazana, pörtdədirdilər. Bir də yarma çəkirdilər. Orda yığılıb yarmanı yeyirlər, sonra da ətini. Özü də qırxlar məclisinin qurbanını havaxt kəsirdilər? Çilə girdimi, çilə girənnən kiçik çilənin axırına qədər o məclisdər, mərəkələr olurdu. Şəxsən mənim bacılarım, qardaşdarım

heç vaxtı mənim bildiyimi bilmir. Mən niyə bilmişəm? Üstünüzə sağlıx, mənim on dörd yaşında bir bibim olub, dörd qardaşın bir bacısı. O qızılcadan ölüb. Nə isə, vaxt-vədə keçib, mən olmuşam. Nənəm deyib ki, qızımın adını qoyacam buna, bunu da özümə qız götürəcəm. Mən də bir az şuluğ uşağ olmuşam. Nənəm gedirdi əmizadalarıgilə. Həmişə məni əlimnən tutub aparırdı ki, mən şuluğ eliyəndə mamam məni döyürdü. Qoymurdu ki, mən döyüləm. Nənəm məni yanında həmişə ora aparırdı deyə mən orda görürdüm də. Həm də orda tapşırdılar ki, bir kəlmə demə. İndi sən bilirsən deyə sənninnən bu haqda söhbət eliyirəm. Bunu heç yerdə danışmağ olmaz.

– *O məclisdə hansı söhbətlər edilirdi?*

– Duvalar oxunurdu. Bax, o duvaları Vəli bilir. O oxuyurdu, biz də "Allah, Allah" deyirdik. Böyük təndir olurdu, təndirdə pişirirdilər həmin qurbanı. Təndir orda şapbaşap yanırdı, həsirgahı təndirin üsdünə qoyuf yekə mis qazanı da onun üsdünə qoyurdux. Mənim oğlum instituta girəndə də yaxşı erkək apardıx, kəsdih.

– *Həmin məclisə dəstəmazlı gedirdilər?*

– Hə, pak getməlisən, təmiz olmalısan. Cavan gəlinlər uje xəstələnir eliyir, onlara getmək olmaz elə məclisə. Bilməyənnər ora girə bilməz. Yad adamı ora qoymazlar. Demirəm, mənim özümnən başqa üç bacım, iki qardaşım var, onnarın bu haxda heç anlayışı yoxdu, amma mən elə uşağ vaxdan nənəmin yanında gedib gəlmişəm deyə bilirəm. Çünki bu Nuh nağıdan gələn bir şeydi. Bunu heç kim bilmir, heş kim ora girə bilməz.

– *Nənə, o məclisi təsvir elə, necə məclis idi, camaat harda əyləşirdi?*

– Hamı yerdə otururdu, baş tərəfdə kişilər, ayağ tərəfdə də qadınlarnan uşaxlar otururdu. Danışmaq yoxdu orda, orda çivin vızıllasa eşidərsən. Seyidlər duvalıyırdı, biz də "Allah, Allah" deyirdik. Onnan sora "ya Əli, ya Əli" deyirdik. Yeməkdən əvvəl duva eliyirsən, elədikcə də ağlıyırsan. Adamı istər-istəməz ağlamax tutur. Bax, belə (əynindəki qolu açıq paltarı göstərir) gedəmmərsən ora, belə oturammassan. Qollu jaket geyinirdin, bir də başına şərf örtürdün. Onnan sora su gətirirdilər. Əlimizi, üzümüzü yuyurdux. Sora surfanı açırdılar, yarma qazanını gətirirdilər. Onnan sora yuxaya bükülü əti gətirirdilər. Onu da seyitdər özdəri hazırlıyırdı. Ləyənlərdə gəlirdi, ləyənin üsdə surfa olurdu. Möcüzə şeyidi, ay Nəcəf dayı. O yuxa qurumur axı. Mən həmişə gedirəm, yaymağa-zada köməy eliyirəm. Deməli, onu görmürdün. Surfanı örtüb, surfanın altında yuxanı belə tutur, əti qoyub yuxanı püküb bu biri ləyənə yığır, yığır, görsənmir. Onnan sonra onu da paylıyır. Da yarmanı yeyib doyubsan da, əti gətirirdik evə. Yarmanı boşqabda verirdilər, qaşıxnan yeyirdin. Ətin suyunda, quyruğun suyunda bişib, o birini yeyəmmirsən. Əti də hərəyə pay-pay qoyurdular. Surfanı verirsən, bir evdə beş adam olanda beşini verirdi, bir adam olanda – hamımız tanıyırıx da bir-birini, – o bir adama bir dənə verirdi. Bir də nəzir xurma aparırdıx, şakalad, kişmiş. Təmiz bir surfanın üstünə töküb qarışdırırdılar. Ondan da qoyurdu surfaya, surfanı bükürdü verirdi. Orda bir şey yoxdu, amma demək olmaz da. O payı yiyənnən sonra əlini yuyursan, həmin suyu aparıb gülün dibinə tökürlər. Mən yarmadan da götürürdüm, evdə təzdən surfanı açırdım, deyirdim, oturun, burdaca yeyin. Onun bir qirtməyi belə yerə düşməli döyül. Yarma-

dan tökürdüm, yeyilirdi, onu da çaydannan su töküb yuyurdum, o suyu gülün dibinə tökürdüm. Aparım uvannikdə yuyum, axsın getsin kanalizasiyaya, o olmaz. Bax, eləcə "bismillahnan" yeyib, "bismillahnan" da əlini, əyağını yuyursan. Təmiz olmalıdı, hər şey pak olmalıdı. Bax, qırxlar məclisi ona deyərdik. Elə mən orda da Vəliyə dedim ki, Şah İsmayılın belə bir şeiri var:

Qırxlar məclisinə vardım,
Gəl otur, ey can, dedilər.
Önümə sürfə sərdilər,
Gəl eylə təam, dedilər.

Qırxların qəlbi durudur,
Gələnin qəlbi arıdır.
Gəlişin hardan bəridir,
Söylə, sən kimsən dedilər?

Dedi, Şah İsmayıl Xətai gəlib elə bir məclisin üstünə düşübdü, o da yeyib bax bunnan. Bişmə qurban o vaxtı evlərdə də kəsilirdi. Leninkənddə Aboş dayıgildə onun oğlu Akif qurban kəsəndə mamam gedirdi, onnan mən də getmişəm. Onnan sora Savetin qanunu dəyişildi, evlərdə kəsməh yığışdırıldı. Özü də qurbanı gətirib qabağına duz qoyurdu, o qurban gəlib duzu yalamasa, o qurban kəsilmirdi. Qalırdı gələn dördüncü günə[36]. Bax, bir dəfə biz özümüz getdik, qayıtdıx. – Ay Vəli, niyə kəsmədin? Dedi, qurban qəbul olmadı, tədbirə gəlmədi. Gəlib duzu yalamadı, sudan işmədi. Onda yol verilmir, onun başına bıçax çəkilməz. Saxlıyardılar növ-

[36] Cəm məclisləri cümə axşamları olduğu üçün qurban da həmin gün kəsilirdi.

bəti cümə axşamına, onda da yenidən tədbirlənirdi. Tədbirlənməsə, gənə kəsmirdilər. Elə bil onunku qalırdı, bununkunu kəsirdilər da. İsmayıl qurbanına duz vemirlər, amma qada qurbanına duz verirlər. Özü də İsmayıl qurbanı eyibsiz olmalıdı. Biz həmişə iki illik erkəklər aparırdıx, eyibsiz.

Sacarasın dadı deyiləsi döyül. Beləcənə, xəmiri südnən, bir də yağnan qatırdı, sajda bişirirdi. Ortasını göbəh kimi oyurdu, yağdan əndərirdi ora, bişirdi gözəl orda. Ona da bıçax vurmurdular. Əlnən qopardırdılar, hərəyə bir dilim verirdilər. İki əlimiznən belə götürüb öpürdük üç dəfə, gözümüzün üstünə qoyurdux, sora yeyirdik. Niyaz yenə yağnan, südnən yoğrulur, onu çörək kimi təndirdə bişirirlər. Deyir, üç dənə sacarası bir qurbanı əvəz eliyir. Özü də təmiz nehrə yağıynan bişirirdilər, o da tapılmasa, quyruğ yağıynan bişirirdilər. Hə, eləcə bölürlər, qoyurlar surfanın üsdündə bir tərəfə. Deməli, bir dənə yuxa, onun böyründə bir dənə onnan, bir də xurmadan, kişmişdən.

Gəlnimin babasıgil bişmə qurbanı bilirdi, amma gəlnimin anası bilmirdi. O vaxt İranə dedi ki, bir dənə qurban kəsək, qoy gəlin də gəlsin o məclisə. Vəli dedi, yox, qadan alım. Mən, Seyid Hüseyn döyüləm ki, girəm təndirə, ordan da yanmamış çıxam. Bizdə elə qüvvə yoxdu. Dedim, bə mən gəlirəm, qurban gətirirəm. Oğlum gəlir, nəvələrim gəlir, qızlarım gəlir. Dedi, gəlin yaxşı gəlindi. Apar, heş nə də demə. Elə qoy ortaya, paydan götsün yesin. Hələ mənim uşaxlarım, nəvələrim bir dəfə analarının yanında demiyiblər ha, heç o da soruşmuyub hara getdin, nə gördün? Bilirsən, bunları başa salmağ üçün, inandırmağ üçün gərək qurban deyəsən, möcüzə yaradasan. Gərək gözüynən o möcüzəni görsün ki, inam olsun. Vəli dedi, mən o möcüzəni yarada

bilmirəm. Seyid Hüseyin döyüləm ki, düşəm təndirə, təndirdən yanmamış çıxam.

Gəlnimin nənəsi Bəyim inanmırdı belə şeylərə. Mənim qaynatamgil qurban kəsirmişdər. Gülnar gəldi dedi ki, ağam deyir Bəyim yatannan sonra gəlsinnər bizə. Bəyim də durur özü gedir bu məclisə. Bir az gəlir, gəlir, evə yaxınnaşanda, baxır ki, ay Allah, qoyun-quzu mələşir. O səslər qoyun-quzu mələşməsi kimi onun qulağına gəlir. Çünki o ürəkdən təmiz adam döyül. Ona qismət olmuyıb gedib çıxa ora, yoldan qayıdıf (S. 25).

**45.**

İsmayıl qurbanını da özümüz kəsirik, onun duaları var, İbrahim xəlilullahnan əlaqəli dualarımız var. O duaları oxuyurux, qurbanımıza su içirdirik, duz yaladırıq, yalamasa kəsən döyülük. Su içməsə də olar, amma duzu yalamasa, o qurbanı kəsəmmərik. Duzu yalamırsa, o qurban qəbul döyül. Yalvarırsan, neynirsən, yaxın gəlmir. Qurban var əlinnən gəlir alır, qurban da var düşürsən dalına, yemir də bu. Zornan aparıb kəsmək olmur. Duza dua oxuyurux, ondan sonra həmin duzu heyvana yaladırıx.

– *Hansı duanı oxuyursuz?*

– Onu deyəmmərik biz. O duanı mən heç kimə deyəmmərəm. Mən bu dünyadan gedəndə kimə məsləhət olsa, verəcəklər ona, deyəcəklər, get sən elə.

Bir qurban qardaşım kəsir, bir qurban da mənim oğlum kəsir. Siyahı tuturux. Pay olur. Elə adamlar var ki, onun payını mən aparıram. Yığıram maşına, aparıb payını verirəm. Duzdan da kim isdiyir apara bilər. Ona biz demirik oxunmuş duzum var, gəl apar. Özü gəlsin isdəsin, biz də verərik. Qəlbdən gəlsin da, onun öz isdəyinnən olsun.

*– Qurbanın ayaxları yuyulsun, belə adət var?*

– Yox, qurban tərtəmizdi, onun ayağını yumağa ehtiyac yoxdu. Qurbanın qanı bir qaba yığılır, aparıb ağacın divinə basdırılır. Qurbanın sümüyünü də it-pişiyə atırıq. Allah elə yaradıb ki hamının ruzusu var. Sən orda əti ye, apar sümüyü basdır, it-pişik dəyməsin, belə şey yoxdur.

İndi deyirlər ki, a bala, qurban kəsəmmirsən, get filan şey elə. Gücü çatmır da qurban kəsməyə, gücün nəyə çatır get onu elə də; on manat nəzir ver, bir kilo düyü ver. Bu sənin boynunda yükdü, bir dənə kasıbı tap, denən ala bu sənindi. Yəni iki kilo unun halvasını çal, payla camaata. Yəni gücün nəyə çatır, ay oğul. Sən dediyin o xidmətlər də belədi da, bala. Gücü çatmıyan adam nə var ki burda, ocağını qala, xamırını qayır, yağnan, balnan belə qoy sacın arasında bişsin, doğra, payla camaata. Yəni buna gücün çatır sənin. Məsələn, filan qurbanı dedim kəsərəm, amma kəsəmmirsən, Allahın yanında boşdu qalırsan. Nəyə gücün çatır, bala, onu elə. Gücün çatmıyam şeyin dalına niyə düşürsən. Ona niyə sacarası deyillər? Sacın arasında bişir də. Sacı yağladılar, çörəyi qoydular üstünə, sacı örtdülər. Xəmiri südlə yoğrulur, duz vurulur. Nehrə yağında bişirilir, olmasa quyrux da olar. Sacarası tək olmaz, böyründə niyazı olmalıdı. Amma niyaz tək olur. Seyid doğruyardı, onun da duası var. Niyaz ələnən bölünür, bıçaq vurulmur (S. 47).

**46.**

Biz ermənidən duz almırdıx. Naxçıvannan poyeznən Azərbaycannan duz gəlirdi da, daş duz. Onun ağınnan gətirirdilər bizim kəndə. Verirdilər qəlbi, ruhu Allahtalanın yanında olan adama. Bu nə juliklihnən məşğuldu, nə pis-

liknən məşğuldu, nə ara vurmaxnan məşğuldu. Belə bir adam o duzu yuyurdu, salavatdıyırdı. Dəstərdə onu iki dəfə qəşəh üyüdürdü, sonra onu təmiz parçanın arasında aparıf verirdilər ağaya. Kimin əlinnən də nə qopsa – bir manat, üç manat ağaya verirdi. Ağaynan görüşəndə üzünnən öpmək söhbəti yoxuydu, bircə sağ çiyninnən öpərdik. Amma təmiz olasan. Deyirdih, xoş gördük, ay ağa. Üzünə xoş baxdısa, bil ki təmizsən. Baxdın ki, qaş çatıldı, bil ki natəmizsən. Gəlirdim. Deyirdi, xeyirdimi? Deyirdim, dədəm deyir duz ovsunnasın qurbanımızı kəsməyə. Ağadan soruşurdux ki, qurban duası varmı kəsəndə o duanı oxuyasan? Deyirdi, oğul, "pismillah" elə, dalınnan da "Allah, bunu ayləmiz adınnan sənin yolunda qurban kəsirik" deyib kəs. Deyirdi, oğul, var qurbannıx günü kəsilən qurban, var demə qurban. Demə qurban paya bölünür – yeddi yerə, beş yerə. Qurbannıx günündə kəsilən heyvanda bir pay, iki pay da verə bilərsən, amma sidq-ürəhnən. Ağadan alıf gətirdiyimiz duzu qabaxcadan heyvana yaladırdıx. Əlini yudun, çimibsən, qüsullanıfsan, üzünü tut Allaha ki, Allah, bunu ayləmiz adınnan sənin yolunda qurban kəsirik, qəbul elə. Biz o duzu yaladırdıx, kəsməmişdən qabax da bu sözü deyirdih. Biz heyvanın qanını, içalatını qəti itə vermirdik. Təmiz yeri qazırdıx, bağırsağını, qarnını, başının yuyulduğu suyu, ondan sonra sümüyü – onun hamısını basırırdıx ora. Demə qurbanı yadıma gəlmir ki özümüz kəsək. Mən maşınnan gedirdim, ağanı götürüb gəlirdim. – Ağa, demə qurbanımız var, gəl onu Allah yolunda kəs. Kəsirdi ağa, özü öz əlinnən də neçə evə deyirsən pay qoyurdu. Ağa özü orda bölüşdürərdi, deyərdi vermək sənin boynuna. Bir payını özünə götürürdü, qalanını da deyirdi kimə istəyirsən, ver. İsmayıl

qurbanını isə özümüz kəsirdik, bircə duzunu ağaya dualadırdıx. Yadıma gəlmir ki, qurbanın qanını harasa tökək. Qurvanın qanını təmiz ləyənə tuturdux. Allah cəmi ölənnərinə rəhmət eləsin, rəhmətdik anam gətirərdi, qan laxdalanardı, onun yuyardı, ojaxda qovurardı. Qovrulmuş qanı da çəkərdi boşqaba, hamımız yeyərdih.

Qurbanın dərisini ermənidən alınmış duznan duzlamırdıx, Gəncəyə gələndə Naxçıvannan gətirilmiş daş duzdan alırdıx. O duzu dəstərdə çəkirdik, həmi pendirə işlədirdik, həmi də onnan saxlıyırdıx. Qurbanın dərisini o duznan duzduyurdux, qoyurdux quruyurdu. Qurbannığın dərisin saxlıyırdıx içinə pendir yığmağa, içinə motal basmağa. Yununu da qırxırdıx, anam balaca-balaca yastıxlar qayırmışdı, ya mütəkkə deyirik, bax, anam qurvannığın yununu doldurardı ora.

Qazdığımız quyuda yer saxlıyırdıx, yeyildikcə sümüklərin aparıb atırdıx o quyuya. Biz qurbanı kəsəndə iflihlərdən ayırırdıx. Qurban ətini paylıyanda qonşuya sümüklü tikə vemirdik, yeddi yerinnən yeddi dənə boş tikə qoyurdux. Qabırğanın böyründəki nimtənə ətdən, bud ətinnən, qabax qolun ətinnən, boyun ətinnən, qara çiyər, ağ ciyər, ürəkdən və böyrəkdən – yeddi tikə düzəldirdik, qoyurdux boşqaba, aparıb pay verirdik. Ağaya deyirdim, icalatı deyirsiniz itə vermiyin. Deyirdi, oğul, sən ki bunu Allahtalanın yolunda kəsirsən, bunu kəsəndə mundarçılıx eləmə. Ağa deyirdi ki, sən qurbanın sümüyün itə atdın, mundarçılıx elədin, qiyamət günü o sümüyün hamısını sənin gözünə dolduracaxlar. Bir qarının götürürdük, bir şirin bağırsax, qalan nə var idi, basırılırdı yerə (S. 34).

## 47. QOYUN PEYĞƏMBƏR SÜFRƏSİDİR

Mən eşitdiyimə görə, ağalığ, bəylih dövründə oluf. Bir kasıb adam oluf, ağanın yaxşı qoyunu-quzusu var imiş. Ağa çobana deyif ki, bunun öhdəsinnən kim gələr? Baxıf ki, bu adam kasıb adam, qoçağ adamdı. Deyif, gəl sən maa çobannığ eylə. Deyif, zəhmət hakkı olaraq nə qədər heyvan verərsən? Deyif, nə qədər ala quzu doğsa, hamısını sana verərəm. Çoban da çox qoçağ adam imiş, heyvan otaran adam imiş. Deyilənə görə, bu ala qarğa varmı? Onun yumurtasından qırıf, qoyunamı verif, qoçamı verif. Qoyunun yarıdan çoxu həm ekiz, həm də ala doğuf. Ağa belə baxıb ki, çobanın sürüsü bununkunnan çox oldu. Deyib, ə, bu nəynən əlaqəlidi, otarmaxnan bu qədər quzu olmaz? Bu da, – deyib, – Allah tərəfinnən mana elə bir möcüzə verildi ki, ala sığırçının, ala qarğanın yumurtasınnan erkəyə versən, belə bir şey ola bilər. Hansı ki söykənəcəkli sözlər var, rəvayətlər var, hamısı sübut oluf ki, bu deyilif. Məsələn, 88-90-cı illərdə savxoz var idi, savxozun qoçuna yumurta verirdilər, yumurtanın özünü çiy halda.

Basarkeçərnən Kəlbəcərin arasında böyük bir yaylağ var, Sarıyer deyilən yaylaxdı. İstisudan orya 63 kilometirdi. O yaylağa Kürdəmir, Ucar, Zərdab, Ağcabədi rayonlarının sürüləri gəlirdi, yaylağın ən axırıncı toçkası Qazağın yaylağı idi. Bax, onda qoç seçilirdi qoyunnan. Hər sürüdə, tutaq ki, on beş qoç olmalıdı, burda da bir qırx-otuz sürü olurdu. Otuz sürünün də hərəsində 300-400-ə yaxın qoyun olurdu, 200-ə yaxın erkəh olurdu. Bu qoçu bir nəfər otarırdı. O qoç qoyuna qarışan dövrə çatandan iyirmi gün, bir ay qalmış başdıyırlar yumurta verməyə. Döl məhsuldar olsun deyə o yumurtanı tökürdülər göy otun üstünə. İnqubator yumurtalarıdı, savxoz

yumurtaları, ağ. O yumurtanı qoç elə yeyirdi ki, elə bil nədi. Əvvəlcə dadandırmağ üçün karota tökürdük, yem tökürdük üstə. Bir dəfə, iki dəfə, fso. Onnan sora yumurtanın özünü adi vedrəyə tökürdük, gedif yeyirdi. O həm qoçun hüceyrələrinin güclü olması üçün, həm quzunun sağlam olması üçün çox əlverişlidi. İndi baxırsan, saxsağan yumurtasının da qoça verməyinin böyük səbəbi var. Buğa güjlü olanda baxırsan, buzov erkəh olur həmişə. Zəif olanda baxırsan, dişi olur.

Ceyrançölün otu heyvan üçün çox yararlıdı, yediyi yovşana, qarağana, çərəyənə görə heyvanın əti çox tamlı olur. Çərəyən xırda kol-kol olur, payızın son ayında görürsən qıpqırmızı qızarır. Heyvan onu yeyəndə həmin ot kimi qızarır. Deyirsən, hə, qoyun otunu alıb, qışa salamat doğar. Həyat təcrübəsi ilə yaşıyan insanlar var idi.

Bundan qabax may ayının axırında qoyunlar qırxılırdı, sürülər çəkilirdi dağa. 35-36 sürü var idi mən gələn vaxt Çeyrançöldə. Burda bir ay ərzində qırxılırdı qoyun, ondan sonra tərpənirdi dağa. 15 gün yol gedirdik piyada atnan. Gedirdik Kəlbəcərə, Kəlbəcərdən addıyırdıx İstisuya, ordan da gedirdik Basarkeçərin üstünə. Burdan tərpənəndə bilirdik ki, gedif dayanacağıx Ağstafada. Deməli, bir günlük çörəyin sumkada var. Fətir bişirtdirirdik, kömbə, kökə bişirtdirirdik. Çayın, çaynikin olurdu, termusun olurdu. Qazaxda düşərgə salırdıx, gecə çayımızı, çörəyimizi yeyirdik. İmkan olanda sənin kimi iki nəfər qardaş, dost-tanış gələndə də quzudan, çəpişdən birini kəsirdih. Hə, sabah tezdənnən, ya Allah, ordan da tərpənirdik, gedif düşürdük düşərgə yerləri varıydı. Bilirdik kim harda dayanajax. 15 günə çatırdıx Sarıyerə.

Burda qoyun bir dəfə qırxılır, ancax Ermənistanda iki dəfə idi. Bir dəfə qırxırdıx may ayında, bir dəfə də qırxırdıx

avqust ayında. May ayında qırxılan yuna adi yun deyirdik, amma payızda qırxılan yuna küzəm deyirdik. May ayında qırxılan yun uzun olurdu, ondan yaxşı yorğan olurdu, payız yunu gödək olurdu, ondan da yaxşı döşək olurdu. Yun gödək olanda keçə bağlamır da, yapışmır. Döşək həmişə altda olur axı. Ona görə uzun yunnan yorğan düzəldirdilər, küzəmnən, quzu yununnan döşək eliyirdilər. Burdan qırxıb dağa gedirdik, dağdan qırxıb arana gəlirdik. Yunu da qoyun verirdi. Çünki dağın otu keyfiyyətli idi, baxırdın heyvan iki dəfə yunun çatdırır. Ancax burda çatdırmır. İndi günəş vurur, heyvanın yunu yanır deyənə, yoxsa korruğ çəkir, baxırsan iki dəfə çatdırmır. Mən burda bir-iki dəfə istəmişəm qırxam, görürəm yox, yun çox güdəkdir. Toz-mozla inkişaf eləmir də, aydın məsələdi. Orda heyvan təmiz yerdə otduyurdu, yağış yağırdı, çaylardan keçirirdik, elə olurdu iki günnən, üç günnən bir çayın içinə qoyunu vururdux, o tərəfdən üzə-üzə çıxırdı.

Bizdə yerli bozax cinsidi. Qaradolaxnan bizim heyvanın qatmasın elədim, gözəl effekt verdi, yığcam quyruxlu heyvanlar əmələ gəldi. Bozax qoyunlarının yunu gözəl olur, əti gözəldi. Aran rayonunun boz kərələri var ey, onların yunu qalın yundu, iynə kimidi. Metislərdən sonra ən keyfiyyətdi yun bizim bozax cinsinin yunudu. Dünyada ən keyfiyyətli yun merinos cinsinindi. Onların yunu ipək üstə gedir. Onnan sora bizim yerli bozağın yunudu. Qarabağ heyvanının yunu bizdə olurdu, onu heç istifadə eləmirdik.

Altı aya qədər quzudu, altı aydan sora toğludu. Bir ildən sora dişisinə şişəh, erkəyinə erkəh deyirlər. İki doğannan sonra qoyundu. Qoyunun dişi qaradı, deyillər dördü keçif. Yaxud qoyun çallanıf. Əsas boğaz hissəsinnən bilinir, bir də gözünün qırax-başında tükünnən bilinir, ağdısa bozarır,

bozdusa qaralır. Yaxşı çoban tanıyır, deyir, qoyun çallanıf, artıx beşi keçif. Yaxşı qoyun beş, altı, yeddi il bala verir.

Yaylaxlarda iribuynuzlu mal-qara istidən qorunmaq üçün təpənin başına külək tutan yerə yığışardı, həmin yerə mal müəli deyilib. Qoyunlar isti havada bir yerə yığışıb başlarını bir-birinin altına soxardılar, ona da qoyun gülnazı deyilib. Qoyun gülnazı hava sərinlənənə qədər davam edib, hava sərinləyəndən sonra yenidən otlamağa başlayardılar. Anası ölən quzunu başqa balası ölən qoyuna teliyirdilər, elə eliyirdilər ki, onu öz balası kimi qəbul eliyirdi. Həmin quzuya telih quzu deyilirdi.

Dölün bərəkətdi gəlməsi üçün paltar tikməzlər qoyunun içində, düymə qırılsa, düymə tikməzdər qoyunun içində. Döl vaxtı üz qırxmazdılar. Haram eləməzdilər ki, peyğəmbər süfrəsinnən gəlmə məhsuldu bu. Bu bərəkətə haram qatmağ olmaz. Döl vaxdı heyvan içinə başqa yerdən heyvan gəlməsi düzgün döyül. İndi bunlara baxan yoxdu. Payız olanda, yay olanda bilirsən avqustda qoçu qatajan, yanvarda döl başdıyajax. Bir ay gərəh qoçu yaxşı saxlıyasan, yaxşı yem verəsən, ot verəsən, arpa verəsən, yumurta verəsən. Heç olmasa, hər qoça iyirmi dənə, otuz dənə yumurta verəsən ki, qoçun vitamini güjdü ola, kalorisi güjdü ola ki, sağlam quzu çıxa. Yumurta veriləndə, ayrı saxlanılanda, sərin yerdə qoç yatanda ondan sağlam quzu almaq olur. Yoxsa günün altında qorulsun, gətirif qoyuna qatdın, düzdür, tutacax, quzu olacax, zəyif, qolu-qılçası əyri bir şey çıxacax. Yaxşı qoç 45-50 qoyuna kar eliyir dağ yerində, aran yerində otuz qoyuna, onnan artığ olanda baxırsan, quzu zəyif çıxer. Baxırsan quzunun korruğu var, deməli, qoşdandı.

Quzuluğ ayrıdı, mədəni dam tikmişik, ferma tikmişik. Küz deyilən yerdən qazma dam olur. Qoyunun, quzunun maalicəvi yeri idi. Heç olmaya, qoyun doğanda beş gün, on gün orda qalır. Qara dama ötürürsən doğanda, o dam isdi olur. Polda yaşıyan uşaxnan, qara damda, torpağın üsdə yaşıyan uşağın sağlamlığı arasında fərq var. Altına pürə[37] döşüyürük. Qalın, qarpız kimi yekə otdardı, onu belə bükürsən, xırda-xırda tikan kimi iynələri var, batmır heyvanın ayağına. Ucu iynə kimidi, ancağ divi yoğundu. Onnan möhkəm döşüyürsən yerə, elə olur pataloka bircə belə başın qalır dəyməyə. Onu quzu əyaxladıxca düşür aşağı, olur bu qalınnıxda. Quzu elə bil döşəkdə yatır, yorğanda yatır. Quzunun ayağı yerə dəyənə qədər yaz açılır, quzunu bas o birsi dama. Quzu əslində üç gün, beş gün qalır anaynan. Quzunun dişi çıxanda qıcıxlanır, qıcıxlanan kimi başdıyır qoyunun yunun yeməyə. O da quzunun ölümüdü. Quzu onu yeyir, sırazı ölür. Yaxşı olar ki, bir həftədən sonra tamamilə quzuyu anadan ayır. Gündə iki dəfə səhər-axşam əmizdir, tez də seç ki, quzu yunu yeməsin. Quzunun özündə bir həşir var ki, o da yenə dişinin çıxması, qıcıxlanması ilə əlaqədardır.

Quzuçu çobanın maaşı çox olurdu. O vaxdı bir quzunu əmələ gətirif ortaya çıxartmağ üçün 21 manat pul verirdilər. Tutax ki, 300 quzu var 300 quzuya 600, 1000 manat premiya verirdilər. Qoyun çobanına 30 qəpik, 40 qəpik verirdilər, amma quzunun biri 21 manat idi. Quzuçu gəlmirdi qapıya. 30 dərəcə isdi də olsa, yalların belində qamçı əlində qoymurdu yatışmağa quzunu. Quzunu o təpədən bu təpəyə, bu təpədən o təpəyə qovurdu. Gün vurur, quzu yatışmağ isdiyir, onu

[37] Bəzi bölgələrdə yelqovan deyilir.

yatmağa qoymurdu. Quzu hərrənməlidi. Günün istisində quzu yatsa, gün göydən vurur, quzunun öz istisi aşağıdan. Quzunun ciyarı ağ dəftərdi, ləkə düşdü, yapışır ciyarı. Quzu atılmalıdı, oynamalıdı, hopbanmalıdı, oana-buana yeriməlidi ki, ağ ciyar oynaxda olsun. Quzu yatışır ha adicə damda qış ayında, içəri girəndə görürsən quzu yiyif, isdi yerdə uzanıf yatışır. Naxadı səs eliyirsən ki, quzu qalxsın. Hansı quzu yerdən sıçradı qalxdı ha, burnunnan fu, fu, fu eliyirsə, demək, o quzu sağlamdı. Hansı quzu yerdən qalxanda öskürürsə, bil ki, o quzuyu isti vuruf.

Mal doğanda birinci süd ağızdı, onnan bizdə köpbəcə bişirirdilər. Mən orda görmədim, o zəhərrənmə vermirdi. Amma burda baxırsan göy otun üsdə doğulan buzoyun qarnı üş gün, dörd gün ağrıyır. Ona görə süd malın məməsinə yığılır ha, həmin yığıntını doğmağa bir gün, iki gün qalmış gərək sağasan. Sağırdıx biz onu bir litir, yarım litir, nə olurdusa, irağ bərəkətinnən, onu itə tökürdüh. Buzoy onu əməndə qarnı ağrıyır. Göy otda olur əsas o. Qışda malın südü yaxşı gətirirdi, rəhmətdih anam sağırdı onu, bişirirdi. Pendir kimi olurdu. Ləzzətdi bir şey olurdu. İsdiyə düşən kimi pendir kimi bərkiyir. Onu kəsirdilər, hərəyə bir kıça ondan verirdilər. İkinci günnüyündə, üçüncü günnüyündə bulamaya düşürdü. Bulamaya düşəndə də həmən süddən qatırdın, acca da adi süddən qatırdın, bişirirdin. Bir az da pesoh tökürdün, tamam başqa dad verirdi. Məsələn, iki litir bulamadı, iki stəkan adi süd qatırsan, bir az pesoh tökürsən qarışdırırsan. Çörəyi doğra, ye.

Əlnən doğan quzuynan, özü doğub mayalanan quzunun fərqi var. Deyirdik, yaxşı, onun fərqi nədədi? O mayalananda deyirdi, məmənin ujun qüvvətdi sığıyın tökün, onnan sora quzuyu əmizdirin. Baxırdın, həqiqətən, o quzuynan özü

əmən quzunun fərqi var. Özü əmən quzu qarın ağrısına düşürdü, ancax bu əlnən doğulan irəli gedirdi.

Quzunun dölçüsü olurdu bir ay, iyirmi gün, ay yarım. Uşağ vaxdı bizim işimiz o idi. 13-15 yaşımız vardı, çobannarın yanına göndərirdilər. 4-5 dənə uşağ gedirdik çobannarın yanına. Biri elə mənim kirvəm idi çoban. Gəlirdi rəhmətdih dədəmə deyirdi, ayə, uşax boş durur dana, ver aparem bir on gün dölçülüyə, yenə iki yüz manat alar. 10-15 gün dölə köməh eləsin. Qoyun o vaxdı beləydi, atam. Bilirdin ki, sentyabrın 20-dən 25-ə qədər qoç içindədi qoyunun. On gün qoç içində olurdu. Martın biri döl başdıyırdı, martın 20-si qurtaracax. Qoyun güjdi qoça gəldi. Həmən qoyun qoça gələn vaxdı gərəh qoyunu yağışdan, günnən qoruyasan, qoyunu dincdə otarasan, qoyunu dağa-daşa dırmaşdırmıyasan. Qoça gələn vaxd atılır düşür, döl pozulur. Pozulan kimi qoç bunu təzdən yığır. Onun dərdinnən qoyunu iyirmi gün, bir ay gejəynən yaxşı otarasan, gündüz sərin yerdə yatızdırasan qoçu. Bilirsən, hər şeyin bərəkəti diyərdim qaşdı. İndi 300 qoyun saxlıyırsan 150, 200 quzu götürürsən. 300 qoyuna 300 quzu götürmədinsə, deməli, sən çoban döyülsən. Sən burda ömrünü, gününu boşa keçirdirsən.

Dölçünün funksiyası budur ki, günüz yatır, şər qarışdı qoyunun içindədi. Sabaha qədər oturma, yat, oyna, nağarırsan qayır, əlli dənə quzuyu salamat doğuzdur ortaya qoy. İki nəfər idik, birimiz gejə, birimiz də günüz çölə gedirdik. Sən də günüz doğannarı çoban çağırajax gedif gətirəjən. Hansı qoyun ki doğanda bəyirdi ha, deməli, onun çobanı yaxşı çoban oluf, güjdü çoban oluf. Payızı otarıf qoyunu, qoyunun içi yağlıdı, içi yağlıdı deyə quzuluxdan çıxmır, bağırır, bil ki, o qoyun

quzuyu salamat çıxarajağ. Hansı qoyun başın yerə qoydu, bil ki, o qoyun arıxdı, vəziyəti yaxşı gəlmiyəjəh, ot yemiyəjək.

Canavar elə bir heyvandı ki, o deyir, mənim qulağım, bax, belə dik olmasa, mən at poxunun dalında gizzənərəm. Canavar deyir, yeddi dağın arxasında – hər dağın arası da heç olmasa bir kilometr var, – çobanın hansı hərəkətdə olduğunu mən yaxşı bilirəm. Çobanın yanında hansı itin nəyə qadir olduğunu bilirəm. O yeddinci dağdan baxanda burda uje heyvanı o qamaşdırır. Bəyax dedim e, heyvan dayanır, çobanın yuxusu gəlir ha, bil ki canavar yeddi dağ arxasınnan gəlir. Nə qayırırsan qayır, bir saata çatsa, iki saata çatsa, canavar o yeddi dağın arasınnan heyvanı uje dondurdu. Onun zəhmi çobanı burda yuxuya verir. Qaçırsan, yenə yuxun gəlir. Bil ki, sənin dostun gəlir, canavar gəlif çatajax. Bir də canavar, mən görmüşəm də, dağın, dərənin dibinnən reski heyvanın qavağına çıxdı... Görür yiyəsiz qoyundu, quzudu və yaxud da yiyəsi var, canavar reski onun üstünə çıxanda onun ağzı açılmır. Sevindiyinnən canavarın ağzı bağlı qalır. Canavar qoyunun böyrünnən tutur aparır itəliyə-itəliyə. Hətda qorxusunnan qoyunu da canavarın yanına düşüb gedən görmüşəm mən. Reski çıxdı birdən, qoyunu gördü. Böyrünə-başına dolana-dolana bunu aparır o yerə ki, qoyun uje qurdun qavağına yıxılır. Qoyun yıxıldı ha, fso, bunun ağzı açılır. Onnan sora tutur dişdiyir, yeyir. Elə oluf baxmışam ki, qoyun yıxılmıyıf. Pusqunan gəlmişəm ki yaxın çatım, beqafıl üstünü alım, bunu vuruf öldürməsin da. Aradan qışqırırsan, hay eliyirsən, onda canavar qoyunu yerə çırpıf öldürür. Öldürür heyvanı ki aparmasın, mənim olsun. Ancax pusa-pusa gedirsən, bilirsən ki, ağzı açığ döylü da, beqafıl çıxıf. Eləcə börünə düşüf qoyun, özdə elə cəld aparır ki. Qavağına salıf

aparır ha. Yaxınnaşırsan, hay-hüy eliyən kimi canavar çıxır belə gedir, qoyun da məliyə-məliyə sürünün içinə qayıdır. İtdə də elədi. Canavar beqafıldan itin üstünə çıxanda ağzı bağlı girə bilmir o sürüyə. Lap bircə it olsa da, ağzın çörür gedir. Ta yüz metir, bir kilometir ağzı açılannan sora uje başdıyır qoyunun qırağında fırranmağa. Canavar iti zəhminnən tanıyır, bilir ki, o canavarcıl itdimi, məni örüşdən çıxarda biləjəkmi. Yanımızda tulafason it oluf, canavar kruq vurub burdan belə fırranıf, ordan belə, qoyunun yanınnan aralanmıyıb. Bilir ki, o it bekara şeydi. Ancax dişdi it olanda görürsən özün soxan kimi naxadı uzaqlaşır.

Bir günnəri heyvandeydim, qardaşım da uşağ idi. Dedim, qoyunu yatağın dalına ver, mən də itdərə yal verim, gəlim. Qoyunun arığ vaxdıdı. Dedim, gejə bir az otarax, qoyun kökəlsin. Qoyun gərəh gejə otduya. Payız ayıdı, noyabr ayıdı. İtləri yalladım, elə təpəyə beləcə çıxmışdım, gördüm ordan qışqırdı. Şər də yenicə qarışır. Uşaxdı dana, 16-17 yaşı var. Qışqıran kimi itdər tərpəndi. Getdim baxdım, gördüm itdər yoxdu. Aparıflar canavarı nə bilim haraya e. Dedim, ayə, noldu? Dedi, heç nə, canavar qoyunun içinə girdi, bir qoyunu tutdu buraxdı. İtdər çatdı deyə əliboş getdi. Belə hərrəndim, gördüm qoyun yerdədi, çabalayır. Dedim, bıçax varmı, bunun başın kəsəh, bunu, deyəsən, yerə vuruf. Bıçax tapammadı. Dedim, onda get iki dənə daş gəti, daşı alt-üst qoyuf vuranda birtəri qanın almax olur da. Uşax daş tapıf gətirənə kimi mən yaxınnaşdım, baxıram qoyunun başı yoxdu. Boğazını əlimnən yoxluyuram qan fışqırır, amma başı yoxdu. Dedim, ayə, bu qoyunu sən gətirəndə başı üstündəydimi? Qoyunun başı yoxdu axı, ay allahsız. Bax, o canavar nətər qoyunun başını qopardıf aparmışdı. Dedilər, o canavar balalı canavar

oluf. Balası ay yarım, iki aylıx olanda canavar qoyunun başın aparır ki, onnan oynasınnar. Nətər eləmişdisə, diricə qoyunun başın kəsif aparmışdı.

Heyvanımız çöldə qalanda qurdağzı duası oxuyurdux. Gedirdik bir dənə bıçax gətirirdik, ağzı qatdanan bıçax. Dədəm suya çəkirdi, yuyurdu, ağzını açırdı. Belə tuturdu. Deyirdi: "Ay Allahtala, getdim Tartaladan fırrandım, Qarammədin boyunnan, Zoğallının təpəsinnən belə fırrandım, Zoğallının boynunnan gəldim Marışdının təpəsini fırrandım qəbirsannığın yanınnan belə gəldim, mən tapa bilmədim. Mən bıçağımın ağzın bağlıyıram, sən də qurdunun, quşunun ağzın bağla". Deyirdi, bıçağın ağzın bağlıyırdı, qoyurdu civinə, ta sabah heyvan tapılana kimi. Sabah baxırsan heyvan sağsalamat burdadı, bıçağı açırdı. Deyirdi: "Ay Allah, qurvan olum, mən aşdım ağzını, sən də qurdun, quşun ağzını aç". O mütləq açılmalıdı (S. 50).

# II. ƏFSANƏLƏR VƏ RƏVAYƏTLƏR

## 48-50. HAL VƏ CİN HAQQINDA

Anam söylüyürdü ki, aşağı kənddə olanda qoja nənəm uşağa yatmışdı. O yatanda öyü belə təndir şişiynən cızırdılar. Gejə gəlif atı minirdi, çəyirdirdi atı. Nəysə, deyir, tutuf halı. Atın belinə qırı yaxırlar, gejə gələndə yapışıb qalır. Halı gətirillər, əməlli-başdı adam idi. Gətirif, deyir, adam kimi işdədirdilər. Onun üsdünə ya iynə, ya sancax qayırırdılar ki, getməsin. İrağ olsun, hal gələndə əlini salır, zahı yatan arvadın ciyarını çəkib çıxardır. O adam o dəyqə ölürdü. Bir dəfə olub ey, Allah görkəzməsin. Rəhmətdik Miranə yatanda baba nənəm durdu təndir şişiynən öyü cızdı, elə bil, çəpər çəkirdi. Gəlin yatan yeri dairəyə alırdı, onda, deyir, onun yolu bağlanırdı, gəlmirdi. Yoxsa ordan əl çəhmirdi. İynən gəlir o.

Babam rəhmətdik danışırdı, adını da deyirdi, deyir o tutmuşdu. Bir müddət evində işdətdi onu. Deyir, gəlinə quymağı verəndə kişi gəlif ki, verməyin onu. O quymağı, deyir, belə-belə, belə-belə elədi (yeməyi qarışdırırmış kimi edir – tərt.), içinnən bir tük çəkdi çıxartdı, onu saldı çuala. Ağzını möhkəm bağladı, payanı götdü əlinə, döydükcə şişdi. Gəldi oldu adam kimi. Sonra ona sancağı taxdı, dedi, bunu aşmıyın. Onu işdətdi. Uşağı aldadıf ki, bu sancağı üsdümdən çıxart. Uşax sancağı çıxardıf. Hərrənif aynadan deyif ki, gedirəm, zibilinizə bərəkət deyim, yoxsa var-dövlətinizə? Deyir, o da güldü. Bunun sözünə gülüflər, – rəhmətdiyin danışığın deyirəm, – deyif zibilinə bərəkət deyirəm. Deyir, bu günə kimi də evin zibili kəsilməyib. Davanına nəhlət onun. Onun davanını kəsmişdi rəhmətdik.

Rəhmətdik Əli dayının atı var idi axı. Onun yalmanını hörürdü, özü də əl yeri olurdu. Rəhmətdik Əli kişi dəfələrnən onu mənə göstərifdi. Dedi, buna bax. Atın yalını elə hörürdü qadın saçı kimi. Ordan da əl tutmağa yer saxlıyırdı. At səhər-səhər olurdu çim su. Nə dərəcədə düzdü, nə dərəcədə səhvdi, mən deyə bilmərəm (S. 13).

**49.**

Bu kəntdə bir gəlin var idi, Qədim kişinin qızı Qəndaf. Bu – irağ olsun, – cinnərnən yaşıyırdı. Çıxıf gedirdi, bir həftə gəlmirdi. Kişi yazıx gedirdi, qayanın altda qartof pəyəsi var ey, gedəndə görürdü o pəyədəcə yatır. Deyir, döşünü çıxardırdı, deyirdi uşağı əmizdirmişəm ey, uşağ əmizdirmişəm. Bax, onu o formudaca gətirirdilər. Nə qədər elədilər, çarə eliyəmmədilər. O gəlin eləcə onnan da öldü. Deyirdi ki, uşağlarım gəlir ey, uşağlarım. Yoldaşım da gəlir, uşağlarım da gəlir. Mən niyə tək qalıram? Burda tək qalmıram ha. Eləcənə öldü gəlin. Allah görkəzməsin (S. 13).

**50.**

Bax, mən özüm, Allah hakkı, şahidi olmuşam. Bir dəfə axşam çıxdım, incil ağacı vardı məhlədə, o incil ağacın altına getdim, elə bil, uşağın əysisi var idi, onu yığmağa. Aydınnıx gejəydi. Gülnar da mənim qaynım arvadı idi. İkimiz bir məhlədəyik, aramızda bir setka var. And olsun o göydəki tanrıya, görürəm bu Gülnar... Gecə hiss elədim ki, birdən yağış yağar, uşağın paltarı eşikdə qalmasın da. Görürəm bu Gülnar məni elə çağırır, elə çağırır. Ay Səyyarə, ay Səyyarə. Məftilin bir ucun incil ağacına bağlamışam, bir ucunu da toolamız varıydı, onun qabağındakı dirəyə.

İstədim əlimi atam qapını açam – setka qapıdı da məhləyə gedən, – birdən ağlıma gəldi ki, gecə bu vaxtı Gülnar məhlədə neyniyir. Təzədən "bismillah" eliyə-eliyə qaçdım gəldim evə. Əysiləri atdım divanın üsdünə, kişi yatmışdı, çığıra-çığıra üsdünə qaşdım. Dəli oldu yazığ. – A noldu, noldu? Dedim, Gülnar məni məhlədə çağırır. Dedi, bə məhliyə gedirsən gecə vaxtı, məni də durğuz, gedək ikimiz. Tək niyə gedibsən, incil ağacının altında həmişə şennik olur. İncil ağacın altında cinlər olur, ruhlar olur. Bax, sən nə gəzirsən orda? Hə, bax eləcənə. Məsələn, aldadır, aparırlar səni, öz kuruklarına salırlar. Onnan sora həmin adamın başı pozulur. Nəsib əminin arvadı Rəfiqə qaynar suyu otduğa tökübdü qapıda, yazıx havalanmadımı. Dedi, cinlərin balasını yandırıbsan. Göy otduğun üstündə onlar oynuyurmuşlar da. Onlar bizi görürlər. Bu da bilmiyib, qaynar suyu töküb ora, yandırıb onları. Yazığ nə əziyətlər çəkdi. Adam kimi dururdu, dururdu, bir də görürdün uje getdi. Elə o xəstəliknən də öldü (S. 25).

## 51. ÇÖRƏYİN ƏRŞƏ ÇƏKİLMƏSİ

Anamız təndirdə çörək bişirəndə onun küt gedənini – irağ üzümüzdən, hamının iti vardı, – deyirdi iysi dəyif, verin itə. Qonşuya bir çörək göndərirdi ki, qoy yesin, iysi vuruf. İndi qonşuda biri kavab yeyir, iysi də məni öldürür, bəlkə, bir ildi mən kavab yemirəm, bir tikə ondan qonşusuna göndərmir. Hərdən burda dururux dana. Deyillər, yağış yağmadı. Deyirəm, kimin üzünə yağsın? Haramçılıx baş alıf, ona görə bu camaatın urzası da qıtlaşa-qıtlaşa gedir. O vaxdı da belə oluf. Hamının urzası var imiş, itin, pişiyin,

insanın – hərənin öz urzası var imiş. İnsannar o qədər harınnıyır ki, bir arvad çörək bişirirmiş təndirin başında, uşax da çölə çıxıbmış. Uşax deyir, ay ana, gəl təmizdə. Dur lavaşdan götür, uşağın götünü siləndə yer-göy tərpəndi, bütün cannıların hamısın urzası qalxdı yuxarı. Bir gün yemək yemə, beş gün yemə. İt-pişik hamısı ajınnan qırılır. Ağızların göyə tutdular, başladılar ulaşmağa ki, ay Allahtala, günah eliyən budu, biz nə günahın sahibiyik? Allahtaladan vəh gəldi ki, onlara yoxdu urza, nə verirəm itəpişiyə verirəm. Bax, bizim də yediyimiz o itin-pişiyin urzasıdı (S. 7).

## 52. HARAMLIQ NECƏ YARANDI?

Bir günləri bir ərazidə şah neyniyirmiş bu insanlara gücü çatmırmış, o qədər halal imişlər. Şahın bir vəziri var imiş şeytan xislətli. Şaha deyir, istəyirsən buları özünə cəzb eliyəsən? Deyir, hə. Deyir, əmr elə səhər hamı bir yumurta gətirsin. Eldə-obada hamıya car çəkillər ki, şah buyurub ki, hərə bir yumurta gətirsin. Gətirib yığıllar bir yerə, çıxıb gedirlər. Sonra yumurtanı yığdıran adama şah deyir, indi neyniyim? Deyir, səhər denən ki gəlsin hərə öz yumurtasın götürüb getsin. Sən öz yumurtanı tapa bilərsən? Yumurtalar qarışdı bir-birinə, yəni maya qarışdı bir-birinə. Ondan sonra şah atını oynatdı (S. 47).

## 53. ARDIC, GÖYÜN GETMƏSİN

Qoyun peyğəmbər süfrəsidi. Peyğəmbər süfrəsinnən yaranmış nemətdi. Elə bil Allahtala peyğəmbər süfrəsinnən

bunu insanlar üçün bəxş edif ki, bax, bu sənin üçün yaradılıf. Peyğəmbər süfrəsinnən gəlmiş bir qızıldı. Qoyun gəliri mal gəlirindən çox-çox üstündü, xeyirlidi. Deyir, bir kasıbın yunu oluf, cəhrədə bunu darıyırmış. Külək bunu aparır. Külək aparanda qız uşağı imiş da, deyif ki, dədəm məni gələndə öldürəjək ki, bəs bu yunu neynədin. Görür külək aparır, aparır. Görür qabaxda bir qız gedir. Deyir, ay qız, ay qız, o yunu tut, saxla da. Qız saxlamır, keçir. Görür bir dənə ardıc ağacı var. Baxır, deyir: – Ay ardıc ağacı, – şama oxşuyan, – yunu saxla. O da saxlamır. Belə baxır ki, bir qaratikan durur orda, külək bunu aparır, vurur qaratikana. Deyir, saxla, saxla. Baxır ki, yun getmədi. İlişir qalır. Gedir, yunu götürür. Qız xeylax yoruluf. Qız deyir:

Ardıc, göyün getməsin,
Ay qız, əysiyin bitməsin,
Ay qaratikan, sənin də tikanın itməsin.

Qaratikan hətta quruyanda belə baxırsan tikanı yerindədi. Bu qoyun, doğrudan, peyğəmbər süfrəsidi (S. 50).

## 54. ÜLKƏR ULDUZU

Qış bərk sərt gəlirdi. Bir də görürdün səhər tezdən ağsakqalmı, qarasakqalmı deyirdi, əlinizi, üzünüzü suynan yuyun, meşəyə çıxın, salavat çəkin səmanın üzünə. Deyirdi, ay Allah, Ülkər yana sallandı, görən, yaza nə qaldı. Belə salavat çəkirdi. Deyirdi, sabah, inşallah, qıpqırmızı gün açılajax. Baxırdın, doğrudan da, Allahın helə möcüzələri vardı, qurban olum Allaha. Deyir, söz var ağızdan kəlamnan çıxır, söz var ağızdan kərəmnən çıxır. İndi, elə bil, ağızdan kəlamnan çıxırdı o sözlər. Deyirdi:

Eləmi, nə qaldı?
Görən yaza nə qaldı?
Ülkər yana sallandı,
Görən, yaza nə qaldı?

Deyib salavat çəkirdi. Deyirdim, ay dədə, o nətər oluf? Deyirdi, ay bala, bir kasıbın bir qızı oluf. Qız da həddinnən artıx gözəl-göyçək oluf. Erməni keşişin otu, samanı çox oluf. Bu da, deyir, qonşuluxda oluf. Gedif deyif, ay keşiş, gəti bu samanınnan, otunnan ver, mən aparım heyvanımı saxlıyım da, qırılmasın. Yaza bir ay, iki ay qalıf. Bu keşiş deyif ki, qızını ver aparıf kef çəkim, verim. Kişi gəlif öyə. Deyif, arvad, ney-niyək? Bir belə uşağım var, mal, dana acınnan qırılajax. Getdim keşiş kopoğluna dedim, keşiş kopoğlu da dedi qızını maa ver. Qız bunu eşidir. Arvad deyif ki, ay kişi, nə danışırsan? Qızı verəkmi? Bu keşiş qızı özünə alermi, yoxsa... Belə bir şeyi qız eşidif. Qız eşiyə çıxıf başdıyıf Allaha yalvarmağa:

Eləmi, yaza nə qaldı?
Görən yaza nə qaldı?
Ülkər yana sallandı,
Görən yaza nə qaldı?

Gejə sabaha yaxın, deyir, hava müğəfləşir[38], qar boşalır, sabah tezdən göy gurulduyur, yağış yağır, keşişin samanını baannan sel girir, aannan çıxarder. Qız gəlir deyir, ay ana, mən keşişə gedəsi olmadım. Keşişin samanını sel apardı. Deyir, kişi malını, heyvanını çıxardır otarır. Deyir, şükür, Allah, sənin böyühlüyünə. O qızın alqışı gejəynən Allaha çatıb, sel-su samanı göyə çəkif (S. 50).

[38] Müğəfləşir – yumuşalır

## 55. HƏDİK AŞI

Qətil sınannan sora hədiy bişirirdik. Noxud, mərcimək, qarğıdalı, buğda, düyü, yeddi dənə paxlalı şey olmalıdı. Tökürdük qəşəh bir qazana, bişirirdik. İndikilər ətnən eliyir, amma biz ət vurmurdux. O vaxtı Cənab Zeynəb uşaxlara baxırmış, ajdı da, müharibədən çıxmışlar. Bimar Zeynəlabdın elə xəstələnmişdi, o vaxt xəstələrlə, uşaxlara, qadınlara müharibələrdə dəymirdilər. İndi ordan gəlirlər da aj-susuz, uşağlar yeməy istiyir. Cənab Zeynəb deyir ki, ay Allah, sana qurban olum, nağarım? Gedir beş-altı dənə daş yuyur gətirir, tökür bir qazana, ocax qalıyır, bu daşı qaynadır. Şakkır-şukkur qaynıyır. Uşağlar deyir, hələ bişmiyib? Deyir, indicə bişəcək, indicə bişəcək, sizə hədiy bişirirəm. Allahtalanın möcüzəsinə bax. Zeynəb xanım gedir qazanın ağzını açır ki, bir qazan hədik. O hədik ordan qalıfdı. O hədiyi gətirir, tökür, verir uşaxlara (S. 25).

## 56. GÜL DƏRVİŞ

Gül Dərviş haqqında mən o tarixləri dəqiq bilmirəm. Çünki mən Leninkənddə doğulmuşam, Çinarrıda, amma gediş-gəlişimiz vardı. Mamamgil söylüyürdü kü, dərvişin adı Gül imiş, tək yaşıyırmış. Özü də ona yemək qeybdən gəlirmiş. Abba deyirik da Rafiqin atasına, Nəriman əmiyə. O vaxt onlar uşağıymışdar, gedib qoyun otarırmışdar Gül Dərvişin qırağında. Elə Gölaysordan bir az yuxarı gedirsən, dağların içində, meşəliyin içində Gül Dərviş günbəzi durur. Deməli, uşağ imişlər dana, heyvan otarırmışlar. Gedirmişlər ora ki, hər gün günorta orda yemək olurmuş. İndi kim

gətirirdi, nətəri qoyurdu, neynirdi. Rafiqin atası Lətif bizim kişinin əmisi oğludu. O söylüyürdü ki, mən özüm yemişəm, Nəriman yeyif. Bax, gedirdik hər günorta orda yemək olurdu, ordan yemək yeyirdik. Sonra da axşam olanda heyvanı haylıyıf kəndə gətirirmişdər də (S. 25).

## 57. PİR TƏPƏSİ[39]

Bizdə pir varıydı, Ojax yalı. Ən sınanmış Ojax yalı idi. Sarıbulağın üsdündə Dihdaş deyirdih, Dihdaşın yanında Pirin təpəsi deyirdih. Ora, doğurdan, piriydi. Düzdü, hamının nəyəsə inancı ola bilər, amma o pirin inancı həqiqətən varıydı. Allah cəmi ölənnərimizə rəhmət eləsin, bizim kəntdə belə bir xasiyət varıydı, ümumiyyətcə, bünövrədən belə oluf, iyun ayının onunnan sora kəntdə bir dənə pişih tapbazdın. Hamı bir nəfər kimi dağa getməliydi. Kimin malı, qoyunu varsa, getməliydi, kimin malı, qoynu yoxdusa, o qalır da. O da aydın məsələdi, kəntdə hamının malı, qoyunu varıydı. Biz yaylağa gedənnən sora bu kənd qalırdı tamamilə piçənəh üçün. Bir tərəf piçənəhlər idi, biçilirdi, bir tərəf də örüş otarmax üçün. Bax, bu zonaya (pir tərəfə – tərt.) qəti heyvan gedən şey döyüldü. Çoban fermaları var idi, o fermaların yanınnan mümkünatı yoxdu heyvan keçə. Bir gün iki nəfər heyvan aparıb dağın döşündə otaranda – haşa hörmətdən, yaman da pis itdəri vardı. 75-76-cı illərdə oluf ey. Mayın axırı, iyunun on beşi arası olur da. Pirin təpəsi belə yastı yer idi, – görür itdər orda hərrəndi, fırrandı, it ağzında bir sümüh gətirdi. Gələndə görür heyvan sümüyü. O

[39] Qaraqoyunlu dərəsində Ağkilsə kəndinin yaxınlığında yerləşir.

itdərin bir xasiyyəti vardı, – mənim kirvəmin itdəri idi, – çörəyi yanına tulluyurdun, axşama kimi çörəyin yanında dursun, ona ağız vurmazdı, nə də iti-pişiyi qoymazdı ona yaxınnaşsın. Heyvanı kəsirdin, cəmdəyin yerə atırdın, indiki itdər ağaca dırmaşır, amma əti yanına qoyurdun, o Qızıl it əlin əlin üsdünə qoyuf eləcə yanında dururdu, o ətə dəyməzdi. Nəysə, o sümüyü ağzına aler gətirer. Belə baxanda görüllər ki, bu üzü qıpqırmızı ətdi, ancax bu üzü dümağ sümühdü. Bu iki ayın, üç ayın sümüyüdü, amma bu üzü təzəcə ət kimidi, çürümüyüf. Nəysə, bunu götürür çantasına qoyur, gətirir kəndə. Sən inanırsanmı, İrəvannan skoropamoş maşınları gəldi, bax, o kişiləri də, bizi də apardılar ki, göstər görək it bunu hardan, hansı otun yanınnan götürdü. Hansı otdan qida götürüf ki, bu ət çürümüyüf. Nə qədər torbalara bu otdan, o otdan yığdılar. Bizə də adama əlli qəpik, bir manat verirdilər ki, yığın bu otdan. Pirin təpəsi elə bir möcüzəli yeriydi.

86-cı il idi. Vaçik bir erməni dığası traxtornan gəlir ki, Pirin təpəsində yaxşı daşdar varıydı. Bı erməni gedir orya, təpənin bu üzünnən bir təpə də qalxırdı balaca, onnan oyza ermənինin piçənəh yer idi. Erməni gedir – qabağı buldezer traxtor var idi, – orya gedəndə bir kişi görür bir erməni buranı buldezernən qazır, daş çıxardır. Gəlir deyir, ayə, kopoğlu, nağarersan? Bura ojaxdı. Sən bu daşı niyə çıxardırsan? – Arə, – deyir, – ojax nədi? Elə bu daşı söküf aparajam, ev tikəjəm. – A bala, – deyir, – bu sana qənim olar, etmə, eləmə, cavan oğlansan. Sən öl, erməni andırmadı. Düz yolda traxtor kəllə-paça aşdı, erməni ordaca öldü. Deyirdilər, ordan bir dənə çöp də götürmək olmaz.

– *Pirin təpəsində nə var idi?*

– Heç nə, daşdar idi, yazılı daşdar varıydı. Kimsə qurban kəsirdi, qanı ora tökülürdü. Baxırdın daşın o üzü, bu üzü heyvan qanıdı. Yəni burda imamlar, peyğəmbərlər adına qurban kəsilif qanı burda qalıb.

– *Peyğəmbər bulağı deyirlər, ordaydı?*

– Onun böyründə sızğa bulax varıydı, o da möcüzəydi. Dağ idi, onun böyründə sızğa bulağ idi. Yayda buz kimi olurdu, əlini salammırdın. Yayda buzxana deyirdik, qışda da sızğa bulağ deyirdik. Barmaxcan da axırdı. Ona noy qoydux, qəşəh betonnadıx, o su ordan qutarmırdı. Möcüzəydi. Sızğa bulağ ora idi. Orda əl izi, ayağ izi varı idi. Qayalarda baxırdın ki, ərəb hərfləriynən yazılar, naxışdar var (S. 50).

## 58-59. MURĞUZ PİRİ

Murğuz dağı var. Orda zağa kimi yer var, orda peyğəmbərin əlinin şəkli var idi, qamçının izinən su gəlirdi. Göz gördüyünü deyər. Görmüşəm, əlinin şəkli qayada belə basılı. Qamçının izi var. Burda da ayağ izi var, köhnə dədə-baba gön çarıx olur, onun izidi. Qayadan da su damcı-damcı tökülür, qamçının iziynən gəlir, çarığın izinə yığılırdı. Biz orya gedəndə o çarığın izindən su içirdik. Peyğəmbər bulağı deyirdilər ora. Orda da bircə su orda idi. Ondan yuxarda Molla qayası var idi. Çoban qoyun otarırmış, su yoxdu. Deyif, Allah, filan yerdən bir dənə bulax çıxsın, bir dənə heyvan kəsəjəm. Allahtala eşidir, ordan bir dənə su qaynıyır çıxır. Çoban da bir qoyunu tutub qaşıyır, ayıb olmasın, bir mundar şey çıxardır, belə eliyir. Elə orda qoyunu, çobanı Allahtala daşa döndərir. İndi ora Molla qayası deyillər (S. 52).

## 59.

Bizim qaraqoyunnular ulu tanrıya, Qurana, bir də ki Murğuzun pirinə and içirdi. Murğuzun piri Murğuz dağının ən yüksək zirvəsində yerrəşirdi. Qaraqoyunnu kəndlərinnən xeyli aralıda idi, buna baxmayaraq, bizim camaatımız həmişə oranı ziyarət edirdi. Orda insanı heyrətə gətirən oydu ki, daşdan yağ damırdı. Onun başında dəmirdən bir oyux düzlətmişdilər və onun ətrafında daşdan kiçih-kiçih evciklər düzəltmişdilər. Sonram uşağı olmuyannar orya gedirdi, beşih düzəldirdi, əgər o beşih yellənərdisə, deməli, onun övladı olacaxdı. Deməli, o ocağa bizim camahat erkəh quzu aparırdı. Onu üş dəfə o daşın başına fırrıyırdılar və kəsirdilər. Onun az bir hissəsini orada pişirirdilər, qalan hissəni də gətirif kasıflaramı, yoxsullaramı, qonum-qonşuyamı paylıyırdılar. Murğuzun piri hər bir qaraqoyunnu üçün müqəddəs bir ocağ olmuşdu.

O pirə getmək üçün iki yol var idi. Çaltəpə var idi, onun yanınnan yol gedirdi, Süddü bulağın üsdünnən qalxırdı pirə. Bir də yol var idi Qazax-Tovuz camaatının köç yolu idi. O yola Əyriyol deyirdilər. Əyriyolnan qalxırdılar Murğuzun başına, orda böyük bir Qaraqaya var idi, onun dalınnan gedirdilər. O yolnan gedəndə uzaqdan baxanda hiss eliyirdin ki, düzənnikdə qoyun sürüsüdü, çoban da yanında. Amma gedirdin orya, onlar daşdı. Belə rəvayət eliyillər ki, onları Allahtala daşa döndərib. Murğuz pirinə ən çox uşağı olmuyannar gedirdi, orda öycük qururdu, ipdən beşih düzəldirdilər. Yellənirdisə, demək, uşağı olacaxdı. Heyvana xəsdəlik düşəndə orya aparırdılar, o pirin başına fırrıyırdılar. Və yaxud da aparmax mümkün olmasa, ordan bir qayanı gətirirdilər, o qayanın başına heyvannarı fırrı-

yırdılar ki, bu hevannar xəsdəlikdən qutarsın. Heyvanı soyurdular, onun iç yağı çıxırdı. O iç yağını da o daşın üsdünə tulluyurdular. İndi bilmirəm onun yağıdı, ya daşdan yağ axırdı. Ancax o daşdan həməşə yağ axır. Təkcə Gölkənd camaatı yox, Salaxdı, Əmirxeyirdi, Bəryabatdı, Qaraqoyunnu dərəsi hamısı o pirə gedirdi. O daş olan yer Murğuzun ən yüksək zirvəsi idi (S. 18).

## 60. YEDDİQARDAŞ ÇİNAR

Bizdə çınar varıydı, yeddi qardaşıydı. Bir ağaşdan yeddi putax çıxmışdı. Elə bil ortada ağac çıxıf, putaxlar, bax, belə əyilif ordan-burdan, yeddi qardaş çınar ağacıdı. Ağacı ziyarət elerdik, camaat gederdi qurban kəserdi orda, ziyarət eleerdi. Kim nə niyət eliyirdi, gedirdik ziyarət eliyirdik. Bulaq çəkilmişdi, qəşəh stollar düzmüşdülər. Bir ağaşdan yeddi putax əmələ gəlmişdi. Elə bil ortadan ağac çıxıb, putaxlar əyilib torpağa, hərəsi bir ağac oluf. Onu ziyarət eliyirdik. Ojağlara gedəndə nə cürə, orda da elə. Ağacın başına dolanerdıx, şam yandıreydılar, yerləri varıydı, ağacın özünün içində düzəltmişdilər. Nəzir qoordular, qurban kəserdilər, şal bağlerdılar, lent bağlerdılar ki, mənim niyətim çatsın, gəliv qurban kəsəjeh belə. Orya Gürcüstandan da gəlirdilər ziyarətə. Demişdilər ki, bir dənə yarpax yadınızdan çıxar maşınnan gedər. Aparmağa ixtiyar yox idi, onnan bir dənə yarpax götürməyin, ziyan taparsız. Nə niyyət eliyirdin, niyyətin yerinə yetirdi. Orda qurban kəsməyə, otmağa şərayit düzəltmişdilər. O gün olmaz ki orda adam olmuya, o gün olmaz ki orda heyvan kəsilməyə. Bir gün heyvan otarerdim, novata getmişdim. Təpənin

başınnan heyvanı gətirdim ki, qoy otdasın, özüm də bulağa yaxın. İki maşın gürcüstannı gəldi, heyvan kəsdilər. Məni də çağırdılar, ay çoban, gəl. Otdux çörək yedik. O dedi ki, uşağım olmordu. Burya nəzir dedim, bu uşax oldu, bax, indi özün gətmişəm uşağın. Bax, helə çinar idi (S. 29).

## 61. ƏBDULƏSƏR OCAĞI

Dağın başında göldü, dərin göldü, ancaq o gölün suyu heç zaman qurumurmuş. Daim suyu olurmuş. Ora ermənilər də ibadət eliyirmiş. Orda daşdar olub. Dilək tutub daşı daşa vururdun, daş yapışırsa, diləyin qəbul olur. Xalamın əri seyid olub, oların əsli naxçıvannıdı. Dədəmnən xalamın əri yeznə-qayın söhbət eliyirlər. Deyir, gəl niyyət tutax, sən seyidsən, Allaha ibadət eliyənsən, özü də aşıxlığı da varmış rəhmətdiyin, Xıdır kişinin. Deyif, mən içgi içənəm – içgi içən oluf atam. İctimayi adamdı, qonağı-zadı gəlir, bu da məjburdu içsin, – sən də seyidsən, gəl niyyət eliyək. Niyyət eliyəndə görür bunun daşı tutmadı. Arvadı da mənim xalamdı – Səkinə xala, uşağ üsdündə rəhmətə gedir, ayləsi dağılır. Bunun dörd oğlunu mənim atam-anam saxlıyır.

Hündür dağ imiş, dağın ətəyində qurbanların kəsərdilər. Dağın zirvəsində göl var, o göl heç vaxt qurumur (S. 42).

## 62. İMAM TƏPƏSİ[40]

Burda imam çıxmışdı dana. Məhəmmədəli kişi var idi, Qədim kişi var idi. O deyirdi, on səkgiz yaşında bir

[40] Şəmkir rayonu Yeniabad kəndinin ərazisində yerləşir, xalq arasında Bitdili imamı kimi tanınır.

kommunist olur, gedir bunları xəbərdar eliyir ki, bunu yığışdırın, sovet hökuməti gəlir. Daşnan vuruf oğlanı öldürüflər. Gəncəyə qab-qaşığ almağa getmişdik. Bir tükançı var idi orda. Dedi, hardansız? Dedim, belə-belə. Dedi, biz ora haravaynan ziyarata gəlirdik – Oruc kişinin bacısı söylüyürdü, o vaxdı haravaynan gedirmişdər da İmamzadaya. – Qurban aparırdıx, deyir. Elə yaxınnaşmışdıx, gördük qoşun tökülüf İmamzadanı dağıdır. And içirdi o qüllədən bir dənə qaba ilan elə şürüşdü ki, qoşun böyüyün başına düşdü. İlan bunun papağına dolanatan əmr verdi qoşunu qaytardı. Yoxsa, deyir, dağıdajeydilər İmamzadanı. Bir tufan qopdu, deyir, elə bil yer üzü tutuldu. Ondan sonra qoşunu qaytardılar, qoymadılar dağıtmağa. Gejə-gündüz, hər şey var, a bala, yalan döyül. Rəhmətdik Səkinə arvad deyirdi, İmam təpəsini dağıdanda gənə bir tufan qopdu, bir qiyamat qopdu, hamı qaşdı, bu İsa da düzdə qaldı. Onu tumanımızın altına soxdux, gətdik öyə. Keşmə ilahın işinnən, bala, hər şey var.

Bir kişi varmış, Əvəz deyirdilər, nə deyirdilər, gəlif orda ayıf da olsa, siyif. Kişi gedən kimi ordaca ölüf. Abbas kişi söhbət eliyirdi, Birqədir Abbas. Deyir, ordan daş gətirmişdim haravaynan ev tikəndə. Getdim gətirdim, gejə səhərə kimi maa dişdih vermədilər: “Daşı qaytar yerinə. Daşı qaytar yerinə”. Axırı sökdüm, apardım daşı tökdüm yerinə, ondan sonra rahat yata bildim. Ərşad oluf Məleykənin qardaşı. Deyir, o da ordan daş gətirif ev tikmişdi. Nə qədər elədim, qaytarmadı. Abbas kişi and içirdi ki, mən daşı qaytardım, dəfələrnən ona dedim, o qaytarmadı, dəli oldu (S. 13).

## 63-65. XIZIR ƏLLƏZ

Mən cavan idim, anamla bir yerdə yaşıyırdım, təzə evlənmişdim. Anam həmişə taxılı qourardı, onu kirkirədən keçirərdi, qoorğanı un eliyərdi. Bir böyük məcməyiyə qoyardı, məcməyinin də qıraxlarında şamlar yandırardı. Sabah qalxıb baxardı ki, unun üzərində bax belə (əliylə göstərir – tərt.) iz var. Gülərdi deyərdi, a bala, bərəkətimiz olajax, Xızırın atının izi var burda. Mən aylədən ayrıldım getdim. Sonra anam mənə dedi, sən gedənnən Xızır bizim evə gəlmədi. Bunu anam danışırdı.

Xızır Əlləz gecəsi xoruz qurban kəsirdilər. Bütün qurbanları kişi kəsməlidi. Qadının qıçasının arasına şeytan baltası dəyif, onun Quran xətm eləməyə, qurban kəsməyə haqqı yoxdu. Əgər aylədə, ətrafda kişi yoxdursa, onu eliyə bilər. Xoruz qurbanı palyanmazdı, bişirilib yeyilərdi. Qabaxlar qurban ətinin sümüyünü aparıb basdırırdılar.

İkinci bir məsələni danışım[41]. 1978-ci il idi. Payızın gəlhagəl vaxdı idi. Noyamberyan rayonunda baldızım ərdə idi, ora getmişdim. Geri qayıdanda bir Mığrət[42] var, orda qurban kəsir həm erməni, həm azərbaycannılar. Gəldim Mığrata, baxdım bir kişi var, çiynində də əsgər veş-meşoğu. Baldızım da toyux-zad bişirmişdi yolda yeməyə. Bunu aşdım, bu kişiynən də söhbət elədik. Dedim, gəl otur yemək yeyək. Dedi, yox, toxam. Bu kişi mənnən xavar aldı, filan, filan, filan. Dedim, mən də o tərəfə gedirəm, gəl otur maşına, gedək. Dedi, yox, sən get, mən gələjəm. Nəysə, mən maşına otur-

[41] Söyləyici Xızır Əlləzlə necə qarşılaşdığını danışır.
[42] Mığırlı kəndi, ermənilər adını dəyişib Mığrət ediblər.

dum. Əsgər mənnən soruşdu ki, kamandir, sən kimnən söhbət eliyirdin? Dedim, yanı orda oturan kişini görmədin? Dedi, yox. Dayan, dedim. Hoppandım maşınnan, gəldim ora ki heş kim yoxdu.

Bir axşamı da oturmuşdum evdə, baxdım, qapı döyüldü. Həmən adam elə həmən livasda qapıda durub. O saat bildim da. – İçəri gəlin, içəri gəlin. Gəlmədi. Dedi, mən saa söz vermişdim, mən gəlmişəm. 45-46 yaşında sadə paltarda bir adam idi (S. 44).

**64.**

Bir dəfə qaynənəmi dağa yaylağa apamışam, köçü buraxıb qayıdanda Haşqalı ojağının ətəyində, çayın qarağında – bu lap birinci olub, – maşını əylədim. Dedim, qardaş, hara gedirsən? Dedi, İrməzli kəndinə mal tövlələrinin yanına qədər. Dedim, gəl min. Bacıma dedim, çıxın yuxarı, bu ağsakqal kişidi, kabinkada otursun. – Yox, yox, mən elə yuxarı çıxaram. Nə illah elədim, kabinakaya gəlmədi. Gəldim tövlənin yanında əylədim, baxdım, kişi yoxdu. Təzdən geri qayıtdım, elə bil, kişi iynə olub göyə çıxıb, belə bir kişi yoxdu.

Bir dəfə də yuxuma gəldi. Savetin dağılan vaxdı idi. Dedi, gəl sən Bakıya get. Gəldim Bakıya. Bura gəldiyimə çox peşam olmuşam. Dağın döşüdü, oturmuşam, bir ağ atdı gəlir, mən də fikirriyəm. Gəldi yanımda əylədi. Dedi, niyə fikirrisən? Mən ölməmişəm ha! Yaxşı eliyifsən, düz eliyifsən. Ondan sonra mən görməmişəm.

Xıdır Əlləzi fervalın ikinci həftəsi keçirərdilər. Allaha üz tutardılar, deyin eliyərdilər, var-dövlət, bərəkət istiyərdilər, o niyyətə şam yandırardılar. Axşamdan qoyardı boş

otağın birinə. Fevralın on üçünə qədər olardı. Deyirdilər, Xıdır Əlləz bayramıdı. Üç gün çəkirdi. Yaza hazırrığ idi. Ondan sonra yaz başlayırdı. Fevralın 13-dən sonra üzü yaza doğru gedirdi. Qovuta anam şərbət qatardı, onnan qarışdırardı (S. 44).

## 65.

Bir gün İsgəndərnən bu, yol gedir. Amma bu, Zülqərneyn döyül ha, başqa İsgəndərdi. Gedəndə deyir ki, hara gedirsən? Deyir, dirilik suyu axtarajeyih. Gedillər, gedillər, Xızıra nişan olan yerə qədər gedəndə bir qarğa durub putağın üsdündə. Deyir, hara gedirsiz? Deyirlər, dirilik suyu. Deyir, gəlib çıxıbsız. İndən belə o dirilik suyu axajax, amma içən də peşman olajax, içməyən də peşman olajax. Xızır yanır, Zülqərneynə də özünə sığışdırmır. Verillər özünü bulağın yanına su içməyə. Su bulanlıx gəlir. Kirli gələndə Xızır susunnan yanır, tez ovuşduyur sudan içir, amma İsgəndər özünə sığışdırmır. Kirlidi deyə içmir. Burdan çıxanda qarğa soruşur ki, kim işdi, kim yox. Xızır deyir, mən işdim, İsgəndər işmədi. Qarğa deyir, sən əbədiyyət qazandın (S. 44).

## 66-68. HƏMZƏ PİR

Həmzə Pir yeddi qardaşın bajısına aşiq olur. Olanda, nolajax, bu qardaşdar bunu götürmür. Deyir ki, aparax bını bir yerdə öldürəh, birdəfəlih əl çəhsin də. Deyir, nağayrax, nətər öldürəh? Üzr isdiyirəm, deyir, ədəp yerini kəsəh. Açıllar, ə, nəəzir, heş-zat yoxdu. Təzdən orda deyillər ki, biz oldux səkgiz qardaş. Biler ki, bunun sünnəti yoxdu.

Deyillər, indi oldux səkgiz qardaş. Niyarın eşqini Allah sana bağışdasın, sənin də eşqini Allah ona bağışdasın. Onnan bu aşığ olur. Onun qəzəllərini oxuyurdular, oynuyurdular. Yəni Allaha bağlılıxdı, o sufi görüşdərdi, biz yenə də eliyirih. Mövlud ayı gələndə, Məhəmməd peyğəmbərin ayı, həmişə eliyirih onu. Məhəbbət, sevgi cürbəcürdü. Elə vaxd olur ki, məhəbbətin, sevgin öz uşağına qonur. Elə vaxd olur bir oğlannan qardaşdığ olursan, məhəbbətin ona qonur. Elə vaxd olur layaqatdı, namusdu bir qadına sənin məhəbbətin qonur. Elə vaxd olur sevirsən, alersan, yaşıyırsan. Məhəmmədin də sevgisi Nigar olub. Mövludlarda onun sözdərini oxuyurdular (S. 49).

**67.**

Nigar evli qadındı. Mir Həmzə ağa cavannıqdan onun evində böyüyüb, əri onu himayəyə götürüb. Bunda o qadına qarşı daxili bir sevgi əmələ gəlib, onun adını özünə təxəllüs götürüb. O ona əl versəydi orda, ilham da, eşq də, məhəbbət də yox olub gedərdi. İnsan vusala çatdısa, sevgi ölür.

Gülüstanın üzərinnən sümbüllər, güllər açılmış.
Bənövşənin suzanınnan güllər, şəkillər açılmış.

Nazın, ey nazənin, çoxdu, məstlikdə gözün toxdu,
Sərxoşsan, xəbərin yoxdu, belinnən şalın açılmış.

Ey sənəm, məstəm gözünnən, doymaram şirin sözünnən,
Küsərəm gözün üzünnən, süsənnər, sümbüllər açılmış.

Qurbanam süzgün boyuna, heyranam gözəl huyuna,
Gedib-gəlmədən kuyinə cünuna yollar açılmış.

Ey gözəllər gülüzarı, ey xubluğun lalazarı,
Ey Həmzə nişanı yar, vəsfindən dillər açılmış.

Nigar əlini uzatmışdı ki, məni də al. Həmzə çayın qırağında dəsdəmaz alırdı. Hardasa günorta namazına yaxındı. Qızlar da bulağa gedəndə bulaq da çayın qırağında olur. Bular gəlif keçəndə bir az da su daşqınnıyıf, çayın üstünnən hopbanıb keçə bilmirlər, qız xeylaxlarıdı. Həmzə namazın qılıb qutarandan sonra durur ayağa. Deyir, gəlin mən sizi keçirim. Qızların bir-bir əlindən tutub çaydan keçirir, Nigar əlini uzadanda bu əlini vermir ona[43].

Bizim camaat əlaxüsus payız aylarında yığılıb Cicimli ocağına ziyarətə gedərdi. Əkin, səpin qutarıb, ot biçini qutarıb. Maşınlar var idi, avtobusla gəlib oranı ziyarət eliyirdilər. Bizim millətdə belə bir and vardı "Qarabağ haqqı". Ziyarətgahların çox olmağı, evliyaların çox olmağı oranı and yerinə döndərmişdi (S. 44).

## 68.

Bir gün Dilican dərəsindən gəlermiş. Gələndə gün şaxıyır, kölgələnməyə bir şey yox. Çayın suyun da həmişə içmerlərmiş. Yanında adamlar olur. Deyirlər ki, ağa, nolar bir yer olar, dincələk, bir bulax da olsa su içərdik. Deyir, yer bura, oturun. Bax, budur bulax. Əliynən yeri qaşıyır, su fəvvarə vurub çıxer. O bulağın başında oturub çörək yeyirlər, suyunnan da içirlər. Oranın adı Həmzəçimən[44] qalır (S. 44).

---

[43] Söyləyicinin dediyinə görə Mir Həmzənin "Gülüstanın üzərinnən sümbüllər, gülər açılmış" misralı şeiri orada yaranmışdır.
[44] Həmzəçimən – Lori vilayətində kənd.

## 69-72. HACI MAHMUD ƏFƏNDİ

Hacı Mahmud əfəndi böyük övliyadı. İnsanlar hakka inanmax üçün həmişə övliyaları axtarıblar. Hacı Mahmud əfəndi Mir Həmzə ağadan dərs alıb. Onlar yeddi nəfər imişdər. Bu gəlib Qazağa. Onun qəbr daşının üsdündə yazılıb ki, ya mövla, ya Mir Həmzə ağa, ya Seyid Nigari. Özü də Mir Yusif ağaynan onun qəbri yanaşıdı, biri şiyə, bir sünnidi.

Mən hələ ehtiyata buraxılmamışdım. Türkiyədən yazar dosdarım gəlirdi. Mən olara hörmət əlaməti olaraq Sınıq Körpüyə getdim. Getdim orda oları qarşılamağa. Mənim İlkin nəvəm də yanımda idi. Dedim ki, ay İlkin, sən dur burda, mən gedim Hacı Mahmud əfəndini ziyarət eliyim, iki rükət də namaz qılım. Mən içəri girəndə avaznan Quranın bir parçasın oxudum. Hacı Məhəmməd var idi, Asdanbəylidə tanınmış bir adam idi. Çöldə bundan soruşdu ki, ay bala, o kimdi? Dedi, babamdı. Mən çıxanda həmən Məhəmməd maa dedi ki, səni and verirəm bu Hacı Mahmud əfəndinin Quranına, beyjə mənim qonağımsan. Mən də dedim ki, Türkiyədən adamlar gəlir, oları qarşılayıram. Burda nə var? Bu Mir Həmzə ağadan dərs alannan sonra gəlir Qazağa. Özü də Mir Həmzə ağadan dərs alan adamlar tanınırdı hər yerdə. Bu da gəlir oturur. Başdıyır camaat hər tərəfdən axıb gəlməyə bura. Elə bil birinci ən böyük molla budu, bütün mollalar bunun yanına gəlir. Sovet yaranan vaxdı bunu həbs eliyirlər. Tiflis qalasına salırlar, o da Kürün qırağında imiş. Mən bilmirəm, babalarımızın danışdığıdı. Hər səhər durarmış, qarollar heç dillənmirmiş, gedərmiş dəsdəmaz alarımış Kürün qırağında, namazın

qılarmış, qayıdarmış. Sonra bunu Sibirə sürgün eliyillər, poyez tərpənmir. Nə illah eliyillər, mümkün olmur. Onnan sonra buraxıllar onu (S. 44).

**70.**

Onun üç möcüzəsin söylüyəjəm. Xalq arasında olan şeydi bular. Gürcüstana yaxındı axı, burdan da Tovuza, Gəncəyə gedəllərmiş bazarrığ eləməyə. Ən böyük bazar Gəncədə imiş. Bir oğlan gəlir. Görür ki, kişi evinnən harda ki dəfn olunub ora tərəf gəlir. Düşür atdan. Deyir ki, minginən ata, aparım. Deyir, yox, barabar gedək. Konkret kişini mindirir ata, gətirif orda düşürür. Oğul, görüm, dizin yerə əlməsin. Bu da Gəncəyə yəhər almağa gedir, at da özgənin atıdı. Gedən atdı deyə onu minir. Gəlir görür bir pəhləvan dizinə güzgü bağlıyıf güləşir. Atın da yəhərin-yüyənin bağlıyıf, kim udsa, qurbandı, aparsın getsin. Kim də ki yıxılsa, atın burda bağlıyajax. Bu oğlan fikirrəşir ki, Hajı Mahmud əfəndi mənə deyif dizin yerə əlməsin. Nə olur olsun güləşəjəm. Belə də olur, girir güləşir. Vurur pəhlivanı yerə, bunun dizindəki güzgü qırıx-qırığ olur. Pəhlivan durur bir buna baxır, bir özünə baxır. Şükür saa yarəbbi, səndə nə möcüzələr varmış. Heş nə demədi. Atı oğlan götürür, yəhər almağa gəlmişdi bura, hər şeyi üstündə hazır atı oldu. Gəlir, gəlir, düşür Mahmud əfəndinin yanına. On beş, iyirmi metr qalmış düşür dizi üsdə, sürünəndə gəlir bunun qolundan tutub qaldırır. Deyir, sən elə bilirdin orda tək güləşirdin?

İkinci bir möcüzə. Gürcülər payız ayı buna 40 kilolux bidonnan bir çaxır göndərillər. Gürcü deyir ki, bunu bizim knyaz sizə göndərib. Ağzını açır, üsdündə də bir dolça. Ətrafındakı müridlərin də çağırır. Onun bir müridi var idi

Dəli Mahmud, mənim babama xeyir-dua vermişdi ki, səni görüm yeddi oğulnan bir surfaya əl uzat. Gəlir bir dolça götürüb başına çəkir. Hamı baxır ki, Hajı Mahmud ağa nətər çaxır içir. Deyir, gəlin hərəniz bir dolça götürün. Hərə bir dolça doldurur, görüllər ki, bu çaxır deyil, baldı. Gürcü dəli olur. Gedif deyir ki, sən çaxır vemişdin, amma o çaxır bal idi. Mən öz gözümnən gördüm ki, baldı. Bu ikinci möcüzə.

Bir gün namaz qılırmış cümə namazı, xalxı yığıb başına. "Allahu əkbər" deyib namazın ortasında səjdə gedir, qalxmır. Hamı fikirrəşir ki, əfəndi niyə durmadı. Bu olmuş əhvalatdı, elə-belə şey döyül. On beş, iyirmi dəyqədən sonra qalxır. Müridin birin çağırır ki, ay bala, su gətir əlimi yuyum. Görüllər ki, kişinin əli dirsəyə kimi mazıtdı, qap-qara. Deyir, sənə fəda olum, nə idi bu? Deyir, nöyüt aparırdı karvannan bir adam, at batdı, çıxammerdi. Deyir, ya Hajı Mahmud, maa köməyə gəl. Ona köməyə getmişdim (S. 44).

**71.**

Camaat həmişə buna sədəqə verərdi. Mal, qoyun, kimin nəyi varsa da, göndərillər. Bilirsiz da, zəkat məsələsi var müsəlmannıxda. Bunun zəkatı yığılır, bir Alı kişi var bizim qonşu kəntdən idi, Cücəkənd deyillərdi. Oğlu baxer ki, bir inək var, qəşəhdi. Bu inəyi öz damına bağlıyır, öz inəyin bunun yerinə bağlıyır. Gətirir. İnəyi gətirəndə, deyir, kişi əlin belinə qoydu, çıxdı baxdı. Dedi ki, Alı, sən o dama bağladığın inək bunnan yaxşı idi. Onnan sonra bay başına döyür ki, mən nə qələt eləmişəm (S. 44).

**72.**

Bunu Stalinin vaxdında tutullar, o vaxdı dinə qarşı bir az ziddiydi. Tutullar bunu, aparellar salıllar türməyə.

Günorta namaz vaxdı olor, bir də baxellar ki, Hacı Mahmud əfəndi göylükdə namaz qıler. Rəyis kənardan qalxer, ə belə-filan uşağı, bunu kim buraxdı? Deyillər, rəyis, vallah-billah, get qapıya bax, qapı bağlıdı. Nəysə, buna rəyis inanmer, geder yoxler, görür qapı bağlıdı. Gənə içəri salellar. Stalinə xəbər geder ki, bir belə insan var. Stalin də əmr eleer ki, təcili onu göndərin gəlsin. Gəlellər ki, belə-belə, bilet almışıx, sən Moskvaya getməlisən. Deyir, narahat olmuyun, mən özüm gedərəm. Stalinin iş vaxdında geder qapını tıkkıllader. – Salamməleykim. – Əleykimsalam. – Sən kimsən? Deyir, sən əmr elədiyin adam mənəm. Deyir, nəynən gəldin? Mən dünən xəbər vermişdim. Deyir, gəldim da. Stalin deyir ki, əyər o irəliyi görən adamdısa, bu qızıl saadı ona verəjəm. Divanın atda olor. Söhbət eliyəndə deyir, yoldaş Stalin, elə o saada görə məni çağırıfsan? Dəəndə Stalinin qanı quruyur. Çağırer deyir, bu adamı yola salın. Deyir, narahat olmuyun, mən özüm gedəjəm. İndi qayıfdan gəler, hardan geder, möcüzədi da. Stalin əmr eliyir ki, bu adama bir adam toxunarsa, onu güllələdərəm (S. 49).

## 73-75. HACI XƏLİL ƏFƏNDİ

Hacı Xəlil haqqında əfsanə gəzir ki, Sarı baba, Ağ baba, Hacı Xəlil baba qardaşdı. Amma tarix belədi. Qaraçöpdə Alı ağa var idi, o görmüşdü bunu. Hacı Mahmud Əfəndi ona qabax gələr. Dosd imişlər. Görür bu kişi sabah-sabah gəlir, çuxasın ətəyi bütün sudu. Bundan soruşur ki, sənə fəda olum, niyə sənin üstün, başın belədi? Deyir, neynirsən soruşub. Bunu maraq götürür, güdür bunu. Görür ki, səhər tezdənnən harda ki onun qəbri vardı, biri budu, biri

də par-par yanır, sifət-zad yoxdu, namaz qılıllar. Bu gizdin gedir baxır. Daşı çöyürür, dağların daşının üsdü mamır olur, altı qapqara olur. Nəysə, kişiyə deyir, mən bildim sənin kimnən olduğu. Deyir, Alı ağa, heş kimə demə, o bir evliyadı. Başını vuruflar, başı qoltuğunda gəlif bura. Burda da qeybə çəkilif. Adı Hacı Xəlildi. Hajdan gələndə başını vuruflar, başı qoltuğunda gəlir bura, burda yer yarılıf, yerə girif. O burda uyuyur. Allahın izniynən mən gəlmişəm, mənim xətrimə durur mənnən namaz qılır. Allah rəhmət eləsin qəni-qəni Alı ağaya. Bu da gedənnən sonra babamın atasına adam göndərir ki, Molla Təmiri bura çağır. Bu da Məhəmməd babama – atamın atasına deyir ki, Məhəmməd, otur, Alı ağa elə-belə adamı çağırmaz. Yağın nəsə eləmişəm, eşidib hardansa, məni cəza verməyə çağırır. Yazıq babam da deyir, qorxa-qorxa oturmuşam atın dalında. Çatanda, deyir, itdəri bağlatdı, gəldi mənnən görüşdü. O saat bir heyvan gətirdi kəsdi. Yediyimizi yedik, yemədiyimizi dedi xurcuna qoy, apararsan evə, uşaxlar yeyər. Dedi, bilirsən səni niyə çağırmışam, Molla Təmir? Burda bir evliya yatır. Onun üçün bir dənə daş düzəldərsən. Elə düzəldərsən ki, ona layaxlı olar və özün burda qalajaxsan və sənin aylənin donnuğun mən verəjəm. O karxaneyi babam orda tapır dağların başında, o daşı düzəldir. Düzəldənnən sonra həmən yeri tikir. Özü də deyibmiş ki, üsdüm bazara dönəjəx. Ondan sonra ora, doğrudan da, bazar olmuşdu. Hər yer axışıb ora gəlirdi, Borçalının meyvəsi, tərəvəzi – hər şeyi orda idi, üsdəlik ermənilər də gəlirdi ora. Sonra orda pul yığılırdı böyük məbləğdə. Ziyarətdən gələn pulu babam xaşdamırdı, gələn qonaxlar çox olurdu, çaya-şəkərə verirdi. Ondan sonra babam ora yol çəkdirdi. Bulax var idi, o bulağı da düzəlt-

dirdi. Qəvirsannıx qabaxca Debet çayının bu tərəfində idi, sonra xalq yavaş-yavaş dağın belinə qaldırdı evliyanın döş tərəfinə. O cümlədən babamnan nənəmin qəbri də oların yanındadı. Nəsib baba da evliya kimi idi, onu da gətirib orda dəfn eləmişdi. Babamın çayı, şəkəri həmişə hazır olurdu, rəhmətdik anam da olara qulluğ eliyərdi (S. 44).

**74.**

Anadan olduğum kənd Dağ İlməzli kəndidi. Varansovka rayonunun İlməzli kəndi. Bir İlməzli də Marneuli rayonundadı, o Aran İlməzlisidi. Bizim kənd balaca kənd idi, Qaraçöpün yaylasıdı. Allah rəhmət eləsin, babam söylüyərdi ki, Haşqalı ojağı var. O ocağın yaranma tarixini deyim, yazın. Hacı Xəlil ocağı necə yaranıb? Qazağın Aslanbəyli kəndinnən olan Hacı Mahmud əfəndi Alı ağaynan dosd olub. O həmişə yayda Alı ağaya qonax gələrmiş. Qonax gələndə Alı ağa durarmış ki, səhər-səhər kişinin çuxasının ayağı sudu. Bizim tərəfdə ot şeh olduğunnan piyada gəzəndə adamın ayağı dizə qədər su olardı. Alı ağa fikirrəşir ki, saa fəda olum, nə işdi sənin çuxan sudu? Maraqlı buymuş ki, çox üzr isdiyirəm, haşa suframızdan, canavar boğan itdər bunu görəndə səs çıxartmırmış. Alı ağa bunu görər. Görər ki, dağın döşündə iki nəfər namaz qılır: biri çıraq kimi yanır, nurdu, biri də budu. Bunu babama Alı ağa danışıb. Alı ağa Qaraçöplüdü, bizim kənd onun yaylası olub. Deyif ki, güddüm, gördüm iki nəfərnən bu, səhər namazı qılır. Getdim deyir ora çatanda daşı bu üzünə çöördüm, dağların daşının altı qara olur[45], üsdü mamır olur. Sora dedim ki,

[45] Söyləyicinin dediyinə görə, həmin yeri nişan eləmək üçün daşı tərs üzünə çevirir. Türbə də həmin daşın yerində tikilir.

saa fida olum, mən bildim axı sən kimnən namaz qılırsan. Dedi, Alı ağa, niyə soruşdun? Ona xayiş oldu ki, olmaya mənim yerimi kimsə bilər, üsdüm bazar olar. Nəysə, deyir, qonaxlıx qutarıf, kişi kəndə sarı gedənnən sonra Alı ağa babama sifariş göndərir ki, Molla Təmirə deyin... – Babam türkdü, onun adı Molla Zəkidi, əlindən hər iş gəldiyinə görə Təmir deyiflər, – Bu da mənim babama deyir ki, Alı ağa elə-belə adamı çağırmaz. İşdi mana bir iş olsa, atı götürüb gələrsən. Kişi də fikirrəşir ki, heç nə. Gələn kimi yaxşı qarşılıyır, aparır həmən o yeri göstərir. Deyir ki, burda bir dənə türbə tikərsən, daş düzəldərsən, burda övliya yatır. Ona Hacı Xəlil əfəndi deyəllər. Sən burda qaroul olajaxsan, bureyi mühafizə eliyəjəhsən, qulluğ eliyəjəhsən buna, aylənin də donnuğun mən verəjəm. Bunu Alı ağa deyir. Elə də oldu. O tikinti bizdə nəsildən-nəsilə qaldı ta qaşqınnıx düşənə kimi. Beləliknən, bizim camaatın çoxu içkidən uzaxdı. Ümumiyyətnən, bütün tərəfdən hamı bizim ayləyə qonax gələrdi dördüncü günü. Beşinci günü çıxardılar Hajqalını ziyarət eliyərdilər, meyxana[46] başdıyardı.

Camaat Hacı Xəlilin türbəsinə gedirdi. Onun qəbri türbənin böyründə idi, qırmızı daş idi, yazılmışdı Övlüyayi Əfəndi Hacı Xəlil Əməli-təmir. Bular gedərdilər ora, onun harda ki namaz qıldığı yer var ha Alı ağaynan, orda balaca bir daş var idi, üsdü örtülmüşdü, onu ziyarət eliyərdilər. Türbənin içərisində bir dənə boz daş var idi. Türbənin də bu tərəfində, o tərəfində adamlar əyləşərdi. Gedənlər də üzü üsdə gedərdilər, nəzirini verərdilər, ziyarətini eliyərdilər. Meyxana oxunan yer böyük idi, ermənilər oranı yan-

[46] Mövludda oxunan meyxana məclislərini nəzərdə tutur.

dırıf. Böyük yer idi. Mən yatırdım orda, mən bilirdim qəbrdən qorxmaq nə olan şeydi. Ora dam idi. Elə adın dam qoymuşdux, ora bir taxt qoymuşdular, mən də, rəhmətdik atam da, babam da, nənəm də – hamımız orda yatardıx. Soyuxlar düşənə qədər biz orda qalırdıx. Soyuxlar düşəndə gələrdik kəndə[47] (S. 44).

**75.**

İndi belə qoşublar ki, Ağ baba, Sarı baba, Hajqalı baba üç qardaşdı. Bunların heç biri düzgün döylü. Əfsanə belədir ki, Orda Qarağac deyirlər. Buna inanmıyannar, kafirlər bunu vuruflar guyə. Bu da başı qoltuğunda qaça-qaça gedif, orda yer yarılıf, yerə girib. Daha doğrusun Allah bilir. Ağbaba, Sarı baba, Hajqalı baba qardaş döyüllər, aralarında heç bir əlaqə yoxdu. Bütün aran elləri Hajqalı babaya ziyarətə gələrdi. Qaraçöpdən gələrdilər, Qazaxdan gələrdilər. Dördüncü gün gələrdilər, dağların başı, havası gözəl. Orda qalardılar. Dördüncü günə adna günü deyillər da. Beləliknən bura camaat gələrdi, dördüncü günü yığılardılar, səhəri meyxana başlıyardı. Çox şıdırğı meyxana gedərdi (S. 44).

## 76-93. MİSKİN ABDAL

1500-ci ildə Şah İsmayıl Naxçıvana gəlir, ordan da Ərzurumdan Təbrizə qayıdır. Sarıyaquba gələndə Misgin Abdal övliya idi, sınanılmış seyid idi, orda onun qonağı olur. Onun ordusunu yemləməlidi. Həm də ki Misgin Abdalı olar özü Göyçəyə ezam eləmişdilər şiəliyi yaymaq üçün Heydərin

[47] 73 və 74 saylı mətnlərdə eyni hadisədən bəhs edilir, mətnlər eyni söyləyicidən fərqli tarixlərdə qeydə alınıb.

vaxdında. Misginin atası Cəfərnən Şah İsmayılın atası Heydər qohum oluflar. Şah İsmayıl gəldi onnan görüşdü, onu Dağıstanda özünə səfir qoydu. 1514-cü ildə Çaldıran vuruşmasında Misgin Abdalı da, Qurbaniyi də əsir götürüb Türkiyəyə apardılar. Orda sultan eşidir ki, Misgin Abdal yaxşı saz havaları bəsdiyir. Çağırır yanına. Deyir ki, eşitmişəm yaxşı saz havaları bəsdiyirsən. Mana da bəsdiyərsənmi? Deyir, hə. Deyir, nə vaxt? Deyir, hazır olanda özüm xəbər verəjəm. Gəlir saz havasını hazırrıyır "Ayax divani". Xəbər göndərir ki, hazırdı. Sultan Səlim oluf da o vaxdı Osmannının hökümdarı. Gətiriflər yanına. Deyif, mənim üçün nə hazırrıyıfsan? Deyir, "Ayax divani". Deyir, bəs şah üçün nə hazırramışdın? Deyir, "Baş divani". Deyir, mənə niyə "Ayax divani" hazırramısan? Deyir, sən olsa-olsa ayax divanisən, sən şah ola bilməzsən. Orda Sultan Səlim nervilənir, deyir bunu elə bir yerə sürgün eliyin ki, ölkənin ujqar yerinə. Heş kimnən danışmasın, orda çərrəsin ölsün. Elə də olur. Misginin bu gün də qəbrinin harda olmağı məlum deyil.

Ocaxlı tayfası həmən oların tayfasıdı, ocağa görə ocaxlı deyirdilər. O tayfanın bir qismi bizik, bu kəndə[48] düşmüşük. Ocax da bu kəndə gəldi, babam doxsan beş yaşında rəhmətə getdi burda. Bizə babamızın adınan sülöymənnər də deyillər. O ocağı bu kəndə gətirəndə – ocağı saxlayan da dədəmin dayısı oğludu, – dedi, Nəsib, bu kənd erməni kəndidi, ocağı burya gətirmə. İndi ocax yerrəşir Goranboyun Qaradağlı kəndində. O ocağı orda məskunnaşdırdı, bizim kəndin camaatının əlli-altmış faizi o kənddə yerrəşir. Bizim kəndin əhalisi indi Çaykəntdə, Çardaxlıda, bir də Qaradağlıda yerrəşir.

[48] Şəmkirin Çardaxlı kəndini nəzərdə tutur.

Uşaxları Batman qılınc, Rzaqulu, bir də Dağıstandan gələndə arvadınnan qohumunun biri çovğuna düşür. Orda bir dənə arvad aldı, onun da yanında bir uşax gəlir Şadman adında. Bax, şadmannılar nəsli də ondan qalıb (S. 5).

**77.**

O vaxdı mənim beş-altı yaşım olanda anam kalxozda işdiyirdi. Kalxoza gedəndə – o ocağı saxlayan Əsmətel var idi, Nəsibin anası, – o arvadın yanına bizi qoyurdu. Mənim yadıma gəlir ki, Ələsgərin qızı Bəsdi xanım – bizim kəntdə yüz iyirmi yaşında vəfat elədi, – bizim kəndə ərə gəlmişdi. Ocağnan onnarın evinin arasınnan bircə yol keçirdi. Bir seyid gəldi çıxdı. Uşağ idik də, belə şey olanda tez yüyrüf yannarında baxırdıx. O seyid gəldi, Bəsdi qarıynan söhbət elədi. Bəsdi qarı da gejə yatdın, deyirdi kəntdə filan şey olajax, filan şey olajax. Bax, o seyidnən Bəsdi qarı gəldi aşdılar o ocağı. Əsmətel nənə hər adama ojax aşmırdı. Belə açmırdı ki, iki qonşu tutaşırdı, deyirdi nəzir qoyacam, o da deyirdi ki, bir kəndçiyih, bir qonşuyux, ona açırdı. Yoxsa hər adama ocax aşmırdı. O seyid gəldi ocağı aşdırannan sora, bax, saz rəhdə belə bir tabağı var idi, içində qaşığı var idi. Bir piyaləsi var idi, mis piyalə idi, indiki təzə qəpihlər çıxır ey, bax, helə parıldıyırdı. Həmən o piyalənin içi ərəb hərfinən yazılıb, biz oxuya bilmirdik. Arvad gətirdi bir təzə meşox qoydu, üsdünə bir parça qoydu, getdi ocağı gətdi orda aşdı, bunun üçü də sacayağı oturdular. Biz də uşağ idik, onun bir nəvəsinnən biz də qıraxdan baxırdıx. Dolu sənəhdən suyu tökdü qoydu piyalənin içinə, su başdadı orda qaynamağa. Qaynayannan sora birinci nəziri seyid qoymuşdu deyənə götürdü o sudan bir-iki qurtum

seyid işdi, sora Bəsdi qarı işdi, Aşığ Ələsgərin qızı, sora ocax yiyəsi işdi, sora da hərəmizə bir qurtum verdilər. Dedilər, bu suyu yerə atmağ olmaz. Bir də onun içində iki dənə list vardı. Elə zil-qara tujnan yazılıb ki, mən elə qara tuj görməmişəm. Elə də peçat vuruflar oların hərəsinə, bax belə yekə peçətdərdi. O ocaxda indi də saxlanır, o ocağı təsdiq eliyən sənətdi. O vaxdı Cavid Qurbanov öz vəsayitinən o ocağın kümbəzini[49] tikdirdi, orda yaxşı şərayit yaratdı. Oların da babalarıdı. O ocağa görə o kənd orda salındı (S. 5).

**78.**

Gədəbəyin Misginni kəndi var, Rüsdəm Əliyev zonasında, orda işdəmişəm. Orda misginnilər var idi, olarnan əlaqəm oluf. Belə oluf. Qala kəndin bir yaylağı var Turşsudan yuxarı çıxanda Sıradağ deyillər, qayaların içiynən sərt çıxırsan. Qışda gediş-gəliş çətin idi, amma yayda hasand idi, maşın çıxırdı. Orda bir yaylax yeri var. Allahtala orya elə bil öz qələmin çəkib. O yaylaxda fevral ayında qırmızı cöcüyün hərəkət elədiyin mən görmüşəm. Gədəbəyin o sərt qışında mən o yaylaxda o cöcüyü təzəhlərin altında görmüşəm. Ora Misgin Avdalın yaylağı oluf. O sonradan evləndi, ikinci arvadın yanında bir uşax gəlif, onun adı Şadman oluf. O vaxdı o yaylaxdan marallar enif gələrmiş, o vaxdı sərniş deyirdilər, arvad südü sağıf sərnicə tökür. Orda Yavığın dərəsi deyillər, o yaylaxdan iki kilometir anarda sərt bir dərədi. O vaxdı qaçax-quldur olan vaxdarı oğrular dadanır ora. O gədə deyir ki, mən bu oğruları vuracam. Oğruları vuracam deyəndə bu da deyir ki, ay

[49] Goranboyun Qaradağlı kəndindəki Miskin Abdal ocağını deyir.

bala, bizim ocax qan götürmür. Sənə yaraşmaz, oğul. Uşax da bir az nadinc uşağ oluf. – Misgin Abdal burda oluf. Qala kəndin üsdündəki yaylaxda misginnilər oluf. Qışda orda Qala kəndin camaatı malların saxlıyırdı. Gün çıxan kimi birinci oruyu tutur, ordan da isdi yer tapa bilməzsən. Demirəm fevral ayında orda qırmızı cöcüklər hərəkət eliyir, amma ordan aşağı düşürsən, adam donurdu. – Bu uşax deyir ki, bunnarı vuracam. Misgin Abdalın yoldaşı südü sağıf, gətirif sərnişdərə tökərmiş. Sərnicə tökür, bu Allahdan gələn marallardı, gəlif sağılıf gedir. Arvad sağdığı yerdə baxır ki, sağdığı süd qıfqırmızı qandı. – Avdal, maralın döşünən çıxan süd qana döndü, – deyəndə o deyir ki, sənin oğlun hardasa qan elədi, ocağa qan tökdü. Orda akazivatsa oğrunun birin vurur öldürür gülləynən. Ondan sonra Avdal deyir ki, burya qan tökülüf, biz burdan getməliyik. Ondan sonra o ceyran sürüləri bir də o qapıya gəlmir (S. 5).

**79.**

Bizim camaat köşdü, altı-yeddi nəfər adam qalmışdı kəntdə. Anbardar idi, ferma müdiri idi, bular hələ təhvil verməmişdilər deyə kənddə qalmışdılar. Mən ocağın möcüzəsin onda gördüm. Bizim kəndçi Hakverdi var idi, su idarəsində işdiyirdi. O QAZ-66-nan Gəncədən bir erməni köçünü gətirdi, öz evinə boşaltdı. Rəhmətdik Dilqəmdi, mənəm, ferma müdiri, rəhmətdik kalxoz sədri Nuru kəntdə qalmışıx ki, indi gəlif kalxozu təhfil alajaxlar. Hərə öz sahəsin təhfil verif, çıxıf gələjək. Onda da qorxurdux ki, mən gedən kimi tayaya od vurajahlar, məni tutajaxlar. O ocağın üsdündə Nəsif rəhmətdik bir darvaza alıf gətirmişdi təzəcə. Böyüh otağı var idi, o otağın dalına söykəmişdilər.

Dilqəm dedi ki, Nadir, gejdənnən gəl, gedək, görək bu köçü gələn ermənilər kimdi. Birinci bizim kəndə köç olar gəlif. Hakverdi də köçü tökdü, maşını sürdü poşta. Dörd-beş kursant poştda duruf. Gəldi poştun qabağında əylədi, su idarəsinin maşını idi, dedi bunnara deyərsiz maşını apararlar, mən gedirəm. Daa bu evin dəyişif Gəncəynən.

Gejdənnən getdik ki, ayə, payızın günüdü, bir az da soyuxdu. Ermənin dörd dənə gəlini, dörd oğlu var, altı-yeddi nəfər balaca-balaca uşaxlar sızıldaşıllar. Köpəh uşağı yeddi-səkgiz dənə donuzu kəsif, bütöv donuzun cəmdəyin köçnən gətiriflər. Biz çıxdıx gəldik. Gəldik idarəyə yığıldıx, gözdüyürük gəlif təhfil alsınnar. Bu erməni kopoğlu gələ – ocağ onnara yaxın idi, – darvazeyi görəndə... Bu Hakverdi rəhmətdik də zaboru çəkif, amma darvaza qoymamışdı. Gəlir erməni burdan darvazeyi aparır, öz qapısın sökür, bunu qoyur ora. Sabah gecə külək başdadı. Gejdənnən baxdıx, ayə, bular düşən həyətdə bir ağlaşma başdadı. Getdik ki, külək vuruf darvazeyi aşırıf, uşağın biri altında qalıfdı. Bax, onun elə möcüzələri olufdu (S. 5).

**80.**

Bizim ocağın möcüzəsini mən öz nəvəmdə gördüm. Ocaxlının gəlinnəri ayağı ağır olanı, neçə ki uşax anadan olmamışdı ocağ üsdə qoymurdular. Mənim böyüh oğlum Qaradağlıda yaşıyır. Onun dörd uşağı var: iki oğlu, iki qızı. Gəlnimin dayıları Bakıda olur, – o ocağı saxlıyan Əsmətelin bacısı nəvələridi, – qurvan gətirir. Gətirəndə gəlnim zəng elədi dedi ki, ay xala, dayımgil qurvan gətirif, ocağın üsdünə gəlirik. Daa bağışdıyın, bunun da ayağı ağır idi. Yoldaşım bir elə bilmir. Mən buna dedim ki, ona denən bir qarın

yeməkdən ötəri ocağın üsdünə getməsin. Boynunda uşağ olan qadın ocağın üsdünə gedəndə uşax nişangahlı olur. Bu da məhəl vermir. İndiki cavannarı nətər başa salasan? Bu getdimi, bu gedəndə bunun axırıncı uşağı qız uşağı oldu. İndi o qız uşağının əl barmağının, ayax barmağının beşi də bitişihdi, ayax barmağının üsdündə bu yekəlikdə xal var. Ayağına corab geydirirdilər deyə ayax barmaxlarının bitişik olduğu bilinmirdi, amma əlinə də gəlin əlcək geydirirdi. Amma elə göyçək uşax bizim nəsildə yoxdu. Uşağa baxırsan, deyirsən, ay parçasıdı.

Şəmkirdə Zahid doxdur vardı. Rəhmətdih Sabirnən getdik onnan danışdıx. Dedik ki, ay Zahid doxdur, belə-belə. Dedi, indi körpədi, açanda o qayıdıf bir də əmələ gəlir. Qoy uşağın bir-iki yaşı olsun, onun barmağının aralarını mən açacam. Gətdik burya. Bunun ayağının üsdündə yekə xal var idi, ayaxqabı geyindirəndə narahatçılıx yaradırdı. Apardıx Zahid doxdurun yanına, bunu götdülər aperasiyaya. Həzrət Abbas hakkı, karidorda rəhmətdik Sabirnən oturuf gözdüyürük, saat dokquzda aperasiyaya girmişdi. – Ayə, – Zahid doxdur deyir, – xalı kəsəndə əlimdə pıçax nətər titrədi, elə bil, kabinetdə şimşək çaxdı. Elə qan-tərin içində çıxdı. Dedi, Sabir, bu nə Allahın bəlası idi! Gəldi kabinetinə, biz də bunun dalınnan gəldik. Dedim ki, həkim, aperasiyadan nə tez çıxdın? Belə deyəndə dedi, aperasiyanı yarımçıx dayandırdım. Dedi, ayə, bu nə Allahın işi idi! O uşağın ayağının üsdündəki o ət xalı götürəndə pıçax əlimdə elə bil şimşək çaxdı. Qan-tərə batdım, özümü itirdim. Dedim, qoy özümə gəlim. Bu nə sirdi deyəndə mən dammadım. Dedim, həkim, bax, belə oldu deyəndə mana dedi, ay haramzada, məni niyə günaha batırırsız? Ə, Allahdan gəlmiş şeydi,

siz Allahın işinə niyə əl aparırsız? Ə, bunu mana niyə vaxdında demirsiz? Eləcə də aperasiya eləmədi. O xal, bəlkə, bir il qutarmadı ha. Xal idi, özəyi, bax, beləcə acca idi ayağının üsdündə, ayakqabı geyinəndə incidirdi. Allaha and olsun, bir il o sağalmadı. İndi həmən əlnən, Həzrət Abbas hakkı, haraya vurur elə bil zindandı. Sağ ayağı, bir də sağ əlin barmaxları birləşikdi. Mən möcüzöyü onda gördüm (S. 5).

**81.**

Hallavarda Misgin ocağı var. Orda bir dənə armud ağacı var, ortası közərir. O nədən baş verib? O vaxdı Şah İsmayıl Xətayi bura uğruyanda bu deyif ki, şahsan, əhaliynən yaxşı dolan. Sən niyə mana bu sözü deyirsən deyəndə bunnara əmr verir ki, bunu tutun gətirin. Bu da həmişə kəntdən qıraxda bir ev tikibmiş, gəlif istirahət eliyəndə evdə istirahət eliyərmiş. Bu eşidir ki, bunu öldürəjəhlər. Gəlir təndiri təzəhnən doldurur, tüsdüləndirir. Onun bir atı oluf, maydan, haçadil atı oluf. Deməli, ordan yoğran-döşək, arvad-uşağı, bir oğlu, bir qızı olur, götürüf aradan çıxır. Gələnnər də gözdüyür ki, indi bunu tutuf aparalar. Deyirlər, yatıf, heç hara çıxmır, ətrafı kəsək, çölə çıxanda aparıf gedək. Bunnar gözdüyür, səhər açılanda görüllər heş kim çıxmır çölə. Gəlif baxıllar ki, heş kim yoxdu. O gejəynən aradan çıxır. Ordan gələndə Hallavar Pəmbəyi deyirdilər, gəlif orya düşüf. Orda Üşqovax dərəsi deyirdilər. Deməli, köç yeri oluf oralar. Gəlif hərrənif, baxır ki, köç gedif, bir uşax köçdən qalıf. Bunnan soruşur ki, kimsən, nəçisən. Bu, dili pəltəh olur, köşdülər sözün tösdülər deyir. Bizdə tösdü tayfası var, həmin tayfa o uşaxdan törəyən nəsildi.

Deməli, maral gəlir sağılır, gedirmiş. Şah İsmayıl burdan keçəndə elə olur ki, silah-sursatı çatmır. Qoşunun böyüyünə deyir ki, get gör burda kim var, yedizdirsin bizim qoşunu, biz də gələndə ona hörmət eliyərik. Qoşun böyüyü gəlir deyir, bizim qoşunu yedizdirə bilərsənmi? Deyir, yedizdirərəm. Gətirir bir sərnic qatıx qoyur. Deyir ki, ay baba, mən bir-iki adam demirəm ey. Mən deyirəm qoşunu... Deyir, a bala, sərnicdən qatıx, təhnədən fətir qutarsa, boynumu vurarsan. Qoşun əhli gəlir yeyir, görüllər nə sərnicdən qatıx azalıb, nə də təhnədən fətir qutarıb. Gedif Şah İsmayıl Xətayiyə deyəndə, deyir ki, o Misgin Abdaldı. Onda deyir, möcüzəni göydə yox, yerdə gördüm. Bu, aradan çıxır, nə qədər axtarıllar bunu tapa bilmirlər. Elə vəziyyət yaranır ki, bu gələndə – bizim ocaxda həmin şəcərə indi də durur, onun sınaxlı bir adam olduğun təsdiq eliyən sənətdi. Ojaxda onu saxlıyırlar. – qızına deyir ki, gedəjəm – dağın adı yadımdan çıxıf, kitabda[50] var, – həmən dağa sarı çıxıf. Orda arvad da, Misgin Abdal da qeybə çəkilir. Həmin o ojaxda çəliyinən vurur, daşdan su qaynıyıf çıxır. Orda qızına deyir ki, – qızının adı Aladon oluf – Musa addı bir kişi olajax, o səni alajax. Ojağı dəsibir ona verir. Ona görə bizdə deyillər ki, ojax oğlan tərəfdə yox, qız tərəfdə qalıf. Şadman dediyim də həmən köçdən qalan uşax oluf. Həmən Şadman da adam öldürdüyünə görə marallar ojaxdan çəkilif gedir, elə onnan da maral ojaxdan çəkilir (S. 53).

## 82.

Yavıx dağın adıdı, sarı yavıx da dağa yaxın deməkdi. O vaxdı Sarı Yavıx deyirdilər. Bizim kənd dağın ətəyindədi.

[50] Miskin Abdal haqqında yazılmış kitabı nəzərdə tutur.

Orda ocaxlılar, tösdülər, ibrahamlı, məşədialı tayfaları olub. Onlar hamısı bir-birinnən törəmə olub. Bizə ocaxlı deyirlər. Burda rzalar var, miləverdi tayfasından var.

Misgin Abdalın bir oğlu, bir qızı olub, bir də soradan tapma uşağ olub. Yox, əstafrillah, dörd oğlu olub. Bir oğlu Hallavar Pəmbəyində qalıb. Qızı Sarıyaquba ərə gedib, oğlannarı qalıb Hallavar Pəmbəyində. Mən özüm şahidi olduğumu deyim. Deməli, səkgizinci sinifdə oxuyurdum. Bir dənə iki qapılı vilis gəlir (Söyləyici həmin şəxsin adını yadına sala bilmədi – tərt.). Şəcərəni götürmüşdü ki, aparıb registrasiyadan keçirdəcəm. Gedəndə Kəlbəcərin yalına çıxır. Şofer buna deyif ki, həqqi bir də bura qayıdajeyih? Deyir, ə, qoja arvatdı dana, əlinnən aldım, kimdi geri qaytaran. Guya gətirib nazirrikdə registrasiyadan keçirdəcək sınaxlı ojax kimi. Bu söz ağzınnan çıxan kimi ağzı-gözü əyilir. Ordan qayıdır üş gün ojaxda yatır, ağzında bir az nişanə qalır (S. 53).

**83.**

Şah İsmayıl Xətayini hakimiyyətə gətirənnərdən biri də Misgin Abdal oluf. Misgin Abdal onun atasının vəziri oluf. Dağıstan əhalisi bir az cığal oluf. İxtişaşları yatırmax üçün həmişə Misgin Abdalı göndərirmiş Dağıstana. Dağıstannan gələndə Rza adlı oğlu dağda borana düşür ölür. Misgin Abdalın ojağında – bu adam da şahid olar, – mis kasa var idi. Kim təmiz qəlbnən gəlirsə, özü də çimib, qüsul alıb gəlirsən, soyux suyu tökürlər o mis kasaya, əgər niyyətin hasil olursa, o soyux su başdıyır buğlanmağa. Həmin suyu yerə atmırlar. O suyu ətrafda olanlara qurtum-qurtum içirdirlər. Misgin ağadan qalan mis kasa, taxta tava,

balaca çömçədi. İki vərəqə şəcərəsidi. Şah İsmayıl Xətayi onu deyir ki, mən möcüzəni göydə yox, yerdə gördüm. Deyib, bir sərnic qatıqla bir qoşun yedizdirib.

Ocağın üsdündə duran Avdal, Allaha canım qurban, bax, onun qulaxları yoxdu, amma yüz metrdən çağır, sənə cavab verir. Yaqub kişi mənim qaynatamdı. Ona yuxuda deyiflər ki, ojağa bir nişanə veririk, ola bilər ki, onu öldürəllər. Deyin ki, onu öldürməsinlər. Onun anasını gedir Əsmətel arvad ojaxda doğur. Bular isdiyillər uşağı öldürələr, bu söhbət olandan sonra fikirlərini dəyişirlər. O kişi öz qızını ona verdi. Dedi, mana subut oldu, yuxuma girib, belə deyilib. Əgər bu qızı ona verməsəm, bu qızdan mana xeyir yoxdu. Elə də ona ərə verdi. İndi ondan iki oğlu, bir qızı var.

Burda Hallavardan gələn camaat çoxdu. Bayax yadıma düşdü, amma demədim. Şadman Misgin Abdalı hirssəndirir, ojaxda yanan armud ağacını götürüf bunun dalınnan atır. O yanan tərəf göydə qalır, o biri tərəf yerə sancılır. Həmin ağac bitir, bax, həmin armud ağacı[51] onnan qalıb. Hamımız gedif ora nəzir-niyaz qoyurdux, niyyət edib parça bağlıyırdıx, saçımızı bağlıyırdıx. Gejələr ağacın yanan yeri işartı verirdi. Bunu onnar[52] özdəri danışırdı.

Misgin Avdal İrannan gəlmədi, ordan Hallavar Pəmbəyinə gəlib. Misgin Avdalın özü bizim kənddə olmuyuf, qızı oluf. Ojax verilif qızına, qızı gəlib bizim kəndə. Ona görə deyirlər ki, ojax Misgin Avdalın qız nəslindəndi, oğlunda qalmıyıf. Oğlunun nəslinnən olannar Hallavarda qalıf (S. 53).

[51] Hallavardakı Armud ocağını nəzərdə tutur.
[52] Hallavar camaatını nəzərdə tutur.

## 84.

Əsgərriyə gedəndə üsdümdə ojaxdan bir parça götürmüşdüm. Bunu partiya biletinin arxasına qoymuşam. Getdik səhər tezdənnən – rusun serjantının vecinədimi, – başdadı ciblərimizi gəzməyə. Aldı vayenni bileti. Vayenni bileti çıxardanda – bir belə alabəzək gəvə qırığı kimi şeydi, onun parçasından kəsib vermişdi, – baxdı, dedi, bu nədi? Qorxumdan deyə bilmirəm ocaxdan götürmüşəm. Rusca da yaxışı bilmirəm. Yanımdakı dembillər soruşdu, o nədi üsdündə gəzdirirsən? Dedim, heç özüm də bilmirəm. Amma ürəyimdə deyirəm, ay Allahtala, elə yerdəyəm da deyə bilmirəm. Deyən kimi partiya biletimi əlimnən alacax. Həzrət Abbas hakkı, o serjant dabanıynan əzdi o parçeyi. Gözüm elə o parçadadı ki, anarı getsə, götürəm. Bax, Misgin ocağı hakkı, bir saat çəkmədi ki, dedilər serjant stolbaya çıxırdı, düşəndə yıxılıb ayağını qırıb.

– *O parçanı hardan götürmüşdüz?*

– Ocaxdan vermişdilər. Əsgər gedən günü səhər-səhər getdim, nəzir qoydum, ojağı saxlıyan Əsmətel nənə də o parçadan kəsib hərəyə bir belə verdi. Dedi, qayıdıf gələndə o parçeyi gətir özümə ver. Dedi, bu parçeyi bir İvrahıma vermişdim, bir də Məzaimə, sağ-salam da qayıdıf gəldilər. Bizdə maşın alannar gedirdi o ojağın külündən, duzundan götürürdü, bükürdü bir parçaya, maşınnan asırdı ki, bir xata olmasın (S. 5).

## 85.

Ocaxlı tayfası var, ən böyük tayfadı, yaquflular tayfası var, məşədsannılar var, bərxudarlılar var, tösdülər var. 1974-75-ci illər idi. Məmməd Aslan idi, Məhərrəm Qasımlı

idi, bir də bir folklorşünas idi, adı yadımdan çıxıb. Onnar o vaxdı gəldilər ki, ocağı biz Bakıya aparax muzeydə nümayiş etdirək, sora qaytarıf gətirəceyik. Allah rəhmət eləsin, Əsmətel nənə dedi ki, mən sizə etibar eliyif ocağı verirəm. Olar yolda fikrinizi dəyişəsiniz ki, biz ocağı aparırıx, bir daha geri qaytarmırıx, ziyannıx çəkərsiniz. Bular götürdülər ocağı, – Güney yolu deyirik, Gədəbəyə gedən yoldu, – o yolnan gəlillər. Şişqayaya çatanda üçü də deyir ki, ocağı gətirmişik, – orda Şah İsmayılın verdiyi kağız var idi, Şah İsmayılın qolu, peçatı üsdündə, kasa, ocağa aid nə var götürmüşdülər. – aparax muzeyə təqdim eliyək, muzeydə qalsın, bir də geri qaytarmıyax. Allaha and olsun, özlərinin danışığıdı. Ora düz yol idi, maşın beyqəfil çönür, aşa-aşa gedif, üçü də içinnən salamat çıxmışdı. Ocağın əşyaları qucaxlarında, maşını orda qoydular, bir qoç aldılar, gətdilər kəntdə ocağın üsdündə qurban kəsdilər. Ocağı da qaytardılar yerinə qoydular, getdilər.

Ağsakqalların dediyinə görə, bizim dədə-babalarımız Hallavar Pəmbəyinnən gəlmədi. Ulu babalarımız ordan gəlif Sarıyaqufda yerrəşif. Bizə də çox vaxtı deyirdilər ki, Hallavar Pəmbəyindən gələn ayrımlarsız (S. 46).

## 86.

Mən özüm şahidiyəm. Daramanın qaşı deyirdik, orda su baseyni var idi. Ocağı aparıb qoyurdular orya. Malqoyun həmən günü necə o ocağın başına dolanıf çıxırdısa, elə bir hamısını örgətmisən əsgər kimi cərgəynən hərrənif çıxırdı ocağın başına. Orda da qurban kəsilirdi. Elə olurdu, Allah hakkı, əti bölməyə imkan olmurdu. Kəntdə üş yüz təsərrüfat idisə, üş yüz yerə də bölünürdü. Misgin Abdalın

ocağında olan kasanı aparıb qoyurdular ora, qara sinidəydi, üsdünə də qara şamaxı çəkilirdi. Qoyurdular ora, kəndin malın-qoyunun yığırdılar, bax, belə hərrənirdi ocağın başına, cərgəynən də çıxırdılar. Onnan sonra da cöngəni də dolandırıb kəsirdilər. Quraxlıx olan vaxdı, bax, helə heyvanı dolandırıb qurban kəsirdilər. Bir dəfə nətər yağdısa, heç əti bölə bilmədilər. Elə bil şadaradan su tökülürdü. Heyvanı savxoz verirdi (S. 46).

**87.**

Misgin Abdalı iki dənə qızı olur, bir də oğlu Şadman. Bu Şadman da, belə deyək, dalaşqan, qavağınnan yeməz... Ona gedir bir şey eliyir, buna gedir bir şey eliyir. Bu da deyir, ay bala, olmaz, bax, o sakit adamdı, sən onnan niyə dalaşırsan? Bir gün marallar gələrmiş, indi möcüzəyə baxın. Buğa bölünən yer var, orda buğalar ayrılarmış. Dişi marallar gəlirmiş – Sarıyaqubdan hardasa bir kilometr olardı, – orada bir dərə vardı, gəlirmiş orda sağılırmış. Şah İsmayıl gəlif ordan keçəndə, deməli, onun əsgərlərini yedirtmək, onları qidalandırmax hamısını Misgin Abdal eliyərmiş. Bu Şadman da ovçu imiş. Baxır ki, maral var. Şadman maralı vurur. Maralı vuranda marallar axşam tərəfi qaçıb gəlillər. Arvadı sağanda görür ki, qan sağıldı. Deyir ki, bu niyə qan sağıldı, niyə belə olsun ki? Misgin Abdal deyir, sənin oğlun Şadman nəsə bir xəta eliyif. Onda Misgin Abdalın əlində çəlik burulur. O çəlik bu dəyqə muzeydədi. Əlində buruluf. Deyif, Şadman nəsə eliyif. Həqiqətən, axşam düşür, səsküy gəlir ki, Şadman filan yerdə marala güllə atıf. Bunnan Misgin Abdal nəyi varsa hamısını qızına həvalə eliyir, oğluna yox. Cehiz kimi ona verir.

Mənim yadımdadı Sədnik Paşayev, Allah rəhmət eləsin, Gəncədə bir muzey düzəltmişdi dövlət səviyəsində. Məmməd Aslandı, Sədnik Paşayevdi, bir də Məmməd Araz əvvəlcə gəldilər o muzeynən maraqlandılar nədi, nə döyül. İkinci dəfə gələndə həmin əşyaları – çanaxdı, möhürdü, yazılı qəbalədi, onları aparmax isdiyir. SSRİ dövründə bunu saxlamax çox çətin idi. Bir Daşkəntdə Seyid Bayramın ocağı idi, bir də Sarıyaqubda Misgin Abdal idi. Əsmətel arvad deyir ki, bunu aparmıyın. Həm gətirif nəzir verillər, həm də biz saxlamışıx bu dövrə qədər, ulu babamızdan qalıf. – Yox, aparmalıyıx. Biz hardasa səkgizdə, dokquzda oxuyan uşaxlarıx. Toplaşdıx, kəndə qırax yerdən maşın gəlif. O vaxdı nol altı, nol yeddi hər adamda yoxuydu. Bu nəyə gəlir? Sədnik Paşayev o əşyaları götürdü. Dedilər, narahat olmuyun, muzeydə sizin evdən daha yaxşı qorunuf saxlanajax. Bunu dərmanlamax lazımdı, nə etmək lazımdı, siz kortəbi şəkildə eliyirsiz. Mənim indiki kimi yadımdadı. Rəhmətdih Məmməd Araz qıraxdaca durur. Baxıram ki, ürəyi ağrıyır ki, bunu mən nətər bunnarın əlindən alım. Məmməd Aslan da, ay bajı, – arvadın adı Əsmətеldi, nurani qadın idi, – vallah, bu dövlətin verdiyi qərardı, biz özümüz aparmırıx. Saxlamax mümkün olmadı, götdülər. Kəntdən bir kilometr kənara çıxmışdı, avtamabil avariya elədi, rəhmətdik Sədnik Paşayevin qıçası qırıldı, amma Məmməd Aslanla Məmməd Araza heş nə olmadı. Həmin dəyqa da kəndə səs düşdü, yüyürdülər getdilər. Bunları maşının içindən çıxartdılar. O birilər çıxmışdı, amma Sədnik Paşayevin qıçası qırılmışdı. Qayıtdı dedi ki, qardaş, SSRİ olmur hansı dövlət olur olsun, başınıza dönüm, qələt eləmişəm, bu veşi aparın. Bax, mənim orda yadda qalan bu möcüzə idi (S. 14).

**88.**

Artıq yaz gəlif, bu, köçünü yığıf heyvanını aparır Göyçəyə. Deməli, qışda gətirif saxlıyarmış Gədəbəydə, yazda apararmış. Deməli, gedir, – bu da pulları, qızılları torbada saxlıyır, – yolda baxıllar ki, bir külək gəldi, bir çovğun gəldi. Özü də köçə bu özü başçılığ eliyərmiş. Deyir ki, ay uşaxlar, bu çovğunda nə zülüm düşüf ki? Gəlin toplaşax dincələx, hava düzələndə köçüf gedərik. Bu yaz çovğunudu, çox davam eləməz. Nəysə, burda dinclərin alırlar, çovğun keçir, durur yollarına davam eliyillər. Hardasa on-on iki kilometr gedənnən sonra baxır ki, qızıl olan sumka yoxdu. Çovannar təşvişə düşür, harda qaldı, apardılar, nağardılar. Deyir, narahat olmuyun. Gedin hara qoyufsunuzsa, ordaca durur. Gəlirlər, ayə, nətər qoyuflar veş eləcə də duruf. Ordan da götürüf aparıllar. Bax, bu rəvayət döyül, olmuş hadisədi, bunu onun nəvəsi Əsmətel qarıdan şəxsən özüm eşitmişəm (S. 14).

**89.**

Misgin Abdalın böyük ağılı var idi. Ağılda da o vaxdı marallar gəlif sağılarmış. Onun ögey oğlu qan eliyənnən sonra marallar gəlmir. Şadman xort deyirik də, arvadın arxasında gəlmə. O qan eliyir. Kişi deyir ki, ay oğul, bu iş olufsa da, sən bu işi dəbərtmə. Bu gedir qisas almağa, adam vurur. Həmin günü gəlif maral qan sağılanda Misgin Abdal deyir ki, getdi qan elədi. O gedişnən də marallar getdi.

Özüm gözümnən gördüyümü deyim. Balaca uşaq idik, hardasa dörddə-beşdə oxuyan vaxtdarımdı. Ocax yiyəsi Allah rəhmət eləsin Əsmətel yengəyə. Sədnik Paşayev gəlir ki, Misgin Abdalın möcüzələrini aparsın Yazıçılar Birliyində

oxutsun, tərcümə eləsin. O tayfanın ağsakqalı – gözümün qarşısında olan hadisədi, – Məhəmməd kişi var idi, Aşığ Ələsgərin də qız nəvəsi idi. Hamı eşidirdi da, kəntdə deyirdilər, bu ağsakqaldı, qan barışdırır. Gəlif Əsmətel yengəyə deyəndə bu da deyir ki, Məhəmməd kişi görək nə deyir. Məhəmməd kişi də razılıx verir. Sədnik Paşayev vilisnən gəlir, götürür aparır ki, Yazıçılar Birliyində oxutsun, görək bu kağızda nə yazılıf. Möhürrü kağız idi. Öz dediyi sözü deyirəm. Qaraqoyunnunun yolu Qumlu bulax deyirdilər, ordan Kəlbəcərə çıxır. Orda oturuf çörək yeyəndə fikrindən keçirdir ki, qadın xaylağıdı da, aparax gedək, bir də kim qaytaracax bunu. And içillər ki, vilis yerindən tərpəndiyinnən aşır. Gəlir Nərmannının tükanından Əsmətel yengəyə bir donnux da alır, heç aparıf oxutmur, qaytarıf gətirir, başına gələn əhvalatı da danışıf gedir.

Mən özüm Moskvada xidmət elədim, əsgərriyə gedəndə o ocağın duzunnan, çörəyinnən cibimdə aparmışdım, qayıdanda da qaytardım gətirdim. Evlənən vaxdı camaat o ocaxdan xeyir-dua alardı. Məleykə[53] adında qadın idi, onu Qazağa gəlinbaşı bəzəməyə gətirirdilər. Sarıyaqufda ya Əsmətəli, ya da mənim qaynanamı aparırdılar ki, əli düşümlüdü, gəlinin başını bəzəsin. Kimin uşağı durmayanda onun paltarınnan bir köynək tikirdilər ki, uşax dursun (S. 40).

**90.**

Mən bir şeyin şahidi oldum. O vaxdı ağaş tapılmıyan vaxdı, orda[54] maralın buynuzundan atmalar vardı. O evi

[53] Miskin Abdalın nəslindəndir.

[54] Mikin Abdal ocağında

sökdülər, yerində otax tikirdilər. Kolidora gələndə cütü bir ilan sallandı, qoymadı sökələr. Eləcə o kolidor qaçaqaça qədər qaldı. Ocax yiyəsinin evi idi, o vaxdı evlər yerdənqazma idi. Yerdənqazmanın da üsdünə maralın bax bu boyda buynuzdarınnan atma atıflar. Məzahim var idi, Bakıda olurdu. Əmisi oğlunun evinin böyründə bu evi aldı ki, yerində otax tiksin. Məni çağırdı, tay-tuş idik. Dedi, Bünyam, bir şeyə möcüzə qalmışam. Bu evi sökəmmirəm. – Ayə, nəyə sökəmmirsən? Dedi, bax, bu maralın buynuzdarı ki var, lomu əlimə alıf isdiyirəm gələm sökəm, cütü bir ilan ordan sallanıf aman vermir. Deyirəm, a bədbaxt, niyə sökürsən. Qoy kolidor orda dursun da (S. 40).

**91.**

Misgin Abdalın bir möcüzəsin də deyim. Kənd dərənin içində idi. Bu tərəfdən qalxanda Daşkəndə, Şorcalara, Qayabaşına gedirdin, bu üz də otarax yer idi. Yağmıyan ərəfədə el yığılırdı, deyirdi, ocağı çıxardax, qurban kəsək. Misgin Abdaldan qalan əşyaları gətirirdilər dərənin qaşına. Kalxoza da tapşırırdılar ki, heyvanı uzağ aparmıyın, böyün ocağı orya çıxardajeyih. O sürüləri ocağın başına doluyurdular, malı kəsirdilər, atamın, anamın goru hakkı, qurbanı dəridən çıxarıf axırıncı payı bölüf camaatın torbasına qoyanda sel gəlirdi dünyanı dağıdırdı. Bax, onun möcüzəsini uşağ ikən helə görmüşəm (S. 40).

**92.**

Ermənilər kəndi atəşə tutanda[55] evin yiyəsi bu ocağı götürüf, axı ocax gəlirlidi, onun üsdünə qurban gətirillər.

[55] 1918-ci ildəki qırğınları nəzərdə tutur.

Kəndin çıxacağında Şorcalı tərəfə yol gedir. And içillər köhnə kişilər ki, patronnar düşür ayağının altına, biri də buna dəymir necə ki ocax qucağındadı. Bu da qorxmuş adam, tez yorulur dana. Kəndin çıxacağını çıxanda deyir, bu ocağı yerə qoyum, bir az dincimi alım. Deyir, ocağı yerə qoyanda güllə onu tutuf. Gecəynən orya da basdırıllar, o möcüzəni də götürüf gediflər (S. 40).

**93.**

Sınaxlı ocax oluf. Hüseyin adında babaları oluf, ondan da Musa oluf. Musa müharibəyə gedif gəlmiyib, o Musadan da iki uşax qalıf – Nəsibnən, Müşkünaz. Onun ikisi də bu yaxınnarda rəhmətə getdi, indi ocağa onun oğlu Hacı Şakir baxır. Onun oğlu Abdal var. Uşağın qulağının ikisi də yoxdu, amma sərbəst eşidir. O vaxdı maqazinə gəlir limonad içməyə. Limonad içəndə bir zay adam onun limonadının içinə pivə damızdırmışdı. İnanırsan, bir ay o ağzı aşağı yatdı, ağzınnan köpük daşdanırdı eləcə. Bir aydan sonra yaxşılaşdı. Qırx günə kimi də onun limonadına pivə qarışdıran adam öldü (S. 40).

## 94-103. SEYİD BAYRAM

Seyid Bayramgil əslən şamaxılı olublar, ondan sonra köçüblər Göyçə mahalı Çaxırrı kəndinə onun dədəsi, babası. Şamaxıda zəlzələdən sonra köçüblər Göyçəyə, Çaxırrıda yaşıyıflar. Elə olur ki, Çaxırrıya yavaş-yavaş ermənilər gəlib dolanda özündən kiçik qardaşını götürüb gəlib bizim kəndə. Elə orda da rəhmətə gedib. Öz atamın dediyinə görə bizdə uşax problemi oluf, doğulan uşaxlar rəhmətə

gedirmiş. Seyid İsmayılı mənim atam görüb. Deyir, gedirdim, birdən qavağıma çıxdı. Deyif ki, uşax olanda əmizdirməsinnər, gətirin mən südümdən verim, sonra aparın əmizdirin. Mən doğulanda bu gedib – Allah rəhmət eləsin, – yanında deyib. O da sağıb üysühdə südünnən verif, gətirib mənə içirdiblər. Belə oluf mən sağ qalmışam.

Seyid İsmayılın döşündə niyə süd varmış orasın da deyim. Köhnə danışanlardan, bildiklərimdəndi. Bir gün nəysə çöldə işdiyillərmiş. Otduğu yerdə bir arvadı ilan vurur, ot yığıllarmış sezonda. Arvadın da qucağında qırxlı uşax oluf. Bu nətəri olajax, bu nətəri olajax? Bu oturur Allaha dua eliyir, namaz qılır, bax, orda Seyid İsmayılın döşünə süd gəlir, uşağı əmizdirir, qoymur ölməyə. Bunu mana Göyçədən danışan olmuyuf. Naxçıvanlı bir jurnalist varıydı, Bakıda olurdux, bajanağımgildə oturub söhbət eliyirdik. Nəsə, gəldi, xəngəl bişirmişdilər. Dedilər ki, yeyək, içək. Dedim, mən arağ işmirəm. Bu heş nə deyib eləmədi, niyə içmirsən, nətər içmirsən, soruşub eləmədi. Vaxt gəldi, bir də gəldim otdum qabax-qabağa. Dedi ki, deyə bilərsənmi necə olub Seyid İsmayılın döşünə süd gəlif? Dedim, yox, onu bilmirəm niyə süd gəlib? Seyitdi, yəqin ona görə gəlib. Deyir, yox. O açdı məsələni danışdı. Dedi, mən Göyçənin ağsakqallarının hamısınnan söhbət elədim, bax, vəziyyət belə olubdu Seyid İsmayılda süd olubdu (S. 10).

## 95.

Bizim kəntdə[56] zağa çox olub, qoyun saxlıyırdılar. Bunnarın evinin altında zağa oluf. Bu yuxuda görüb ki, –

[56] Daşkənd kəndi

cavan imiş hələ, – zağa uçur. Gəlib onnara deyir ki, burdan hamınız çıxın da, zağa uçacaq. Cavan imiş, heş kim bunu saymır. İki-üç gün çəkmir ki, zağanın qavağı yatır, qalırlar içəridə. Ondan sonra başdıyırlar ona inanmağa.

O vaxtı vergi yığan ermәniymiş. Nəysə, bu köhnöyü çıxardıllar, təzəni qoyullar. Təzə də gəlir, idarədə oturanda baxır ki, Seyid Bayramın qabağı boşdu, vergi vermiyif. Deyif, niyə vermir? Deyir, bax, kişi odurana. Göstəriblər ki, get özün al. Gəlir. – A kişi, niyə vergini vermirsən? Çığır-bağır eliyir. Deyir, get Sorcaları yığ gəl, verəjəm. Şorcaları yığıf gələndə – biz Göytəpə deyirdik, elə hamısı daşıydı – at hürkür, ayağı qalır üzəngidə, at bunu sürüyür. Xeylax sürüyənnən sonra at dayandı. Baxır ki, həmin kişidi, Seyid Bayram. Atı saxlıyır, tutur bunu qaldırır, üstün-başın çırpır, mindirir ata. Əlinən göstərir ki, o kimdi? Bu göstərən tərəfə baxır, heş kim yoxdu dana. Belə çöörüləndə görür kişi də yoxdu. Gəlir rayona, köhnə vergi yığanı tapır. Deyir, ə, getdim filan yerə, kişi belə dedi, mən də belə dedim. Gələndə başıma bu işdər gəldi. Tutdu, ata mindirdi, sonra baxdım yoxdu. At məni daşda sürüyüf, amma heş zad olmuyuf mana. Bir az gülüb deyib, ə, ermapesoy, ged onnan üzr isdə, o seyitdi, bir də onun qapısına getmə (S. 10).

## 96.

Tay-tuşlarınnan gəlir qurbannıx vaxtı bu Aran zonasına. Hümbətalı addı qonşusu olur. Deyir, gedək nəyimiz var yığax, gətirək dana. Gəlirlər, Gədəbəyə çatanda xeylax da adam var imiş, dəreyi sel götürür. Buna da lağ eliyirlər ki, – öz tay-tuşları imiş, – seyid indi nağarax, burdan nətəri keçəjih, bizi keçirt də. Gəlir durur suyun qırağında. Deyir, hamınız ətəyimdən tutursunuz dalbadal, heş kim heç hara

baxmır, keçirdəcəm sizi. Dərədən keçillər o tərəfə. Geri qayıdıb baxıllar ki, dərə çinar ağacların gətirib. Gəlirlər Şamxora çatanda dörd-beş cavan uşax – o vaxtı Göyçədə löpük deyirdik, – oynuyurlarmış. Biri Seyid Bayrama gülür, lağa qoyur, nağayrır. Nə iş görür bu dillənmir. Deyir, oğul, mən filankəsin qonaxçısıyam, mən lazım olsam, məni orda taparsınız. Çıxır gedir. Uşax düşür partdamaya, ağız-göz əyilir təmiz. Biri atasına deyif ki, bir adam gedirdi, sənin uşağın ona güldü, o da dedi mən filankəsin qonaxçısıyam, məni orda tapa bilərsiniz. Gəlirlər yanına, orda bilirlər da, üzr isdiyillər, yaxşı veş-zad yığıllar, gətirib verillər buna. Onda da bir adət oluf, heş havaxt düzəltmirmiş axıra qədər ağzı əyiləni. Deyir, onda mənə heş kim inanmaz. Hətda öz həyat yoldaşına da eləmiyif. Yığıf qurbanları, nə qədər İsmayıl qurbanı var, hamı gətirib verirmiş dana. Yığırlar, bir sürü düzəldir. İndi Hümbətalı fikirrəşir ki, ə, Seyid Bayramın özünə nə lazım olajax ki? Bunun çoxu mənə qalajax. Bax, bu Şəmkirdən düşüllər kəndbəkənd düz Göyçəyə. Gedif qapını açırmış ki, qurbanınız varmı, İsmayıl qurbanı. Biri deyirmiş hə, biri deyirmiş yox. Heyvannarı helə paylıya-paylıya gəlir, Göyçəyə evə çatanda bircə dənə keçi qalır. Keçini buraxıllar qapıdan, o da hasarın başına çıxır. Arvadın çağırır. Deyir, o heyvanı içəri sal. Gəlir nə qədər baxır... İndi bu da fikirrəşirmiş ki, sürü gələjək. Deyir, ay seyid, vallah, orda bircə dənə keçi var. Deyir, o heyvan deyilmi, gətir onu içəri sal. Bax, elə seyid oluf (S. 10).

**97.**

Bir erməni nəzir gətirir, içəri təhliv eliyir. Amma arvadı Pəri qarı köntöy baxır ermənіyə ki, seyidin qapısında nəəzirsən. Arvadına bir şillə vurur, ağzı əyilir. Camaat

deyir, niyə belə elədin? Deyir, o mənim qapıma gəlif. Kim olursa olsun, Allah bəndəsidisə, məni çağırıf gəlibsə, mütləq gəlməlidi. Sən niyə ona köntöy baxırsan? Sonra camaat xayiş eliyir, düzəldir, amma tamam yox. Görənlər deyirdi ki, ölənə qədər bilinirdi ki, bunun ağzı əyilifdi (S. 10).

**98.**

Maralın balası olmurmuş. O saat bunnara agah olurmuş da. Deyib ki, balam olsun, Seyid Bayrama nəzir deyəjəm. Vədə gətirir bunun balası olur, bunu gətirir Seyid Bayramın qapısına. Özü gətirir qapıya, ojağa dolanıllar, sonra çıxanda balası da bunun dalıncax çıxır. Balasını belə vuruf içəri salır ki, sən getmiyəjən da, sən qalajan burda. Seyid Bayram deyir, yox, lazım döyül, mən onu qəbul eləmişəm. Apar get balanı. Gəlirmiş, sağılırmış, hər adama bir üysüh qədər çalası[57] verirmiş, paylıyırmış dana. Düz balası yekələnə qədər gəldilər sağıldı getdi, eləcə də aparıb buraxırmış, gözdüyürmüş özü də. İndi o harya gedirmiş, hara qayba çəkilirmiş, çıxıb gedirmiş. Bax, ona görə də Seyid Bayramın maral gələn ojağı deyillər. Ondan sonra qızın adını Maral qoydu. Maral gələn günü qızı anadan olur. Onu da özü əmizdirir. Arvadını qoymur əmizdirməyə, maralın südünnən əmizdirir (S. 10).

**99.**

Seyidin uşaqlarının hamısında seyitdik olur. Oğlu nisbətən qızlara baxanda güclü olurdu. Oğlu da Qələmin atasıydı, bir başa Qələmə keçdi. Qələmin də anası Zoddudu.

[57] Çalası – qatıq çalmaq üçün istifadə olunan maya qatıq

Ocağda ilan olurdu, təndirin qırağında varıydı, heş kimə dəymirdi ilan, nə də heç kimə ona dəymirdi. Qapısında qoymazdı kimsə ona əlini vura, əməl-salahı düz olmuyan adamı təndirin qırağına qoymazdı o ilan. Biri Maralın ojağına gəlir. Bir köynək alır, qadın jaketi alır Marala gətirmək üçün. Onda da yaylağa çıxandan sonra gəlirdilər. Bura ojağa gəlmək mamentində gəlin durur jaketin düymələrin kəsir, yerinə ayrısın tikir. Gəlinə deyir ki, gətiribsən qəbul eliyirəm, amma düymələrin dəyişibsən. Heyvan gətiriblər, heyvan yekələnəndə heyvanı dəyişiflər. Deyif ki, gətiribsən düzdü, amma tamah eliyifsən, heyvanı dəyişifsən, öz qurbanımı gətirmiyifsən. Qayıdıf buna deyilən qurbanı gətiriflər (S. 10).

## 100.

O vaxtı anam danışırdı, Allah rəhmət eləsin. Deyir, seyid gejə yatır, qışın günüymüş. Arvadına deyir ki, könlüm yaman qatığ isdiyir, görək indi bizə qatığı kim gətirib çatdıra biləjək kənd camaatından nəzir-niyaz. Seyid Bayram deyir öz yoldaşına. Səhər-səhər durur, indiki kimi qar deyil axı. Tar, qar-qiyamat, Göyçənin qarı. Deyir, ağa qalxır, qapıya çıxanda baxır ki, çöldə bir döşü südlü maral var. – Arvad, dur, maral gəlif qapıya, sağına. Təzdənnən, deyir, arvad durur, maralı sağır, qatığını çalır. Deyilənə görə, Alqayıt məllimin anasının adı həmən maralın adından götürülüb. Seyid İsmayılnan ikisinin də kümbəzi qoşa idi. Quş onun içinə girib zığ salırdı, amma Seyid Bayramın sinə daşı, elə bil, bir adam orda süpürgəçi işdiyirdi, onu təmizləyirdi. Tərtəmiz idi. Bizə yaxın idi. Ojağa gələn olanda gedirdik, bax, bu vaxdı hava qarannıx olanda içəri girə bilmirdik.

Ojağ ilanı elə parıldıyırdı, elə bil topaja qızıl qoyufsan, ona dəymirdi, qəbirdəcə yatırdı. Qəbirin altı eşnək idi (S. 10).

**101.**

Seyid Bayram sınaxlı seyid idi, onun adına fidah olum. Mənim əmim oğlu İvrahım altmış dənə heyvanın Kamandarda qırdı, ağrın alım. Seyid Bayrama bir erkək demişdi, bircə o salamat qalmışdı. Bax, canavar canavarrığıynan, inandığımız hakkı, ona dəyməmişdi. Bacadan düşüf quzuluqoyunnu bütün sürünü məhv eləmişdi, bircə o erkək qalmışdı. Onu da apardı Seyid Bayramın qızına nəzir verdi.

Kasparyan[58] iki qardaş idi. Birmaşdıda nökər oluf... Camaata qarşı çox yaxşı idi, sonra qudurdu o da. Nalox yığarmış, ay İsmayıl. Gedir Seyid Bayrama bir az hədə-qorxu gəlir. Deyir, ay Kasparyan, yoxumdu da, hardan alıf verim? Nəsə, buna Seyid Bayram ağa qarğışdıyır. Sorçaynan Daşkəndin arası Daşbulaxnan bura qədərdi, ay İsmayıl. Elə bil, bax, bu çökəkdə boran ermәniyi tutur. Bax, inandırıram səni, ay İlkin məllim, o deyir, ya Seyid Bayramın ocağı, qələt eləmişəm, məni bu dardan qutar, gedif səni ziyarət eliyəjəm. Bir də deyir baxdım – şəxsən dilinnən çıxan kəlmeyi deyirəm sana, – bir boz atdı gəldi. – Ayə, nədi, a Kasparyan? Deyir, ayə, məni boran öldürür. – Ayə, bir dala bax. Dala baxdım, ay qardaş, deyir, nə bir ağsakqal var, nə də boran var. Deyir, qayıtdım gəldim ayağınnan öpdüm ki, Seyid Bayram, sana qurban olum, mən qələt eləmişəm, məni bağışda. Bax, belə möcüzələr var, ağrın alım (S. 3).

[58] Vergi yığan olub, sonra rayonda uzun müddət ikinci katib işləyib.

## 102.

Seyid Bayram ağaya seyidlik veriləndə, deməli, gecə yuxusunda görüf ki, bir maral gəlir, yanında da balası. Deməli, maralın balası olurmuş, durmurmuş, ölürmüş. Bu maral Seyid Bayram ağanın ocağına balasın nəzir deyif. Deyif ki, o qalsın, bunu Seyid Bayram ağanın ocağına aparacam, ocaxda kəssinnər. Deməli, sabah tezdən qalxanda Seyid Bayram ağa camahata deyif ki, itdərinizi bağlıyın, bu gün bir maral gələcəh gündoğan tərəfdən. Deyillər ki, ayə, kişi yuxu görüf. Bunun seyitdiyi, bax, onnan məlum oluf. Tezdən saat on iki ərəfəsində baxıflar dağdan bir maral gəlir, yanında da balası. Gəlir kişinin düz qapısına, dizi üsdə əyilir, kişini ziyarət eliyir. Özü qapıdan keçəmmir, balasını buynuzunnan içəri itəliyir. Kişi baxıf deyir ki, Allahın heyvanı, mən də bunu sana verirəm, apar bu balanı, əmmə sənin südünü sağıram. Orda bir hekəl var idi, kişi heykəli, oranı biz özümüz çox ziyarət etmişik. Heykələ töküb o südü. O kişiyə seyitdik verilənnən o süd dümağ heykəlin dal tərəfindəcə durur. Nə onu yağış yumur, nə heş nə yumur.

Bir dəfə onun arvadı Pəri nənə çörək bişirirdi. Çörəyi bişirən vaxdı mən özüm orda olmuşam. Biz də cavan idik, qurban aparmışdıx. Deməli, təndirin qırağına getdik, orda da bizdə kərməynən qalanır təndir. Bir gəlin də gəldi, ona kömək eylədi. Nəsə, çörək bişif qutarannan sonra çıxdıx, indi apardığmızdan yeməyə camahata çörək verdilər. Qalxıf gəlmək isdiyəndə o gəlin əlini atıf ki, harasına qoyufmuşsa bunun nəzirini verə. Dedi, ay nənə, pul yoxdu. Təndirə düşdü yandı yəqin o nəzir. Dedi, ay bala, bu ocağa nəzir deyif-sənsə, o pul yanmaz. Allaha and oslun, mən özüm bu gözdərimin şahidi oldum, oğul. Getdik ki, dəsmaldaca, bax,

közün böyründə necə düşüf, eləcə də qalıf, bir damcı dəsmal saralmıyıf. Bax, o pulu götürdü gətdi, arvada verdi (S. 19).

**103.**

Yetmiş beşdə texnikomu qızıl medalnan qutardım. Qızıl medalnan qutardığıma dədəm-anam bir dənə erkək qurban deyiflər Seyid Bayramın ocağına. Mart ayıdı, qar burdan (dizini göstərir – tərt.). Rəhmətdik Səlim dedi ki, dədən dedi, olmaz ey, gərək sabah qurbanı aparax. Səlim rəhmətdik gəldi Belarusnan, lapet də arxasında. Erkəyi qoydux, anamgil əyirdək-qatdama, fəsəli bişirif, hazır qoyuf. Bunnan götdük, beş-on adam da otdu lapetə, getdik Daşkəndə. Allah Seyid Bayrama rəhmət eləsin. Belarus nə qədər getdi, gedəmmədi. Orda düşdük, heyvanı da düşürdük. Heyvanı gərək bir adam apara. Rəhmətdik Larış da burdadı. Heyvanı aşdı buraxdı. Dedi, bu qəbul olajaxsa, özü gedəjəh, qəbul olmuyajaxsa, getmiyəjəh. Mən gedirəm, heyvan da mənnən barabar gəlir dalımcax. Qar da burdan. Çatdıx – Seyid Bayramın ojağına qurban olum, – qəbirinin üsdünə. Anam daldan çığırır ki, əyə, kümbəzi dolan. Kümbəzi üş dəfə dolandım, heyvan da mənnən barabar özü dolanır ha. Mən burda dayanan kimi heyvanın da dayandığınnan yönü qıvlaya yerə yıxıldığı bir oldu. Rəhmətdik Larış gəldi, indi gülməsin, güldü. Dedi, Allah bunu qəbul eliyif da. Elə deyif başın kəsdi bıçaxnan (S. 7).

## 104-114. ZİMMİ SEYİDLƏRİ

Bizim ocax Kəlba Həsənalı ocağıdı. Babamın oğlu Hüseyn, Məşədi Vəli, sonra mənim babam. Mən bura qədər

bilirəm. Mən düşündüyümü, öz fikrimi deyirəm. Bular elm adamı oluflar. Gənə kəramətlidirlər, şükür Allahın verdiyinə. Həsənalı babadan qabax Şıxalı oluf. Beş oğlu oluf – Kəlba Həsənalı, Niftalı, Həsən. Həsənalı babanın oğlu Həsən oluf, Nağının da qızı oluf, ikisini evləndiriflər, ondan Vəli babam dünyaya gəlif. Sonra Hüseyn baba, Hüseyn babadan Məhərrəm baba. Bir söhbət də var ki, bellərinə yaşıl şal bağlandığına görə Şaloğlu[59] kimi tanınıb. Ordan bizim dədə-babamız 48-də gəliblər. Allah cəmi ölənlərimizə rəhmət eləsin, atam, əmilərim subay oğlan olub, gəlib burda hamısı aylə qurublar, ondan sonra evlatları dünyaya gəlib. Buranı (Şəmkir rayonu Çinarlı qəsəbəsi – tərt.) biz seçməmişik. Ana tərəfimi aparıblar Salyana, orda qalmayıflar, ordan Göyçaya köçüblər. Orda camaat yaşıya bilmiyib, sərindən, gözəlliklərdən gəlib arana düşüb, isti-filan, ana babam yer axtarıb. Birinci gəlib Koltəhnəliyə, orda onun bir dostu olub, Allah yaxşıların dadına çatsın. Gəncənin Bağmannar qəsəbəsində onlara torpaq veriblər, bütün evlatları – qızı, oğlu, hamısı orda bir küçədədi. Bu saat da orda yaşıyırlar. Amma atamgil gəlib tökülüblər stansiyaya, stansiyadan da buları gətiriblər bura o vaxd Leninkənd idi, indi Çinarlı qəsəbəsidi. Burda nemes məhlələri varıydı, gətirib orda yerrəşdiriblər.

Biz yeddi uşağıydıx. Yeddi uşax, bir ana, bir ata bir otaxda. Kasıbçılıq oluf, iş yox, güc yox. Bizim də sınanmış babalarımız olub. Hüseyn babam – ata babam oğluna deyib ki, bu camaata demiyin biz seyidik. Deyərsiniz seyidik, deyərlər qaçqındılar, ac-susuzdular, nəsə versinlər deyə

[59] *Söyləyicinin əlavəsi:* Şalı baba həmişə qurşaqlı gəzərdi, yaşıl qurşaqda, ona görə Şalı baba deyiblər. Onun əsl adı Kəlbə Həsanalıdır. Belinə yaşıl şal bağladığına görə ona Şalı baba deyirdilər.

bunu deyirik, amma bizim ocağımız özü-özündən açılacax. İki dənə süfrə salırdı. Deyirdi, biri bizim, biri də elimizin. Elimiz bizə özümüzdən yaxşı olacax. Ölümündən üş gün qabax vəsiyyət eliyib oğluna ki, qan pulu alma, – bu bilmir nə olacax, nətər olacax, sadəcə vəsiyyət eliyir, – bir də bunnan sonra hər il İsmayıl qurbanı kəsərsən. Bu da deyir, ay dədə, mənim varım yox, pulum yox, nəyim var ki, mən qurban alıb kəsəm.

Nə isə, üş gün sonra babam aşağıda bağda qaroul dururdu, orda bunu hərbi maşın vurdu. Onu görənlər deyirdilər ki, heç bir yeri belə cızılmamışdı kişinin, elə mahna olub da. Bu da hərbi maşın olub, hərbi maşında da əsgərlər üçün ərzaq aparırmışlar. İçində qənd olub, çay olub, filan olub. Deməli, kişinin cənazəsini qoyublar orda, bu hərbiçi çıxıb getmək isdiyib, maşın xoddanmıyıb. Allaha and olsun ey, olan söhbətdi bu. Neçə dəfə eliyiblər, maşın xoddanmıyıb, təzdən cənazəni götürüb qoyublar maşına, gətirib çıxardıblar qapıya. Ordan da deyiblər ki, bu filan-kəsdi, evləri filan yerdədi. Nəsə, gətdilər qapıya. Dedilər, belə-filan, nə hörmət eliyək? Deyiblər, heş nə lazım döyül. Çünki babam demişdi qan pulu almayın. Nə isə, babamızı aparıb özü harda vəsiyyət eləmişdi orda dəfn elədik. Mənim elədiyim söhbət bir biznən döyül da, bütün el bilir. Apardılar kişini dəfn elədilər. Kişini dəfn eliyəndən sonra Seyfəlidən bir nəfərnən – sonra biz kirvə oldux olarnan, – yaxşı münasibətimiz oldu. Dedilər ki, seyidin üsdündə hər gecə işıx yanır. Bax, burda Seyfəlidə Oruc deyilən sayılan-seçilən, varlı adam vardı. Onun da bir müşkülü oluf, sıxıntısı oluf. Deyif ki, müşkül bir işim var, işim düzəlsin, dualarım qəbul olsun, gedib o seyidin qəbrinin qırağında

hasar tikəcəm. Şükür Allaha, onun da niyyəti qəbul olub, gəlib orda hasar çəkir, yəni gecələr o işıq görsənməsin.

Bir günləri atam işə gedəndə, – Allah sənə rəhmət eləsin, a kişi – anamın adı Qəməriydi, üzr isdiyirəm. Deyib, ay Qəmər, bu gün məni axtaracaxlar, məni taparsan. Nə isə, hamı çıxır gedir işə. Özü də o qədər mehriban qardaş-dılar ki, həm də qapıbir qonşuydux Qurban ağaynan. Nəsildə nə qədər adam var idi anama ana deyirdi, papama papa deyirdi, Qurban əmimə də ağa deyirdi. Qonşuluxda Qərib var idi, ferma müdürüydü. Onun bir oğlu var idi, indi rəhmətə gedib, Allah rəhmət eləsin. Nəsə, bunun vəziyyəti pis olur. O vaxt burda balinsanın baş həkimi varıydı, Hacıyev İsmayıl. Onu, digər həkimləri yığıb aparıllar ora. Hamı baxıb deyir ki, qurtarıb bu uşax. Rəhmətdik kişi girir içəri, deyir ki, ay İsmayıl, bir mən də baxım. Deyib, ölüb, ay seyid, ora getməyin nə mənası var? Deyib, nolar ki, bir mən də baxım da uşağa. Girib içəri. İçəri girəndə uşaxdı da qoyublar ora, dünyasın dəyişmiş bir uşaxdı. Kişi uşağı alıb qucağına bir az hərriyib, bunun kürəyinə vurub, qarnına vurub, orasına-burasına, uşaq çığırıb qalxıb. Onnan sonra bildilər ki, biz seyidik. O vaxta qədər bilmirdilər. Açıldı, ondan sonra da bilmirəm ya evlənənə qədər, ya məktəbə gedənə qədər, yalan deyərəm günah qazanaram, o uşağın saçı uzun oldu. Uşağın saçın qırxmadılar, niyyət eliyib saxladılar. Elə bil qız uşağı idi. Sonra onlar qapımıza bir qurban gətdi, qapımızda da bu yoğunnuxda nemesdən qalma bir incir ağacı var idi, böyründə də krantı. Kişi gələndə deyib ki, bu nədi? Deyib, filankəslər gətdi da. Olar camış saxlıyırdı, biz olardan həmişə qatığ alırdıx. Dedi, olar gətirif? Dedi, hə. Dedi, gəl düş böyrümə. Heyvanın da

başına bir ip salır, düz aparır qapılarına həmən qurbanı. – Ay seyid, mən bunu sənə gətirmişəm. Deyib, eybi yoxdu, gənə mənimdi da, nə dəxli var ki. Yıxırlar, orda kəsillər. Allah qəbul eləsin cəmi qurbanları. Kəsillər, orda camaata pay qoyullar. Kişi ordan gələnnən sonra deyir, ay Qəmər, olardan ta qatıx alma. – Niyə? Deyir, ordan qatığ alarsan pul almıyacax, o da bizə xoş döyül. Onnan sonra ordan qatığ almadı (S. 47).

**105.**

Deməli, ana tərəfim Gölaysor kəndinnən olub, elə kəndin yarısından çoxu asorlar olub. Amma Körpükəntdə əsasən Azərbaycan ailələri olubdu. Atamgil də Körpükəntdə olub. Olara Milli camaatı deyərdilər. Orda iki dərə olub: biri Cığın dərəsi, biri də Milli dərə. Yəni bizimkilər Milli dərəsində olublar. Orda ocaxlarımız olub – Ərəb ocağı, Gül Dərviş ocağı, özümüzün Zimi ocağımız olub. Kənd deyəndə o vaxt kəntdə nə qədər adam vardı? İyirmi nəfər, otuz nəfər aylə olub, balaca-balaca kəntdər olub. Zimi ocağında bizim babalarımız yatıb. Zimi ocağında iki qəbr var; biri Həsən babanın qəbridi, biri Məşədi Vəlinin qəbridi. O vaxdı da Məşədə piyada, atnan, eşşəhnən gedirdilər. Kənddən, deyir, camaat yığışıb gedirmiş Məşədə. Ay camaat, gedənnər düzülsün, burdan sayırlar da Həsən, Hüseyn, Əli, Vəli. Vəli də gedir. Vəli Hüseyn babanın atasıdı.

Vəli baba bizim ata babamızdı. Hajı Nağı[60] baba bacısını verir bizim nəslə. Vəli babamgil beş qardaş olublar. Vəli babam çox belə nəzarəti güjdü, baxışı güjdü, hakkı

[60] Göyçənin Çamırlı kəndindəndir.

güjdü, o da Allahın qismətidi, elə-belə döyül ki. Ondan qabax dörd qardaş var, beşinci Vəli babamdı. Bir günnəri Hajı Nağı babam bizə gələndə – Vəli babamın anasının adı olub Nərgiz, – Nərgiz nənə deyib ki, ay hacı, bizim uşaxlarda bir şey görürsən? Sən haknan oturub-duran adamsan. Deyir ki, Vəlini bura çağır. Vəlini bura çağır deyəndə deyib, ay Vəli, dur, bura gəl. Deyib, baba, gələrəm, aşıxlarımı oğurruyarlar axı. Deyir, ay Vəli, bu günnən sonra deyəcəm ki, nə qədər qurbannar kəsilsə, o qurbannarın aşıxların saa versinlər. Aşıxları tulluyur, gəlir babasının yanına. Deyir, nədi, baba? Deyir, mən kiməm? Biz olsax, deyərik ki, babamsan da. Orda sözlərnən deyir, lazım döyül o sözdər. Şeirnən[61] deyir.

– *Deyin, diktafona düşsün, tarixdir.*

– Yox, onu deyəmmərəm, lazım döyül. Orda şeirnən deyir. Nağı babam əlinnən bunun kürəyinə belə-belə vurur, deyir get, aşığını oyna. Deyir, baba, ta mən bunnan sonra aşığ oynamıyacam.

Vəli babamın bir sandıxları olub, nəzir sandığı, o da Nərgiz nənənin üzünə açılırmış salavatnan. "Allahın məsəli, əla Məhəmməd və ali Məhəmməd" deyən kimi sandıx özözünə açılır. Nəzirlər varıymış orda, o nəzirləri götürür. Qəbul olannar var, qəbul olmuyannar var. Qəbul olannar ağappax, qəbul olmuyannar qapqara. Qəbul olan nəzirləri qoyurmuşlar qırağa, qəbul olmuyan nəzirləri aparıb tökürmüşdər. Hər nəzir qəbul olmur ki.

[61] Söyləyicinin dediyinə görə, babası Vəlinin dediyi şeir deyil, kəlam idi. Onu da açmaq lazım deyil.

Vəli babamı bir günnəri qardaşdarı yolluyur ki, get malın boyunduruğuna. Kalın başında oturur, o da daldan xışnan yeri əkir. Baxırlar ki, Vəli kənarda oturub, məsələn, Həsən də malın belində vurur. Ə, Həsən, bunu Vəli sürməlidi, sən neynirsən? Deyir, Vəli maa bir abbası verdi, mən də onun əvəzinə işlədim. Deyirlər, həə, Vəli evdən oğurruğ eliyir. Onnan sonra gəlirlər Vəli babamı çağırıllar. Deyillər, sən sandıxdan oğurruğ eliyirsən? Deyir, yox, o sandıx mənimdi. Deyir, nətər sənindi? Üstündə açar yox, bir şey yox. Salavatnan açılır, o da Nərgiz nənənin üzünə. Deyir, o sandıx daha mənimdi. O sandığın içində bir belə qəbul olmuş pul var, bir belə də qəbul olmamış pul var. Açırlar ki, on dənə deyib on dənədi, beş dənə deyib beş dənədi. Aparıb qalanını da töküblər ayna.

Onnan qabax Vəli babama urza veriblər. Nətər veriblər? Çıxıb bir dağın başına. Görür ki, iki dənə canavar uluyur üzü Allaha. Bu da girib o canavarların arasına, bu da başdıyıb ulamağa, canavar kimi uluyub da. Haxdan üç dənə çörək gəlib; biri bir canavara, biri Vəli babama, o biri də bir canavara. Ondan sonra Vəli babamın ağzınnan çıxan söz bitirdi, ağzınnan çıxan söz gerçək olurdu.

O vaxdı əyaxqabı-zad yoxuydu, malın gönünnən belə kəsirdilər uşaxlara əyaxqabı tikirdilər. Bu Vəli babamın da əyaxqabısı olmuyub. Bir öküz karvanı gedirmiş. İndi kimsə bəy adamdı, dağa gedir, dağdan gəlir. Deyib, mənə bir dəri verin, özümə əyaxqabı tikim. Bu da hay-haray eliyir. Bunun da kəllərinin içində üş buynuz kəl var imiş. Vermə-yəndə Vəli babam deyif, ay qaqa, bu üş buynuzdu kəlin əngəli var, əngəli. Əngəllidi bu kəl. Heç iyirmi metr, otuz metr getməmiş kəl yıxılır, kəsillər, nağayrıllar. Ordan Vəli

babama o göndən gətirillər ki, ay bala, bu gön sənindi, sən istədin, biz vermədik. Üş buynuzdu cöngəmizin əngəli vardı, əngəli çıxdı. Ala, bu da sənin çarığ əyaxqabın (S. 47).

**106.**

Babamın möcüzələrindən danışıram. İmkanı olan adamlar, üzr isdiyirəm, eşşəyi olan, atı olan, xurcununda unu olan adamlar o vaxt Həccə, Məşədə gedirdilər. Buların da kəndinnən Məşədə gediflər eşşəhnən, atnan. Altı ay, bir il, Allahın qismətiynən gələn də olur, gəlmiyən də olur. Çox yerrərdə eşitmişəm ki, filankəsin babası getdi belə gördü, bəlkə də Allahın qismətidi, bir buna aid döyül. Babamgilin kəndinnən yığışıllar gedillər Məşədə. Məşətdə ziyarət eliyəndə baxıllar ki, Vəli burdadı, buları qarşılamağa çıxıb. Hamı ziyarət eliyir, filan-behman. Deyir, ay Vəli, sən getmirsən? Deyir, yox, siz gedin, mən hələ burdayam. Çıxıb gedillər. Kəndə gələndə görüllər ki, Vəli kəntdədi, onları qarşılamağa çıxıb. Orda çovuş deyir ki, əsil məşədi budu. Deyillər, o, bu kəntdə idi axı. Deyir, yox, siz elə bilirsiz. O bizi orda qəbul elədi, ordan yola saldı. Gəldik, burda da bizim qabağımıza çıxdı. Ondan sonra babama Məşədi Vəli dedilər.

Onnan sonra rəhmətdih Vəli babam yaşadı, yaşadı. Bular da yaşadıxca mal əldə eliyiblər, qoyun əldə eliyiblər. Qardaşların çağırıb deyib ki, erməni hamınızı qıracax, çıxın gedin burdan. Mal da isdəmiyin, qoyun da isdəmiyin, qaçın da. Ermənilər buların hamısın qırdı. İndi bilmirəm, yalannan da deyə bilmərəm. Böyühlər də danışanda deyiflər ki, Vəli babamın qəbir yeri yoxdu. Biri deyir qeybə çəkildi, biri deyir hara getdi. Sonra bizimkilər də köç elədilər.

Zimi kəndində qoşa qəbr var, biri Hajı Nağı babanındı, biri də Həsən babanın. Orda Gül Dərviş ocağı var, Əbdüləsər ocağı var, Ərəb ocağı var. Allah ölənnərə rəhmət eləsin, nənəm ağır ayağ olubdu, Əbdüləsər ocağına ziyarətə gediflər. Orda uşax gətirib dünyaya. Balaca dayımda Əbdüləsər ocağının nişangahı vardı, dəridə izi vardı, qazılmışdı elə bil. Dayımın savadı yoxuydu, amma haxdan danışırdı. Deyərdin, A yaz, yazammazdı. O ki ürəkdən gəlirdi o şeylər, bir adam lazımıydı ki, onun dediklərini yaza. Sonra onu apardılar mındarradılar, elə onnan da o həvəs itdi getdi. Allah pis adamlara lənət eləsin. Həyatda şeytan var, şeytan qəni pəhlivandı, Allah onu hamıdan uzaq eləsin, aralı saxlasın. Ona bizim gücümüz çatmır, Allahdan başqa. Allah onu islah eləsin (S. 47).

**107.**

Bizim atamız çox qeyzli kişi olub, onun qabağında bir-iki kəlməni deyəmməzdik. Özü də qapının ağzında durardıx, biz onun oturduğu məclisdə oturammazdıx. Başı insanlarnan dolu olurdu. Birdən belə eliyirdi, ay Hüseyn. Deyirdik, bəli. Get, filan şeyin dalınnan... Bax, biz beləydik. O kişindən bir kəlmə söz öyrənmək isdiyəndə bizə deyirdi mənə atam örgədib? Gedin örgənin də. Kişilər yığışırdı, dədəm də cavan idi, olara söhbət eliyirdi. Olar da aşiqdilər də. Mən də otururdum gizdində ki, ona qulağ asım. Onnan gizdənmək olar? Deyirdi, nağarırsan burda? Deyirdim heç, oturmuşam. – Bə saa iş tapşırmışdım, elədin? Deyirəm, eləmişəm. Eləmişəm yox ee, gedib baxırdı ki, görüm nətəri eləmişəm, səliqəlidi, səliqəsizdi. Ə, indi də get onu elə. Bir gün dedim, belə olmaz axı, qoy mən də qulağ asım.

Atamız olub Məhərrəm kişi, onun atasının adı Hüseyn kişi, onun da atası Vəli baba, Vəlidən sonra Həsən baba, Həsən babadan Kəlbə Həsənalı baba, onnan sonra keçib Şıxəli baba. Bir gün çağırıb məni oturtdu. Mamam da buna deyər ki, sən niyə qoymursan qulağ assın. Örgənər da, bilsə pis olar? Oturtdu məni yanında. Dedi, ağzının üsdünə bir yumrux vuraram, dişlərinin hamısı dolar qarnına. Sən isdiyirsən ki, mən danışam, sən də örgənəsən nəsə? Ondan saa xeyir olmaz, bərəkəti olmaz. Xeyir axdarırsan? Hakkın qapısı, bax, odur, get o qapını tap. Yaxşı olsan, o qapını açarlar, oğul, ordan payını verəllər sənin. Oğul, lap yaxşı olsan, səni salarlar içəri, o aləmi də görərsən. Get, mənim dediyimdən sənə bir şey olmaz, onun dalına düşmə. Dədəmi mən gördüm. Dədəm mənə örgətdi? Yox (S. 47).

**108.**

Eyif babam, anamın dədəsi qışın o qış vaxtı bir kəntdə qalır, Hüseyn baba gəlib çıxır ora. Görüşüllər orda. – Ay seyid, hara gedirsən? Deyir, evə gedirəm. Deyir ki, ə, innən sonra evə getmək olar? Gejə saat üşdü. Gör neçə kilometr yol gedəssən, qar da burdandı (dizini göstərir – tərt.). Qalax burda, səhər tezdən çıxarıx. Deyir ki, yox, mən qalammaram, yetimlərimin gözü yoldadı. Deyir, mən bir annıx duruxdum, sonra dedim, ayə, mən bunu hara buraxıram tək, qurd-quş bunu basar yeyər axı. Ayı var, canavar var, o var, bu var. Gəldim, deyir, torbam vardı, götürdüm, sağollaşdım. – Ə, bala, hara gedirsən? Deyir, Seyid Hüseyn gedir, onu tək qoyammaram. Allah rəhmət eləsin, öz dediyi sözlərdi ha deyirəm. Deyir, yola çıxdım, yola çıxanda mən bunu ayaxlıyammaram axı. Mən bunnan bir addım dala

qalıram ki, qoy qabaxda bu getsin. Deyir, dedi, Eyif kişi, niyə dala qalırsan? Dala qalma, dala qalarsan qurd-quş basar səni yeyər. Gəl düş qabağıma. Deyir, otuz kilometr yol gələcəydik, gəldik ki, çıralar yanır, çatdıx bizim kəndə. Burdan ayna gedəcək axı. Deyir, dedim ki, ay qurban olum, daa burdan belə qarannıx düşür axı, qarannıx basır. Deyir, sən narahat olma, gedəcəm mən. Gəldin çıxdın evinə, şükür Allaha. Amma bu məndə sırr qaldı da. Deyir dedim ki, gərək bunu mən örgənəm kişidən. Ordan çıxdıx saat üçdə, qışın gödək günüdü, çıralar təzə yanırdı ki, gəldik çatdıx bizim kəndə. Yəni beş saatdıx yolu bir saata gəliblər. Deyir, dedim, saa bir söz deyim, amma onu mənnən gizdətmə. Dedi, nə deyirsən? Dedim, belə-belə, bu qədər yolu necə oldu bir saata gəldik? Dedi ki, biz gələndə yolun damarını yığıllar, adım atannan sonra yolu buraxıllar[62]. Çox kəramətdəri oluf. Biz də xoşbəxtik ki, belə babaların balasıyıx (S. 47).

## 109.

Zəhra nənəmnən Hüseyn babam ər-arvad olublar, üç evladları olub. Hamısı balaca-balaca. Zəhra nənəm dünyadan köçüb. Deyiblər, ay seyid, evlən, körpə uşaxların var üç dənə. Bunu da bizə anam danışır. Atam bizə danışmadı, Allaha and oslun, bu çörək haqqı, heş nə danışmadı. Bir gün, deyir, yatır, yatanda yuxuda buna deyirlər filan yerdə bir gəlin var, səkgiz ildi dəlidi, bəy qızıdı özü də. Ərə gedib, sonra başına hava gəlib, uşaxlarını özü boğub öldürüb. Gör nətərdirsə, dirəkdə bağlı saxlıyıllar. Ged onu tap gətir, sənin

[62] *Oğlu əlavə edir:* Ona görə deyirdi ki, keş qabağıma. Dalda qalarsan qurd-quş səni yeyər. Bir də baxarsan mən getmişəm, sən qalmısan.

həyat yoldaşın o olacax. Kişi durub kəndbəkənd, kəndbəkənd, kəndbəkənd axtarır. İndi birindən eşidib filankəsdi. Gedib deyib, belə bir adam var. Deyiblər, sən neynirsən onu, ay seyid, səkgiz ildi dəlidi, küçələrdədi, çöllərdədi. Deyib, elə onu mən isdiyirəm. Nəysə, gedillər axtarıllar, tapıllar, düzüllər, qoşullar, mindirib atına, götürüb gəlir. Mamam and içir Allaha ki, özü də elə-belə demir ey, ağlıya-ağlıya deyir. Gəldi o da, dörd uşağı oldu burda; iki oğlu, iki qızı oldu. Adı Xanımıydı, burda qəbirsannıxdadı qəbri. Onun, bax, burdan beləsinnən başqa heş kim heş nə görmədi. Hər yeri bağlı idi, bircə gözü, burnu açığ idi. Hüseyn rəhmətə gedəndə bizim eldə-obada hamı deyir da əyax-qabısın cütdəmək lazımdı. Yəni kişidi, evləndirin, arvatdı ərə verin də. Günahdı, bunu belə şey eləmək olmaz. Deyir ağladı, dedi ki, mən öz Hüseynimi isdiyirəm. Altı ay ağladı, altı aydan sonra dünyasın dəyişdi (S. 47).

**110.**

Atam dünyadan köçəndə gecə qalxır. Deyir, Qəmər, mən bu gecə köçəcəydim, maa bir gecə möhlət verdilər. Səhər bura bir xəstə uşax gələcək, onun şəfası mənim əlimnəndi, Allah belə buyurub. O uşax yaxşı olub gedəcək, o biri gecə mən dünyadan köçəcəm. Səhər uşağı gətdilər, xəstə uşağdı. Apar deyib, mən ölərəm o ölməz, qurtardı sənin uşağın. Uşağı götürüb gedillər, indi axşam yatmax məqamı çatır. O vaxdı dəmir kıravatda yatırdıx da, dədəm uqolnikin üsdündə yatırdı. Qolun burdan keçirdirdi, yatmırdı ki. Ordaca da dururdu ey, and olsun Allaha. Hak adamı yatmaz. Anam elə bilib ki, yatıb. Durub yavaş-yavaş kıravatı divardan aralıyır. Belə çəkir, çəkir, gözünü açır

deyir ki, Qəmər, neynirsən? Deyir, ay Məhərrəm, mən sənin yetimlərini saxlıyammaram. Seyid Hüseyn gətirdi öz yetimlərini saxladı, mən yetim saxlamağa gəlməmişəm ki. Saxladım, kişi oldular, ev oldular, aylə oldular, sənin də yetimlərini saxlıyammaram. Sənin başına dolanınca məni aparsınlar, sən qal yetimlərin üsdə. Deyir, hərənin öz hesabatı var, çək kıravatı yerinə, çək. Hirsdənir. Yavaşca kıravatı çəkir yerinə, o gecə dədəm dünyasın saat üşdə dəyişdi. Onun ölümünə də mat qalıllar ey. Mamam əl çəkmir. Bir dayım var, Qulu kişi. Allah rəhmət eləsin, hörmətli, izzətli, vəzifəli bir adam idi. Anam deyir, ay Qulu, gəl bunu həkimə aparax. Aparıllar həkimə. Palatada da xəstələr olub, bularnan danışıb, söhbət eliyib, deyib, gülüb. Deyir, ölürəm axı. Başın qoyub onun sinəsinə, onnan da gedir (S. 47).

**111.**

Dədəm təzə rəhmətə gedib, Allah rəhmət eləsin, yolun qırağında dayanırlar. Maşından düşdüm, gördüm ağam yolun qırağındadı, çox pəjmürəddi. Dedim, ağa, niyə belə pəjmürdəsən. Dedi, ay dədə, ölürəm ta. Mənə dədə deyirdi, Allah ona rəhmət eləsin. Mənim də adımı o qoymuşdu. Dedi, Allah ağlımızı əlimizdən aldı, heç başa düşmədik, Məhərrəmi buraxdıx getdik. Gərək özümüzə divan eliyərdik, öldürəydik, Məhərrəm bizdən aralanmıyaydı, getmiyəydi. Dünyadan köçənnən sonra hamı bilir kim kimdi. İsmayıl qurbanı idi, gedirdik qurban kəsməyə dədənin qapısında. Gördüm ki, ağamgilin qapısı açıxdı. Dedim, a, xeyir olsun. Dedim, siz gedin, mən də gəlirəm. Getdim ki, ağam rəhmətə gedib İsmayıl qurbanı günü. İsmayıl qurbanı günü dünyaya gəlmişdi, adını Qurban qoymuşdular, İsmayıl

qurbanı günü də rəhmətə getdi. O qurbanı da gətirdik bu qapıda[63] kəsdik, orda kəsmədik. Dədəm də Məhərrəm ayında dünyaya gəlmişdi, adını Məhərrəm qoymuşdular, Məhərrəm ayında da köşdü getdi. O üçüncü qardaş Novruz əmim bayramda anadan olmuşdu, bayramda da köşdü getdi. Bir-birinin ilinə qalmadılar. Onun ili verilməmiş o biri rəhmətə getdi. Allah rəhmət eləsin.

*Qardaşının əlavəsi:* Mamam atamın öləcəyini yuxuda görüb. Deyir, beş-altı nəfər bir tabutu götdülər, gətdilər. Aşdılar Qurbangilin qapısını. Dedilər, yox, bura döyül. O biri qapıya keçiflər, Novruz əmimgilə. Gediflər oranın qapısını açıflar. Deyiflər, yox, bura da döyül. Ordan da gətiriblər bizim qapıya. Qapını aşdılar, dedilər, hə, buradı, burdan köçəcək (S. 47).

## 112.

Seyfəlidə deyillər qoşaseyidlər[64] bizimdi, bizə vermillər seyidləri. Almәmməd babaynan Hüseyn babanın qəbri yanaşıdı, bu biri böyründə də böyük əmimdi, o biri kümbəzdə də atamdı. Ağam rəhmətə gedəndə bir sinif yoldaşım varıydı, Gülü. Mənnən beş yaş yekəydi, olar gej gəlmişdilər deyə təzdən birinci sinifdən oxumağa başdadı. O yekə qızıydı, biz balacaydıx da. Bir günnəri Gülü dedi ki, yuxuda ağanı gördüm. Mənə dedi ki, Hüseyn nə yaman can atır ki buranı düzəltdirə, belə şərafətdi eliyə. – Hər il gedirdim onların kümbəzinin divarını hörürdüm. Nəzir qoyurdular, uşaxlar da ordan-burdan hopbanıf nəzirləri götürürdü deyə divar uçurdu. Dedim, buranı düzəldəcəm, qoy

[63] Qardaşı Hüseynin qapısında

[64] Məzarları yanaşı olduğu üçün el arasında qoşaseyid kimi tanınırlar.

seçilməsin bir-birinnən. – Yuxuda gördüm mənə deyir ki, Hüseyn nə yaman can atır bizim üsdümüzü düzəldə. Bizim üsdümüzü Qurban gəlib düzəldəcək. Ağam gedənnən sonra bax bu kişi[65] getdi onu təmiz sökdü. Əmirqulu kişi varıydı rəhmətdik, getdim onu çağırdım, üsdünü də bacardığımızı düzəltdik, sonra Telman əmi gəlib dalını düzəltdi. Məqbərəni mən tikdirmişəm, yəni tapşırdılar gedib eləmişəm ha, özbaşıma qələt eliyərəm ora əlimi vuraram. Atam dünyadan köçəndə dedi ki, Qəmər, – yoldaşına danışır, – bu gecə məni qatarnan apardılar, dedilər, ay Məhərrəm, bax, bura sənin evindi. Bu sənin stolundu, bu sənin çırandı. Ala açarı, gələndə eşikdə qalma, gir içəri. Sonra kişi rəhmətə gedəndə noyabr ayı idi, hər yer qar. Dedi ki, maa dəmdəsgah lazım döyül, əmioğlu, bir dənə belə başdaşı.

Nəysə, bir xalam oğlu vardı, polisdə işdiyirdi, onunnan getdik kəvəh daşı aldıx. Gətdik onu hördük, indi kişi kümbəz deyib. Ay Allah, bu kümbəzi kimə tikdirək. Xalamın əri var Hüseyn, Xanlarda olur, getdim bunlara. Dedi ki, Vəli, qurban olum ocağınıza, mən ta qocalmışam, halım yoxdu. Xanlarda, indi Göygöl rayonudu da, filan qəbirsannıxda on üç min kərpişdən belə bir şey tikmişəm, on beş min kərpişdən belə bir məqbərə tikmişəm, bəs bunu nətəri eliyək, nağayrax. Burda Mamed adında bir kişi var idi. Gəldim bu Mamedə dedim. Dedi ki, ay Vəli, onun üstünə bir karkas yığax dəmirdən, o karkası mən düzəldim, sonra usta gələr yığar da. Hüseyn kişi dediyim Göygöldən olan, karkası gətirdi düzəltdi. Dedi, orda bir usta var Əli adında. Gedək o Əlinin yanına. İkimiz də getdik (söyləyici kövrəlir

[65] Qardaşı Hüseyni nəzərdə tutur

– tərt.). Getdim Əlini tapdım. Nəysə, buna işdən icazə aldıx, çox çətinniknən icazə aldıq gətirdik bura. Səkgiz yüz manata danışdıx kümbəzi. Gətdik kərpicini, sementini o hördü, bu (qardaşı Hüseynı nəzərdə tutur – tərt.) fəhləlik elədi. Demək, axşamnarı gəlirdi evə suyun, palçığın içində. Hər gün o kişinin ayağı yuyuldu, paltarı yuyuldu, təmizdəndi. Nəysə, vaxt o vaxt oldu ki, iş qurtardı. Gəldik indi bununnan hesablaşırıx da. Nə qədər eliyirəm, pul isdəmir, elə ağlıyır, elə ağlıyır ki o yaşdı kişi, adamın ürəyi parça-parça olur. Deyirəm, ay kişi, sən bizi pis vəziyyətdə qoyma. Dedi ki, mən o kişini orda gördüm. Qurban olum, mən ondan bir qəpik almaram. Sumkasın düzəltdik, şey-şüy qoydux, pulun da qoydux içinə, ağzın da bağladıx sürdük apardıx. Nə görübsə, açıb ağartmadı (S. 47).

**113.**

Seyfəlidən gəlib ziyarət eliyillər da. Bir gün də buların evinə qonax gəlir arvad. Durur hazırraşanda deyir, hara gedirsən? Deyir, ocağa gedirəm ziyarətə. Deyir, məni də apar. Deyir, gəl gedək, nolar. Onu da götürüb gəlillər. Arvad girir içəri, bu gələn qonax girəmmir. İlan gəlib durur qapıda, onu içəri buraxmır. – Aaz, bu məni içəri buraxmır. Deyir, salamat döyülsən də, səni buraxmır. Hər il gəlib buranı ziyarət eliyirik, bizim qabağımıza belə bir şey çıxmır. Sən nətəri adamsan ki, sənin kəsdi qabağını. Belə də olub (S. 47).

**114.**

Birinci Allaha inan, hər şey Allahın əlindədi. Çox adamlar ayrı şeylər danışır. Zaman dəyişsə də, insanlar

filan olsa da, behman olsa da, yadınızda saxlıyın ki, min il bundan qabax da Allah həmin allahıydı, min il bundan sonra da həmin allahdı. Sən o Allahın ətəyindən yapış, heç hara getmə, heç kimnən işin olmasın. Nə deyir saa? Ağıllı ol, səbirli ol, hər kəlməyə, hər sözə o saat reaksiya vermə. Allah nə buyurar odu, kim nə deyir desin. Allahın kəraməti var, insanlara hörməti var. Çünki bizi kim yaradıb? Allah yaradıb. Nədən yaradıb? Bir belə sudan, bir belə nə bilim nə. Qadınlarınıza həmişə hörmət eliyin. Qadınlar bir sizə qadınnığ eləmir e, uşax gətirir, doqquz ay onu qarnında saxlıyır. Sən o çəkini kürəyində doqquz ay hərrə görüm, bacarırsan? Atam bizə belə məsləhətlər verirdi. Bizdə yalan danışmaq olmaz. Yalan danışan insanın gələcəyi olmaz. Havaxtsa üzün qızaracax, havaxtsa sözün yerə düşəcək, çünki yalan deyibsən axı. Yalan nəyə lazımdı. Atamın belə bir söhbəti vardı. Deyirdi, oğul, buyün bir yalan danışacaxsan, ondan ötəri səni qucaqlıyacaxlarsa, və yaxud da onu düz deyəcəksənsə, səni burda döyəcəklərsə, sən düzü qoyub yalanı danışma. Səni öldürsələr də, düzü qoyub yalanın dalınca getmə. Yalan pis şeydi. Yalan heş kimə lazım döyül, nə elə lazımdı, nə obaya lazımdı.

Heç kimin urzasında gözün olmasın. Allah sənə halal nə ruzu qismət eliyərsə, get onun dalınca. Haramın dalınca getmə. İsdiyirsən dağa get, isdiyirsən dərəyə get, Allahı an get, bir dağın başında qoy dizdərini yerə, Allahdan imdad dilə. Gedərsən ora, qayıdıf gələrəsən, baxarsan ki, arzun uje evdədi.

Allah sevgisi içəridə olar. Hamı Allahı sevən olsun, Allahdan imdad diləyən olsun. Heş kim heş kimin ruzusuna, həyatına çirkli şeylər qarışdırmasın. Allahı sevmə-

yənin ürəyində heç nəyə məhəbbəti olmaz. Kim deyir ey, oğlumu belə sevirəm. Əgər Allah sevgisi yoxdursa, heç oğul sevgisi də yoxdu, ata-ana sevgisi də yoxdu. Bütün sevgilərin başında Allah sevgisi durur. Allahı sevirsənsə, o biri sevgilər hamısı onun ətrafındadı. Peyğəmbərin qızı Fatimeyi-Zəhranın sözləri var. Allahı mən sevmirəmsə, deməli, heş kimi sevmirəm. Nə Əlini sevirəm, nə uşağımı sevirəm, nə elimi sevirəm, nə obamı sevirəm. Allah sevgisi burda (əlini ürəyinin üstünə qoyur – tərt.) olmalıdı hər bir insanda. Sevmirsənsə, demə mən müsəlmanam. Allahdan dərdi isdəmə, dərdinə aman isdəmə. Denən mənim sənin kimi Allahım var. Sən mənim gözəl allahımsan, hər şeyi sən bilirsən. Sən mənə özümdən yaxınsan, sən bilirsən nə var, nə yox. Mənim dualarımı qəbul elə. Dua da eliyəndə təkcə özünə eləmə, elinə də elə, obana da elə.

Mənə deyillər sənnən sonra bizim ocağın başında kim duracax? Mən heş kimə deməmişəm buranın böyüyü sən olacaxsan. Böyük döyül ey, camaatın xidmətçisiyik biz. Deyirəm, Allah kimə versə, onundu. Hansı biriniz bu böyüklüyü mənə verib, hansınız seçki apardı ki, bu ocağın böyüyü Vəli olsun? Bu (qardaşı – tərt.) dedi, yuxuda belə gördüm. Mənim bir əmim var idi, adı Həmzə idi, Allah yerini behişdik eləsin. Papam rəhmətə gedəndə qapının ağzında ağladı. Dedi, bə biz başsız qalacağıx. Dedim, niyə başsız qalırsız? Seyid Hüseyn hanı? Bu gün də Seyid Məhərrəm getdi. Onnan qabax Vəli baba var idi, Hajı Nağı babam var idi. Bu elə-belə döyül ki? Bu surfanın yiyəsi var. Birimizi seçəcək da.

Hər şeyin əvvəli kimi, hər şeyin axırı da var. Kaş ki olmuyaydı (ocağa böyüklük etməyin ona tapşırılmasını deyir – tərt.). Elə çətindir ki, hamıya nökər olursan.

*Qardaşının əlavəsi:* Atamın qırxı günü hamını yığdım başıma, dedim bunu bizə böyük seşdilər. Yuxuda göstərdilər mənə. Atam papağını gətdi qoydu bunun başına. Dedim, bunu bizə böyük seşdilər. O bir aləmdi gəlir, sən də görürsən (S. 47).

## 115-128. SEYİD ƏLİ (QIZILVƏNG)

Biz seyidlər nəslindənik. 1870-ci ildə babamı burya göndəriflər. Gəlib Qızılvəngdə məskunnaşıf dini yaymax üçün. Yaşlı kişi olufdu, burda da bir arvad alıf, onnan da bir oğlu olufdu. İranın Təbrizkənan mahalında Seyidlər kəndində böyük nəslimiz olubdu. İrandan gələn babam Seyid Əli oluf. Onun da oğlu Miri olufdu. O vaxt zəvvarrarı o aparırmış ziyarətə. Qara Seyid ləqəbinən o aparıb gətirirmiş. İranda olan oğlunun adını mənim atama qoyufdu, Mirhüseyn. O, güjlü ərəbxan olub. Burda Göyçədə zəvvarları o aparırmış. Deyir, gedirdik Ərəbistan çöllərində, deyirdi burda ehtiyatlı olun. Deyir, bir də baxırdın ki, – xörəx bişirillər dana, o vaxdı da maşın yox, biş şey yox, piyada ateşşəhnən, – bir də baxırdın ərəblər qumun altınnan çıxdığınnan qazanı götdü qaçdı. Elə çətinliklər olub orda. O bilirmiş, ona görə o aparırmış.

Qara Seyidin çoxdu kəramətdəri. Yaz vaxtı gedir çölə, səpin səpirlər. Bu da gedəndə – bir çanax altı yüz qram tuturmuş da, – buna taxıl verillərmiş. Gedir deyir, bərəkətli olsun. Kişi deyir ki, sağ ol, ay dayı. Deyir, ay bala, əkdiyin nədir? Deyir ki, zəyrək. Zəyrəyi də heş kim əkmirdi da. Deyir, Allah zəyrəyinə min bərəkət versin. Payızda yığım vaxtı gələndə kişinin əkin sahəsi başdan-ayağa zəyrək olur (S. 11).

**116.**

Məclisdə danışıllar. Deyir, seyid durdu əlini bax belə uzatdı, uzadanda əlinnən qan çıxdı. Hamı baxdı ki, burda heç kim yox, bu nədi?! Dedilər, ay seyid, nolufdu? Deyir ki, ay bala, qonşu kəndin adamları filan yerdən gəlirdi, qar uçqunu basdı, qabaxlarında mal gətirirdilər. Məni çağırdılar, onu saxladım, bax, əlimə bu şey dəydi, qan çıxdı. Bular da deyir, kişinin yalanına bax, belə də şeymi olar?! Məclis dağılır. Sabah bir də baxırlar ki, həmin adamlar gəldi, qabaxlarındakı inəyi də buna nəzir gətirillər. Gəldilər. – Nədi, nolufdu? Deyillər, bax belə-belə şey oldu, Seyid Əli bizi uçqunnan çıxartdı. Deyir, ay kişi, Seyid Əli axşam burda danışırdı, biznən söhbət eliyirdi məclisdə, nə danışırsan? Deyir, yox. Onda deyirlər ki, hə, doğrudan da, bu kişinin möcüzələri var imiş (S. 11).

**117.**

Bir səfəm də – arvad tərəf qohumları olur, Zurnaçı Məhərrəm deyillər, – durur kişinin əmmaməsini başınnan çıxardır, öz başına qoyur. Kişinin ağzı orda əyilir, eləcə ağzıəyri olur. Elə şeyləri seyidin çox oluf (S. 11).

**118.**

İmam Hüsöynün nəslinndən olan birinci babamızın adı Ələm olufdu. Ondan sonrakı şəcərə fars dilində olduğuna görə oxuya bilmirəm. Bizim şəcərədə 53 dənə möhür var. Onun üçü dini qurumlarındı, əllisi bizim babaların adıdı. Hamısı bir-bir seyidliyi kimə verirsə, onun adını orya yazır, peçat vurullar. Bizim şəcərədə elə var. Ziyarətgahı Qızılvəngdə idi, yaşadığı yerdə ocağı var idi. Ocaxda

balaca uşağ ayağı var idi, bir də daşın içində mıx var idi. Bax, onu ziyarət eliyirdilər. Bizim yurdumuzda qaçaqaçdan sonra bir erməni gedif ev tikmişdi. Bir gün baxır ki, oğlu yoxa çıxıb. Kişinin də ocağı burdan aralı idi. Gediblər ki, ocağın qırağında oğlu yatıfdı, gəlini evdə ölüfdü. Ümumiyyətnən, o yurtdan xeyir görmüllər. Kişiyə deyillər, kişi, bura ocaxdı, buranı mundarlama, çıx get. Axırda həmin o tikdiyi evi devlət götdü elədi sovetdik. Bütün evləri dağıtmışdılar, amma bizim mülk dururdu eləcə (S. 11).

**119.**

Mirsöyün[66] ağagil Qızılvəhdə yaşıyıflar. 1905-ci il, 1918-ci il hadisələri vaxdı müsəlman əhali Qızılvəhdən çıxıf, onnar çıxannan sora ermənilərı naxadı gətirif yerrəşdiriflər. Elə bil orya yerrəşdirəndə ermənilərnən əlaqəsi olannar gəlif xəbərdarrığ eliyif ki, bu ev Məhəmməd peyğəmbərin soyunnan gələn bir səcərənin evi olufdu. Bu evdən çıxın da. Siz burda donuz əti yeyəjəhsiz. Bunlar çıxmıyıf. Deməli, Göyçənin qış günü, bir metir qar yağıf, qapı açılmır. Erməninin gəlini dünyaya uşax gətirir. Deməli, səhər tezdən durullar ki, uşax yoxdu ananın yanında. Anası səs-küy salır. Kənd yığma kəntdi da, müsəlmannar köçüf gedif. – Ə, uşax hanı? Uşağı bir xeyli evdə gəzillər, körpə uşax gedəsi döyül ha. Səs-küy düşür, kəntdə tanıyan-bilən gəlif deyir ki, siz orya nahax girdiz. Ev də bir az yaxşı ev olur da, şərayitdi ev olur. Buxarılı dam idi. Orya-burya baxırlar, ağılları kəsən yerə, heş nə tapmırlar. Mal-heyvannarı böyrüşəndə məjburu gedillər ki, deməli,

[66] Seyid Əlinin oğlu

qundax deyirik da, uşağı qundaxdaca aparıflar. Uşax bələyə bükülü malın qavağındadı, mallar da baş-başa yığılıb elə bil nəfəslərinnən uşağı isidirlər. Uşax da oynuyur öz aləmində. Ermənin axçiki bunu burdan götürdüyünnən aradan çıxıf gedif, evdən də təmiz çıxıllar. Mənim atam deyirdi ki, biz gedirdik köhnə Qızılvəhdən nəsə söküf gətirəndə erməni deyirdi ki, birdən filan kalafadan nəsə gətirərsiz ha. Ora ocaxdı, ora toxunmayın (S. 23).

**120.**

Bax, Qara Seyid bizim kəntdən oluf. O vaxt deyirdilər, nə dərəcədə yalandı, gerçəhdi bilmirəm, Sətənəxaç Bayramın nəyisə olufdu. Onnar neçə qardaş olufdu. Göyçədən uşağı götürüllər, qaçanda burda Seyfəlidə qaynənəsi deyir, uşağ ağlıyıf eləmir. Bələyi açır ki, bələhdə bir ilan. İlanı öldürüllər. Onda bir-iki nəfər deyir, öldürmə da. Uşağı vurası olsa, vurardı da. Göyçədə elə evlər vardı, evdə ilan yaşıyırdı. Nə ilana ev yiyəsi dəymirdi, nə də o toxunmurdu. Məsələn, bizdə buxarılı dam varıydı, o damın başında patpat bitirdi. O ilan qurvağa-zad udanda, quş udanda gedif o patpata dolanırdı. Anam təndirdə çörəh bişirəndə buxarının bacası var idi, tüstü-müstü çəkiləndən sonra anam süd qoyurdu, yuxa doğruyurdu, ilan gəlirdi, südü, yeməyi yeyirdi, biz də belə baxırdıx da. İlanın çənə sümüyü yoxdu da, ağzı cırılana qədər yekəlirdi. Yuxaları-zadı uduf, çıxıf gedirdi. Deyirmiş ki, birdən gedif filan kalafadan nəsə gətirərsiz. Gətirdiyiniz ağaj gejəynən ilana dönər, sizi qırar. İndi yəqin orda qeyri-adi nəsə oluf, durduğu yerdə o şeyi deyə bilməzdi (S. 23).

## 121.

Bala Məzrədə dədəmin dayısıgil vardı, deputat Məlahət yoxdumu, oların böyük əl damları var idi. Kəndin ağsakqalları, qohum-əqraba yığılırmış kürsünün altına, işıxlaşana qədər orda söhbət eliyirdilər. Qannı, Kərkibaş kəndləri oluf. Qızılvəhdən Seyid Əli orda mərsiyə deyirmiş, nağıl deyirmiş, işıxlaşana yaxın boranda-qarda qayıdıf gedirlərmiş. Seyid nağıl deyirmiş, nağılın bir vaxdında beyqafıl kürsüdən çıxıf "ya ağamın cəddi, sən saxla", "ya ağamın cəddi, sən saxla" deyir. Kimin nə ixdiyarı var dillənə. Hannan-hana özünə gələndən sonra ağsakqallardan biri söylüyür ki, ay seyid, qadan alım, noldu? Deyir, filankəslərin uşağı arandan parça gətirillər. – Gədəbəydən ayana Göyçəyə kəsə yol var idi. – Tara[67] düşdülər, ağamı çağırdılar, ağam kömək elədi, heş zad olmadı. Hamı dağılır evinə-eşiyinə. Səhər tezdən durullar Şişqayaya doğru gəlillər. Baxıllar iki əmioğlu gülə-gülə gəlir. – Ə noldu? Deyillər ki, belə oldu. Qar-tar bizi götürdü, seyidin adın çağırdıx, salamat çıxdıx gəldik (S. 31).

## 122.

Göyçədə yaz gəlif, qar-boran imkan vermiyif. Camaatın samanı qutarıf, otu qurtarıf. – Ə, neyniyək? Ağsakqallar yığılıfdı. Gedək Seyid Əliyə yalvarax, xayiş eliyək, görək qəbul eliyirmi. Üş-dörd nəfər gedir Seyid Əlinin qapısına. Deyir, bilirəm niyə gəlifsiz. Məni məjbur eliyirsiniz helə şeyə, amma düzgün döylü. Mən Allahın işinə qarışıram. Amma gəlifsiniz, eliyəjəm. Deyif ki, gedin kəndin ayağında

[67] Tar – qar uçqunu

filankəsdən qoç gətirin, kəndin başında filankəsdən daneyi gətirin. Enin calaya. Cala da Qızılvəhdə çay görükmür, ot basıb, əyri-üyrü ilan kimi axır. Əynini soyunuf buzun arasına girif çimif, duasın edir. Bir də görüllər budaha tumanköynəhdə Seyid Əli gəlir. Gəlir, camaat salam verir. Heyvanı kəsib. Deyif, indi soyun, ətin də paylıyın, mən gedirəm evə, mənim də payımı evə gətirin. Çıxır gedir. Deyir, buğlanabuğlana girdi calada çimdi, onnan sonra da heyvanı kəsdi. Səhər gün düşür, dağların qarı əriyir, bular da heyvanın çölə çıxarır (S. 31).

**123.**

Deyirdim ki, ağa, sən allah, danış da. Ağa[68] Məkkəyə ziyarətə gedifmi? Deyirdi, hə, ağam gedif. Bir ilə gedirlərmiş, bir ilə də gəlirlərmiş. Dedim ki, nətəri? İndi o da mif söhbətinən deyif da. Ağa deyir, o vaxdı gedəndə İran tərəfdən gedirlərmiş. Gedəndə deyilənə görə yatır, karvannan qalır. Bir vaxd durur ki, bərk ajıxıfdı. Durur ku, bunun yanındakı çörəyi-zadı, hamısın götürüf gediflər. Baxır ki, böyürdə kənd var. Deyir, gedim görüm kəntdən bəlkə bir şey tapdım. Baxır ki, bir qapıdan tüstü çıxır. Gəlir ki, bir arvat eləjə daş qaynadır. Deyir, ay bajı, bunu neynirsən? Deyir, vallah, heş nə yoxdu, qaynadıram ki, uşaxlar savağı birtəri açsınnar, savax gedəm filankəsdən bir belə qatıx alam, bir də pencərdən-mencərdən pişirif qatığı tökəm üsdünə onnan birtəri qarnın doyuram. Əlini belə civinə atır, baxır ki, qızıl var. Deyir, yaxşı, bircə dəyqə gözdə. Deyir, burda çalvadar, çoban varmı? Deyir, elə bu qonşumuzun o

[68] Seyid Əlini nəzərdə tutur.

tərəfindəki ev çalvadarındı. Gəlir qapıya. – Ay filankəs, ay filankəs. Deyif, hə. Deyif, mən heyvan alajam. Deyif, nə heyvan isdiyirsən? Deyir, maa bir yaxşı, saz, kök heyvan ver. Çıxardır pulunu verir, gətirir heyvanı kəsir. Deyir, daşı tök, pişənə yaxın uşağı qaldır. İndi bilmirəm ağa orda çörəh yeyirmi, yoxsa yemiyif? Deyir, mən getdim, uşağı qaldır, çörəh yesin.

Gəlir yenə həmən karvan yoluna. Baxır ki, iki dənə bədəvi gedir. Biri uzaxdan bunu görəndə atını sürür düz bunun yanına. Deyir, ziyaratgaha gedirsən? Deyir, hə. Deyir, otur atın belinə. Qum boranı olajax, gözünü yum, mənim arxamdakı şalı da belə at başına. Ağanın danışdığına görə, bu, az gedir, çox gedir. Atdı deyir ki, indi atdan düş. Baxır ki, camaatın hamısı Məhəmməd peyğəmbər əleyhsalamın qəbrinin qırağındadı. Hə, gedir, nə qədər baxırsa, baxır bunun gəldiyi karvannan heş kim yoxdu. Orya gedənnər qabaxça baş axuntdarı, seyitdəri, mollaları ziyarət eliyif onnan sonra içəri keçir. Ağanın dediyinə görə, bunnar durur Seyid Əlini ziyarət edirlər, onu oturdullar başda. Karvan gəlif yetişənnən sonra deyif ki, buranın böyüyü kimdi gedəh onu ziyarət eliyəh. Gəlillər ki, ə, bu bunnarın karvanına qoşuluf gələndi. Deyif, bu nə qədər olar burdadı? Deyir, bu hardasa ay yarımdan, iki aydan artıxdı burdadı. Deyif, ayə, sən nə danışırsan? Biz onu orda yatılı qoydux, çörəyimiz də qıtıydı, bunun yanındakı çörəyi də götürdüh getdih. Və ağanın danışdığına görə, onun ac qarını doyuzdurmağı okqədər Allahtalanın xoşuna gedif ona hajılıx verif (S. 34).

## 124.

Ağa deyirdi bir canlı şeyin şahidi olmuşam. Bizdə Sarınər deyirdilər, Şişqayanın üsdündəydi. Onun yanında Çərçi qəvri deyirdilər, qəvrin yanına belə yol qalxır, o yolnan tüşürdün Çayqarışana sarı. Gejənin bir vaxdı, – ağa deyirdi, bunu mana anam danışıf – ağa qalxır ki, a bala, durun çay-çörəh, paltardan-zaddan nəyiniz varsa təndiri qalıyın, yığın təndirin qırağına, qoyun isti olsun, qapıya bu saat adam gələjəh. Deyir, gejə ikinin yarısıdı, üçün yarısıdı. Təndiri qalatdı, isti su qoydu, xörəh pişirtdi. Anam deyir ki, biz də qapıdan-bajadan baxırıx ki, görəh kimdi gələn. Səhər saat beşin yarısı idi, baxdıx ki, elə tüşdülər ki qapıya donmuş vəziyyətdə. Deyir, bunnarı apardılar tez təndir damına, qadınnarı bir tərəfə. Əynin-başın dəyişdirdilər, əyaxlarını suya qoydular, oan-buan, çörəh-zad. Deyir, bunnar səhər duruf gedəndə ağa dedi ki, mana dediyin inəyi də, onun balasın da qat qabağına, çıx get. Deyir, bu gələn adam məətdəl qalır ki, bunu buna kim deyif. Deyir, yadında qalsın, mana heş nəyiniz lazım döyül. Sən məni çağırdın, mən də ağamı çağırdım ki, sizə köməh dursun.

– *Yolda nə baş verif ki, bunnar ağanı köməyə çağırıblar?*

– Bunnar gəliflər bu ojağa həm qurban kəsməyə, həm ziyarata. Düşüflər borana. Orda qayıdır ki, ya Seyid Əli, bizi dardan qutar, sənin ojağına gəlirih. Buna naxadı agah olur. Bu da Quran oxuyur, Allahdan imdad isdiyir ki, bunnara kömək elə, gəlsin çıxsınnar. Orya gələndə həmən bunnarnan bərabər gələn deyir ki, bax, bu malın gözü buymuş, bunu analı-balalı seyidin qapısına qoyuf gedəjəm. Onda ağa deyif ki, götür apar (S. 34).

## 125.

Oğlu Sahib atasının hasasın-zadın, əmmasını, papağını, çuxasını gətirif[69]. İndi camaat orya gedir, özü də inam var e ona. Öz də təsiri də var e. Qoy sizə bir şey danışım. Onun oğlu Sahib sıklatda işdiyirdi. Nəysə, sıklatda bir çepe yaranır kalxoz sədriynən onun. Bunu götürüf maşına qoyanda camaat yığılır ki, ay naçalnik, bunu aparmıyın. Deyif, ə, nə danışırsan, sıklatda bu qədər yeyinti oluf. Deyif, aparmıyın, nə olsa, qoy özü savax gəlsin. Deyif, yox e. Sahibi oturdurlar dalı reşotkalı UAZ maşına. Qasımalıdan aşağı keçəndə birinci döngədə maşın pırtır. Maşın ordan pırtanda Sahib qayıdır ki, – bunu Sahibin öz ağzınnan eşitmişəm – ağa, sən allah, köməy eylə. Maşın ağacın putağına ilişib qalmışdı onun üstündə. Sonra rayonnan adam-zad çağırdılar, o UAZ-ı krannan-zadnan çəkib çıxartdılar. Rəyis durur diz çökür Sahibin qavağında, Sahibin əlinnən öpür. Deyir, get, neçə ildi ki mən burdayam, sənə qaşın üstə qara var deyən olmuyajax (S. 34).

## 126.

Deyir, ağam o vaxdı deyif ki, a bala, bir bəla gələjəh, indidən gedin özünüzə yurd-yuva salın. Yolda qırılanınız olajax, sizi elə yerə aparajaxlar ki, orda xəstəlihdən dünyanızı dəyişəjəhsiz. İndidən tüşün yerrərə, görün hara yaxşıdı orda məskunnaşın. O vaxdı Qara Seyitnən Mir Mahmud ağa gəlirlər bax bu Şəmkirə. Mirsöyün ağa bizim kəndə nətər gəlif, bax, onu yalançı olaram, deyə bilmərəm.

[69] Şəmkir rayonunun Çənlibel kəndini nəzərdə tutur. Mir Hüseyn ağanın oğlu Sahib orada məskunlaşıb, atasının əşyalarını da özü ilə ora gətirib.

Mir Mahmud ağanın bir oğlu da Mir İsmayıl məllim bizim məktəbin direktoru idi. Amma onnarda seyitdik söhbəti yox idi. Mirsöyün ağanın iki oğlu var idi: Qəşəmnən Mirsahib. Qəşəm araxdan vururdu, dünya vejinə döyüldü. Və onun üç qızı var idi. O qızlardan heç birində seyitdikdən pay yox idi. Ömrünün sonlarında Mirsöyün ağanın qəfil dili tutulur. Sahib bəlkə də günnərnən ağlıyırdı ki, qapısındakı bütün malı qurban demişdi ki, ağanın dili açılsın. Buna agah idi dünyadan köç eləməyi. Sahibi əlinən çağırır. Sahib gələndə ağzın belə eliyir ki, ağzı aç. Sahib ağzın açanda Mirsöyün ağa tüpürür Sahibin ağzına, onnan da canını tapşırır (S. 34).

**127.**

Qara seyidin törəmələrinən kim qalıf bilmirəm. Qara Seyidin də özü qüvvəli ojax oluf. O Şəmkirdə oluf, Naxırçılar deyilən məhəllədə. Mən onun bir möcüzəsin danışım. Uzax adamnan yox, mənim bibimin yoldaşınnan olan söhbətdi. O vaxdı bibimin yoldaşı Məmmədsöyün həmin Naxırçılarda kiminsə heyvanın otarırmış. Bu Seyidin bilmirəm buna işimi düşür, nəsə olur. Bu boyun olmuyuf. Deyif, yox, mən eliyəmmərəm, ayan-bayan. Deyif, oğul, əlin pulnan oynasın, amma gözün doymasın. Bax, məllim, and olsun Allahın birəm birriyinə, and olsun bizi yaradanın varlığına, mən gözümnən gördüm. Məmmədsöyün kişi bizim kəntdə traxtorist oluf, kombayn sürüf. Kamaznan taxıl gətirif tökürdülər, di gəl gedirdin ki, Məmmədsöyünün təhnəsi boş, urvası da unsuzdu. Onun Mirbaba dayıya qarşı elədiyi bir hərəkət Məmmədsöyünün sonu oldu. Bizim kəntdə aşağıda maqazinin böyründə köhnə dəyirman yeri vardı. Mirbaba dayı gəlir ki, ay Məmmədsöyün, mən gedirəm,

Allahın kəlbisi ajdı, yarım arxa[70] taxıl gətmişəm, onu üyüt. Deyif, ay kişi, sən kimnən artıxsan? Növbəni gözdə. Yuxarı idarənin böyründə balaca putka kimi yer vardı, orda çay içirdilər, nərdtaxta oynuyurdular, biz də orda çay içirdik. Deyif, yaxşı, ay Məmmədsöyün, eliyərəm, elə elə ki burda işdiyə biləsən, arxası üsdə çönüf yatmıyasan. Taxılı qoyur. Deyir, mən getdim, növbəmi havağa yazsan, o vaxdı üyüdərsən. Məllim, and olsun Allahın birəm birriyinə, baxdım ki, ağanın qanı qaradı. Dedim, ay Mirbaba dayı, bir gözdə görüm nolub? Dedi ki, kəlbi ajdı, gedim görüm kimnən nə alıram. Məmmədsöyün unu üyütmədi ki, aparam ona verəm. Belə aşağı yenirdim ki, diyəm ay Məmmədsöyün, nə iş görürsən sən. Onun taxılını niyə üyütmürsən? Mator içəridə nətər partdadısa, bax, oldu belə-belə. Üş günnən sora Məmmədsöyünün sağ tərəfini udar vurdu, oldu iflic, Məmmədsöyün tüşdü arxası üsdə. Mirbaba dayının bir möcüzəsi budu.

İkincisi, vaxt həmən vaxt döyül, tarix həmən tarix döyül, deməli doxsan səkgiz idi, səhv eləmirəmsə, bax, bu aylar idi. Belə gedir, biz də qartof-zad səpbişih. Baxdım yuxarı yolnan öz-özünə danışa-danışa gəlir. Bizim kəntdə də Bala Məzrədən Təhməz varıydı, radio-televizor düzəldirdi. Adamdı da, qanı qaradı. – Ay ağa, nolufdu, bir sözünü de görək? Dedi ki, ayə, nolajax, ay bala. Təhməz mənim pulumu da alıf yeyif, bazarrığını da göndərmişəm, ununu da göndərmişəm, siqaretini də göndərmişəm, gəlif baxıram ki, hamı qartofunun divini vurufdu da, boşaldıf da, hamının qartofuna baxırsan adamın üzünə gülür, mənim

[70] Arxa – çəki vahididir, təqribən 25 kiloqrama bərabərdir.

qartofumu ala basıfdı. Bax, bu üst tərəfdəki məllimnən nərdtaxta oynuyurux. Hava da beləjə açıxlıx, ağız atmağa bir belə bulud yoxdu. Təxminən ağa küçənin ayağına çatardı, çatmazdı. Belə baxdıx ki, şiferin üsdünə takqatak nəsə atır. Bu məllimin acığı tutdu ki, bu kopoğlu kimdi adam-zad saymır. Belə çıxdıx ki, dolu. Bütün kəndi dolu vurdu, qartofu elə yatırdı ki, elədi torpaxnan barabar. Özü, bir də qapılarında Cəfər vardı qonşusu, onun qartofunnan başqa kəntdə qartof qalmadı (S. 34).

**128.**

Mirsöyün ağanın qardaşı Mirmahmud ağa oluf. Qara Seyid buların əmisi uşağı oluf, bir nəsildilər. Mirmahmud ağanın oğlu Mirbaba dayı, bax, bizim bu kəntdə uzun müddət yaşadı. Mən olanı deyim sizə. Mirbaba kişi gəldi, bax, bu yolayrıcında durdu. Dedi, ay Nəcəf bala. Dedim, nədi, ağa? Dedi ki, bircə reys otdu burda qəvirsannığın yanında, mən gedirəm, fəhlələr hazırdı, maşın olarmı onu gətirsin? Dedim, ağa, sana qurvandı, bir saat da yox, lap savax günortaya kimi sənin sərəncamındadı. Kəlbəcərli Vəliyəddin kişi varıydı, uzun ZİL kamazı varıydı. Getdik, axşamüsdüydü, bir də baxdım ki, Vəliyəddinnən arvadı gəldi bizim qapıya. Dedim, ay Vəliyəddin kişi, xeyir ola. Dedi, dur gedək Seyidgilə. Ayə, Vəliyəddin kişi, nədi? Dedi, deyəjəm. – Ayə, de görüm. Onun da qudası varıydı – Vəli. Vəli də bir az səsdən xırıltılı adamıydı. O bunu yoldan çıxarıf. Deyif, seyid ha eliyif şələni yığana kimi orda iki xotma ot var, onu atax maşına, götürək gələk. Vəliyəddin kişi qaçarax gedir ki, o iki xotmanı atsın gətsin. Seyid gəlir ki, ayə, Vəliyəddin kişi hanı? Dedi ki, getdi Vəlinin otunu gətməyə. İki xotma da hərəsi qoy

çıxsın on beş dənə pres. On beş presin altında Kamaz beləcə aşdımı böyrü üstə ceyilliyin içinə. Getdik seyidin qapısına. Dedi ki, Vəliyəddin kişi, get, bir xatan da olajaxdı, Allah səni yan salsın. Vəliyəddin kişi həmən Kamaznan getdi Şamuyanın Başkəndinnən odun gətirəndə Kamaz aşdı. Kamaz aşdı, Vəliyəddin kişinin altı-yeddi dənə qavırğası qırıldı. İmirlidə Nəsib məllim var, türkaçərə sınıxçıdı. Nəsib məllim onun qabırğaların bankaynan çəkdi düzəltdi (S. 34).

## 129-139. SEYİD MİRƏLİ AĞA (AĞBULAQ)

Bizə seyidlər məhləsi deyirdilər, ağapbalar var idi, kələşdilər var idi, əddələr var idi. Seyidlər məhlə halında yaşıyırdı. Beş yüz metr kənddən kənarda dağın ətəyində yaşıyırdılar. Biz Göyçə gölünün o birsi üzündən qaçıb bu üzə gəlmişik Hajımxanlı kəndinnən. Mənim bavam da 18-ci ildə artıx kəntdərinə ermənilər dolannan sonra ordan qaçıf. Birinci Naxçıvana gediflər, orda xəstəlik tutuf, qırılannan sonra iki qardaş gəlib dənizin[71] bu üzünə addıyıflar. 18-ci il hadisələrinnən sonra bizim o kəndlərdə ermənilər məskunnaşdı, azərbaycannılar da ermənilərnən qonşu yaşamamaq üçün məcbur oluf çıxdılar. Bəri üzdə də kampak yaşıyırdılar deyə, erməni yaşamırdı, hamısı gəldi Göyçənin bu üzündəki kəntdərə. O gölün ətrafında yaşayan kəndlərin hamısı azərbaycannı idi. Elə o, Ağbulağın adıynandı. Suyu o birsilərə nisbətən saf olduğuna görə adını Ağbulax qoymuşdular. Qabaxlar hər məhlənin öz bulağı var idi, amma

[71] Göyçə gölünün

sonra camaat pul yığdı dağdan kəndə su çəkdi. Yeddi qardaş bulağı var idi, o bulağı turbalara vurdular, kəndə gətirdilər, hər qapıya verdilər su. Bir il işdətdilər, onnan sorada qaçqınnığ oldu, qaldı hamısı ermənіyə.

Bizim ulu babamız İraqın Nəcəf şəhərindən gəlifdi İrəvan xannığının vaxtında. Mənim bavamın yaxın dostu olub İrəvan xanı. Göyçə mahalına gəlifdi. O vaxd dənizin o üzü İrəvan xannığına tabe idi, amma bu birsi üzü Qazax quberniyasına tabe idi. Bavamgil birinci o üzə gəliflər. Onda heç Ermənistan olmuyufdu. Təxminən 1700-ün axırlarında, 1800-ün əvvəllərində gəlifdi. Ulu babam Hacı Mirhüseyin ərəb olufdu. Məqsədi camaatı ziyarətgahlara, müqəddəs yerlər var e, Məşəddi, Kərbəladı, Həccə bələdçilih eliyif o vaxdı, ordan pul qazanmağ məqsədinən gəlifdi. Bir müddət o işnən məşğul olannan sonra Azərbaycan dilini mükəmməl öyrənir, elə ona təklif eliyirlər ki, İraqa qayıtma. Neynirsən qayıdıf, gəl səni evləndirəh, elə burda da qal. Elə onnan da Hajımxannıda məskunnaşıf. Sovet höküməti qurulanda Hajımxannıya ermənіləri dolduruflar, artıq o babam ölmüşdü, hansı ki İraqdan gələn, orya dəfn olunmuşdu. Mənim bavam ermənilər orda məskunnaşan vaxda təsadüf eliyir, ermənіynən qonşu yaşamaxdansa əvvəlcə qaçırlar Şərura. Tayfamız hamısı orda xəstəlihdən qırılır, iki qardaş qalır. İki qardaş təzdən Göyçə gölünün bu birsi üzünə gəlir. Mirəli bavam, bir də onun qardaşı Miryaqub Ağbulağa gəlirlər, orda da evlənirlər. Qaçqınnığ olanda ikisi də evli olufdu, hələ mənim bavamın iki dənə də oğlu olufdu. Xalereya xəstəliyinnən hamısı qırılır Şərurda, orda dəfin eliyirlər, ikisi gəlir burda təzdən evlənirlər Ağbulaxda. Mənim atamgil bir bacı, bir qardaşdılar, amma əmisi

uşaxları üç qardaş, iki bacıdırlar. Hələ arada gəlif bir müddət Qovlarda[72] qalıfdı mənim bavam. Bir müddət qalıf, sonra barışığ oluf ermәniynən, qayıdıf gedif təzdən bir də Ağbulaxda yaşıyıflar. 80-ci ildə bavam dünyasını dəyişdi orda, kümbəz tikdih. 88-də də Qarabağ məsələsinən əlaqədər elə kümbəzi də qoyduğ, iki mərtəbə evimizi də qoyduğ, gəldih bura. Bu məhləni də, bu torpağı da içində bir göz otaxnan bavam almışdı 67-ci ildə hələ orda yaşıya-yaşıya. Uzaqgörən kişi idi. Deyirdi, a bala, buralar Vartana qalajax. Erməni də demirdi, Vartan deyirdi. Hələ orda (Qovlarda – tərt.) tikməmişik ev. Atama deyib, burda ev tikmə, bura Vartana qalajax. Get Azərbaycanda tik, Ağstafada tik, nə ev tikməh istiyirsən, orda tik. Atam savet hökümətinə inanmışdı. Deyirdi ki, belə qüdrətli dövlət dağıla bilməz. Savet höküməti dağıldı, evimiz də qaldı orda. Atamın, bavamın gözəl bir qəbiri var idi ki, bəlkə də, dünyada analoqu olmuyan bir ziyarətgah idi ha gözəllikdə. Məxsusi ustalar tikmişdi alimünum palasalar var idi, gəviyə necə naxış vurursan, kümbəzin də üsdünə helə naxış vurmuşdular. Atam özü çəkmişdi xərcini, amma camaat bavamı o qədər sevirdi, dara düşəndə cəddini çağırmışdılar, hamısı təmənnasız gəlib işdiyirdilər. Hərə bir daş götürməyi özünə fəxir bilirdi. Özümüzün də çoxlu mal-heyvanımız varıydı, hər gün atam bir dənə qoyun kəsirdi, kümbəzdə işdiyənnər yiyirdi. Ustaların da biri anamın xalası oğluydu, Gəncədə yaşıyırdı, biri də öz kirvəmiziydi. Fəhləliyi edənlər də kəndin öz camaatı idi.

[72] Tovuzun Qovlar kəndi

Yeganə seyid idi yurdunda içki içən nəvəsi, nəticəsi olmuyufdu. Hələ Göyçədə yaşıyanda Qazağa gətirib heyvan satırdı, dağlarnan piyada gətirirdi. Bir gün də heyvan gətirir. Burda deyillər ki, dabax xəstəliyi var. Heyvannarını əlinnən alıllar. Qazağnan Ağstafa o vaxd biriydi. Bir dənə dostu olur Əjdər adında. Deyir, gedim ona deyim, xayiş eləsin, mənim danalarımı qaytarsınlar özümə, dağ heyvanıdı, sağlam, bordanımış heyvannardı. Gedər ora. Deyir, yoxdur burda Əjdər. Elə oyana, buyana gəzir, gəzəndə, bir nəfər yaxınnaşır. Deyir, mollasan, ağsakqal? Deyif, molla döyüləm, seyidəm. Deyif, bismillahdan-zaddan bir şey bilirsənmi? Deyib, hə, bilirəm, namaz qılanam, oruj tutanam. Deyir, onda otur maşına. Bavamı oturdur maşına, aparır Qazağın Şıxlı kəndinə. Görür, bir dənə uzun ferma kimi yerdi, içəri girəndə görür yüzə yaxın molla var, ortada bir cavan gəlindi, nə ölmür, nə də dirilmir, amma nəbzi vurur. Deyif ki, ağsakqal, bu qadına bir dua da sən oxu. Bax, bu boyda mollaları bu məqsədnən yığmışıx, həkim də baxıf, bunun xəsdəliyinnən baş açan yoxdu. Sən də buna bismillahdan-zaddan de, bəlkə Allah sənin sözünü eşitdi. Bavam deyif, mənə su gətirin. Gətirir. Bildiyi surələrdən, ataların-nan, babalarınnan yadında saxladığı – savadı yoxuydu, amma yaddaşı yaxşıydı, – bəzi duaları əzbərləmişdi, onnardan suya oxuyur. Oxuyur, deyir, qaşıxnan ağzına damızdırın. Qadının bir təəri ağzını açırlar, bir damcı suyu tökən kimi arvad ayılır. Yanına, yörəsinə baxır, bütün molladı. – Bu kişilərin içində məni niyə uzandırıfsız, – deyif qaçır. Yerinnən qalxmayan adam qaçır gedir. Təzədənnən ordakı mollalar bavamın bütün paltarın kəsif götürüllər ki, sən peyğəmbərsən, sən imamsan, sən nəsən ki, sən oxudu-

ğunnan min dəfə oxumuşux. Quranı başdan-ayağa xətim eləmişih, bu arvad dirilmir. İndi sən bir-iki kəlmə oxudun, bu dirildi, sağaldı. Təzədən gedirlər bavama təzə paltar geydirillər, aparıllar bir dənə otağa. Bavam görüf ki, hamısı başı silindirli, panamalı – vəzifəlilər o vaxdı başa silindir qoyuf axı. – Görüb hamısı orda, Əjdər də ordadı, axtardığı adam. Bir nəfər də hündürdə oturufdu. Soruşuf ki, ay ağsakqal, sən hardan gəlmisən? Deyif ki, mən dağdan gəlmişəm, dana gətmişəm. Danalarımı əlimnən alıflar ki, dabax xəstəliyi yayılıf. Əjdər də mənim qohumumdu, tanıdığımdı, dedim ki, xayiş eləsin danalarımı geri alsın, məni də gətirdilər bura. Sən demə, bu da olsun mərkəzi komitənin katiblərindən biri, arvad da onun arvadı olsun. Katibə tapşırır ki, bu kişinin danalarını harda saxlıyıllar get tapdır, istədiyi qiymətə satsın, özün də aparın, hardan gəlif orda evinə qoyun, mənə məlumat verin. Heş nə, bavam gəlir, danaları satdırır. Bu, kəramətlərinnən biridi (S. 26).

**130.**

Onnan sora bir nəfərin oğlu müharibəyə gedir, yeddi bacının bir qardaşı. Müharibiyə gedir, bunnan məytuf da gəlmir, nə də ölüm xəbəri gəlmir ki, bu ölüfdümü, qalıfdımı. Gəlif bavama deyif ki, ay Mirəli ağa, sana bir dənə gəvə toxuyuram, oğlumnan məytuf gəlsin, o gəviyi gətirif saa verəjəm. Oğlumnan məytuf istiyirəm gəvə kəsilən günü, ya ölüf, ya qalıf. Gəvə kəsilən gejəsində bavam bunun yuxusuna girir. Deyir ki, ay Gülbahar,

Kərbəladan gəldi Hüseynim,
Oxudum Quranı, açıldı zehnim.
Üçüncü imamım Ya İmam Hüseynim.

– deyib bunun kürəyinə bir dənə kürk salır yuxuda. O vaxdın da adamı çox etiqadlı oluf da, inamlı oluf. Durur deyir ki, ay qızdar, Mirəli ağanı yuxuda görmüşəm, qardaşınızdan məytuf gələjəhdi, bir qonaxlıx düzəldək baldanqaymaxdan. Gedir camışdarı, inəhləri sağmağa. Kişiyə deyir ki, a kişi, arıdan bir az bal çıxart, bal, qaymağ, bir dənə də heyvan kəsəh qonaxlığ eliyəh. Oğlumnan məytuf gələjəhdi, Mirəli ağanı yuxuda görmüşəm. Arvad camışı, inəyi sağır, çıxanda görür ki, oğlu gəlifdi, amma atası sevindiyinnən tanımır. Deyir, yoxsa oğlum Binnətdən məytuf gətirifsən? Deyif, ay ata, mən Binnətəm (söyləyicinin gözləri dolur – tərt.) Ay ata, mən Binnətəm, tanımırsanmı? Oğlun tanımır. Qonaxlıx, sevinməh, xalçıyı gətirir bavama. Bavam deyir ki, çoxlu qızın var, gəlsənə bu gəviyi maa vermiyəsən, evinə qaytarasan. Deyif, nə danışırsan, bu gəviyi də yandıraram, özümü də. Mən sənnən məytuf istədim, oğlum gəldi çıxdı. Belə kəramətdəri çoxdu, saymaxnan qutarası döyül (S. 26).

**131.**

Mənə atasının adını qoymuşdu, Məşədi Seyid Cavadın adını qoymuşdu. Ağamdı, balamdı deyib məni əzizdiyirdi. Bir kısmat özü yeyirdi, bir kısmat da maa verirdi. Birdən deyirdi, heç-puç. İndi mən dərk eliyirəm ki, – mən sonsuzam – o ovaxdı mənim gələcəyimi görürmüş. O boyda əzizdəməyin qavağında birdən qayıdıf deyirdi, heç-puç. Ağamdı, balamdı deyif bir kısmat özü yeyirdi, bir kısmat da mənim ağzıma qoyurdu, axırda da əlini bir-birinə vurub deyirdi, heç-puç. Sonsuz qalannan sonra mən dərk elədim ki, mənim sonsuz qalmağımı görürmüş o vaxtı (S. 26).

## 132.

Bir kəraməti varıydı. Deyirdi ki, gör göyün, ərşin qapıları – ərş göy deməkdi, – nə gözəl yazılarnan yazılıf. Onnan sora yerə baxırdı, cinnərin toyun görürdü. Deyirdi, qırılmışdarın toyuna bax e, bıların bir-birinnən oynaşmağına bax. Elə savatdı seyid döyüldü, amma kəramətdiydi. Bir də qoldan güjdüydü, qoldan çox qüvvəliydi. Bir gün getdi həmən o kəntdərinə, bir müddət ermənilərnən yanaşı yaşamışdılar. Bu da orda bir ermənіynən dosd oluf. Gedif öz kəntdərinə, ürəyi isdiyif də, doğulduğu kəntdi. Gedif həmən erməni dosdunun evinə. Ona kimi qonşu erməni gəlif ki, – türk deyirdilər bizə, – mən bu türknən güləşəjəm. Ev yiyəsi deyir, ayə, etmə, eləmə, bu mənim qonağımdı. Deyif, yox, güləşəjəm, mən türk axtarıram güləşim, yıxım. Bavam bunu yıxır. Sora gedir qonşudan başqa bir güjdü ermənini çağırır ki, bu yıxajaxdı bavamı. Bavam bunu da yıxır. Bir beş-altısını yıxır. Gedillər bir erməni pəhlivanı gətirillər. Ermənilərin ən güjdü pəhlivanlarını gətirillər ki, bunun göbəyinnən olar. Yarım metir pataloknan, – o vaxdı patalok yox idi, eləcə atmalar idi, – məsafə qalıf, elə hündür adamıydı erməni. Bavam elə buna baxır, baxır, baxır, “ya cəddim” eliyib bunun ortasına girir, qaldıranda başı o atmıya dəyir. Dəyəndə bu il ölüfsən, bildirmi ölüfsən, yıxılıf özünnən gedir erməni. O birsi ermənilər puçax çıxardır, tüfəng çıxardır ki, öldürəjəyik, türk bizim pələvanımızı öldürdü. Ev yiyəsi də öz tüfəngin çıxardır. Deyir ki, kim bu türkü vursa, mən də onu vurajam. Bu maa qonağ gəlif, sənnən güləşməyə gəlməmişdi ki. Mənim qonağımı kim öldürsə, mən də onu öldürəjəm. Bunlar belə sporlaşanda bir-birləriynən həmən erməni ayılır,

pəhlivan. Durub bavama tərs-tərs baxıb qaçır, bütün ermənilər də onun dalınca qaçır. Elə qoldan qüvvəli oluf (S. 26).

**133.**

Ölümünnən sora bu dünyaya gəlif qayıdıf. Deməli, bir nəfər İmamzadə var e Gəncədə, ora gəlir, qurvan gətirir. Deyir, ya Həzrət Abbas, – Həzrət Abbası eşitmiş olarsan? – Deyir, ya Həzrət Abbas, bir yaxşı insan yetir, mənim bu qurvanımı kəssin. Bunu ürəhdən üç dəfə çağırır. Üçüncüdə görür ki, bavam gəlir. Bavam bu dünyada yoxdu, ölüf, o birsi dünyadadı. 80-ci ildə ölüfdü, bu hadisə də oluf 83-84-də. Baxır ki, bavam gəldi. Deyir, a qızım, gətir heyvanını kəsim. Ermənistan Ali sovetinin deputatıydı qadın, tütünçüydü. Heç nə, bavam bunu kəsir, soyur, sonra da adamlar göstərir ki, bax, ona, ona, ona ət ver, qalannarı burda pis niyyətə duruflar, pul yığmağ istiyillər, camaatı soymağ istiyillər, onnara vermə. Üçcə nəfərə ver, qalanını apar get qonuya-qonşuya, kasıf-kusuba paylıyarsan. Bavama da deyir ki, sən də ət götür. Bavam deyif ki, a qızım, mən əti neyniyəjəm. Hələ dərk eliyə bilmir ki, bavam bu dünyada yoxdu. Ürəyin, böyrəyin bir dənə salafan kuloka qoyur ki, heç olmasa, bunu götür. Peyğəmbərdən hədis var ki, heyvanın ən daddı yeri onun ürək-böyrəyidi, bunu apar get. And verəndə məcbur olur bunu götürür, girir İmamzadaya. Qurban çöldə kəsilir axı. İmamzadaya girir, birdən qadının yadına düşür ki, mən gərəh buna nəzir də verəydim. O vaxdarı arvatdarın boynunda kisəsi olurdu axı ağzı torva kimi. Kisəsin çıxardır, beş manat çıxardır kisəsinnən. Beş manat çıxarır, qaçır bunun dalınca girir İmamzadaya. Orda oturan var, camaat Quran-zad oxudur da imama. Onnan

soruşur ki, bura bir adam girdi, sən onu gördünmü? Deyir, yox, görmədim, bura heş kim girmiyif sənnən qabax. Deyir, ay ağsaxqal, bir dəyqə yoxdu, iki dəyqə yoxdu, burya girdi, mən də onun dalınca girmişəm. Deyif, yox, heş kim girmiyif sənnən qavax. Sən demə, o arvadın gözünə görsənirmiş ha. Heç nə, həmən arvad gəldi bizə. Dedi, elə bil mən yuxuda görmüşəm günün günorta çağı belə-belə hadisələri. O ölmüyüfdü, künbəzi-zadı ona nəyşə tikdirmisiz? Ölmüyüf o, aşkar gördüm onu mən. Gəldi qurvan kəsdi bu dünyada, İmamzadada mənim qurvanımı kəsdi. Hə, təzədənnən ağam dedi ki, sən Həzrət Abbas ağanı çağırıfsan, o da bunu göndərif da. Özü də vəsiyət eləmişdi ki, məni İmamzadaya aparıf basdırın, bura Vartana qalajaxdı. Şahzadə İbrahimin qəbrinin yanında bir yer alın, məni ora basdırın. Camaat qoymadı. Camaat dedi, biz neçə illərdi bunun kəramətini görürük, dərtdərimizə şəfa tapmışıx, çox-çox çətinniklərdən qutarmışıx, balalarımız ölümnən qurtarıf. Allah bunun vasitəsiynən bizə bərəkət verifdi. Qoymadı camaat (S. 26).

**134.**

Mən uşağıydım, təxminən beşinci sinifdə oxuyurdum. Bir müddət bu yatdı, boğazında quruma getdi, elə onnan da öldü, hardasa 93 yaşında-zadda. Hasantdığnan öldü, çox hasantdığnan öldü. Çox varlı adam olufdu. Hətta o qədər varlı oluf ki, Stalinin dövründə buna güjdü vergi təyin ediflər. Bu vergiyi verə bilmir, gedir qonşu kənd var, Qaraqoyunnu deyirdik, Göyçənin bir hissəsidi. Gedir orda yaşıyır bir müddət. Hardasa yüzə yaxın inəyi, malı varıydı. O arxayın idi ki, ölsə də, onun ehsanında veriləjəh hər şeyi varıdı. Bütün qalxoz sədirləri onnan qorxurdu. Kənd

Soveti var idi, o vaxt pramoy üzünə deyirdi: Lelinə nəhlət, Stalinə nəhlət. Qorxusundan çık eliyəmmirdilər, ya balam öləjəh deyə səsini çıxarda bilmirdi sovet hökümətinin məmurları. Buxaltır olsun, qorxusundan səsini çıxarda bilmirdi ki, bircə qırıx incidi seyid, kitabımız bağlandı da. Ya balası ölməlidi, ya evi yanmalıdı, ya da başına bir iş gəlməlidi. Bütün məmurlar onnan qorxurdular, ona görə onu satmırdılar. Pramoy ajığı tutanda deyirdi, Leninə nəhlət, Stalinə nəhlət, onlar da gülüf gedirdi. Day məlumat vermirdilər ki, belə-belə bir adam var, hökumətə söyür. Özü də həmişə fəxr eliyirdi ki, mən bu hökumətin dəftərinə düşməmişəm, yəni qalxoza işləmiyif heş vaxd. Sovetin heç bir işində heç bir fəhləliyin eləmədi, nə malına baxdı, nə qoyununa baxdı, nə kartofun yığdı, ancağ öz şəxsi mülkü ilə məşğul oluf. Savadı yox idi, ancağ qardaşı mədrəsə oxumuşdu, rəsmi mədrəsə oxumuşdu. Çox savadlı oluf. Fars dilini təmiz bilirdi, ərəbi də bilirdi. Elə dua yazırdı, açanda yüz metir uzunnuxda olurdu. Bir-birinə calıya-calıya yazırdı, yazırdı, yazırdı. Neçə dənə sonsuzdara dua yazırdı, neçə dənə çətin xəstəliklərə əlac eliyifdi. Onun ən çox duası İmam Hüseynə ağlamaxdı. Anam arada İmam Hüseynə ağlı-yanda – Məhərrəmlikdə ağlıyırlar axı, anama ajığı tuturdı ki, elə ağlamırlar, belə ağlıyırlar. Başı keçəl olardı həmişə, keçəl qırxdırardı. Başına vururdu, deyirdi:

Qanlı qılınc Kərbəlada pas tutar,
Şiyə olan ağasına yas tutar.
Həsən, Hüseyn, ağam vay,
Ya İmam Hüseyn, ağam vay.

Başına elə vururdu, indi mən asta vururam (söyləyici onun başına necə vurmasını yamsılayır – tərt.) başınnan

az qalırdı od qopa. Bir də həmişə fəxr eliyərdi ki, balaca vaxtı mən alnımı çapdırmışam, qanı köynəyimə tökülüf. Deyirdi ağ köynəy olmuşam. Hə, bir də onnan fəxr edirdi. Görürdü ki biri əyağyalındı, birinin əyağında coraf yoxdu, – o vaxdı da fabrik corabları olmurdu, ancağ əldə toxunma yun coraflar olurmuş, – tez əyağındakı coravı əyaxyalın adama geyindirirdi. O birsi deyirdi, ağa, sən əyaxyalın qaldın axı. Deyir, gözdə, gəlir. Bir də görürdün bir kastrulka qatığ, üstündə də bir cüt coraf gəldi. O elə seyidiydi. Deyirdi, evi təmiz saxlıyın, evə qonağ gəlir. Deyirdik, a bava, nə bilirsən? Bir də görürdün, qonağ gəldi. Bəlkə də nəzir deyilmiş minlərnən inək, qoyun geri qaytarıfdı, əvəzində üç manat, bir manat alıf. Deyif, darıxıfsan, külfət yiyəsisən, apar inəyini uşağına urza elə. Əvəzində bir manat, iki manat, üş manat verirdi. Göyçə, Qaraqoyunnu – hamı ziyarətinə gəlirdi.

Orda Polatdı kəndi var. Bavam ora gedif çıxır. Bir nəfər deyir ki, ay ağa, saa bir dənə dana demişəm, indi də naxır çöldən gəlir – inək sürüsünə naxır deyərlər, – indi get ordan dananı tap, apar get, sənindi. Hə, çöldən gələndə bavam gedir həmən dananın buynuzunnan tutur. Deyir, buydumu sənin nəzirin? Deyir, hə. Apar, halalın olsun. Deyif, yox, aparmıyajam. Deyif, niyə? Deyif, sən yaxşı adam döyülsən. Deyif, niyə? Deyif, onu mana qeyifdən göstərillər. Bəlkə elə bir seyitdi ki göstərmirlər, sən ona nəzir deyifsən, qəbul oluf, sən onu niyə sınağa çəkirsən ki? Get göstər görüm hansı inəhdi? Sən yaxşı adam döyülsən, sənin inəyin mana lazım döyül. Sən seyidə əhd eliyifsən, Allah da seyidə xatir sənin nəzirini qəbul eliyifdi. Sən niyə onu imtahan çəkirsən ki, gör hansı inəhdi, get onu gətir. Belə bir kəramətli seyid oluf (S. 26).

**135.**

O vaxdı QAZ-51, QAZ-52, QAZ-53 maşınnar vardı, yadına gələr, bilmirəm neçə yaşın var, o maşınnan sürürdü. Qolxoz sədri də atamı satırdı, atam alver-zad eliyirdi, Göyçə gölünün balığın gətirib Azərbaycanda satdırırdı. Qohumları var idi, olara verirdi, satdırırdı. Qalxoz sədri də onu satırdı. Bir gün bibimin oğlannarınan biri deyir ki, ay baba, bu qalxoz sədri heç dayımnan əl çəkmir, dəyqədə bir məlumat verir, onu hökümətə satır. Bəs niyə sənin kimi seyid onu cəzalandırmır? Deyir, cəzalandırmışam. Deyir, nətəri? Deyir, onun boğazı mənim barmaxlarımın arasındadı, bu yaxınlarda qopardajam, öləjəh. Elə də həmən qalxoz sədri boğazınnan xərçəng tutdu, – o vaxdı xərçəng mində bir adamda olurdu da, – o dərtnən də öldü getdi. Öləndə deyif, gördün, a bala, saa dedim onun boğazı əlimin içindədi, qopardajam öləjəh. Yani çox sınaxlı, çox güjdü seyidiydi. Şək eliyən cəzasın çəkirdi mütləq.

Orda bir dənə həci olufdu, varrı həci olufdu. Onun oğlu gəlib bizim biçənəyimizi otarır. Bir saat keçmir ki, özdərinin ot tayası yanır. Həci də çox səxavətdi həci olur ha. Otun qırağında duruf baxır belə. Deyir, ayə, mənim bu otum niyə yanar? Mənim bu kəntdə əl tutmadığım adam qalmıyıf, hamıya köməhlih eləmişəm, ajına köməh eləmişəm. – Puldan basıf bölüllərmiş örüşü. Bu həci də pul gücünə hektarınamı, metrəsinəmi bilmirəm qızıl verif öz kəndimizə qatmışdı, elə həciydi Həci Sadıx. – Birdən ordan biri qışqırır ki, olar, ay həci. Niyə olmur ki, olar. Nolsun səxavətdisən. Deyir, niyə olar axı? Mənim kimi səxavətdi, mənim kimi pulunun düşməni adammı var? Xəşdəmişəm həmişə xalqın yolunda. Deyir, sənin oğlun gedif Mirəli ağanın otarağını otaranda onda sənin otun da yanar. Deyir, olar, olar, onda olar (S. 26).

## 136.

Bavamgil köçüf gedəndə marallar gəlif bizim evimizi ziyarət eliyirmiş. Qonşular deyirmiş ki, ay Mələknisə xala, – o da bavamın maması oğlunun yoldaşıydı – o buzoylar kimindi? Gəlif analarını əməjəhdi, qoymuyun. Deyirdi, a bala, o buzoy döyül, Mirəli ağanın marallarıdı, evini ziyarətə gəlir. Mirəli ağa köçüf gedifdi, evini çöl heyvannarı, maral-lar gəlif ziyarət eliyirmiş. Çox sınaxlı, çox kəramətdi seyid olufdu. Hələ mənim bildiklərim budu, bilmədiklərimin sayı-hesabı yoxdu. Ona it hürmürdü. Deyirdim, ay bava, çay qaynardı da. Deyirdi, harası qaynardı. Barmağını salırdı qaynar çaynikin içinə, deyirdi soyuxdu. Götürürdü içirdi qaynar-qaynar çayı, yandırmırdı onu. Nə od yandırırdı, nə it hürürdü ona. Adam parçalıyan itdər olurdu, onu görən kimi yatırdı, səsini xırp kəsirdi, hürmürdü. Hələ səkgiz yaşında oluf, atası buna deyir ki, oğul, heyvannarımızı, qoyunnarımızı apar içəri doldur. Deyif, ay ağa, doldurajam. Halbuki atasının bir sözü iki ola bilməzdi ha. Bir az keçir, atası bir də deyir, ay oğul, canavar dolar heyvanın içinə, get içəri doldur. Deyir, ata, doldurajam da, bir az da gözdə. Üçüncü dəfə bir də deyir, ay oğul, get heyvannarımızı içəri doldur. Deyir, aya ata, bir az da gözdə. Beş dəyqə keçmir heyvanın damı yatır. Deməli, heyvanları içəri doldursa, hamısı qırılardı da. Deyir, ay oğul, ay Mirəli, nə olardı ölmüyəydim, sənin nətər seyid olduğunu görəydim. Nətər olur ki, mən məşədi olam, uşağ vaxdınnan atamın yanında namazımı qılam, orucumu tutan, Allahın əmirləri bunu mana xəvər vermiyələr, səkgiz yaşında uşağa qeyifdən xəvər verərlər ki, heyvanın damı yatajaxdı. Ölmüyəydim, sənin necə seyid olduğunu görəydim.

Səkgiz yaşınnan kəraməti olufdu. Təsəvvür elə Ağbulağa gələndə bütün yamağ içində olur. O savatdı qardaşı pullara yiyələnir. Nikolay hökumətinin yüzdükləri oluf, qızıl ağır olduğu üçün qızılları da xırdaladıf yüzdük eləmişdi. Qardaşı vermir buna heç nə. Deyir ki, get, sana sədəqə versinlər. Halbuki seyidə nə fitrə, nə sədəqə düşmür, günahdı. Peyğəmbər evladı olduğuna görə nəzir deyə bilərsən, amma fitrə, sədəğə niyyətinən pul versən, günah eliyirsən. Bavam gəlir, belə qalır məhətdəl. Orda qonşu kənd var, Ardanış kəndi. Ora gəlir. O vaxtı böyük əmisi Seyid Məhəmməd ağa ordan evlənibmiş. Gəlir, bir az orda qalır əmisinin evində. Nənəm onda on üç yaşında uşağ olur. O buna qatığ gətirir. Bunnan xoşu gəlir. Baxır göyçək qızdı, bavamın da onda otuz-otuz beş yaşı var. Deyir, ya cəddim, bu qızı mana yetir. Bunu nənəm eşidir, gedir evdə danışır. Uşaxdı dana on üç, on dörd yaşında. Evdə danışanda nənəmin qardaşları, bajıları başdıyırlar atasına ki, sən buna qatıx göndərirsən, bunun üstünnən cır-cındır tökülür, yamaxlı paltarda. Bu hələ üstəlik deyir, ya cəddim, bu qızı mana yetir. Başdıyırlar söyləməyə, danışmağa. Nənəmin atası Süleymən kişi bunu çağırır. Deyif, seyid, mənim bu uşağımnan xoşun gəldi? Deyir, hə. – Verdim, – deyir, – o uşağı sana, apar. İstirsən öldür, istirsən özünə arvad elə, mənim sana hədiyyəmdi bu qız. Bavamın da heş nəyi yoxdu axı, bu qızı da yük elədilər ona. O kəndin də camaatı bir az xüsgün camaat idi. Elə iki sözdən biri allahsız belə elədin, allahsız elə elədin, bir-birilərinə belə müraciət eliyillər. Bavam da o kəntdə qalmağ istəmir. Nənəmi də götürür gəlir gənə Ağbulağ kəndinə. Ağbulax kəndində qazma dam tikir. Beş ilin müddətində o qədər nəzir deyillər buna camaat, hələ kənd camaatınnan altı nəfəri də nökər işdədir qapısında. O qədər varranır (S. 26).

**137.**

Qardaşı yerli adamnan evlənib, bavam qonşu kənddən – Ardanışdan evlənif. Qardaşının qohumları yığılıf onun otunu topluyur. Deyir, ay Mirəli, gördün, mən bu kəntdən evlənmişəm, qohumum çoxdu, otumu yığdı, sənin otun da qaldı çöldə. Nağayracaxsan? Deyir ki, mən də Sübhana tapşırmışam otumu. Sübhan da Allahdı. Yağış yağır, deməli, sel bavamın piçənəyinin qırağınnan axıb gəlir, qardaşının yığdığı otu yuyub aparır. Yığılmış otu sel aparır, piçənəyə dəymir ha, piçiliv yerdə qalmış ota dəymir. Deyir, gördün, ay qardaş, mən Sübhana tapşırdım, sən qohumlarına. Gördünmü hansı güjdüdü? Bax, elə kəramətdi seyid oluf (S. 26).

**138.**

Buranın meçidinin təşəbbüskarı atam olmuşdu. Biz Göytəpəyə gələndə rayonda meçid yox idi. Təşəbbüs qaldırdı, meçid tikildi, bir az da ərəblər kömək elədi. Dəstəmazxana deyirlər də, ora tam hazır döyüldü, keyfiyyətsiz idi. Vəsiyət elədi ki, ay Minayə, məni meçidin həyətinə dəfn eliyin, həm nəzirim meçidə qismət olsun, həm də meçid yarımçıx qalıf, heç ürəyimcə olmadı. Məni meçidin həyətinə dəfn eliyərsiz. Dindarlara deyərsiz ki, seyid meçidin həyətini vəsiyət eliyif. Başçı şovinist adam idi, Ermənistannan gələnləri bəyənmirdi. Bir-iki dəfə də rəhmətliyin sağlığında seyidə demişdi ki, sən başına göyçəliləri topluyursan, cəmiyət yaratmağ istiyirsən. Ağam da gülürdü, heş nə demirdi. Əyağın dirədi ki, olmaz meçitdə dəfn eləmək. Ayə, etmə, eləmə. Bunu atam vəsiyət eliyifdi. Ayağın dirədi qoymadı. Bir dənə gəncəli dostum vardı, uşağına atamı kirvə tutmuşdu. Dedi, gəlsan bunu elə həyətinə dəfn eliyək.

Bu evdən əlavə köhnə evi saxlamışdı, qırağı-zadı hörüb düzəltmişdi, ağartmışdı. Elə o evin içinə dəfn elədik. Sora əmim uşaxları dedi ki, sən kümbəz tikə bilmiyəjəhsən, ona görə burda dəfn elədin. Bu maa çox təsir elədi. Həmən evi götürdüm, təzdən bu kümbəzi tikdim yerində. Qırxına qədər kümbəzi tikdim hazır elədim. Pul var idi e, yasında o qədər pul yığılmışdı ki. Bizdə əza yazdırmax var. O qədər pul yazılıb, Azərbaycanın hər bir yerindən gəlmişdilər üstünə. Kümbəzi də tikdim, ehsanı da gördü, ilini də gördü, o qədər pul yığılmışdı (S. 26).

**139.**

Bizim şəcərəmiz oluf. 18-ci ilin qaçqınnığında həmən o Miryaqub dediyim bavamın qardaşı, mədrəsə oxuyan qardaşı bir dənə dul arvadın veşinə köməy eliyirmiş. Onun veşinə başı qarışır. Təsadüfi yerə qoyur səcərəni. Göyçəynən Gədəbəyin arasında Şahdağı deyilən bir dağ var. O Kiçik Şahdağdı. Manşır bir yerə qoyuf ki, gəlif götürərəm. Sonra da maraxlanmır, dalınca getmir. Əzbərdən bir neçə babalarımızın adın bilirik. Babamın babası Hacı Mir Hüseyindi, indi onun adın babama qoyufdu, ərəbdi. Onun İraqdakı atasının adı oluf Əbəl Həsən, buna qədər bilirik. Bir də onu deyirdi ki, biz İmam Hüseyin nəslinnənik. Yerdə qalan addarı o səcərənin içində itif gedifdi. Amma İraqdakı babamın adı oluf Əbəl Həsən, sonra ordan Göyçəyə gələn babamın adı oluf Hacı Seyid Mir Hüseyin, ərəb olufdu. Hacı Seyid Mir Hüseyin hafiz-Quran olufdu, Quranı əzbərdən bilifdi. Onnan sonra nəslimiz assimlasiya oluf, ərəbdən dönüf azərbaycannı oluf (S. 26).

## 140. ZÜLƏŞ OCAĞI

Mənim babamın üzünə ojax çıxmışdı. Babam o vaxdı dörd qardaş oluf, bir bajı. Ana babam ha. Qızılçıx çıxardıflarmış. Təndiri qalıyıf, təndirin qırağında kürsünün altında yatışıflar hamısı. Özüm qulağımnan eşitmişəm ha bunu. Deyirdi, ay bala, on dörd, on beş yaşım olardı. – Mən o evi gördüm, qazma ev idi, bəlkə də iyirmi metr uzunnuğu, iyirmi metr eni idi. Bir başında özdəri yatırdılar, bu başında da atöküz saxlıyıllarmış. – Gejə, deyir, yatanda gördüm hündür, cannı, qırmızı sakqal, əlində hasa bir kişi gəldi. Gəldi məni belə-belə vurdu. Dedi, bu təndirin başında ojax var, o ojağı təmiz saxlıyın. Ala öküzün altında bir daş var, o daşı gətir bunun üsdünə qoy. Səhər, deyir, qalxdım, – böyük qardaşdarı vardı Cəmil, Allah ölənnərinizə rəhmət eləsin. Deyif ki, mənə yuxuda bu sözü dedilər. Dedi, yuxudu, görüfsən dana. Sabah axşam bir də gəlif həmən kişi. Deyif, sənə axırıncı dəfə tapşırıram ha, bu işi elədin elədin, eləmədin sənin gözdərini çıxardajam ha. Deyir, dedim, yaxşı. Səhər, deyir, durdum ki, təndir burdadı, kürsünün qırağında bir su qaynıyır. Həmən suyu mən öz gözümnən gördüm ha. Beləjə torpağ idi, su eləjə oyannan bəri qalxırdı, orya çatanda yavaş-yavaş yenirdi. Elə bil qıvrama idi ha, hərrənə-hərrənə qalxırdı. Getdim ki, ala öküzün altda bir daş var, daşı öz əlimiznən qoymuşux uşax vaxdı. Göy daş idi, amma daş indi oluf qara daş, üzünü elə bil yonufsan. Bunu da qardaşımnan götürdük gətirdik həmin ojağın[73] üsdünə qoydux. Ojax bəlkə indi də durur. Birjə səhvimiz o oldu ki, gələndə o daşı gətirmədim.

[73] Yerdən qaynayan suyun

Ataları, anaları ölüf, dörd qardaşdılar. Gejə, deyir, hamımız örtüyün altına girmişih, amma hələ yatmamışıx. Gördüm, deyir, dəvə karvanı gəlir. Elə kişilər var idi hündür boy, – indi cırraşmışıx, – hündür boy arvad, hamısı töküldülər gəldilər. Bizdə bir qaçax oluf Məhəmməd. O deyif, mən bu işdən qutarım, gedif Züləşin evində ojağın üsdündə bir kümbəz tikəjəm. O da qutarıf gəlif kərpişdən bir dam tikmişdi ojağın üsdündə, evin içində ha. Mən görəndə helə gördüm.

Bir gün, deyir, bir ayrısı olur. Ajdıx, gijdik o vaxdı oluf dana. Damın ağzına örtüh qayrıflar. Kim niyyət etmişdisə, gətirif damın ağzına örtük bağlamışdı. Qapı-zad yox idi, eləcə qara örtüh idi. Örtüyü götürüf, çıxıf gedir. Qardaşı gəlir ki, ojağın ağzında örtük yoxdu. Ayə, deyir, bir də gördüm kişi əlində hasanı saxlaya bilmir ey. Axşam-sabah yalan döyül ey, qardaş. Hasa əlində elə gedir nətər. Ayə, qadan alım, gedəndə hasaya ilişif örtük, mənnən gedif. Evə gedəndə arvad deyif, ayə, sən nə iş görürsən? Sən dəli olajaxsan, tez bunu hardan almısan orya apar. Gətirif həminki yerdən örtüyü asmışdı.

Babam deyir, mən bilmirdim ojağın içərisində ilan olduğunu. İki dənə qırmızıbaş ilan var idi, ojağın qırağında kümbələşif yatışırdılar. Babam evlənir, öz əmisi qızını alır. Nənəm də babamdan bir on beş, iyirmi yaş böyük olardı. Nənəmin ərini ermənilər öldürüf, onu da babam alıf. Nənəm də boyluymuş. Səhər-səhər qalxır təndirin külünü ala, çata, çörək bişirə. Külü alanda görür təndirin içində ilan var. Kül alannan bunu öldürür. Onun anası vardı Gülabatın arvad. Yüz əlli yaş yaşadı, a kişi. Gülabatın arvad gəlif buna deyif ki, ay qız, sən nə iş görmüsən? O hadisədən

sonra deyir, elə külü götürürdüm, uşax açıldı. Uşax tələf oldu, deyir. Anam dedi, ağız, heş kimə demə, Əli səni öldürəjək. Sən niyə ilanı öldürdün? Elə də oluf demiyif ta ki dayım olana kimi. O ilan ölənnən sonra babam gəldi, deyir, götdü əlinə, apardı onu basdırdı. Həmən ilan deyir gənə cüt oldu. Mən də görəndə o ilanı cütcə gördüm orda.

Bir qadın var idi, xarab oluf da. Biz o vaxdı uşağ idik, nə bilirdik. O qadın ojağa gələndə nənəm ona dedi ki, bala, sən girmə ojağa, sən girmə. Dedi, niyə? Dedi, sən natəmizsən dana, girmə. Dedi, yox ey, girəjəm. Bu zorruyanda burnunnan qan açıldı. Nənəm dedi, sənə demirəmmi girmə?! Səni bu ojax qəbul eləmir, girmə da. Elə onu ordan çıxartdılar.

O evin qabağınnan elə bil bir qapı oannan idi, bir qapı buannan idi. Ortadan bir qapı aşmax isdiyiflər. Bir erməni çağırıflar Haroy adında. Gəlif buranı söküf, onun ağzına çardax tikəndə sidiyi tutuf. Orya siyəndə sidik axır həmin damın içinə. Babam and içirdi ki, bala, onu nə qədər sıyırdım götdüm, nağardım, xeyri olmadı. Gejə gördüm həmən qırmızı sakqallı adamlar, arvatdar, dəvələr gəldi, deyir, ojağı üflədilər, getdilər. Qasımov Nərmanın babası Məşədi Qasım var idi. Həmin ojağ gedif Məşədi Qasımın evinnən çıxmışdı. Orya çıxannan sonra olar da orda təmiz saxlıyammadılar, bir də ojax qayıtdı gəldi öz yerinə. Həm də dedilər, orda şam yanır, onu mən görmədim, o yalançılığ olar. Bax, mən gördüyüm bu idi (S. 7).

## 141-142. HACI NAĞI

Hacı Nağı dədəmgilin əmisi oluf. Qış imiş, evdən beyqəfil yoxa çıxıb kişi. Qapının cəfdəsi yerindədi, amma

kişi yoxdu. O vaxdı otax nə gəzirdi, əl damı deyirdilər. Duruf axtarıllar, kişi yoxdu. Gediflər ki, kişi bir qara daşın üsdünə başın qoyuf xor-xor yatır. Erməni çoban bunu görür, qaça-qaça muşduluğa gəlif ki, Nağı kişi filan daşın üsdə yatır. Qar yenicə əriyirmiş, yaz imiş. Camaat tökülüf gedir ki, kişi tər tökə-tökə yatır. Həm də yuxuda danışırmış. Bunu oyadırlar. Bulara ajığı tutur ki, Allah sizə nəhlət eləsin, məni tez qaldırdınız. Yuxu görürmüş. Elə ağ tuman-köynəkdə də qaytarıb kəndə gətirillər. Ermənilər onun yatdığı qara daşın üsdündə dam qayırmışdılar. Qara daş damın içində idi, biz aparıf orda qurban kəsirdik, ermənilər də orda qurban kəsirdi. Daşın üsdə at nalının şəkli var idi. Evdən necə çıxıf ora gedif, heş kim bilmir, hər tərəf bağlı oluf. Hajı Nağının ojağı deyirdilər. Hər il mən orda qurban kəsirdim. Orda su yox idi, enirdik aşağı, orda Lilparlı bulax deyirdilər. Qurbanı ojaxda kəsib Lilparlı bulaxda bişirirdik.

Qızılvəhdə onun bir evi oluf. Erməni onun evinin bir çənətini[74] söküf. Oğlu lejan[75] sürürmüş, yıxılıf, başı daşa dəyif, ölüf. Oğlunu dəfn eliyənnən sora gedif evin çənətini təmir eliyif. Damı sökürlərmiş ki, yerində bina tikələr. Oğlu ölənnən sonra gedif çənəti təmir eliyif, daha qoymuyuf oranı sökələr (S. 31).

**142.**

Hacı Nağı sınaxlı seyitdi. Bir gün mal aparıflar, bir dənə də qoç aparmışıx orda kəsməyə. Bir maşın adam getmişik. Yağış yağdı, ojağın dörd qırağına, bax, bu məhlə

[74] Çənət – künc divarı
[75] Lejan – xizək

boyda yerə yağış düşmədi. Orda malı kəsdilər, soydular, yedilər, işdilər aşağı yenəndə yağış başladı. Elə sınaxlı ojaxdı.

Onun kümbəzinin böyrünnən erməni gedir bir dənə kubik götürür. Deyir, sökək aparax, öyümüzü tikək. Gəlini yatıbmış. Gejə gəlillər qəyifdən həmən gəlinin uşağını götürüllər, aparıf atın axuruna qoyullar. Həmən o daşı gətirən kişinin də həmən daş düşür, belini qırır. Onnan sonra deyillər, yox, bu sınaxlı ojaxdı. Həmən daşı qaytarıb yerinə qoyullar. Onnan sonra bilillər ki, o sınaxlı ojaxdı. Orda həm qəbir var, həm kümbəzi var. Çamırlı kəndin üstündədi, döşdədi.

Hajı Nağı bavam bizim ana tərəfimizdi. Siz də məni bağışdayın, o vaxdı bir gəlinin uşağı olmur. Qaynatası gəlir. Deyir, a Hajı Nağı, mənim gəlnimin uşağı olmur. Kişi qalxır deyir ki, arvad, burya bir kişi, bir gəlin gələjəh, bir də bir oğlan. Mən gedirəm – gələn adamlar Qannıdan olur, – gələndə onnarı içəri təhlif elə ha. Gəlir, baxır ki, atlı bir kişidi, gəlindi, bir oğlandı gəldi. Deyir, Hajı Nağı yoxdu, indicə gələjəh, kəndə gedif. Qayıdıf Hajı Nağı baba gəlir ki, salam məleyki. Əleykimət salam. Deyir, nədi, nə oluf? Deyir ki, mənim bu gəlnimin neçə ildi uşağı olmur. Deyir ki, yaxşı, nə istiyirsən indi? Deyir, uşağı olsun. Yaxşı gəlindi, buraxmax istəmirik. Deyir, arvad, arvad, ordan bir dənə maa istiot gətir. Deyir, a kişi, bu at da sənin, bir dənə də yanı balalı inək gətirəjəm mənim bu gəlnimin uşağı olsa. Gətirir bu istiotu gəlinin ağzına atır. Deyir, mən verdim, get. Gedir, dokquz ay, bir il hərrənir, gəlinin uşağı olur. Gələndə kişi bir dənə yanı balalı mal və atını gətirir Hajı Nağı babagilin qapısına. Gətirəndə deyir ki, ay Hajı Nağı, bax, bu sənin nəvəndi. Bax, o yanı balalı inəyi saa gətirmişik, o at da sənindi. Kişi-

nin ağzınnan söz çıxar. Deyir ki, ay bala, ay qardaş, kişi atını heç havaxt verməz. Malı da aparın, südünü uşağa verin. Dana-qoyun qurban qalsın. Onnan sonra kişi söyünə-söyünə durur malını aparır, atını da minir gedir. Onnan sonra bütün el-oba bilir ki, bu kişi, sınaxlı seyitdi (S. 24).

## 143-149. SEYİD NAĞI (GÜLLÜCƏ)

Bunlar iki qardaş olub – Həsən, Hüseyn. İraqdan gəliblər İrana. Burda seyidləri öldürüllər. Bular ordan qaçır – iki qardaş, gəlillər İrəvana. Gələndə bir bəyə nökər olullar. Bəydi, hörgü tikir. Bular da kərpişləri dalında aparıllar. Hüsöynün beli açılır da. Bəy deyir, şəhərə gedirsinizsə, ala bu bir abbasını, ordan qır alın, bu balaca fəhlənin beli açılıf. – Nəyə oxşadır bunu? – Bunun belinə yaxı salacam. Hörgü də azalıfdı, bitmək üzrədi. Qardaşı Həsənə deyir ki, gəl bu gecə burdan gedək, gecə bu hörgü uçacaxdı. Deyir, nə danışırsan? Deyir, sənə deyirəm gedək. Çıxdıx, deyir, qıraxda yatdıx, yaydı deyir. Dedi ki, ay usdalar, siz də gəlin bu yanda yatın, hörgü uçacaxdı. Bunnar gəldi qıraxda yatdı. Gecə hörgü ağnadı, deyir. Səhər bəy gəlir görür ki, hörgü nədi, ucuf yernən bir oluf. – Ayə, siz kimsiniz, nəçisiniz? Deyir, hak belə-belə. Deyənnən sonra deyir alın puluzu, siz allah, çıxın burdan gedin. Ordan çıxıb Güllüçəyə gəlillər, ta orda qalıllar (S. 32).

## 144.

Babam – Allah ölənnərinə rəhmət eləsin, – hər şeyi bilirdi. Gecə dururdu deyirdi, kəndə bəla gəlirdi, qovalamışam, gedifdi. Bəylərin evində təndir olurdu. Deyirdi ki,

kim əsil seyitdi düşsün təndiri keçirtsin. Təndiri yandırırdılar, ayaxyalın düşüf təndiri keçirdirdi.

– *Babanızın adı nədi?*

– Seyid Nağı. Atam deyir, İrəvana getdik, ağam nöyüt alırdı. Şəhərdən nöyüt alırdı, aparıb kəntdərdə satırdı. Dedi, Qara bəyin oğlu xəstədi, gedək onu qutarax. Biz getdik ki, seyitdər, mollalar yığışıf, uşax da uzanıb, üsdündə qara kəlağayı. Dedim ki, bəy, çatdım. Kəlağayını üzünnən çəkdi, əlini belə yaşladı oğlanın üzünə çəkənnən sonra dedi ki, oğlun qutaracaxdı. O vaxdı nə idi, çarığ idi. Qara bəy duruf ağamın ayağına gələndə dedi ki, a bəy, qapını açıx qoy, burda bir dana mənim nəzirim var, aparacam. Ağam da oturubdu. Bir qotur dana gəldi ağamın əlini yaladı. Dedi, gedəndə bunu aparacam. Ancax gör burda qalax varmı? Dedi ki, ağa, qalağı neynirsən? Dedi, mən gələndə bura sən mənim ayağıma durdun gəldin, çünkü mənim ayağım çarıx, sənsə bəy adam, güldülər. İndi o qalağı al – o vaxtlar malın peyninnən qalax qayırırdılar, ağzına qapı qoyurdular, içinə xırdaları doldururdular, – artıxlamasınnan o qalağı al. Narazı olmasın da. Deyir, ağa, nökərə deyim arabanı qoşsun, odun aparsın. Deyif ki, yox. İndi kim əsil seyitdi, qalaxda yanmalıdı. Çünki sən mənim ayağıma gələndə güldülər. Atam deyir, mən də ağlıyıram ki, ağam yanacax, bizə kim baxacax. Çıxdıx gəldik, amma ağam dedi, Qara bəy, səhər gələndə özün gəl, heş kim gəlməsin. Deyir, səhər getdik ki, qalax tamam yanıb, ağam sinəsində bir qara ilan yatıb. Bəy öskürdü, öskürəndə ağam oyandı. Dedi, bəy, gəldin? Bunu demişdi ilan çəkildi, çıxdı getdi. Dədəm deyirdi ki, ağamın paltarını, bax, belə-belə tutyə kimi təmiz cırdılar orda. Onnan sonra çıxdıx gəldik, deyir (S. 32).

**145.**

Burda o vaxtlar gələndə palçıx qayrırdılar, hərrəmə hörürdülər, – onda kərpiş yox idi hələ, – köşən tökürdülər, dəyirmi ev tikmişdi atam. Biz orda anadan olmuşux. Orda bir dənə ağ ilan hasarda qalırdı. Kim gəlirdisə, ürəyi düz gəlmirdisə, ona görsənirdi. Bir də baxırdın atam deyirdi, get yerinə. Belə deyəndə ilan çəkilib gedirdi. Kimin ki ürəyi, qəlbi düzdü, ona görsənmirdi. Kim başqa niyətnən gəlif onu ilan hiss eliyirdi. O damı görməmisən da. Möhrənin eni bir metrə idi. İlan çıxırdı, döşəmənin arasınnan görsənirdi. O adam deyirdi ki, ay seyid, ilana bax. Deyirdi, çəkil yerinə. Daha demirdi sənin ürəyin düz deyil. Desə, onun qəlbi qırılardı. Bax, burda yan tərəfdə o vaxtları əlli santı yeri qazırdılar, atmalar qoyurdular, qara yatax düzəldirdilər. Orda görürdün ki, ilan qurbağanı udurdu. Atam deyirdi ki, Xanım, – anamın adı Xanımdı, – gəl, ilan qurbağanı udufdu. Çəlihnən belə aralıyırdı, deyirdi arasına girginən, əlin boğaz ağrısının dərmanıdı. İlanı qatırdı qabağına, Yığbal dayının məhləsinin başında yemişan vardı, aparırdı ora qoyurdu, gəlirdi. Deyirdi, ilanı vurmağ olmaz (S. 32).

**146.**

Atam o vaxt bəyin qoyununa gedirdi, öz qoyununu da aparırdı. Mirəli əmim də cüt işinə baxırdı, taxıl səpininə gedirdi. Bu da çöldə taxılı səpəndə deyir ki, ayə, Mirməhəmməd, qardaşın taxılı səpdi, yarısını apardı satdı, verdi noxuda, şabalıda, gətdi arvadınnan yedi. Toxumu səpmədi da, gedəh bir baxax. Deyir, getdih baxdıx, gördük, hərrəmə səpib Məhəmməd, orta durur beləcənə. Gəldi dedi ki, ay oğul, adam toxumu belə eliyərmi? Belə deyəndə ağama bir

şillə vurdu. Dedi, mən sənə qarğamıram, diri ol, dilənçi ol. Bu şəcərəni verirəm sana, bunnan sən dolanacaxsan, get. İndi sən bilmirsən, o vaxtları həmzat deyillər, kadın uşağa yatannan qabax şəcərəni aparıf qoyardılar evə. İsdiyirsən əlli adam getsin evə, keşməzdi. Şəcərəni mən gördüm, on iki imamın şəkilləri vardı (S. 32).

**147.**

Atam söhbət eliyir. Deyir, şəhərə gedirik, gedəndə deyir cüt dəmiri[76] – indi sən bilmirsən, taxdadı, taxdanın qabağında dəmirdi yer əhməyə, – bunu götürür. Deyir ki, gedəh bunu ermәniyə verəh, döysünnər. Getdik dedik, ay dost, ala bu bir manatı, dəmiri döyginən. Dedi, yaxşı, at ora. Ağam dəmiri atdı ora, çıxdıx getdik. Qayıdanda gördüh ki, ağam nətər atıbsa, durur eləcənə. Dedi ki, gavur, sana dedim, niyə döymədin? Dəmiri götdü kürəyə qoydu, qıpqırmızı qızaranda götdü maşasız-zadsız. Dedi, gavur, sana deyirəm döy. Deyir, erməni dəli oldu, tükannan qaşdı getdi. Gəldih deyir. Gələndə bu yaşlı adam, əlində həsa gəlir. Maa dedi ki, mənnən qabağa getmə. Bir də gördüm kü, məni qaldırdılar çırpdılar yerə. Çəliknən məni qaldırdı. Dedi, sana dedim, mənnən qabağa keçmə?

Gəldih, deyir, bir arvad çörəh bişirir, böyründə də bir armud ağacı var. Deyir dedi ki, ay bacı, o armutdan, bir də o çörəkdən bu uşağa da ver. Arvad vermədi. Bir əlli metr keçəndə tufan nətər qalxdısa, armudu kökünnən çıxartdı. Bir də gördüm arvad əlində çörək, bir xeylax armud gəlir. – A kişi, sən kimsən, sən allah, bax, belə oldu, deyir.

[76] Cüt dəmiri dedikdə xışı nəzərdə tutur .

Sonra bir yeznəsi var idi, İbrahim dayımın dədəsi Xəlil kişi. Babam dedi, tez gedək Xəlil üş manatdan ötəri and içəcəkdi, çatmasax dəli olacax. Gəldik, amma çatmadıx. Dedi, Mir Məhəmməd, çatammadıx, Xəlil dəli olacaxdı. Xəlil dəli olanda dedi, tez onu kərənə[77] bağlayın. Dəlilik tutanda daş nədi, ağaş nədi, özünü çırpır ora-bura. İki gün, üş gün orda qalırdı, sonra açıb buraxırdı.

– *Nəcəf dayı, dediz biri and içirdi dəli olacax, o yalannan and içirdi yəqin ki?*

– İndi üş manatdan ötürü, indi bilmirəm götürüf, götürmüyüf, yalannan and içibdi də. Qoy üş manatı verək, bu and içməsin də. Çatammıyıflar. Deyif, çatammadıx, Xəlil dəli olacaxdı. O da dəli olub (S. 32).

## 148.

Bircə şeyi mən özümə bağışdıya bilmirəm. Şofer Həsən var, sən tanıyırsan[78]. Bu Kürün qırağında mən onnan dalaşmışdım ot üstündə. Eşikdə oturmuşdum. Mayıl gəldi ki, Nəcəf dayı, deyillər Seyid Nəcəf gəlsə onda barışarlar. Dedim, Mayıl, Həsənnən dalaşmışam, onun qapısına getmirəm. Bilirəm ki, getsəm, sözüm yerə düşəcək. Mən hansı qapıya getdim sözüm yerə düşdüsə, səhərə qədər yatammıram. Qonşum Vidadinin arvadı eşihdə oturmuşdu, gəldi. Dizini yerə qoydu, əlimnən öpdü ki, ay baba. Ağladı. Dedim, niyə ağlıyırsan? Dedi, Allahverdinin oğlunnan mənim oğlum bu saat özlərini bıçaxlıyıllar. Gedəh onnarı barışdır. Durdum Vidadinin maşınınnan getdim, onnarı barışdırdım,

[77] Kərən – evin dirəyi

[78] İcra nümayəndəsinə müraciət edir.

öpüşdürdüm. İndi hərdən yoldan keçəndə deyir ki, Allah sənin atana rəhmət eləsin. Ə, düşmançılıx bekara şeydi, qadan alım.

*Əlavə:* Mənim oğlum, ya gəlinim başqa ocaxlara gedəndə olmaz, çünkü ocax buradı. Gəlnimə də deyirəm, gedib gəzə bilərsən, amma orda qurban kəsmək və ya nəzir vermək olmaz. Çünki ocax buradı (S. 32).

**149.**

Bir dəfə də Nəcəf babanın özü söylədi. Kolxozda xırmanda taxıl tökürdülər, orda qaroul çəkirdi. Orda çayçını işlədən İlqar vardı, onun da dədəsi Söyün kişi. Bu istəmir qaroulçular getsin çayçıya beş maat pul xərcləsin, kasıb adamıx, ora verdiyimizə qoy cibimizdə qalsın. Orda çay qaynadıb içillər. Çayçını işlədən İlqarın dədəsi Söyün kişi gəlir ki, ay Nəcəf kişi, bu nə hərəkətdi? Orda çay var da, niyə gəlif orda çay işmirsiz? Yanı gəlin pul verin, çay alın. Qayıdıf ona deyif, bilirsən nədi? Deyif, nədi? Deyif, bir o lampışkaya bax. Başını qaldırır, lampışka partdıyır. – İndi, – deyir, – əl çəkginən, elə eləmə səni o günə qoyum[79].

## 150. MƏŞƏDİ MİRMAHMUD

Mənim bibimin yoldaşı da seyid idi, olar Kamo rayonunnan idi. Bunu tuturlarmış, bu qaçır. Polislər bunun dalınnan düşür, dağlıx yerdə bunu tuturlar. Deyir, ay bala, buraxın gedim. Deyillər, ay kişi, bizə bir cadu göstər, səni buraxajeyih. O tərəfdən bir qadın gəlirmiş. Civinnən balaca bir qələm çıxartdı, dırnağın üsdünə nəsə yazdı. Yazdı, deyir,

[79] Bu mətn Əliyaqublu kənd icra nümayəndəsindən toplanıb.

qadın paltarın soyundu, başına aldı, gəldi. İndi alt paltarı əynində durur da. Buna sual verillər, sən paltarı niyə soyundun? Deyir, hər yan mana su görükdü. Paltarım issanmasın deyə bunnarı soyundum. Kişini orda buraxırlar, qayıdıf deyirlər tapmadıx. O Ağbulaxda rəhmətə getdi, orda da dəfn olundu (S. 11).

## 151. XƏLFƏ ŞAABAZ

Xəlfə Şaabazın kökündə ocax olmuyuf. O Kəlbə Həsənalının çobanı oluf. Orda şişək ayrı otduyub, qoç ayrı otduyub, quzu ayrı otduyub. Şaabaz da şişək sürüsünün çobanı oluf. Xəlfə Şaabaz babalarımızın çobanı olub. Bir günnəri Kəlbə Həsanalı baba gəlib deyib ki, ay Şaabaz, sən xəsdəsən. – Xəstə döyül ey, sağ salamatdı. – Get dincəl. On gün gedib xəstə kimi evində yatıb. Hər gün Şaabaza göstəriblər ki, bax, filan heyvan sənə qurban kəsildi. Qırx qurbanı onun başına dolandırıb kəsib hər gün birini. On gündən sonra görüblər Şaabaz sağ salamatdı, durub gəlir. Bu gələndə baxıb ki, buna kəsilən qurbannar hamısı sürüyə qarışdı. Ondan ona hökm veriblər ki, sənin dediklərin olacax.

– *Şaabaza nə üçün xəlfə deyiblər?*

– Xəlfə o da böyüklükdü, Allahtala hörməti, izzəti verdi ona camaatın xeyrinə, şərinə yaradığı üçün. Xeyrin olmasa, heç kim səni o ucada saxlamaz. Camaatı elə bil ki yığdı başına, camaata yol göstərdi.

İrəvanda bir rus gəlir çayçıya. O mamentdə gəlir ki, çayçıda söhbət seyidlərdən gedir. Rus da bunlara qulaq asır, asır. Deyir, ay camaat, ay müsürmannar, mən də sizin bir seyidi tanıyıram. Rusdu axı bu, gülüllər buna. Deyir, siz

niyə gülürsüz? Sizin seyidi tanıyıram, onun kəramətini görmüşəm. Bunu ələ salıb gülüllər. Çıxardır bir dənə qızıl onnux qoyur müşəmbənin[80] altına. Deyir, ya Şaabaz, gəl bu nəzirini apar, məni bu müsürmannarın tənəsindən qutar. Bir az gözdüyüllər, heç kim gəlmir. Gülüşüllər ki (söyləyici onların gülməyini yamsılayır – tərt.), heç kim gəlmədi, buna bax, işə bax. Rus çıxır qapıya, torpağı əliyir başına. Deyir, saa qurban olum, məni niyə bu müsürmannarın qabağında xəcalət eliyirsən, gəl apar da bu nəziri. Deyillər, göydən toz-duman qalxdı, atın üstündə gəlir. Deyir, ay rus, tut bu atı. Bu, atın dırnaxlarına çökür, ziyarət eliyir bunu. O qədər müsəlmanın içində deyir, ay rus, tut bu atı. Bilirsən hardan gəlirəm? Ata o qədər əziyyət verdim ki. Bulara da salam vermiyif. Qamçının ucuynan belə qaldırır, nəzirini götürür. Deyir, ay rus, Allah qəbul eləsin, amma bilirsən ata nə əziyyətdər verdim mən? Sən pəjmürdə çağırdın, mən də tələsik gəldim. Deyir, ay camaat, gördüz mənim seyidimi, sizin seyidinizi. Səhərdən məni topa tuturduz (S. 47).

## 152. DAĞ YUNUS

Dağ Yunus çoban işdiyirmiş. Bir gün yolnan keçən deyir, ajıxmışam, gedim çobannan çörək alım yeyim. Gəlir çobanın yanına. Dağ Yunus qoyunu sağır, südü qava qoyur, çörəyinnən də çıxardır verir. Kişi yornuğ adam, çörəyi yeyir, yatır. Dağ Yunus buna fikir verir. Baxır ki, bunun burnunnan bir çivin çıxdı, getdi girdi qayanın yarığına, yarım saatdan sonra da qayıtdı girdi bunun burnuna. Kişi yuxudan ayıldı, bərk güldü. Dedi, ay kişi, sən nəyə güldün? Deyir,

[80] Stolun üstünə salınan klyonka

belə bir yuxu görmüşəm. – Ay kişi, nə görüfsən? Deyir, gördüm ki, bu qayanın içində çoxlu xəzinə var. Axıla gəlmiyən şey. Dağ Yunus görüb axı bunun ağzınnan çivin çıxdı, qayaya girdi, gəldi bunun ağzına girdi. Bu kişi çıxıb gedir. Dağ Yunus sabah gedir lom gətirir, qayanı aralıyır, baxır ki, xəzinədi. Xəzinəni yığır, aparır. Dağ Yunus deyir ki, sabah qoyuna getmirəm ta. – Əyə, niyə getmirsən? – Yox, – deyir, – getmirəm. Da nəkqədər xəzinə yığır, yığır. Bu vardan okqədər yığır ki, okqədər zalımlaşır heç olmuyan kimi. Bunun əlinnən camaat bezir, elə öz vəziri də bezir. Əshabi-kəf var ha. Üç nəfər, bir də itləri durub qaçırlar. Gedirlər orda yatırlar yüz il, iki yüz il, üç yüz il. Onun qabağında da bir ağac var imiş, iti də ağaca bağlıyıblarmış. Durullar ki, bu ağac yekəlif, it ölüf, sümüyü çürüyüf, bunnar ajıxıf. Birini göndərillər ki, get bazardan çörək al gətir. Gedir, gedəndə bunun puluna baxıllar ki, Dağ Yunusun vaxtınnan qalma puldu. Deyillər ki, ay kişi, bunu hardan alıbsan? Bu xəzinə tapıfdı, Dağ Yunusun xəzinəsini tapıfdı. Kişi qaçır. Gəlillər orya, girillər Əshabi-kəfə. Deyillər, Allah, bizim canımızı al, bizi zulumdan qurtar. Onlar da gəlir bunları tapmırlar. Bunlar artıq qeybə çəkilmiş olur (S. 11).

## 153-154. SÜLEYMAN PEYĞƏMBƏR

Davud peyğəmbərin yeddi oğlu olur. Bu namaz qılanda şeytan bunun qəlbinə girir, yanı ki mənim yeddi oğlum arxamda duruf da. Duranda görüb ki, yeddisi də yatıfdı. Deyir, Allah, verdiyinə də şükür, aldığına da şükür. Səda gəlir ki, ya peyğəmbər, sənin bir oğlun olacaxdı, Süleyman peyğəmbər olacaxdı. Süleyman peyğəmbər hər heyvanın, quşun dilini bilirdi.

Bir kasıbın qoruğunu bəyin dəvələri otduyur. Gəlir deyir ki, ya peyğəmbər, bu bəyin dəvələri mənim əkinimi belə eliyif. Qarışqaya əmr eliyir ki, yerin altını eşin. Yerin altını eşəndə dəvələr gələndə hamısı yatır. Bəy gəlir deyir ki, ya peyğəmbər, dəvələrimin hamısı batıbdı. Deyir, sən o kasıbın əkinini niyə zay eliyirsən? O kasıbdı, sən bəysən, varrısan. Ona kömək eləmək əvəzinə sənin dəvələrin... Ya peyğəmbər, nə desən, ona kömək eləməyə hazıram. Təzdən əmir eliyir qarışqalara, doldurur, dəvələr çıxıf gedir (S. 32).

**154.**

Allahtala Cəbrayıla deyir ki, qarı libasında yolu kəs, peyğəmbəri bir imtahana çək. Deyir, yaxşı. Süleyman peyğəmbər gedirdi. Görür ki, yolun ortasında bir qarı var. Deyir, qarı nənə, burda nağarsan? Deyir, oturmuşam burda. Deyir, ya peyğəmbər, hara gedirsən? Deyir, üzü belə gedirəm. Dedi, üzüyünü ver saxlıyım. Deyir, yaxşı. Peyğəmbər üzüyünü verir, atır sandığa. Gedir gəzir, gələndə deyir ki, qarı nənə, mənim üzüyüm. Deyir, sandıxdadı. Gedir hansını götürür, görür üstündə Süleyman peyğəmbər yazılıb. Deyir ki, qarı nənə, bu nətər şeydi, hamısının üstündə Süleyman yazılıb. Deyir, arxanda gələn kim idi. Çönüb baxanda görür ki, qarı yoxdu. Deyir, hə, Allahtala məni imatahana çəkir. Gör neçə Süleyman gəlifdi dünyaya (S. 32).

## 155-157. MUSA PEYĞƏMBƏR

Musa peyğəmbər Firovunnan yarışa girir. Axşamnan yatırlar. Deyir ki, sabah mən gedəjəm, çubuğumu yerə vurajam, çay dayanajax, qoşunum gedəjəh. Bunnar yarışa

girif da. Bu yatıf, firovun da ayağınnan asılıb Allaha yalvarır. Deyir ki, mənim diləyimi eşit. Peyğəmbər də başın altda yastığı qoyuf yatıb. Mən peyğəmbərəm axı, mənim sözüm ötəjəx. Sabah gedirlər çayın qırağına. Firovun çubuğu yerə vurur, ya Allahın adı. Çay dayanır, bunun qoşunu gedir. Musa peyğəmbər də gəlir çubuğun yerə vurur, Allahın əmriynən çay dayansın, mənim qoşunum getsin. Çay dayanmır. Nəysə, axşam düşür, gedir Allahın hüzuruna. Deyir, mən peyğəmbərəm axı. Mənim diləyimi niyə eşitmədin? Deyir, mən oyağın allahıyam, yatanın yox. Allahın cavabı o olub (S. 13).

**156.**

Yüz iyirmi dörd min peyğəmbərin içində bircə Musa peyğəmbərnən Allahtala kəlmə verib, kəlmə alarmış. Bir gün Allahtaladan səda gəlir ki, ya Musa, sənin vaxdındı, getməlisən. Bir oğlu olur. Gəlir üzünnən öpür ki, sənin başına dönüm, mən öləndən sonra sən nolajan? Allahtaladan səda gəlir ki, ya Musa, get dəryanın qırağına, çəliyi dəryaya vur, dərya aralanajax. Ordan bir qara daş çıxajax. Qara daşı vur, qara daşın içindən gör nə çıxajax. Gedir elə eliyir. Dəryanın dibində qara daşın içində qurda can verən Allah deyirlər. Orda deyir ki, ya Musa, bu dünyaya urza verən mənəm, bu aləmə işıx salan mənəm. Deməli, dəryanın dibində qara daşın içində qurdun ağzında tut yarpağı təzədisə, sənin oğlunun da urzasını mən verəjəm (S. 3).

**157.**

Bir günnəri Musa peyğəmbər baxır ki, bir çoban Allaha dua oxuyur. Deyir, ay Allah, saa qurban olum, on dənə qoyunum var, saa verim, çarığın yoxdu, çarıx verim. Nə bilim,

nəyim var saa qurbandı. Musa peyğəmbər baxır buna, çox nervilənir. Sən nətəri Allaha dua eliyirsən. Allahın heş nəyə ehtiyacı yoxdu, Allah daimidi. Onun nəyə ehtiyacı var ki, sən ona deyirsən saa bunu verim. Allahtaladan vəh gəlir ki, sən onu niyə dalıyırsan. Onun bildiyi odu, amma üzünü maa çöyrüb. Sən Allahın peyğəmbərisən, sən bilirsən ki, mən əbədiyəm, səbirliyəm, rəhimliyəm, rəhmanam, qütdüsəm, fətdaham, sultanam. Sən buları bilirsən, – sənin adlarındı, adına qurban olum, – amma bu bilmir axı. Bir dənə dağın başında bir çoban gəlib mənə dua eliyir, sən ondan narazı qalırsan. Deyir, qələt eləmişəm, ay Allah. Musa peyğəmbər elə-belə kişi olmuyub, Allahın ən sevilən peyğəmbərlərindən biri olub (S. 47).

## 158. MƏHƏMMƏD PEYĞƏMBƏR

Bir nəfər kasıb lütbala oluf. Məhəmməd peyqumbər mehraca gedəndə deyif, ya peyqumbər, sana fida olum, Allahtalaynan danışanda mənim də ərzi-bəndəliyimi elə. Bizim vəziyyət yaxşı döyül. Peyqumbər gedir mehracda Allahnan danışır, nə iş görür, qutaranda deyir, ay Allahtala, sana fida olum, filan qadın dedi bizə də bir az urza versin. Dedi, verdim on il, ya iyirmi il. Getsin yesin. Gələndə dedi, ay qızım, dedi bir iyirmi il get yaşa. Bir də gedəndə vaxd verdi. Dedi, ya peyqumbər, sana fida olum, gedəndə mənim ərzi-bəndəliyimi Allahtalaya çatdır. Mənim hər şeyimi – varımı, döölətimi alsın, bircə salaxlığımızı[81] almasın. Məhəmməd peyqumbər mehraca gedəndə öz dərdini danışannan

[81] Salaxlıx – mehribançılıq

sonra deyir, ya fidah olum, Allahtala, sana. Filan qadın dedi bizim vaxdımızdı, bizim urzamızı da alsın, varımızı, mülkümüzü, hər şeyimizi alsın, bircə salaxlığımızı almasın. Onda Allahtalanın xoşuna gəlir. Deyir, ömür boyu verdim ona, getsin yaşasın (S. 3).

## 159-167. HƏZRƏT ƏLİ

Göysuda şiələr olufdu. Özü də hansı şiyələr? Əlallahı şiyələr. Deyir, günü günortadan qaytaran, ya Əli. Belə də bir nağıl danışırdılar, onu Mirsöyün ağadan eşitmişəm. Əstəfurlah, nağıl döyül. Deyir, Məhəmməd peyğəmbər behiştə gedəndə orda buna plov verdilər. Plovu yeyəndə dedi ki, bir adam olsa, mənnən yeyərdi da. Pərdənin arxasınnan bir insan gəldi. İnsan gələndə insanın da qolu tüklü olur. – Danışanda bədənim biz-biz olur e. – Tük o qədər çox olur ku, düyünü ağzına aparanda düyünün biri düşür bunun qolunun üsdünə. Almanı da kəsir, – onçun deyillər da alma behişt meyvəsidi, – almanın da yarısını kəsib verir. Bu da almanı gətirir. Əlini o qədər çox istiyirmiş ki Məhəmməd peyğəmbər.

Həmən rəvayətin bir sahəsidi. Məhəmməd peyğəmbər çovan oluf sifdə. Çöldə heyvan otaranda buna deyiflər, orda bir dənə gül var. Gör nə gözəl güldü. Məhmməd peyğəmbər deyir, a başın batsın, səhrada qışda qırmızı gülmü olur? Məjbur o gülə sarı gedəndə heyvan qaçıf gülü yeyir. Elə bil ki heyvan doğanda gül quzuynan doğulur. Əlinin anası hamilə olanda ürəyi quzu əti isdiyir. Gəlillər imennoy o quzunu aparıllar. Deməli, gül qadının qarnında bitir. O vaxdı qadına-zada baxanı ən azınnan xədim eliyillərdi. Bu

da deyir, ölsəm də baxajam. Baxır ki, uşaxnan barabar gül doğuldu. Məhəmməd peyğəmbər deyir, Əlinin anadan olduğunu gözlərimnən görməsəydim, Əliyə Allah deyərdim. Bax, əlallahı həmən şeydi. Şiyəliyin ən ali formasıdı. Əlini Allah bilənnərə deyilir. İndi belə rəvayətdər eliyirdilər.

Məhəmməd peyğəmbərin meraca gedəndə almanın yarısını deyir aparıf Əliyə verəjəm. Ordan gələndə almanı Əliyə gətirəsi olur. Almanı Əliyə verəndə – Əli də balaca uşağ olur, almanın yarısı Əlidə olur. Orda deyir, mən Əlinin anadan olduğun gözdərimnən görməsəydim Əliyə Allah deyərdim. İfadənin səbəbi odu ku, almanın yarsı Əlidə olur. Bir də Əli uşax olur da, yaşı az oluf. Qolunda düyü dənəsi də olur. Məhəmməd peyğəmbərə çox deyirlər ki, bu düyüdü də, ərəblərin yediyi bir şeydi. Deyir, düyünü deyirsiz, bə almanın yarısına nə deyirsiz? İmennoy almanın yarısın mən gətirdim buna verdim, almanın o biri yarısın da uşağ əlində oynadırdı. Bunu kim verif heş kimin xəvəri yoxdu (S. 23).

**160.**

Şeytan bütün dünyüyü torvaya dolduruf yolun qırağında qoca libasında durur. Canım fidah olsun, Cənab Əli oannan bəri gələndə deyir, ay bala, ay bala, bu torveyi mənim dalıma qaldır. Cənab Əli qamçının qulpunnan belə eliyəndə baxır, torba qalxmır. Əlini belə atır, baxır, genə qalxmır. Hirsdənir, düşür atdan. Kisiyi götürəndə, canım fidah olsun, Allahdan vəhy gəlir ki, ya Əli, dünyüyü dağıtdın, yerə qoy! Onda Cənab Əli qurşağa kimi torpağa girir, gözdərinə qan enir. Onnan Cənab Əlinin adı qırmızıgöz Murtuzəli oluf (S. 43).

## 161.

Həzrət Əli əvvəli, axırı olmuyan bir ümmandı. Bir söhbət eliyim sizə. Bir dənə cavan oğlan gəlir ki, dəvə karvanı gedir belə. Bir qoca kişi də orda durub dəvələri sayır. Oğlan da gözdüyür ağsakqalın yanında ki, karvan qurtarsın, getsin. Deyir, ay oğul, nə gözdüyürsən? Deyir, mən gözdüyürəm ki, bu karvan qurtarsın, keçim. Deyir, bala, mən yetmiş ildi burdayam, bu dəvələri yazıram, bu yetmiş ildə hələ bunun dalı gəlib qurtarmır. Deyir, bə bu dəvələrin apardığı nədi? Deyir, Həzrət Əli əlehsalamın (üç dəfə salavat gətirir – tərt.) yazdıxlarıdı. Nələr yazıb gör? Həzrət Əliyə elə-belə demirlər ki, ya Əli, sən elmin qapısısan. Peyğəmbərimiz deyir, mən elmin şəhəriyəm, o, elmin qapısıdı. Həzrət Əlidən aylarnan, illərnən danış, qurtarası döyül. Həzrət Əli elə bir kişidi (S. 47).

## 162.

İmam Əli Gəncədə də olufdu. O vaxt yollar açıx, sərhədlər açıx, kim hara istiyir gedirdi da. Gəncəyə gəlib, oturub süfrə açıb. Yeyif, deyif: "Səni şen olasan, nə gencə[82] yerdi bura". Ona görə Gəncə ajlığ çəkmiyif heş vaxtı. İmam Hüseyn şəhəri oluf, heç vaxt ajlığ çəkmiyifdi. Şahzadə İbrahimin məzarı ordadı. Əli xeyir-duva verib də, sən şen olasan deyif, nə gencədi (S. 25).

## 163.

Allahdan sonra ikinci şəxs Əli imamımızdı. Peyğəmbər özü, deyilənə görə, Əli imamımızdan şüphələnirmiş ki,

[82] Gencə geniş əraziyə deyilir.

sənin möcüzələrin nə dərəcədədi. Dünya yaranmamışdan Əli imamımız varıymış, deyilənə görə. Bir rəvayət var ki, Ağ div adında bir div olur. Bu insanlara dəyib dolaşarmış, toxunarmış. Hələ Əli imamımız dünyaya gəlməmişdən onun qulağının divinə bir şillə vurur, qulağınnan çirk gəlir. Əllərini də, barmaxlarını da, deyir, belə qoyur, xurmanın çiyidini barmaxlarının arasına qoyub bağlıyır. Xurmanın çiyidinicə qoyur ha, bağlamax yox. O barmağını açа bilmir div. Vaxt olur ki, yüz iyirmi dörd min peyğəmbərə gedir, heş kimi onu açа bilmir, çünki onu Əli imamımız özü bağlayıbmış dünyaya gəlməmişdən. Eşidir ki, axırıncı imam gəlib dünya üzünə. Peyğəmbər-zad indi yığışıb, sevinirlər ki, Əli imamımız dünyaya gəldi. Ağ div gəlir, içəri girəndə Əli imamızı görür, görən kimi çığırır, qaçır. Deyillər, sənə noldu çığırdın qaçdın? Deyir, mənim əlimi çatıb qulağımın divinə şilləni vuran bu uşaxdı. Hamı mətəl qalır ki, bu nə hakhesabdı, nətər şeydi. Deyilənə görə, orda Omar, Osman-zad da olur. Deyillər ki, mənim əlimi açan bir şəxs yoxdu? Omara deyillər, Osmana deyillər, durub qılıncnan-zadnan nə qədər sürtüllərsə, açammıllar. Deyir, mənim qulağımın divinə vurub əlimi çatan bu uşaxdı. Deyir, nə tanıdın? Deyir, onu gözünnən tanıdım. Dünyaya hələ indi gəlib haa. İki-üç günün söhbətidi. Təzdən peyğəmbər deyir ki, ya Əli, azad elə devi, getsin. Əlini, deyir, bələkdən çıxardır, tıkqasınnan[83] xurmanın çiyidinə vurur, çiyid düşür yerə, ağzının suyunnan qulağına çəkir. Deyir, get, bir də insanlara dəyib-dolaşma, sənə qadağan edirəm. Elə yerdə hərrən ki, viranxanalarda, insan yaşamıyan yerlərdə. Bax, Əli imamın belə bir söhbəti

[83] Tıkkasınan – dırnağı ilə

olub. Hamı məətdəl qalıb ki, axı Əli imamımız indi gəlib dünyaya, bu necə olub Ağ devin barmağını bağlıyıb qulağının divinə şillə vurub. Əli imamın helə şeyləri çoxdu (S. 38).

**164.**

Qəmbər Əli imamıznan dalaşmağa gedir. Yolda Əli imamımıza rast olur. Deyir ki, Əli imamızın yanına gedirəm. Deyir, nəyə görə? Deyir, onnan gedib vuruşacam. Deyir, vuruşa bilərsənmi? Deyir, hə. Deyir, gəl mənnən dalaşax, əgər mana gücün çatsa, ged Əli imamımızın yanına, lap öldürə də bilərsən onu, əgər mana gücün çatarsa. Yox, çatmasa, getmə. Bu baxır ki, balaca boy bir adamdı. Əli imamımız, deyilənə görə, boydan balaca olub. Balaca boy kişidi, bu nə dalaşacax. Deyir, gəl dalaşax. Dalaşanda, deyilənə görə, Əli imamımız götürür bunu atır göyə. Göydə mələkələr deyir ki, bu görən nə pis bəndə oldu ki, Əli imamımız bunu göyə atdı. Bu düşüb yerə parça-parça olacax. Qəmbər oların səsin eşidir. Ordan səs gəlir ki, mən nağarım? Deyir, səni atanı çağır. Deyir, məni atan kimdi? Ədriki, ya Əli, nəsə bir şey deyir. Onu çağıra-çağıra gəlir. Əli imamımız əlini atır göydə tutur, qoyur yerə. Təzdən bu inanır. Deyir, Əli imam elə mənəm, sənin mənə gücün çatarmı? Orda deyir ki, ya Əli, ölən günə qədər mən sənə arxa çövürməyəcəm. Elə bil kimnənsə evlənmək fikrində olur, bu qız aldadır ki, get Əli imamın başını gətir, sənə ərə gedərəm. Şərt qoyur, ona görə getmişdi o. Orda deyir ki, ya Əli, sənin Düldülün cilovu mənim əlimdən düşməsin, nə də mən sənə arxa çövürmərəm. Ölən günə qədər sənin qulunam. Ölən günə qədər də Əli imamıza arxa çövürmüyüb (S. 38).

## 165.

Ölü yerində Fatihə verirlər, həmdsura oxuyurlar. Bir dənə varlı bir insan bir dənə üzük düzəltdirir ki, dünya üzündə qiymətdə elə bil onun tayı-bərabəri yoxdu, çox bahalı bir üzükdü. Deyir, bunu Əli imamıza hədiyyə aparıram. Üzüyü aparır gedir. Əli imam da, Salman da, elə hamısı oturduxları yerdə girir içəri. Deyir, ya Əli, saa bir hədiyyə gətirmişəm. Əli imamımız üzüyü əlinə alanda baxıb görür ki, çox bahalı üzükdü. Barmağına taxır, çıxardır. Salmana deyir ki, bu üzüyü saa verirəm, get filan qəbirsannıxda bir Faatə ver, həmdsurə oxu, ondan sonra da bir adamı adınnan çağır. Gedir Salman qəbirsannığın qırağında durur, böyük bir qəbirsannıxda. Deyir ki adınnan, ay filankəs, çıx qəbirdən. Gözdüyür, çıxmır, gözdüyür, çıxmır. Bir də çağırır, bir də çağırır, axırı deyir ki, ay filankəs oğlu filankəs, səni çağırıram, çıx qəbirdən. Yox, Əli imamımız özü getdi. Salmannan özü getdi, bu adamı da apardılar. Getdilər, nəhayət, çıxdı. Çıxannan sonra Əli imamımız soruşdu ku, nəyə görə gej çıxdın? Salman həmdsura oxumuşdu qəbirsannıxda da. Dedi ki, ya Əli, sən mənim adımı çağırdın, mənim adımda qəbirsannıxda milyonnarnan adam yatır. Heş kim bilmədi ki, sən kimi çağırırsan. Elə ki sən məni atamın adınnan çağırdın, bildim ki məni çağırırsan. Bir də accaca gecikmişdi. Dedi, niyə gecikdin? Dedi, ya Əli, sənnən qabax bir adam gəldi, bu qəbirstan əhlinə bir dənə Fatihə verdi, həmdsurə oxudu. Onun savabını bölüşdürürdülər bu qədər qəbirsannığa, mən onun savabını almaxdan ötrü ləngidim ki, onu alım, çıxım. Üzüyü götürdü verdi Salmana. Kişiyə dedi, sənin üzüyünü qəbul edirəm, amma gör ki sənin üzüyünün qiyməti bir həmdsuranın savabı qədər eləmədi (S. 38).

## 166.

Əlinin dünyaya gəldiyin heç kim görmüyübdü. Tarixdə o yazılıb ki, Əlinin anası girir Kəbəyə. Əvvəlcə Allah qarşısında yalvarır ki, səni and verirəm Allahın bu evinə ki, müsəlmannarın qibləsidi, müqəddəs yerdi, cəddim İbrahim tikdiribdi onu. Bir də qarnımdakı bu uşağa ant verirəm, – məsum Əli dünyaya gəlmiyifdi, – bu uşağın doğuluşunu mənə hasand elə. Belə deyəndə Kəbənin divarı iki yerə ayrıldı, girdi Fatimə Əsəd qızı. Anasının adı da Fatimədi, yoldaşın adı da Fatimədi[84]. Yoldaşı peyğəmbərin qızıdı, anasının adı da Fatimə Əsəd qızıdı. Bu uşağın doğuşun mənə hasand elə deyəndə xanım Fatimə Əsəd qızı girir içəri. Divar bağlanır. Peyğəmbərin əmisi Abbas olur. Deyir, nə qədər gətirdik açarları açax, doğuş orda olmaz da, qan tökülməz axı. Nə qədər aşmağ isdədik, açılmadı. Qapı açılmayanda gözdəməyə məcbur qaldıx. Üş günnən sonra qıfıllar öz-özünə töküldü. Bayax açar açmayan qıfıl öz-özünə açıldı, Əli də qucağında anası çıxdı çölə. Deyir, çıxanda qeybdən səs gəldi ki, bu uşağın adını Əli qoyginən. Bircə onu eşitdim, başqa heç nə hiss eləmədim. Həzrət Əli necə dünyaya gəldi, nətər oldu, nə hiss eləmədim, nə də əziyyət çəkmədim. Qəşş elədim, bir də ayılanda gördüm bələyə bükülmüş halda yanıma qoyuflar. Həzrət Əli bu şəkildə dünyaya gəlif özü də Allahın evinin içində. Əlinin fəziləti, üsdünlüyü də ondadır ki, Allahın evində dünayaya gəlib. Hətta dinin banisi Məhəmməd peyğəmbərə belə Allahın evində dünyaya gəlmək nəsib olmuyufdu. Bütün müsəlmannar peyğəmbəri qəbul eliyir da. Sünnüsü də, şiəsi də,

[84] Əlinin anasını nəzərdə tutur

vəhabisi də. Amma Əlini hər müsəlman imam kimi tanımır, xəlifə kimi, əsabə kimi tanıyır, amma imam kimi tanımırlar. İnsanların Allahtala özü şüuruna yeritmək isdiyir ki, bu müqəddəsdi, bu imamdı. Öz evində də dünyaya gətirdi Əlini, insanlar gənə inanmaq isdəmirlər ki, Əli müqəddəsdi, peyğəmbərdən sonra ikinci şəxsdir ki dünyaya gəlib.

Əli Əleyhsalamın nuru özünnən qabax yaranıb. Adəm peyğəmbəri yaradanda göyə baxdı, gördü ki, beş nəfər namaz qılır. Dedi, ya Cəbrayıl, mənnən başqa yaranmış yoxdu, bunlar kimdi belə? Dedi, Allah səni o beş nəfərə xatir yaradıb. Bu onların nurudu. Əgər onları yaratmax niyyəti olmasa Allahın, səni yaratmazdı. Səni onlara xatir yaradıb (S. 26).

## 167.

Atam bir dəfə danışırdı ki, Sal adında bir pəhlivan olufdu, kafir oluf da bu. Bizim bu Tovuznan Gədəbəyin arasında Haçaqaya var, onu danışırdı ki bavam, nətər oluf. O Salsal çox güjdü pəhlivan olufdu. Hansısa bir münəccimdən eşidif, peyğəmbərlərin adı yazılmış köynək geyinif əyninə. Güjdü də adam olufdu. Həzrət Əli əleyhsalam bunu Zülfüqarnan bir neçə dəfə vurur, kəsmir. Bədənində peyğəmbərlərin adı oluf, ona görə. Adəm peyğəmbərə qədər bütün peyğəmbərlərin adını köynəyə yazdırıfdı. Onnan sora Həzrəti Əli əleyhsalam əsəbləşir, Zülfüqarı həmən Haçaqayaya vurur. Zülfüqar da müasir dövürdəki lazer kimi oluf da, hər şeyi kəsən oluf. Qayanı belə kəsir. İndi o qayaya Haçaqaya deyirlər. Qayadan səda gəlir ki, ya Əli, mənim nə günahım var? Deyir, gün gələjəh burda qurvanlar kəsiləjəh, nəzirlər gələjəh, insanlar pənah gətirəjəhlər ki, burda Əlinin nişanəsi var. Sən heç də qəm yeməginən,

qəmlənməginən ki niyə məni kəsdin. Sonra həmən Salsalı qaldırır başına, çaxır belə yerə, xışlam-xışlam olur, qırıx-qırıx olur. Bax, bunu danışırdı (S. 26).

## 168. HATƏM

Hatəm çox səxavətdi oluf. Hələ çağaykən bu ağlıyır, anasının südünü əmmir. O vaxdı da münəccim olufdu, elə həmişə dünya yaranannan münəccimlər oluf. Deyillər, bu niyə anasının südünü əmmir. Münəccimlər deyir ki, bu gələcəyin ən səxavətdi adamı olajax. İndi bu öz anasının südünə də şərik axtarır. Gedin bir uşax tapın, gəlsin bunun anasını əmsin, onda bu da əməjəkdi. Gedirlər bir uşax tapıf gətirillər, başdıyır bunun anasını əmməyə. Bunu tutan kimi bu da başdıyır anasın əmməyə. Atam danışırdı ki, qızıl qavda camaata yeməh verirmiş, sonra qızıl qavı da bağışlayırmış ki, apar aylənə xəşdih elə. Amma bütpərəst oluf da, heç bir dinə etiqadı olmuyufdu, təkallahlı olmuyufdu, heç bir peyğəmbərə inanmıyıfdı. Bismillah sözünü bilmədiyinə görə cənnətə girə bilmir. Peyğəmbərlərin heç birinə etiqadı olmuyuf, amma səxavətdə yaranmışdarın içində ən səxavətli adam olufdu. İndi deyirlər e, səxavət ibadətdən üstündü. O adama aiddi ki, onun etiqadı da Allaha olsun. Bu da bütpərəst olufdu. Bütpərəst olduğuna görə də Allah onu cənnətə buraxmır, baxmayarax ki, yaranmışdarın içində ən səxavətli insanıydı (S. 26).

## 169. LƏLƏ

Evladı olmur, çıxır gedir evdən. Deyir, nə vaxt qardaşımın evladı olacax, onda gələcəm. İldə bir dəfə gəlif gör-

sənirmiş. Soruşurmuş, deyəndə ki, yox, çıxıf gedirmiş. Evdəkilər çox fikirrəşir ki, biz bunu nətər eliyək. Gətirillər qazanı asıllar, içinə də bir daş qoyullar. Bir dənə daşı da büküllər bələyə, qoyullar beşiyə, yəni bu uşağın doğulmağına qazan asmışıx da. Bililər da o biri qardaş nə vaxt gələcək. Gələndə dəvət edirlər ki, gəl içəri. İçəri girmir. Deyir, uşağı maa gösdərin, onnan sonra girim içəri. Bunnar məhətdəl qalıllar. Belə çönəndə baxıllar beşihdə nəsə tərpənir. Gedillər ki, bələyə bükdükləri daş uşağa dönüb. Qazanı açıllar, orda plov bişir, daş qoyuflar axı ora. O söz ordan çıxıb ki:

Lələyəm, daşdan mən
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

Hayıf eylər,
Dərd məni zayıf eylər.
Düşmən bilsə şad olar,
Dost bilsə hayıf eylər.

Mübtəla,
Quşdar uçar mübtəla.
Qul ağasına qulluğ etməz,
Hakkın isdər mübtəla.

Hakimisən,
Hakimlər hakimisən
Giribsən buğa donuna
Dağıdırsan ləkimi sən[85] (S. 47).

[85] Söyləyici bu bayatıları Lələnin bayatıları kimi təqdim etdi.

## 170-171. LOĞMAN

O vaxt deyirdilər ki, il təhfil olanda çarxı-fələk dayanır. Bir dəyqə, iki dəyqə, indi o hardadı, necədi, onu bilmirəm. O vaxt camaat gedir ordan nəsə çıxardırmış. Xamır qayırırdılar, aparıf çarxı-fələyin divarına yapışdırırdılar, orda nə olsa xamıra düşürdü. Bu Loğman da xamırı yapışdırır ora, bunun baxdına yazılır ki, bu duanı oxusan, çarxı-fələk dayanajaxdı. Çarxı-fələk işə düşənnən sonra hamı çıxır gəlir, Loğman qalır orda. Gedir duuyu oxuyur, çarxı-fələk dayanır. Loğman nə vardı xamıra yapışdırır, duaları götürür, Loğman onnan Loğman oldu. Loğmanın da şəyirdi Əflatun olufdu. Əflatun da çox dəyməduşər olufdu, ustadınnan çox güjdü olufdu.

Əflatuna nəsə olufdu. Deyir, bunun əlini, ayağını bağlayın, o dərmanı tökür, onu müalicə eliyir. Birində də bir xəstənin beynində qurt var imiş. Gəlir maalicə eləməyə. Daa bu Əflatunun əlinnən bezibmiş Loğman. Deyir, Əflatunu qoymayın burya. Gedir beyin qapağını qaldırır qurdu götürməyə, Əflatun da bajadan baxırmış. Deyir, Loğman, elə eləmə, damarı partdadajan. Nakqaşı qızdır, qurdu tut, götür. Əflatun elə qüvvəli olufdu (S. 11).

### 171.

Loğmanın gözünün ağı qarası bir oğlu varmış. Uşax xəsdələnir, ölümcül olur. Loğman nə illah eliyir, bunu sağalda bilmir. Arvadına deyir, mən çıxıb gedirəm. Fikirrəşir ki, oğlum ölsün, qırxında-zadda gələrəm. Gözüm görməsin bunun ölümünü. Ərəstu eşitdi ki, Loğmanın oğlunun vəziyyəti pisdi. Gəlir evə. Görür, doğrudan da, uşaq zor nəfəs alır,

vəziyyəti pisdi. Arvada deyir ki, hanı Loğman? Deyir, bu ağrıya dözmədi, çıxdı getdi. Deyir, sənə bir and verəjəm, gərək düzünü deyəsən. Arvad deyir, mən də sənə and verirəm ki, mənnən eşitdiyini heş yerdə demiyəjəhsən. İkisi də and içir. Deyir, bu uşağın atası kimdi? Arvad deyir, o vaxd qaşqınnığa düşdü, kürd məni zorradı. Bu uşağın atası kürddü. Tez Ərəstu südə-qatığa tutur, uşax dirilir. Aradan bir müddət keçənnən sonra Loğman fikirrəşir ki, artıq olan olub, keçən keçib. Gəlir ki, uşax qapıda oynuyur. Deyir, arvad, uşax nətər dirildi? Deyir ki, Ərəstu gəldi, bunu sağaltdı. Deyir, nəynən? Deyir, elə südə-qatığa tutdu. Ay itin qızı, bə mənə niyə demirdin uşağın atası kürddü (S. 44).

## 172. TEYMURLƏNG

Bir də rəhmətdih ağa bir söhbəti elədi ermənilərin Göyçə mahalındakı tarixini. Mirhüseyin ağa rəhmətdih deyirdi ki, a bala, ermənilərin artımı Sevanın başındakı Keş dərəsinnən başdıyır. Dedi, bir tayfadan əmələ gəlif bunların hamısı. Yerri ermənilər, bax, o tayfadan əmələ gəlif, qalannarın hamısını qıraxdan köçürdüf gətiriflər. Deyirdim, ağa, nətər? Deyirdi ki, ağam danışırdı ki, vaxtilə Teymur balaja olufdu. Teymurləngdən danışırdı. Okqədər surətnən qaçan uşax oluf ki, quzu sırasına gedəndə dooşan quzunun içinnən çıxıf qaçır, bir gün axşama kimi dooşan qaçır, dooşanı tutuf gətirir quzunun içinə buraxır, bir də qaçır. Axşam gələndə dooşanı tutur gətirir. Deyir, ana, bu kimin quzusuydusa, bugün qoymadı məni çörək yeməyə. Deyif, oğul, bu quzu döyül, dooşandı.

Onnarın, deyir, kəndində yaşıyan bir erməni olur. Gedir deyir, kitabını aş görüm, hələ bu uşax nə möcüzədi. Baxır ki, bunun çox təhlükəli gələjəyi var. Deyir, bu uşağı məhv elə, sənin nəslində böyüh bir bəla var. Anadı da, gəlir, qulflu qazanı götürür, belə gedəndə guya ayağı ilişir. İlişəndə içi su dolu qazanı bunun əyağının üstünə salır. Teymurun qıçı orda qırılır. Ləng topal deməkdi. Ağa bu tarixi belə danışıf ha, mən də sizə olduğu kimi danışıram, uşax yaddaşı qüvvətdi olur. Deyirdi, on yeddi yaşına çatanda məhlə-məhlə oluflar. İkisi bir qavalaşıf ki, yaxşı oğul olsan, anan keşişin sözüynən qıçı qırmazdı. Gəlir anasının xirtdəyinə bıçağı çəkir ki, mənim qıçımı niyə qırıfsan? Deyif, oğul, filan keşiş... Teymurləng orda əlini atır anasının döşünə. Deyif, ya bunu kəsəjəm, ya ermənin nəslin kəsəjəm. Bax, ağa dedi ki, ermənilər qıra-qıra, qıra-qıra, qıra-qıra gəlir çıxır Göyçə mahalına. Basarkeçərin adını Teymurləng qoyur. Deyir, buranı da basdıx keşdik. Yerəvan, Razdan, o vaxdı oların ayrı-ayrı addarı varıydı, ermənilərin bir tayfası yığılıflarmış Sevanın bəri başında Keşiş təpəsi deyirdilər orya. Qapıçısı deyir, ağa, burda bir tayfa qalıf, onu nağayrax? Deyif, dəymə. Gələjək nəsil bizim milləti qaniçən adlandırar. Qoy bu artsın törəsin, bilsinnər ki, biz bunun kökün niyə kəsməh istəmişik (S. 34).

## 173-175. ŞAH ABBAS

Allahverdi xan kor olufdu, Həzrət Abbasnan İmam Hüseyn ağanın hərəminin yanında dilənçi oluf. Diyir, Şah Abbas buna pul tulluyufdu qızıl, o da qədimi pul olufdu. Şahın öz dövrünnən qabaxkı padşahların qızıllarınnan olufdu.

Əlini üsdünə sürtməknən bilifdi hansı padşahın qızılıdı. Deyir, bunun gözü kordu, bu istedad bunda hardandı, əlini sürtməknən pulu tanıdı. Əlini sürtməknən pulu tanıdısa, gör bu nə qədər ağıllı adamdı. Deyir, girirəm ziyarətə, çıxanda sənin gözün kor olsa, səni dar ağacınnan asdırajam. Səndə bu istedad var, bu pulu tanıdın. Üsdəlik də, elə bir müqəddəs məkanda oturmusan ki, nəyə görə sən kor qalmalısan? Nəyə görə bu ağalar sənə şəfa vermir, sənin gözünü açmır? Şah girir. Bu da yalvarır ki, ay ağalar, şahın qəzəbinə düçar olmuşam. Ya bu şahı öldür, bu itiqadsızdı, ya mən itiqadsızam, məni öldür, o şah məni camaatın gözü qabağında biyavır eliyif asmasın. Yalvarır, yalvarır, yalvarır, bir də görür gözü açılıb. Şah Abbas gələndə görür bu, gözü açıx hərrənir. Allahverdi xan deyir, ağama yalvardım, heç hansımızı günahkar bilmədi, mənim gözümə işıx verdi. Nə məni öldürmədi, nə də məni rüsvay eləmədi. Onnan sonra onu Şah Abbas aparır özünə vəzir eliyir. Xan adı da verir, Vəzir Allahverdi xan (S. 26).

**174.**

Gəncədə Şah Abbas meçidi var. Onun tarixçəsi belə oluf ki, meçid tikiləndə deyif ki, kimin sübh namazı qəzaya getmiyifdi, – onun adamları da etiqadlı oluf – kimin sübh namaz qəzaya getmiyifsə, – indi alimlər var, axundlar, din adamları, seyidlər, – o gəlsin ilk daşı bu xıma tullasın. Hamı quruyub qalır. Allah evi tikilir, mən yalannan deyim ki, mən qəzaya verməmişəm. Heş kim tərpənə bilmir. Şah Abbas özü deyir, ey Allah, səni şahid tuturam ki, namaza başdıyan günnən bu günə mən sübh namazımı qəzaya uğratmamışam. İlk daşı özü tulluyuf. Ən fəzilətdi namazdı sübh namazı. O birsi namazdardan iki qat, üç qat savabı var (S. 26).

## 175.

Şah Abbas haqqında onu eşitmişəm ki, Təbriz şəhərində gedirmiş, arabaynan gedirmiş, birdən araba bir çökəyə düşür. Çökəyə düşəndə diksinir. Deyir, saxla. Saxladır. Deyir, bu yola baxan kimdir, gedin onu çağırın, gəlsin. Və həmən adamı çağırıllar. Deyir ki, bu yolun vəziyəti niyə belədi? İndi sən bu çökəhdə dur, mənim arabam sənin üsdünnən keçəjəh. Ermənilər Şah Abbası bəyənirdilər. Deyirmiş ki, bir güldən dəstə düzəldəndə o dəsdə adama xoş gəlməz, amma müxdəlif güllərdən olsa, bu dəstə adama xoş gələr. Elə də Azərbaycandan olan millətdərin azərbaycannılar səviyyəsində qeydinə qalırdı. Yəni onnar da bizim millət kimi yaxşı yaşamalıdı (S. 18).

## 176-178. SƏMƏND AĞA

Səmənd ağanın çobanlarınnan biri bizim kəntdən olufdu, İmaməli. Təsəvvür elə ki, harda kasıf olurmuşsa, onun xeyridi, şəridi, toyudu Səmənd ağa eliyirmiş. Mirhüseyin ağan deyirdi, bizim kəntdə bir İmaməli olufdu, cavan uşax olufdu. Çox kasıf aylə oluflar. Səmənd ağa çarvadar donunda gəlif çıxıf bizim kəndə. Deyif ki, bu İmaməlinin atası, anası kimdi? Qapıda təzə-təzə yazıymış da. Gəliflər ki, bunun atasıynan anası dizin yerə qoyuf, uşaxları da balajaymış, belə quşəppəyi[86] yığıllar. Gəlif deyir ki, a kişi, nəynən məşğulsan? Başını belə qaldırıf ki, geyimi çobana oxşuyur, amma samballı-zaddı, nurani bir adamdı. Deyif, vallah, kimsən bilmirəm, uşağı yaza birtəri çıxartmışıx, qonşu da sağ olsun, axşam olanda bir litir süd verir, onu

[86] Həm də yolotu adı ilə tanınır.

da uyuşdurub sabah yoldaşım bişirəjək, qatığı onun üstünə töküf uşağa verəjək. Səmənd ağa qayıdır həmən yatağa, o vaxt Sətənağac kəndinin altında Səmənd ağanın qışlama yatağı olufdu. Ordan gəlif deyir, ayə İmaməli, a bala, burya gəl görüm. Ə, oğul, çoxdandı getmirsən evinizə baş çəkməyə. Get o yanı balalı qaşqa sarı düyəni də çək, apar get. Deyif, ağa, kimə verim? Deyif, heş kimə. Apar atana verginən ki, kimnənsə gedif minnət götürüf süd isdəməsin. Gələndə deyif ki, ay oğul, burya gəl, ananın əyninə baxdım, elə-belə sanadım. Hardasa təkcə ananın, atanın üstündəki paltarda bəlkə yüzdərnən yamax vardı. Ala bu balaja kisəni içində nəyi varsa verərsən atana, anana, paltar alar. Bax, bizim kəndçi İmaməlinin timsalında belə bir söhbəti olufdu (S. 34).

## 177.

Ağaya[87] sual verirdik. Deyirdim, ağa, bizim kəntdə, ümumiyyətnən, Göyçə mahalında Sarıyaquflu Musa kişi kimi qəşəh zurna çalan yoxdu da, ya Daşkəntdi Zamanxan kimi. Deyirdi, yox, oğul. Sorcalımı, ya Daşkəntdimi olufdu Behbud. Dedi, Behbudun çaldığı qara zurnanı ves Azərbaycan çalmıyıf. Bir gün, deyir, Səmənd ağagil Zodun üstündə oturuf yeyif içillərmiş. El yaylağa köçürmüş. Qarabağ bəyləri də gəlir hamısı orya. Deyir, dedi ki, ağa, bəylər gəlirlər, atdarı da yornuxdu, bu atdarı dingillətməyə elə bir şey olarmı? Deyir, dedi ki, gedin Behbudu çağırın burya. Deyif, Behbud, bax, bəylərin atdarı yavaş-yavaş gəlir, atdarı yoldan çıxarda bilərsənmi? Deyif, ağa sağ olsun, bu saat. Behbudun çaldığı qara zurnaya bəylərin hamısın

[87] Mir Hüseyn ağanı nəzərdə tutur.

atı oynuyufdu. Səmənd ağanın qabağında bəy heş nə demiyif da, çıxardıf xurcunu. Səmənd ağa deyif ki, o buna haram olar. Bax, bu qızıl ona çatasıdı. Behbudun hakkın özü verifdi. Behbudun da gözəl qoçaxlığı oluf, özü mehtər oluf. Qarabağ bəylərinə deyif ki, sizin içinizdə elə bir qoçax adam olarmı ki, məsələn, qoyun sürüsü ordadı, çapa-çapa gedə, quzuyu götürə, kəsə, buraya çatanda cəmdəyi hazır verə. Bəylər deyiflər ki, Səmənd ağa, sən elə möcüzə danışırsan ki. Deyif, Behbud, Qara Bödəyi min. Bödəy atın hansı cinsinə deyillər, bax, mən onu bilmirəm. Behbud atı minif. Deyif, odura bax, Səmənd ağanın öz heyvanı imiş, qaç ordan bir quzu gətir bəylər üçün. Səmənd ağanın özünün yeddi sürüsü var imiş, hərəsi də min baş imiş. Deməli, Behbud minir çılpax ata, gedir orya, sürünün içində bircə səfər belə hərrənir çıxır, bəylər də baxıllar da, bircə toz qalxır. Atın üstünnən düşmədən cəmdəyi soyub gətirir. Bax, Səmənd ağanın yanında belə insannar da yaşıyıf (S. 34).

**178.**

Deyir, Səmənd ağa bir gün gəlif, İnəkdağı imiş, ya Ağyoxuş imiş. Baxır ki, bir yerdə toy çalınır, amma camaatın hamısı orda-burdadı. Birinə yaxınnaşıf soruşur ki, ə, orda kimin toyudu? Deyir, ə, nə bilim, bir kasıbındı. Nəzir kimi də kimsə bir heyvan verif, o da qoja bir şeydi da, kəsif oğluna toy eliyir. Səmənd ağa gedir ki, həqiqətən də, elə imkansız aylədi ki nətəri. Səmənd ağa deyir ki, a kişi, bu gün – o vaxdı ciyər axşamı demirdik, mağar gejəsi deyirdik – yəqin mağar axşamıdı. Kişi də arif adam oluf ha. Baxır ki, Səmənd ağanın sözündə bir məna var. Deyir, nə bilim, bir hay-küy eliyirik ki, uşağa toy eliyəjih. Deyif ki, savax mən

başımın dəstəsinnən gəlləm, yaxşı kavabın olar? Eşitmişəm yaxşı kavab çəkirsən. Quzuyu bütöv bişirə bilərsənmi? Deyif, ağa, təki sən gəl. Bunun yanında da adamlar oluf kəntdən ha. Səmənd ağa gejəynən həmən mağarı qurdurur, gəlinin paltarına kimi, qızılına kimi hamısını alır. Səhər durullar ki, kişinin evinin altda mağar quruluf. Təzdənnən toyçuları gətirir, kişidən heş nə istəmir, bu da sizin hakkınız. Səmənd ağa başının dəstəsinən Göyçə bəylərinən, aşıxlarınan bərabar kişinin toyuna gəlir. Gələndə el baxır ki, Səmənd ağa buların saymadıxları adamın oğlunun toyuna gəlif. Camaat tökülüf gəlir həmin xeyir işə. Ona görə heş kim o saxada ola bilməz, heş kim o səxavətdə ola bilməz (S. 34).

## 179-187. LOĞMAN NAĞI

Loğman Nağının evinə cavan uşağ olan vaxtı üş dənə dərviş gəlir. Bu da kasıb bir adam olur, heş zad olmur yeməyə. Bunlar bilirlər ki, bunun heş nəyi yoxdu. Deyir, oğul, ala bu dərmanı, get gölün qırağına. Qamışdığa çatanda bu dərmanı gözünə çək, amma nə vursan, halallıxnan gətir hamısını burya. Deyir, gejə vaxtı mən görmüyəjəm axı. Deyir, görəjən. Gedir, gölün qırağına çatanda həmin dərmanı çəkir, baxır hər yer işıxlaşdı. Ördəkdən-qazdan vurur, gətirir evə. Bişirillər, yeyillər. Deyir, sabah gedəjeyik burda bir yer var, ordan çiçək yığmağa. Qab-qaşıx da götür, orda nəsə bişirdik-elədik. Yolda bunlar bir dənə heyvan alırlar. Götürüb heyvanı gedillər. Heyvanı bağlıyır ağaca, biz tuğulğa deyirik. Onun gözü yerdə bitir, insan üçün xeyirli şeydi, çaya töküb içirlər. Deyir, oğul, biz cızığı çəkirik,

burdan ilan çıxacax. Sən ilana dəyma haa. İlan çızıxdan çıxannan sonra o özü öləjək, yəni tilsimi sınajax. Biz gedirik çiçək yığmağa, hərrənib gələjih. Gedillər çiçəyi yığıllar, gedə də burda oturub gözdüyür, gözdüyür. Qoyun o qədər fırranıb oranı otduyur ki, təmiz yerə çıxır, qufquru olur. Ora cızıx çəkiflər, onnan sonra ordan ilan çıxır. Baxır ki, ilan çıxdı. İlan çıxandan sonra çönür arxası üstə, bunun tilsimi sınır. Həmin adamlar gəlir. Deyir, oğul, get bunu kəs, doğra, bişir, gətir yeyək. – Ayə, – deyir, – bunlar nə danışır? İlan da yeyilərmi? Onun, deyir, bir qarış quyruğunnan, bir qarış başınnan kəsillər, qazana doldurullar, bişirillər, bunlar yeyir. Deyir, oğul, sən də ye, sonra peşman olajan. Deyir, yox. Yeyif qurtarannan sonra deyir, indi biz gedirik çiçək yığmağa, sən apar qab-qaşığı yu. Bu oturur bulağın başında. Deyir, bunlar ölmədi, mən niyə ölməliyəm ki? Baymağınan qazanı sıyrır, dilinə çəkir. Baxır ki, heş zad olmadı, dörd böyründə otdarın hamısı danışır. Bax, onnan sonra Hajı Nağı başlıyır loğmannığ eləməyə. Hələ accaca dilinə çəkif ha, yesə gör nətər olarmış (S. 10).

**180.**

Bir gün yaylağa çıxanda aran camaatı biri gətirir ki, mənim arvadımın ombadan qıçı çıxıbdı, əlini vurmadan onu sal. Bir az oturub söhbət-zad eliyillər. Deyir ki, mən onu nətər salım? – Elə elə mənim arvadıma əlin dəyməsin. Deyir, yaxşı. İndi özününmü olur, yoxsa qonşudan gətirir, bir camışı gətirillər, axşamdan duzdu sudan verillər. Yox, duz verillər, su vermillər. Sabah-sabah gəlir, deyir, indi arvadını gətir. Qoyur camışın belinə. Deyir, arvadı bağla. Qıçalarını altdan bağlatdırır. Deyir, suyu verin. Suyu

verillər, başlıyır bu yavaş-yavaş şişməyə, şişəndən sonra arvadın qıçaların ikisi də yerinə düşür. Deyir, gəl özün də düşür, apar get (S. 10).

**181.**

Biri gəlib ki, arvadın döşündə rak oluf, deyif bunu qurtar. Deyir, get Qannı gölün qırağındakı qamışdan üş dənəsini kəs gətir. Özü də örgədir çəpinə kəsəsən. Çəpinə kəsib gətirir üçünü də. Bu da yaxşı dərman düzəldir. Deyir, indi arvadının başını tut, bərk tut. Üçünü də keçirdir gəlinin döşünə altdan, dərmanı qoyub sarıyır. Deyir, get, bir aydan sonra gətirərsən, amma heş kim əlini vurmasın. Bir aydan sonra gətirillər, açıllar ki, uje yoxdu, last düşüb.

Ağbulax kəndinnən birinin gözləri görmürmüş. Bir uşağı buna qoşullar ki, ay bala, bunu apar Hajı Nağının yanına, gör bunun xəsdəliyi nədi, gözləri niyə görmür. Bizim rayon mərkəzinə dönürsən də, bir yol belə gedir, bir yol Zod tərəfə gedir. Beş-altı ağsakqal söhbət eliyirmiş, bunnardan biri də Hajı Nağıymış. Baxır ki, bir uşax mindirib ata bir kişini. Deyir, oğul, bunu harya aparırsan? Deyir ki, Qannıya gedəjəm, Hajı Nağının yanına aparram. Belə gözünü açır, baxır. Deyir oğul, – at təsdiyibmiş[88] də, – onu götürür bunun gözünə sarıyır. Deyir, oğul, gedərsən Hajı Nağı evdə olmasa da, sabah gələjək. Özü Zoda gedirmiş haa. Gedir, sabah-sabah gələndə uşax baxır ki, həmin kişidi. Deyir, gətir onun gözlərini aç. Gözlərin açır, baxır ki, gözləri sapasağdı. O İbn Sina kimi bir adam olufdu (S. 10).

[88] Təsdiyib – peyinləyib

## 182.

Ağa deyirdi ki, elmnən yüksəh qabiliyəti olan, türkəçarə müalicə eliyənnər, bunnarın hamısı ojax sayılıf. Qannıda Hacı Nağı oluf. Deyilənə görə, İrannan iki-üç nəfər qonax gəlir Qızılvəngə. O vaxdı da bu Nağı hansısa bəyin heyvanın otarırmış. Şişqayalı Bayramov Mikayıl vardı, bizim kəntdə kalxoz sədri işdədi, Hacı Nağının buna danışdığını bizə də danışdı. Nağı o vaxdı Göyçədə rakı müalicə eliyirdi. Zağalıdan aşağı, dənizin qırağına yaxın yerdə Torfağan deyirdik biz, orda ot varıydı, payız o elə çürüyürdü, kül rənginə dönürdü. Onnan gətirif parniklərin, toxumun altına səpirdilər gübrə kimi. Orda bir gül pitirmiş. Məsələn, iyun ayınnan başdıyırmış, gecə saat dördün yarısında çıxırmış, dörtdə çiçəhliyirmiş, dan ulduzu söküləndə çiçəh soluf məhv olurmuş. Bax, bunu bircə bilirmiş Nağı. Bayramov Mikayıl deyif ki, ay Nağı, bunu sən nədən bilirsən? Bax, indi gəlirəm sözümün üsdünə. Deyir, İrannan bizə iki nəfər gəlmişdi, mən də Qızılvəhdə İlannı qayada heyvan otarırdım. Bunnar gəldi, mənnən soruşdular ki, bax, belə bir formada, belə rəhdə buralarda heç ilan görüfsənmi? Deyir, dedim, yox. Onnar, deyir, saatdarnan oturdular, saatdarnan dua oxudular. Deyir, bir gün baxdım, bunnar bir ilan tutdu. Mən, deyir, elə bilirdim ki, bunun üsdü xüsusi daşqaşdı, amma baxırdın ki, bu ilandı. Deyir, bunnar gəldi, ilanı beləjə uzatdılar, bunun başı üsdünə bir dənə qırmızı parça atdılar. Baxdım, deyir, ilanın həmi ortasınnan quyruğuna sarı bir ağ xətt var, bir də başınnan ortasına sarı ağ xətt var. Onu deyir yavaşca bıçaxnan araladılar, quyrux da qaldı bu tərəfdə, baş da qaldı o tərəfdə, ortanı götdülər, deyir, gətdilər. Dərisini beləjə çıxartdılar, doğradılar, pişirdilər.

Deyir, dedilər ki, gə sən də ye. Deyir, dedim, yox, mən ilan əti yemirəm. Kişinin biri maa qayıtdı ki, gə sən də ye, peşman olassan. Deyir, dedim ki, yox, lazım döyül. Deyir, dedi, yaxşı, sən bilərsən. Deyir, bunnar yedi, qabı da orda qoyuf çıxdılar getdilər. Deyir baxdım ki, qoy görüm bunnar ölürmü? Bunnar ölmədi. Gəlir ki, divində yağ var. Bu Hacı Nağının dilinnən Bayramov Mikayıla çıxan sözdü. Deyir, barmağımı saldım, bunun yağınnan dodağıma, dilimə vurdum ki, ə, bu elə qəşəh dadır ki. Gördüm burdan qalxan çiçəh deyir ki, mən filan dərdin dərmanıyam. Ordan çıxan çiçəh deyir ki, mən filan dərdin dərmanıyam. İndi bilmirəm sizə bunu nətər danışıflar. Öz dilinnən çıxanı Bayramov Mikayıla, bax, belə danışıf (S. 34).

**183.**

Sonra el dağa köçəndə bu Şəmkirdi, Bərdədi Qaraxaça yaylağa gedəndə ordan bir qadının qarnında şiş əmələ gəlir. Deyillər bunu aparağın Hacı Nağının yanına. Nağı belə baxır, baxır ki, hə, bu nədisə... Deməli, bütün gejəni yatmır. Durur gejəni belə piyada gəlir, gəlir, gəlir ki, ayə, həmin o torfağan dediyimiz yerdə çiçəhlər açıf. Deyilənə görə, buna ayan idi ki, xərçəngi maalicə eliyən həmin çiçəhdi. Hacı Nağı, bax, o çiçəyi götürür, həvəhdəstədə əzir, qoyur bu qadının qarnının üsdünə. Səhər gedir ki, şiş belə göbələhfasona dönüf, altdan nəzilif, baş belə yekəlif. Gedir onnan bir də döyüf gətirir, qoyur yenə şişin üsdünə və həmən yeri bağlıyır. Baxır ki, həmin dərman bunu çəkə-çəkə yuxarı aparır, bu aşağıdan nazilir. Təxminən on gün, on beş gün bu Hacının qapısında qaldı. Baxır ki, uje tam nəzilifdi, həm də ora quruyan kimidi. Hajı bunun dərisini

yavaş-yavaş çəkəndə baxır ki, bu süyrüldü, cırcım atmış taxıl sünbülünün kökü kimi çıxdı. Hə, Hacı Nağı onda deyir ki, heyif ki, o ilanın ətinnən mən yiyə bilmədim. Eləjə onun yağınnan dadmışam, mən bunnarı bilirəm (S. 34).

**184.**

Hajı Nağı bir həkimnən spora girif. Deyif, ya sən yaşamalısan, ya mən. Hajı buna deyif, get nə bilirsən elə. Dərman hazırra. Ya sən öldür məni, ya mən səni. Bu da gedir həkimdi, dərman hazırrıyır eninə-uzununa. Gətirir deyir, mənim dərmanım budu, bunu içəjən öləjən. Hajı Nağı kəntdən, deyir, iki yüz, üz yüz litr qatığ-ayran yığır, boşkaları doldurur, deyilişə görə. Dərmanı içənnən sora qatıxdan əldən qoyur, dərmannan əldən qoyur, ölmür. Həkim deyir, indi sən hazırra, mən içəjəm. Hajı Nağı gedir bunun kimi (yanındakı şəxsi göstərir – tərt.) bir cavan oğlanı tutur. Deyir, günü neçəyə işdiyirsən? Deyir, beş manata. Deyir, on manat verəjəm, gəl gedək. Həkimin də yolu bu Hajı Nağının evinin qabağınnan keçir. Hajı Nağı buna deyir, gördün ki, həkim gəlir, takkatak vur, ayrı heş nə eləmə. Həkim gəlir, bir gün keçir, görür takqıllıyır. Fikirrəşir ki, görəm, bu kopoğlu nə hazırrıyır. Qayıdanda gənə görür bu takqatak döyür. Üçüncü dəfə gedir, evdə ölür (S. 41).

**185.**

Onun bir dənə yaxın adamı olur, uşağı rəhmətə gedif. Uşax da salamat uşaxmış. Fikirrəşif ki, bu qədər gələnigedəni hamısını maalicə eləmişəm, niyə bu uşağa çarə eliyəmmədim? Uşax da başınnan şikayət eliyirmiş. Uşağı yuata götürəndə ev yiyəsinə deyir, icazə ver, buna baxım.

Beyin qapağın açıf, görüf beynin üsdündə suluxlar əmələ gəlif. Heyvanın ciyərində olur ey, bax onun kimi. Ev yiyəsin çağırıf deyir, mən nətər bilməmişəm? Bu uşağı bircə həfdə soyux suynan yusaydıx, suluxları vuruf dağıdajeydi.

Sora Zod kəndinnən biri gəlir. Hajı Nağı da Qannıdan oluf da. Bu da, elə bil, xəsdə yanına gedirmiş. Uşağın gözü tutuluf, valideyni deyir ki, bunu aparım Hajı Nağı maalicə eləsin. Qoşabulaxnan bizim aramızda kəsmə yol var, burdan keçəndə baxır ki, xurcunnu-zaddı bir atdı gəlir. Həmən xəsdə aparan kişi bunu saxladıf deyif ki, belə-belə, mən Hajı Nağıyı axtarıram. Deyif, nə məsələdi? Deyir, neçə vaxdı bu uşağın gözləri tutuluf. Deyir, uşağı düşürt. Atın təsinnən uşağın gözlərinin üsdünə qoyuf bağlıyır. Deyir, get, filan vaxdı açarsan gözünü. Deyilən müddət çatanda sarğını açıllar, uşağın gözü anadangəlmə olur (S. 30).

**186.**

Hacı Nağı bütün dərtdərin dərmanın bilif, amma öz oğlunu maalicə eliyə bilmiyif. Oğlunun, deyilənə görə, ürəyinə qıl dolanıfmış. Nəkqədər maalicə eliyir, oğlunu dirildə bilmir. Oğlu dünyasın dəyişənnən sonra deyir, loğman olasan, bu dərdi bilmiyəsən. Oğlunu özü əməliyyat eliyir. Baxır ki, oğlunun ürəyinə qıl dolanıf. Deyif, sən Hacı Nağı olasan, oğlunu köhlən at belinə mindirib çapdırmayasan ki, ürək genişlənə, qıl qırıla (S. 46).

**187.**

Hajı Nağı dədəmin kirvəsi oluf. Onun necə loğmannığ etməsin danışırdı dədəm. Türkiyədən iki adam gəlif. Mənə Türkiyə deyiflər, bəlkə Türkiyə olmuyuf, İran oluf, Ərəbistan

oluf, onu bilmirəm. İki adam gəlif. Gəliflər çıxıflar dağa. Bular, deyir, hansı ot nəyin dərmanı imiş hamısın bililləmiş. Biri, deyir, balaca adamdı, biri də hündür adamdı. Otdan-motdan yığıllar xurcunnara. Qavlıyıflar, deyir. Balaca adam yığır, yekə adam da üsdünü yazır. Nəysə, deyir, bir ilan tapdılar. İlanın başını kəsdi, üzünün qabığını çıxartdı təmiz, onu qavda bişirdilər. Bişirillər, Hajı Nağı da buların yanında olur ha. – Ayə, Nağı, ye. Deyir, ayə, ilan da yeyilərmi? – Ayə ye, peşman olajan, ye. Yemir. Bular ikisi də bu ilanın ətinnən yeyir, qav da qalır burda. Bular gedənnən sonra Hajı Nağı deyir, görüm bu nə dadır. Əlinnən belə sıyrır, yağını bir-iki dəfə ağzına alır, görək bu nə dadır. Görüf ki, otdar bir-birinən danışır, mən filan dərdin dərmanıyam. Hajı Nağı bax heylə, deyir, loğmannığı örgənir. Sonra başına döyür ki, ayə, mən niyə o ətdən yemədim. Sözüm ona, İmaməli kişini sancı öldürürmüş da, bağırsax sancısı. Hajı Nağı gəlir buna bax-mağa. Deyir ki, a bala, get ordan mana beş-on dənə qoyun qığı gətir. Qoyun qığın gətirif, onnan üç-üç atdırıf, ücün axşam, üçün sabah, üçün günorta. Onnan onun sancısı kəsif. Bax, Hajı Nağı helə Hajı Nağı oluf (S. 40).

## 188. TELLİ ƏSƏD

Ceyrançöldə bir qaçağ olub, o qaçağın adı Telli Əsəd idi. O sovet qurluşuna qarşı çıxıbdı. Özü də onun gizlin yatax yeri olubdu. O yatax yerinə getmək üçün iz düşməsin deyə sal daşdarı düzübmüş, həmin sal daşdarın üsdüynən gedirmiş. Bir dəfə polis gəlib bizim kəndçilərdən birindən soruşub ki, bəs Telli Əsədin yerini deyə bilərsənmi? Deyib,

indicə bura gəlmişdi, cülyədən[89] su işdi, buruynan belə getdi. Polisdər bunun dalıynan düşür. Bu başına papax qoyur. Orda erməni donuz otarırmış, ağacı götürür bu donuzdarı qouluyur. Gəlif milis bunnan soruşur ki, sən Telli Əsədi gördünmü? Deyir, o bizə bilirsən nə dağ çəkir? Heyvanımızı aparır yeyir. Bax, buruynan belə getdi. Bunları azdırır. Deyir, hə, orda bir çoban var idi, o da helə dedi. Telli Əsəd başa düşür bunun yerini kim nişan verib. Bunları azdırır, sonra atı minir həmən yerə gəlir. Gəlir, tüfəngi həmin çobana nişanlayıb tətiyi çəkəndə tüfəng açılmır. Açılmıyanda gülleyi çıxardır ona verir. Deyir, bax, bu gülleynən səni öldürəjeydim. Ağzı yiyəsi ol, sən niyə mənim yerimi bildirirsən?

O gəlirmiş yataxlara, ona heyvan kəsirmişlər. Heyvan bişənə qədər əlində tüfəng burda dururmuş. Yeməyi gətirirmişdər, yeməyi yeyirmiş, onnan sonra çıxıb gedirmiş (S. 18).

## 189. QAÇAQ ASLAN

O vaxdı atamgil ordan qaçıf gəlif Keçili kəndi var burda, Qara Asdan deyirdilər qaçaxlıx eliyirmiş. Heş kimi yox, iki qardaş gəlif çıxıflar bura. Onnan-bunnan soruşuflar, harda qalım, bizə sığınacax. Deyiflər, burda Asdan kişi var, düzdü, qaçaxdı, amma mərd adamdı, o sana sığınacax verər. Bəlkə də öz evinə götürəcəhdi. Atam gedər. Bu gecələr evinə gəlirmiş. Nəysə, arvad-uşaxdı, söhbət olannan sora deyif, otur, bir azdan gələjəhdi. Gəlif. – Ay bala, kimsən, nə yaxşı? Deyif, Asdan dayı, vəziyyət belədi, mana əl tutginən özümü burda dolandırım. Allah rəhmət eləsin,

[89] Cülyə – yağış suyunun yığıldığı çökəyə deyilir. Ceyrançöldə su olmadığı üçün heyvannar cülyəyə yığılan sudan içirdi.

dedi ki, ay bala, bu evin bir adamı da sən. Qoyun-quzu var, qoyun-quzuya bax. Bax, hər yer meşədi, meşədə otararsan. Bir müddət, deyir, onun heyvanınnan məşğul oldum. Hamının heyvanı oluf da. Bu keçi çox qaçağan olar da. Keçi qaçanda, atamın söyləncidi, deyərdi ki, heyvanın yiyəsi olmaz. Bu gün səndədi, sabah satdın o birindəndi. Atam keçiyə pis söz deyər. A keçi, yiyən belə-belə olsun. Demə sən, Qaçax Asdan da ağacın daldeyindədi. Çıxıf, deyir, tüfəngi düz alnıma dirərdi. Dedi, Abbas kişi, kəlmeyi-şəhadətini oxu, sən mana söydün. Deyir dedim ki, Asdan dayı, – kişi söylüyürdü, mən ağlıyırdım, – Asdan dayı, aman günüdü, vurma məni. Sözümü deyim, onnan sora vurarsan. Dedi, de görüm, a bala, nə deyirsən? Dedim ki, Asdan dayı, mən qabaxkı ağsakqallardan eşitmişəm heyvanın yiyəsi olmaz. Mən sənin çörəyini yemişəm, mən sənə söymərəm. Əlini vurdu kürəyimə, dedi, get, yaşa, bala (S. 39).

## 190. AŞIQ MƏMMƏDHÜSEYN

Bir dəfə elə olur ki, Ələsgərə bir bağlama deyillər, Ələsgər onu bilmir. Şəyirdinin birini göndərir ki, qaş Məmmədsöyünün yanına. Gəlir ki, Şair Məmmədsöyünün bir çovanı vardı, bizdə Ağrı dərəsi deyilirdi, həmin bağlamanın cavabını həmin çovan oxuyur. Çox güjlü şair olub. Onun özünün yeri varıydı, bulağı-zadı. Nəysə, elə olur ki, bu oğlunu çağırır ki, oğul, ilan məni vurajax, amma ilana heş-zad eləmə haa. Deyir, yaxşı. Ot biçirlərmiş. Gedib oturullar bulağın başında, çörək yeyən mament ilan gəlir bunu vurur. Oğlu qalxır ki ilanı öldürə, kişi götürür ilanı tulluyur taxılın içinə. Bir elə millət nə qədər gəzdilər ilanı tapa bilmədilər, elə bil heç ilan olmuyuf (S. 10).

## 191-192. USTA OĞRULAR

Bunun[90] bir oğlu var, İmran. O İmran da mənim babamnan yeznə qayındılar. Obşim, Qazaxdan gəlir. Görür ki, yolda bir ağanın dəyəsi var. Dəyəyə çatanda ciyəri yanermış da. Deyir, ay xanım, qatıxdan, ayrandan nə var, ver içək, yol adamıyıx. Ağanın arvadı başdıyır donquldanmağa ki, mən hər yoldan ötənə qatıx verəcəm, ayran verəcəm? Deyir, hə, heç nə. Bu da məşhur oğru olur ha, atasından çox güjdü olur. Gedir gözünə döndüyüm meşədə gözdüyür, deyir, tələsmə. Görür öküzü açıb buraxıb, öküz otduyur. Ağa da dağa getməlidi axı. Öküzün boğazına ipi saler, aparer öz kəndlərinə. Atası deyir, bu nədi? Deyir, belə-belə, ağanın arvadından ayran istədim, vermədi, mən də bunun başına ip salıb gətirdim. Deyir, yaxşı eliyifsən, bağla ora, yiyəsi gələjəh.

Ağanın malı gedifdi, öküz yoxdu arabaya qoşa. Bir gün belə, iki gün belə, ağa qalır orda. Nəysə, deyillər ki, Alaçıxqaya kəndində Kərim kişi var, bilsə, o biləjəhdi, onun yanına get. Nəysə, yavaş-yavaş gedir bura. Deyir, heyvandı, bəlkə gələr çıxar bu tərəfə. Kərim kişi əvvəl boyun olmur. Ağa əl çəkmir. Deyir, mən yol adamıyam, heyvanımı aparıblar, buranın da böyüyü sənsən, səni deyib gəlmişəm. Kərim kişi oğlu İmranı çağırır. Deyir, a bala, get bir hərrən. Yəni get gətir. Nəysə, gəlib deyir, ay qağa, baxdım, bu birsi dərədəki inəklərin yanındadı öküz. Öküzü gətirir bağlıyır ora. Deyir, gəl otur. Bir heyvan kəsir, oturub yeyib-içillər. Ağa da sevinir. Deyir, dağa gedim, qayıdanda sənin borcundan çıxacam. Deyir, yox, gəl burya. Bax, bu

[90] Oğru Kərimin

öküz burda nə əzir? Deyir, nə əzir? Deyir, bir bayda ayrannan ötəri bu öküz gəlib bura çıxıb. Ə, bu yol adamıdı, heç mənim oğlum döylü. Sənnən ayran istiyir, bir bayda ayrannan sənnən nə gedəsidi? Deyir, eləmi? Deyir, hə. Deyir, mən ağayam, nə qədər yetim-yüsürə baxıram, mənnən heç kim narazı ola bilməz. Deyir, bə hancarı. Bir yol adamı olufdu, ayran isdiyifdi, sənin arvadın da vermiyifdi. Bax, o da onun ajığına öküzün boynuna ip salıf, gətirif. Deyir, eləmi? Deyir, hə. Deyir, mən sənə boşdu. Öküzü aparer geder. Bütün içşiləri yığer, arvada da deyir gəl. Qamçını aler əlinə. Deyir, aaz, bu öküz hardan gəler? Deyir, mən nə bilim hardan gəler? Oğurruyublar. Bunu yaxşıca döyür. – A köpək qızı, ağa mənəm, bu var mənim, kar mənim. Yoldan gələnə də ver, gedənə də ver. Yol adamıdı, bir udum ayran isdiyif, qatıx isdiyif, sən niyə ona deyifsən ki, mən hər gələnə qatıxmı verəcəm. Bir həftədi mən yolumdan olmuşam.

Ağa Qazağın Çaylı kəndinnən olub. Onnan sonra bular dosdux eliyiflər, oların törəmələri, bax, bugünə kimi bir-birinə gedif gəlillər.

İmran dediyim də oğurrux üsdündə tutulur, türmədən yenicə çıxıbmış. Bir qrup adam oğurruğa gedir. Oğurruğa gedəndə görüllər bir nəfər sürüyə girif, hər qoltuğunun altına bir qoyunu alıf, biri də ağzında geder. Bular daa sürüyə girmillər. Deyillər, bu İmrandı, biz daha bura girmirik. İmran gözünə döndüyüm gedif oğurradığını kəser, koğuşda-zadda gizdəder, gələndə bu İmran deyir, bə mənim payımı da verin dana. Siz bu işi mənsizmi eliyifsiz? Deyir, biz gedənətən gördük sən uje aparersan, bəs ağzındakın hara qoydun?

Ermənilər Oğru Kərimin qorxusunnan bizim kəndin teritoriyasına yaxın gələ bilmirdilər. Ermənini görən kimi beşaçılannan vururmuş. Onun qorxusunnan yolların dəyişib dağnan, dəreynən gedirdilər. Erməni kəndi var, Vəng. Kərim öləndə Vəng kəndi üç gün bayram eliyir. Qış ayına düşür. Oğlu İmran deyir, yaxşı. Gejə gedir kəntdə tayaları yandırer. Oların da ağsakqalı olub. Deyir, canın üçün, bu İmranın işidi, o xəbərdarrığ eliyifdi. Onun qulağına nəsə çatsa, gəlif öydə həmin o bayram eliyən adamları bircə-bircə öldürəcək. Yığışdırın bu söhbəti (S. 52).

**192.**

Köhnə Polat dediyim yerin üsdünə erməninin heyvanı gəlirmiş. Bizim kəntdən dörd nəfər olur, bular gedif ordan erməninin heyvanın oğurruya. Gecə oluf, hərə bir heyvan götürüf, bu da heyvan əvəzinə iti götürüf meşoğa qoyuf. Açanda görüflər, ayə, it mırıldıyır. Deyiflər, ayə, öyün yıxılsın, iti gətirifsən. Təzdən iti meşoğa qoyuf aparer, ordan başqa bir heyvan götürür, meşoya qoyuf gətirir.

Mənim anamın dayısı oluf, Cin Elləz deyirdilər. Mənim kirvəm var, Qazaxda yaşıyır. O çovan idi, savxoz qoyunun otarırdı, bu Elləz də ova gedir. Bacısının göyü[91] düşür da, baçısı qızının əridi. Bunun çoban binəsində oturuf çörək yeyir. İndi ova gəlif dana, cüyürdən, dovşandan vuruf aparajaxdı. Bu Məsi başdıyır, ay Elləz dayı, sənin haran qoçaxdı? Sənnən də qoçaxları var. – Ayə, – deyir, – ağrın alem, kiri, gecə yatdığın yerdə səni oğurruyaram, xəbərin olmaz. – Ayə, – deyir, quş pırr eliyəndə mən oyanıram. Sən nətər

[91] Göy – yeznə

məni oğurruyassan? Camaatın yanında olmuş şeydi. Təsəvvür elə ki, gejə Məsini yatdığı yerdən götürür, – heyvanın quru peyini deyillər da, – gejə yatdığı yerdə yorğan-döşəkdə aparır, o püşü[92] yarır, orya basırır, üstünü də örtür. Peyin də yaman isdi olur axı. Gecə saat ikidə, üşdə baxır görür ki, bunun canı od alıf yaner. Görür qalxa bilmir. Adam çağırır. Bu da bunnan şərt kəsmişdi ki, səni oğurrasam bir erkək alacam sənnən. Hay-küy. Ə, gəlin, Məsini qoymuyun, Məsi çatdadı öldü. Obşim, gedif Məsiyi ordan çıxardıllar. Deyir, Elləz dayı, halaldı o erkək sənə. Məsinin itdəri də yaman allahsız it idi, o itin içindən nətərsə onu götürür aparır. Sabah Məsi kişi kimi 20-30 kilolux bir erkəyi kəsir, Elləzin sumkasına qoyur, ya allah, çıxer geder (S. 50).

## 193-196. QOLU GÜCLÜ ADAMLAR

Miləverdi kişi var idi, onun nəvələrini mən gördüm; atı minəndə ayağlarını üzəngiyə qoymurdular, sallıyırdılar, yolun qırağında belə-belə topalara dəyə-dəyə gedirdilər. Sarıyaqubda çox su dərmanı oluf, hamısı da Tərsa çayın üzərində oluf. Bunnar o vaxdı Naxçıvana duza gedillər. Qonum-qonşu yığılır beş-altı adam, gedillər. Gedillər ki, Naxçıvanda pəhlivanın biri soyunuf hopbanır o tərəfə, bu tərəfə, daş atır, güləş eliyir. Bu Miləverdi də o qədər cannı kişi olur. Deyir ki, vallah, bunu qaldırıf yerə çırpacam mən. Bu niyə belə yekələnir? Deyillər, ay Miləverdi, onun fəndifeili var. Sən gəlifsən duz aparmağa, qaldırıf səni yerə vurar, qolun-qıçan qırılar, duz aparamməsən. Deyif, yox ey. O vaxdı

[92] Heyvanın altından çıxan peyin. Onu yayda kürüyüb yığırlar bir yerə, günün altında quruyur, qışda heyvanın altına tökürlər.

da əba geyirdilər, şinel kimi şey idi. Əbasını atır çiyninnən, düşür meydana. Çatdığınnan pəhlivanın ortasından götürür, qaldırır qoyur arxasını yerə. Deyir, ayə, deyirdiniz bunun fəndi var, feili var. Bunun fəndi-feili elə bu idi? O dəsdəyə duzu pulsuz verillər, gəlir. Bir bu rəvayətin eşitmişəm.

Bir də Kəlbəcərdən bir pəhlivan gəlif bunun qonağı olur. Eşidif ki, Miləverdi hakda belə deyillər, elə deyillər, neçə pəhlivannan güləşif. Gəlif ki, bunnan güləşsin, güjün sınasın. Bu, gejdənnən qalxır – o vaxdı hərmə deyirdilər, kərənləri atırdılar, üsdünə də bir maşın torpax verirdilər ki, su dammasın. – çiynin verir, kürdün çarığını götürür kərənin arasına qoyur, çıxır gedir. Kürd səhər qalxır, ora çarığ, bura çarığ, çarığ tapılmır. Adam göndərillər ki, ay Miləverdi, kişinin çarığı yoxdu. Deyir, əl-ayağa dolaşmasın deyə hərməyə qoymuşam, ordan götürsün. Deyir, Miləverdi gələnə kimi bu kürd pəhlivan onu ordan çıxara bilmir. Miləverdi gəlir, kərəni belə qaldırır, verir bunun çarığını. Kürd ta demir gəl güləşəh, o formu da qayıdır Kəlbəcərə (S. 40).

**194.**

Bizim kəntdən gedillər assori kəndinə. Assori kəndi də Türkiyədən bizlərə sığınıb gəlib o vaxd türklər çıxardanda. Bularda da qoldan güjdülər olub. Bizimkilər də assori kəndinə toya gediflər. Toyun müəyyən məqamında assorilərdən qoldan güjdü biri çıxır, meydan suluyur. Rəhmətdik Abbas kişi, Rusdam kişi, Cəfər baba da orda olur. Zarafatları olub, Cəfəri itəliyiflər ki, Cəfər, çıxsana onun qabağına. Cəfər də qoldan güjdü oluf, amma güləşnən məşğul olmuyub da, əsl güləşçilər qıraxda duruf. Çıxan kimi

Cəfər gözünə döndüyüm qaldırır assorin ikisin də kürəyini vurur yerə. Deyillər, ə, siz bizim içimizin zəifi ilə güləşə bilmirsiz, biz kişilərin qabağına necə çıxarsız? (S. 20).

**195.**

Yetim Qulu da qoçax adam oluf. Kəndə bir tat pəhlivan gəlif. Güjdü adamlarnan güləşirmişdər danadan, bir qoyunnan, bir çual taxıldan, yıxermiş. Bu Yetim Qulunun yanına gəlellər. Deyillər, ay Qulu, öyün yıxılsın, bir pəhlivan gəlif, kəndi talıyıf aparır. Yetim Qulu da çöldən maldan gəlirmiş. – Ayə, bura gəl görüm, hardadı o xalası göyçək? Gəlir ki, bir pəhlivandı. Əlin belə uzadır ki, salam versin, bunun əlin nətər sıxırsa, pəhlivanın dizi çökür yerə. – Ayə, xalası göyçək, elə bil ağlıyırsan? (S. 50)

**196.**

Xannarın babası oluf Boy Əhməd. Bu çox güjdü oluf, intaası qorxax olub. Bilirsən, arxası olmuyuf dana, tək adamdı. Nəysə, bir toyda – Hajalıgil böyük tayfadı, – deyiflər, oğul isdiyirəm qabağıma çıxsın. Boz Vəli də orda imiş. Deyif, Əhməd, onu yıxa bilərsən? Deyif, yıxaram, intaası qorxuram. Ə, – deyir, – nədən qorxursan? Deyir, onlar böyük tayfadı, mən yetim adamam. Xançalı da böyründə Boz Vəlinin. Deyir, sən onu yıx, sənə bir kopoğlu əlini vursa boğazdıyaram onu. Ortaya girdi, qaldırdı bir dəfə yerə vurdu. Dedi, ə, yox, bu düz olmadı. İkinci dəfə bir də tutaşdılar. Yox, bu da düz olmadı. Üçüncü dəfə bir də bunu yerə yıxanda kişiyi döymək isdiyiflər. Boz Vəli xançalın çıxartdı: – Ə, köpək uşağı, kimi döyürsüz? Onu təkmi görüfsüz? Bayaxdan kişiləşirdiz, deyirdiz kişi çıxsın qabağımıza. Çıxdı, indi niyə belə eliyirsiz? (S. 22)

## 197-201. QAN DAVALARI

Bizim bir tərəfimiz Qazağın Quşçu Ayrım kəndinnən gedif. Çünki bizim ata-babalar deyirdi biz Odun dağınnan gəlmişik. Polad, Ağkilsə, Mürteyil, bir də Alaçıxqaya – bu üçü Ayrım dərəsi sayılırdı. Onnan sora Salax, Çaykənd, Gölkənd, Qaraqaya, yuxarı Krasnı tərəfə də Qaraqoyunnu dərəsi deyilirdi. Polatda yaşayan tayfalardan varıydı – tağılar, allahverdilər, bozqarınnar, məşədilər, rüstəmli, avdallılar. Avdallılar ən böyük tayfa oluf, sonradan bölünüf. Polatdan gələn gəlif yarı Qazağa, yarı bəri. İməcihli oluf. Bizim bir tərəfimiz Rüstəmlidi, dədə tərəfimiz İməcihli. İməcihlərin ata tərəfi oluf Qazağın Salaxlı kəndinnən. İki qardaş oluf – Məhəmməd, Xamoy. Bunnar çox qoçax uşaxlar oluflar. Bunnar nətər gedif çıxıflar ora? Bunnarın atası Mansuru öldürüflər, iki qardaş qalıf – Xamoy, bir də Məhəmməd. Gedif çıxıflar o kəndə. Bu tayfada da bir ataman kişi oluf, deyilənə görə, tağılardan oluf. Bu bir az baş aparırmış, kəndin atamanı imiş də. Məhəmmədin on-on bir yaşı, Xamoyun on üç-on dörd yaşı varmış. Görüf, ə, Xamoy yaman güjdü uşaxdı. Bu qalıxsa, gələcəhdə mənə son qoyajax. Deyilənə görə, yetmiş kilolux bir meşoy buğdanı qoyuf bunun belinə həmən Tağı, özü də belinə minif. Deyif, bax, məni o evə aparsan sənə bir belə çörəhmi verəjəm, nə bilim, siqaretmi verəjəm. Bu bunu aparıf. Aparanda deyif, ə, bu kopoğlun öldürəjəm. Bu uşax gələcəhdə qalıxsa, mənim belimi qırajax. Xamoyu öldürür, Məhəmməd qalır tək. On üç-on dörd yaşı olanda, deyir, əyağı o qədər yekə imiş ki, – torpax evlər oluf da çoxu, – ayağının tapbıltısınnan evdə yatan deyif, ə, sən öl, Məhəmməd gəlir.

Bu hiss eliyif ki, bunun qardaşını öldürən tağılardandı. Siz də məni bağışdıyın, həmən Məhəmməd gedif Tağının bacısının birini ələ aler. Çox göyçək gəlin imiş. Zeynəbi ələ aler. Sarıbulax deyirdik, bizim yaylağ idi. Bax, burda yaylağ idi, aşağıda da dam yerrəri oluf. Arvadın yanına gələndə deyif mənim qardaşımı sənin qardaşın Tağı öldürüf. Öldürməsə də, xəbəri var. Kəntdə uçan quşdan da onun xəbəri var. – Ə, – deyir, – nə danışırsan, ola bilməz! Deyir, onda mən gizdənirəm bu taxtın altında, sən qardaşını çağır, gəlsin. Arvad da bilmir axı, bilsə çağırmazdı. Çağır, soruş, görəh Xamoyun ölümünnən xəbəri varmı.

Çağırır: – Ay Tağı, ay Tağı, ay Tağı. Tağı da dağın döşündə ot biçir, nağarer. Deyir, ay Tağı, xəngəl pişirmişəm, gəl xəngəl ye. Gəlir oturur. Xəngəl yeyəndə deyir, ay Tağı – qardaşına deyir ha bacısı, – sən allah, yuxuda görmüşəm ki, Xamoyu sən öldürüfsən, elə bir şey olarmı? Deyir, haqq elədim, kəlləsini də belə elədim. Arvat pis olur. Xəngəlini yeyir Tağı, çıxer geder. Tağın da böyründəbaşında beş-on dənə qolçomağ olur. Qalxanda deyir, aaz, gördünmü, sən şüpheynən yanaşırdın, ancax mən dəqiq bilirdim ki, budu.

Nəsə, iki-üş gün keçir aradan, iki nəfər də özünə dosttanış yığır qisas almağa. Deyir, ə, Tağıyı vurajam. On üç, on dörd yaşında uşax. Nəysə, bu atır, o atır, vura bilmir. Tağı özünə bərə tapana kimi Məhəmməd vurur onu. Vurur, gedir kəndə Tağının anasının yanına. Deyir, indiyə kimi Şərəbanı Xamoya ağlıyırdı, indi sən Tağıya ağla. Tağıyı mən öldürmüşəm. Onnan düşür çöllərə. Orda-burda qaçaxlığ eliyir, hətta ermənilər bunun başına bir belə qızıl pul qoyur ki, bunu kim tapıb öldürsə, bu qızıl pulu verəjəm

ona. Bunun adamları olur, gəlir deyir ki, ay Məhəmməd, ehtiyatdı ol, səni axdarıllar bir belə qızıl pula.

Bir yetim Qulu olur, bunun da yeddi qızı olur. Həmişə Məhəmməd gəlif bunun otun piçirmiş, bir qaşığ ayranınnan, çörəyinnən yiirmiş, gedirmiş da. Çox köməyi dəyirmiş o Quluya. Bu Qulu da qızıl pula beşaçılan götürüf ermənidən ki, mən vurajam onu. Bunnan da Məhəmməd xəbər tutur. Qaraçuxur deyirdik, Qaraçuxurun üst tərəfi də meşədi. Görüf ki, Qulu orda ot piçer. Hərrəner daldeynan gəler, beşaçılanın zatvoru olur, iynəsin sökür, nağarır, tüfəngi yerinə qoyur, çıxır geder meşənin içinə. Deyir, qoy görüm, həqiqətən, belədimi. Gedir orya. Ay Qulu dayı, ay Qulu dayı, bəlkə qatıxdan, ayrannan nəyinsə ola? Bu da pəltəkmiş, yekə adam oluf. Deyir, gəl, gəl, gəl, ağrın alem, gəl. Deyir, Allah yetirdi, səni, bir belə qızıl alajam. Hə, gedir otun dalına girir, beşaçılanı tutur. Çak atmır, çak atmır, bu da gəlir. Bu çatana yaxın beşaçılanı otun altda gizdiyir, ta görür açılmadı. Gəlir barmağını soxur kişinin boğazın altınnan, qaldırır, bırasın deşer. Bu yaxınnara kimi o deşik qalerdı. Deyir, səni o yeddi qıza qurvan eliyirəm, a kopoğlu, apar o ermənin zibilin ver, bir də belə pox yemə. Mənim sənə yazığım gəler, çöldə ot yığanda gəlif kömək eliyirəm. Nəysə, yetim Qulu beşaçılanı aparer geder, ermənіyə deyir: – Ağrınızı alem, alın bunu. Bu kopoğlunun üzündə Azreyil tükü var, nə qədər elədim atmadı, nə qədər elədim atmadı.

Aradan bir gün keçir. Alaçıxqayanın üsdündə zoğallıx var, orda sizin kim bir adam yer əkirmiş. Gələndə görür ki, bu kişi oturub ağlıyır. – Ayə, nədi ağsakqal, niyə ağlersan? Deyir, bax, görörsən o meşənin içində ojax yaner, ermənilər gəldi – həmin o Vəng dediyim kəndin uşaxları olur, – iki

öküzüm varıydı, götürdülər apardılar, kəsib, orda bişirib yeyillər. Mən də qaldım bir belə uşaxnan bir öküzün umuduna. Deyir, eləmi? Deyir, hə. Gedir belə baxanda görür ki, beş erməni, altı erməni öküzü kəsiflər, ocaxda kabab çəkif yeyillər. Ermənin beşini öldürür, birini öldürmür. Deyir, mən səni öldürmürəm. Gedərsən öz kəndinizə bu xəbəri çatdırarsan. – Kişiliyə bax ha. – Deyir, bunu da öldürsəm bunun iysi kəsiləcək, xəbər yayılmıyacax ki bunu kim öldürüf. Alı öldürüf, Vəli öldürüf, qoy bilinsin bunu Məhəmməd öldürüf, özü də bu kəndin oğludu, yəni kəndə dəyif-toxunmasın erməni. Deyir, Vəng kəndinə tapşırırsan ki, Ağkilsə, Polad, Mürteyil, Alaçıxqayaya dəyən olsa içinizdə bir papaxlı qoymuyajıx sizin. Dörd dənə öküzünü gətirer ermənin ordan. Deyir, ala, bax, bu ikisini qoşursan, birin də aparıb verirsən bizimkilərə. Bu bir dənəsini də kəsif yetim-yesirə paylersan. Deyir, zurnanın dilini kəsdim, yəni ermənin başını kəsdim, da kutardı.

Müxənnətdik özümüzdən olur da. Bir Fatma arvat olur, sözü ötkün arvat olur. Elə olur Məhəmmədə böhtan yaxellar ki, ay burdan oğurruğ elədi. İsdillər bu dilnən tutalar. Fatma arvadın sözü ötkünüymüş. Yığılıllar Məhəmmədi tutullar. Deyir, məni niyə tutursuz, məən nədi dərdim-azarım? On altı, on yeddi yaşında uşaxdı. Bu boğazın belə çəkir. Yəni demək isdiyir ki, ay Fatma xala, sən mənim üzümə durma, demənə ki kəndi tanıyır, kəndi aparer gətirer. Bu arvadı örgədiflər ki, üzünə dur, tutdurax bunu. Bu belə boğazın çəkəndə arvad deyir, ay yoldaş, ay yoldaş, ona bax, deyir sizin hamınızın boğazın qopardajam burdan çıxanda. Bu yazığı tutellar, buna ömürrüh iş verellər. Bunu basellar Sibirə, o vaxd gedər-gəlməz deyirmişdər.

Ordan altı nəfər qaçer. Altı ay yol gəlellər. Hardasa 1908-1910-cu ilə gətirir də söhbət. Ordan qaçıllar, altı ay yol gəlellər, yolda əllərinə keçən it, pişih, qurbağa – nə olsa yiyillər ajınnan qırılmamax üçün. Gəlillər yolun yarısında baxellar ki, Tayqanın düzü, bunnar qırılajax ajınnan. Deyir, beş nəfərih, hamımız düşmannı adamlarıx, çöp atax, kimə düssə, onun qisasını almax şərtinən onu öldürəh yiyəh. Ləzgiyə düşüf çöp, bu Məhəmməd, deyir, bir əlini yeyif həmin ləzginin. Bu da Dağıstan ləzgisi oluf. Bu ölməmişdən qabax deyif sənin hər barmağına bir düşmanın qisasını alajam. Gəlif, deyir, orda qisasını alıf ləzginin.

Ordan gəlif burya, burdan keçəndə gecə bu tatdar deyillər... Bizdə tatdar tayfası oluf, bunnar üç qardaş oluf, bunnara da dağ çəkifmiş Məhəmməd. Nətər dağ çəkif? Bunu qoyum ona gedim. Bunnar üç qardaş oluflar, bir də bir gözəl bacıları oluf. Bax, bu yaxınnara kimi tarixi dururdu bunnarın, tayfalarından da var idi burda. Bu, Mırığ Abbasa gedibbiş. Belə invalit adam imiş. Bir gün baxellar ki, qız biriynən gəzer. Açıx-aydın deyir ki, gedirəm filankəsnən gəzməyə. Gəlir qardaşdarına deyir ki, ayə, – Qasım, Rəşid, birinin adı yadımdan çıxıb, – bacınız məni saymır, deyirəm getmə, gedir. Deyiflər ki, ayə, biz sana şey verdih, zad da verəsi ha döyülüh, bacarırsan elə, bacarmırsan elədir. Hə, yazıx invalit adam, kor-peşman qayıdır öyə.

Məhəmməd buna deyir, ayə, noldu? Deyir, arvad belə işdər tutur. Deyir, bə qardaşdarı noldu, atağız qardaşdarı var. Demədinmi? Deyir, dedim. Dedi, bə nə dedilər? Dedilər ki, biz sənə arvat vermişih, kişi də verəjih? Bacarırsan saxla, bacarmırsan haqq eliyir. – Ə, eləmi? Deyif, hə. Bax o dam yeri mənim yadımdadı. Mənim bir qohumum vardı, rəh-

mətdih Əli, onun dədəsinin dam yeri idi. Baxanda görür kü, üç qardaş üçü də ordadı. Da dimməz-söyləməz bunun üçün də qılınçnan vurur. İkisi ölür, bu Qasımın boynun dalınnan tutur, çiyni kəsilir. Bu dəyqə də nəvələrinə deyirik dədənin boynu çapıq idi. Mirzəyev məllim vardı, bir az qohumluğu çater. O aparer, maalicə eliyif, bir o sağ qalır.

Məhəmməd Sibirdən gələnnən sonra gejə yoldan keçəndə – həmin o tayfadan olullar, içəridə oturuflar, – biri deyif, ə, Məhəmməd gəlif. O biri deyib: Ə, Məhəmməd elə yerə gedif, gedər-gəlməzə. Məhəmməd gələn döylü. Deyif, ə, vallah, Məhəmmədin ayağın səsidi. Yolnan keçəndə ayağın tapbıltısı gələrdi. Biliflər ki, Məhəmməd kəndə qayıdıf. Yargəzənin boynu deyirih. İki qardaşnan da duz-çörəh kəsib, birinnən dosdu, birinnən də düşmançılığı var. Ora çatanda deyir, ə, Məhəmmədi görsən neyniyərsən? Deyir, təpəsinnən bir güllə vuraram. Bu da daldan bunu izdiyə-izdiyə gəlir axı, görüm, bu, doğurdan, maa düşmandı, ya dosdu. Onnan duz-çörəh yemişəm. Deyir, vura bilərsənmi Məhəmmədi görsən? Yəni onun cüssəsinnən, qamətinnən qorxmazsan? Deyir, ə, nə poxdu, beşaçılannan vuraram. Belə deyəndə Məhəmməd çıxıb deyir, ə, məni vurarsan? Deyif, hə. Hərrənən kimi bunu elə oturduğu yerdə vurur. O biri qardaş hay-küy salır. Deyir, sənnən duz-çörəh kəsmi-şəm, səni çörəyə bağışdıyıram, yaxın gəlmə. Deyif, yox, ayə, sən mənim qardaşımı öldürüfsən. Adı Qoca oluf, onu da vuruf öldürüf. Görür burda iş alınası döyül, çıxıf gedir Türkiyəyə. Orda evlənir. 48-50-ci illərdə ordan bir məktub yazır ki, gözünüz aydın olsun, Xamoyu da, Tağıyı da diriltdim. Yəni iki oğlum oldu. Sonra bir də məktub yazır ki,

qabax dişimin biri düşdü. Oğlunun biri ölüf. Onların əsli burdan oluf, Qazan kəndinnən.

İməcihli də Göyçədən gəlir, mənim bir babam – atamın ana babası ordan gəlif. Onnar da böyüh tayfa oluf, onnara İməcihli deyirmişdər.

– Barışıq olubmu arada?

– Bizdən Tağılara Bəsdi adında qız ərə gedib. O deyir bir dəfə yaylığı atmaxnan tağılarnan iməcihləri barışdırıb. Deyif, bir-birimizdən qız almışıx, qız vermişih. Mənim uşağım var, onun da uşağı var. Ay əmi oğlu, ay dayı oğlu, mənim bu yaylığıma bağışdıyın. Hətda onnara şahmarlılar da kömək verif. Bəsdi arvad yaylığını atıf, deyif mənim bu yaylığıma bağışdıyın, qoy ölülərini götürsünnər basdırsınnar. Kənd dərənin içində idi. O taynan bu tay atışırmışdar. Bizimkilər o qədər sərrast atıcı imiş, onnara imkan vermirmişdər meyidini basdırsın (S. 50).

## 198.

Mən uşağ idim, Tellinin atası onda öldü bax. İki qardaşdıx[93], iki dosd baravar dağa gedillər. Boz Vəlinin qardaşı Qırtdı Musa deyirdilər, çoban idi. Bu, ənsərrinin bir dənə quzusunu kəsir. Yiyəsi də gəlib ki, niyə kəsifsən bunu? Qurvannıx günü idi özü də. Deyir, kəsmisən, cəhənnəmə kəsmisən. Dərisini, heç olmasa, özümə ver, motal-zad basarıx dana. Dərinin üsdündə dava düşür. Tellinin atası da tutarrı adam idi, hündür adam idi. Ağaxan anasının qucağında idi, dəyənin qırağında oturmuşdu. Arvad qucağında uşağ yüyürdü yuxarıdan gəldi. Obşim, yeddi-səkgiz nəfər

[93] Bəyə sağdiş durana qardaşlıq deyirlər.

üsdünə düşür bunun, güjü çatmır buların. Bu Mahal yox idimi? Dəmir qarmağ[94] olurdu, qoyunnarın ayağından tutub çəkmək üçün. Buna guya qahmar çıxırmış dana, Mahalın da dayısı idi. Mahal qarmağın hərriyəndə qarmağ gicgahına dəyirmi, bu gicəllənəndə qırxlıxnan[95] vurullar Tellinin atasını. O hadisənin üstündə dörd nəfər tutuldu; çöllü, çaylı, muratdı, qaradutlu – bu nəsillərdən dörd nəfər tutuldu. Öldürən ayanda qaldı, amma bunları tutdular. Mahalın çombağı buna dəyməsəydi ona heş yaxın da düşə bilməzlərdi. Özü də qırxlıxnan vurannan baravar dağa gediflər, bir saat imiş dağa gedəni. Gedif savxozun bağınnan da meyvə yığıflar meşoxlarnan, yühlənif gediflər dağa. Bir saatdan sonra hay-haray düşür. 57-ci, ya 58-ci ildə olufdu. Hərəsinə on, on iki il iş verildi. O hadisədən sonra yeddi il kəntdə toy çalınmadı. Tutulannar ənsərri idi. Öylənən öyləndi, intaası toy çaldırmadı. Qulağının divinə dəyəndə bu gijəllənir, dəyəyə yıxılır. Yıxılanda qırxlıxnan ürəyinin üstünnən vurur. Gürcüstannan bizim arada çay axır, Bəxtiyargilin babası çaydan keçif bizə əlir gejə. Deyirdi, ona görə xəlvət gəlirəm ki, a bala, görməsinnər. Kişi ilini çəkif gəlif, genə ehtiyat edirdi ayvazdar onu görməsin. Qan davası ayvazdarnan ənsərrilər arasında olmuşdu (S. 22).

**199.**

Vidadı Babanlının atası Ömər koxanın yurdu Altındağda idi. Erməni-müsürman davası olub 1905-ci ildə, 1918-ci ildə. Birinci bizim rayondan başdıyıblar müsur-

[94] Ucunda dəmir qarmaq olan çomaq. Heyvanın ayağından tutub çəkmək üçün istifadə olunurdu.

[95] Qoyun qırxmaq üçün alət

mannarı çıxartmağa. Rusdam adında bizim kökdən bir pəhlivan olur. İgid adam oluf, ermənինin qabağını o kəsirmiş. Onun da qardaşını qonşu kəntdə ağa var imiş, o öldürür. Başqa kəndə gedəndə meşənin ətəyində öldürür. Baxırlar ki, Rusdam bunun hayıfını alajax, ağeyi öldürəjəh. Bütün ağaları yığır, çəhməyə qum doldurur, boynunnan asır, gəlir bunnan üzr isdiyir. Rusdam bunu bağışdıyır. Anası deyir ki, bala, südüm sana haram olsun (söyləyicinin gözləri dolur – tərt.), sən qardaşının qanını batırırsan. Deyif, darıxma, ana.

Elə olur ku, Qazağa gəlillərmiş də o vaxdı ot bişməyə, taxıl bişməyə. Həmin ağa gəlif ordan keçəndə Rusdam görür bunu, körpünün altında gizdənir. Bu gəlif keçəndə – Rusdamın da Matros adında bir atıcısı olur yanında, – süpürrəşillər. Ağa da güjdü adamdı, Rusdam bunu yıxanda ağa xançalını çıxardır bunu yaralıyır. Qaçmağ isdiyəndə Matros daldan beş atılannan vurur ağanı. Ondan sonra Rusdam onun sünnətini, qulağını kəsir, dəsmala bükür, gətirir anasının qabağına atır ki, qardaşımın qanın aldım. Həmin o Rusdam sovet hökuməti qurulannan sora Cilə qaçıf gəlir. Cildə Cavad olur, Cilli Cavad deyirdilər. Kənd soveti atriyada xəbər verir, gəlif onu orda gülləliyif qırmışdılar. Rusdamın bircə oğlu qalır, onu da anası tumanın altında gizlədir. O da o vaxdı Tərtərə qaçıb gəlir, orda dünyasını dəyişir[96].

## 200.

Ağanın bulağı deyirik, orda oturuf yeyib içirdik. Ramizin babası hərrəndi orya gəldi, malını otarırdı. Mən dedim, Ramiz kirvə, deyillər şərifliknən ayvazdar burda

[96] Şəmkir rayonu Çənlibel kəndində məskunlaşmış Dərəçiçək mahalı sakinindən toplanıb.

dalaşıflar, iki dost bir-birini öldürüfdü. O hancarı oluf? Dedi, onda, bax, mən burda dana otarırdım, olardım on dörd, on beş yaşında. Onun dediyini deyirəm. Bax, şərifliyin – o adınnan dedi, yadımdan çıxıb – filankəs kəvəh vardı, belə daşdı, daşın üsdü oyux kimidi, bax, bura girmişdi, mən də orda uzanmışdım ki, mənə güllə dəyməsin. Baləmi tüfəngi üzünə qaldıranda o dedi, ay Baləmi, sən məni vur, mən oğlunu vurmuşam dana. O, deyir, tüfəngi iki-üş dəfə atdı, açılmadı tüfəng. Dedi, onda Allah rüsxəti maa verif. Bu tüfəngi atdı, kişini vurdu. Bax, o hadisə burda oldu. Mənim də bir az xurustluğum[97] var idi, getdim oranı qurcaladım, bir dənə beşaçılan gülləsi tapdım. İnanırsan, İlkin məllim, onu gətirif aşdıx, ipışkıyı vuran kimi barıt yandı.

Qan davası oluf, amma qıraxnan vuruşanda o davanı yaddan çıxarıflar. Ermənilərnən vuruşuf bizim kənd 18-ci ildə, duşman olmuşux, amma orda barabar vuruşmuşux. Andranikin qoşunun elə qırmışdılar kəndin üst tərəfində, iki-üç ay leşdəri orda qaldı. Alı kişi and içirdi ki, itdər iki-üç ay o leşdən yedi, qudurdu, yedi, qudurdu. Orda hətta biri güllə isdiyif, amma kəntdə bir-biriynən düşməndi. Güllə isdiyəndə bu deyif, – Alverdioğlu deyirmiş ona, – verim öz gülləmnən özümü vurasan? Deyir, ayə, burda səni vurmujam, ermənini vurajam, kəndə gedəndə səni vurajam. Bax, belə düşmən oluflar. Ermənini qırıflar orda, qoymuyuflar ermənini Boşçalaya addamağa. Boşçalaya keçsə, necə Naxçıvanı-zadı qırmadılarmı, helə Boşçalanı da qırajaxdılar. Təhcə bizim kənd qabağında durufdu oların. Bulara hardansa xavar veriflər, bular hazırrığın görüflər. Gürcüstandan

[97] Xurustluq – hər şeyi araşdırmağa maraq göstərmək

eşalon gedirmiş, Ermənistana silah aparırmış. Dəmiryolunun bizim kəntdən keçən hissəsini söküflər, vaqonu əyliyiflər, bütün silahları düşürüflər. Gürcülərin bir generalı gəlir ki, silahları verin. Deyiflər, yox, ermənilər bizim üstümüzə hücuma gəlir. Deyiflər, biz onlara silah vermijeyik, sizə nə qədər lazımdı götürün, qalan silahlarımızı verin, geri aparajeyih. Pulamyot götürüf, nə götürüflər, qalanın gürcü geri aparıf. Silahlanıb gözdüyüblər. Arvad-uşağı çıxardıflar Boşçalaya dolduruflar. Andranikin qoşunu gələndə Ramizin babası oluf Mustafa kişi, həm də inqilabçı oluf, rəhbərlik edən o idi. Bu deyif, lap yaxına buraxın. Lap yaxına gələndə başdıyıflar atmağa, Andranik qaçıb canın zornan qutarıf. Helə qırıflar. Helə oluf Boşçalaya girə bilmiyiflər, yoxsa Boşçalanı viran eliyəjeydilər (S. 8).

**201.**

Bala Məzrədəki tayfalar: usuflu, mollaəlli, qorxmazdı, korrar, sadıxlı, hajı əhmədli, qızılhajılı, baytallı. On beşiyirmi tayfaydıx. Sifdə kəndə gələn mənim babam oluf. Axund oluf, adı Kalvay İbrahim oluf. Sulduzdan gəlif. O vaxdı bizim kənd qamışdıx oluf, biz saz deyirdih. Onun ətrafında yer salıflar, yerdən qazma evlər oluf. Onun beşaltı oğlu oluf. O biri tayfadan da qonşumuz vardı, hajəhmədli deyirdilər, dörd qardaş da olar gəlif. Hamısı Sulduzdan gəlif ha. Mən gəlmişəm onu çağırmışam, o gəlif o birini çağırıf. Bizdə bir bəy oluf, bəy də burya təzə gəlifmiş. Mənim kimi birini nökər tutuf özünə. Nökər də arıx, kasıf bir adam oluf. Nökərin bir gözəl arvadı oluf. Bəyin gözü bunun arvadına düşür. Bu arvad xaylağı, bu da bəy adam, bəy bunu bişirir. Bir gün Məhərrəm eşidir ki, ayə, bunun

arvadı bəynən oynuyur. Gəlir arvadını döyür. Arvad deyir, a kişi, sən nə danışırsan, elə şeymi olar? Nəysə, boynuna almır. Məhərrəm gəlir bəyə deyir, a bəy, ayə, sən kişisən? Deyir, niyə kişi döyüləm? Kişi döyüləmsə, sənin arvadınnan niyə gəzirəm? Deyir, eləmi. Deyir hə. Deyir beşcə dəyqə gözdə. O vaxdı türkün mauzeri oluf. Onu götürüf gəlir. Deyir, a bəy, kəmərinin qaşını gözdə, kəmərinin qaşınnan vurajam səni. Bəy gülüf ki, ayə, nökər də adam vurarmı. Əldən qoyuf bunu öldürüf. Həmən daşı mən yaxşı gördüm, bu saat bəlkə də durur. İri göy daş idi, onun dalına sürüyüf qoyuf. Kim gəlir, meyidi vermiyif. Üç gün saxlıyır meyidini. Üş günnən sonra gəlillər babama deyillər, ay Kalbay İbrahim, bu, meyidi vermir. Öldürüf cəhənnəmə öldürsün, barı meyidini versin aparıf basdırax. Olar da girri tayfa oluf. Bəy kalvayılı oluf, Məhərrəm də bizim[98] tayfadan oluf. Deyif ki, kim gəlsə də vermiyəjəm, bunu burda iyləndirəjəm, gələni də vurajam. Heş kim yaxın gəlmiyif. Babam da hündür, göygöz, sarı adam oluf. Bizim nəsil hamısı helə oluf ha. Gəlif babama deyəndə deyif, Məhərrəmi yanıma çağırın. Deyiflər, ə, meyidi buraxıf sənin yanına gələrmi o? Gəlməz. Deyif, eləmi? Deyif, hə. Özü duruf yavaş-yavaş gedif, aramız bir xeylax var imiş. Duruf gedəndə Məhərrəm görüf ki, Kalvay İbrahim gəlir. Yaxınnaşanda deyir, əmi, irəli gəlmə, bilirəm nəşə gəlirsən. Get o itdərə de gəlsinnər itini aparsınnar. Sən gəlifsən deyə verirəm ha. Deyif, ay Məhərrəm, niyə belə qələt elədin? Olanı deyif. Deyif, düz eliyifsən ey, qiryətdi başına dönüm sənin. Meyidi verənnən sonra babam evə qayıdır. Evə qayıdanda gəlif ki,

[98] Mollaəlli tayfası

qardaşı arvatdarı – siz görməzdiniz, tumannar vardı on metrdən, on iki metrdən, – tumannarın yuyuflar, qapımız da göy çimən idi, səriflər göy çimənin üsdə. – Ayə, sizin ananız belə-belə olsun, köpəyuşağı. Demək, siz məni sanamısız, tuman göstərirsiniz? Hamısını döyür, şil-küt eliyir. Gör nətər abır-həya olufdu ha. Oğlu danışır ha bunu. Dədəm deyir, bunları nətər döyüfsə, gəldim ki, arvadın birinin gözü dağılıf, birinin başı dağılıf. – Ayə, noluf? Dedilər, dədən belə elədi. – Ayə, nə üsdə? Dedilər, belə-belə. – Ayə, köpəhuşağı, hələ yaxşı sizi öldürmüyüf. Bunun əlinnən qutarmaxmı olardı, allahsız. Bax, elə adət-ənənə var idi (S. 7).

## 202. TATUL QALASI

Qaladibi kəndində erməni qalası var idi. Deyirdilər guya havaxtsa Tatul addı erməni qaçıb gedib ora sığınıbdı. Şah Abbasın dövründə oluf. Hündür qayadı kəndin üsdündə, ora mümkün döyül girmək. Bircə dənə qapısı var. Qalanın içinnən yol var, xeylax da məsafədi su yolu. Şah Abbas görür mümkün döyül, erməninin yoldaşın ələ gətirir, onun vasitəsinən dərman verir qoşuna, girir qalaya. Qılınc çəkmir, hamısın qayadan tökür. Deyir, qadını gətirin. Tatul da bir cavan, yaraşıxlı oğlan oluf. Deyir, Tatulu da gətirin. Qadına deyir, Tatula da bax, mənə də bax. Hansımız yaraşıxlıyıx? Deyir, sən yaraşıxlısan. Deyir, yalan deyirsən, o mənnən cavandı, mənnən də yaraşıxlıdı. Sən ona nə vəfa göstərdin ki, mənə də vəfa göstərəsən. Deyir, bir dənə susuz qatırın ayaxlarına bağlıyın, yollayın getsin. Ermənilər ona şeir də qoşmuşdular ki, olmasaydı çaxır, məğlub olmazdı qəhrəman Tatul (S. 20).

## 203. QAÇAQ QAYASI[99]

Orda qaçaqlar olub, dokquz qaçağ olub. Havaxsa gəlif orda məskunnaşıflar, kəntdən-kəsəhdən aralı orda yaşıyırmışdar. Orda bir dənə Tamaşa adında qaçax oluf. Danışırdılar, o qədər gözəl-göyçək oğlanımış deyir, inan, gecə çölə çıxsa, bəlkə, yerə işıx düşərdi. Elə bir gözəl oğlan imiş, saçı burdan. Bax, onu bizim qonşu kəntdən bir arvat öldürtdürür, onu da ermənіyə satıf. Hamı lənət oxuyurdu o arvada. Günüz ordan keçəndə bilif ki, burda bir qaçax var. Erməni gəler, Herant adında erməni olur, götündə tapança gəzermiş dana. Arvat deyif ki, filan yerdə barakların qayasında bir adam oturmuşdu, üzü sakqallı, saçı uzun. Kopoğlun ermənisi gedəndə orda Tamaşeyi vurmuşdu. Elə o vaxdan Qaçax qayası deyirdilər. Zağa vardı orda, hardasa on beş, iyirmi metr olardı, qayanın içində. Orda çıra yeri vardı, ojax yeri vardı, bax, orda bir ilə yaxın qaçaxlar gizlənif (S. 50).

## 204. ABBASQULU BƏY VURULAN

Orda bir daş var idi, dağa gedəndə bizim babalarımız bir dəfə düşürtdü, dedi gəlin düşək Abbasqulu bəyin vurulduğu yerə baxax. Düşdük getdik, mən indi də inanmıram, deyirəm doğrudanmı odu. Dedilər, əl izi var. İnanmadıx. Daşda elə bil şəkil çəkiblər, bir kişi əlinin şəklini çəkiblər. Dedilər, bax, o vaxdı Abbasqulu bəyi vuranda əlini atıb bu daşa, isdiyib qalxsın, qalxa bilmiyif. Onun əlinin izidi. Yəni elə şeylər var idi. Doğrudanmı elədi, ya kimsə çəkmişdi deyə bilmərəm. Amma deyirdilər Abbasqulu bəyin əlinin izidi (S. 48).

[99] Polad Ayrımı zonasında yerləşir

## 205. GÖLKƏND

Gölkənd Cənubi Qafqazda, eləcə də Qərbi Azərbaycanda ən iri yaşayış məskənlərindən biri oluf. Çənbərəhnən Qazax rayonunu birrəşdirən yolun üstündə, Murğuznan Cantəpə yaylağının ətəyində yerrəşir. Gölkəndin içərisinnən Tərsa çayı axır. Bu çaya el arasında Böyüh çay, Ketix çay da deyillər, onun sağ sahilində Gölkənt kəndi yerrəşir. Bu çay öz mənbəyini Çənbərək rayonunnan götürür. Bu çaya müxtəlif çaylar qarışır. Bizim kəndin ərazisində iki çay axırdı, biri Murğuz çayı adlanırdı, o biri tərəfdən də Qara torpax çayı axırdı. Eyni zamanda qonşu kəndlərin ərazisinnən bu çaya su tökülürdü və Dilican dərəsinnən gələn çaya qarışırdı. Orya da Çayqarışan deyirdilər. Bu kəndin ilkin adı Qaraqoyunnu olufdu. Belə deyim ki, Qazax nahiyəsinin kameral təsviri var. Bu kitab rus məmurları tərəfindən yazılıb, vergi dəftəridi. Bu kitabda Qazağın əlli kəndinin adı sadalanıf, o kəntdərin içərisində də Qaraqoyunnu kəndinin adı vardı. İndi necə oluf ku, bu kənd Gölkənt kəndi adlanıfdı? Ədirnə sülh müqaviləsinnən sonra rusdar bu ərazidə möhkəmləniflər, Şərqi Gürcüstan Rusiyaya birrəşdirildi, onun tərkibində Gürcüstan da, Azərbaycan da Rusiyaya birrəşdirildi. Onnan sonra rusdar burda möhkəmlənməyə başdadı. Onnarı vergiyə cəlb etməh üçün burda olan kəntdəri birbirinnən ayırmışdılar. Məsələn, bizim yaşadığımız ərazi Qaraqoyunnu dərəsi adlanırdı, burda yaşıyanlar hamısı qaraqoyunnular olmuşdu. Salax kəndi, Qaraqaya kəndi, Yanıqpəyə, Çaykənt, Gölkənt, Əmirxeyir, Bəryabat, Cıbıxlı. Bunnar hamısı qaraqoyunnulardı. Bu qaraqoyunnular Qarabağdan gəlmişlər. Onun bir qolu Qazağın Coğaz adlanan

yerində məskən salmışdı. Alpout kəndinin qonşuluğunda Abbasbəylidə məskən salmışlar. Bunnar Qazax tayfalarınnan bir yerdə yaşamışlar və qazaxlılar kimi bunlar da yaylağa köç etmişlər. O zaman Qazağın, Tovuzun yaylağı bu Qaraqoyunnu dərəsi olmuşdu, Murğuz, Cantəpə yaylağı olmuşdu. Bax, onnar qazaxlılarnan birrihdə orya köç etmişdilər. Görmüşlər ki, buranın şirin suyu var, zəngin otu, meşəsi, çayı var, heyvandarrıx üçün burda yaşamax asantdı. Və onnarın bir hissəsi payız olanda Coğaza qayıtmış, bir hissəsi deyif neynirəm qayıdıf, yaz bir də gələjəm də. Elə burda qalım yaşıyım. Onlar tövlə tihmişdilər, yaşayış yeri tihmişdilər və beləlihnən kəndlərin əsası qoyulmuşdu, bu kəndlərin də hamısına Qaraqoyunnu kəndi demişlər. Çar höküməti onnarı vergiyə cəlb eləmək üçün fərman vermişdi. Deyif ki, o kəntdər bir-birinnən ayrılsın və hər bir kəndə ayrıca ad verilsin. Və çar məmurları gəlillər 1867-ci ildə bu kəndə və deyif ki, sizə ixtiyar veririh nə ad qoyursunuz özünüz qoyun və camahat da bu kəndi adlandırıb Gölkənd. Niyə Gölkənd? Bu kəntdə çoxsaylı göllər olmuşdu. Onnardan biri Uzun göl idi, biri Çatalgöl idi, biri Tağıların gölü idi, biri Göygöl idi, bunnarın suyu qurumurdu. Ancax quruyan göllər də var idi. Deməli, çoxsaylı göllərin olmasına görə bu kəndi adlandırıflar Gölkənd.

Ancax ondan əvvəl orda yaşıyannar albannar olmuşdu. Orda onnarın tarixi abidələri vardı, onnardan biri də Ağkilsə adlanırdı. Albannara aid tarixi abidələr hansılardı? Xaçın düzü adlanırdı, bura qəbirsannığ idi. Qızılqaya addı yer var idi. Burda da sal daşın altında qəbirsannıx var idi. Sonra Qaratorpaxda, Ağcaqala düzündə. Bunnar hamısı qəbirsannıx yerrəri idi. Burda ən möhtəşəm abidə Ağca

qalasıdı. Bu Ağca qalası Murğuz dağının ətəyində yerrəşir. Orda deyirdilər ki, bu qalanı südnən yumurtanın birrəşməsinnən düzəldiflər. Bir də onun ətəyində bir yaşayış məskəni varıydı, bu yaşayış məskəni çox böyüh yaşayış məskəni olmuşdu. Burda su dəyirmanı da vardı. Bu Ağca qalasına Qaçax Nəbi qalası da deyirdilər. Qaçax Nəbi orda olufdu, hətta orda Touzdan Hassaxan adlı bir nəfəri öldürüfdü. Niyə öldürüfdü? Hassaxan varrı adammış, qocalıpbış, ağlın, dəəsən, bir balaca itiripbiş. Burya gəlir atnan. Görür ki, bir xanım var burda. Onun arxasını çəliyinən belə ölçür. Bunu da Nəbinin adamları görüllər. Gələndə xəbər verillər ki, bəs Hassaxan belə bir iş görüf. Deyir, gedin onu çağırın gətirin. Hassaxanı çağırıflar. Nəbi onu güllələyif öldürür və orda da dəfn olunmuşdu. Bizim camaat orya Hassaxanın qəbri deyirdi. Nəbi onu öldürdühdən sora kəndə doğru gedifdi. Qabağına çıxan adamlara deyib ki, gedin Hassaxan babanızın halvasını yeyin, yaxşı halvası olacaxdı. Orda da rus adamları olsa, deynən ki, Nəbi Beşihkeşməzdə sizi gözdüyür. Ora elə bir yeriydi ki, darca bir yolu varıydı, istehkama bənziyirdi. Bax, Nəbi orda yerrəşif ki, rus əsgərəri gələjəhdə, oynan döyüşəjəhdi. Nəbi orda olufdu, ancax bu qala Nəbiyə ayit deyildi. Bu qala qədim bir qaladı.

Orda Qala təpəsi varıydı. Niyə Qala təpəsi addanır? Burda qala yoxdu, ancax bu təpiyə Qala təpəsi deyillər. Məsələn, Xaçın düzündə, Qızıl qayada, sonra Taya qayada təhlükə olanda gedirmişdər o təpədə ocax qalıyırmışdar, o tərəfə xəbər verirmişdər ki, burda təhlükə var. Həmi də ki ordan Qala təpəsi çox aydın görükürmüş. Bax, ona görə ora Qala təpəsi adlandırılıfdı.

Sonra bulların ibadət yeri Ağkilsə olufdu. Bu kilsə də Ağca qalanın dibində, Cıbıxlı kəndinə gedən yolun üsdündə yerrəşir. Bax, o kilsəni bizim dövrdə meşənin içində görmüşüh. Deməli, o meşə sonradan əmələ gəlifdi. Ora da yaşayış məskəni oluf və 1980-ci ildə ermənilər orda arxeoloji qazıntı işi apardılar. Orda olan daşları bizim adamların deməyinə görə, götürüb İrəvan şəhərinə apardılar onu saxtalaşdırmaq üçün.

Bizim yaşadığımız ərazidə yer adları var, bunlar hamısı Qazağın şəxsiyyətlərinin adıyla əlaqədardır. Məsələn, bizdə yer adı var idi, Köçəsgərin düzü adlanırdı. Niyə Köçəsgərin düzü adlanır? Köçəsgərrilər yay zamanı ora yaylağa gedirmişdər. Sonra Haştağının yurdu varıydı. Haştağı kimdi? Haştağı Yuxarı Göycəlidə[100] bir varrı adam olmuşdu, yay vaxdı heyvannarını orya aparmışdı. Sonra Kıçamın yurdu vardı. Kıçam Qırlı vətəndaşıdı. Sonra Hajmuradın yurdu varıydı. Sonra Qırxbulax varıydı. Onnar o ərazidən köşməh üçün Əyriyoldan istifadə edirdilər. Əyriyol Qazaxnan Murğuz dağını birrəşdirən yol olmuşdu, bura köç yoludu. Qazaxlılar, Tovuzlular ora bu yoldan köçürdülər. Məsələn, bizim kəntdə bir yurt yeri varıydı, onun adı Mülkülü yurduydu. Mülkülü Tovuzun kəndidi. Deməli, bu ərazi yaylax yeri olmuşdu, hamısı Qazağa məxsus yerrər olmuşdu. 1929-cu ildə bu ərazilər bolşeviklərin qərarı ilə verilif Ermənistana. Ermənistana verilən ərazi adlanırdı Dilican dərəsi, Qaraqoyunnu dərəsi. Deməli, ordan Göyçəyə qədər, Çənbərəyə qədər bütün ərazilər Ermənistana verilifdi.

Yaşlı adamlar danışırdılar ki, kalxoz vaxdı Çəmbərək rayonunda yaşayan malakanlar ot çalımında kömək üçün

[100] Ağstafa rayonunda kənd

kəndə gəlirdilər. Onlar yerli camaatla birlikdə ot biçirmişlər. Qızmar yay günü imiş. Ot biçənlər Təkpalıdın altında oturubmuşdar. Kalxoz da onlara heyvan, içki verib ki, günorta nahar etsinnər. Yemək hazır imiş. Fəhlələrin qabağına yeməyi gətirillər, bu zaman bir azərbaycannı deyir ki, ay malakan, bir dua ver, biz çörəyimizi yeyək. Malakan da stəkana araq süzür, öz dillərində dua oxuyur. Bu zaman göydə qara bulud peydah olur, ildırım çaxır, şimşək düşür. Orda ölən və yaralanan da olur. Həmin əraziyə İldırım düşən adı vermişdər. Kənd camaatı deyirdi ki, araqla malakana dua oxutmax bizim dinə uyğun gəlmir və ona görə Allahtala bu hadisən törətmişdi.

Başyurd Murğuz dağının bir hissəsini təşkil edirdi. Başyurtdan bir az yuxarıda Gəlinyurdu adlanan bir yaylax vardı. Bu yaylağa 50-60-ci illərdə Tovuz rayonunu Öysüzdü kəndinin sakinlərindən bir çox aylələr köçürdülər. Həmin aylələrin içində gənc bir aylə də olmuşdu. Həmin aylədə gənc bir gəlin yoldaşı başqa bir yerə gedəndə Gəlinqayanın başına çıxıb onu yola salarmış və yaxud qayanın başına çıxıb onun yolunu gözləyərmiş. Belə hallar çox təkrar olunupbuş, belə olduğuna görə öysüzdülər həmin qayaya Gəlin qayası, yurda isə Gəlinyurdu adını vermişdər.

Gölkənd kəndinin ən gözəl ərazilərdən biri də Hacı Mehdinin çökəkliyi idi. Həmin çökəklik Cırımın başı deyilən məkanda yerrəşirdi. Bura üç tərəfdən təpə ilə əhatə olunmuşdu. Belə bir arxac yeri heyvanları vəhşi heyvanlardan qorumaq imkanı verirdi. Bura Hacı Mehdinin yaz və payız binəsi olmuşdu. Şirin bulaxlar var idi. Bu ərazinin gözəlliyinnən doymayan Hacı Mehdinin nəticəsi Əşrəf Kazımov ayləsinə vəsiyyət edir ki, öləndə məni orda dəfn edərsiniz.

Təpənin başında düz sal daş varmış, onun yanında özünə qəbir düzəltmişdi. Qəbri ona görə burda qazmışdı ki, ulu nənəsi Mələknisə qurudunu həmişə bu daşın üzərində qurudardı. Qəbri hazır vəziyyətə gətirmişdi. Kənd camaatı da həmin təpəyə Əşrəf təpəsi adını vermişdilər. Ancax ayləsi onun vəsiyyətini yerinə yetirməmişdi, onu kənd qəbirsannığında dəfn etmişlər. Ancax yenə də o təpəni Əşrəf təpəsi, Əşrəfin qəbrinin yanı adlandırmışlar (S. 18).

## 206-207. GÖYSU

Göysu yığma kəntdi. Göysuda müxtəlif tayfa nümayəndələri oluf. Qızılvəhdən gələnlərə deyiflər qızılvəhlilər, Çamırrıdan gələnnərə deyiflər çamırrılar. Bizim tayfaya Yekallar deyiflər. O Yekallar gəldi, Göysuda oldu qəfərli. Qəfər kəndinnən gəlmişdilər. Bizim kəntdə yarpızlılar olufdu. Bizim tayfa Qarsdan gəlmədi. Qarsdan gəlməsinin də maraxlı tarixi var. Dəyyus sözü türklərə məxsus sözdü. O dəyyus sözü də bilirsən nətərdi? Elə bil ki yuxarı təbəqədən bir insanın gözü sənin ayləndə bir qadına düşür. İrax bizdən, elə bil birinin sənin arvadına gözü düşür də. Özü könüllü arvadını verir orya, sora da həmən adama hansısa tərəfdən qulluğ eliyillər. Həmin adama da dəyyus deyillər. Bu tarixdi, bunu mən özümnən çıxartmıram. Sədirəzəm, deməli, orda dövlət naziri oluf da. O, sultannan sora ikinci adam olufdu. Bunun bir qadına gözü düşüfdü. Bunnar da yeddi-səkgiz qardaş oluflar, bunu verməh istəmiyiflər. Dəyyus sözünü götürmək bilirsən nə deməkdi? Deyiflər, yox. Atası, anası yalvarıf ki, belə olmaz. Ofşum, balaca ağılsızın biri kəcavəyə minir, gedir həmən adamı

öldürür. Həmən adamı öldürənnən sora baxırlar, yox, burda yaşamax mümkün döyül. Gejəynən qaçıllar Dərələyəzə. Tayfanın da adı oluf Yekə Alılar. Nisbətən yekə, iri insannar olufdu da. Dərələyəzə də gələnnən sora müəyyən bir nəsildən sora bu türkün adamı gəlir bunnarı tapır. Məjburu gəlillər Göyçəyə. İndi mənim Göyçədə bavamnan başqa heş kimin qəbri yoxdu. Amma Dərələyəzdə müxtəlif adamlar olufdu. Dərələyəzdə Mollalı, Qəfərli, Alçalı, bax, belə balaca-balaca kəntdər oluf. O Mollalıda hər beş kişidən dördü molla oluf. Elə bil deyiflər Mollalı camaatı. O vaxdı da alça yetişdirənnər olufdu, alçanı peyvənd eləməyi bajarıflar. Bir kəntdi e, Alçalı, Mollalı, Qəfərli. Bir kəntdi, elə bil, tirələr yaradıflar. Yeddi qardaşdan biri gəlif bu Mollalılar oluflar, Mollalıdan da gəliflər Göyçüyə. 1905-ci ilin hadisələrinnən sora gəliflər. Mənim heş bavam da Göyçədə doğulmuyuf, o da Dərələyəzdə doğuluf (S. 23).

**207.**

Bizim kənd çox balaja kənd idi, yetmiş iki təsərrüf idi səhv eləmiрəmsə. Xırda-xırda tayfalar idi. Deyirdilər ki, bunnar çamırrılardı, qəfərlilərdi, qızılvəhlilərdi. Bizim kəntdə o vaxdı Səmənd ağanın çobanı İmaməli kişi olufdu. Onnar da, elə bil ki, qızılvəhli olufdu. İmaməlidi, Əhmətdi, Əlidi, Cəmildi, bax, bu qardaşdar olufdu Aşıx Alının qız nəticələri. Amma nə o qardaşdarın, nə o qardaşdardan törüyənnərin heş birində Aşıq Alının qanınnanmı deyim, suyunnanmı deyim, bir belə çırtdamıyıb ki, onnar ikicə kəlməni daldala düzələr, deyələr. Köhlü Göysululular kürtdər oluf qavaxca. Bizdə oluf bir əcəmi kürtdər, bir də zilan kürtdəri. Bizim kəntdə olufdu əcəmi kürtdər. Hardasa 63-

64-də, bax, bu tarixlərdə onnarın Qazaxıstanda başçıları oldu, bütün kürtdəri orya yığdı. Bax, mənim yaxşı yadımdadı, bizim qonşumuz Musqoy varıydı, Hamo varıydı, Əzim varıydı, Əziz varıydı, Çərkəz varıydı. Dedilər ki, bunnarın hamısı gejəynən gediflər Qazaxıstana. Bax, onnar gedənnən sora kəndə yavaş-yavaş qəfərlilər gəldi, çamırrılar gəldi, qızılvəhlər gəldi. Mirsöyün ağa özü Qızılvəhdən gəlmişdi. O vaxdı atamın nənəsi varıydı Ceyran qarı, qoja qarıydı. Mən beşdə, altıda oxuyanda onun səksən, səksən beş yaşı vardı. Deyirdi, bala, sizin soykökünüz Türkiyədən gəlif, sizə darvazlılar deyirdilər. Elə bil mənim babamın babasına darvazlılar deyiflər.

– Bəs bu Qızılvəng, Qəfərli kəndlərinin köçmə səbəbi nə olub?

– Demirəm bütün kənd köşmüyüf. Elə bil ki 18-də iki-üç ev gəlif, 48-də Martuni rayonuna ermənileri köçürəndə mənim atamın əmisi oluf, – Mollalı kəndinnən oluf, Qızılvəngin böyründədi, – orda qalan tör-töküntülər də gəlif burya. Mirsöyün ağa rəhmətdih danışırdı ki, Martuni rayonuna ermənileri Suriyadan, İrannan gətirif dolduranda kimin imkanı varıydı gəldi Azərbaycana, kimin imkanı yoxuydu çəkildilər, bax, bu xırda-para kəntdərə. O cümlədən Mollalıda atamın əmisigil qalırdı, bunnarın hamısı o vaxdı kəntdən köçüb.

Ağa otururdu, uşağıydıx dana, danışdırırdıx. Deyirdim, ay ağa, elə möcüzən olufmu ki, deyəsən, babannan belə bir şeylər eşidəsən? Bir əz dururdu, dururdu, deyirdi, bax, şeytan girdi qəlbinizə ki, mənnən söz alasız. Deyirdi ki, hə, ağanın möcüzələri çox oluf. Camaat ordan dağıldı getdi, Qızılvəh doldu ermənilərnən. Amma onun yaşadığı həyətə

bir dənə erməni yaxın gedə bilmədi, ilan yaxın qoymadı orya erməni girməyə. Orda olan yaşdı ermənilər danışıf ki, bu yaman adam oluf ha, onun ocağına biz yaxın gedə bilmədih. Deyirdi ki, ermənilər onun yaşadığı yeri setkaya alıflar ki, onnarın malı, atı, heyvanı o tərəfə keşməsin.

Göyçə mahalında bizim dağlar kimi varrı dağ heş bir kəntdə olmuyuf. Biz Çaşırrıx deyirdih, Yerevannan belə gəlif hamı ordan çaşır yığırdı. O üz, bu üz pütün çaşırdı. Bizdə dörd dənə dağ varıydı. Birinə Sarıqum deyirdilər, teyxa orda çöl keçiləriydi, ayrı varlığ ola bilməzdi, çünki dağın özü də sarıydı, keçilər də sarıydı. Rəngi təyin eliyə bilməzdin orda keçi var, yoxsa yox. Sonra Qırmızıqum deyirdih, bütün sinə, bax, belə qırmızı qumuydu. Sora gəlirdi Göyqum. Göyqumun başında suyun rənginə baxırdın, adama elə gəlirdi su göy rəngindədi. Göysu kəndinin adı da ordan götürülüb. Burda bazarrarda satırlar, ona deyirlər daşqapan, biz qayakökü deyirdik, ancax daşın üzərində bitirdi. Onu pıçaxnan kəsirdik, bir yekə putağını gətirirdik, evdə yarpağını ayrı, putağını ayrı doğruyurdux. O böyrəhlərdə, sidik yollarında olan daşı təmizdiyirdi. Sora gəlirdi Qaraqum, xırda-xırda işıldıyan daşdar varıydı. Qaraqum başdan ayağa baldırğan idi. Sora bəri gəlirdin heş bir dağda yoxuydu, çöl keşnişi deyirdih, belə keçirdin Ağçınqıllıx deyirdih. Ağçınqıllığın başınnan bəri meh vuranda deyirdin, ilahi, bura cənnətməkandı. Kimin zoru nə qədər çatırdı yığırdıx, gətirirdih, xörəklərdə ədviyyat kimi istifadə edirdik. Yaylaqlarımız olub Tanrıverdidüşən deyirdilər, Mehdidüşən deyirdilər, Aşağı Salah, Yuxarı Salah deyirdilər. Qalxozun suvey malı düşürdü Yuxarı Salağın yurduna. Yuxarı Salağın yurdunnan belə bir su çıxırdı, o su gəlirdi Ağçınqılın qabağına kimi. Fermanın inəkləri ora düşürdü. Bütün

yay yaylaxda olan camaat gözləməzdi ki, hardansa bir dəstə soğan gəlsin, bir dəstə kişniş gəlsin. Həmin bulağın o üzü, bu üzü bir tərəfi aştərə, bir tərəfi soğan idi. Təzə lavaş olanda lavaşın arasına ondan, pendirdən qoyub yeyirdik. Aşağı Salaxda Mehdidüşən deyirdilər, orda bir bulax var idi. Onun da suyu möcüzəli idi. Yeyirdin, arada ondan bir istəkan içirdin, o vaxdı ayılırdın ki, sən ajınnan ölürsən. Okqədər həzmə kömək eliyirdi. Kiminsə köpü vardısa, deyirdi, a bala, bala, al bu limonad şüşəsini, qaç Mehdidüşənin suyundan bir şüşə gət.

Bizim dağda bir möcüzəli yer varıydı. Dik yer idi, heş bir yerdən su gəlmirdi ora. Hardasa olardı bir on metr eni, balaca bir gölüydü. Diqqətnən baxırdın ki, altdan su qaynıyır. Siz baxın ki, günortanın isdisində sudan ağ ilan, qırmızıtəhər ilan, qara ilan, boz ilan çıxırdı. Ayrı-ayrı rəhdə ilannar çıxırdılar o suyun qırağına. Suyun üsd tərəfi soyuğuydu, amma bu suyun altında isti lay varıymış. Bizdə ona deyirdilər İlannı göl (S. 34).

## 208-209. PƏMBƏK

Bizim özümüzün əsli Vartana Pəmbəyinnən gəlib. Kirovakanda Vartana Pəmbəyi var, yeddi nəfər gedif... O vaxdı Basarkeçərdə heç yaşayış olmuyuf, beş rayondu gölün qırağında. Bu tərəfdə Sevan rayonudu, Basarkeçərdi, Martunidi, Kamo, burda da Krasnoselodu. Yeddi nəfər oluf, hər nəsildən bir nəfər gediflər Zoda kimi. Zod kəndi yayda yaman yellik olur, çünki ora Kəlbəcərin arxasıdı. Bərk yel olur. Deyiflər, burda yaşayış olmaz. Kəndləri gəzə-gəzə gəliflər,

gələndə bizim çayda[101] farel balıx görüflər. O balıxdan tutuf yeyiflər. Deyiflər, sən öl, bundan gözəl yaşayış yoxdu. Bax, orda məskunnaşıflar. Yeddi tayfa gəlif: biri təkbayramlıdı, zubanlıdı, mamanlı, kəlba əlidi. Orda bir cüt qoz var idi, bir əlli sot yeri əhatə eliyirdi. Mən atamdan soruşdum ki, ata, bunun yaşı nədi? Dedi, ay bala, mən də atamdan soruşanda dedi onu belə görmüşəm. İndi dörd əsirdi, beş əsirdi havaxt gəliflərsə, Göyçədə ən qədimi kəndlərin biri bizim kəntdi. Kirovakanda iki Pəmbək var: bir Loru Pəmbək var, biri Vartana Pəmbəyi.

– Siz hansı tayfadansız?

– Kəlba Əli. Kəlba Əli mənim dördüncü babam sayılır. Pəmbəyə gələn Kəlba Əli olmuyuf, ondan da qabax gəliflər. Söyləyicinin şəcərəsi: Asabalı–Kəlba Əli–Nəsir–Alı–Nəriman.

Göyçə dənizindən həmişə yel vurur, ona qara yel deyirdilər. Bir də Naxçıvan tərəfdən gələn yel var idi, ona adyaman deyirdik. O yel ziyan vurmurdu, amma Qarabağ-dan gələn yel yayda o camaata çox meşat eliyirdi.

İnandırıram səni, Göyçə Antalyadan, Kırımdan min dəfə yaxşı yerdi. Gölün ətrafı bütün dağdı. Dağın diblə-rində kənd salınıb, kəndlərdən sonra düz başdıyır, düzdən sonra dəmir yolu gedir, dəmiryolundan sonra da asvaltdı, asvaltın altında da dənizin suyu çəkildikcə ağaş salınıf. Pəmbəyin qışı Şəmkirin qışı kimi idi. Üş kənd idi: Babacan, Pəmbək, Dərə. Bizdə ərik də yetişir, üzüm də yetişir, pamidor da yetişirdi, nə meyvə desən yetişirdi. Ən apasnı meyvə ərikdi, bizdə elə ərik olurdu heç Azərbaycanda elə ərik olmurdu. Ərik hər yerdə bitmir, soyuğa dözümü yoxdu. Bu üç kəntdə bitirdi, elə Şəmkirlə onun arasında on gün

[101] Söyləyicinin dediyinə görə, ərazinin əvvəlki adı Quşçu dərəsi olub.

fərq var idi. Martın onunda, on beşində burda ərik çiçək açırdı, ora gedirdik orda martın axırında açırdı. Bir on gün, on beş gün oraynan buranın fərqi var idi. O üç kənd elə bil Göyçənin aranı idi.

Arpaların ocağı, İsgəndərin boynu, Qaraların ocağı deyirdik. Orda nətərdi, İsmayıl. Elə bil üç qardaşdı, inandırım səni. Üçbucaq kimi, biri bu qranisdə idi, bizim örüşün bu qranisində, biri bu qranisdə, biri də sentirdə idi. Qaradaş bir möcüzəli ocağ idi, Cildə idi. Daşa mıx çalmışdılar. Atın toylamıxı olurdu, o toylamıxı daşa çalmışdılar. Orda elə bil örüş var, həmin örüşə Arpalar deyirdilər, onun da ayağında o ocağ idi. Orda daşdar idi, bir yekə də qara daş var idi. Daşın ortasından elə bir cızıx gəlmişdi, İsmayıl. Dedilər, vallah, yalançı olaram, adam oluf, daşa dönüf. Dağdan nə qədər sel gəlirdi o daşa, o ocağa yaxınnaşmırdı. On metr aralıdan elə bil qabağın kəsib başqa istiqamətə yönəldirdilər. Birinci o daşı ziyarət eliyirdilər, sora gedif ocaxda qurban kəsirdilər. İsgəndər kişi var, onun yerinin ayağında ocax var idi, ona İsgəndərin boynunun ocağı deyirdilər. Qaraların boynu örüş adıdı, orda ocax var idi, deyirdilər o da Qaraların ocağıdı (S. 3).

**209.**

Pəmbəyin Türkiyəynən bağlılığı oluf. Şəxsən mənim anamın nənəsi Şahzadə qarı türk oluf. O vaxd oluf Kərə Vəli, onun arvadı Şahzadə qarı Türkiyədən gəlif. Onun üç oğlu var idi – Nəcəfalı, Məsmalı, bir də Bayraməli. Onnar türk dilində danışırdı; ova av deyirdilər, nənəm dingə qoyurdu. İndi baxıram Türkiyədə qarılar qoyur. Başına çalma bağlıyırdı, üsdünnən dingə qoyurdu. Bizim kənd

Vartana Pəmbəyindən köçüb gəlib. Möhbalı həkim bizim kəntdə yaşıyırdı, qardaşı Mehralı Vartana Pəmbəyində olurdu. Murtuzalı var idi, o Vartana Pəmbəyində olurdu, onun bacısı oğlu Qiyas bizim kəntdə olurdu. Bizim nəsil də nətər gedif çıxıf orya? Göyçənin Azərbaycan tərəfinə yal deyirdik, ora yaxşı otarağ idi, qoç sürüləri gedirmiş bizim örüşü otarırmış. Bizim camaat yığılıf deyif ki, gedəyin qabağın alağın da. O başdan qarannıxdan qalxıllar, gəlillər yala ki, sürünü qaytarsınnar. Dava düşür, atışma olur. Hökumət yox, hürriyətçilik dövrüdü, kim qüvvəlidi. Çığrışanda biri qayanın dalınnan qalxır ki, ayə, səsin tanış gəlir. Bu da deyir, ayə, sənin də səsin maa tanış gəlir, kimsən? Pəmbəkdən olan deyir, mən Yekə Hüseynəm, bəs sən? Deyir, mən də Yekə Alıyam. Demək, Yekə Hüseyn Kirovakannan gəlif. Bizim babamızın da adı Alı oluf. Bunnar dosduymuşdar. Bunnar Qazaxda bazarda-zadda dosdux eliyirmişdər. İndi bu dolanışıxdan orya köçüf. Yekə Hüseyn soruşuf ki, nəəzirsən burda? Yekə Alı deyif, kəntdə dava oldu, qan düşdü, məjburux dağlarda qoyunçulux eliyək. Deyir, gəl, burda yaxşı şərayit var. Üç əmiuşağı gəlif burda yerrəşiflər: biri Yəhya məllimin atasıgil, biri Oruc kişi, biri də bizim babamız Alı. Bunnar yığışıf gəliflər, orda artıf, biz gələndə hardasa üş yüz təsərrüfat idi.

Kənddə səkgiz tayfa oluf. Ən böyük tayfa oluf mehdililər. Kərə Vəli dediyim o nəsildən idi. Kəndin çoxu onnar idi. Sora tösdülər deyirik. Tösdülər dörd kəndə bölünüb: Sarıyaqub, Babacan, Şişqaya, Pəmbək. Bizim kəntdə Balaca Əli deyirdik, o tösdülərdən idi. Niyə Balaca Əli deyillər, o da maraqlıdı. Deməli, bunun atası Zöhrə oğlu Əli olur. Bunun uşağı qalmır. O vaxdı da dinə möhkəm inam oluf da.

Gedif mollaya baxdıranda deyif ki, sənin uşağın olmur. Bunnan sonra oğlun olsa atasının adını qoy, qızın olsa anasının adını qoy. Ondan sonra bir qızı olur, bir oğlu. Oğlunun adını qoyur Əli. İndi bir ata Əlidi, bir bala Əli. Baxmayarax ki, Əli boydan hündür adam idi, amma adına Balaca Əli deyirdilər. Nəyə görə? Atasına görə. Qızı da oluf, ona da anasının adını qoyuf.

Bizimkilərə xələflilər deyirdilər. Təkbayramlı deyirdik. Baxmayarax ki, Bayram tək oluf, yeddi oğlu olmuşdu. Bir də nağıllar deyirdilər. Onnar da çox ürəkli camaat idi. Bir hadisə danışım. 1976-cı ildə mən institutda oxuyanda maa məktub yazdılar ki, kəndə gələndə ehtiyatdı gəl, yolda da kəndin adını çəkmə. Dedim, noluf? Dedi, burda bir adam həmən dediyim nağıllardan olan Əhməd kişinin oğlu ermənіləri xeylax gülləliyif qırıf. Qonşu kəntdə toy olajeymiş, bunnar gediflər balıx tutuf gətirməyə. Ekologiya bir vilisnən gəlif bunnarın qabağını Yerevannan Basarkeçərə keçəndə kəsmişlər. Nömrəni açmaq isdiyəndə Əhməd kişinin oğlu Ədalət deyir, ə, açma, güllәliyəjəm. Bir dəfə deyif, iki dəfə deyf, bu əyilif nömrəni açmaq isdiyəndə onnarı qırmışdı. Bir nəfər sağ qalmışdı biləyi qırılmış vəziyyətdə, qarannığa düşüf, onu tuta bilmiyif. Ondan sonra gəlif onnarı tutmuşdular. Həmən Ədalətin məhkəməsi olanda anasını da çağırıllar. Buna güllələmə kəsillər. Arvada son söz verillər, sənin oğlun bu qədər adam qırıf, hökumətin ziyanına işdər görüf. Bacıxanım qalxıf deyif ki, o mənim oğlum döyül. Ermənilər deyir, nətər sənin oğlun döyül? – Əgər o mənim oğlum olsa, orda bir salamat erməni qoymazdı. Hamısın qıra, lodkaynan aparıf dənizə tökər, izi-tozu da qalmazdı. O nə oğuldu, aparın gülləliyin, – deyəndə ermənilər hamısı əlini dizinə çırpır. Bax, helə arvad idi. Hamısı qoçax adamlar idi.

Şişqayaynan Babacan eyni camaat idi, bizim kəndnən də Sarıyaqub eyni camaat idi. Bizim camaat əksəriyyəti yekə camaat idi (S. 51).

## 210. KARVANSARAY

Şəki rayonunda qəssab çələbilər oluf. Olarnan babamgilin yaxınnığı oluf. Şəki pitisini şöhrətləndirən bizim kəndin balvaz erkəhləri oluf. O dərəcədə quyruğu yekəlirmiş ki, təkərə qoyurmuşlar ki, təkərnən dığırransın getsin, yerə sürtünməsin. Hacı babamın çoxlu sürüləri oluf. Deyif ki, bunu apararsız Şəkiyə. – Tarixdi ey bu. – Deyif ki, Əli, oğlum, heş kimə etibar eləmirəm, sən qoçaxsan, sənə etibar eliyirəm. Əslində düz etibar eliyif. Bizim dağların ətəyinnən belə gəlif Daşkəsənə, Daşkəsənnən düşüf Yevlağa. Yevlaxda parom deyillər, bərədən o tərəfə erkəkləri keçirillər, özləri də keçillər o tərəfə. Görüllər quldur-qaçax buların yolun kəsdi. Əli babam da demirəm çox sərrast atan oluf, həm də qolunda güj oluf. Kimsə əlində xəncərnən hücum eliyəndə biləyindən tutuf sıxırmış, xəncər əlindən düşürmüş. Bax, helə igid adam oluf. Paromu keçənnən sora quldur-qaçax buların üsdünü kəsir ki, sürüləri verin, sizə dəymirik. Əli babam o yana baxır, bu yana baxır, görür buların başçısı bu atdıdı. Öldürmür ha, gör nə qədər ağıllı adam olur, biləyinnən vurur, cilovu tutan biləyinnən. Elə dəqiqliknən vurur ki, biləyin dəlib keçir. Tez bunun hayına qalıllar. Bular birbirinə qarışır. Bu halda bir qancıx it də olur, – irağ hörmətdən, – buların yanında. Əli babam onu da vurur. Deyillər, Əli, onu niyə vurdun? Deyir, o qancığ it həm yaxşı iy bilir, həm də izi itirmir, gəlif bizi tapajax. Bular aparıb qəssab çələbilərə erkəhləri təhvil verillər. Nikalay qızılınan neçə

qızıl olursa, deyir ki, biz hələ pul almırıx. Gələn payız gələndə verərsiz. Gör etibara bax insannar arasında. Bir ili gözdüyüllər, ikinci ili gələndə keçən ilkinin qızılın da alıflar, bu ilkinin də. O qaçaxlardan, quldurlardan bir dənə əlamət görsənmiyif. Bax, mənim babam belə adam oluf (S. 42).

## 211-212. VERGİLİ İNSANLAR

Seyid Qurban dədəmgilin babası oluf. Nənəm deyirdi, ay seyid, sən ojağını mundarrama[102]. Yağış yağmıyanda çıxırdı dağın başına, çomağını yerə vururdu, deyir, minacat çəkirdi, göyün üzün bulud aldığınnan yağış tökürdü. Xəsdənin üsdünə aparırdılar, çubuğnan belə-belə vururdu, xəsdə sağalırdı. Onnan da maa keçif ey, bilirsən. On səkkiz il, on dokquz il doğmuyan gəlinnərə baxıram. Əlimdə düşərlik var. Qorxan uşağı gətirillər mənim yanıma, donumdan keçirirəm, ondan sonra yerə uzadıram, pambığı belə düzürəm sinəsinə, yandırıram, oxuyuram. Babam rəhmətdik deyirdi, bala, biz Sulduzdan gəlməyik. Ordan piyalə gətmişdi, anasına cehiz vermişdilər, o piyalə dururdu. Onun üsdündə Quran hərflərinən yazı yazılmışdı. Onu bizim Zeynava vermişdi, onun da qaynanası rəhmətə gedəndə kimsə apardı. Ana dədəm Kalba Xəlil olub. Anam deyirdi, kişi Kalbayıdan ağac gətirmişdi, bax, belə ağac idi. Onu, deyir, yonurdux, yumurtanın üsdünə səpirdik, ağlıyan uşağa verirdik, o yaxşı olurdu. Bura gələnə kimi anam saxlıyırdı o ağacı, rəhmətdik Tükəzban hamısın dağıtdı.

---

[102] *Söyləyicinin əlavəsi:* Həm ferma müdiri idi, həm də partkom. Ermənilərnən otururdu, yeyif-içirdi. Ona görə qoja nənəm deyirdi, ay seyid, sən ojağını mundarrama. Mundarradı, gördün, nələrimiz getdi.

Evdə yatmışdım. Yuxuda gördüm başımın üsdə bir əl gəldi, məni belə-belə vurdu oyatdı (əli ilə göstərir – top.). Oyatdı, əlimdən belə tutudu. Qorxdum. Ondan sonra elə bil o mana gəldi[103]. Qorxuluq götürürəm, uşağı olmuyan qadınnara baxıram (S. 13).

**212.**

Mənim kiçik qızımın adı Günaydı. Bir gecə yatmışdım. Gördüm bir nəfər mana deyir ki, dur, oxu. O sözü deyir, mana da deyir ki, təkrar eylə. Allaha and olsun. Mən yuxulu-yuxulu qalxmışam, deyirəm, ay Günay, gəl, mən deyim, sən yaz. Mana yuxuda deyillər ki, sən de, sənin yadında qalacax. Gör neçə il keçib. Nə vaxt məni yuxudan qaldırsan, onu məndən soruşsan, deyərəm.

Hakkın haçarını görənnər bilir,
Hakkın qapısını açannar bilir,
Hakkı nahakdan seçənnər bilir,
Siz hakkı nahakka qurban vermiyin.

Kəsilən kəllələr, axıdılan qannar,
Xudu, Şaabaz meydanında, hak yolundadı.
Allahın vəhiylə gələn kəlamlar,
Rəsulu-əkrəmin Quranındadı.

Allahın hökmüylə açıldı qatdar,
Məhəmməd Meracda əlində Quran.
Oxundu ayələr, bitdi surələr,
O da sanılı günün sırasındadı.

[103] Verginin verilməsini deyir.

Rəsulu-əkrəmin duaları,
Yerin-göyün ağaları,
Əli Əkbər sədaları
Yerə-göyə büləndoldu[104].

Mana gələn bu dörd bənddi. Allah rəhmət eləsin, dayım vardı mənim, mundarradılar da onu. Hakdan danışırdı. Allaha and olsun, bəlkə belə-belə kitabları var idi, itdibatdı. Mundarradılar, ondan sonra taleyi dəyişdi, düyadan köçdü getdi. Dayım A hərfini tanımırdı, amma haxdan söz gəlirdi, uşaxları çağırırdı tez bunu yazın. Allah bütün ölənnərə rəhmət eləsin, bir Eyif babam var idi, ana babam. Ona ilan ofsunçuluğu verilmişdi, bir də sınıxçılıx verilmişdi. Onu deyə bilərəm ki, Eyif babam vuran-tutan kişi oluf. Rusiyada olanda orda bir kadınnan evlənif, ondan iki qızı oluf. Birin adın qoyuflar Tamam, birin adın qoyuflar Qələm. Orda babamı bir ilan vuruf, onu götürüf həmən o arvad gətirib ilan baxana. Orda tüpürmüşdü babamın əlinə, bir də deyif ki, səni vuran ilan hələ gəlmiyif. Gəlif bura girsəydi, səni sağaltmax mümkün döyüldü. Gələndə deyif, səni vuran ilan budu. Həmən o arvad rus oluf. Bir istəkana su töküb o arvad, içinə də tüpürüb, qarışdırıb verib. Deyib, bunu iç. Bunnan sonra sana ilan dəyməz, nə də sən ilan öldürmə. Nə ilan olur olsun get, tutacaxsan. Amma ilan öldürmə. İlanı öldürdün, elə bil sana verdiyim ofsun yoxdu. Amma sınıxçılığı bilmirəm hardan örgənmişdi. Onun da birini bir oğluna verdi, birini o biri oğluna. Sınıxçılığı Avdulla[105] dayıma verdi,

[104] Söyləyici bunu seir deyil, kəlam adlandırır.

[105] *Söyləyicinin əlavəsi:* Abdulla balaca dayımdı, sınıxçılığı ona vermişdi. Nənəm onu Abduləsər ocağında dünyaya gətirmişdi, onun burasında izi də var idi. Uşax vaxtınnan cıvrıx idi, hakka yönümlü uşağ idi. On iki-on üç yaşınnan sonra başdadı hakdan sözdər deməyə.

yerdən-göydən danışana, ofsunçuluğu da bir dayım da var, ona vermişdi. Tüpürmüşdü bir istəkana, vermişdi, işmişdilər. Ofsunçuluğu alan dayım ilan öldürmüşdü, onun gücü getdi. Amma o biri dayım rəhmətə gedənə kimi qoruyub saxladı. Nə qədər qolu-qıçı qırılan var, hamısı onun əlinnən sağalardı (S. 47).

## 213. ŞƏRABIN GÜCÜ

Deyir, bir gün Ömər Xəyyam şərab içirdi. Şah deyir ki, biz müsəlmanıx, içməginən, çıx şəhərdən. Bu gedir bir köhnə qəbirsannığa girir, başdıyır orda şərabdan içir, özözünə zümzümə edir. Gəlif deyillər, getdi qəbirsannığı da mındarradı. Şah bunu gətirir. Deyir ki, səni asdıracam. Səni qovladım, sən niyə getdin qəbirsannığı mındarradın? Deyir, şah, bunun elə əlamətdəri var ki, sən onu bilməzsən. Deyir, sübut eliyərsən? Deyir, eliyərəm. Deyir, bir dənə erkək kəs. Kəsir. Deyir, şah, bir dənə adam tapginən anadan olannan gözü olmasın. Tapdırır gətirir. Deyir, birin də elə tapginən ki, yolda quş qalxanda qorxsun. Deyir, yaxşı. Deyir, birin də tapginən, biri əlində pıçax desin onca qəpih ver, yoxsa səni öldürəcəm, amma bu verməsin. Deyir, yaxşı. Üçün də tapır. Deyir, şah, sən şərabın əlamətdərinə bax, görərsən indi. Buları içirdir. Bu kor qalxır ayağa, deyir:

– Bəh-bəh, rənginə bax, xoruz quyruğu?

Bu qorxax deyir:

– Ayə, a kopoğlu, sənin gözün varmı bunu görəsən. Səni öldürərəm.

O biri deyir:

– Ayə, öldür, pulu məndə.

Deyir:

– Şah, gördün, insanı nə əlamətə saldı?
Deyir:
– Onda şəhərdən çıx get da.
İndi elədi qardaş, içki insanları çox xarab eliyif (S. 32).

## 214. ƏSLİ HU

Bax, bu Yusif əminin dədəsinə Kalba Veyis deyirdilər. Kalbaya gedif gəlirdi karvannan, beş-altı ay çəkirmiş ey o vaxt. Karvanbaşı da karvanı çəkif aparırdı ulduzdarın qurluşuynan. Bir gün nətər olursa tar düşüf qayadan, qar uçqunu. Nənəm yazığ söylüyürdü. Ata nənəm Çimən kəntdə Abdulla bəyin qızı olufdu. Heç onu babama vermirmişdər. Babam da meşəbəyinin oğluymuş, onu qaçırdıf. Sözüm yox, onun dədəsi söylüyürdü ki, o vaxd Andiranikin qoşunuynan Atatürkün qoşunu orda dalaşıflar, Atatürkün qoşunu sınığ düşüf elə bil. Ağrıdağını bəri aşıf İrəvana sarı gəlif, orda bir mağarada məskunnaşıflar. Buranın camaatından çağırıflar. Deyif ki, burda kim mənim qoşunumu yaza kimi yedirdə bilər? Qışda da dağlıx yerlərdə müharibə eləməh çox zulumuydu. Həm də müharibədən çıxmışdı da, davadan. Kim mənim qoşunumu yedirdə bilər yaza kimi? Deyillər, yedirtsə, yedirtsə, Çimən kənddə Abdulla bəy yedirdər. Çünkü onun at sürüsü ayrıdı, ağ qoyunu ayrıdı, qara qoyunu ayrıdı, imkannıdı da. Nənəmin atası. Gəlib deyiflər, o da deyif baş üstə. Kəsif verif, əti ət, taxılı taxıl. İndi nənəm söylüyürdü kü... 78-də rəhmətə getdi, həmişə gəlirdi bizə. Bizim kişinin yanında çörəy yemirdi. Bax, beləcə yaşmanırdı. O da deyirdi ki, ay xala, mən sənin nəvən yaşdayam, mənim yanımda niyə yaşmanırsan?

Deyirdi, yeyəcəm də, yeyəcəm, narahat olma. O çörəyini yeyirdi, duruf gedirdi, arvad ondan sonra oturuf çörəy yeyirdi. Özü də ki bəy qızı olduğunnan əyninə-başına baxırdın hamısı ipəy. O söylüyürdü ki, tara düşüf karvan. Nə qədər yaxşı-yaxşı dəvələri aparıflar, – karvanbasan dəvələr də ayrı sort olur e, – tarı basa bilmiyiflər. Karvanbaşının bir qoca atası varıymış, gəlif ona məsləhət eliyiflər. Deyif, bə neyniyək, dəvələr tarı basa bilmir, biz burda yolun ortasında bir tərəf qaya, aşağı yarğan. Qar uçqunu elə yerdə olur da. Bə biz neyniyək, nağayrax? O da deyir ki, gedin karvanın lap əyağında bir gözü kor dəvə var, onu gətirin. Deyillər, ay Allah, bu cavan dəvələr tarı basa bilmədi, kor dəvə neyniyəcək. Dedi, yox. Onun ulu nənəsi tarbasan olufdu. Gedillər onu gətirillər, bu bir gözü kor olan tarı basıb yolu açır. O bir karvan xilas olur, yol açılır, keçirlər bu tardan o tərəfə. Ona görə də əsli hu, nəsli hu deyillər ey, əslində olan dırnağında görsədər. Beş barmaxda beş mərifət olmalıdı. İnsanın vay o halına ki, əsli bekar ola. Neynəsən də sürüşüb yıxılacağ e. Elə yıxılsın, heş qalxmasın (S. 25).

## 215. ŞAHIN ÇOBANI

Şahın bir çobanı olur. Çobannan şərt kəsir, aylıx vermiyəjəm sana. Bir il qoynumu otarajan, bir ildən sonra qoyunun xalxalından neçə dənəsin hasarın üsdünnən o üzə atsan, o qoyunu sənin hakqına verəjəm. Çoban bunnan razılaşır. Amma şah tapşırır ki qulluxçularına, gündə buna qatıx-çörək verin. Bir il keçir, vaxt-vədə çatanda şah deyir, gəl. Hasarın üsdünnən neçə dənəsin tullasan sənin hakqındı. Bu da qatıxla bəslənmiş adam, birin də qaldıra bilmir.

Kor-peşman bir də müqavilə bağlıyıllar. Bir ağsakqal olur. Gedir ağsakqala deyir ki, belə-belə dana, mən bir ildi işdiyirəm, heş nə alammıram. Deyir, yediyin nədi? Deyir, qatıx-çörək. Deyir, bu il sənə verdikləri qatığı apar ağacın divinə tök, eləcə yavan çörəyi ye. Bir il qatığı ağacın divinə tökür, eləcənə yavan çörəyi yeyir. Vədə çatır, vaxt gəlir. Şah deyir, at, görüm, neçəsin ata bilirsən? Bu dəfə sürünün hamısın atır buyza. Şah mətəl qalır. Deyir, bu nə məsələdi? Şahı aparıf ağacı görsədir, demək, bir il tökdüyü qatıx ağacı quruduf. Demək, qatıx onu nə qədər haldan salırmış (S. 51).

## 216. FƏRASƏTLİ DƏLLƏK

Babamın başını mən qırxırdım. O vaxdın adamları üzünü qırxanda başını da qırxdırırdı. Onun üzünü qırxanda deyirdi ki, bir gün şah çağırır bir dəlləyi. Deyir, əgər mənim üzümü qırxanda ayağını tərpətsən, səni öldürtdürəcəm. Dəllək də o qədər diqqətnən qırxır ki, fikri yayınır, birdən ayağını belə döndərən kimi əmr edir, bunu aparın. Belə-belə şahın başını qırxacax dəllək qalmır. Axırı biri gəlir. Deyir, mən qırxaram. Deyir, ənam verəcəm, amma ayağını tərpətsən, öldürtdürəcəm. Deyir, qırxır, qırxır, şah da üzünü belə çöörmür, məjburdu özü dönə. Dönəndə də öldürtdürəcək. Nətər şilləni əndərirsə şahın sifətinə, şah reski dönəndə deyir, beləcə dur, qırxım. Deyir, bax, sən əsil dəlləksən, buna ənam verin. Bax, bunu rəhmətdih babam danışırdı (S. 51).

# III. XATİRƏLƏR

## 217.

Mən burda anadan olmuşam, atamgil Güllücə kəndinnən olufdu. Atam söhbət eliyirdi ki, orda Məşəmməd adında bir qoçu var idi. Yağış yağanda deyirdi ermənilərə ki, siz çıxmıyın eşiyə. Siz mundarsınız. Onun qorxusunnan bir dənə erməni bazara çıxmazdı, şəhərə çıxmazdılar. Mən burda anadan olmuşam, otuz səkgizinci ildə. Amma atamgil söhbət eliyirdi ki, İrəvanın özündə Qara bəy olufdu. Göy məçidi tikifdi. Deyirdi ki, dağdan uzunqulağnan daş gətirəndə yolun bir qırağına ot tökürdü. Deyirdi, mən Allahın evini tikirəm, bir dənə ağaş vurmayın uzunqulağa. Xurcunnan yiyə-yiyə gedirdi, yiyə-yiyə də gəlirdi.

Atam söhbət eliyirdi ki, beşinci ildə getdik Türkiyəyə. Türkiyədə, deyir, maqazin açıx, satıcı yox. Qaşqın nə olacax, deyir. Satıcı belədir da, nə varsa götürürsən, pulunu qoyursan. Gəldih gördüh kü, satıcı, bir şey yoxdu. Parçadı, qəntdi, mampası deyirdilər, bizimkilər bunnan götürüblər. Sultana xəbər veriblər. O da deyib ki, bunnar gavırın içindən çıxıb, iyirmi dörd saatın içində burdan çıxardın. Bizi çıxartdılar, gəldih öz kəndimizə. On səkgizinci ildə ağam dedi ki, bir daha bu torpağı görmüyəceyih. On səkgizinci ildə ağam orda rəhmətə getdi.

– Bəs Güllücədən necə çıxdı?

– Deyirdi, bərxanaları tökdük quyuya, taxılı da tökdük ki, erməninin əlinə keşməsin. İki atımız var idi. Əziz dayınnan getdik gecə quyudan bərxananı götdük, taxılı götdük, iki ata yüklədik. Dedim, gəl Dəlməbağları ilə gedək. Əziz dedi, ay dayı, gəl yolnan gedək. – Ayə, ay bacıoğlu, gəl

Dəlməbağlarınnan gedək, bizi erməni tutmasın. Əl çəkmədi, yolnan gələndə üç erməni bizi tutdu. Bizi soyundurdular ağ tuman-köynək, heyvannarı apardılar. O vaxdı çarıx geyinənnər çarıx cırılanda altına ikincisini qoyullar, ona petava deyillər, deyir pulu qoymuşam ora. Əzizi döydülər, bu kopoğlu nə dedisə, qayıtdı məni də döydülər. Ordan, deyir, pulu çıxartdıx verdih, çıxdıx gəldih. Əzizin dədəsi dedi, bəs hanı atdar? Dedim, bax, oğlun belə elədi. Dəlməbağlarnan gəlsəydih, bizi erməni tutan döyüldü.

Atam on səkgizdə ordan çıxıb. Bura gələndə Yeni Həyatı veriblər. Bunnar da ora getmədilər. Nəyə görə? Stansiya Şamxordan Qazağa hər gün poyeznən alverə gedirdilər. Yeni Həyatı təklif etdilər, oranı götürmədilər. Dedilər gəlin pambığ əkin. Pambıx əkməyi nə bilirdik. Dedilər, sizə toxum da verəceyik. Toxum verdilər, əkdik, indi pambığı neynəyək? Dedilər, pambığı aparın verin qəflətirə. Maqazin demirdilər, qəflətir deyirdilər. Qəflətirə verdik, deyirdi nə istiyirsən? Mampası götür, qənd götür, parça götür. Təzdənnən bu qoruğu verdilər, qorux döyül ey, kol-kosdu. Dedilər gedin qırın oranı özünüzçün. Töküldüh, deyir, qırdıx. Toxum verdilər, əkdik. İndi gəlin qalxoza. Biri bir çəpiş verdi, biri bir put arpa verdi, yarım kilo taxıl verdi, qalxozu qurdux. Bax, belə atam söhbət eliyirdi.

Deyirdi, o vaxtları beş yüz bağ – biz indi pres deyirik, amma o vaxd eşmə-eşmə olurdu, bağ deyirdilər, – beş yüz bağ verirdik bir beşaçılan alırdıx, beş də badron. Mahmud dayı – Şıxalı dayının dədəsi – qayanın dalına girdi, beş gün ermənini buraxmadı kəndə. Almanı saplağınnan asırdı, beşaçılannan onu vururdu. – Ayə, mənə badron, badron. Badron hardadı, kim verəcək badron? Eşitdik ki, bunu

öldürüflər. Gecəynən getdik ki, yetmiş badron vurub kişini öldürüflər. Qayanı uçurtdux, kişini altına basırdıx, çıxdıx gəldik. Çox zülüm eliyiflər olara. Deyirdi insan nətər yağlı olar? Gözüm gördü, deyir. Evə doldururdular, yandırırdılar, yağ elə axırdı, su kimi gedirdi. Bu qaşqınnarı görəndə deyirdi, bu nədi ki. Ağ tuman-köynəknən əyağyalın, başaçıx bizi çıxartdılar.

Deyir, Nikolay hökümətinə deyirdilər ki, mənim millətimnən əsgər aparma. Niyə? Sən donuz əti verirsən. Bir abbası saldat pulu alırdı. Sənin neçə oğlun var, hərəsinə görə bir abbası saldat pulu verirdin, əsgər aparmırdı. Amma erməni getdi topa, cəbhəyə. Mənim qardaşımın yeddi yaşı var idi. Bərxananı deyir tökdük quyuya, taxılı da tökdük üsdünə. Qardaşımı da götürdüm gəldim. Bir inəyimiz vardı, bunun da balasın çiynimə aldım ki, bunu sağıb yeyərik. Deyir, kopoğlun ermənisi dərədən, hardan atdısa, inəy öldü. Balasın da qoydum orda, qardaşımın əlinnən tutdum getdim. Dərə qırağınnan qaşdığ gəldih deyir. Dedihcə ağlıyırdı ey. Sonradan gələn köçü görəndə deyirdi, bu nədi ki. Bizə erməni nə zülüm verdi (S. 32).

## 218.

Karvansaray kəndinin bünövrəsini qoyan mənim babam olub, Səfərəli babam. Səfərəli babam da bəy nəslindəndi. Onun yaxşı bir oğlu olub Əli, atam da onun adını qoyub mana. Çox igid adam olub. Gənc ikən bu artıq titulunu alıb, Dəli Əli deyirmişlər qoçaxlığına, igidliyinə görə, ermənilərə qarşı çox sərt olub. Dəsdə yığıf, türk beşaçılannarı olub ey, aynalı beşaçılannar, dəqiq vururmuş. 18-ci ildə Əli babamın on səkgiz yaşı oluf, ad-san qazanmış oluf. Bizim

yaşadığımız yerə Selimin gədiyi deyirdilər. Yüksək bir dağdı, o dağdan düşürsən Naxçıvana, Şərir rayonuna. Şərir rayonu da İrana yaxındı. Andranik gəlib keçəndə deyif ki, bu kəndə dəyib-toxunmuram. Atlarımız naldan düşüb, bizə at versinnər, – babamdan danışıram ha, Allah cəmi ölənlərimizə rəhmət eləsin, – bizə yemək versinlər, biz burdan sağ-salamat keçib gedək, heş kimə toxunmuyax. Əli babam varrı, hörmətdi, qoyun sürüsü, – onda Naxçıvannan İran arasında sərhəd olmuyuf, – sərhədə qədər uzanırmış, bəlkə sayını, hesabını bilmirmiş. O qədər varrı adam oluf. Baxanda görür bir dənə gözəl bir atdı. Deyir, o atı da mana ver. Andranik də elə-belə adam döylü axı, türk paşasıdı, generaldı. Bu belə deyəndə Hacı baba deyif ki, gətir atı ver. Amma Əli babam on səkgiz yaşında, dəliqannı vaxdıdı. Deyif ki, dayı, bu dığalar bizim namusumuza sataşdı, mən bu binamusluğa dözə bilmərəm. – Ay bala, qoy çıxsınnar getsinnər, nə işin var sənin? Əli babam eşitmir bunları. Atı götürüb gedəndə Kəlbəcərnən bizim aramızda sıldırım qayalar var. Axırıncı aşırım var ey, bax, həmin kino Selimin gədiyində çəkilib, orda Abbasqulu bəyi gülləliyiflər. O zaman gedir ki, demək, Selimin gədiyinnən də bir dənə fayton yolu gedir, elə sən deyən geniş yol yoxdu. Ordan xəbər çatır Andranikə. Andranik başda gedir. Delavoy sastav deyillər də – ərzaqdı, geyimdi, hər şey delavoy sastavda olur, – onlar arxadan gəlir. Vuruşma gedir, Andranikin qoşununnan nə qədər töküllər dərədən aşağı. Andranikə xəbər çatdırıblar ki, Səfərəli bəyin oğlu Dəli Əli qoşuna hücum eliyif. Deyif ki, geri qayıtmıyın. Geri qayıtsa nolardı? Hamısı tökülәjəhdi qayadan aşağı, qoşun bir-birin basıb qırajaxdı. Yola davam eliyirik. Altı dənə Andranikin süvari əsgərini,

bir dənə topunu, bir silah-sursat arabasını, bir də ərzaq arabasını hamısını zəbt eliyir. Gəlir dayısının yanına çatanda görür ki, bu qələbəynən gəlib. Çəkir alnından öpür. Deyir, sağ ol, oğlum. Ancaq sən bilsəydin ki, olar qayıdıb bizə neyniyər? Bizim kəndimizi yandırardılar, bir dənə salamat adam qalmazdı. Deyir, dayı, mənim namusum qəbul eləmədi. Yadınızda qalsın, bəlkə də, bilirsiz. Cahandar ağanın atı nətər at idi? Madyan at idi. Bəylər, ağalar erkək at minməzdi, dədəm də onun kimi. Kalxoz sədri uzun müddət madyan at minmişdi, adın da erməni adı qoymuşdu. Kişi erkək at minməz. Bunun rəmzi mənası var.

Əli babamdan qabax olub Səfərəli babam, varrı-hallı adam oluf. Olar Dərələyəzdən oluf, Karvansara kəndinin bünövrəsini Səfərəli babam qoyuf. Amma kökümüz Kolanı kəndinnəndi. Deyir, uşmuş yurd xarabalığınnan bəllidi. Səfərəli babam Kolanıda doğuluf. Kolanıda zəlzələ oluf, Köhnə Kolanıda Səfərəli xarabalığı bilinir, Səfərəli yurdu var. Olar o zəlzələdən köçüflər Dərələyəzə (S. 42).

**219.**

Yerli ermənilər yaxşı idi biznən, daldan onlar da qudurdular. Anam söylüyürdü ki, bizi qovaladılar, getdik İrana. İranda da qaldıx xeyli. Dedilər ki, sovet hökuməti gəlib, gəlin yurdunuza. Qayıtdıx gəldik öz öyümüzə. Gəldik ki, ermənilər doluf öyümüzə, bizi qoymurdular öyümüzə. Daldan gəldi böyüklər, öyün birin bizə verdi, birin onlara. Dedi, qoy bunlar da öy tikənə kimi burda qalsınnar. 18-də Türkiyədən çıxan ermənileri gətirmişdilər. Anam deyirdi, Vedidə Qaraxaç addı bir kənd var idi. Orda ermənilər arvadı-uşağı doldurdular dama, kişiləri də çöldə güllələ-

dilər. On iki dənə əmim oğlu, dayım oğlu var idi, hamısı cavan idi, hamısın çöldə güllələdilər. Onları aldatdılar, gəlin sizi tabe eliyəjeyik. Getdilər, deyir, boşqalardan nöyüdü gətdilər, burux-burux otdarı yandırdılar, bajadan tökdülər, qapını da basdılar. Bütöv, deyir, nəslimizi orda yandırdılar. O dam, deyir, yanıf uçana kimi camaatın səsi kəsilmirdi. Bajım nişannı idi, əmim oğlu, dayım oğlu – hamısın qırdılar. Bizdən qalan, deyir, bir dədəm oldu, bir əmim oldu, bir də Gülsümgilin dədəsi. Qalan hamısın qırdılar (S. 13).

**220.**

Müxtəlif dövrlərdə bizim camaat[106] ermənilərin soyqırımına məruz qalmışdar. Bizim bir görkəmli tarixçimiz var Həmid Əliyev. O bir dəfə qeyd elədi ki, Qaraqoyunnu camaatı ermənilərin hücumu nəticəsində on yeddi dəfə öz kəndlərini qoyub qaçmağa məjbur olmuşlar. O cümlədən 1895-ci ildə bizim camaat ermənilər tərəfindən soyqırıma məruz qalmışdı, onnarın bir hissəsi qaçmışlar Türkiyə ərazisinə, bir hissəsi də Azərbaycanın rayonlarına qaçmışlar. Sonra yenə qayıtmışlar. 1919-cu ildə yenə də Andranikin dəstələri bizim kəndlərə hücum etmişdi. O zaman onun hücumunu dayandırmağa cəhd etmişlər. Bir müddət saxlamışdılar, amma görmüşdülər ollar üsdəliyəcək, qırğın olmasın deyə ordan qaçıb Azərbaycan ərazisinə gəlmişlər. 1919-cu ildə yay vaxdı olmuşdu, bizim camaat Sarıbulax yaylağında imiş. Orda xəbər gəlif ki, ermənilərin hücumu olajaxdı, ona görə də bu ərazini tərk etmək lazımdı. Bizim camaat Gökçənin ərazisinnən qaçarax Qazağa, Tovuza

[106] Gölkəndin sakinləri

gəlmişlər. Bir müddət burda qalmışlar, sovet hakimiyyəti qurulanda bu kəntdərin camaatına ermənilər müraciət eləmişlər. Müraciətlərində demişdilər ki, siz geri qayıdın, indiki hakimiyyət sizin təhlükəsizliyinizi təmin edəjəhdi. Bizim camaat 1920-ci ildə geri qayıtdı.

1948-1953-cü illərdə də bizim camaat köçməyə məcbur edilmişdi. O zaman Bakıdan nümayəndələr getmişdi. Demişdilər ki, nazirlər sovetinin qərarı var, siz köçməlisiniz Azərbaycana. Nəzərdə tutulmuşdu ki, bizim camaat Ağdaşa köçürülsün. Onda bizim ağsakqallar gəliflər Ağdaşa, oruynan tanış oluflar. Qayıdanda deyiflər, ay camaat, orya köşməhdənsə, elə burda ölməh daha yaxşıdı. Ora isdidi, biz oranın hava şəraitinə dözə bilmərih. Biz yollar axtarmalıyıx ki, burda qalax. Bakıdan gələn nümayəndələrə aparıb qonaxlıx veriflər. Qonaxlıx verəndə onnar ağızdarınnan qaçırıblar ki, siz köçməyə də bilərsiniz. O sənətdə könüllülüh də var, biz onu demirik. Ondan sonra sadaladığım Salaxdı, Qaraqayadı, Əmirxeyirdi, Çaykənd, Gölkənd, Cıbıxlı kəndləri sözü bir yerə qoyuflar ki, biz köçmürük. 48-53-cü il deportasiyasınnan kənarda qalıflar. Və nəhayət 1988-ci ildə ermənilər bizi həmin kəndimizdən qovdular.

Deməli, 1988-ci ildə Gölkəntdə 2700 nəfər yaşıyırdı, 450 təsərrüfat varıydı. Deməli, ermənilərin hucumu oldu, onlar yolları kəsdilər, müxtəlif şayələr buraxdılar, qorxu yaratdılar, ancax bizim kəndin camaatı ermənilərə qarşı birrəşdi. Gecə səhərə kimi kəndi qorudular, tonqal qaladılar. Bir dəfə belə bir əhvalat oldu ki, Çaykənd kəndinnən bizə zəng eləmişdilər ki, sizin kəndə bir ekarus getdi, içi də dolu ermənidi. Camaat da qorxdu, yolu bağladılar ağaşdarnan, daşdarnan. Gəldilər gördülər ki, yol bağlıdı, camaat da

gizdənmişdi. Ekarus dayanan kimi daşnan, kəsəknən bu maşını pis vəziyyətə saldılar. Ermənilər hamısı aşağı sinmişlər. Sonra kənd soveti gəldi, rayonnan danışdı və dedilər ki, onnar idmançılardı, İrəvana gedirlər. Amma belə başa düşürəm ki, fürsət olmadığı üçün çirkin əməllərini həyata keçirə bilmədilər.

Bizim üçün ən dəhşətli hadisə Salax hadisəsi oldu. Salax kəndinə hücum oldu, kəndin camaatını zorla ekarusa doldurdular gecə vaxdı, evdən heç nə götürməyə imkan vermədilər. Camaatı gətirib Qazağın ərazisinə tökdülər, İcevannan bəri boş əraziyə. Deməli, bu hadisə sovet dövlətinin gözü qarşısında olan hadisə idi, ona heş bir reaksiya vermədilər. Ona kimi bizim camaatımız çox mütəşəkkil kəndi qoruyurdu. Salax hadisəsi, elə bil, camaatın əl-qolunu bağladı. Onu da qeyd edim ki, Salax hadisəsinnən əvvəl bizim kəndimizdə camaat böyük mitinq elədi. Çəmbərək partiya komitəsinin birinci katibini çağırdılar. Orda şüar səsləndirdilər ki, Qarabağ Azərbaycanındı, Qarabağdan əlinizi çəkin. Ondan sonra kəndimizə sovet ordusunun hissələri gəldi. Onnar kəntdə əmin-amannıx yaratmağ əvəzinə tələb elədilər ki, kəntdən köçün. Onun arxasınca ermənilər gəlib kəndə doldular, camaatın var-dövlətini qarət elədilər. Camaat ordan köçməyə məcbur oldu. Beləliknən, bizim camaat 1988-ci ildə ermənilərin soyqırımına məruz qaldı və Azərbaycanın müxtəlif yerlərinə səpələndilər. Bir dekabrda bizim məktəbi bağladılar, 5 dekabrda biz Gölkənd ərazisini tərk etməyə məcbur oldux. Biz oranı tərk edənnən sonra bizim qəbirsannığımızı dağıtdılar, qəbir daşlarını sındırdılar, məqbərələr varıydı, onları dağıtdılar. Deportasiya zamanı bir nəfər ölmüşdü Cahan Qocayev. O, evini danışmaq üçün

Ermənistana getmişdi, ona necə təsir göstərmişdilərsə, bura çatan kimi ölmüşdü.

Gölkəntdə yaşıyannar qaraqoyunnular olmuşdu. O qaraqoyunnular da müxtəlif tayfalardan ibarət idi. O tayfalar içərisində Gödallı tayfası varıydı, Cıbıxlı tayfası varıydı, sonra pirilər, tağılar, nurular varyıdı, qaraçuxurlular, vələnnilər, edillilər varıydı. Bizim tayfamız cıbıxlı tayfasıdı. Bu gödallı tayfası, cıbıxlı tayfası sayca çox olmuşdular. Məsələn, cıbıxlı tayfasından mənim ulu babam məçit tikmişdi. Onun oğlu kalxoz sədri olmuşdu. 48-53-cü illərdə camaatın ordan köçməsinə maneçilik törədən şəxslərdən biri olmuşdu. Gödallılarda da ruhanilər çox olmuşdu. Müxtəlif tayfadan ibarət olsa da, bu tayfalar hamısı bir-birinə qohum olmuşdu, qız vermişdilər, qız almışdılar. Bizə Hajı Mehdilər deyillər. Mənim anam Cıbıxlıdı. Orda Cıbıx Alı olufdu, onun adınnan o tayfa Cıbıx Alı adlanır. İndi orda Cıbıxlı kəndi var. Bizim kənddən də bir neçə aylə köçüb gedib orya, o kəndin adını Cıbıxlı qoyuflar.

Tarixdə belədi ki, bir qohum tayfa köçəndə bir qohumun yanında məskunnaşır. Alpoutdar Qaraqoyunnularnan ittifaqda oluflar və gəliflər Alpout kəndinin yaxınnığında Coğazda bizim camaat kənt salıf. Alpoutların dağ kəndi Hakqıxlı olmuşdu. 1919-cu ildə Hakqıxlıda ermənilər böyük bir faciə törətmişdər. Orda bir molla olufdu. O molla deyifdi, ay camaat, gedib eləməyin, ermənilər mənim dosdumdu, burya hücum olmuyacaxdı. Bunnar da bu mollaya inanırlar. Bir gün Molla gedir ermənilərnən görüşəndə deyillər biz gedək sizin camaatnan söhbət eliyək, görək bu vəziyyətdən onnarı necə çıxartmax olar. Deyillər camaatı bir dama yığ, orda danışax, iclas eliyək. Camaatı yığıllar dama, dama yığan

kimi silahlı ermənilər gəlir, qapını-bacanı bağlıyır, dama od vurullar. Həmən mollanı da ağaca mismarrıyırlar. O yanan evdən bir çoxları qaçıb canını qutara bilmişdi (S. 18).

**221.**

Deməli 87-ci iliydi, mən Rusiyadaydım, dekabr ayında gəldim. Cavan oğlan idim, 25-26 yaşım vardı. Mənim yoldaşım Zərdabdandı. Nişan apardıx, fevral ayı idi. Orda mən bu söhbəti eşitdim, qayıdası idim Rusiyetə. Orda məclisdə söhbət açıldı ki, ermənilər Qarabağı istiyir. Bu mənə bir az qəribə gəldi. Sonra mitinq oldu, mən gedə bilmədim Rusiyetə. Elə vəziyət gəldi ki, hardasa oldu aprel, may ayları. Gördüm uje, doğurdan da, ermənilər başdıyır ordaburda yol kəsməyə, maqazinlərə pradukt buraxmıllar. Bizim kənd çox möhkəm kənd oluf, 1918-ci ildə də ermənіyə qan udduruf. Erməni qorxurdu bizim kəntdən. Deyirdi, əyaxda Polat, başda Zod olmasa, biz azərbaycannıları yiərik. Nəsə, bu haqq-hesap oldu, gördüm vəziyyət çox çətinnəşib. Bizim kəntdən yol keçirdi, körpü varıydı, körpün qabağında bir dənə bulduzer saxladı camaat. Altı ay biz özümüzü saxladıx. Sora bir gün Alaçıxqaya kəndinnən beş-on nəfər kişi yığılır, yolun qırağında bir ev varıydı, o evdə oturuşanda gəlinə deyillər, a bala, ordan bir az su gətir. Gəlin çıxır ki su gətirsin, bunu gülləynən vurellar yolda. Gəlini vurdular, gəlin öldü. Gəlini gətdilər Qazağa. Gəlin də ərinnən boşanmışdı. Qazağa srazı yalannan məlumat veriflər ki, yox, biz vurmamışıx, bunu gəlinin əri vuruf. Gəlinin meyidin təzədən burdan dala qaytardılar, apardılar orda dəfn elədik.

Hardasa oktyabr ayı idi, erməni tam blakadıya aldı bizi. Bayaxdan daldeydə atırdılar, indi açıq-aşkar kəndə hüjuma keşdilər. Silahlıydı hamısı, vayennilər. Polislər gəlirdi qıraxda durur, guya ki, axran eliyir bizi, deyirdi ki, gücümüz çatmır. Rayspalkom bizim dili yaxşı bilirdi. Dedi, biz bu camaatın qabağında dura bilmirik, camaat sizi qırajax, tezbazar köçməh lazımdı, ancax bu vayenni, bu polis sizin evinizə nəzarət eliyəjəh. Gejə saat olardı on bir, on iki, bir də gördüh avtobuslar kalonnan gəldi. Dedi, bir adam bir belə sumka götürə bilməz. Bu sumkanın əvəzinə bir uşax qoyun. Can şirin şeydi, basabas, o ordan, bu burdan, polisdər də nəzarət edir. Eləcə bunnar deyir ki, narahat olmuyun, sizin evinizi-eşiyinizi, varınızı-dövlətinizi beləcə saxlıyajıx. Siz canızı götürün hələlih gedin müvəqqəti Qazağa. Gejəynən doldu camaat. Anamın dayısı oğlu vardı, anası rus idi, Sverdlovskidə yaşıyırdı, atasının yanına gəlmişdi. Yaqub adlı oğlan idi. Bu rəhmətdik bir az gecikir avtobusa. Camaatı gecə saat ikidə, üçdə avtobusnan gətdilər tökdülər Qazağa, posta. Ölən kim, itən kim, kim kimi tanıyır. Biz sabah baxanda gördük Yaqub yoxdu. Sabah bir nəfər – o da bizim qohumumuz idi, Qazaxda yaşıyırdı, – gedir görür ki postda... Bərxudarda bizim post idi, bəridə erməni postu idi. İki postun arasına gətirib tulluyuflar. Bu da ölümcül vəziyyətdədi, iki-üş gün balinsiyada yatdı. Onu danışdırdıx, dedi məni tutdular, bərk döydülər. Qabırğasını qırmışdılar. Ordan nətərsə bunu buraxıblar. Buraxıblar deyəndə gətirib iki postun arasına atıblar. Buna iynə vurmuşlar. Bizim həkimlər baxanda dedi, buna elə bir iynə vurublar ki, beş gün, altı gün bunun ömrü var. Elə də gəldi burda Ağstafada öldü. Çıxdıx gəldih, onnan da ara kəsildi, canımızı ancax götürdüh.

Allah yaxşı insannara can sağlığı versin, Kamil məllim varıydı Ceyrançöldə. Getdim rəhmətdiyin yanına. Dedim, Kamil məllim, bizə ev-eşih. Mən aylə vəziyətimi deyəndə bu yazıx pis oldu. Dedi, mənim gözüm üsdə, gəlin, burda nə qədər boş ev var hamısına yerrəşin. Get, – dedi, – qohum-əqraban, kəndçin, kimlər var gətir. Gəldim mən bir on-on beş adam, Qazaxdan, yolda-küçədə qalanı yığdım apardım orya. Hərəmizə bir otağ, iki otağ ev verdi. Sora orda yaşıyan insannarın çoxunun prapiskası bu kəndə oluf. Dedilər ki, bəs kəntdə torpax da veriləjəh, alajaxsınız, belə helə. Təzdən hardasa bir 6-7 il orda qaldım. Ondan sonra gəldim burdan üç uçaska verdilər, ev tikdilər verdilər.

Mənim rəhmətdih ana babam varıydı, o danışırdı. Demirəm bizim kilsənin bəri döşü açıx idi, kəndə tərəf baxırdı. Deyirdi, hardasa 1918-ci ilin yay ayları olufdu. Yun yumuşdum – onnarın da yaxşı qoyunu-malı oluf, – yuyuf o kilsənin döşünə sərmişdim. Bir dənə erməni oluf, bu erməni bizim ana babamızın dostu oluf, Hanes adında erməni oluf. Bizim qonşu kənt var idi erməni kəndi, orda görüflər ki, ermənilər danışır ki, bu kəndi gecəynən blaka-daya almax lazımdı, yoxsa bu kəndə gündüz bata bilmiyəjik biz. Bu erməni çörəyi basannıx eləmiyif, gecəynən atı tərsinə nallıyıf, gəlif bizim kəndə. Gəlif deyif, Oruş kişi, ermənilər bu axşam sizin üsdünüzə qalxajax, sizi qırajax-lar. Gecəynən özünüzə tədbir görün. Bizimkilər deyillər, arvad-uşağı, əli-əyağı tutmuyanı Krasnı tərəfdən piyada yolnan yola salax, özümüz Qannı qayada qabağını kəsəh erməninin. Qaraqoyunnu kəntdərinə uşax yolluyullar ki, erməni gəlir, hazırrıxlı olun, arvad-uşağı çıxardın aradan. Qaraqoyunnular deyir, ağrın alım, bu ayrımlar dınqıltı

eşidif. Qaraqoyunnuları çox qırıflar, elə arvad-uşağı basıf qırıflar, bizimkilər salamat çıxıb. Həmin o Qaçax qayasında[107] yaxşı kişilər doluf həmən o qayanın o üzünə, bu üzünə. Erməni gəlif ki, həmin o Qaçax qayasının arasından keçif getsin, bizimkilər beşaçılana verif bütün ermənini qırıflar. Onnan adı Qannı dərə qalmışdı. Arvad-uşax salamat qaçıb Touzun üsdüynən bir təhər Qazağa gəlir, ordan da bizimkilər Köçəsgərdə, Qazağın kəndlərində məskunnaşıflar. 1920-ci illərdə təzədən qayıdıflar.

Allah rəhmət eləsin mənim babam Dünyamalı öləndə, – ermənilər vuruf onu, – erməni kəndi Çarxaç yeddi gün toy bayram eliyif. O qədər qoçax adam oluf. Erməninin qənimiymiş. Dünyamalının ətrafı güjdüymüş. Onu 1918-ci ildə öldürüflər. Kürd Avdulla oluf bizim kəntdə, erməni kəndində maqazində işdiyirmiş. Avdulla gəlif deyif ki, – Çarxaç kədinin içində maqazin varmış, o vaxdı çörəyi ordan alırmışdar, – ay Dünyamalı, ermәniyə qalmasın, gedəh o maqazinin içinnən mal gətirəh. Orya da Dünyamalı gedə bilərdi, ürəhli adamdı, o birin adın unutdum. Üç nəfər oluflar, gediflər Çarxaça – erməni kəndinə. Erməni orda bijdih işdədir. Evinin bir gözün maqazin eliyib. Deyif, ayə, Avdullacan. – Dünyamalı çöldə gizdənif. – Arə, ermənilər bilər sənin burda olduğunu, öldürəllər məni. Qoy ermənilər gəlsin, gecə saat 12-də mən səni ötürəcəm, gedərsən. Deyif, hə. Çağırır həmən babamgili. Deyir, erməni belə deyir, gəl bir az içəridə durax, əlimizi-ayağımızı isidək – qış imiş, – gecə 12-də maqazinnən nə lazımdı götürüf çıxarıx. Erməni bunnarı bir dama saler, ağzın da bağler. Deyir, burda

[107] Sonralar Qanlı qaya adlanıb.

durun, mən gecə saat birdə, ikidə işıxlar keçən kimi sizi qaldıracam. Gecə saat onda, on birdə babam deyir, ə, bu erməni bizi burda öldürtdürəjəh, damı söküllər, çıxellar. Xeylax gəlillər, baxanda görüllər dörd tərəfdən mühasirəyə alıflar. Xəbər verif ki, üş dənə türkü salmışam bura, Dünyamalı da yanlarındadı. Ordan atışa-atışa gəlellər Darrığın körpüsünə. Kürd Avdulla da əldən-ayaxdan topal adam olur. Burya çatanda Kürd Avdulla tülkü olur, qaçır körpünün altında buzun altına girir. Bavam özün o tərəf döşə verir, ağacın, daşın dalına, vuruşa-vuruşa yoldan çıxsın. Döşə çıxanda bavamı orda vurullar. Avdullanı tapa bilmillər. Bir günnən sonra Kürd Avdulla ordan çıxır, gəlir kəndə. Deyir ki, bəs Dünyamalını vurdular. Gəlillər ki, Dünyamalının meyidinə yaxın getmiyiflər, elə orda qalıf. Çarxaç kəndi üş gün toy-bayram eliyif ki, ayə, Dünyamalı ölüf. Elə qoçax adam oluf (S. 50).

# IV. NAĞILLAR

## 222. COMƏRD QƏSSAB

Cömərd Qəssab Əli aşiqi olub. Üş nəfər olur, mən eşitdiyimə görə. Atası rəhmətə gedəndə deyir ki, sizin biriniz Əli imama çox yaxındı. Bular sporlaşırlar, o deyir mən yaxınam, bu deyir mən yaxınam. Davaları düşür. Deyir, gedək Əli imamın özünnən soruşax. Gəlillər Əli imamın yanına. Deyillər ki, ya Əli, bizə atamız belə dedi, amma biz ayırd edə bilmirik ki, hansımız səni çox istiyir. Deyir, məni çox istəmək üçün gedin bir kəndin bir qapısında qasidə oxuyun, görün nə görəciyiniz, gəlin mənim yanıma, onnan sonra deyəcəm sizə. Gedillər qapıda qasidə oxuyurlar Əli imamızın adına. Baxıb görüllər içəridən bir qadın çıxdı, bir məcmeyi üstü örtülü, əlində də bir qılınc. Çıxdı eşiyə dedi ki, qardaşlar, siz ki Əli imamızın adını mənim qapımda oxudunuz, qasidəsini oxudunuz... Açır məcmeyini. Açanada baxıb görüllər ki, bir tərəfində yemək var, bir tərəfində pul var, bir əlində də qılınc. Deyir, ajsınızsa çörək götürün, pul lazımdı pul götürün, baş lazımdısa, alın qılıncı kəsin mənim başımı, aparın Əli yolunda. Deyillər, xanım, bizə heç nə lazım döyül, biz gəldik qasidə oxudux, bizə aydındı, biz gedirik.

Gəldilər Əli imamın yanına. Əli imam dedi ki, nə gördünüz, nə eşitdiniz? İndi nə başa düşək sizin hansınız məni çox istiyirsiniz? Dedilər ki, ya Əli, o qadın sizə yaxındı deyin bəlkə elə etdi, biz onu edə bilmərik. Dedi, onda o yaxındısa, gəlin sizi uzağa aparım. Qəmbərə dedi ki, mənim atımı çək,

– atın adı yadımdan çıxıb[108], – Düldülü çək. Qəmbər həmişə Düldülün önündə gedib, üzü Əli imamıza tərəf olub. Ona arxa çevirmiyib. Düldül nə qədər sürətnən gedibsə Qəmbər həmin sürətnən atın qabağında gedib. Bulara dedi ki, tutun Düldülün yüyənindən, gözünüzü yumun. Yumdular. – Açın. Açdılar ki, bir səhrada bir ağacın yanındadırlar. Sən demə, ağaş da xurma ağacı olsun. Əli imamız özü qəsdən ordan apardı buları haa. Oturdular. Oturanda dedilər, ya Əli, burda bir su olsa içərdik, bu ağac da görən nəyə görə quruyub. Xurma ağacıydı, qurumuşdu. Əli imamımız əlinnən işarət elədi, ağacın dibinnən su çıxdı. Bular sudan işdilər. Dedilər ki, ya Əli, bə bu ağac niyə quruyub? Dedi, gedin ağacın özünnən soruşun, mən deyə bilmərəm. Getdilər, ağacın yanında durub ağaca "sən nəyə görə quruyubsan" deyəndə ağaşdan səs gəldi ki, hər gün Əli imam günorta namazını mənim dibimdə qılıb, burda bu sudan içirdi. Bir neçə vaxtdı gəlmir, onun dərdinnən qurumuşam. İndi fikir ver haa, ağac quruyan yerdə insan buna ibadət eyləmir. Oturdular.

Nəsə, birdən dedilər, ya Əli, bir ət olsaydı kabab çəkərdik. Qəmbəri göndərdi. Dedi, kəntdə bir dənə qəssab var, – kənd elə yaxınıydı, – ged o qəssabdan ət al gətir. Qəmbər də Əli imamımızın adına olan bir qəpik apardı. Getdi ki, qəssab durub deyir ki, Əli başı üçün almanam, Əli başı üçün vermənəm. Bu fikirrəşdi ki, bu nə deməkdi? Yəni bu demək istiyir ki, Əli başı üçün nə artıq almaram, nə əysik vermərəm. Bunun mənası budu. Nəsə, Qəmbər dedi ki, mana ət ver. Əti aldı, pulu verəndə qəssab baxdı gördü ki, pulun üstündə Əlinin adı yazılıb. Götürdü bunu

[108] Biz xatırladandan sonra yadına düşdü.

sürmənin xəlvət bir yerinə qoydu, pula qarışdırmadı. Qəmbər əti götürüb gələndə dedilər ki, ya Əli, bu ət narahat ətdi, bunu biz yeyə bilmərik. Elə bil köhnə kimidi. Qəmbərə dedi, Qəmbər, get təzə ət al gətir, olmasa pulumuzu al gətir. Qəmbər gedənə qədər Əli imamız dedi, durun gedək, yoxsa Qəmbər qəssabı öldürəcək. O yerdə gəldilər çatdılar ki, Qəmbərnən qəssab uje mübahisə edirlər. Bu deyir, mənim pulumu ver, ətin lazım döyül, o da deyir, ay qardaş, mən nə bilim, verdim, çıxdı getdi. O qədər alver edirəm ki, pul qarışdı getdi da. Mən hardan sənin pulunu tapım. Əli imamımız bunları sakitləşdirdi. Dedi, mübahisə eləmiyin. Sürməni çək, əgər onun pulu burda olsa özünə çatar. Bu da bir az acıxlı baxdı, gördü ki, bir nurani adamdı. Sürməni çəkən kimi pul ordan cınqıltıynan qalxdı Qəmbərin ovcuna düşdü. Qəssab baxdı gördü ki, nəsə bir möcüzə var da burda. Dedi, qonaqlar, bu gün mana qonağ olun. Dedilər, yaxşı. Qəssab dedi ki, qoyun yolu görsədim sizə, gedin bu gün mənim qonağım olun. Deyilənə görə da, dəqiq bilmirəm. Əli imamız dedi ki, evini tanıyırıx, özümüz gedərik. Bu da hardasa ayrı yerdə yuxusunda görmüşdü kü, Əli imamız Gəncəyə ayax qoyacax. Gəlib Gəncədə bir ev tikdirmişdi, ağzına bir qıfıl vurmuşdu. Hələ onun ağzını açmamışdı ki, Əli imam gələndə o evə qonağ aparsın. Əli imamımız uzax yolnan getdi, bu kəsə yolnan evə getdi. Getdi yoldaşına dedi ki, belə-belə, üç nəfər adamdı, bir də nurani bir adamdı bizə qonax gəlirlər. Elə bir iş görək ki, oların yanında peşman olmuyax, yaxşı hazırrıx görək.

Gəldi elə qapıda durmuşdu. Əli imamız çatdı, yönləndilər ki, o evə gedələr qıfıllı qapıya. Qəssab dedi ki, o ev bir niyyətə tikilib. Ora hələ ayax qoyulmuyuf, getmiyin ora,

belə gedək. Dedi, yox, biz o qapıya gedəcəyik. Dedi, onda qoy açarı gətirim. Açarı gətirim deyənə qədər Əli imamız yönnəndi qapıya, çatanda qıfıl açıldı, zınqıltıynan düşdü yerə. Qapılar açıldı öz-özünə, girdilər oturdular. Bu da baxdı gördü ki, bu da bir möcüzədi. Oturdular, yemək-zad hazırramax vaxtında bunun bir uşağı varıydı qəssabın[109]. Uşaq bunların yanına gələndə Əli imamız dedi ki, məktəbəzada gedirsən? Dedi, yox, hələ oxuya bilmirəm. Dedi, bir kitab gətir, baxaq görək, bəlkə, oxuya bilirsən. Getdi bir kitab gətirdi. Əli imamımız dedi ki, aç, oxu, görüm oxuya bilirsənmi. Allahdan buna elə bir zehn gəldi ki, kitabı açdı, başladı oxumağa. Oxudu-elədi, çıxdı getdi oynamağa.

Uşağ oynamağa gedənnən sonra qəssaba xəbər verdilər ki, bir dəsdə atlı gəlib mağazanın yanına, səni görmək istiyir. Dedi, gedim görüm kimdilər. Qonaxlara dedi, siz narahat olmuyun, atlı gəlib, gedim görüm nədi, qayıdıb gəlirəm. Bu gedəndə uşax da getdi bunnan. Gedəndə baxdı gördü ki, üş dənə atdıdı, hardansa qıraxdan gəliblər. Soruşdu ki, nədi, xeyir ola? Dedi ki, bizim padşahımız xəstələnib, ona müsəlman qanı buyurublar. Bizə qan lazımdı, o da səni dedilər. Dedi ki, məni dedilər, onda kəsin başımı, qanımı aparın. Bunu deyəndə uşax dedi ki, ata, səni and verirəm səni yaradan Allaha, mənim başımı kəs, qoy bunlar mənim qanımı aparsınlar. Bəlkə, cavan qanı lazımdı bulara. Bu belə and verəndə deyir, qəssab çox pərişan oldu. Uşağın başını kəsdi, qanını verdi bulara, yola saldı, getdilər. Uşağın meyidini götürdü gətirdi evə. Yoldaşını çağırdı. Dedi, bax,

[109] Söyləyicinin danışığını dəqiqləşdirmək üçün qəssabın dedim. Cavabı bu oldu ki, eşitmisən deyəsən. İndi səhv söylüyürəm bilmirəm, mən də belə eşitmişəm. Bəlkə, yanlışım var.

belə bir hadisə başıma gəldi, amma olmuya-bilmiyə qonaxların yanında nəsə bir şey edərsən. Bular gedənnən sonra istər özünü öldür, istər ağla, nə iş görürsən gör. Yoldaşı dedi ki, ay kişi, mən səndən incidim. Dedi, niyə? Dedi, bəlkə qadın qanı lazım idi, məni çağırardın, mənim başımı kəsərdilər. Fikir ver, gör Əliyə məhəbbətdəri nə dərəcədədi. Bular uje sakitləşdilər, meyidi də gizlətdilər.

Yemək ortalığa gələndə Əli imamımız dedi ki, qəssab, indicə bir uşax vardı burda, o uşax necoldu, hardadı? Dedi, nə bilim, vallah. İndi bilmir ki, bular Əli imamdı. Dedi, bilmirəm, hardasa oynamağa gedib. Dedi, yox, o uşax gəlməsə, biz bu çörəyi dilimizə vurmuyacıyıx. Əli imamımıza agah idi ki nə olub. Çox kor-peşmandan sonra dedi, qardaş, vallah, belə-belə oldu. Üş dənə atdı gəlmişdi, mənnən də uşax getmişdi, əl çəkmədi ki, mənim başımı kəs, qanımı ver. Uşağın başını kəsmişəm. Dedi, uşağı gətir, hər nədisə də gətir. Gətirdi uşağı, ortalığa qoydu. Qalxdı Əli imamımız, ağzının suyunnan bunun boğazına çəkdi, bir rükət də namaz qıldı, əl götürdü Allaha ki, bu uşağa nəfəs ver. Uşax, deyir, gözünü aşdı qalxdı, həmişəki kimi başladı oynamağa. Kənardan da ora bütpərəst ölkəsiydi. Bir dənə Əli başı üçün almaram, Əli başı üçün vermərəm kəlməsinə görə o patent verirdi. Camahat gördü ki, qəssab uşağın başını kəsdi, qanını verdi onlara, apardı getdi. Bir azdan sonra da baxdılar gördülər ki, uşax qapıda-bacada oynuyur. Mətəl qaldılar ki, bu nə olan şeydi? Gəldilər qəssaba ki, indicə uşağın başını kəsmişdin, bu nətəri oldu? Təzdən Əli imamımız özünü nişan verdi ki, mən Allahın şiri Əli imamam. O dedi mənim ölənimi dirilt, bu gəldi dəvəmi dirilt. Dedi, mən ölü diriltməyə gəlməmişəm, mən Allahın imamıyam. Mən

gəlmişəm, dönün iman gətirin. Deyir, ondan sonra şəhərmi, kəntmi döndü iman gətirdi, Allahı tanıdılar. Həzrət Əli də onnan gələn üç qardaşı götürdü gəldi. Bu qardaşlar dedilər ki, bizim heş birimiz qəssab kimi ola bilmərik. Dedi, onda gedin, nə qədər ki qəlbinizdə mənə qarşı məhəbbət var, elə onu saxlasanız bəsdi (S. 38).

## 223. HƏZRƏT ƏLİ VƏ QƏMBƏR

Həzrət Əli əleyhsalamın qulu Qəmbər oluf. Qəmbərin adı Bətdaldı. Gəncə xannığı xaçpərəsət oluf, Bətdal da Gəncə xanının qardaşı oğludu. Əmisi qızına elçi düşür. Deyir ki, sən Həzrət Əli əleyhsalamın başını gətirsən, mən qızımı sənə verəjəm. Daqavor bağlıyırlar, bu Bətdal qoyur civinə, ordan tərpənir gedir İraqa. Əli əleyhsalama hər şey əyan idi, qurban olum ona. Burasın da deyim sana. Hələ dünya binnət olmamış Allahtalanın yanında peyqumbər-zad olmuyuf, heş kim olmuyuf. Beş pəncdən ali-əbanın üzünün nuru yaranıf Allahın yanında. Bax, bu yeri-göyü, bu gözəlliyi onnarın üzünün nuruna yaradıf Allahtala. Onnar kimdi? Məhəmməd Əl Mustafadı, Əli Murtazadı, Fatmeyi Zəhradı, Həsəni Müştabadı, Hüseyni Şəhidi Kərbibəladı.

Hə, bir az gəliflər. Əli əleyhsalama da əyan idi. Gəlir bir boz oğlan, Əli əleyhsalam da xurma suluyurmuş. – Ə salammələykü, ay qardaş. – Əleyki salam. – Bu şəhərdə Əli adında bir adam var, onu tanıyırsanmı? Deyir, tanıyıram, niyə tanımıram? Nağarajan? – Onnan işim var. – Əyə, nə işin var? Belə-belə. Onda deyir ki, bil mənəm, gör mənəm. Əgər məni yıxa bilsən, elə bil Əli əleyhsalamı quş kimi uçuracan. Nəsə, Əli əleyhsalamnan güləşəndə qəzəbə gəlir,

Bətdalı tulluyur göyə. Göydə mələykələr buna deyir ki, Allahın nəhləti sana gəlsin, sən Əli əleyhsalamın qəzəbinə gəlifsən. Sən bu kəlmələri de, Əli əleyhsalam səni tutajax. Pismillahi-rəhmani-rəhim, əşədü ən la ilahə illallah, əşədü ənnə Məhəmədi rəsulallah. Əşdi ənnə əmirəl möminin vəliyən vəlilullah de, o səni göydə tutajax. Bunu deyə-deyə enəndə Əli Əleyhsalam bunu tutur. Ayağına döşənir ki, ya Əli, mən qələt eləmişəm, buyünnən sənin dininə dönürəm. Onnan sonra Bətdalın adı olur Qəmbər. İndi bunlar hardan əmələ gəlib burya gəlməyi?

Gəlir deyir, ya Əli, sənə fidah olum. Həmişə bu dal-dala gedərmiş, Qəmbərin gözü Əli əleyhsalamın gözünə baxarmış. Əli əleyhsalam gedir cinnərnən dava eliyir. Cinnərnən dava eliyəndə Məhəmməd peyqumbər deyir ki, kim Əlinin sağ sədasını mana gətirsə, mən onu dünya malınan qane eliyəjəm.

Qəmbər quyunun başındaydı. Bir də baxır ki, Əli əleyhsalam gəlir. Qaçanda deyir ki, ayə Qəmbər, sana peyqumbər hər şey verəjəh. Get denən ki, mehracda yüz danışdız, onun birini mana de. Gedir deyir, ya peyqumbər, sana fida olum, Əli əleyhsalam salamat gəldi. – Nə isdi-yirsən? Var, dövlət, pul. Deyir, yox, mana heş zad lazım döyül. Getdin mehracda danışdın, orda danışdığının günün zərrəsi qədər birini mana de. Bu sirr idi, açılmamalı idi. Qeybdən səda gəldi ki, ya peyqumbər, Qəmbər də bizdəndi, de. Dedi, kimin ürəyində günün zərrəsi qədər Əli xofu varsa, onu cəhənnəm odu yandırmayajax.

Onda deyir ki, ya Əli, görəm səni mənim qədər isdi-yən varmı? Deyir, Qəmbər, Düldülü gətir. Düldülü gətirir, yəhərriyillər. Deyir ki, gözünü yum. Gözünü aç! Gəlillər

Xannarnan Gəncənin arasında üsd tərəfdə bir bulax var. O bulağın üsdündə bular namaz qılır. İndi burasın deyim sana. Gəncədə Comardı Qəssab meçidi var, bilmirəm rasd olufmu sana. Comardı Qəssab bir ev tikdirib. Deyib, and olsun Allaha, – ağzına da bir yekə qıfıl vurub, – neçə ki Əli gəlməmiş mən bu qapıyı aşmıyajam. İndi möcüzəyə bax sən.

Əli əleyhsalam Qəmbəri göndərir, iki-üç dəfə ət alıf gətirir. Axırda deyir, ət xoşuma gəlmədi, get pulu al gətir. Pula gələndə qəssab pulun yerinə özgə pul verir. Onda Əlinin adına sikkə varmış. Gələndə deyir, əyə, bu pul mənim döyül, başqa puldu. Comardı Qəssaba deyir, bizi niyə alladırsan, pulu niyə vermirsən? Deyif, vallah, pulun içindən seçəmmədim, qoy tapım verim. Deyir ki, ehtiyac yoxdu, mən götürümmü? Deyif, hə. Əlin uzadan kimi pul əlinə sıçrıyıf. Comardı Qəssab baxıf ki, bu özgə adamdı. Axşam tərəfi imiş. Deyif, hara gedirsınız? Gedək qonağım olun. Deyir, gedək. Tükanı bağlıyır, gedəndə Comardı Qəssabın oğluynan yolda rastdaşırlar. Xörək-zad hazırranır, hazıra gələndə Gəncə xanı demirəm xaçpərəstdi, orda buna şiə qanı... Ərəbistandan bir nəfər alim gedifdi, deyif buna şiə qanı lazımdı. Şiə qanı vursalar bu diriləjəh. Burda da şiə Comardı Qəssabdı. Gəlir Comardı Qəssaba deyir ki, Comardı Qəssab sağ olsun, padşaha şiə qanı lazımdı. Arvada deyir, arvad, sən xörəyi apar... Yox, əstafirlax. Bular gedəndə görür ki, qapının qıfılı açılır öz-özünə. Bilir ki, Əli əleyhsalamdı. Arvada deyif, mənim başımı kəs, qanımı ver, sən də qonağı yola sal. Deyif, ay kişi, helə şey ola bilməz. Hazır mənim başımı kəs, sən də apar xörəyi. Nə bilir ki, arvad gətirdi, gətirmədi. Bunnar bu götür-qoyda, oğlu

gəlir. Oğlu gəlir, a dədə, nədi? Deyir, belə-belə. Deyir, nə sən öl, nə bu. Mənim başımı kəsin, qanımı verin, qoy getsin.

Oğlunun başın kəsir qanını verir, bu gedir. Meyidi də qoyullar bir yerə. İndi çörək qoyulur ortalığa. Deyir, yox, qoy uşax gəlsin. A kişi, uşax gej gələjək, nə bilim, heş gəlmiyəjək. Oyan-bayan, çox nervidən sonra deyir, sana fida olum, bax, belə vəziyyət oldu, mən uşağın başını kəsdim qanını ona verdim. Qəmbər də yanındadı ha. Gedir üç rükət namaz qılır. İnsanın bir yeri yaralananda ağzının seliyindən belə vuranda elə bir onun dərmənidi. Namaz qılır, Allahtalaya ibadət eliyir, uşax dirilir gəlir. Deyir, ay Qəmbər, indi gör məni səndən çox isdiyən varmı?

*Dayısı Molla Əlişdən eşidib* (S. 3).

## 224. HƏZRƏT ƏLİNİN TİLSİM DAVASI

Məndə üç dəftər Əli imamızın müharibəsi var, tilsim davası var. On iki il tilsim davasında oluf, Xavərzəmin davasında. Xavərzəmini gedir alır, ondan sonra tilsimi sındırır. Xavərzəmin çox tilsimgah olub. Xavərzəmində də Dal adında lənətgah olub.

– Başdan başlayıb ətraflı danışın.

– Əli imamımızdan qabaq gedənlər olub. Əli imamızın pəhlivanları gedib. Əbil Mərcan adında qılınc pəhlivanı olub, Malik Əjdər olub ki, gürz vuran olub. Əli imamızın elə bil ki sağ-sol qolları olublar. Olar getmişdilər. Heç Əli imamımızın, deyir, xəbəri olmamışdı. Birdən gözünə dəyməyəndə peyğəmbərdən, ordakılardan soruşur. Deyir ki, Malik Əjdərnən Əbil Mərcan gözümə dəymir. Necə oldular? Olar deyirlər ki, filan yerə gediblər. Gedir təzdənnən buların

dalınnan. Orda Dal adında pəhlivan olur, onun qardaşı Salsal olur. Dal sehr bilən bir insan olub ku, heç olmuyan kimi. O Xavərzəmini tilsimə salır, Əli imamızın adına bağlıyır. Deyir ki, havaxtsa Əli adında bir imam gələcək dünya üzünə, o gəlib bu tilsimi sındıracax. Onun adına bağlıyır. Əli imamız da gedir sındırır tilsimi. Dalın qardaşı olur, Salsal. Öz qardaşını öldürüb hakimiyyətə gəlir. Salsal da ki Əli imamımızdan sonra elə bil dünya üzündə ikinci pəhlivan olub. Min batman gürzünün ağırrığı olub, hara vursa dağıdarmış da. Onu qılınc kəsmirdi. Əli imamızın Zülfüqar qılıncı Salsalı kəsmirdi, çünki o bütpərəstiydi. Həm də deyilənə görə, dünya üzündə yüz iyirmi dörd min peyğəmbər olub, oların adınnan bir əba geyinibmiş paltarının altınnan. Zülfüqar Əli imamızın qılıncı oluf, dağın başına vursa dağı bölərmiş. Burda Gədəbəydə Haçaqaya var, qılınc Salsalı kəsmiyəndə nervilənir qayaya endirir, həmin qayanı üç parçaya bölür. Nəhayət, onu gözündən oxnan vurur Əli imamımız. Ölür, bunu soyunduranda baxıb görüllər ki, yüz iyirmi dörd min peyğəmbərdən əba geyinib. Hamısın əbanın üstündə adı olub da peyğəmbərlərin. Qılınc peyğəmbərin adı olan paltarı kəsməz ki. O öldü getdi Xavərzəmində, tilsimi sındırdı.

Həzrət Əlinin divlərnən döyüşü həmin o Xavərzəmin davasıdı, on iki illik tilsim davasıdı. Yerin altında döyüşürdü o divlərnən. Orda qoşunu qoydu, quyuya düşdü. Quyu da elə bir quyudu ku, ora düşmək mümkün döyüldü, tilsim idi, od yandırırdı. Əli imamımızı salladılar quyuya, özü bilə-bilə devlərnən müharibəyə getdi. Orda həmin o Salsal lənətdəmə Əli imamızın qoşunu namaz qıldığı yerdə arxadan bir qədərini öldürdü. Onun bir əyyarı olub Babayi

Əmir deyillər adına. O əyyar şişi qızdırır, Salsal mürgülədiyi yerdə gözünün birinə soxdu Əli imamızın qoşunun qırdığına görə. Düşdü quyuda neçə günsə divlərnən dava edənnən sonra divləri qırdı Əli imamımız, çıxdı. Çıxannan sonra Salsal Baba Əmirin dalınnan düşüb qovurdu ku öldürsün, gözünün deşmişdi axı birini. Bir də dağa dikə qalxanda Əli imamız uje quyudan çıxıb, o ərəfədə çağırdı. Çağıranda Salsal baxdı ki, Əli imamızın səsi gəlir. Qayıtdı ki, ya Əli, mənim qoca vaxtında gözümü deşdi. Dedi, Allah sənə lənət eləsin, bir yerdə dursan gözün deşilməzdi. O bilirdi, agah oldu da bunun özünə. Döndərib iman gətirə bilmədi, qaşdı axırı o dağa, dikə qaçdı, Əli imamıza ox atıb qaçırdı. Bu da bir dəfə də fikirrəşdi, düz gözünün birinnən də Əli imamımız vurdu. Ta gözünün ikisi də kor, dığırrandı gəldi. Dediyim kimi soyunduranda baxdılar gördülər ki, əynində əba varıymış yüz iyirmi dörd min peyğəmbərdən, ona görə Zülfüqar kəsmirmiş. Təzdən dedi, bunu nə edək? Oda atdılar yandırdılar. Çox qüvvətdi pəhlivan olub, min batman gürzünün ağırrığı olub.

Baba Əmir Əli imamımızın əyyarı olub. O da sirr idi. Allahtala ona üç şey vermişdi; bir dənə piyalə vermişdi, bir dənə İsmayılın kəsilən qoçunun dərisini vermişdi, bir də bir papaq. O piyaləynən papağı geyinirdi, haraya istəsə gedirdi, bütün dünyanın qızılını da o qoçun dərisinə doldurub çiyninə alırdı, heç bir ağırrığı olmurmuş. Kölgəsinə də basırarmış deyir. Daşın kölgəsinə basırırmış, burdan gün düşəndə daşın kölgəsi düşür axı. Ora basırırmış ki, manşır yerdi, qayıdıf tapacam. Qayıdıf tapa bilmirmiş. Salsalın gecə üzünü qırxıb o. Yatdığı yerdə gedif üzünü qırxıb, kəmərini oğurruyub aparıb.

Rüstəmzal da çox qüvvəli pəhlivan olubdu. Rüstəmzal Küfüburur qalasına gedəndə orda tilsimdən qar olur, sonra da od olur. Qarı yara-yara gedir. Ora çatanda səs gəlir ki, ey Rüstəmzal, bu tilsimi sən sındıra bilməzsən, qayıt. Əli imam açacax onu. Orda deyir ki, Əli imamımıza salam söylüyün. Deyin ki, behiştə mənsiz getməsin. Axırı Əli imamımız gedir. O izi görəndə əl götürür ki, ey xudavənd-aləm, yəni elə bir şəxs olub ki məndən qabaq bu tilsimə gələn? Guya deyillər da, mən də eşitdiyimi deyirəm, orda Allah tərəfindən səs gəlir ki, ya Əli, bura gələn Rüstəmzal olub. Əli imamımız Allahnan söhbət edəndən dedi ki, mən Rüstəmzalı görmək istiyirəm, görüm o nətər pəhlivan olub. Səda gəldi ki, görmək istiyirsən get filan yerdədi onun qəbri, çağır gör. Deyilənə görə getdi çağırdı, çağıranda qəbr aralanır. Baxır ki, ordan bir pəhlivan çıxdı, amma topuğa qədər torpağa bata-bata gəlir. Əli imamımızı tanıyır. Deyir, ya Əli, bilmirəm torpaq məni götürmür, yoxsa mən ağıram. Orda görüşüllər. Təzdənnən gedir qəbrə girir. Deyir, behişdə sənsiz getmiyəcəm. Amma tilsimi Əli imamımız özü sındırdı[110]. Onun başında belə yumru şarik olub, deyilənə görə. Ona qübbə deyillərmiş, tilsimi o şarikə qoyur. Əli imamımız o tilsimin yanına çatanda Allahdan səda gəlir ki, ya Əli, bir duva göndərillər ki bu duvanı oxu yay-oxuna, at, yoxsa sən o tilsimi sındıra bilməzsən. Amma bir şərtnən ki, bütün qoşununa denən nə qədərsə kənara çıxsınnar. Ordakı əhaliyə də denən kənara çıxsınnar. Üç gün, üç gecə qarannığ olacax.

[110] Biz soruşandan sonra tilsimi necə sındırdığını danışır.

Gedən getdi, Əli imamızın qoşunu çəkildi, olar da bütpərəst ölkəsiydi, getmiyənlər getmədilər. Yay-oxnan o şariki vurdu saldı, şariki götürdü qalaya vurdu. Qalaya vuranda çox böyük bir səs çıxdı, Əli imamımız özü, deyir, bir saat bihuş qaldı. Bütün orda yaxınlıxda olannarın səsdən başı partladı, öldülər. Üç gün, üç gecə qarannığ oldu, nəsə tilsimi sındırdı Əli imamımız Allahın hökmüynən, o duvanın hökmüynən. Deyilənə görə, o duva ayətül-kürsü olub (S. 38).

## 225. ALLAHDAN O DÜNYASINI İSTƏYƏN KASIB

Bir dənə kasıb adam, çox kasıb adam da, bugünnən sabaha ümidi yoxdu, yəni səhər bir tikə çörəyim olacax, yeyəcəm. Eşidir ki, bir peyğəmbər həftədə bir dəfə gedir Allahnan kəlam kəsir. Arvadına deyir ki, daha belə zulum olmaz, mən gedirəm Allaha şikayətimi eliyəm. Belə bir yerdə belə bir adam var, peyğəmbər var, gedirəm ona şikayət eliyəm, mənim şikayətimi Allaha çatdırsın. Bu durur çıxır, gedəndə o biri kəntdə bir nəfər də görür şumun içində beləcə fırranır. – Ay qaqa, hara gedirsən? Salam mələykü. Deyir, mən gedirəm Allaha şikayət eləməyə. Deyir, qurban olum, məni də apar, elə mən də sənin günündəyəm. Gedillər. Gedib çıxıllar Musa peyğəmbər harda yaşıyır ora. Gəlillər, nəysə, gözdüyüllər, millət yığılır, o qədər adam var ki. Hamının bir-bir şikayətinə Musa peyğəmbər baxır. Bular gəlib çatanda: – Ya Musa, bizim dərdimiz budu, bizə kömək ol, şikayətimizi Allaha de. Musa peyğəmbər buların şikayətlərini götürür, çıxır gedir Allahın hüzüruna. Gedir Allahtalaya buların şikayətini eliyir. Deyir ki, olardan

soruş gör, bu dünyalarını isdiyirlər, yoxsa o dünyalarını? Olar o dünyada çox varrı, firavan yaşıyacaxlar.

Qayıdır gəlir. Deyir, belə-belə. Biri deyir ki, mən o dünyamı isdiyirəm, bu biri də deyir mən bu dünyamı isdiyirəm. Çıxır gedir. Gedir Allaha deyir ki, o kasıb olaraq qalacax, amma bu dünyasını isdiyənə var-dövlət verdim. Qayıdır gəlir, bulara sözünü deyir, bular çıxır gəlir. Bu gedir öz evinə, o da gedir öz evinə. Bu dünyasın isdiyən adam yerini-zadını əkəndə bir dənə xəzinəyə rast gəlir. Açır baxır, hə, xəzinədi, Allaha şükürlər olsun. Gedir ordan-burdan, başqa ölkədən yaxşı sənətkarlar yığır gətirir. Bu ərazidə bir gözəl imarət tikdirir, içinə qullar alır, onu alır, bunu alır. Bir dənə də bunun bir devizi olur. Camaatına tapşırır ki, – qulu var, kənizi var, at ilxıları, mal sürüsü – bura gələn adamları yedirtməmiş göndərməyin. Yoldan da olsa tutun gətirin, yesin, içsin, nəyə də ehtiyacı var – paltara ehtiyacı var paltar verin, heyvana ehtiyacı var heyvan verin, bütün istəklərini ödüyün, getsin.

Nəysə, bu burda belə yaşamaxda olsun. Bir gün bu varrı fikirrəşir, deyir, görəm, Allah mənim o dünyamı nətər eliyəcək. Bu dünyamı verdi, şükürlər olsun ona, bəs o biri dünyamı nətər eliyəcək. Durur yavaş-yavaş palını-paltarını geyinir, bizdə belə bir söz var: Ağ gün ağardar, qara gün qaraldar. Gəlir həmən o kəntdən keçəndə görür o dünya-sını istəyən kişi elə ordaca eşələnir. Bu dünyasını istəyən kişi elə kökəlib, göyçəkləşib, bunu tanımır. Deyir, əmi, hara gedirsən? Gəl burda otur bir söhbət-zad eliyək. Deyir, gedirəm Allaha şikayətə. Deyir, qurban olum, məni də apar. Deyir, sən məni tanıdın? Deyir, yox. Deyir, mən sənnən barabar şikayətə gedən adamam. Deyir, Allah maa bunu

verdi, onu verdi. Yenə gəlillər Musa peyğəmbərin qəbuluna, sözlərini deyillər. Musa peyğəmbərə deyillər ki, biz isdiyirik ki, görək o dünyadaki vəziyətimiz nətərdi. Musa peyğəmbər gedir Allahın hüzuruna, deyir, belə-belə. Deyir, get bu dünyasını isdiyənə denən ki, o biri dünyası bunnan da yuxarıdadı. Yəni o qədər savab işlər görüb ki, Allahın xoşuna gedib. Buna da bu dünyasın verməmişik, o biri dünyasın vermişik, genə onun yeri, yurdu orda durur. Bu kasıb cırnıyır. Deyir, nətər olur, bu, bu dünyasın istədi, o dünyası bunnan da gözəldi. Mən o dünyamı isdəmişəm, bu məndən hələ hündürdə durur.

İndi, ay dədə, varnan, dövlətnən döyül. Ucalığı verən Allahdır: əməlinə, doğruluğuna, düzlüyünə görə verər. Aparıb onu bir yerdə gizlədərsən, hərdən bir az götürüb xərcləyərsən, olmaz helə. Nəyin var elnən böl. Elnən oturub-duran yorulmaz. Elnən oturub-duranın müşkülü olmaz, sıxıntısı olmaz (S. 47).

## 226. YAZIYA POZU YOXDUR

Deyirdim ki, ağa, alın yazısını pozmağ olarmı? O bir rəvayət danışdı. Dedi ki, bir ölkənin şahı olur, vəziri olur, bunnar təğyirlibas olur, başdıyıllar ölkəni gəzməyə, görəh camaat nətər dolanır, bunun hakqında nə danışıllar. Gəlirlər axşamı bir qarının evində qonax qalıllar. Söz-söhbət, ayan-bayan. Deyir, ay qarı nənə, bu məmləkətin şahının bir falına bax, onun gələcəyi hakqda nə deyə bilərsən? Deyir, a bala, şahın bir qızı olajax, amma çox ağıllı, həm də gözəl olajax. Neçə şahlar gələjəh, neçə vəzirlər gələjəh, onnarın heş birinə qismət olmuyajax, bir çoban oğluna qismət olajax.

Şah qayıdır ki, onu da, o birisini də belə-belə doğruyaram. Deyir, yox, oğul, sən alın yazısın poza bilməzsən. Deyir, mən o yazını pozaram. Deyir, yaxşı, yaşıyarıx, görərik.

Bir gün şah əl altınnan vəzirə əmr verir ki, bax, mənim ölkəmdə nə qədər çobanın oğlan uşağı olsa, onnarın hamsın məhv eliyin. Bir çoban baxır ki, bu heş xeyirri şah döyül, heyvanı-zadı verir, arvadı hamiləykən elə gejəynən nəyi var götürür aradan çıxır. Gedir başqa bir ölkəyə. Yatanda baxır ki, gəldi bunun bir oğlu oldu. Bu böyüyür, boya-başa çatır, yaxşı bir cəngavər oğlan olur. Bu ölkənin də şahının züryəti yoxuymuş. O şah bir gün elan verir ki, mən özümə varis seçirəm. Özünə güvənən kim varsa gəlsin, onnara sual verəjəm. Əgər mənim sualıma düz cavab versələr, o mənim varisimdi. Xanların, vəzirlərin, bəzirganların hamısın oğlu yığılır, gəlir orya. Şah bir tavada xeylax gül toxumu qaynadır. Deyir, bu gülü kim yaxşı baxıb bejərsə, kiminki tez aşsa, o mənim varisimdi. Deyir, yaxşı. Qırx adam olur, bunun biri də həmin çobanın oğlu olur. Gəlir başdıyır toxuma qulluğ eləməyə. Qırx gün tamam olur. Bu baxır ki, buna nə qədər qulluğ eliyirsə, bu cücərmədi. Bilmir axı bu qovrulub. Qırx gün tamam olur. Deyir, ay ana, mən neyniyim? Deyir, ay oğul, yadında qalsın, olmadı elə, oldu belə. Bunun atasından qalma bir pasdı qılış gətirir, oğlun qabağına qoyur gül dibçəyinin üsdünə. Deyir, apar bunu şaha. Deyir, ana, neyniyim? Deyir, qılıncı da, gül dibçəyini də qoyarsan şahın qabağına. Şah orda deyipbiş ki, kim bunu bejərə bilməsə, boynun vurajam.

Qırx gün tamam olur, bunnar gəlillər saraya. Gedə baxır ki, ayə, sən öl, otuz dokquz dənə dibçəhdə elə güllər var belə-belə. Hamı da buna baxır ki, bir pasdı qılınc, bir

də boş dibçəh. Buna qıraxdan gülüllər. Deyir, vallah, mən nə qədər qulluğ elədimsə, mənimki pitmədi.

Məclis qurulur, şah çıxır taxta. Deyir, gətirin görüm, kim nətəri yetişdirib. Orda elan olunur bu vəzirin oğludu, bu vəkilin oğludu, bu qoşun başçısının oğludu, belə-belə, belə-belə. Gəlir bu oğlana çatanda deyir, oğlum, bəs sənin gülün hanı? Deyir, şah sağ olsun, nə qədər qulluğ elədim, qırx gün onun divində yatdım, pitmədi ki, pitmədi. – Bə deyir onun üsdündəki nədi? Deyir, qılışdı. Şah sağ olsun, mən sənin qılıncınnan ölməh isdəmirəm, bu atamın yadigarıdı. Yəqin hardasa səhvə yol vermişəm, məni onun qılıncıynan öldür. Şah durur bunun alnınnan öpür. Deyir, mənim sizə verdiyim toxumun hamısı pişmiş toxumuydu. Baxın görün hələ, gülün heç biri bir-birinə oxşamır, bunları gedif ordan-burdan almısız. Bu düz deyir. Həmən çobanın oğlun götürür özünə varis.

Ta bunun evlənməh vaxdı çatır. Ölkələrə səs salır ki, görün hansı ölkədə yaxşı qız var. Deyillər bəs deməsən, filan ölkədə şahın bir gözəl qızı var, dünya gözəlidi. Qıza kim elçi düşür, qız heş birini bəyənmir. Baxır bir cavan oğlan gəldi, şəxsiyyətdi. Deyir, sənə üş dənə sual verəjəm. Üçünün də cavabın tapsan, mən sənə hə deyirəm. Deyif, de. Qız bir dənə kərtənkələ gətirir, quyruğun belə vurur, buraxır. Oğlan gülür. Deyir, niyə güldün? Deyir, onu bir ayrı yerdə saxla, bir aydan sonra kərtənkələnin quyruğu yerinə bərpa olajax. O vaxdı cüzam xəstələyinə tutulan birini gətirillər. Deyir, sən elə bir həkim yeri bilirsənmi bunu qutara? Deyir, bu qutaran xəsdəlih döylü. Həmən adamın ajığı tutur, başını götürür gedir meşəyə. Baxır ki, bir çoban gəlir. Baxır ki, bir kəllə var. Kəllənin içinin torpağın təmiz-

diyir, qoyur ortaya, qoyunu sağır, çönür ki, bir qara ilan südü içir, dişinnən də iki dənə zəhər damızdırır. Deyir, elə mən bunu axdarırdım da. Gəlir bunu başına çəkir. Bir gün, iki gün, baxır bunun yarası da getdi, iy də getdi, qoxusu da getdi. Qızın yanına gedif deyir ki, o adam münəccim döyül. Oğlanı çağırıf gətirillər. Deyif ki, sənin boynun vurulmalıdı. Deyir, niyə? Deyir, bəs deyirdin mənim xəsdəliyim sağalası döyül. Mən indi niyə qutardım? Deyir mən hardan alaydım ki, loğmanın kəllə sümüyünü, hardan alaydım qara qoyunun südünü, hardan alaydım qara ilanın zəhərini ki, onu içib sağalsan. Qız belə çönür ki, bu nə danışır? Deyir, düz deyir. Obşim, qız razılıx verir[111].

Toy olur. Atdarı minillər, bir mənzil gedəndə oğlan deyir ki, yaman yüngül gedirsən ey. Qız da arif qız olur. Qız atın başını tez çörür dədəsinin evinə. Deyir, a qızım, niyə qayıtdın geri? Deyir, yox, dədə. Mana dedi ki, bir kejavədi, bir dəvənin üsdünə aşırdığın o qızıl mənə lazım deyil. Deyir, bə nədi? Deyif, mənim cehizim o ölkəyə bir aya getməlidi. Bu gedir, bunlar da bir mənzildə gözdüyürmüş. – Ay oğul, bə gəlin hanı? Deyir, belə-belə, dilimnən belə bir söz çıxdı. Şah deyir, düz deyifsən. Bir həftədən sonra şah ismarış göndərir ki, gəl gəlini aparın. Gəlir baxır ki, qəfləqatır, ilxı, qoyun sürüsü, mal sürüsü, dəvə sürüsü ağır-ağır gəlin kejavaynan gəlir. Deyir, nətəri? – Bax, indi ağır-ağır gəlirsən. Qız deyir ki, hə, mən dediyim adam sənsən.

Şah vəzirə deyir ki, dur gedəh filan qarının yanına. Vəzirnən şah gəlir. Deyir, qarı nənə, bə deyirdin sənin

[111] Üçüncü sualı unutduğunu söyləyicinin yadına saldıqda cavabı bu oldu: Üçüncü sualı oğlan deyif mən verəjəm.

qızın bir çoban oğluna gedəjəh. Deyir, mən sözümün ağasıyam. Sənin qızının getdiyi sənin ölkəndə yaşıyan bir çobanın oğludu. Deyir, sən nə danışırsan? Deyir, bala, mən dediyimi dedim. İsdiyirsən inan, isdiyirsən inanma. Sən pütün ölkədə nə qədər çoban vardı, hamısın oğlun-uşağın öldürtdün birdən mənim qızıma yiyə çıxa. Sənin qızın bax filan çobanın oğluna gedif. Şah ordan başaloylu tərpənir gəlir şahın yanına. Deyir, bu sənin oğlun döyül? Deyir, yox, mənim varisim yoxdu. Mən bunu qırx adamın içinnən seçmişəm. Bu oğlanı çağırır. Deyif, sən kimsən? Deyif, mən filan çobanın oğluyam. Şah barmağını dişdiyir, ta qaradinməz qayıdır qarının yanına. Deyir, qarı nənə, sən nədən bildin ki, bu çobanın oğluna gedəjəh? Deyir, şah sağ olsun, yadında qalsın, ilahinin yazdığı yazını heş kim poza bilməz. Sən deyirdin ki, mən pozaram, ölkədə nə qədər çoban oğlu vardı hamısın öldürtdün. Görürsən, ilahinin yazdığı yazını heş kim poza bilməz (S. 34).

## 227. LOĞMAN

O vaxt bir Loğman olur, bunun bir şəyirdi olur – Əflatun. Loğmanın oğlu xəsdələnir, nə qədər dava-dərman eliyir, bunu sağalda bilmir. Bu baş götürür gedir. Əflatunun anası deyir ki, sənin məlliminin uşağı ölür, dərman qayıra bilmir, getdi. Gəlir qapını döyür. – Kimdi? – Əflatundu. Qapını aşmır. Loğman arvada deyib ki, Əflatun bura gəlsə, qoyma ha, səni öldürərəm. Deyir ki, eşitmişəm uşax xəstədi, bu sapı apar uşağın biləyinə bağla. Onsuz da qoymursan məni onu görməyə. Bu gətirir pişiyin biləyinə bağlayanda tutur qulağına. Deyir ki, uşağın biləyinə bağla,

aparıb pişiyin qoluna bağlama. Deyir, onsuz da nə dərman desəm, vermiyəşsən, heç olmasa, ona bircə qaşıx qatıx yedirt. Deyir, yaxşı. Gedir qonşudan bir istəkan qatıx alır gətirir, uşağa bir qaşıx, bir qaşıx verir, uşax dirilir.

Bir il keçir, iki il keçir. Loğman deyir, uşax öldü, sümüyü də çürüdü getdi. Gəlir ki, uşax uşaxlarnan oynuyur. Arvadına deyir, Əflatun gəlif bura? Səni öldürəcəm, onu niyə içəri buraxmısan? Deyif, vallah, hal-qəziyə belə olufdu. – Ayə, denən bunu kürtdən tutmuşam dana.

Loğman xəbər göndərib ki, iki qocun başı bir qazanda qaynamaz. Bir-birimizə dərman qayracıyıx. Deyir, yaxşı. Əflatun gəlir anasına deyir ki, ay ana, mənim əlim gələrmi ki, mən məllimimə dərman qayıram? Qırx günə bu Loğman dərmanı hazırrıyır. Bu da üş dənə hovuz qayırtdırır, birinə süd, birinə qatıx. Logman xəbər göndərir ki, gəl dərmanı qəbul elə. Gəlir, dərmanı içir. İçənnən sonra gəlir süddə çimir, qatıxda çimir, zəhər buna təsir eləmir. Loğman deyir, indi sən dərmanını hazırra. Deyir, yaxşı. İndi bilmirəm sən o xörəyi bilərsən sütdü çəhmə. Deyir, ana, bir yaxşı sütdü çəhmə bişir. Sütdü çəhmə çox ağır xörəhdi. Camış südünnən sütdü çəhmə bişirir. Amma həvəhdəstəyə bir dənə keçəni qoyur, döyür. Gedir gəlir, görür, ə, bu qırx gündü döyür. Qırx gün də bu çörəh yemir, fikirrəşir ki, bu nə dərman qayırır ki. Qırx gün tamam olur, Loğmanı qonax çağırır. Oturur. Deyir, çörəyini ye, dərmanını verəcəm. Qırx gün çörəh yemiyif axı. Yeyənnən sora deyir, bəs mənim dərmanım. Deyir, dərmanın yediyin çəhmədi. Loğman onnan da ölür (S. 32).

## 228. OĞUL DAĞI, QUYRUQ YARASI

Biri də oluf, çox kasıb yaşıyırmış. Qapısında malı-heyvanı var imiş də. Bu kişi aparıf südü satırmış. Bir çınqıllıxnan gedəndə bir ilan çınqıllıxdan çıxır. Ağsakqalların deyilişinə görə, mən gözümnən görməmişəm. Deyir, ey bəni insan, hara gedirsən? Deyir ki, bazara. Deyir, nə aparırsan? Deyir, süd. Deyir, sən burdan bazara gedirsən, yayın isdi günü, nə qədər yoldu. Onu ora qoy, mən sənin hakkını verəjəm. Deyir, bu ilan mənə nə hak verəjəh. Qoyur ora, bu ilan da qıvrılır gəlir, südü içir. Deşməyə girir, gəlir beşdik qızıl qoyur. Elə olur ki, bu kişinin işi olur. – Ağsakqallardan eşitdiyimi deyirəm mən. Nağdı gözümnən görməmişəm. Ağsakqallar harda söhbət eliyəndə burnumu soxurdum ora. – Deyir, ey bəni insan, bir belə günün isdisində bu yol getməkdən onu ora qoy, mən sənə ləl verim. Bu bir az ləl yığır.

Bunun sroçnı işi olur. Yoldaşına deyir ki, gədəyə dennən aparsın filan çınqılın yanına qapaxlını[112] qoysun, çəkilsin kənarda dursun. İlan gəlif südü içəjəh, gedəjəh, qayıdıf gələjəh. Qapaxlının içində nə olsa, civinə qoysun, gətsin. İlan südü içəndə hiss eliyir ki, oğlan bunu vurajax, tez qıvrılır, gedə bunun quyruğunnan vurur, quyruğunu yaralıyır. Yaralıyanda bu deşməkdən çıxır gədeyi burda sancır. Bu ölür.

Kişi gələndə arvad deyir, a kişi, gədə neçə gündü gedif, gəlmiyif. Barmağın dişdiyir ki, hə, bu ilana nağarıfsa da, ilan bunu vuruf. Gəlif görür həmən yerdə ilan bunu vuruf. İlan qalxıf deyif, ey bəni insan, sənnən oğul dağı, mənnən quyrux yarası ömür boyu getməz (S. 37).

[112] Qapaxlı – qazan

# V. LƏTİFƏLƏR

## 229-234. BƏHRAM QAMANOV

Mən özüm şahidi olduğumu deyim. Onun bir oğlu var idi Becan. Qamanov özü qalxoz sədri işdiyib, Ali sovetin deputatı olub. Becan buna bir dəst qastyum alıf. Kişi qojalıyıf artıx. Oların da evi asfaltın qırağında idi, alt tərəfinnən də çay axırdı. Becan da uşax vaxdı çayda sürüşərmiş, üsdübaşı su olurmuş. Gəlif quruduf eliyəndə şalvarı yandırırmış, köynəyi yandırırmış, Qamanov da buna dillənmirmiş.

Bir gün Becan buna bir dəst qastyum alır. Gətirif verir. Deyir, ay dədə, nolar, batırma dana. Bu Qamanova təsir eliyir ki, bir belə şalvar yandırmısan, mən heç demirdim, vur-tut mana bir dəst qastum almısan, indi deyirsən onu da batırma. Onda da "Sovet Ermənistanı" qəzeti var idi, bükür ona, qoltuğuna alır. Çıxır camaat oturan yerə. Camaat soruşur:

– Qamanov, xeyir ola, qoltuğundakı nədir gəzdirirsən?

Deyir:

– Bizim Becoy maa bir dəst qastyum alıf, deyir batırma. Qotuğumda gəzdirirəm ki, batmasın (S. 5).

## 230.

Zərkəndə ölü yerinə gedir. Bir də iti oluf, açıx olurdu, qapıda-zadda gəzirdi. Bunnan əl çəkmir, bunun dalına düşür. Belə gəlir Zərkənd yoluna dönəndə deyir ki, sən hara gedirsən? Adamsan, nəsən, ala üş manatı, ya sən get, ya mən gedim. Yasa bir nəfər gedir, hamı getmir ha (S. 5).

## 231.

Qamanov işdən gəlir. Acca yağış yağır, köpək qapıda hürür. Hürəndə Qamanov oğluna deyir ki, a bala, görün o köpəyə yal verifsinizmi? Oğlu deyir, ay dədə, o da sənin kimi işdən gəlmiyif ha (S. 5).

## 232.

O vaxdı Qayabaşı, Qoşabulax, Sarıyaqub – üş kənd bir qalxoz olub. Qalxozun da suracı[113] dədəm rəhmətdih oluf. Sora qalxozlar bölünüf, birinə bir maşın düşüf, birinə ana donuz düşüf, birinə arı düşüf. Bir ana donuz oluf, Qoşabulaxda saxlıyıllar. Bu da Qayabaşının payına düşür. Bizim kəndlərin hərəsinin arası kilometir yarım olardı, helə yaxın idi. Gejdənnən çoban donuzu çıxardan kimi donuz qaçıf Qoşabulağa gedir. Bədoy da Qoşabulaxda qalxoz sədri olur, Qamanov da Qayabaşında. Çoban gəlir deyir ki, ay Qamanov, mən bu donuzu saxlıya bilmirəm. Burdan çıxan kimi qaçır Qoşabulağa. Deyir, yaxşı. Sabah gejdənnən gələn kimi deyir, donuzu aş burax. Buraxır. Qoşabulağın da qalxoz idarəsinin qabağına qartof əkiflər, donuz da ora dadanıfmış. Donuz gedir burnun soxur eşələməyə. Qamanov gəlir idarənin qabağında çağırır.

– Ay Bədoy, ay Bədoy.

Bədoy çıxır. Deyir:

– Ayə, kopoğlun donuzu sənin əmin oğludu, dayın oğludu, hər gün sənin yanına qaçıf gəlir (S. 5).

---

[113] Surac – Bəzi bölgələrdə *süräç* kimi də tələffüz olunur. Sovet dövründə kolxoz və sovxozlarda mal-qaranı otlağa aparan, otaran, bir yerdən başqa yerə sürüb aparan şəxsə deyilir.

**233.**

Bizdə Əmiraslan məllim var idi, Sarıyaqubda məllim işdiyib. Bu, hökumətə qarşı nəsə bir söhbət eliyif. O vaxt da hökumətə qarşı söhbət eliyəndə çatdırıllar. Bunu aparıf dama salıllar. Türməyə salmıllar, növbətçinin yanına salıllar. Qamanov eşidir ki, deməzsənmi, Sarıyaqubdan bir məllimi söhbətə görə dama salıflar. Şoferə deyif ki, məni apar milisəyə, orda bizdən bir adam var. Gəlif ki, bu dejurstvada aynadan baxır. – Ə, hardansan? – Sarıyaqubdan. Deyif ki, hələ hökumət qapını döyüf ha. Hələ aynadan girəjək, bajadan çıxajax, gör onda halın nolajax. Dilini dinməz yerinə qoy.

Elə onnan Əmiraslan məllim deyirdi, Qamanov mənə elə dərs verib, mən bir də qələt eliyərəm hökumət əleyhinə danışam (S. 52).

**234.**

Qamanov təlimatçı imiş, kəntdərə gedirmiş. Bunun da şoferi qayabaşılı Abbas imiş. Darama deyirik, deyillər hər adna orda şam yanır. Onu da təmiz qadınnar görür, aybaşı olmuyannarın, kişilənənnərin gözünə görünərmiş. İki dərənin arasıdı, o vaxdı bir dənə harava yolu oluf. Sonra yolu genişləndiriflər, maşın-zad da gedif gəlirdi. Qamanov da Daşkənddənmi, Şorcadanmı gəlir. Fərman kişi də eşşəyin üsdə gedirmiş. Qamanov buna deyir, eşşəh qardaş, yoldan çıx. Fərman kişi beləcənə qıçasını aşırır ulaxdan, deyir:

– Mən çıxdım, indi qardaşını başa sal.

Bu da o qədər nayıf[114] adam olur ku, deyir:

– Bir də mən Sarıyaqub camaatınnan zarafat eləmiyəjəm (S. 40).

[114] Nayıf – sadəlövh, saf

## 235-236. CUMALI BAYRAMOV

Cumalı qoyuna gedir. Deməli, arpa biçiləndə sürüləri dənə gətirillər, sentyabrın axırı olanda bir də dağa aparıllar. Quliyev iclas elədi. Quliyev də bizim kəntdə qabaxcıl adam oluf, çox hökümlü adam oluf. Neçə il qalxoz sədri işdiyif. Deyir ki, sabah çobannar yığılsın, iclas eliyirəm, bürsüyün qoyun dağa gedəcəh. Bu Cumalı da təzə öylənibmiş. Gedir iclasa. Çobannara deyir ki, qapını aralı qoyun, bu axırda məni vuracax, mən çıxıf qaça bilim. Quliyev deyif ki, gedəcəhsiniz, dağda qalacaxsınız, gəlmək yoxdu. Sovet hökumətinin kəsəkəs vaxdıdı, kalxoz sədrinin sözünnən çıxmaxmı olardı. Cumalı deyif ki, ayə, Quliyev, bəlkə kəntdə bir işimiz oldu. Deyif ki, gələrsiz Yuxarı Şorcaya, telefonnan zəng eliyərsiniz, – Yuxarı Şorca da dağa yaxındı, – ordan zəng eliyərsiz, sözünüzü deyərsiniz. Bu da təzə öylənif. Deyif, Quliyev, indi arvatnan telefondamı sevişəceyih? O vaxdı qalxoz sədrlərinin qabağına çirnel qoyullarmış. Deyir, Quliyev çirneli götürdü bunun dalınnan atdı, Cumalının qapıda daylağı vardı, daylağına mindiyinən getdiyi bir oldu (S. 5).

## 236.

Deməli, bizim kəndin kalxoz sədri Nərimannıdı. Allah rəhmət eləsin, bunun dayısıdı (yoldaşını nəzərdə tutur – tərt.) Zərbalı Qurbanov. Orda raykomda vəzifədə işdiyən yeganə azərbaycannıdı. Raykomun birinci katibi erməni idi, icra komitəsinin sədri Zərbalı Qurbanovuydu. Sonralar o getdi Sovet Ermənistanı qəzetinə, ordan da Amasiya rayonuna birinci katib getdi. Bu qaçaqaçda da camaatın

ordan sağ-salamat çıxmasına o başçılığ eliyifdi. Deməli, bunun qardaşı Şaxmalı Qurbanov bizim kalxozda sədrdi, Qaraca məllim də məktəbin direktorudu. Hesabdar da Nərimannıdandı, Cumalının yoldaşı da Nərimannıdandı. Biz də cavan uşaxlarıx, yığışmışıx kluba. Gəldi ki, ay qardaş, mən nağarım, başımı götürüm hara gedim. Cumalı öz-özünə danışır.

– Ay Cumalı əmi, noluf, bir de görək?

– Ayə, mən başıma haranın külün töküm? Evdə arvad Nərimannı, o qədər danışır, danışır, başım şişir. Deyirəm gedim məktəbə – bir oğlu var idi, adı Aydın, – onun dərsinən maraxlanım. Gedirəm, məktəb direktoru Qaraca məllim Nərimannı. Ha qardaş gəlirəm ki, hesabdarrığa girəm, bir az oturam dincimi alam, kalxoz sədri də Nərimannı. Ayə, bu nərimannıların əlinnən mən başımı götürüm hara gedim? (S. 14)

## 237-240. NİFTALI KİŞİ

Əsl adı Hidayət oluf, ona Nifdalı deyirdilər. Qaşqınnıxdan sonra buları köçürüflər Bərdəyə. Bir şey olanda hamı suyun mələhlərinə and içirdi. Deyir, yox, ona and içmiyin, suyun mələhləri Göyçədə qaldı. Burdakı suyun mələhlərinin hamsını toknan məhv eliyiflər, burda suyun mələhləri olmur.

Ot qutarır, gedir qonşunun evinə oğurruğa. Xaşa deyirdik, bunu otnan dolduranda yiyəsi çıxır eşiyə. Deyir, ə, nağarırsan? Deyir, işə bax ey, çayı keşmişəm, elə bilirəm öz tayamdan aparram (S. 10).

**238.**

Qaçaqaç ili normal işıx vermirdilər, tez-tez işığı keçirirdilər. Bunu da ağsakqallar çağırıllar ki, a kişi, sən yaxşısan da. Get katibin yanına, görək bizim işıxlar niyə yanmır. Gedir, katib bunu qəbul eliyir. Girir içəri, görür katibin otağında işıx yanır. Ortada əyilir, dizlərini yerə qoyur:

– Allah, sana çox şükür.

Deyir:

– Ay dayı, sağ ol, dur, ağsakqal kişisən.

Deyir:

– Ayə, sənə dua eləmirəm ey. Şükür eliyirəm ki, heç olmasa sənin otağında işıx yanır (S. 10).

**239.**

Oğlu dərsə getmirdi. Məllimlər deyir ki, ay Nifdalı kişi, Sevindiyi dərsə göndər. Qayıdır ki, ay İsgəndər məllim, onu görsən, qadan alım, denən bir bizə də gəlsin (S. 10).

**240.**

Yaşdı adam idi dana, o vaxdı kalxozun atdarına baxırmış. Kalxoz sədri də buna tapşırıf ki, Nifdalı kişi, ata elə baxırsan ki, atın öldü xəvərini mana gətirmə ha. At öldüsə, sən o dünyalıxsan. Nəysə, bir belə, beş belə, ata yem verir, nə verirsə, at təmiz dirənir. Kalxoz direktoru xəvər alır ki, ayə, Nifdalı kişi, heş atdan sorğu-sual yoxdu. Atın vəziyyəti nətərdi? At da yemə düşüf ölüf. Deyir ki, yoldaş sədr. Deyir ki, nədir, a kişi? Ə, atın vəziyyəti nətərdi? Deyir, vallah, ot verirəm yemir, su verirəm içmir, arpa qoyuram yemir. Deyir ki, ə, da denən at ölüf da. Deyir, vallah, ölüf sözünü siz dediniz, mən demədim ha (S. 10).

## 241-244. GÖYÇƏ BAMƏZƏLƏRİ

Arıxlar deyilən bir nəsil var, yeddi qardaş idilər. Olar zarafatcıl oluflar. Pəmbəkdən, Babacandan qonax gələndə qalıf eliyəndə onun başına oyun açıllarmış. Birini danışım. Biri qalıfmış, bunu aparıflar evlərinə. Kasıfçılıx vaxdı oluf, peçin üsdünə də dilim çəkiflər. Katorfu dilimliyif peçin üsdündə bişirillər. Görüflər qonax yemir. Ye deyəndə qonax isdiyir əlini uzada götürə də qartofu, o biri qardaş bunun əlinin üsdünnən peçə basıf: – O mənim payımdı, hareyə aparırsan? (S. 41)

### 242.

Arıxlar dediyin onnar tanınmış insannar idi. Evlərinə qonağ gedir, bizim kimisi gedif oturur. Qış mövsümü olur, peç də yanırmış. Yazma deyirik, qartofu dilimliyif peçin üsdünə qoyursan, qışda yaxşı olur. Nəysə, oturullar. Deyir, başdayın da hərəmiz bir qısmat götürək yemək hazır olana kimi. Qonax belə əlini atanda əlin üsdünnən basır:

– Ə, o mənim payımdı, onu götümə.

Qonax yazıx qan-tər içində qalır.

– Ayə, mən nə qələt elədim əl uzatdım.

Yanı zarafatcıl camaat idi, deyif-gülən idilər. Deyir, a bala, bizimki belədi (S. 23).

### 243.

Bizdə məktəb səkgiz illik idi, dokquzu, onu qonşu kəntdə oxuyurdux. Nəysə, bir beş-altı uşax, rəhmətdih Mikayıl-zad, qış mövsümüdü, çilələrdi, piyada gəlirik. Yolda bu Arıxlı İsa əmi QAZ-52-nən arxadan gəlir. Deyir, ə, çıxın

maşına. Birin də çağırıf deyir, gəl yanımda otur. Deyəsən Mikayılı çağırır. Mikayıla deyir, tez elə mənim anama söy. Bu da uşaxdı dana. Deyir, ayə, nətər söyüm, elə şeymi olar? Deyir, irağ üzünnən, kopoğlu, söyməsən səni düşürdəjəm maşınnan. Deyir, sənin ananı belə-belə eliyim. – Ayə, mənim anama söydün? Ə, düş kopoğlu. Belə zarafatcıl idilər (S. 23).

**244.**

Babayev İlyas vardı, savatdı adamdı. Təsəvvür elə nümayəndənin müavini işdiyirdi. O vaxdı bizdə Basarkeçər-Kirabad avtobusu isdiyirdi, bu da Bakıya gedirmiş. Bir də LAZ avtobusdar olur. LAZ-a minir. Onatan baxır ki, bir qadın oturuf, bir az arxası iridi. Deyir ki, a bajı, sən allah, götünü bir qırağ o tərəfə qoy, mən də oturum. Arvad bunu məhkəməyə verir. Məhkəmə Bakıda olası olur. Araşdırıllar ki, bu ziyalı adamdı, niyə belə deyif? Ordan zəng eliyillər ki, buna töhmət verin, işdən də çıxardın. Deyiflər, yaxşı, eliyərik. Məhkəmədə buna son söz verillər. Deyillər ki, a kişi, son sözünü deməlisən. Deyir, nə son söz? Son sözü siz dediz. Deyillər, yox e, son söz deməlisən. Ordan qalxır deyir ki, arvad. Deyillər, ayə, arvad nədi? Məhkəmədən hələ qutarmıyıfsan, sənə töhmət verib işdən çıxardıflar, yenə yığışmırsan. Deyir, yavaş görüm. Bax, uzun saşdı, uzun yufqalı insana arvad demillər, bə nə deyillər? Ay kopoğlunun qızı, bax, o arxana qarpız deyillər, qarpız deyim. Yemiş deyillər, yemiş deyim. Ayə, vallah, ona filan söz deyillər, mən də onu demişəm. Ordan da zəng eliyillər ki, ayə, bu baməzə adamdı, bunu işdən-zaddan çıxartmıyın. Yanı onnarın ziyalısı elə zarafat eliyəndə indi gör bunnarın zarafatcılı nətərdi (S. 23).

## 245. MƏNİM GÖZÜMƏ GÖRÜNMƏ

Bayramov Mikayıla elçi gediflər, qonşu kəntdən gedib qız isdiyiflər. Yaşdı insan desə filankəsin qızını alajam, day çıkkırığını çıxarammazdın ki, mən onu istəmirəm. Nəysə, gedillər, buna gözəli göstərib, çirkini verillər. Qızın gözəl tayı qoşuluf gedif başqasıynan, çirkin bacısını buna veriflər. Qolunnan tutuf gətirir. Nəysə, baxır ki, ə, bu istədiyi qız döyül. Qız da qayıdıf buna sual verir ki, savax qohum-əqraba içinə çıxajam, mən kimə görünüm, kimə görünmüyüm? Deyir, sən allah, kimə görünürsən görün, mənim gözümə görünmə (S. 23).

## 246. SƏNİN ÖLÜNƏ DƏ BƏSDİR, MƏNİMKİNƏ DƏ

Ağanın gülməli bir söhbətin də deyim. Yaşdı adamlar imiş də ikisi də. Rəhmətdiyin yoldaşının adı Nərgiz idi. Bir gün deyir, a Nərgiz, a Nərgiz, cuma axşamıdı, dur bir iy çıxart, ölülərimizin ruhu şad olsun. Arvadı da qoja adamdı, peçin qırağınnan duranda bundan bir yel çıxır. Deyir, otur, ay Nərgiz, otur. Elə bir iy çıxardın ki, sənin ölünə də bəsdi, mənimkinə də (S. 34).

## 247. ZAZOLUNUN NAXÇIVAN SƏFƏRİ

Köçəköç olanda bir zazolu var idi. Bizim taxıl gej biçilirdi. Getdix, deyir, taxılı biçdih Naxçıvada. Axşam idi, gejə. Dərələyəznən də Naxçıvanın arası xeyləx yoldu, maşınmı var idi? Yanında da bir kişi var imiş. Deyir, gejə vaxdı hara gedək? Görək bir kişi gəlirmi bizi qonağ eliyə. Deyir,

gördük, bir kişi bizə sarı gəlir. Gəldi, deyir, bizə çatanda dedim ki, bizi bir gejəliyə qonağ elə. Deyir:

Ağzı qıllı qurtdu Həsən
Bizi görəndə qaşdı dama girdi Həsən.
Təndirə şorba qoymuş
Şorbasınnan qorxdu Həsən.
Əkin əkməz, biçin bişməz,
Qulluğ eyliyər soğana.
Atasının oğlu döylü
Nəhlət onları doğana.

Kişi bunları qonağ eləmir, ona bu sözü qoşmuşdu (S. 13).

## 248. ÖLÜ BASDIRMAQ ONDAN YAXŞIDIR

Allah rəhmət eləsin Hüsöyn Saraşdıya. Danışırdı ki, bir gün kənddə toydoydum. Bir də gördüm bir oğlan gəldi ağlaya-ağlaya ki, ay Hüsöyn dayı, sənə qurban olum. Atam ölübdü, deyir mənə molla-zad lazım döyül, Hüsöyn Saraşdının sazınnan məni götürərsiniz. Çıxartdı civimə bir paçka onnux basdı. Nəysə, getdim, qavır üsdünə aparıllar ölünü basdırmağa. Mən də "Mansır" oxuya-oxuya gedirəm. O biri oğlu da gətdi bir paçka da o civimə basdı. Nəysə, dəfn elədik. Evə gələndə dedilər, ay Hüsöyn, nətər keşdi? Deyir, ayə, onun goruna qurvan olum. Beş-altı avaranın toyunu çalmaxdansa, elə bir ölünü basdırmax onnan yaxşıdı (S. 44).

## 249. MOLLANIN YANINDA DEYƏRDİN

Bizim kəntdə biri var, adı Təbiyətdi. Bu xəsdələnir, anası aparır bunu Molla Ələkbərin yanına.

– A qızım, nə yaxşı gəlifsən?

Deyir ki, belə-belə, uşax xəsdələnifdi. Deyir ki, uşağının adı nədi? Uşağın adı yadınnan çıxır, arvad uşağı döyür mollanın yanında.

– A anam-bajım, – molla deyir, – vallah, bu sənin uşağın döyül. Sən nətəri uşax yiyəsisən ki, uşağının adını bilmirsən?

Molla duanı yazır verir. Deyir, bax, bunu aparırsan birini qapının çənəsinə basdırırsan, birini dörd yolayrıcına, birini də yaxana. Onnan da sağalajaxsan.

Dua yazmaxnan xəsdə sağalar? Bu söyündüyünnən götürür duanı gedir. Burda mağaza var, onun yanına gələndə oğlu deyir:

– Ay ana, sən bilmirsənmi ki, mənim adım Təbiyətdi.

Deyir:

– Ay bala, sənin gözün çıxsın, elə mollanın yanında deyərdin da, mənim yanımda nəyə deyirsən? (S. 9)

## 250. NƏ VAXTDAN DURUBSAN?

Gəlin təzə gəlif, qaynatası öyündə sayıxlıyır. Gedif bayırda duruf deyir:

– Yanvar, fevral, mart mütləq atam öyünə gedəjəm.

Yanvar deyəndə, üzr isdiyirəm, gəlin buraxer. Baxır, qaynatası duruf. Deyir:

– Qaynata, havaxtdan durufsan?

Deyir:

– Martdan (S. 49).

# VI. YUXUGÖRMƏLƏR

## 251.

*– Oğlunun adını Fadil qoyub. Uşağın adının mənasını soruşanda aşğıdakı mətni danışdı:*

Uşağın adını mən özüm qoymuşam. Yuxuda görmüşəm. Gördüm iki dənə oğlan uşağı gətiriblər. Dedi ki, bu uşağın birin saa gətirmişəm, amma o birin saa verən döyülük. Bunun adı Adildi, bunun adı da Fadildi[115]. Adili saa verən döyülük, özümüznən aparacağıx. Qəbul eliyirsən? Dedim, eliyirəm. Yuxudan duranda anama dedim, maa iki dənə uşax gətdilər, oğlan uşağı idi, amma birin vermədilər. Birinci uşax olanda dedim, mama, Fadil qoyacam bunun adını, bizə Fadili verdilər. Dedi, ay bala, lap yaxşı. Nəysə, bunun dalınnan da Adil gəldi. Adil başqa cür uşağ idi. Elə bil uşax saatnan böyüyür, günnən yox ey, saatnan, dəyqəynən böyüyür. Elə göyçəkdi, elə gözəldi ki, ayrı cürə. On dəyqənin içində köçdü getdi. Nə qədər ora-bura qaçırtdım, xeyri olmadı. Otaxda qalırdılar. Gecə birdən gördüm uşax faxreylənir[116]. Sabah durdu, mən də tez durdum. Yoldaşım dedi, uşağın vəziyyəti pisdi. Ha qaçdım oyana, ha qaçdım buyana, sonra dedim sən özünü niyə öldürürsən ki. Allah belə isdiyib da. Quş kimi uşdu getdi (S. 45).

## 252.

Deməli, bir gəlinin neçə ildi uşağı olmurdu. Səkgiz nəfər idilər, gecə bu evdə qaldılar, kravatda uzandılar, yatdılar. Nəysə, dedim, bax, yatırsız ha, səhər bunun hakkını

---

[115] Söyləyici fadil sözünün mənasının qalan olduğunu dedi.

[116] Faxreylənmək – çırpınmaq

alacam sizdən. Nəysə, səhər durdular. Dedim, nətər oldu, nə gördüz? Yaxşı nəsə görüfsüzsə, mən hakkımı alajam. Hamısı bir-birinin üzünə baxdı. Dedim, mənim hakqım burda gördüyünüzdü, kim nə gördü, kim nə aldı? Birinci səfərdi da gəlmisiz bura. Axşam evdə yatdılar, səhər də durub kümbəzin[117] üsdünə gedəsidilər. Belə deyəndə gördüm ki, bu gəlinin gözü doldu. Buna əhəmiyyət vermədim. Bildim da bu nəsə görüb, özün görsətdi. Hamını dindirəndən sonra biri dedi görmüşəm, yadımdan çıxıb, biri dedi elə rahat yatdım, elə bil anadan indi olmuşam. Dedim, ay qızım, sən elə bil nəsə görmüsən axı. Nə görübsən? Ağladı. Dedim, ağlama, de. Dedi, gördüm ki, getmişik sizin ocağa. Hamı ziyarət elədi çıxdı, amma mən çıxmıram. Özümü ağlıyıb öldürrəm ki, mən burdan əliboş qayıdan döyüləm, mənim payımı verin. Deyir, okqədər ağladım ki, gördüm bir əl gəldi, kürəyimdən belə vurdu. Dedi, ay qızım, dur, dur, dur, alarsan sən payını. Durdum ziyarətdən çıxdım. Çıxanda su çəni var idi, ordan bir nəfər çıxdı, qucağında bir bələk. Bunu görəndə özümü atdım bunun üsdünə ki, bunnan ötrü gəlmişəm da, bunu verin mana. Ağappax, yanağı qırmızı qız uşağı idi, ay Hüseyn əmi. Dedim, şükür Allaha. Noldu axırı? Dedi, uşağın qolunnan dartır, ayağınnan dartır, yalvarıram ki, qurban olum, eləmə, xəsarət olar, bunu beləcə salamat verin mana. O qədər, deyir, yalvardım, yalvardım, dodağın altınnan güldü. Dedi, bunu saa gətmişəm da. Hüseyn əmi, nətərdi? Dedim, nətər olacax? Gedəndə dedim bu gəlini qabağa salın, siz onnan qabağa düşmüyün. Bu gejə ojağa gedib. Özü dedi da bu yolnan getdim, belə getdim. Qəbri ziyarət etməyə gedəndə gəlini saldılar qabağa, gəlin buları apardı düz çatdırdı ojağa. Təəccüb elədilər ki, bu birinci

[117] Qoşa kümbəz kimi tanınan məzarı nəzərdə tutur

səfərdi gəlir, ziyarətin yolunu necə tanıyır. Getdi ziyarət elədi, ordan qayıdannan sonra Allah işini avand elədi gözəl bir qızı oldu. Çoxdu belələri (S. 45).

**253.**

Biz orta məktəbdə oxuyanda, elə bil ki, savah imtahandı, biz hamımız yığılırdıx – sinif yoldaşlarımız, qızlar, bir-iki dənə də oğlan gedirdi biznən. Piyada gedirdik Seyfəliyə, Seyid Hüseyin babanın qəbrinin üstünə. O yollarda ev-zad, heç nə yoxuydu. Gedəndə gedirdik, gələndə xına daşdarı varıydı, tüpücəknən isladırdıx, əllərimizə xına qoya-qoya gəlirdik da. Hər imtahan qabağı gedirdik, gəlirdik, beş alırdıx. Lap qabaxları Seyfəlidə bir arvadın bir boğaz inəyi itibdi. Qabaxları samannı kərpicnən Seyidin qəbrinin üsdünü hörüblərmiş, balaca da pəncərə qoyubmuşdar. Hə, deməli inəyləri gedir çölə, gəlmir. Axtarıllar səhərdən axşama, axşamnan səhərə, tapmıllar. Arvad yatır, yaşdı arvadıymış, bir də yuxuda gördü ki, Seyid Hüseyn baba gəlib deyir ki, narahat olma, inəyin sağ-salamat yatıb, bir dənə də qaşqa balası yanındadı. Mənim yanımdadı, gəl götür. Arvad yuxudan tezdən durur. Ərinə deyir, belə gördüm. Əri deyir, oraları mən o qədər axtarmışam ki. Orda inəy-zad nə gəzir, inəy olsa, mölər, nağarar. Deyib, yox ey, mənə seyid dedi ki, inəy mənim yanımdadı, gəl apar. Hə, tezdənnən gedir inəyi götürür gəlir, yanında da bir dənə balası yalıyıb-eliyib, quruyub qəşəhcə. Onnan sora onun oğlu bir az babat götürdü oranı. İndi lap qəşəh götürüblər. Seyfəli camaatı bizdən çox ona inanır (S. 25).

**254.**

Heyvan saxlıyırdıx, keçimiz var idi. Yuxuda gördüm ki, keçi doğuf iki dənə balası var, ikisinin də qulağı qara,

alnı ağ. Tezdən durdum, yuxudu da, əhəmiyyət vermədim. Durdum getdim tolaya, gördüm həmin keçi həmin nişanda iki dənə bala doğub. Kişiyə dedim, vallah, bunları yuxuda görmüşəm. Dedi, olar, ürək təmiz olannan sonra hər şey agah ola bilər (S. 25).

**255.**

Mənim gəlnim yatmamışdan qabax, biz get-gəlliyik da. Biz də istiyirdik ki, kişinin adını qoyax, Sabir qoyax. Bir oğlum var, onun da bir oğlu oldu, iki qızdan sonra. Fikir-rəşirdik ki, Sabir qoyax. Vəli gecə zəng elədi gəlnimə. Dedi, ay gəlin bala, nağarsan? Qızın uşağa yatacağını bilirdi da. Deyir, heş nə, evdəyəm, ay Vəli baba. Nə idi? Dedi, qızım, sənə deyirəm, bir oğlun olacağ, adını Əli qoyarsan. Dedi, hə, yaxşı. Gəlnim gəldi bizə dedi ki, Əli deyir yuxuda görmüşəm, o uşağın adı Əli olmalıdı. İndi, maşallah, bir ağıllı uşaxdı, bir savatdı uşaxdı, bir oxuyan uşaxdı. Hələ heç kim onun bir nalayıx hərəkətini də görmüyüb, nalayıx söz də çıxmayıb ağzından e (S. 25).

**256.**

Oğlum otuz bir yaşın içindədi, evləndirə bilmirdim onu. Heç kimi də bəyənmir. Nəysə, tapıldı bir qız, gədə özü tapdı. Gejə yatdım, yuxuda gördün ki, suyun qırağındayıx dədəm, anam da ordadı. Su elədi, göz yaşı da, içinə düşən hər şey görünür. Dədəm batdı. Dədəm batdı, anam onu çıxartmax istədi, çıxardammadı, anam da batdı. Mən də suyun qırağında eləcə bunlara baxıram, nə yardım elədim, nə də əlimi uzatdım. Durdum özümdən böyük bajılarıma, qardaşlarıma söylədim, dedilər sənin uşağın olara görk olajax. İki gün keçmədi getdik nişan taxdıx (S. 27).

# VII. İNANCLAR

## YAĞIŞLA BAĞLI İNANCLAR

1. Möhürü qırırdılar, bağlıyırdılar bir dəsmala, aparıb qoyurdular bulağın gözünə. Orda qalırdı iki-üş gün, yağış yağandan sonra gedib götürürdülər. Çox qalanda çox yağırdı. Əcəlsiz ölən adamın torpağından aparıb suya tökürdülər, onda da yağırdı (S. 11).

2. Çoxlu yağış yağanda yağışı dayandırmax üçün yağışın suyunu gətirib qazanda qaynadırlar, qazan quruyana kimi qaynadırdılar, qazan quruyanda yağış da kəsirdi. Uzun müddət yağış yağanda elə eliyirdilər (S. 11).

3. Qurbağanı, deyirdilər, ağa büküf arxası üsdə qoyanda yağış yağır (S. 46).

4. Günü çağırmaq üçün qurbağanı qırmızıya büküb basırırdılar (S. 10).

5. Haçaqayadan niyyət edib daş götürəndə gərək gələn il o daşı aparıb yerinə qoyasan (S. 43).

6. Ulağın başını yuyurdular, qabağına güzgü tuturdular, başın darıyırdılar ki, qoy yağış yağsın (S. 43).

7. Qurbağanı donnuyurdular, arxası üstə çörürdülər, torpağa basırırdılar. Oturuf ağlıyırdılar ki, qoy yağış yağsın. Biz o qədər inanırdığ ona. Onu yazıx Gülzar – Allah rəhmət

eləsin, – o eliyirdi bizim kəntdə. Ölünü nətər bükürdülər, qurbağanı da elə ağ parçaya kəfənniyirdi Gülzar. Onu belə arxası üstə basdırırdı. Allah hakkı, o dəqə yağırdı (S. 43).

8. Hava qurax keçəndə kimi incilə qırmızı parça bağlıyırdı, kimi qurban kəserdi (S. 22).

9. Çox yağanda dağda Alverdilərin Rəcəbi var idi, o godu gəzdirerdi. O mənnən on yaş böyük idi, yetim uşağ idi. Heç məktəbə də getmirdi. Biz də uşağ idik. Elə yağır, elə yağır. Godu-godu gəzdirer. Biri şəkər verir, biri kanfet verir.

Godu godu gördünmü,
Goduya salam verdinmi?
Godu qapıdan ötəndə
Qırmızı gün gördünmü.
Verənin oğlu olsun,
Verməyənin qızı olsun,
Adı Fatma olsun.

Godu dediyimiz belə güzgü olurdu, üsdünə də qırmızı salırdılar, əllərində tutub gəzdirirdilər. Yağış çox yağırdı dana, godunu bəziyirdi ki, gün çıxacax. Dağda godu gəzdirirdilər. Amma kəntdə çox yağış yağanda incilə, dağdağana qırmızı bağlıyırdılar ki, gün çıxsın (S. 22).

10. Deyirdilər, yağış möhkəm yağanda kim anasının ilkidi incil ağacına qırmızı bağlasın, onda yağış kəsər (S. 27).

11. Biznən qonşu kəndin arasında – Bəryabad deyirdik, bir dənə ağac var idi, ona nəzir bağlerdılar. Onun torpağınnan gətirirdilər. Çox yağış yağanda, dolu yağanda,

yaşdı arvatdar deyirdi, gedin danışmadan, sakit, – Daşdəmirin torpağı deyirdilər, – onnan bir ouj gətirin, mən qoorajam, hava açılajax. Daşdəmir insan adı idi, ağacın dibində elə bil onu qətlə yetirmişdilər. Onun qanı orya tökülmüşdü. Ona görə onu ziyarət kimi saxlıyırdılar. Həmin torpağı gətirirdilər, yaşdı arvad sajda qoorurdu, hava açılırdı. Da deerdi, qurdalama, onu götürəjəydi, özü saxlıyırdı ki, qoy əyəxlənməsin, günahdı. Özü də burdan, bəlkə də, Ağstafaya qədər yoldu. Gedəndə söhbət eliyirdik, iki nəfər, üş nəfər, əmbə o torpağı götdün, gələndə söhbət eləmə, sakit beləcə gətirin maa verin. Hava qurax keçəndə də həmən torpaxdan suya tökürdülər ki, qoyun yağsın[118].

Ya kümbəz[119] var idi, onun divarından bircə daş kıxmalağını qopartsan, elə bil o yağış kəsmirdi. Divardan bir daş qopradıb yanına tulluyurdux, yağış elə başdıyırdı ki, kəsmirdi (S. 35).

12. Kəntdə quraxlığ olanda seyidi suluyurdular. Deyirdim, niyə suluyursuz? Deyirdilər, ədətimizdi. Seyidi suluyurux, bəlkə, Allahın yazığı gələ bizə yağış göndərə (S. 26).

## XEYİR-BƏRƏKƏTLƏ BAĞLI İNANCLAR

13. İndi dık eləməmiş gedif taxıl səpirlər. Orda da Züləş kişi dediyim adam o qədər nurani, halal adam idi ki. Birinci onu aparırdılar, əlinnən də olsa, birinci taxılı o səpirdi ki, bu il məhsulumuz yaxşı olsun (S. 41).

---

[118] Söhbətdə iştirak edən şübhəylə soruşur ki, yağırdı? Söyləyici: Bə nə, srazı. Quran hakkı.

[119] Kimin kümbəzi olduğunu söyləyici yadına sala bilmədi.

14. Qurban kəsiləndə qurbanın sümüyünü evdəki taxıl normasın içinə qoyurdular, kartof toxumunun içinə qoyurdular ki, bərəkətli olsun. İlin axır çərşənbəsi aparıb həmin toxumu səpirdin (S. 10).

15. Həzrət Əli süfrə açıb. Gəlib oturub çörəyini yeyib, süfrəsini belə çırpıb deyib, nə gözəl yerdi bura. Ondan götürüblər, deyillər Göyçə mahalı (S. 10).

16. Əkin, səpin dövründə insannarı tanıyırdılar da onun əyağı uğurludu, məhsul bol olacax. Yumurta-zad qoyurdular. Əkin-səpin vaxdı həmin xeyirxah bildihləri insan gedirdi kombaynın, traxtırın qavağına həmin yumurtaları çırpırdı, çiy yumurtanı. Deyilənə görə, həmin il məhsul bol olurdu. Allah rəhmət eləsin İmaməli dayıya da, Cəmil dayıya da. Cəmil dayının əli çox uğurlu idi. Yusub məllim deyirdi, Cəmil dayını aparırdıx, kalxozda ilk meşoğu o atırdı, məhsulu yığıb yığışdıra bilmirdih (S. 23).

17. Atam maa dedi ki, get əriyin divinə bax. Getdim ki, ilan qurbağeyi udur. Qurbağanın iki ayaxları qalıf, bir də başı. Gəldim atama dedim, ay ata, ilan qurbağeyi udur. Atam getdi ilanın ağzınnan qurbağanı aldı, ilan o qədər hək elədi, bax, belə ağaca dolandı ey. Elə bil onu udannan sora ağaca dolanır ki, qoy sinsin. Öldürdülər, apardılar bassırdılar. Onun da arasınnan bizi keçirtdi. Deyirdi, a bala, keçin, əliniz şəfalı olacax. Kiminsə boğazı gələndə əlizi çəkərsiz, şəfa tapar (S. 43).

18. Kürün üsdünnən deyirdilər kim keçsə, boğaz-zad gələndə əlini çəkəndə o kutarırdı. O vaxdı deyirdilər ki,

gərək Kürün üsdünnən keçəsən ki, boğaz çəkə biləsən. Keçməsən xeyri yoxdu, əlini çəksən də, sağalmır (S. 46).

19. O vaxdı belə quraxlığ olanda babam rəhmətdiyi çağırırdılar, yanına mənim kimi bir adam qatırdılar, gəlirdi Qoşqara. Ordan daş aparırdı, Qarabulağın çayına o daşı qoyan kimi şarapbaşarap yağış yağırdı. Mart aynın onu, on beşi babam toxum atmıyınca kimin ixdiyarı nə idi toxum ata. Göyçədə heylə idi. Hər kəndin bir urzalısı var idi. Əvvəlcə onun çıxardırdılar ki, ilk toxumu sən səp. Sarıyaqubda da miləverdilər helə idi (S. 7).

20. Ağa deyirdi ki, evdə xörək bişir da. Ətmi bişir, çörəkmi bişir. Yoldan keçən aj olanda bir annıx köks ötürür. O da hər adama qismət olmaz ki, onu tuta. Ofsanat dedi, odu. Bax, onu tutan adam onu çağırıf desə ki, çörək bişirmişik, təzə çörəkdi, bir qismət onnan ye, bax, onun yeri cənnətməkandı, onun yediyi çörək ofsanata keçir (S. 34).

21. Ağa deyirdi ki, evdə beş nəfər varsa, bərəkət onun birinin ayağındadı. Ya qızının ayağındadı, ya oğlunun, ərinin, ya gəlinin ayağındadı. Allah eləməsin, onun başına bir iş gələ, ya o öydən köçüf gedə, baxarsan ki, pul da gedir, var da gedir. Aqil adamlar deyir urza filankəsin başındaymış, o evdən getdi deyənə urza da onnan çəkildi getdi (S. 34).

22. Deyirdim, ay ağa, gəlin atdananda deyirdilər “ya qismət, ayağı sayalı olsun”. Bu nə deməkdi? Deyirdi, oğul, onun da böyük hikməti var. Gəlin var getdiyi evə ruzu-bərəkət gedir, gəlin var getdiyi yerə xoşbəxtlik gedir, gəlin

var ki getdiyi yer bədbəxtçilik olur. Deyirdim, ağa, o nəynən əlaqəlidi? Deyirdi, oğul, onun zatı qırıxdı, o mundarranmış gəlindi. Deyirdim, ağa, axı tanıyırıx, filankəsin qızıdı. Deyir, oğul, onu sən bilməzsən. O evə gedən kimi onun təhnəsi uje mundarrandı. O evin nə bərəkəti olar, nə ruzusu olar. İlkin məllim, mən onu gördüm. Ağaya Allah rəhmət eləsin. Gördüm ki, onun sözündə həqiqət varmış (S. 34).

23. Uşağ idik da onda biz. Bax, bircə belə də boyu vardı, üzündə bir nuranilik vardı nətəri. Baxırdın ki, əkin olurdu, ağanı aparırdılar sahəyə. Biz də vilisin dalınca qaça-qaça gedirdik ki, ağanı apardılar, görək nağarajaxlar. Gedirdi bardaş qururdu, otururdu torpağın üsdündə. Oturan kimi də duruf deyirdi, yox, ay bala, hələ vaxdı döyül. Sonradan sonraya yaşa dolduxca başa düşdük ki, ağa demək isdiyir torpax qızmamış onu əkmək olmaz. Taxıl biçini vaxdı ağanı aparırdılar ki, ağa, gedək bir taxılı yoxla. Gəlirdi bir sünbül qıraxdan qoparırdı, birini bir az irəlidən qoparırdı, birini o tərəfdən. Sütül deyirdik, onu əlində ovuşdurub ağzına atırdı. Deyirdi, yox, ay bala, hələ üş-dörd gün də gözdüyün. Deyirdilər, ay ağa, bəs yağış gələjək, taxıl zay olajax. Deyirdi, yox, ay bala, narahat olma, yağış yoxdu. Beş, on, on beş, bir də ayın başı. Yəni ayın beşi, onu, on beşi, bir də başı. Bu arada yağdı yağdı, yağmadı, deməli, yağış yoxdu. Biçin vaxdı da aparırdılar ağanı, sahəyə xeyir-dua verirdi. Kombayınlar biçirdi, birinci kombayının bunkeri gəlirdi ağanın qapısına. Bu danılmaz bir fakt idi. Hansı məhsul olur olsun, onun ilk nübarı ağaya verilirdi. Bizim kəntdə güjdü arı saxlıyırdılar. Bal süzüləndə ondan bir pay ağaya göndərilirdi. Ağanın qoyduğu adət-ənənə idi ki, onu

saxlıyırdıx biz. Fikirrəşirdik ki, bizim kəndin camaatı hamısı peyğəmbərdi, hamısı imamdı. Amma qaçaqaçda gəldik ki, bunnarın qarnında nə qədər əyri buynuz var imiş (S. 34).

24. Ağa deyirdi ki, yalan üş cür olur. Baxasan ki, birinnən zəhlən gedir, bir yalan danışasan, onu başınnan eliyəsən, getsin. Yalan var çıxılmaz vəziyyətdə qalasan, ona bir yalan danışasan. Bu ikisi sənin günahına yazılmır. Yalan var ki, üsdünə nəyəsə gələ əlimyandı halında, sən də ona vermiyəsən, ona yalan danışasan. Bax, ən ağır cəza Allahın yanında odu (S. 34).

25. Deyirdim, ağa, məndən də seyid olar? Deyirdi, ay bijin nəvəsi, niyə olmur. Sən apar kasıbın qarnın doyuz-dur, çılpax əyni geyizdir. Deyirdim, ağa, bir dəfə. Deyirdi, yox, sən onu himayənə götürməlisən, onun səviyyəsində yaşamalısan. Göydən Allah baxır, görsə sən aj qarnın hər gün doyuzdurursan, çılpax ayağını geydirirsən, cibini pulsuz qoymursan, bax, onda səndən seyid olar (S. 34).

26. Bizim bir qonşumuz var idi, Musa kişi. Deyirdi ki, hansı öydə ki it var, o itə baxın. O it əməllidirsə, bilin ki o öy təmizdi, o öy urzalıdı. Hansı it ki bulanır, ölür, bil ki o öydə nə din var, nə bərəkət var (S. 24).

## QURBANLA BAĞLI İNANCLAR

27. Qanunu qurban evdə varsa bir nəfər, iki nəfər, ona bir bişirim saxlamalısan, qalanın paylamalısan. Sənin gözün yoxdu, amma uşağın gözü var orda, ona görə bir qismət saxlayıb paylamalısan (S. 49).

28. Nəzir qurbanı yeddi yerə paylanır. Əgər mənim adıma kəsilirsə, mənim hakqım yoxdu onun ətini yeməyə. Yesəm, gərək onun pulunu verəm. Əsl savablı ehsan çiy ehsandı. Biz gəlirik mərasim evində ehsan yeyirik. İllərdi ət görməyən, şirinlik görməyən adamlar var. 65-66-cı ilə qədər belə döyüldü, qapıda ehsan yox idi. Kəsərdilər əti, Allah rəhmət eləsin Cəlal dayı vardı, əliynən bilirdi bu yarım kilodu, bir kilodu. Tərəzi yox idi. İki fətirin arasında bir büküm halva, bir büküm ət qapı-qapı paylıyardıx. Onun savabı bundan çoxdu. Bir kilo əti atırdı qazana, onu bütün aylə yeyirdi, amma burda kim yeyir? (S. 44)

29. Qurbanı kəsəndən sonra qurban deyilən adamı üç dəfə başınnan bədəni arasınnan irəli geri keçirdirsən. O üzə bu üzə üş dəfə keçir, sonra qanınnan bir damcı alnına vururux el adəti kimi. Kimə ki deyiflər, qəbul olunub, həmin deyilən adamı keçiririk. Duz yalatmax, su içirtmək, onlar hamısı adətdi, vacib deyil (S. 26).

30. Əqiqə qurbanı yeni doğulan uşaqlar üçün kəsirsən. Bu şərtnən ki, uşağın ata-anası o qurbannan yeməməlidi. Bir budunu onu dünyaya gətirən mamaçaya verirsən, yerdə qalan hissəsini də elə kəsirsən, balta vurmursan, sümük qırılmır. Qabırğaları birləşən yerdən kəsirsən, o şəkildə kəsirsən. Bir də uşağın saçını qırxırsan, o tükün miqdarında sədəqə verirsən. Əqiqə qurbanın insan da özünə kəsə bilər. Valideynin imkanı yoxdu, kəsməyib. Özü pul qazanmaq həddi-buluğuna çatıbdı, özü də kəsə bilər. Vacib qurban döyül, amma kəsməyin çox böyük savabı var. Həyatında hətta dəyişikliyə də səbəb ola bilər, varrana bilərsən. Yoxsulsansa, yoxsulluxdan xilas ola bilərsən, borclusansa, borcdan qurtara bilərsən (S. 26).

31. Bizdə Seyid Cəfər var idi, Allah rəhmət eləsin, mənim bavamın kəndinnən oluf, Dərəçiçək kəndinnən. Mənim atamın əmisi söylüyürdü. Deyirdi, a bala, 47-48-ci illərdi, müharibədən sonrakı devirdi. Elə ajlıxdır ki, təsəvvür elə, kartoşka qalxıb belə, gün öldürüf, soluf. Taxıl qoyruluf. Ayağını yerə vurursan, yerdən bir toz qalxır, elə bilirsən maşının patrışkası partdadı. Allaha qurban olum, Allahın o qədər yaxın bəndələri oluf. Şərt elmdən getmir, elmin söykənəcəyi faktlar da oluf. Deyir dedi ki, gedin o seyidi gətirin, qoy bir Allaha dua oxusun. Rəhmətdik Seyid Cəfəri burdan aparıflar atnan. And içirdi o kişi, onu mən həmişə deyirəm burda insanlara. Seyidi aparıflar, sənin, mənim kimi kişinin də birinin danasını deyiflər, aparıf qurban kəsək orda. Deyir, apardığ daneyi. O pirdə seyid, deyir, dizini yerə qoydu, – hansı ki, iki aydır, üç aydır göydən damcı düşmür, – Allaha dua elədi. Dana kəsildi, deyir, dəridən çıxmamış göydən bir yağış tökdü, elə bil vedreynən tökürsən. Bax, belə-belə yağışdı, yerə düşür, yağışın yerdən tozu göyə qalxır par kimi. Tez, deyir, əl-əyağ elədi beş-on adam. Biri deyib ki, ayə, tez olun əti yığın, üsdünü açmıyın. Seyid deyir, ayə, elə orda da soyun, orda da dərinin üsdündə bölün əti. Kimin nə hakkı var seyidin bir sözün iki edə. Qardaş, deyir, bax, o on beş-iyirmi metr əraziyə elə bil göyə çadır tutdun. Ətrafı sel-su aparır, amma bura, deyir, bir dənə ləkə su düşmədi. Daneyi kəsdik, yetim-yesirə payladıx. Bir həftə, deyir, yağış yağdı. Kartof təzədən, deyir, böyrünnən cücərdi, taxıl ordan, cənnətə döndü dünya. Mən burda hərdən bir deyirəm, ay insanlar, gəlin Allahın ətəyinnən tutax, Allahın yolunnan gedək. Kimin iki heyvanı var, birin qurvan kəssin Allah yolunda, bir yetim-yesir sevindirsin, bir kasıb-kusubın əlinnən tutsun (S. 50).

32. Qurbanı sol tərəfi üsdə aşırırıx. İki əlini bağlıyırıx, varsa duz yaladırıx. Mənim oğlum heyvanın əllərin, gözlərin bağlıyır, sonra kəsirik. Kəsəndə nə deyirik? Allahım, bu qurbanı bizdən qəbul elə İsmayılın qurbanın qəbul elədiyin kimi, peyğəmbərimizin qurbanın qəbul elədiyin kimi, cəmi-islam millətinin qurbanın qəbul elədiyin kimi. Allahım, imkan ver gələn il sağ-salamat yenə sənin rizan üçün bir qurban kəsək – deyirik. Gözü bağlandı, təkbir deyirik allahu əkbər, allahu əkbər, allahu əkbər və lilləhil-həmd[120] deyib bıçağı çəkirik. Qanını qaba yığır toyuxlara atırıx, sümüklərini də atırıx. Keçi qrubanı kəsərdilərsə, keçi dərisinin üstündə namaz qılarlar. Qurban toyuxdan, xoruzdan olmaz, qalan şeylərin hamısından olar. Nənəm keçi dərisinin üstündə namaz qılardı. Deyirdi, bu ağ keçidi, qurbannıx keçidi. Allah yolunda kəsilmiş heyvandı, onun dərisin aşılamışam, onun üstündə namaz qılardı. Qabaxlar qurbanı molla kəsərdi, bir manat pul, ya da qoyunun döşü verilirdi. Adətən bir manat verilirdi. O da peşqun deyəllər taxtadan yumru xamırı yaymağ üçün, onun üstündə heyvanı kəsərdi, daha torpağın üsdündə yox. Hərədən bir manat alsa böyük pul olardı (S. 44).

## UŞAQLA BAĞLI İNANCLAR

33. Uşax qorxanda, yeri qazırdılar, uşağı köhnə qarıların tumanına bükürdülər, üş dəfə qazdıxları oyuxdan keçirirdilər, qorxuluğunu götürürdü. Bir də quşburnu kolunnan keçirirdilər, bir də tüfəyin halqasınnan. Quşburnu kolunu bağlıyırsan, uşağı üç dəfə ordan keçirdirsən (S. 43).

[120] Lilləhil-həmd – həmd Allaha məxsusdur.

34. Uşağ qızılca tutanda onu qırmızıya bükürdüh, həm də şirin şey verirdik. Bir də qızılcaya heç vaxt deməzsən "boy". Onda, deyir, küsər. Maşallah, maşallah, xoş gəldin deyirsən, onda, deyir, tez çıxardar (S. 43).

35. Qızıl suyunda qızılcanı yox, tətərxama olanı çimizdirillər. Onda da uşax köppəş-köppəş səpir, onu qızıl üzüynən salıf çimizdirəndə o geri qayıdır. Qızılcıxda gözünün içinə kimi səpirdi, tətərxamada da bütün bədəni səpirdi (S. 43).

36. Cəfərov İspinin qapısında toy idi. Babacannı Qəhrəman varıydı, zurna çalan. Biz də uşağ idik, aşığın yanında dururdux ki, aşıx siqaret istiyəndə verək. Onu özümüzə şərəf bilirdik. Bizim kişi də nə seyid idi, nə bir şey idi. Bütün Göysululları yığdı. İspinin də oğlu yoxuydu. Dedi ki, gəlin arzu eliyəyin, gələn il bu vaxdı İspinin həm nəvəsi olsun, həm də oğlu olsun. O vaxt da arvatdar lağ eliyirdilər ki, Bildirçinin[121] tay yumurtdamax dövrü qutardı. Allah gəldi ona bir oğul verdi. Dedi ki, elin alqışı müstəcəb olar. Gəlin mən bir alqış edəcəm, hamı da amin desin. Hamı da amin dedi, növbəti il onun bir oğlu oldu (S. 23).

37. Arzu olanda dedilər kirvə tutajıx sizi, nağarajığ, neyniyəjik. Bir səfər bizə kirvə deyif ziyannığ çəkmişdilər, uşağ ölmüşdü da. Bildirçin gəldi dedi ki, bilirsən nə var? O vaxdı hələ ortalıxda heş nə yoxdu, biz lağlağıynan demişdik ki, kirvə filankəs olajax. Bayram da dedi, mən qəlbimi dolandırmıram. Sən ki məni saymadın, get nağarırsan qayır. Amma bircə onu bil ki, sən bunun barını yemi-

[121] İspin kişinin arvadı

yəjən. Kişi kimi də yemədi. O gəlib ha eliyib pul qazanan dövrə çatana qədər İspin rəhmətə getdi (S. 23).

38. Mənim qardaşım qızı varıydı, onu oyuxdan keçirdilər, dul arvadın tumanınnan keçirdilər. O vaxdı arvatdar tuman geyirdilər. O tumanın başında rezin-mezin yoxuydu. Tuman bağıynan vurub öldülərərəm səni o həmən şeydi. O qırılıf cırılası şey də döyül e. Bax, ordacan üş dəfə keçirdirdilər. Çoxu elə əynindəcə tumanınnan keçirirdi. Tumanın bağını açırdı, ordan da keçirirdilər. Məsələn, uşağ qorxanda qorxuluğunu götürürdülər. Uşağı aparırdılar bir torpağ evə. Orda aparıf yatızdırıllar, dörd küşdən torpağ götürürdülər, nə bilim, pambığ qoyurdular, xam pambıx. Onun sinəsinin üstündə yandırırdılar. Nə bilim, torpağı, külü bir-birinə qatıb vururdular. Mənim özümün iyirmi bir yaşım olanda qorxuluğumu anam götürdü. Həmən qaydada götürdü. Mən əsgərlikdə qorxmuşdum deyə gejə sıçrıyıb qalxırdım, səksənirdim. Əvvəlcə fikir vermədilər, elə bil, o da getdikcə başqa ruhi xəstəliklər yaradır. O, həqqətən var. Mən yatmalıyam ki, onu eləsin. Sinənin üstünə adi pambıx qoyur, onu da nəynənsə göyə vurur, türklərin çiy köftəsi kimi yuxarıda yapışıf qalmalıdı. O qalırdısa, pis ruh bədənindən çıxdı (S. 23).

39. Bizim evdə Quran varıydı. Bir Quran, bir də Quranın üşdə birinə “Bəyaz” deyirdi bizim Göyçə camaatı. Elə bil ki 114 surənin üşdə biri. Bəlkə, yüz ilin, yüz əlli ilin kitabıdı. Üstündə müşəmmə vardı, o müşəmmə də o qədər əldən ələ keçif ki, rəngi tay itifdi. Dümağ bir şey idi. Onu mən əmioğluya apardım verdim, köhnəlmişdi, evdə saxlamağ fikrim olmadı. Deməli, bu kitabnan gəlmişdi, nəynən

gəlmişdisə, mömün biri idi. Qarın üstündə yeriyəndə xırt-xırt səs gəlir ha, bir də baxırdın həmən səs gəlirdi, qapı açılırdı. Əslində qapı-zad açılmıyıf e. Gəlirdi girirdi içəri, mən qorxmurdum, eləmirdim. O, kitabı oxumağa gəlirdi. Kitabı verənnən sora bir xeyli mənnən öcəşdilər. Demək olar, gözümə görünəcək dərəcəyə qədər gəldilər. O vaxdı bizdə belə bir iş eliyirdilər. Göysuda doğulan uşağın səksən faizi elə bir ana uşağı dünyaya gətirməmişdən qavax gəlif o Bəyazı aparırdılar. O Bəyaz hansı uşağın üstünə gedir-disə, ya uşağ dəli olurdu, ya ölürdü. Ona görə də bəri başdan gəlif aparırdılar. Aygünün oğlu olanda, bax, onnar onun içinnən vərəq çıxartmışdılar. Onçün onun başı helə yekədi, dili də pəltəhdi (S. 23).

40. Bunun oğlu olub ölürmüş. Arvadı həmli imiş. Yuxusunda görör ki, oğlu olub, məni də kirvə tutub. Gəldi bunun oğlu oldu. Bir gün öydə oturordux rəhmətdihnən. Gəldilər. Xoş gəlmisən. Rəhmətdih də çörək-zad düzəltdi. Dedi, yox, yemirik, məqsədə gəlmişik. Dedik, əşi, yeyin, məqsədinizi sonra deyərsiz. Dedi, yox, məqsədimiz düzəlsin, ondan sonra yeyərik. Dedi, gəlmişik ki, Allahın əmriynən, peyğəmbərin hökmüynən səni uşağımıza kirvə tutax. Dedim, kirvəyə kim atkaz eliyər? Dedi, yuxusunda belə görmüşdü. Ondan sonra səni öz ürəyimizdə behləmişik. İndi gəlmişik açıb deyək. Belə oldu uşağa kirvə durdum (S. 49).

41. Həmzatdı qadınlar doğa bilmir, uşağı olmur. Həmzatı oların üstündən götürmək üçün ya dini ayinlərdə keçirilən məclislərin surfaların oların üstünə çırpardılar. Ya ona deyərdilər ki, götür payla xalxa şirniyyatdı, nə oldu.

O da xalxa paylayardı, həmzat onnan qutarardı. Beş-on nəfər deyərdi Allah arzuna çatdırsın, həmzat onnan qırılırdı. Həmzatı hansısa heyvanın üstünə tökmək günahdı, özü də günahın ən böyüyüdü. Allahın yaratdığı varlığı quş belə olsa, öldürməyə hakkın yoxdu. Süleyman peyğəmbərin vaxdında bir göyərçin uça-uça gəlir Süleymanın çiyninə qonur ki, ey Allahın peyğəmbəri, qoyma, məni quzğun öldürür. Quzğun da içəri girir. Deyir ki, nə isdiyirsən bu göyərçindən? Deyir, mən ajam. Deyir, bunun balaları var, yazıxdı. Deyir, mənim də balalarım var, Allah onu maa yazıb, burax onu (S. 44).

42. Uşağa ad qoyanda gərəh adgötürdü eliyəsən. Gərək molla gələ, Quran oxuya, ondan sonra ölən şəxsin adı qoyula (S. 33).

43. Bizdə kirvəlikdə belə bir adət olub. Kirvəlikdə borc qaytarmağ burda oldu. Mən belə eşitdim bir yerdən ki, biri dedi, mən ona beş yüz manatdıx şax bəzəmişdim, o mənim qabağımda heç nə qaytarmadı. Dedim, sən özünün borcunnan çıxıfsan ki, mən qohum oluram sənnən. Elə bil, pulunu verif kanfet alıfsan. Bunu qaytarmağın nə mənası var? Bizdə yox idi belə şey. Mən bəzədim bu xonçanı, niyətim idi ki, İlkinin oğlunun toyunda şax qaldırajam. Daha mən deməmişdim mən bunu bəzəyib İlkin məllimin oğlunun şaxını qaldırajam, İlkin məllim də onun əvəzində gətirif mana nəsə eliyəjəh. Bizdə elə şey yox idi. Mən öz niyətimə çatdım. Bu xonçanı bəzədim, apardım, sənnən mən qohum oldum. Yox, mən sənnən qız aldım, sən də gəl mənnən qız al, qohum ol. Bu nə deməkdir?

Kirvə dururmuşdar, o kirvənin də dizin üsdə xalat sərirlərmiş, qan o xalatın üsdünə tökülərdi. O xalat da gedir-

miş kirvənin öyündə bir sandıxda durурmuş. Saxlıyırmışdar ki, bizim qohumluq rəmzidi. Hətda kirvə kirvənin damın üstə çıxmaz, torpaq tökülər. O qədər bizdə kirvə qohumluğu saf, təmiz idi. Son vaxtlar buralarda çox yüngülləşif. Kirvə də onda deyirdi ki, bu uşağın qanı mənim üstümə töküldü, mən də bu qohumluğu özümnən qəbrə aparajam. Yəni bu qohumlux daim olmalıdı biznən. Kirvədən qız almaq bizdə yox idi. Bir dəfə biri aldı, el nifrətinə gəldi. Onlar xoşbəxt oluf yaşamadı. Nəsə xətir-hörmət üçün arvad oğluna kirvə tutdu onları. Arvadın əri yox idi, türmədə idi. Bu da aydın məsələ idi, arvad dolanmaq üçün eliyirdi ki, onlar birqadir idi. Kirvə tutdu oğluna. Camaat dedi, Allah öyü yıxsın, dünən kirvə idi, indi onun qızınımı alersan? Kirvəlik bəs eləmədimi, üsdəlik qızını da aldınız? O da yaxşı olmadı. Bir ildən sonra boşandı uşağnan, uşağ ortada qaldı (S. 50).

44. Körpə uşaxda alına ürəh şəkilli güzgü qoyurdular, bir də sinəsinə güzgü qoyurdular. Uşax doğulur, uje qırxı çıxıf, gözəgəlimli olanda ya uşağın papağının qırağını çuxolluyurlar, güzgünü papağın üsdünə, ya sinəsinə tikirdilər, nəzər qaytarmağ üçün. Deyirdilər, gözdən, nəfəsdən Allahtalanın xəbəri yoxdu (S. 34).

45. Babamın şəcərəsi vardı, onu qara çadrada saxlıyırdılar. Kimin gəlini uşağa yatanda onu aparıb başının altına qoyurdular. O vaxd Quran hər adamda yox idi, amma çərəkə var ey, o bizim Teyfədə var idi. Teyfə də məxmər parçaya bükmüşdü, kim ki uşağa yatacax gətirib onun yastığının alına qoyurdular. Onu uşağın başının altına qoyurdular, zahı qadının başının altına qoyurdular ki, o evə hal gəlməsin (S. 32).

## BAYRAMLA BAĞLI İNANCLAR

46. O vaxdı böyüklər bizə deyirdilər ki, Novruz bayramı gəlməmiş adam əlini surfaya atmaz (S. 37).

47. Səhər-səhər ovaxlı gedif evdə neçə mal var, neçə adam var onun sayına daş gətirirdilər. Gətirif unun içinə atırdılar, malı suluyurdular ki, təzə bayramlara çıxın (S. 37).

48. O vaxd deyirdilər ki, at hər dəyqə gəvşək çalmır. İldə bir dəfə gəvşək çalır, onu da hər adam görə bilmir. Onu görüb niyyət eliyəndə nə desən qəbul olur. Biri deyif ki, bunu mən gözdüyəjəm. At gəvşək vuranda bu ərzi-bəndəliyini deyir. Deyir ki, mənim kişimi şüş qızıl elə. Sabax baxır ki, kişi təmiz qızıl. Onun barmağının birini kəsir, aparıf satır. Onun üsdünü basırır, o eləcə qalır. Bir də o biri Nooruz bayramı gələndə gözdüyür, at gəvşək vuranda deyir ki, mən həyat yoldaşımı isdiyirəm. Gəlir ki, həyat yoldaşı evdədi, intaası, barmağının biri yoxdu. Deyif, hə, bu düz imiş (S. 37).

49. Bir gün anam bərk xəsdələnmişdi, elə bil, ilin axır təki olur, o yedi ləvin gecəsi. Həkim çağırdıx. Dedi, yaxşı döyül vəziyyəti. Bayram günü idi. Dedik, ay dədə, bə yeməyə nağarax, yeddi ləvin gecəsidi? Dedi, ay qızım, gətirin peçin üsdə kartof tökün. Dedik ki, yeddi ləvin gecəsi qartofmu tökülür? Dedi ki, ay qızım, yeddi cürə qartof var onun içində, yeddi ləvindi, gedin gətirin. Bugünkü kimi yadımdadı. Gətdik tökdük, həmin günü onnan yola verdik. Bax, yeddi ləvin gecəsi hər evdə gərək yeddi ləvin yemək olardı (S. 19).

50. Guya kı gecə saat on ikidə gecəynən günüz tamlaşır, bərabər olur, onda da su durur. Onu hər adam görmür. Görən nə niyyət tutsa, o niyyəti gerçəkləşir (S. 19).

51. Kiçik çilə girəndə nənəm rəhmətdik deyirdi, çilə girdi bas bajanı, çilə çıxdı aç bajanı. Deyirdi göy yeyən heyvanın belinə qar da yağsa, qorxusu yoxdu. O heyvan soyuxlamaz (S. 6).

52. Xıdır Nəbi girəndə deyirdi, bala, yerə nəfəs gəldi, nə atsan bitəjək (S. 6).

53. Deməli, Allah rəhmət eləsin ölənnərin hamısına. Mənim qaynanamgil Daşkörpüdə olurdular, Xıdır Elləz günü qovut bişirərdilər, onu niyyətə qoyurdular. Allahın adı hakqı. Gəldi, deyir, birin quş götdü belə getdi, birin götdü elə getdi, birin də gəldi it apardı. Nurənin adına qoyduğunu it apardı. Dedi, vay, evim yıxıldı, qızın biri gedif itə urcah olacax. Allahın adı hakqı, elə də oldu. Həmin qız başdan xarab birinə qismət oldu.

Xıdır Nəbidə deyirdilər ki, leylək gəldi. Səkgizə gəlməz, dokkuza qalmaz. Elə bil gəlir saat 12:00-da, 9-da çıxıf gedir. Yazın gəlişini bildirir (S. 17).

54. Məllim düz deyir, bizdə sulaşma varıydı. İlin axırı sulaşma. Axşam saat on ikidən başdıyırdı, elə bil, su-zad təzələnirdi də. Qara-çovğuna baxmırdıx, nə də heş kim xəstələnmirdi. Sulaşanda bir adət də vardı: hamı civinə kanfet qoyurdu. Savax-savax kim qavağına çıxsa, o kanfetdən ona şirinnik kimi paylıya-paylıya gedirdi. Yanı bunu sulamasınlar da. Həm o mənada, həm də şirinnik kimi hamı bir-birinin bayramını təbrik eliyir (S. 23).

55. Mənim qızımın birinin iki qızı var idi. Dedim, görüm, bu dəfə nəyi olajax. Nərimangil finski evdə olurdu, oların qapısını pusmağa getmişdim o niyyətə ki, görək növbəti uşax nə olajax. Gəldi qabağıma üç qız çıxdı, dalınca da Davud çıxdı. Elə də oldu, üç qızı oldu, dalınnan da bir oğlu (S. 22).

56. Mərkəzin yoldaşını Nüsrətə deyirdilər. Mərkəznən də mən Qaraqoyunnuda işdiyirdik. Söz-söhbətdən sonra Gülbəst maa dedi ki, get gör o bajada nə olajax. Tovuzgilin bajasına gəldik. Axır çərşənbə idi. Onda da adət idi, bajanın altında otururdular, xoş söz danışırdılar. Getdik, elə bajaya çatdıx, boylanmax isdiyirdik, Tovuz arvad gəldi işığı keçirtdi, getdi. And olsun Allaha, bax, bu qənd hakkı. Elə onda Gülbəst belə elədi: Gəl, gəl, bu iş baş tutmuyajax. Eləcə də baş tutmadı. Hazır şey idi, amma baş tutmadı. İşıx keşdisə, deməli, bu niyyət hasil olmuyajax (S. 5).

57. Ölü təkində təzə ölü öləndə hamı gedirdi onun qapısına. O qapıda ölüyə rəhmət oxunurdu. Sora kimin nə ehsanı vardı, məsələn, kişmiş alırdılar on kilo, on beş kilo qənd alırdılar. Balaja-balaja semişka kloxları var idi, onu, bax, elə bükürdülər, aparırdılar, qəbrin üstünə qoymurdular, paylıyırdılar. İndi aparıf tulluyuf gəlirlər, həm vəhşi quşdar gedif orda yeyir, siçan yuvası yaradır. Elə orya qoyduğunu gətir payla, ya elə şərayit yarat ki, kimsə götürsün da. Obşi, qəbirsənniyə dua verirdilər.

Qonum-qonşu gəlif televizoru-zadı açırdı kı, hayıfdı da, bu xarab oldu dana, bunu taxın, baxın. Bir il heş kim televizor açmazdı, xəlvət uşağ-muşağ taxsa da, səsin alırdılar. İlinə qədər gözdüyürdülər. Qonşu e, ölü yiyəsi hələ ayna dursun. Qonşu da aşmırdı. Ayıb olardı da eşidəndə (S. 23).

58. Axır çərşənbədə tezdənnən dururdux ayaxyalın gedirdik suyun üsdünə. Orda əlimizi, üzümüzü yuyurdux, çərşənbə suyu da gətirirdik. Niyyət eliyirdilər, deyirdilər havaxt niyyətimiz hasil oldu, onda açıb tökəjiyik. Bir də çaydan daş gətirirdilər. Elə bil, diləyin hasil oldu, daşı da götürüf tulluyurdular, suyu da tökürdülər (S. 13).

59. Niyyət gecəsi var idi bayramda, çox sınanılmış gündü o. Qulax falı deyirdilər ona. Axırıncı çərşənbədə şərnən darın arasında qulax falına çıxırdın. Bizdə Qaya deyilən hündür yer var idi: üsdü düz idi, altı sıdırım qaya idi. Hamı yayda ora yığılırdı. Ora hündür yerdi, nə desən ətrafdan aydın eşidilirdi. Allahın adı hakqı, Zülfəli. Mənim özüm imenni həmin gün çıxdım ora. Dedim, ayə, gedəciniz, gedəciniz, hamınız ərə gedəciniz. Allahın adı hakkı, həmin il iyirmi səkgiz dənə toy oldu (S. 17).

## TOY VƏ YASLA BAĞLI İNANCLAR

60. Mənim anam danışırdı. Deyirdi, gəlin köçəndə qardaşdıx yolu bağlıyırdı. Kirvə olsun, qardaşdıx olsun, yolu bağlıyırdı. Yolun ortasında stol açırdı, stolun üsdündə hər cür yeməklər. Gəlin də düşürdü, bəy də düşürdü, o yeməkdən dadmalı idi. Yolu kəsən gəlinin barmağına bir üzük taxırdı. O vaxdı mənim mamamın barmağında bir üzük vardı, həmişə onu əzizdiyirdi. Deyirdim ki, ay mama, nə yaman əzizdiyirsən bu üzüyü? Qaşı da düşmüşdü. Deyirdi, bunu o vaxdı kirvə taxıb gəlin gedəndə. Süfrənin üstündə yeməyi, arağı olurdu. Orda güclü oğlanlar güləşirdi. Amma bizim vaxdımızda olmuyub (S. 48).

61. Toyun sabahı, ya bir gün sonrası boygörmə olurdu. Gəlin şirinçay gətirirdi, qohum-əqrəbə yığılırdı, onun stəkanına nəmər qoyurdu. Qız evi boygörməyə getməzdi, oğlan evinin qohumları gəlirdi. Gəlirdilər, çörək yeyirdilər. Gəlin də çay gətirirdi, bir istəkan çay içirdilər, onun stəkanına nəmər salıb gedirdilər. Qavqaytarma isə boygördüdən sonra olurdu. Oğlan evinin gətirdiyi xonçaların əvəzini qaytarmaq lazım idi. Ona qavqaytarma deyirdilər. Ona kimi qız evi oğlan evinə getmirdi. Qavqaytarmada ilk dəfə gedirdi. Qatdama deyilən bir şirniyatımız var idi. Qoğal fasondu, amma içi boşdu, kərə yağınnan bişirillər, qızıl gül kimi idi. Onun da öz usdası var idi, ona bişirtdirirdilər. Mütləq o qatdama bişirilirdi, oğlan evinə hədiyələr alınırdı. Anasına donnux, atasına köynək alırdılar. Qızın ayləsi ondan sonra qızla görüşə bilirdi. Qatdama mayasız xəmirdi, südnən yoğrulur. Qoğal yuxası kimi üsd-üsdə sərillər, yuxaların arası yağlanırdı. Yeddi qat da ola bilir, beş qat da olur. Xəngəl xəmiri kimi dilimliyirsən, sonra rulon kimi yumurluyursan, ortasın da boğuf gül kimi açırsan. Kərə yağın içində qızardırsan. Üsdünə də pesok tökürdük o vaxdı biz (S. 21).

62. Ayakqabı darrıxdı. Gəlinin ayağına ayakqabı geydirmək olmaz. Gəlini ayaxyalın köçürdürdülər (S. 17).

63. Toyun yekununda gəlini oynadardılar ki, il bərəkətdi, ruzulu gəlsin (S. 17).

64. Qərib adam öldü, ona ehsan düşmür. O bir şəhid kimi cənnətdihdi. Amma onu bütün camaat yığılıb dəfn eləməlidi (S. 49).

65. Quran qırxında xətm olunmalıdı. Qırxını bağışlayanda bir də xətm duası oxunmalıdı. Yeddi xətm olur, amma bir xətm mütləq qırxında olmalıdı. Adını deyib ona Quran xətm eləməlisən (S. 49).

66. Bizdə belə bir adət varıydı, mən bunu çox yerdə deyirəm, gözəl adətiydi. Bizim kənd xırda kəndiydi. Məsələn, sənin oğlun mənim qızıma gözü düşüf, bir kəntdə yaşıyırıx da. Elçi gəldin, yox dedimsə, o kəntdə ömrü boyu o qıza bir nəfər də elçi gəlməzdi. Gələnə də yaxşı baxmırdılar (S. 23).

67. Məsələn, bir ev alıfsan. Və yaxud da bir evdə iki qardaş oluf, üş qardaş oluf. Tutax ki, anaynan dədə biri deyif ki, filan oğlu yanımızda saxlıyax. Biri deyif ki, filan oğlu. İş elə gətirif nə o oğul qalıf, nə bu oğul. Tamam bir başqa oğlu qalıfdı. Nolsun valideyin sənindi. İnsan ölən kimi oldu ölü, meyid. Ziyannığ tapırdı. Onnar bir molla çağırırdılar, onnan sora bütün bajı-qardaşı hamısın yığıf hamıdan halallığ alırdılar. Bu ojaxda, bu evdə kimin gözü varsa, Allah, onun gözünü burdan çək. Həm də ölünün ruhuna hardasa bir üş dəfə Quran oxutdururlar. Fatihə surəsin oxuyursan, onun özü Qurandı (S. 23).

68. Bizim Göyçə camaatında o adət bu dəyqə də var. Məsələn, ölü rəhmətə gedifdi, günüz ölü götürüldü, dəfin olundu, molla Quran tapşırırdı, gələn qonax dəydi, çıxdı getdi. Axşam qohum-qonşu yığılır, gedirlər qəvirsənnixdə od yandırıllar. O çox dinnərdə var. O qəbrə pis ruhlar girməsin. Bir gün yandırırdılar. Onnan sora da axşam gəlif yığılıllar, həmin gün verilən halvaya ölügözü deyirdilər. İnanca görə, orda camaat ürəhnən çörəy yeyəndə, halva yeyəndə ölü-

nün ruhu da şad olur ku, mənnən sora mənim evimə gələn qonağ ac qayıtmadı. Bax, ona da ölügözü deyirdilər (S. 23).

69. Güney kəndində bir adət varıydı. Təzə ölən ölünün üstünə aparıf bir vedrə su tökürdün. Onun mənası odu kun, kişi ölür, arvad ərə gedir. Arvad ərə gedəndə o ikinci kişiynən aylə qurmamışdan qavax gedif əvvəlki ərinin qəbri üstünə su tökür. Elə bil sənin onnan nigahın təmiz üzülür (S. 23).

70. Cümə axşamları ruhlar evə gəlir. Yuxuya girirsə, onun adına Quran oxudursan. Baxırsan, yuxundan getmir, tez-tez səni narahat edir, beş-altı adam çağırıb ona ehsan da verə bilərsən. Əslində, insanın ata-anası öləndən sonra övlatdan narahat olur. Allahdan dua isdiyir ki, mənim yerimdə qalan övladlarım əziyyət çəkməsin, yaxşı dolansınlar. Öləndə də valideyn övladı üçün narahat olur (S. 26).

71. Nənəmin dediyinə görə, o da babamnan eşitmişdi, mədrəsə təhsili almış babamın dilindən danışırdı ki, bu[122] imamların atının nalıdı. Həzrət Əlinin qoşununu atının nalıdı. Onu babam İraqdan gələndə gətirifdi. Nəcəf şəhərindən gələndə gətirif. O şəkildə də evimizdə qorunub saxlanılır. İkinci mərtəbədə piləkəndən asırıx, üstünə də yazılıb ya Əbəlfəzl Abbasın ələmi. Üşkünc bayraxdı (S. 26).

72. Ölü öləndə evdəki güzgülərin üstü qırx gün örtülü qalır. Mən hər il öz mənsilimin yağınnan bir kilo halva çalıb neçə öy görsə o öyə paylıyıram. Məhərrəmliyin üçündə, yeddisində, ya adnasında – hansında imkanım olur, bişirib

[122] Kitabda şəkli verilən nal şəklindəki Ələmi nəzərdə tutur.

paylıyıram. O vaxdı ölü öləndə televizor qırx gün bağlı qalırdı. Gərək qırx çıxardı, iki-üç ağsakqal gələrdi o televizoru açardı. Yasdan çıxardardı (S. 33).

73. Sevdiyin bir kəs öləndə o həddən artıq iztirab keçirir. Bir də baxırsan sirkələnir xalxın içində, haldan hala düşür. Ruh gəlir onun bədəninə daxil olur. Əl çəkmir axı ruh ondan. Hamı deyir ki, onu "ruh vurdu". Artıq bir canda iki ruh yerləşir. Və bunların bir-birinə əks təsiri başdıyır. Bu dünyada sən niyə qoymadın mən buna nail olum? Bu xəsdəliyə səbəb olur. Deyillər ki, ruh vurdu bunu. Ruhu bundan aralamaq lazımdı. O ruh onu yıxandan sonra ondan aralanır. Ölən adam üçün ağlıyırıx ha. O ruhun dili olsa deyər niyə ağlıyırsız, onu gəzdirən mən idim, mən salamatam. Allah ruhlara bircə dəfə dil verir Ələstdə. Ruh tutan adam titriyər, özündə olmaz, tez-tez halı pisləşər. Yəni xəsdələndirir, aşırdır onu, ondan sonra ruh onu tərk edib gedir (S. 44).

74. Ruhlar dünyası var, onlar orda cəmləşir. Pis ruhları Allahtala yandırar ki, mən səni yaxşı iş üçün göndərmişdim, niyə bu işi gördün? Onları oda tulluyar, yandırar, yaxşı ruhları saxlıyar. Dörd yüz ildən bir, beş yüz ildən bir onlar yenə gələrlər insan bədənində peyda olarlar. Onlar da havaxt peyda olarlar? Ana bətninə uşax düşəndən sonra qırxıncı gün ruh bədənə yeriyər. Onda qadın bədənində silkələnmə başdıyar.

Yalnız qırx gün ərzində ruhlar evə gəlir. Qadınlarda qırx iki gün, kişilərdə isə qırx gün ərzində gələrlər olar, görərlər onu nətər anırlar. Həmin gün ölən adamın ən çox xoşladığı xörəyi bişirərlər. Adna axşamları gəlir. Qırxından sonra artıq o ruh getdi (S. 44).

## TƏQVİM İNANCLARI

75. Deyirdilər, gözdüyün, yazda birinci göy guruldayanda toyuğun üsdünə kül səpin. Onda yaxşı yumurta verəcək. Bu il martın 25-26-sı idi göy guruldadı, bu ilki kimi tez guruldamamışdı (S. 20).

76. Göy guruldamasa, biz yemlih deyirik, taxılın içində qazayağı olurdu, onnar yeyilməz. Havax ki göy guruldadı, onda gedif yemlik yığırıx, qazayağı yığırıx (S. 32).

77. Göy guruldamamış göbələk yeyilməzdi. Bizdə quzu göbələyi olur, göy guruldamıyanda deyirdilər, bir az apasnıdı. Göy guruldamamış yemlik yeyilməzdi, Ondan sonra yolotu deyirdik. Bəzisini görürdün şeytan alladıf, tez bitif. Deyirdilər, a bala, hələ göy guruldamıyıb, onu yemiyin, sarfadı, zəhərdi. Göy gurulduyannan sonra ruhsat verilir. Ondan sonra hava açılır, qara dumanlar çəkilir, yerdə bitən insan üçün lazımlı şeyləri yemək mümkündü (S. 50).

78. – Xıdır Əlləz qeyd etmisiz?

– Bə nə, fevralın beşində. Fevralın beşində Xıdır Elləz başdıyırdı, qout, yarma eliyirdilər, ta Novruz bayramına kimi hər evdə qout-qovurğa var idi. Deyirdilər guya Xıdır Elləzin sevindiyi günlərdi ki, Novruz taxta çıxıf. Xıdırnan Elləz də iki qardaş oluf. Novruz taxta çıxıf, ona hazırrıx görürdülər. Fevralın beşindən sonra başdıyırdı (S. 50).

79. Xıdır Elləz cıdırçıdı, yazın gəlişini xəbər verir. Aprelin 13-15 arası qarının borcu çıxır.

Bax, bu ay[123] hər aydan yığır dana. Üç gün boz olur, üç gün yaxşı olur. Bu da görür hava yaman yaxşıdı, comuşun yığır, gedir dağa. Dağa gedəndə nolacax, boran başdıyır, comuşdar acından qırıler. Ondan qaler "comuş qırılan" (S. 52).

80. Köhnənin martı aprelin 20-də qutarırdı. Üç gün borc alır, görür oğlax qırılmır, iki gün də əlavə alır. Qarı yağdırır, oğlağı qırdırır. Dədə-baba martı indi – aprelin 20-də qutarajax. Mart girəndə deyirlər, mart girdi, dərt girdi, aprel çıxanda da deyirlər mart çıxdı, dərd çıxdı (S. 22).

81. Ermənilərin bir sözü vardı. Deyirdilər Azərbaycanda mart girdi, cıncılım çıxdı, daha onlara qorxu yoxdu. Qorxu bizdədi. Bizdə göy-göyərti tez çıxırdı, amma Ermənistanda gec (S. 27).

82. May ayı vay ayı deyirdilər (S. 33).

83. Boz aya deyirdilər ki, canavarlar cütə gələn vaxtdı (S. 49).

84. Dəlləyin öküzü qırılan yanvar ayında olur. Öküzü qoşur, kotan əkməyə gedr. Boran qopur, öküz qırıler (S. 49).

85. Xıdır Əlləzdə deyirdilər gejə qoudu eşiyə qoyun, üsdə də yumutta qoyun, baxdınızı sınıyın. Baxdın yaxşı olsa üsdünə qırmızı çəkiləjək, pis olsa qara çəkiləjəh. Gürcüstannılar onu daha yaxşı keçirir, yekə mal kəsirlər onda (S. 22).

[123] Aprel ayını nəzərdə tutur.

86. Qədir gecəsində nə arzulamışam, yerinə yetib, and olsun Allaha. Belə möcüzə-möcüzə. Mənim oğlum Qaradağ rayonunda tədqiqatçı işdiyirdi, təyinatını ora vermişdilər. Qədr gecəsində Rəna məllimgildə otururdux, məllimələr, bir də mən da. Orucduğun on yeddinci, on dokquzuncu, iyirmi birinci gecəsi yığılırdıx Rəna məllimgilə. Oturanda da arada bir çıxırdığ eşiyə, Allahnan, elə bil, təmasda olursan. Qədr gecəsi olan günü mələylər hamısı yerdə olur, ağzınnan nə çıxsa, o dəyqə yerinə yetir. İnan, vallah, mən çox inanıram. O vaxt da bir dənə piyan gətiribmişdər şöbəyə. Bu da oğluma söyüş eliyib. Mənim oğlum da söyüş söyən döyül deyin buna pis təsir eliyib, bunu döyüf. Buy, Allah öyünü tiksin, bu da gələ kim çıxa, kim ola? Bu da şəhid qardaşı. Oğlum bilmiyib da. Sora onun da bir hayasız anası var imiş. Pis döyüf da, gərəy eləmiyəydi. Anası əl çəkmir ki, işdən çıxmalıdı. İş böyüdü prakrora, nazirə kimi getdi. Mən də ağlamaxdan ölürəm da. Öz aramızdı, serjant döyül ki, deyəsən olub, olub da. Beş il əyani oxuyuf Akademiyanı, mən nə zulum çəkmişəm onu oxutmaxdan ötəri bir Allah bilir. Day ölürəm da, saçımnan sallanmışam, üçüncü Qədir gecəsi eşiydən içəri yığılmadım. Yanımda vannada su qoydum, saşdarımı aşdım, Allaha yalvardım da ağlıya-ağlıya. Axır mamentdi day, bunu prakrorluğa çağırsalar, işdən çıxardacaxlar. Nəysə, gəldim yatdım. Yatdım, yuxuda gördüm kü, Azər zəng eliyif. Deyir, ay mama, narahat olma, ta məni çağırmıyacaxlar. Tez durdum, Allah, sana qurban olum, təki elə olsun. Elə bil qurbağanın gölünə bir daş tulladın, onnan da iş bağlandı, xətm olundu. Möcüzə, möcüzə ki, heç belə olmuyan möcüzə.

– Vannadakı suyu nə üçün qoymuşduz?

– Deyir, mələhlər su olan yerə daha tez gəlir paklanmax üçün. Həmin günü oyağ qalırsan. Allahtalaya yalvaranda deyirəm, səni and verirəm on iki imama, səni and verirəm yüz iyirmi dörd min peyğəmbərə, səni and verirəm Fatimeyi Zəhraya, səni and verirəm Cənabi Zeynabın əqidəsinə, səni and verirəm cəmi şəhiddərin ruhuna. Olara and verirsən ki, qəbul olsun da niyətin. Tək öz uşağını demirsən, deyirsən ay Allah, cəmi xəstələrə şəfa ver, sağlamlıx ver, xəstələrin dərdinin dəvasını ver. Deyirsən ki, ay Allah, hamının balasını saxla pənahında, cəmi şoferləri, dörd təkər üstündədilər, içində də bizimkiləri. Övlad istiyənə övlad ver, dövlət istiyənə dövlət ver. Bax, belə sidq ürəynən gərəy deyəsən (S. 25).

## OVÇU İNANCLARI

87. Seyidağa yaman ovçuydu. Getdim, deyir, dağda bir keçini vurdum, gördüm keçi qanı tökülə-tökülə getdi bir qayanın divinə. Dalına düşdüm getdim. Gedəndə gördüm yenicə doğuf, körpə balası var, özünü balanın üsdünə saldı. Ondan sonra and işdim ki, daa ov eləmərəm. O, ayı gələndə əlini ayının ağzına soxurmuş, eləcə ayını öldürürmüş. Onu babamın əmisi də eliyirmiş, Kalbay Abbas. O da gedif ayının yuvasın daşnan döyürmüş. Ayı çıxan kimi biləyinə keçəni doluyurmuş, soxurmuş ayının ağzına, xançalı salıb cırırmış. Babam rəhmətdik söylüyür ki, dam tikirdi, mən də buna kömək eliyirdim. Bu, kərkiynən baş barmağın vurdu. Deyir, belə baxdı, baxdı. Yoldaşın çağırdı. Dedi, orda qayğanax bişir. Dedi, Abbas, aş dəmləmişəm. Dedi, aaz, saa deyirəm qayğanax bişir. Kərki əlində düşdü

aşağı. Dedi, qayğanağı bura gətir. Gətdi. Qoydu kötüyün üsdünə, kərkiynən barmağın vurdu, soxdu qayğanağın içinə. Qayğanağın yağınnan barmağın dağ elədi, parçaynan bağladı, qayıtdı gənə işini gördü. Elə kişilər oluf (S. 13).

88. – Bərəni necə müəyyənləşdirirdiniz?

– Heyvan görürdün həmişə ordan keçir. Onnan bilirdik ki, onun bərəsi buradı. Cüyür getmir heç hara. Burda ki məskən salıb, haranı hərrənsə genə gəlir həmin köhnə yerə. Amma ayı, donuz burda güllə at, bu teritoriyadan təmiz çıxır. Ona güllə atdınsa, bu teritoriyada durmur, ayrı bölgəyə keçir. Amma cüyürdü, maraldı, porsuxdu, dooşandı öz yerindən təpənmir. Haranı hərrənsə də, yenə gəlir köhnə yerinə.

Sürəkçi xəbər eliyirdi ki, donuz var, güllənizi dəyişin. Sürəkçi görürdü da onu, amma qabaxçı yox. Elə vaxd olurdu qabaxçıdan çıxırdı sürəkçinin üsdünə gəlirdi. Sürəkçi onu vururdu. Bizim bərələrdə yekə palıdlar var idi, onun dalında gizlənirdik. Görürdün ayannan gəlir. Elə bil quş uçur da, quşdan onun fərqi yoxdu. Nişan alanda gərək özünnən bir az qabağa atasan. Burnuna tutasan ki, ortasına tuş gəlsin. Donuzdu, ayıdı, canavardı, olar çox iti qaçır, ən iti qaçan cüyürdü, dooşandı. Dooşanı çöldə kababdan ötrü vururdux. Onu vuranda ətini soyux suya qoyurdux, onun pis iysini çəkirdi. Ova gecə saat dörtdə, üçdə, elə gedirdik ki, işıxlaşmamış olsun, yataxlarda gedək tapax (S. 2).

89. Zaman babam güjdü ovçu oluf. Bu yaşdaşıbdı, bunun da uşaxları gecmi olub, nə olubsa, balaca olub. Bu gedir ova. O da babamdan qalan sözdü. Nəsə, ov eliyəndə

maral bunun qavağında dayanıb. Baxıb görür maral qabağında durdu, qaçmer. Baxanda görür bir belə yeli var, balası var. Bunun balasımı oluf, nədisə, bunu vurmuyufdu. Bu dəfə ovdan əliboş qayıdıfdı. Əliboş qayındanda xanımı deyif ki, nətər olur, ay Zaman, sən əliboş gəlifsən? Deyif ki, ovum qavağımda durdu, atammadım. Onnan da o kişi tüfəngi qoyur. Deyir, mən heyvana güllə atsam, elə bil gətirif uşağa donuz əti yedirtmiş oluram. Biz onu yedirtmirik. Daha ova getmir, əkinçilihnən, biçinçilihnən ayləsini dolandırır (S. 52).

90. Heç rasdınıza gəlifmi, köhnə kişilər canavar öldürmüş itə niyə quyrux verillər? Dokquzda oxuyurdum, irax üzünnən, kəntdə bir hadisə oldu, atı mindim getdim yaylağa, atam-atnan gəldi kəndə həmən mərasimdə iştirak eləməkdən ötəri. O vaxt da qarabağlılar yaylağa gələndə onnardan astatka qalırdı. Ya doğan qoyun olurdu, el köçüb gedirdi balası yanında qalırdı, ya it olurdu balalıyırdı, qalırdı. Qoyunu vurmuşux Salax düşənə, baxdıx qoyun ürküşdü. Belə baxdım ki... Bizdə də bozağ, dönmə, qırım cinsiydi. Hə, baxdım, kələ qoyun var, yanında da bir cüt balası. Yetirdim ki, quzunu götürəm. Baxdım ki, daşın dalınnan, irax üzünnən, bu yekəlihdə bir it çıxdı, yanında da iki balası. O iti götdüm saxladım. Kəntdə elə bir it yoxdu ku bunnarın qavağına keçə. Rəhmətdik Alqayıt məllim deyirdi, iki nəfərdən qorx: bir əsgərlikdən təzə gələnnən, bir institutu təzə qutarannan. Nəkqədər dözdüm, saat ikidə məni yuxu tutar. Yuxu tutmamışdan qabax durdum kalxozun itdərini bağladım, öz itdərimizi aşdım. Yuxu məni tutar. Dan yeri sökülərdi, gördüm üzümə sərin meh vurur. Belə baxıdm ki, Ağqayanın boynun dalınnan gün çıxır. Baxdım

ki, qoyun arxaşda yatışır. Buynuzu üş dəfə burulan keçimiz varıydı, durdum ki, keçi yoxdu. Hardasa yeddi yüz heyvannan dörd yüzü yoxdu. Uşağam da, bir arxacın əyağına qaşdım, bir yuxarı qaşdım, məni dəli ağlamax tutuf. Küçüklərin də birini adını Qaneş qoymuşux, birini də Maneş. Qaneş, Maneş deyirəm, səsim dərələrnən bir olubdu. Qonşu yatağın heyvanı gələndə, – Qara Yaquf deyirdilər adına, – dedi: – Ayə, bala, niyə ağlıyırsan? Dedim, belə-belə, qoyun bölünüf, yoxdu. – Ayə, o Qartaluçana bax. Dedim, baxmışam, heç harda yoxdu. Ağlıyıram ki, qoyunu gejə apardılar. Sarıqumun yanına çatanda orda belə bir qovu var. Bir ujdan ağlıyıram, bir ujdan itdəri səsləyirəm. Baxdım aşağıdan səs gəldi, sevincərəh qoyunu töhdüm aşağı. Getdim ki, qoyunu dolduruflar qovuya ana-balalı üçü də, bir yekə boz iti öldürüflər. Canavar görməmişəm birdənikiyə, elə bilirəm öldürdükləri itdi. Çoban dədəmi görür. Buna deyir, qoyun bölünmüşdü, uşax qoyunun arxasınca Qartaluçana gedifdi. İndi qoyunu buruf gətirirəm, itdərin də hamısının ağzı qandı. Bunnarın başınnan tutdum birtəri, çalım-çalım çalxalanıllar analı-balalı üçü də ha. Bunnarın qanın yudum, təmizdədim. Dədəm gəldi baxdı, heş nə demədi. Martuni sortu deyirdik, burnun uju qara, dırnaxları qara bir qoçumuz vardı. Çomağı belə atdığınnan qoçu tutdu, qoçu yıxdığınnan kəsdiyi bir oldu. – Ay qağa, sən nə iş gördün, qoçu niyə kəsdin? Dedi, bu qoç gözümə birtəri dəyirdi, bu onsuz da öləjeydi. Dədəm qoçu kəsdi, quyruğun soydu, dəridən çıxartdı, quyruğu üş yerə böldü. Bir parçasını ana itə, o biri parçalarını da balalarına verdi. – Ay dədə, bu quyruğu niyə itə verdin? Dedi, ay bala, görmədinmi ki, quyrux sapsarıdı. Baxdım, dədəm bu qurdun qabax qollarının ciynaxlarının ikisin də belə yardı, divin-

nən çıxartdı. Canavar bizim o yekə buynuzdu keçinin budunu yaralamışdı. Kişi gətirdi yağı tökdü dağ elədi, cızhacız töhdü bu yaranın üsdünə. Dədəm gələndə anam deyib, a kişi, qoçu niyə kəsibsən? Deyif, ay arvad, uşağın yanında demə, itdər canavar öldürmüşdü, ona görə mən qoçu kəsdim itdərə verdim. Bu hadisə beləjə qaldı.

Uzun müddətdən sora mən institutu qurtardım, qayıtdım Bərdənin Hüsü Hacıyev adına kalxozuna. Orda təhlələr vardı. Mən qayıdanda hardasa Allahverdi kişinin olardı 85-88 yaşı. Gör aradan nə qədər keçibdi, bu məndə sirr kimi qalıf da. Küəlli babanın ojağının yanında Hüsü Hacıyev adına kolxozun qoyun yatağı vardı. Günaşırı gedirdih yatağa. Bir gün getdim ki, – oğlunun adı Bərşadıydı, – Bərşadın itdəri iki dənə nər kimi canavarı yıxıflar böyrü üsdə. – Ayə, Bərşad, bu nədi? Qoçu kəsiflər, Qarabağ cinsinin də quyruğu on kilo, on iki kilo gəlir. – Allahverdi baba, bu qoçu niyə kəsifsən? Dedi, a bala, bilirdim gələjəhsən, ətinin yarı şakqasın sən apararsan, yarı şakqasını biz bişirəjih, amma quyrux vermiyəjəm saa. Dedim, niyə? Dedi, görəjəhsən. İtdər də belə cərgəyən duruflar. Quyruğu altı-yeddi yerə böldü, atdı itdərə. Dedim, Allahverdi dayı, quyruğu niyə verdin itə? Dedi, bə sən doxdursan, gərəh bunu biləsən. Çöl heyvannarınnan yedinni[124] canavardı ki, onnan qavaxlaşanda it okqədər gərgin vəziyətdə olur ki, sinirinin hamısı kirəcləşir. Yadında qalsın oğul, onu bircə açır quyrux. Bax, bu saat quyruğu vermiyim, səhər tezdən gəl ki, bunun beşi də ölüfdü. Amma deyir, quyruğ əzələnin də gərginniyini aşağı salır, siniri də yumşaldır (S. 34).

[124] Yedinni – yeganə, təkcə

## MÜXTƏLİF MÖVZULU İNANCLAR

91. Beçə bannıyanda onun kişiliyini bildirir. İndi qırx günnüyü kəsillər, beçənin qırx günnüyü yoxdu. Gərəh o bannasın ki, gəlsin o vaxda çatsın (S. 32).

92. Toyuğu ya atam kəsəjeydi, ya əmim kəsəjeydi, cavannara kəsdirmirdilər. Hər adam kəsən heyvanı da yemirdi. Özümüzün qohumu idi İnad, o da içən idi. Deyirdim, öyün tikilsin, bu içəndi. Deyirdi, nolsun, qəlbi təmizdi. Onun kəsdiyin yiyirdi. Hüzür yerinə gedirəm da, bir də görürsən deyillər, gəl bu heyvanı kəsginən. Mən hamama girməsəm, qüsul almasam o heyvana əlimi vurmaram. Qüsullanıram, sonra gedib kəsirəm. Sadaxlı camaatı helədi, molla kəsməyən heyvanı yemirlər. Samavarı qoyurux, birdən üsfürürsən eləmi. Samavarı üfürdünsə, o çayı içmirlər ki, çayın piri qaşdı, niyə üfürdün onu (S. 22).

93. Səkinəni tanıyırsan da, onun atası, Allah cəmi ölənlərə rəhmət eləsin, sınaxlı seyid idi. İrəvanda Şirazdıda meçid var idi. Ermənilər o meçidi ki isdiyir dağıda, traxtor yerimir. Mən görməmişəm, yanımda söylüyüflər. Traxtor getmiyib. Böyüklərdən kimsə deyib, ə kopoğlu, niyə sürmürsən? Deyif, ə, yerimir. Deyir, ə, sən düş bayna. O düşür, düşəndə ilannar belə çıxıf qabağa. Biri tarxtorun altıynan gəlif ermənini traxtorun üsdündə vurufdu. Təzdən deyif ki, ayə, çəkilin, dəyməyin. Söylədiklərinə görə o meçid bu saat da durur. O meçid yola düşüf, yolu çəkəndə yolu əydiriflər, meçidə dəymiyiflər. Bunnarı yanımda söylüyüflər (S. 28).

94. Bir imamın on dənə evladı olufsa, onun bircəciyi imam olur, qalanları bizim kimi seyid olur. Bizdən birəccə fəziləti üsdündü ki, onun atası imam olur. Amma onnar daha fəzilətdidi, öz atası imamdı, peyğəmbərə daha yaxındı, fəziləti daha üstündü. Yeddinci İmam Museyi Kazımın otuz altı evladı olufdu, onnan yalnız bircəciyi imamdı. Məşətdə yatan İmam Rza imamdı, yerdə qalannar seyitdi. İmamlıx məqamı ancax evladlardan birinə verilir. İmamlıq ilahi tərəfindən məxsusi oxumadan istedad kimi verilir. Özü də bütün elmlər hədiyə olaraq verilir ona. Özü də necə verilir? Öz dövrünün həkiminnən, loğmanınnan da, aliminnən də, sənətkarınnan da bütün elmləri yaxşı bilir (S. 26).

95. Şəri kitablarda yazılıfdı ki, seyidə fitrə düşmür, amma seyid başqasına fitrə verə bilər. Bir də seyid öz fitrəsini seyidə verə bilər. Sədəqə niyyətinən seyidə pul versən, o günaha yazılır. Seyidə ancağ cəddini çağırıb nəzir verə bilərsən, bir də xüms adında bir vergi var, hər bir müsəlmanın ildə bir dəfə qoyduğu vergidi özünə. Özü özünə təyin eliyir. İlin bir günü. Büdcənə baxırsan, büdcəndə min manat pulun varsa, onun iki yüz manatı xümsdü. O xüms də iki hissəyə bölünür, bir hissəsi dini maariflənməyə, mədrəsələrin inkişafına, bir hissəsi də seyidin yoxsullarına verilir. Məsəlçün, yuxunu qatırsan, başına bir iş gələr fikirrəşirsən, bir manat çıxırsan, qəpik də çıxa bilərsən. Yığılır, yığılır, yığılır bir on manat, əlli manata qədər yığılanda götürüf onu sədəqə şəklində bir kasıva verirsən, ehtiyacı olana verirsən. Sədəqə ona deyilir. Hə, nəzir deməy var. Seyid seyidə nəzir desin. Məsəlçün, bavamın savadı yoxuydu, amma qardaşının savadı var idi, mədrəsə oxumuşdu. Bax-

mıyarax savadı vardı, mədrəsə oxumuşdu, mənim bavama nəzir verirdi. Bilirdi ki, bavam onnan çox kəramətli seyitdi. Bavam yoxsul bir vəziyətdən kəndin ən varlı bir adamına çevrildi, qapısında nökərlər işdiyirdi.

– Nətər olur eyni atadan gəlir, amma birində kəramət olur, birində olmur?

– Ona da elim verilmişdi də, onun da duaları güjdüydü. Elə dualar yazırdı ki, sonsuzlara evlat verirdi. Bir kəndə, məsəlçün, dolu yağmasın deyə dualar yazırdı, qərbinə, şərqinə, dörd hissəsinə basdırırdı, o kəndə dolu yağmırdı. Onu oğlu bir az bildi, ondan sonrakı heç bilmir, artığ o dualar itdi. Qədim kitablardan yazırdı o vaxtı. İrəvan xannığının vaxtında İrəvan mədrəsəsində oxumuşdu (S. 26).

96. Hətta oruc nəzir eliyənnər var. Bu arzuma çatın üç gün oruc tutacam. Vacib orucdu. Nətər ramazan orucu vacibdi, nəzir orucu da onun kimi vacibdi. Deyibsən, eləməlisən. Bu işimə çatım Allah yolunda oruc tutajam, tutmalısan. Bu işimə çatım qurban kəsəjəm, kəsməlisən (S. 26).

97. Kimin evində qoja var idi, baxırdın o evə həmişə pay çıxılırdı. Bağımız hardasa bir yarım hektar, bir hektar olardı, o torpax sahəsinin qırağını babam meyvə eləmişdi. Göyəli idi, alma idi, armud idi, qozuydu. Deyirdim, ay baba, bax, bunu niyə yerin qırağına əkmisən, yolnan keçən yeyir? – Ayə, – deyirdi, – ağrınızı alım, ay bala, mən onu camaatın uşağından ötəri əhmişəm, sizdən ötəri yox. Yola baxan camaatındı, bağa baxan da bizimdi. Elə bilirdim, həqqi də, yola tərəf qır, ye, dağıt, sənin döyül. Sonra eşitdim hər yeyən, hər keçən deyirdi, Allah sənə rəhmət eləsin, ay Səməd. Həmişə

rəhmətdih anam, ölənınə rəhmət, bağın bir də görürdün vaxtı-vədəsidi, yetirəndə, dəyəndə almasınnan, armudunnan, nə bilim, göyərtisinnən yığırdı bir sumka, kanfet qoyurdu üstünə, konfet olmuyanda beş-on dənə qənd qoyurdu. Deyirdi, bala, bunu apar Pərinisə qarıya ver, gəl. Pərinisə qarının oğlu var, qızı var, öyünün əri var. Deyirdi, qoja arvatdı, a bala, apar onu ver, gəl. O arvad o qədər alqış oxuyurdu ku. Deyirdi, Allah atana, anana rəhmət eləsin, bax, bunu mana yolluyuf (S. 50).

98. Ayın qulağı dik olarsa, deyərdik bu ay hava qurax keçəcək. Təzə ay doğanda görürdün ki, iki qulağı da belə dik durur, qibləyə tərəfdi. Deyirdilər, bu ay qurağ olajax. Bir də görürdün ayın qulağı bir tərəfi gödəldi, bir tərəfi uzandı. Deyirdilər, hə, yağınnıx göstərir. Hətda havanın yağıb-yağmayacağını heyvannan təyin eləmək mümkündü. Qoyun otarırsan, xoş havadı, otara-otara gedirsən. Bir də görürsən axşam tərəfi saat 4-də, 5-də qoyun elə yatır yerə. Qoyun iki dəfə o vəziyəti alır. Qoyun görürsən daşa dönüb e, tərpənmir yerinnən, başın qaldırmır otdan. Onu hər adam təyin eliyə bilmir. Bir onda qoyun ki ağırraşdı daşa dönür, yerdən başın zornan qaldırır, otduyur elə bil yerə yapışıf. Bil ki sabah möhkəm küləh, yağış, boran olajax. Qoyun büyün otunu götürür. Bir də qoyun tərpənmiyəndə yerinnən, bil ki, o canavarın qoxusun alıf. Ətrafda canavar var, ətrafında fırranır, hardasa hüjum eliyəjəh. Onu qoyun tez bilir. Mən öz təcrübəmnən deyim, yağışın olmağın, canavarın olmağın fərqini bircə şeydən bilmək olur. Qoyun rahat otduyan vaxdı bir də görürsən yuxu səni tutur. Ayağ üsdəsən ey. Qaramat basır, yatmağın gəlir. Elə bil ki, bir aydı yatmırsan. Qaramat səni basanda özünü zornan toparlıyıf ayılırsan. Bil ki burda

canavar var, hardansa böyürdən çıxacax. Deyirsən, hə, bu qaramat canavarın idi. Ancax yuxun gəlmiyəndə, qoyun o vəziyyətdə otduyanda bil ki savah yağış, tufan, qar olajax. Heyvan onu dəqiq bilir.

Arı da elədi, iqlimi biləndi. Hətta qarışqadı, arıdı insannan da tez bilir iqlimi. Arı görürsən ki alçaxdan uçur, bil ki, yağış var bu gün. Arı təbiətin küləyli, yağışlı olacağını bilən kimi srazı bir-birinə məlumat ötürür. Hər arı bilmir onu. Yeşihdə yüz arı varsa, on dənəsi, iyirmi dənəsi, qapıda duranmı, onu bölgəyə salanmı məlumat verir ki, tez yığılmalıdı bu arılar. Öz vızıltısıynan, öz səsiynən hamısını xəbərdar edir. Arılar təcili alçaxdan uçuf özünü yeşiyə çatdırmağa çalışır (S. 50).

99. 1950-ci illərdə Gölkənd kəndində əksər aylələr yeraltı qazma evlərdə yaşıyırdılar, yalnız altmışıncı ildən sonra yaşayış evləri tikməyə başladırlar. Tikilən evlər iki mərtəbəli idi, onun birinci mərtəbəsinə alma, armud, katof kimi ərzaqları yığıb saxlıyırdılar, yuxarı mərtəbədə isə bir ortaq böyük olurdu, o biri otaq nisbətən balaca olurdu, eyni zamanda aynabəndi də olurdu. Belə evlərə kəlləzal evlər deyirdilər. Kəntdə ev tikmək çətin idi, ancaq şərəfli bir iş hesab edilirdi. Ona görə hörgü hörülən zamanı qohumlar və qonşular hörgü üsdünə gəlirdilər. Qohumluq münasibətlərinin səviyyəsindən asılı olarax quzu gətirən də var idi, şirin çörəklər gətirirdilər, qatdama, kömbə, ustaya corab hədiyyə edirdilər, pul verirdilər. Bu da nəmər adlanırdı (S. 18).

100. Canavar çox müxənnət heyvandı. Sürüyə düşdü birini götürüb yemir, hamısın öldürür. Birinin uzaqbaşı

quyruğunu yeyəjəhdı, qalanın boğazınnan tutur, qımçırrıyır, boğur öldürür. Deyirdilər ki, canavar iy bilmir. İy bilsə çox iş görər. Çobanı güdür. Həmişə çobanın arxasında olur. Geri baxan zaman daşın arxasında gizdənir, ya çökək yerə sinir. Canavar dama da düşürmüş. Dama düşmək üçün, ilk növbədə, quyruğunu ordan aşağı salır. Əgər quyrux yerə dəyirsə, ordan içəri düşür. Dəyməsə, ora düşmüyəjək (S. 18).

101. Kim ki canavarı öldürdü onun ağzını bıçaxnan soyurmuş, ona qurdağzı deyirdilər. Malda xəsdəlik olanda onu vedrəyə qoyurdular, su tökürdülər, sonra da malı belə sıraynan sürürdülər, o suyu malın üsdünə çırpırdılar (S. 18).

102. Deyillər ki, qurdağzı surasın oxuyanda canavar heyvana heç nə eliyə bilmir. Onu olxoya[125] oxuyurdular, su sənəyinin içinə salırdılar. Deyirdilər ki, qurdun ağzını bağlamışam, heş nə olan döyül. Pıçağa da oxuyullar. Tapılandan sonra pıçağın ağzını açırdılar, olxoyu sudan çıxardırdılar (S. 18).

103. Bizdə balaca bir kitab var idi, adına “Bayaz” deyirdilər. O vais[126] kitabdı. Onu babam[127] öləndə əmimə verif, əmim də öləndə dədəmə verif ki, bu əldən-ələ keşməsin. O kitabı mən açıb baxırdım, iki cərgə-iki cərgə yazı vardı. Babam deyif, babalım sənin boynuna bu kitabı başqa adama versən. Bu vais kitabdı. Adamları, deyir, dəli eliyir.

[125] Olxoy – oxlov

[126] Söyləyici vais kəlməsini düz işə barmaq qoymayan kimi izah etdi.

[127] Babası Kalbay İbrahim başı sarıqlı axund idi, dini təhsil almışdı. Bəyaz da ona məxsus idi.

Qəvirsənnihdən bir ovuş torpax gətirginən, oxu, səp, hamı yatsın, ev-eşiyi apar, get. Deyirdi, a bala, indi elə kişilər yoxdu bunu saxlıya. Gedif vaisçilik eliyəjək, mən söyüş yiyəsi olajam, bu kitabı maa verən söyüş yiyəsi olajax. Ona görə onu özümdə saxlamadım. Onu gətdim burya, burda da Ələhməd öləndə sinəsi üsdə qoydux, qardaşınnan yadigar təsbehi var idi, onu da qoydum, qəvirsannıxda onnan bərabər basdırdıx (S. 7).

104. İlanı öldürsən də quyrux ölmür. Neçə ki göydə ulduz çıxmıyıf, quyrux salamat olur, qımıllıyır (S. 7).

105. Oğuz ölüsü deyirdih biz. Qaraqoyunnu dərəsində oğuz qəbirləri var idi, sinədaşdarı vardı bu isdoldan uzun. Onların sümükləri çıxırdı, indiki insanların sümüyü balacadı, amma onların baldır sümüyü iki bizimki qədər idi. Yəqin onlar bədəncə hündür, cannı adam oluflar. Başdaşdarı yox idi, amma sinədaşdarı iri idi. Oğuz ölüsünü uzunnuğuna, böyüklüyünə görə işlədirdik. Adam belə uzananda deyirdilər, oğuz ölüsü kimi niyə uzanıfsan? (S. 21)

106. Bizdən Qrasnıya kimi ara boş idi, ora Tovuzun, Ağstafanın, Qazağın yaylağı idi, Gözəldərə deyirdilər. Qazağın, Tovuzun camaatı yaylaxlara gələndə anam deyirdi, qızılbaşdarın köçü gəldi. Mən sonralar bildim ki, qızılbaş Şah İsmayılın tərəfdarlarına verilən addır (S. 21).

107. Mən yaylaxda nənəmnən qalmışam. Nənəmin rəfiqələri var idi. Bir gün buna əriştə kəsirdilər. O qadınnar gəlirdi anama kömək eliyirdi, əriştəsini kəsirdilər,

qurudurdular. Xalça toxuyanda da helə. Birinin yası düşdü, xalçası yarımçıx qalırdı. Camaat yığılırdı onun xalçasını toxuyurdu, kəsif təhvil verirdilər. Xalçaçılıx qışda olurdu, uzun qış gecələri toxunurdu. Novruz bayramına qoymurdular xalça qalsın. Xalça darda qalanda camaat gedirdi kömək eləməyə. Hana quran usdalar var idi, hər kəs onu qura bilmirdi. Mənim nənəm xalça usdası idi, sapların arasının intervalını düzgün eliyəsən gərək. Xalçanın kəsilməsi də böyük bayram idi. Bir xalça üç aya, dörd aya başa gəlirdi. Xalça kəsiləndən sonra küjü ağacını at kimi minirdilər (S. 21).

108. Göycədə mən görmədim ermənilər dana əti, erkək mal əti ala, ancax tuncu düyə alırdılar. İki yaşı tamam olmuş, kələ görməmiş heyvana tuncu düyə deyilir. Dananın əti tam yetirməmiş ətdi. Dananın ətinnən də ye, iki yaşı tamam olmuş düyənin ətinnən də ye, inəyin ətinnən də ye, fərqi hiss edəcəksən. İnəyin əti az qala şaqalad dadır (S. 40).

109. Sarıyaqubda ağ daşdar deyirdilər, belə cərgəynən ağ daşdar düzülüb insan şəklində. Dərədən su gəlir. Rəvayətə görə, imamlarımız bu çaydan su götürəndə yezidlər onu bulandırarmış deyənə Allah onları daşa döndərib. Həmin daşdar kəntdən qıraxda otarax yerində idi (S. 40).

# VIII. TÜRKƏÇARƏ

1. Boğazı gələn adam olur. Kim Arazı, Kürü keçirsə, bir də ilanın ağzınnan qurbağanı alırsa, o adamın əli şəfalı olur. Həmin adam boğazı gələn adamın boğazın üş dəfə sığıyanda sağalırdı (S. 41).

2. Çətənə toxumu yeyibsənmi qoorğaynan? Anam neçə dəfə verib mənə yatırdıb. Sovet dövründə 83-85-ci ildə mən Göyçəyə gedif gəlirdim, ordan onu torbaynan gətirirdim qoorğaya qatmağa. O vaxdı kim nə bilirdi o nədi? Mən Şamxora gələndən sora nəşə-məşə çıxdı. Biz ona çətənə deyirdik. Məhlələrdə bitirdi, kartofun yanına əkirdik. Görürdün, uşax ağlıyanda onu çeyniyib, südə qatıb uşağın boğazına tökürdülər ki, sancısı kəsilsin (S. 6).

3. Yerçöözü deyirdilər, o bərk olur. Nənəm rəhmətdik onu südə qatıb uşağa verirdi. Pıçağın ucunda belə qaşıyırdılar, onun tozunu tökürdülər südə, asnavnoy ana südüynən qarışdırırdılar. Ananın döşündə süd yoxdusa, keçi südünə də qatıb verirdilər. Qaşıxnan qarışdırıb uşağın boğazına tökən kimi uşax yatırdı. Uşaxda sancı olanda, yatmıyan uşaxlara ondan verirdilər. Görünür o əsəbi sakitləşdirirdineyniyirdisə, onu pıçağın ucuynan qaşıyırdılar, tozun tökürdülər qaşığın içinə, üsdünə də südü töküb verirdilər uşağa. Beş-on dəyqəyə uşax yatırdı (S. 6).

4. İnax xəsdəliyi var idi. Deyirdilər mənim uşağım inağ oluf. Özü də onun yeri var. Neçə dəfə məhərrəmlikdə Göyçayda olanda başımı çərtiblər. Ülgücü qoyurlar, belə üsdünnən qaşığnan vuruflar (S. 6).

5. Bankə qoyurdular, o bankənin yerin ülgücnən çərtirdilər, təzdənnən bankə qoyurdular. Bədəndə nə qədər axmaq qan var o bankə soorub çıxardır. Xirnik yüklüyürdük vaqona, qapı açıq olar, skvaznyak məni tutar. Dedim, sən allah, qapını ört, bu skvazniyak məni öldürür. Boynumboğazım qırılır. Hacıqabuldan bir pravadnik var idi. O dedi gəl səni maalicə eliyim. Onun kupesı var idi, keşdik ora. Litirlik bankanın saldı kürəyimə, sordu az qaldı içimi çıxarda. Sonra onu ülgücnən çərtdi. İnanırsan bu rəhdə qan çıxdı (qanın rəngini götərir – tərt.). Əysi götürürdülər, içinə duz qoyub bağlıyırdılar, başına da balaca nefdən vururdular. Yanan kimi də bankəni qoyurdular, havasızlıxdan o sönürdü. Başdıyırdı o soorurdu (S. 6).

6. Uşağ idik də dalaşırdıx, vururdux, başı yarılırdıeliyirdi. O dəyqə çəkirdilər içəri. Yarılan yeri qayçılıyırdılar, tez o yaranın üsdünə bal qoyurdular. Elə bilirdin bal kleydi, nə qədər dərin yara olsa da, onu bitişdirirdi (S. 6).

7. Qara yoncanı çeyniyib, ya daşda döyüb yaraya basırdılar, qanı kəsirdi (S. 6).

8. Balnan nəhrə yağını qarışdırıb uşağı mayalandırmışam. Arvad uşağa yatanda döşünə süd gəlmir, üş gündən sonra döşünə süd gəlirdi. Onda uşağı balnan nəhrə yağını qarışdırıb mayalıyırdılar, uşax yatırdı (S. 13).

9. Mənim ata tərəfim Xalisa kəndinnən oluf. Görürdüm heyvanın yumşaq peyinin tökürlər, kəsirlər. Deyirdim, bunu neynirsən, ay əmi? Deyirdi, a bala, qışda yandırırığ.

Onun tüstüsü ağciyara da xeyir imiş. Onun tərkibində karbon qazı olur, içəridə dursan, tüstüsü boğur adamı, eşiyə çıxanda elə bilirsən ki, nəfəs borun genişlənib, təmizdənib. O tüstünün, bir də qoyunun parı varmı, qazı... Qışda qrip olurdux da. İndi qrip olanda dərman içirsən, çıxıb gedir. Ancax onda qrip olanda ağır keçirirdik. Qanan biri deyirdi, get qoyunun parına gir, çıx, a bala. Səhər-səhər qoyun açılmamış, ən çox fermalarda olurdu, qapını açırdın, par yandırırdı adamın gözünü, içəri girə bilmirdin. Deyirdi, gəl bir dəfə bureyi süpür, görüm. Burnumuzdan da sel axır. Girirdik, süpürürdük, iki dəfə fırt, fırt, beyin açıldı. Nə qaymarit, nə beyin tutulması. Onnan sora üstünnən bir dənə ya süd iç, ya isti çay iç, onnan da qutardı getdi (S. 50).

10. Dəli quzunu baxanda bilirsən. Bəziləri baxırsan narmal heyvandı, təzə tutub axı. Amma çoxdan tutanı bilirsən, baxırsan gözün bir yerə diriyif duruf. Ancax təzə dəlini bilmək çətindi, iki-üç gündən sonra bunun dəli olub olmadığı bilinəcək. Onu naxadi yerində tutuf fırrıyırsan. Fırrıyırsan, fırrıyırsan, buraxırsan. Bıraxan kimi başdıyır başı hərrənməyə. Bilirsən bu dəli quzudu. Dəli quzu otunnan qalır, otdamır, arıxlıyır. Bir həftədən sora ölə də bilər, ölməyə də bilər. Amma onun əti çox şirin olur. Qara heyvanın, qara qoyunun əti də şirin olur, deyilənə görə, südü də tamamilə ayrıdı. Mən uşağı idim, bizim kəntdə ağsakqallar varıdı, dədəmnən bahəm, – ölənnərimizə rəhmət, – heyvan otaranda kəndin qırağında gederdik orya. Gedən kimi bir kişi var idi, o kişi də 15 il türmədə yatmışdı. Saldat şineli geyirdi həmişə. Deyirdi, gedin o qara qoyunnarı tutun sağın. Deyirdik, ay Əli kişi, nə fərqi var qara qoyun, ağ qoyun? Deyirdi, ə, yox ey,

qara qoyunun südü. Rəhmətdih Hasan kişi deyirdi, ölmüş bilir nəyi işməh lazımdı. Qara qoyunun südünü sağırdılar, köpürə-köpürə içirdi. Çiy südü mən də içirdim. Rəhmətdih anam, – ölənlərə rəhmət, – malı sağırdı. Deyirdi, hərəniz bir istəkan quruşka hazırrıyın. Quruşqanı tuturdu inəyin altına, südü sağırdı, başdıyırdıx içməyə. Bəziləri içmiyəndə deyirdi içməsən canın üçün başına tökəjəm. Çiy südün tərkibində müəyyən maddələr var, olar qaynıyanda məhv olur. Hətda insan boğazı ağrıyır e, deyir boğazım gəlir. Bişmiş süddən çiy süd ona xeyirdi. Çiy südü sən birbaşa iç, bu şərtnən inək məməsindən çıxan kimi. İstidə də, soyuxda da o maddələr ölür. Onu köpühlü-köpühlü içəndə o, boğazını, elə bil ki, yağlıyır (S. 50).

11. Bizim kəndimizin üstü batağlıx kimi yerdi, amma gözəl idi. Orda burukökü deyilən bir bitgi bitirdi. Adi yerkökünə oxşuyur, bircə belə idi. Birini atırdın, çaydanda qaynıyırdı, amma eləydi zəhər. İstiyir böyüy adam olsun, istiyir kiçih uşağ olsun, onnan götürüf körpə uşağa çay qaşığıynan səhər, günorta, axşam bircə gün verirdin, qarın ağrısı söhbəti olmurdu. Bax, buna deyirdik burukök. Sora qoşquzu deyirdik, pişiycıynağı deyirdik. Diş ətində baxırdın yara olur, deyirdilər ki, ay bala, get pişiycıynağı sıx. Toşnu elə bil pişiycıynağıdı. Belə götürürdün sıxırdın, limon kimi turşməzə suyu çıxırdı. Diş ətindəki infeksiyanı təmiz bərpa eliyirdi (S. 34).

12. Yaylax idi da, bir çay burdan gəlirdi, o biri çay ordan gəlirdi. Bədəndə qaşınma olurdu da. Ağçınqılın qabağı deyirdik. Onun qabağını belə kəsirdik, gedif orda

çimirdik. Baxırdın ki, özü-özünəcə çəkildi getdi. Gərməşov deyillər da, ağac növüdü. Burdakı gərmşovlardan döyüldü. Hələ mən o gərmşovlardan burda görməmişəm. Üsdü damalı dəftərlər kimi naxışdı idi. O ağacın qabığının bir möcüzəsi var idi. Onu qurudurdular, bax, belə bir şüşə qabın üsdündə yandırırdın, baxırdın sarı yağı çıxır. Bax, onu çəkirdin dəmroy düşən yerə, boz düşən yerə. Ən çox bu olurdu fermada işdiyən çobannarda, sağınçılarda. İkicə dəfə onu yandırıf çəkirdin, baxırdın ki, onu aprırdı. Burdakı gərməşoydan nə qədər istifadə eləmişiksə, köməy eləmir (S. 34).

13. Mən eşitmişəm arxın badını qazırdılar, qırağını. Arxın badınnan keçirirdilər, torpağın altdan. İrzanın gedəsi özünnən gedirdi. Mərcannan oğlu gəldi arxın qırağınnan yer qazdılar, onu ordan keçirtdilər. Ora da çörək, duz, bir də cırıx ayakqabı, yumurta qoyurdular, uçururdular. Bir tərəfi arxa düşürdü. Burdan qazırdılar, o tərəfdən çıxarırdılar, üsdü qalırdı. Burdan salıb arx tərəfdən çıxarırdılar. Üç dəfə keçirirdilər, ora da duz-çörək, yumurta, bir də cırığ ayakqabı qoyurdular. Sonra təpikliyib uçurdurdular, üsdün də doldururdular. Buruşun oğlun arxın badınnan keçirdəndə onnan ağlımda qalıf (S. 13).

14. Qara qoyunun əti, südü sərfəlidi. Bunu onnan əlaqələndirillər ki, qara heyvan günəşin şüasını udur, əti şirinləşir. Ağ heyvan isə əks etdirir, geriyə qaytarır. Ona görə qaya heyvanın əti, südü tamlı olur (S. 18).

# IX. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Balıx bizdə *itinə tök, pişiyinə dağıt.* O qədər bol idi (S. 8).

2. O vaxdı anamım ajığı tutanda mana deyirdi, *yeddi dinnən dışqarı*. Yəni yeddi dinin heş birinə biət eləmirsən. Cavannığ idi, şitdih eliyirdim, onda deyirdi (S. 23).

3. Göyçədə bir deyim var idi:

Dınqır ələh, dınqır saj,
Əlim xamırda, qarnım aj.

Onu da Qüdrət nənəm yeniyetmələrə, müasir aylələrə deyirdi (S. 23).

4. Alasan rus qızını üst-başını çist eləyər,
Alasan erməni qızını xalqın sənə dost eləyər,
Alasan gürcü qızını bir öpüşə məst eləyər,
Alasan azərbaycannı qızını sağ canına qəsd eləyər[128].

5. Bizdə bir məsəl var: *Qızbəst Qurvana çörək verən kimi.*

Qurvana anası bir kusok verif, yeyif. İki kusok verif, yeyif. Kusok-kusok verir, bu da yeyir. Ajdıx vaxdı oluf da. Deyif, uşax qırmasın, tökməsin. Bir az fikirrəşif deyir, ana, bunu kusok-kusok verdiyinə gətir çörəyi qabağıma qoy, nə qədər yesəm yeyəcəm, qalanı da orda qalacax. Bizdə ondan bir məsəl qalıf. Birisi xırda-xırda bir şey verəndə deyir, Qızbəst Qurvana çörək verən kimi verirsən (S. 5).

[128] Tərtər rayonu Bəyimsarov kəndindən qeydə alınıb.

6. Biri Loğmana deyir, neyniyim ki xəsdələnmiyim? Deyir, gündə bir dəfə, həfdədə bir dəfə, ayda bir dəfə, ildə bir dəfə. Yəni gündə bir dəfə ye, həfdədə bir dəfə çim, ayda bir dəfə aylənnən yaxınnığ elə, ildə bir dəfə oruc tut (S. 51).

7. Qapına gələni Xızır bil (S. 44).

8. Ağıllı ağılçı köyündən gəlib (S. 12).

9. Mal gedir bir yana, güman gedir min yana (S. 12).

10. Mənim rəhmətdih atam üç gün dağa piyada gederdi. Ata minmerdi, atı da olurdu, məsələn, yoldaşlar da təklif elerdi. Deyirdi, yox. Kişi kişinin atına minməz (S. 12).

11. Çırah heç havaxt özünə işığ salmır (S. 12).

12. Ağzı qaytansız arvad yiyəsiz kişi kimi şeydi (S. 50).

13. Qaçan da Allahı çağırır, qovan da. Qaçan deyir Allah eliyə tutam, qovan da deyir Allah eliyə tutammıya (S. 50).

14. Qadın üç cür olur: qıldırımqıp, huldurumhop, şıldırımşıp. Huldurumhop o deməkdir ki, axşamdan bir quzu kəsirsən, səhərə bir tikə ət tapılmır. Qıldırımqıp odur ki, bir kilo ət alırsan, ondan kiftə də bişirir, boşbaş da bişirir, dolma da bişirir, bir həftə uşaxlarını onnan dolandırır. Şıldırımşıp ona deyilir ki, kəndin başının xəbərini ayağına aparır, ayağının xəbərini başına aparır, söz gəzdirir (S. 18).

15. Mərd at həmişə qabağı gözdüyür, namərd at isə arxaya baxır (S. 18).

16. Pulunu ver inəyə, bağla dirəyə,
Pulunu ver qoyuna, özünü sal oyuna (S. 18).

17. Qoyunun oldu əlli,
Adın oldu bəlli.
Qoyunun oldu yüz,
Gir dərəyə, üz (S. 18).

18. Qoyun üş baş otduyur: kərə, kürə, qulaxlı (S. 18).

19. Naxırçı qızının könlündən naxır çörəyi keçər (S. 18).

20. Vuran oğul ataya baxmaz (S. 18).

21. "Hə" də iş düzəldir, "yox" da (S. 18).

22. Adamı adam edən parədi,
Parəsiz adamın üzü qarədi (S. 18).

23. Açıldı qannı sabah, qovhaqov, keçhakeç
Düşdü gözəl axşam, yehaye, içhaiç (S. 18).

24. Kasıba çatdı, dəyirman yatdı (S. 18).

25. Gorda yatan evdə yata bilməz (S. 18).

26. Vaxtsız ağacdan da yarpax düşmür (S. 18).

27. Tez evlənənnən ata evindən tez ayrılan peşman olmaz (S. 18).

28. Gəlin gərdəkdə, küçük yuvada tərbiyə olunar (S. 18).

29. Sümsük itin sümsük balası olar (S. 18).

30. Köhnə yurdun qədrini təzə yurtda bilərlər (S. 18).

31. Dərtsiz dəli oynamaz (S. 18).

32. Qoyun sürüsü geri dönəndə axsax qabağa düşər (S. 18).

33. Yağlı aş: bir gün sizdə, bir gün bizdə (S. 18).

34. Qocalıq – benavalıx[129] (S. 18).

35. Çobanı özündən olanın qoyunu ekiz doğar (S. 18).

36. Qız atdandı, bilinməz kimin qapısına düşəcək (S. 18).

37. Suyu bol olan çaylar lal axır, dağ çayları isə aləmə səs salır (S. 18).

38. Quranı qoyuflar, çörəyi götürüflər (S. 25).

39. *Nənəm söylüyürdü həmişə. Deyir.*
Gecə-gündüz yalan döyül,
Əyri, cənnət görən döyül.
Qabağınnan çırağ apar[130],
Daldan çırax gələn döyül (S. 25).

---

[129] Benava – fars mənşəli sözdür, köməksiz, aciz, çarəsiz deməkdir.
[130] Söyləyicinin dediyinə görə, "qabağınnan çıraq apar" dedikdə etdiyin səxavət nəzərdə tutulur.

# X. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Abbasov Bilal Xəlil oğlu, 1966-cı ildə Qərbi Azərbaycanın Vedi rayonunun Yengicə kəndindən deportasiya olunub, Ağstafa rayonu Yenigün kəndində məskunlaşıb. Təvəllüdü 1941-ci il.

2. Abdullayev Hidayət Nadir oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Çaykənd kəndindən deportasiya olunub, Şəmkir rayonunda məskunlaşıb. Təvəllüdü 1932-ci il. *Söylədiyi mətn. İnanclar: 88.*

3. Alıyev Nəriman Alı oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Pəmbək kəndindən deportasiya olunub. Şəmkir rayonu Sarıtəpə kəndində məskunlaşıb. Təvəllüdü 1932-ci il, orta-ixtisas təhsilli. *Söylədiyi mətnlər: 15, 36, 101, 156, 158, 208, 223.*

4. Alıyeva Göyərçin Şıxəli qızı, 1941-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Göl kəndindən deportasiya olunub. Ağstafa rayonu Kolayır kəndində məskunlaşıb. Təvəllüdü 1930-cu il.

5. Bayramov Nadir Qəzənfər oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub, Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1962-ci il. *Söylədiyi mətnlər: 2, 76, 77, 78, 79, 80, 84, 229, 230, 231, 232, 235; İnanclar: 56; Atalar sözü: 5.*

6. Cəfərov Süleyman Cəfər oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Keşişkənd rayonunun Sallı (Qamışlı dərə) kəndindən deportasiya olunub, Şəmkir rayonu Yeniabad kəndində məskunlaşıb. Təvəllüdü 1938-ci il, orta təhsilli, şofer. *İnanclar: 51, 52; Türkəçarə: 2, 3, 4, 5, 6, 7.*

7. Cəlilov İbrahim Məhəmməd oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən deportasiya olunub. Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1953-cü il, ali təhsilli, baytar. *Söylədiyi mətnlər: 51, 103, 140, 201; İnanclar: 19, 103, 104.*

8. Cıdırov Yadigar Mutu oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Barana rayonunun Ləmbəli kəndindən deportasiya olunub, Ağstafa rayonu Böyük Kəsik kəndində məskunlaşıb. Təvəllüdü 1952-ci il, kənd təsərrüfatı texnikomunu bitirib, birqadir işləyib. *Söylədiyi mətnlər: 14, 22, 29, 200; Atalar sözü: 1.*

9. Əkbərov İsmət Əşrəf oğlu, 1948-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Kolanı kəndindən deportasiya olunub, Ağstafa rayonu Qara Həsənli kəndində məskunlaşıb. Təvəllüdü 1937-ci il. *Söylədiyi mətn: 249.*

10. Əliyev İmran Xıdır oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Daşkənd kəndindən deportasiya olunub. Şəmkir rayonu Günəşli kəndində məskunlaşıb. Təvəllüdü 1963-cü il, orta təhsilli. *Söylədiyi mətnlər: 3, 94, 95, 96, 97, 98, 99, 100, 179, 180, 181, 190, 237, 238, 239, 240; İnanclar: 4, 14, 15.*

11. Əliyev Sahib Mirhüseyn oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Göysu kəndindən deportasiya olunub, Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1954-cü il, peşə təhsilli, sürücü. *Söylədiyi mətnlər: 115, 116, 117, 118, 150, 152, 170; İnanclar: 1, 2.*

12. Əliyeva Tahirə Məhəmməd qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Barana rayonu Yuxarı Körpülü kəndindən deportasiya olunub, Ağstafa rayonu Pirli kəndində məskunlaşıb. Təvəllüdü 1959. *Söylədiyi mətnlər: 12, 19, 42; Atalar sözü: 8, 9, 10, 11.*

13. Əmirova Gülabatın Hüseyn qızı, 1949-cu ildə Qərbi Azərbaycanın Keşişkənd rayonunun Sallı kəndindən deportasiya olunub, Şəmkir rayon Yeniabad kəndində məskunlaşıb. Təvəllüdü 1934-cü il. *Söylədiyi mətnlər: 48, 49, 62, 155, 211, 219, 247; İnanclar: 58, 87; Türkəçarə: 8, 13.*

14. Əsgərov Rahib Alı oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub, Şəmkir rayonu Nərimanlı kəndində məskunlaşıb. Təvəllüdü 1966-cı il, ali təhsilli. *Söylədiyi mətnlər: 4, 87, 88, 236.*

15. Hacıyev Elçin Saməddin oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Göl kəndindən deportasiya olunub, Şəmkir rayonu Ələsgərli kəndində məskunlaşıb. Təvəllüdü 1954-cü il. *Söylədiyi mətn: 38.*

16. Həsənova Güləsər Hüseyn qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Böyük Qarakilsə rayonunun Gözəldərə kəndindən deportasiya olunub, Şəmkir rayonu Çinarlı kəndində məskunlaşıb. 86 yaş. *Söylədiyi mətn: 37.*

17. İbrahimov İsmayıl Qurban oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Güllücə kəndindən deportasiya olunub, Şəmkir rayonunda məskunlaşıb. Təvəllüdü 1963-cü il. *Söylədiyi mətnlər: 10, 17. İnanclar: 53, 59, 62, 63.*

18. Kazımov Rafiq Nağı oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Gölkənd kəndindən deportasiya olunub. Ağstafa rayonu Həsənsu kəndində məskunlaşıb. Təvəllüdü 1953-cü il, ali təhsilli, tarix müəllimi. *Söylədiyi mətnlər: 26, 59, 175, 188, 205, 220; İnanclar: 99, 100, 101, 102. Türkəçarə: 14; Atalar sözü: 14-37.*

19. Kazımova Rəna Haqverdi qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Pəmbək kəndindən deportasiya olunub, Şəmkir rayonu Qaracəmirli kəndində məskunlaşıb. Təvəllüdü 1955-ci il. *Söylədiyi mətnlər: 6, 16, 39, 40, 102; İnanclar: 49, 50.*

20. Məmmədov Eldar Mövsüm oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Bayburt kəndindən deportasiya olunub. Ağstafa rayonu Vurğun qəsəbəsində məskunlaşıb. Təvəllüdü 1961-ci il. *Söylədiyi mətnlər: 194, 202; İnanclar: 75.*

21. Məmmədov Əmrah Mustafa oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Gölkənd kəndindən deportasiya olunub. Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1953-cü il, ali təhsilli, riyaziyyat müəllimi. *Söylədiyi mətnlər: 27. İnanclar: 61, 105, 106, 107.*

22. Məmmədov Sayad Müşkül oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Barana rayonunun Ləmbəli kəndindən deportasiya olunub. Ağstafa rayonu Böyük Kəsik kəndində məskunlaşıb. Təvəllüdü 1956-cı il, texnikom təhsilli. *Söylədiyi mətnlər: 21, 28, 196, 198; İnanclar: 8, 9, 55, 80, 85, 92.*

23. Məmmədov Zabil Bayram oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Göysu kəndindən deportasiya olunub, Şəmkir rayonu Yeni Göyçə kəndində məskunlaşıb. Təvəllüdü 1974-cü il. *Söylədiyi mətnlər: 119, 120, 159, 206, 242, 243, 244, 245; İnanclar: 16, 36, 37, 38, 39, 54, 57, 66, 67, 68, 69; Atalar sözü: 2, 3.*

24. Məmmədova Lalaxanım Həsənxan qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Göysu kəndindən deportasiya olunub. Şəmkir rayonu Kür qəsə-

bəsində məskunlaşıb. Təvəllüdü 1949-cu il, orta təhsilli. *Söylədiyi mətnlər: 142; İnanclar: 26.*

25. Məmmədova Səyyarə Qənbər qızı, Şəmkir rayonu Əliyaqublu kəndi, təvəllüdü 1957-ci il, orta təhsilli. Atası 1948-ci ildə Vedi rayonunun Çimən kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 44, 50, 55, 56, 162, 214, 253, 254, 255; İnanclar: 86; Atalar sözü: 38, 39.*

26. Mirəlizadə Mircavad Mirhüseyn oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Çəmbərək rayonunun Ağbulaq kəndindən deportasiya olunub. Ağstafa rayonunda məskunlaşıb. Təvəllüdü 1969-cu il. *Söylədiyi mətnlər: 129, 130, 131, 132, 133, 134, 135, 136, 137, 138, 139, 166, 167, 168, 173, 174; İnanclar: 12, 29, 30, 70, 71, 94, 95, 96.*

27. Muradov Nuru Murad oğlu, Ağstafa rayonu Xılxına kəndi, təvəllüdü 1965-ci il. Atası 1918-ci ildə Qərbi Azərbaycanın Zəngibasar rayonundan deportasiya olunub. *Söylədiyi mətnlər: 31, 256; İnanclar: 10, 81.*

28. Mustafayev Ağabəy Yusif oğlu, Qərbi Azərbaycanın Vedi rayonunun Avşar kəndindən deportasiya olunub, Şəmkir rayonu Yeni Yol kəndində məskunlaşıb. Təvəllüdü 1948-ci il. *Söylədiyi mətn. İnanclar: 93.*

29. Mustafayev Mayəddin Əmrah oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Barana rayonunun Yuxarı Körpülü kəndindən deportasiya olunub. Ağstafa rayonu Pirli kəndində məskunlaşıb. Təvəllüdü 1952-ci il. *Söylədiyi mətnlər: 30, 60.*

30. Nağıyev Bəşir Musa oğlu, Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deporatasiya olunub, Şəmkir rayonu Yeni Göyçə kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il. *Söylədiyi mətn: 185.*

31. Nağıyev Hidayət Talıb oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Göysu kəndindən deportasya olunub, Şəmkir rayonu Varlı həyat kəndində məskunlaşıb. Təvəllüdü 1946-cı il. *Söylədiyi mətnlər: 121, 122, 141.*

32. Nağıyev Nəcəf Məhəmmədəli oğlu, Şəmkir rayonu Əliyaqublu kəndi, təvəllüdü 1938-ci il. Atası 1918-ci ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Güllücə kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 43, 143, 144, 145, 146, 147, 148, 153, 154, 213, 217, 227; İnanclar: 45, 76, 91.*

33. Nəbiyeva Pəri Arıx qızı, Qərbi Azərbaycanın Basarkeçər rayonunun Zağalı kəndindən gəlin gəlib. Ağstafa rayonu Xınxına kəndində məskunlaşıb. Təvəllüdü 1956-cı il. *Söylədiyi mətnlər. İnanclar: 42, 72, 82.*

34. Nəcəfov Nəcəf Rəhim oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Göysu kəndindən deportasiya olunub. Şəmkir rayonu Günəşli kəndində məskunlaşıb. Təvəllüdü 1957-ci il. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsini bitirib. *Söylədiyi mətnlər: 34, 41, 46, 123, 124, 125, 126, 127, 128, 172, 176, 177, 178, 182, 183, 207, 226, 246; İnanclar: 20, 21, 22, 23, 24, 25, 44, 90. Türkəçarə: 11, 12.*

35. Nəsibova Aybəniz Alpaşa qızı, Qərbi Azərbaycanın Çəmbərək rayonunun Əmirxeyir kəndində anadan olub, Ağstafa rayonu Qarahəsənli kəndinə gəlin gəlib. Təvəllüdü 1958-ci il, orta təhsilli. *Söylədiyi mətnlər: 18; İnanclar: 11.*

36. Qarayeva Temza Qorçu qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Karvansaray rayonunun Salah kəndindən deportasiya olunub, Ağstafa rayonu Qarahəsənli kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il. *Söylədiyi mətn: 20.*

37. Qasımov Mübariz Tahir oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub, Şəmkir rayonu Nərimanlı kəndində məskunlaşıb. Təvəllüdü 1965-ci il, orta ixtisas təhsilli. *Söylədiyi mətnlər: 228; İnanclar: 46, 47, 48.*

38. Rəfiyev Əsgər Bayram oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Pəmbək kəndindən deportasiya olunub. Şəmkir rayonu Qaracəmirli kəndində məskunlaşıb. Təvəllüdü 1958-ci il. *Söylədiyi mətnlər: 163, 164, 165, 222, 224.*

39. Rəhimov Müslüm Abbas oğlu, 1948-ci ildə Qərbi Azərbaycanın Ellər rayonuun Məngüz kəndindən deportasiya olunub. Şəmkir rayonu Təzəkənd kəndində məskunlaşıb. Təvəllüdü 1938-ci il. *Söylədiyi mətn: 189.*

40. Rzayev Binyam Elləz oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub. Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1951-ci il, orta təhsilli, şofer işləyib. *Söylədiyi mətnlər: 89, 90, 91, 92, 93, 187, 193, 234; İnanclar: 108, 109.*

41. Sadiqov Rüfət Qurban oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən deportasiya olunub. Şəmkir rayonunu Atabəy kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il, orta təhsilli, sürücü. *Söylədiyi mətnlər: 184, 241; İnanclar: 13; Türkəçarə: 1.*

42. Səfərov Əli Camal oğlu, 1948-ci ildə Qərbi Azərbaycanın Qaranlıq rayonunun Karvansaray kəndindən deportasiya olunub, Şəmkir rayonu Təzəkənd kəndində məskunlaşıb. Təvəllüdü 1946-cı il. *Söylədiyi mətnlər: 61, 210, 218.*

43. Səfərova Sadəgül Ələz qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Şişqaya kəndidən deportasiya olunub, Şəmkir rayonu Dağ Cəyir kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il, orta təhsilli. *Söylədiyi mətnlər: 9, 35, 160; İnanclar: 5, 6, 7, 17, 33, 34, 35.*

44. Şəmilov Salman Qərib oğlu, Qərbi Azərbaycanın Loru mahalının İlməzli kəndi, Bakı şəhərində məskunlaşıb, təvəllüdü 1952-ci il. Salman Qazi adıyla yazıb yaradır. Qızıl qələm mükafatı laureatıdır. *Söylədiyi mətnlər: 8, 24, 33, 63, 64, 65, 67, 68, 69, 70, 71, 73, 74, 75, 171, 248; İnanclar: 28, 32, 41, 73, 74. Atalar sözü: 7.*

45. Vəliyev Hüseyn Məhərrəm oğlu, Şəmkir rayonu Çinarlı qəsəbəsi, təvəllüdü 1950-ci il, ali təhsilli zootexnik. Atası 1948-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Körpükənd kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 251, 252.*

46. Vəliyev İlyas Nurqələm oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub. Şəmkir rayonun Yuxarı Çaykənd kəndində məskunlaşıb. Təvəllüdü 1959-ci il. *Söylədiyi mətnlər: 85, 86, 186; İnanclar: 3, 18.*

47. Vəliyev Vəli Məhərrəm oğlu, Şəmkir rayonu Çinarlı qəsəbəsi, təvəllüdü 1955-ci il, ali təhsilli, zootexnik. Atası 1948-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Körpükənd kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 7, 45, 52, 104, 105, 106, 107, 108, 109, 110, 111, 112, 113, 114, 151, 157, 161, 169, 212, 225.*

48. Vəliyeva Gülnaz İnqilab qızı, Qərbi Azərbaycanın Vedi rayonu Xalisa kəndindən deportasiya olunub, Ağstafa

rayonu Qarahəsənli kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il, orta təhsilli. *Söylədiyi mətnlər: 13, 204; İnanclar: 60.*

49. Xancığazov Avtandil Süleyman oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Vorontsovka rayonunun Mixaylovka kəndindən (Əvvəlki adı Loru düzü, İmir kəndi) deportasiya olunub. Göygöl rayonu Şəhriyar kəndində məskunlaşıb. Təvəllüdü 1940-cı il, təhsili orta ixtisas. *Söylədiyi mətnlər: 23, 32, 66, 72, 250. İnanclar: 27, 40, 64, 65, 83, 84.*

50. Xanəliyev Məhəmməd Dünyamalı oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Karvansaray rayonunun Ağkilsə kəndindən deportasiya olunub. Ağstafa rayonu Poylu kəndində məskunlaşıb. Təvəllüdü 1964-cü il. *Söylədiyi mətnlər: 25, 47, 53, 54, 57, 192, 195, 197, 203, 221; İnanclar: 31, 43, 77, 78, 97, 98; Türkəçarə: 9, 10; Atalar sözü: 12, 13.*

51. Xələfov Məhərrəm Yolçu oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Pəmbək kəndindən deportasiya olunub. Şəmkir rayonu Ələsgərli kəndində məskunlaşıb. Təvəllüdü 1959-cu il, ali təhsilli. *Söylədiyi mətnlər: 5, 11, 209, 215, 216; Atalar sözü: 6.*

52. Zamanov Ələddin Musa oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Karvansaray rayonunun Alaçıqqaya kəndindən deportasiya olunub, Ağstafa rayonu Poylu kəndində məskunlaşıb. Təvəllüdü 1956-cı il. *Söylədiyi mətnlər: 58, 191, 233; İnanclar: 79, 89.*

53. Zeynalov Rəfayil Xudayar oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Sarıyaqub kəndindən deportasiya olunub, Şəmkir rayonu Çənlibel kəndində məskunlaşıb. Təvəllüdü 1957-ci il. *Söylədiyi mətnlər: 81, 82, 83.*




**Göysu kənd sakinləri ilə görüş,**
**Şəmkir rayonu Yeni Göyçə kəndi**




**Nadir Bayramov (solda), Rəfayil Zeynalov, Şəmkir rayonu Çənlibel kəndi**




**Nəcəf Nağıyev və Səyyarə Məmmədova,**
**Şəmkir rayonu Əliyaqublu kəndi**




**Hüseyn Vəliyev (solda) və Vəli Vəliyev (sağda), Şəmkir rayonu Çinarlı qəsəbəsi**




**Əsgər Rəfiyev, Şəmkir rayonu Qaracəmirli kəndi**




**Rahib Əsgərov, Şəmkir rayonu Nərimanlı kəndi**




**İmran Əliyev (sağda), Şəmkir rayonu Günəşli kəndi**




**Sadəgül Səfərova, Şəmkir rayonu Dağ Cəyir kəndi**




**Məmmədova Lalaxanım (solda) və Əhmədova Sürəyya, Şəmkir rayonu Kür qəsəbəsi**




**Nəcəf Nəcəfov, Şəmkir rayonu Günəşli kəndi**




**Rəna Kazımova, Şəmkir rayonu Qaracəmirli kəndi**




**Mayəddin Mustafayev (sağda), Ağstafa rayonu Pirli kəndi**




**Tahirə Əliyeva (solda) və Aşa İsmayılova,**
**Ağstafa rayonu Pirli kəndi**




**Temza Qarayeva (ortada), Ağstafa rayonu Qarahəsənli kəndi**




**Aybəniz Nəsibova, Ağstafa rayonu Qarahəsənli kəndi**



**Göyərçin Alıyeva, Ağstafa rayonu Kolayır kəndi**




**Bayburt və Çaykənd sakinləri ilə görüş,**
**Ağstafa rayonu Vurğun qəsəbəsi**




**Məhəmməd Xanəliyev, Ağstafa rayonu Poylu kəndi**



**Rafiq Kazımov, Ağstafa rayonu Həsənsu kəndi**




**Yadigar Cıdırov, Ağstafa rayonu Böyük Kəsik kəndi**




**Sayad Məmmədov, Ağstafa rayonu Böyük Kəsik kəndi**




**Mircavad Mirəlizadə, Ağstafa rayonu**




**Salman Şəmilov, Bakı şəhəri**



**Tatul qalası**




**Zimmi ocağına məxsus Seyid Məhərrəm Vəliyevin qəbri**




**Məhərrəm Vəliyevin məzarı üstündə tikilmiş kümbəz**




**Seyid Hüseyn Mirəli oğlunun məzarı, Ağstafa rayonu**




**Gölkənd kəndində toxunmuş xalça**




**Mirəli ağanın ocağında saxlanılan Ələm**




**Nehrə**



**Səhəng**

## MÜNDƏRİCAT

**ÖN SÖZ** ..... 3

**I. ETNOQRAFİK MƏTNLƏR**

Yaylaq həyatı ..... 12
Xıdır Nəbi ..... 32
Axır çərşənbə və Novruz adətləri ..... 41
Toy adətləri ..... 59
Yas və məhərrəmlik adətləri ..... 72
Danatma ..... 97
Bişmə qurban ..... 98
Qoyun peyğəmbər süfrəsidir ..... 111

**II. ƏFSANƏLƏR VƏ RƏVAYƏTLƏR**

Hal və cin haqqında ..... 121
Çörəyin ərşə çəkilməsi ..... 123
Haramlıq necə yarandı? ..... 124
Ardıc, göyün getməsin ..... 124
Ülkər ulduzu ..... 125
Hədik aşı ..... 127
Gül dərviş ..... 127
Pir təpəsi ..... 128
Murğuz piri ..... 130
Yeddiqardaş çinar ..... 132
Əbduləsər ocağı ..... 133
İmam təpəsi ..... 133
Xızır Əlləz ..... 135
Həmzə Pir ..... 137
Hacı Mahmud Əfəndi ..... 140

Hacı Xəlil əfəndi ..... 143
Miskin Abdal ..... 147
Seyid Bayram ..... 165
Zimmi seyidləri ..... 173
Seyid Əli (Qızılvəng) ..... 191
Seyid Mirəli ağa (Ağbulaq) ..... 203
Züləş ocağı ..... 219
Hacı Nağı ..... 221
Seyid Nağı (Güllücə) ..... 224
Məşədi Mirmahmud ..... 229
Xəlfə Şaabaz ..... 230
Dağ Yunus ..... 231
Süleyman peyğəmbər ..... 232
Musa peyğəmbər ..... 233
Məhəmməd peyğəmbər ..... 235
Həzrət Əli ..... 236
Hatəm ..... 244
Lələ ..... 244
Loğman ..... 246
Teymurləng ..... 247
Şah Abbas ..... 248
Səməndağa ..... 250
Loğman Nağı ..... 253
Telli Əsəd ..... 260
Qaçaq Aslan ..... 261
Aşıq Məmmədhüseyn ..... 262
Usta oğrular ..... 263
Qolu güclü adamlar ..... 266
Qan davaları ..... 269
Tatul qalası ..... 281

Qaçaq qayası ..... 282
Abbasqulu bəy vurulan ..... 282
Gölkənd ..... 283
Göysu ..... 288
Pəmbək ..... 292
Karvansaray ..... 297
Vergili insanlar ..... 298
Şərabın gücü ..... 301
Əsli hu ..... 302
Şahın çobanı ..... 303
Fərasətli dəllək ..... 304

**III. XATİRƏLƏR** ..... 305

**IV. NAĞILLAR**
Comərd Qəssab ..... 319
Həzrət Əli və Qəmbər ..... 324
Həzrət Əlinin tilsim davası ..... 327
Allahdan o dünyasını istəyən kasıb ..... 331
Yazıya pozu yoxdur ..... 333
Loğman ..... 337
Oğul dağı, quyruq yarası ..... 339

**V. LƏTİFƏLƏR**
Bəhram Qamanov ..... 340
Cumalı Bayramov ..... 343
Niftalı kişi ..... 344
Göyçə bamәzələri ..... 346
Mənim gözümə görünmə ..... 348
Sənin ölünə də bəsdir, mənimkinə də ..... 348

Zazolunun Naxçıvan səfəri ..... 348
Ölü basdırmaq ondan yaxşıdır ..... 349
Mollanın yanında deyərdin ..... 349
Nə vaxtdan durubsan? ..... 350

**VI. YUXUGÖRMƏLƏR** ..... 351
**VII. İNANCLAR**
Yağışla bağlı inanclar ..... 355
Xeyir-bərəkətlə bağlı inanclar ..... 357
Qurbanla bağlı inanclar ..... 361
Uşaqla bağlı inanclar ..... 364
Bayramla bağlı inanclar ..... 370
Toy və yasla bağlı inanclar ..... 373
Təqvim inancları ..... 378
Ovçu inancları ..... 381
Müxtəlif mövzulu inanclar ..... 386
**VIII. TÜRKƏÇARƏLƏR** ..... 394
**IX. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** ..... 399
**X. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ..... 403

**Qərbi Azərbaycan folkloru, VII cild**
Bakı: “Turan Advertising” MMC, 2026

Nəşriyyatın direktoru:
**ELÇİN RAMAZANOV**

Nəşriyyat redaktoru:
**Zəfər Fərhadov**

Kompüterdə yığan:
**Səfa Əliyeva**
**Ağanənə Məmmədova**
**Aliyə Qasımova**

Korrektor:
**Nərgiz Hüseynzadə**

Çapa imzalanmış 30.10.2026
Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Tirajı: 150

Kitab **“**Turan Advertising” MMC-də
ofset üsulu ilə çap olunmuşdur.
Email: info@turanreklam.az
Tel: 055 288 82 50